MADYAN YUMURTASI

BRİTANİYA ADALARININ
XALQ NAĞILLARI

İngilis dilindən tərcümə edənlər: ***Şahin Xəlilov, Zakir Bayramov***

BAKI - 2005

ISBN 5-8020-0273-5

English Fairy Gales. London, 1963.
Folk-tales of the British Isles. Moscow
Raduga Rublishers 1987.
©M. «Raduqa», 1987
©Gənclik, 1989

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz

İngiltərənin Mərkəzi qraflıqları nağılları

Çıqqıldayan qurbağa
Yeyəndə! ortaq qardaş
Qottemli müdriklər
Tək ağaclıq təpədə məskən salmış mələklər
Ruhlar və duzqabı
Xoşbəxtliyini axtaran Cək
Siçan və pişik
Ağaların ağası
Adəmin oğlu
Üç donuz balasının nağılı
Sağsağanın yuvası
Kəkilli fərə
Svoffomlu xırdavatçı
Səfehin səs-küyü
Hilton şeytanı
Cək və lobya tağı
Üç ayı haqqında nağıl
Qarı və donuz balası
Bu, mən özüməm
Pişiklərin şahı
Üç dilək

Ağca siçan və Qaraca siçan
Tənbəl Cək.
Mister Miakka
Herafterdis
Uzunqulaq, stol və çubuq
Balıq və üzük
Mister Vineqar
Kənterberi şahzadəsi
Mister Foks
Qəribə qonaq
Adamcığaz
Cək Haviaford
Tamleyn
Conni Qlouk
Keyt Krəkənats
Kral Con ve Kenterberi keşişi
Göydəki ulduzlar.
Peyğəmbər Qobborn
Hikmətli buzov
Nik Not Notinq
Tom Hikatrift

Şotlandiya nağılları

Fern-den qulyabanısı
Suiti cildinə girmiş pəri
Qotl
Horroveyli qara kəl
Mehriban dayə haqq istəməz
Pəddu

Dünyanın qurtarcağındakı quyu
Yaxşılığı unutmayan suiti

Qərb bölgəsi nağılları

Xeyirxah nəhəng
Mələklərin laləsi
Lutey və su pərisi
Zennorlu Cerri
Üç səfeh
Bataqlıq işığı

Cənub-Şərqi İngiltərə nağılları

Layminster əjdahası
Aytep qulyabanıları
Madyan yumurtası

Uels nağılları

Llin Fan Faç gölündə yaşayan qız
Yumurta qabığında bişən şorba
Pantavias əfsanəsi
Taffi An Sion və sehrli dairə
Llin Bala gölünün dibinə gömülmüş şəhər

Şərqi İngiltərə nağılları

Bataqlıq mələkləri
Tom Tit Tot.
Qamış papaq

Heç nədən qorxmayan Meri

Lankşir nağılları

Sehrbazın dəfni
Nənsi qarı və gümüş töhfə
Başsız qadın
Lankaşir cadugərləri

Yorkşir və Linkolnşir nağılları

Hellen Pot qulyabanısı
Bir şüşə ağıl
Qrassinqton Cini
Şinton ana
Cırtdan
Oyuq

Şimal-şərqi İngiltərə nağılları

İnək cildinə girmiş qulyabanı
Sehrli məlhəm

İrlandiya nağılları

Nəhəng Dreqlin Hoqni
Qaraqabaq Patrik və qarğalar hökmdarı Kromaxi
Kral, keşiş və qaz haqqında nağıl
Tomac Konnoli və sehrbaz
Meri Hoqan və ruh
Teyq O'Keyn və cəsəd
Ağ alabalıq

Nökər və fermer

Qozbel Luzmor

Tom Fitspatrik və cadugər

Men adası nağılları

Nikessen hovuzu

Billi Beq, Tom Beq və sehrbazlar

Qaraçı nağılları

Mamırpalto

Qoduq

ÖN SÖZ

Nağıllar, əfsanələr və şifahi xalq ədəbiyyatının digər gözəl, həmişəyaşar inciləri sinifli cəmiyyətdən əvvəllər yaranmışdır. Xalq hər əsrdə öz «yeni tarixi»ni yazmış, yeni nəslə ərməğan etmişdir. Yaradıcılıq keçmişdan bu günəcən uzun bir yol keçərək nəsildən-nəslə, əsrdən-əsrə ötürülmüşdür.

Bəs dünyanın ilk nağılı hansıdır? Onun müəllifi kimdir?

Arxeoloqlar dünyada birinci adamın sümüyünü tapmadığı kimi, ədəbiyyatçılar da ilk nağılı hələ «kəşf etməmişlər».

İtaliya alimi C.Viko əsatir və nağılın ilk mükəmməl fəlsəfəsini yaratmışdır. Müəllif «Yeni elm» kitabında yazır: «… Uşaqlar çox vaxt cansız əşyaları əlinə alır, onları az qala adam kimi danışdırır, əylənirlər. İbtidai insanlar da uşaqlar kimi təsəvvürlərinə uyğun söz ciləsını yaratmaqla heyrətamiz bir iş görmüşlər».

Xalqın arzu-istəyini, sabaha inamını, nikbin ruhunu tərənnüm edən, ürəklərin «yanğı»sına, işığına çevrilən nağıllar yarandığı gündən insanın ömür-

gün yoldaşı, bələdçisi olmuşdur. Heyvanlar aləmindən bəhs edən ilk nağıllar totemizmlə əlaqədar yaranmışdır. Div, əjdəha və digər əsatir surətli sehrli nağıllar əsrlər keçdikcə mifoloji xarakterini itirmiş, özündə daha çox real, sosial cəhətləri əks etdirməyə başlamışdır.

Nağıllar xalq müdrikliyinin təntənəsindən söhbət açır. Xeyirin şər, işığın zülmət, haqqın nahaq üzərində qələbəsinə inam onların əsas fəlsəfi qayəsini təşkil edir.

Bu gün dünya xalqlarının nağıllarını birləşdirən ümumi cəhətlər çoxdur. Onların çoxunda məzmun, süjet oxşarlığına rast gəlirik. Bu isə, hər şeydən əvvəl, bəşər övladının bir-birinə oxşar həyat tərzindən, yaxın taleyindən, sülh, əmin-amənlıq arzusundan xəbər verir.

Yarandığı gündən sərhəd nə olduğunu bilməyən, eldən-elə, dildən-dilə düşdükcə özünün yeni əkiz taylarını yaradan nağıllar xalqların yaxın-uzaq keçmişinin bu günə çatan əks-sədasıdır.

Bununla belə hər xalqın nağıllarının özünəməxsus cəhətləri var. Məsələn, almən, isveç nağıllarında sehr, ovsun ön planda verilir. Fransız nağılları isə daha çox hazırcavablıq, yünəül istehza hissilə «yoğrulub». Gözəllik, harmoniyaya meyl İtaliya nağıllarında daha güclüdür. Bəs ingilis nağılları necə? Bu nağılların özəyini ümumalman mənbələrindəki sərtliyi yumşaldan zərif yumor hissi təşkil edir.

Möhtərəm oxucu! Orijinaldan tərcümə olunmuş ingilis xalq nağılları sizin ixtiyarınızdadır. Xalq müdrikliyini, onun keçmişinin pozulmaz səhifələrini özündə cəmləşdirən bu nağıllar Britaniya adalarında yaranmışdır. Rəsmi adı Böyuk Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı olan ölkə dörd viləyətdən – İngiltərə Uels (və ya Vallis), Şotlandiya, Şimali İrlandiyadan(və ya Olsterdən) ibarətdir və hər bir viləyətin özünəməxsus tarixi, mədəni ənənəsi və irsi vardır. Topluda bu viləyətlərin, Böyuk Britaniyanın qraflıqlar və qraflıq hüquqlu şəhərlərinin (topluda 12 sayda ayrı-ayrı viləyət və qraflıqların nağılı verilmişdir) nağıllarını vermişik. Hər viləyətin, hər qraflığın nağılı bir-birindən «bənzərsizliyi» ilə seçilir. Məsələn, Cənub-Şərqi və Orta İnəiltərədə məişət,

komik mündəricəli nağıllar üstünlük təşkil edir. Keltlərə məxsus Uelsdə isə pərilər, cinlər və mələikələr haqda sehrli rəvayət, nağıllar daha çox yayılmışdır. Şərqi İnəiltərədə vahiməli, qarabasmalı nağıllara böyuk yer verilir. Şotlandiyada isə arxaik nağıllar qorunub saxlanılır, xalq onları daha çox sevir. Bu nağıllarda heyvanların sehrli metamorfozası (şəklini dəyişməsi) incə duyumla nəql edilir. İrland nağıllarında xristianlığın təsiri duyulur, süjet xəttinin inkişafında məkrə, hiyləyə, kinə daha çox rast gəlmək olur.

İngilis xalqı öz keçmişinə, mədəni irsinə həmişə böyuk rəğbət, məhəbbət bəsləmişdir. Keçmişin sabahın əlindən tutan ən etibarlı dayaq olduğu bu aforizmdə çox gözəl ifadə edilmişdir: «Keçmişinə güllə atma, sabah sənə topdan atəş açarlar».

«Keçmişin pərdəsi» altında xalqın mənəvi siması, varlığı dayanmışdır. Onu bu günə gətirən isə xalqın müdrik söz incisi-şifahi xalq ədəbiyyatı olmuşdur.

Gəlin, sizinlə birlikdə bu xalqın keçmiş ədəbi tarixinə qısa nəzər salaq.

Böyük Britaniya ədəbiyyatının ən qədim nümunələri anqlosaksların qitələrdən gətirdikləri əsatir, nağıl, rəvayət, əfsanələr (V-VII əsrlər) xalq arasında daha çox yayılmışdır. VI-VII əsrlərdə xristianlığı[5] qəbul edəndən sonra xalq özünün qədim epik poemalarını, dastanlarını yaratmışdır. İnəilis poöziyasının məhək daşı sayılan «Beavulf» X əsrdə yazıya alınmışdır. XI-XIII əsrlərdə kilsə əsərləri latın, cənəavərlik şerləri fransız, əfsanə və nağıllar[5] isə anqlosaks[5] dillərində yazıya alınaraq öz ömürünü yaşamışdır. İnəilis ədəbiyyatında realizmin banisi, «inəilis poöziyasının və ədəbi dilinin atası» Cefri Çoser özünün məşhur «Kənterberi əfsanələri»ni 1347-48-ci illərdə doğma dilində qələmə almışdır. Bu, ingilis dilində yazılmış ilk əsərdir.

XIV əsrin ortalarında ingilis dili bir dil kimi formalaşmış, xalq nağılları, əfsanələri xalqın öz doğma dilində «dil açmışdır». Sonralar bu nağılların çoxu xalq musiqisi ilə qoşa addımlamışdır. İndinin özündə Şotlandiyada, İrlandiyada «bəqpayp»la (tuluq zurnası) müşayiət olunan nağıllar özünün ən gözəl deyimini yaşayır. XIV-XV əsrlərdə Robin Hud (yarıtarixi-yarıəfsanəvi

Robin Hud XII əsrin ikinci yarısında yaşamışdır (balladaları xalq qəhrəmənlığını və müdrikliyini dillər əzbəri etmişdir. Elə bu əsrlərdən etibarən ingilis rəvayət, ballada və əfsanələri, xalq nağılları ilə qaynayıb qarışmıtdır. İnəiltərənin tanınmış söz ustaları xalq yaradıcılığını özlərinin sənət məktəbinə çevirmiş və bunun əsasında ən böyük əsərlərini yaratmağa başlamışlar.

Şifahi xalq ədəbiyyatı orta əsrlərdə yazıb-yaratmış Tomas Malorinin, İntibah dövründə Filip Sidneyin, Edmund Spenserin yaradıcılığına dərin təsir göstərmişdir. «İngilis poəziyasının allahı» Vilyam Şekspir «Qış gecəsində yuxu» (1595), «Qış nağılı» (1610), «Fırtına» (1612) pyeslərini xalq nağıllarının, fantastikasının təsiri ilə yazmışdır. Uzun inkişaf yolu keçən nağıllar, yazıya alındıqdan sonra səhnə ömrünü yaşamışdır. Peşəkar ingilis teatrının səhnəsində kral Oberon, hiyləgər Robin Pak... kimi nağıl qəhrəmənları özünün yeni pərəstişkarlarını tapmışdır. Xalq qəhrəmənı Robin Hud XVI-XIX əsrlərdə bir sıra söz ustalarının, o cümlədən Ben Conson, Con Drayden, Valter Skottun əsərlərində ədəbi ömrünün davamını yaşamış, ürəklərdəki qəhrəmənlıq eşqini alovlandırmışdır.

XVII əsrin sonu və XIX əsrin əvvəllərində xalq yaradıcılığına maraq daha böyük vüsət almışdır. Əgər Alməniyada Karl Muzues, Vilhelm Hauf, Yakob və Vilhelm Qrimm qardaşları, Danimarkada Hans Xristian Andersən xalq nağıllarının gözəl ciləsını yaratmışdısa, İnəiltərədə C.Q.Bayron, S.T.Kolric, R.Sauti, T.Mur əsərlərində nağıl koloritini, xalq ruhunu qoruyub saxlamışdır. E.Lir, L.Kəroll, O.Uayld, R.Kiplinq isə uşaqları da, böyükləri də heyrətləndirən ən gözəl nağılların müəllifi kimi dünya şöhrəti qazanmışlar.

İyirminci yüzillikdə isə nağılçı-yazıçılardan S.Moem, M.Bərri, P.Travers, E.Qauc, U.Delamar... və onlarca başqaları keçmiş nağılların gözəl ənənələrini yaşada-yaşada müasir nağılların «həqiqət»ini yaratmışlar.

İndinin özündə də qədim nağılların toplanıb nəşr edilməsində böyük işlər görülür. XIX əsrin əvvəllərindən bu günədək təxminən iki yüzdən çox mütəxəssis folklorşunasların səyi nəticəsində Böyük Britaniya nağılları həyata vəsiqə almışdır.

İngilis folklorşünası Cozef Ceykobsun «İngilis xalq nağılları»[1] klassik nağıl toplusu və tanınmış ingilis yazıçısı, folklorşünası və mütərcimi Ceyms Riordanın tərtib etdiyi «Britaniya adalarının xalq nağılları»[2] kitabı bu baxımdan diqqətəlayiqdir. Tərtibçinin topluda qarşısına qoyduğu məqsəd aydındır: ingilis nağıl, əfsanələrinin «ətrini, rayihəsi»ni qədirbilən oxucuya çatdırsın. Nağılların dilimizə tərcüməsində də bu qayə bizim üçün ikiqat doğma olmuşdur.

Bu nağıllar bizə həm də ona görə doğma görünür ki, bura da «sərgərdan süjetlər»in əksinə rast gəlirik. Azərbaycan nağıllarına bənzər nağıllar («Qoğal», «Dünyanın qurtaracağındakı quyu», «Yeyəndə ortaq qardaş» və s.) bir çox cəhətləri ilə diqqətimizi cəlb etdi.

Sovet ədəbiyyatşünası N.Yelina nağılların «əkiz tayları» haqda yazır: «... eramızın başlanğıcında xeyli xalq Asiyadan Avropaya köçmüş, Avropanın özündə uzun müddət köçəri həyat keçirmiş, yerli camaata qarışmış, özgə torpaqlarında eşitdiyi nağılları onlara ötürmüşdür».

Səyyah, tacirlərin dünyanın yaxın-uzaq ölkələrinə səyahəti zamanı nağıllar, əfsanələr bu ölkədəki xalqların mənəvi sərvətinə çevrilmişdir. Yaxud da əksinə, onlar eşitdikləri ən yaxşı söz incisini öz ölkələrinə «qonaq» apar-mışlar. Bu nağılların süjetləri bir-birinə o qədər qaynayıb qarışmışdır ki, onları hansı xalqın yaratdığını bugün söyləmək çətindir.

Bu nağıllarda xeyirlə şərin, varlıyla kasıbın... mübarizəsi incə lirizmi, dramatizmi ilə diqqəti cəlb edir. Xeyir, ədalət qələbə qazanır, həqiqətin təntənəsi nağılların uğurlu finalına çevrilir, xeyrin şəninə gözəl sözlər deyilir, şər, qara qüvvələr ittiham edilir, cəzalandırılır. Bəzi ingilis nağıllarında, xüsusilə son dövrdə yaranmış nağıllarda bu həqiqət ictimai məna kəsb edərək bərabərlik ideyasını meydana gətirir: kasıb şahzadə ilə evlənir, kasıb var-dövlət tapır və sair və ilərxır.

İngilis nağıl, əfsanələrində, ruh, pəri, cin-şeytan, qulyabanıların... təsvirinə xüsusi yer verilir. Pərilər həyatdan köçmüş adamların ruhlarının ölmədiyinə xalqın böyük etiqadının təzahürüdür. Bir çox ədəbiyyatçılar Vilyam

Şekspirin «ruhları, pəriləri kəşf etdiyini» söyləmişlər.

«Balaca adamlar» kimi təsvir edilən pərilər-əsatir məxluqlar istər şifahi, istərsə də yazılı ədəbiyyatın unudulmaz mövzusu olmuşdur. İngilis folklorşünası Henri Bett «İngilis əsatirlari və ənənələri» kitabında yazır: «Bu torpaqda... balaca, qarayanız iberiyalılarla[1] ucaboy, sarışın keltlər[2] təmasda olmuşlar. Cırtdan boylu adamlarla nəhənələrin hər hansı ünsiyyəti... əfsanəvi inkişafa təsir göstərmişdir».

Ən maraqlısı budur ki, ruh, pəri, cin-şeytan, qulyabanılardan... bəhs edən nağıl, əfsanələr bir sıra məişət ənənələrinin yaranmasına səbəb olmuşdur. Məsələn, indinin özündə bəzi mövhumatçı ailə üzvləri dünyaya yenicə gəlmiş körpənin yastığı altına ya quran, ya da dəmir parçası qoymaqla bir həqiqətə inanırlar: ruhlar, cin-şeytan, pərilər... dəmirdən çox qorxurlar. Guya qədim zamənlarda tayfalar arasında gedən müharibələrdə nəhənə adamlar Neolit dövrünün cırtdan adamlarını dəmirlə məğlub etmişlər. Pərilər isə cırtdan adamların ulu əcdadı hesab edilir.

Maraqlı «həqiqətlər»dən biri də «ilk qədəm»lə bağlıdır. Hazırda İnəiltərənin şimalında, xüsusiləa şimal-şərqində ona böyük inam yaranmışdır. Deyirlər ki, yeni ildə, dekabrın son gecəsində evin astanasına sarışın kişi, ya qadın qədəm bassa, demək il çox ağır keçəcəkdir. Həmin gecənin qonağı qarayanız adam olmalıdır. Özüylə hədiyyə gətirməlidir - bir az çörək, bir qədər kömür, ya da ki, pul. Bu ənənə qədim Romada daha çox yayılmışdır. Əslində, yeni il gecəsi ev yiyəsi gərək evindən kənara heç bir pay-zad verməsin - nə od, nə bir tikə çörək... hər şey aydındır. Əgər il evdən verilən payın qıtlığı ilə başlayırsa, demək bütün il boyu belə davam edəcək. Evə gətirilən payla ilin bolluğu, bərəkəti artır. «İlk qədəm» bərəkət gətirir, ailə il boyu nə yeməkdən, nə kömürdən, nə də puldan korluq çəkir.

Şifahi ədəbiyyat xəzinəsinin incilərində xalq müdrikliyinin neçə-neçə belə dərin qatları, «inam»ları vardır...

«Nağıllar yalan olmur» deyən ingilislər onun həqiqət olduğuna inanmışlar.

Londonun mərkəzində - Kensinqton Qardens parkında, bir də İrland dənizi sahillərində - Landudio adlı Uels şəhərciyində nağıl qəhrəmənları «heykəlləşmişlər». Onlar Ceyms Bərrinin «Piter Pən», Lüis Kərollun «Alisa möcüzələr ölkəsində» nağıllarının qəhrəmənlarıdır. O qəhrəmənlar ki, tunc heykəllərə dönüb, xalqın nağıl dünyasının ovsun və hikmətini bu günə çatdırıblar.

Biz isə bu gün ingilis xalq nağıllarının klassik toplusunu oxucularımızın ixtiyarına veririk. Qoy onlar əsrdən-əsrə, nəsildən-nəslə, ürəkdən-ürəyə köçmüş keçmişin «qocaImayan» nağıl, əfsanə və rəvayətləri haqda bizə öz sözlərini deməkdən çəkinməsinlər.

Şahin XƏLİLOV,
Zakir BAYRAMOV

İNGİLTƏRƏNİN MƏRKƏZİ QRAFLIQLARI NAĞILLARI

ÇIQQILDAYAN QURBAĞA

O vaxtlar elə bir xoş dövran idi ki, gəl görəsən.

Vur çatlasın idi: donuzlar elə donuzdular. İtlər əhəng yeyirdi. Meymunlar tənbəki sümürürdü. Evlərin damını xəmirlə örtürdülər. Küçələrə pudinq döşəmişdilər. Qızardılmış donuz balaları bellərində çənəəl-bıçaq küçələrdə Vurnuxub «Gəlin, gəlin bizi yeyin!» deyə aləmə səs salırdılar. Səyyahlar üçün əsl kef çəkməli əyyam idi.

Bəli, Derlastona iş dalınca gəlmiş bir səyyah evə qayıtmaq üçün poçt karetasını gözləməli oldu. Vaxtı itirməyib şəhər kənarını gəzmək qərarına gəldi. Hadisə yayın axırlarında çox sakit, amma bürkülü bir axşam tərəfi baş vermişdi. Biçin başlanmış, arpa biçilib qurtarmışdı. Kəkliklər sarı küləş üstündə qalan tək-tük buğdaları dənləyirdilər. Artıq torağayların, qaratoyuqların cəh-cəhi eşidilməz olmuşdu. Təkcə qarağacların başında gizlənmiş ağacdələnlərin arabir cikkiltisi eşidilirdi.

Ömrünün çoxunu şəhərdə keçirmiş səyyahı çəmənlər ahənrüba kimi özünə cəlb etdi. Odur ki, çəpərdən aşıb çəmənlikdə var-gəl etməyə başladı. Burda qoca kəndlidən başqa heç kəsi görmədi. Onu salamladı:

- Deyəsən, bu yerlərə bolluca yağış yağıb hə!

- Məsələ burasındadır ki, - Qoca cavab verdi, - şənbə günü yağan yağış ətrafı sakitləşdirib.

Körpə doqquzdon kollarının ətrini ciyərlərinə çəkib otlar arasında giləmeyvə axtara-axtara səyyah yoluna davam etdi. Hərəkət etdikcə ağır paltarlarının içində özünü narahat hiss etdi. Gödəkçəsini çıxardıb qolunun üstünə atdı. Çəpərlərin dibi ilə gedə-gedə giləmeyvə yığmaq üçün arabir aşağı əyilirdi. Bu ara saatı gödəkçənin cibindən sürüşüb iki kəsəyin arasına düşdü. Yalnız bir saatdan sonra karetada əyləşib evə gedəndə saatı itirdiyini bildi. Saat elə düşdüyü yerdəcə qalmışdı. Yan-yörəsində otlar arasında məskən

salmış cırcıramalar, qarışqalar və parabüzənlər üçün tıqqıldayırdı.

Saata söz ola bilməzdi. Onun iri ağ sferblatı, zərif əqrəbləri, aydın və cinəiltili tıqqıltısı vardı. Axşam düşüb hava soyuyanda, quş səsləri kəsiləndə tıqqıltı daha aydın eşidilməyə başladı. Sanki saat canlı idi, tapılıb kəsəklər arasındakı məhbəsdən xilas edilməsini xahiş edirdi.

IIk ulduzlar səmada sayrışmağa başlayanda saatın ağappaq sferblatı bərq vururdu. Uzaqlardakı göbələklər, bir də yalnız gecələr açılan nadir çiçəklər kimi işıq saçırdı.

Bunlar öz yerində. Amma qaranlıq tamam qovuşmayınca o yere heç kəsin güzarı düşmədi. Derlaston kilsəsinin axşam zənələri aləmə car çəkdi. Qərb tərəfdə qaranlıq səmada açıq yaşıl rənəli zəif işıq zolağı göründü. Elə bu vaxtlar qurduqları tələni yoxlamaq üçün çəmənliyə iki nəfər adam gəldi. Çəmənliyə çatıb qorxa-qorxa ətrafı gözdən keçirtdi, onlar brakonyerler idi. Məlumdur ki, brakonyerlərin iş günü gecədən xeyli keçmiş başlayır. Onlar qulaqlarını şəkləyib hər yad səsə qulaq asırdılar. Odur ki, saatın düşdüyü yerə yaxınlaşan kimi ayaq saxlayıb ətrafı dinlədilər.

- Ey, Bill,- əvvəlinci brakonyer pıçıldadı,- burda nəsə bir iş var. Sakitcə dayan və qulaq as.

- Əşşi, cırcıramadır da,- Bill cavab verdi.

- Cırcıramadır? Oxşamır axı. Mən ömrümdə cırcıramənın fasiləsiz dızıldamasını eşitməmişəm. Bir qulaq as! Heç səsini kəsmir ey!

- Demək, onda cırcırama deyil. Bəlkə, hansısa bir quşdur?

- Əgər sən deyəndirsə, yəqin tilsimlənmiş quşdur, Tom dedi və həmin anda əsməyə başlayan meh tıqqıltı səsini onlara tərəf gətirdi. Tıqqıltı lap aydın eşidilirdi.

- Gəl onu axtaraq,- Bill dilləndi. Onlar ehtiyatla səs gələn yerə doğru irəliləyə-irəliləyə otların arasına baxmağa başladılar.

- Odur ey! Bax, gör bir necə parıldayır! Onun bir dənə iri gözü var, görürsən?

- Görməyinə görürəm, amma onun görkəmi heç xoşuma gəlmir.

- Heç mənim də. Bir bax, o, üstümüzə atılmağa hazırlaşır. Allaha and olsun, yamən xatakar şeyə oxşayır. Nə qədər ki, o, boğazımızdan yapışıb qanımızı sormağa başlamayıb, cəld ol aradan çıxaq, yoxca gec olar ha!

Dostunu dilə tutmağa ehtiyac yox idi. Onların hər ikisi dabanlarına tüpürüb götürüldülər. Kəsəklər arasına düşmüş tıqqıldayan müəmmalı varlıqdan uzaqlaşana qədər bir nəfəsə qaçdılar.

Kürklərinə birə salmış qəribə səslərdən onlar evdə söhbət açdılar. Otlar arasındakı müəmmalı varlıq haqqında xəbər səhərəcən Derlaston camaatının arasında yayldı. İrili-xırdalı bütün Derlaston əhli toplaşıb qəribə varlığa böyk maraqla tamaşa etdilvr. Amma nə bir kişi, nə də bir qadın onun nə olduğunu deyə bilmədi. Bu bir acı həqiqət idi ki, derlastonlulara indiyəcən saat gərək olmamışdı.

Nəhayət bu məsələni aydınlaşdırmaq üçün bütün ömrünü bu yerlərdə keçirmiş pirani qoca, müdrik ağsaqqala müraciət etməyi qərara aldılar. Nə başınızı ağrıdım, müdrik Atanın (şəhərdə onu belə çağırırdılar) yanına nümayəndələr göndərildi. Tözliklə məlum oldu ki, müdrik Ata ləngimədən məsələni həll etmək üçün hadisə yerinə gedəcək.

O, qocalar qocası idi. Üz-gözünü uzun illərin qırışları örtmüşdü. Sifətini bürüşmüş əyri-üyry qırışlar saxsı küpələr üstündə əmələ gələn çatlara oxşayırdı. Onun mavi, nəm gözləri vardı. Ağzı açıla qalmışdı, sanki çənəsini dartıb ağzını bağlamaq iqtidarında deyildi. Müdrik Atanın yeriməyə taqəti olmadığı üçün onu əl arabasına mindirib sürə-sürə çəmənliyə gətirdilər.

O, saat düşmüş yerə yaxınlaşan kimi saatı üzük qaşı kimi mühasirəyə almış adamlar aralanıb qocaya yol verdilər, yenidən halay vurub düzləndilər. Əl arabasını saxladılar, araya sakitlik çökdü.

- Məni bir başa o vücudun yanına aparın,- müdrik Ata dilləndi.

- Sən elə düz onun yanında dayanmısan,- adda-budda səslər eşidildi.

- Elə isə məni o vücudun başına fırladın,- qoca dedi. Onu arabada gəzdirən adam ciddi-cəhdlə qocanı saatın başına dolandırdı.

- Məni o vücudun ətrafında bir də fırladın,- təkidlə dillənən qoca sanki

arabada fırlanmaqdan ləzzət alırdı. Qocanı ikinci dəfə saatın dövrəsində dolandırdılar.

- Bir də fırladın,- qoca əlavə etdi.

Araba üçüncu dəfə saatın ətrafında dövrə vurub dayandı.

Arabanın qolları yerə qoyulan kimi camaat sakitləşib nəfəsini içinə çəkdi. Sonra güc-bəla ayağa duran qoca əllərini göyə qaldırıb tükürpədici səslə qışqırdı:

- Bu, çıqqıldayan qurbağadır! Bu, çıqqıldayan qurbağadır! Uşaqlar, daş toplayın, payalarla silahlanın. Tezliklə Derlastonda mərəkə qopub məhşər günü olacaq.

Bu nəhs xəbəri eşidən derlastonlular daş, paya yığmağı unutdu. Əvəzində o yerdən üz döndərib başları lovlu haray-həşirlə evlərinə götürüldülər. Müdrik atanın əyləşdiyi əl arabasını elə ağlasığmaz sürətlə sürüb aparırdılar ki! Qocaya elə gəldi ki, gələcəkdən verdiyi xəbər onun gözlədiyindən də töz həqiqətə çevrilməyə başlayıb. Derlastonun bütün sakinləri - kişilər, qadınlar, uşaqlar evlərinə doluşub qapı-pəncərələri cəftələyirdilərlər. Nə həmin gün, nə də səhəri gün şəhərin küçələrində, çəmənlikdə bir ins-cins gözə dəymədi. Bütün Derlaston camaatı qaxılıb evde oturmuşdu, Məhşər Gününun gəlişini gözləyirdi.

Məlumdur ki, Məhşər Günü gəlmədi. Derlaeton camaatı yorulmadan bibliya kitabını vərəqləyib allaha dua eden vaxt bircə hadisə baş verdi: səyyah şəhərin giriş qapılarının yaxınlarında poçt aparan karetadan düşüb çəmənliyə gəldi, itmiş saatını tapdı, taleyinin xoşbəxtliyinə şükür edib yoluna düzəldi.

Nağılımız qurtardı -
Nağılçımız neyləsin...
İşdir xoşun gəlmirsə,
Yaxşısını söylə sən.

YEYƏNDƏ ORTAQ QARDAŞ

Qədim zamənlarda Cək O'Kent adlı bir kəndli yaşayırdı. Kəndlinin Herfordşir mahalında Kenterq yaxınlarında bir zolaq torpağı vardı. Torpağın yetirdiyi məhsul kəndlinin ailəsinə güclə çatır, yarıac-yarıtox birtəhər başlarını dolandırırdılar. Torpağın məhsulu aşıb-daşanda belə Cək O'Kent kasıblığın daşını ata bilmirdi.

Günlərin bir günü torpaq sahəsini şumlayan Cək O'Kent sahənin kənarına çatanda dönüb geri qayıtmaq istəyirdi ki, birdən başını yuxarı qaldırıb qarşısında dayanmış bir qulyabanı gördü. Ayaqlarını aralı qoyub dayanmış qulyabanı əllərini sinəsində çarpazlayıb kəndlini hirsli-hirsli süzürdü.

- Bura mənim torpaq sahəmdir,- qulyabanı donquldandı.- Sənin burda nə itin azıb?

Canına vahimə düşmüş Cək O'Kent qorxduğunu büruzə verməyib sakitcə təmkinlə cavab verdi:

- Çoxdandır ki, bu yerlərdə görünmürsən. Odur ki, sahəni sənin üçün şumlamışam ki, xətrin nə istəsə əkəsən.

- Bu mənim torpaq sahəmdir,- qulyabanı tüklü sinəsini qaşıya-qaşıya təkrar etdi,- qoy sən deyən olsun, torpağı mənimçün şumlayıb hazırlaya bilərsən.

- Çox yaxşı,- azca cürətlənən kəndli dedi.- Bəs məhsulu mənimlə bölsək necə? Əgər narazı olmasən, mən işləyərəm, sən isə zəhmətimin əvəzində məhsulun yarısını mənə verərsən.

Qulyabanı çirkli qabarlı əli ilə kotandan yapışıb soruşdu:

- Axı məhsulu necə bölüşdürəcəyik?

Cək O 'Kent bir an fikrə gedib sonra cavab verdi:

- Bu il sən torpağın üzündə olanların hamısına sahib durarsən, torpağın

altında qalanlar da mənim olar. Belə ki, kökü mənim, yarpaqları sənin olsun.

Kəndlinin şərti ilə razılaşan qulyabanı söz verdi ki, payızda gəlib onun payına düşən məhsulu toplayacaq. Qulyabanı şumlanmış torpağın üstündə qıçlarını sürüyə-sürüyə çəpərdən aşıb keçmək üçün nərdivan axtardı, lakin heç nə tapmayıb lənəər vura-vura özünü deşiyə soxdu. Mat-məəttəl qalmış kəndli dayanaıb qulyabanıya tamaşa edirdi.

Həmin il kəndli torpaq sahəsinə turp əkdi. Qulyabanı öz payını yığıb aparmaq üçün gəldi. Ona düşən pay turpun zibildən başqa heç nəyə yaramayan yarpaqları oldu. Cək O'Kent isə iri-iri yumru kökləri yığışdırıb evinə apardı və anbara yığdı. Hirs qulyabanının beyninə vurdu, dişi bağırsağını kəsdi, özünü itirdi, amma heç nə edə bilmədi, çünkü müqaviləyə vicdanla əməl edilmişdi. Faydalı bir şey tapmaq ümidi ilə yarpaq tayasının içərisində uzun müddət eşələndi, amma xeyri olmadı. Nəhayət qulyabanı dedi:

- Gələn il müqaviləni tərsinə bağlayarıq. Kökləri mənim olar, yarpaqları isə sənin.

Qulyabanının bu təklifi Cək O'Kentin ürəyindən oldu. Bu dəfə o, torpağı şumlayıb mala çəkdi ve toxumluq buğda səpdi.

Buğda biçilib axırıncı qızılı dərzlər arabaya yığılanda qulyabanı gəlib çıxdı. Qadınlar, kişilər, Oğlanlar, qızlar - bütün biçinçilər zəhmət nəğməsi oxuyurdu. Zorba, güclü bir at isə tüklü ayaqlarını aram-aram atıb təntənə ilə və ehmalca qiymətli dərzləri Cək O'Kentin həyətinə daşıyırdı.

Qulyabanının dərhal ağlına gəlmədi ki, ona yenə kələk gəliblər. Bir an sonra başa düşdü ki, turp yarpağı kimi, kövşənin köklərinin də heç bir faydası yoxdur. Anladı ki, küləş köklərini yolub torpaqdan çıxartmağa dəyməz.

Amma məhsul bayramı keçiriləndə hamı qulyabanı ilə xoş rəftar etdi. Qulyabanı yyaxşıca içdi, bir-iki parça isti pudinq çeynəyib uddu və hətta ciqa oynamağa cəhd etdi, Iakin rəqqasələrin yanına çatmamış ayağı ilişib üzü üstə yerə daydi. Bundan sonra bir küncə çəkilib səssiz-səmirsiz oturdu. Şənlik edənlərə tamaşa etdi. Məhsul bayramı sona yetib biçinçilər evə dağılışandan sonra qulyabanı dilə gəldi:

- Bura bax, Cək, belə çıxır ki, sən yamənca kələkbazsan ha! Gəlsənə bu dəfə sadəcə olaraq torpağın üstündə bitən məhsulu tən yarı bölək.

Qulyabanı bədheybət pəncəsini Cəkin çiyninə qoyub sınayıcı nəzərlərlə ona baxdı.

- Gəl birlikdə işləyək və kim nə qədər bacarır biçib özünə götürsün.

Cək O'Kent razılaşdı və qulyabanı axsaya-axsaya çıxıb getdi. Bu dəfə da torpaq sahəsində bol buğda bitdi. Zəmiyə baxanda adamın qəlbi fərəhlənirdi. Külək vuranda qızılı sünbüllər dalğalanan dənizi xatırladırdı.

Cək O'Kent dəmirçinin yanına getdi. Dəmirçi onunçün hər biri üç fut uzunluqda yoğun dəmir çubuqlar düzəltdi. Cək dəmir çubuqları gətirib dağınıq halda qulyabanının biçəcəyi torpaq sahəsinə sancdı.

Gücünü sınamaq vaxtı gəlib çatanda hər iki biçinçi əvvəlcədən dəryazlarını bülövlədi. Yaxınlıqdakı kilsənin saatı beşi vuran kimi onlar işa girişdilər.

Cək payına düşən sahəni sürətlə biçə-biçə irəlilədi. Onun çəkdiyi dəryaz xışıltı ilə sünbülləri biçib torpağa tökdü.

Amma qulyabanının işi yaxşı getmirdi. Güclə 12 yard yerin sünbülünü biçməmiş dəryazının ağzı tamam korşaldı.

- Ey, bura bax, mən gərək bir az nəfəsimi dərib dincimi alam,- qulyabanı ucadan dedi və bildirdi ki, ona dəryazının ağzını bülövə çəkmək lazımdır.

Cək gülümsəyib işinə davam etdi. Qulyabanıdan iki dəfə çox sahənin taxılını biçdi.

- Ay qardaş, bu sahə daş kimi möhkəm pıtraqla doludur. Pıtraqların sapları dəmir çubuq kimi möhkəmdir,- ağzı sınıb diş-diş olmuş dəryaza göz gəzdirən qulyabanı şikayətləndi.

Taxılı biçə-biçə uzaqlaşmış Cək heç qulyabanının səsini də eşitmədi.

Gün qalxıb günorta oldu va sahəyə düşmüş şeh buxarlanıb yoxa çıxdı. Qulyabanının işi heç getmədi. O, ağzı əyilib tökülmüş dəryazla taxılı biçə bilmədi. Hətta dəmir çubuqlar sancılmamış talalara rast gəlsə də işləyə bilmədi. Nəhayət cana doyub dəryazı biçənəyə çırpdı.

- Götür bu məlun, lənətə gəlmiş torpaq sahəni,- qulyabanı ümidsiz halda dilləndi.- Başına dəysin belə torpaq! Qoy hamısı sənin olsun. Bir də mənim ayağım bu yerlərə dəyməyəcək. Sən da, sənin bu sahən də mənim canımı boğazıma yığıb.

Bunu deyib qulyabanı oradan uzaqlaşdı və bir daha Cəkin torpaq sahəsinda gözə görünmədi. Cək qulyabanının sahəyə atdığı ağzı əyilmiş dəryazı aparıb anbardan asdı.

Bəli, bax indi Cəkin nəvəsi bu dəryazı şəstlə öz dostlarına əşyayi-dəlil kimi göstərib cavan kəndliləri inandırmağa çalışır ki, heç vaxt heç nədən qorxmaq lazım deyil; çünki aqil adamlar həmişə öz ağlı ilə tündməcazlara üstün gəlirlər.

QOTTEMLİ MÜDRİKLƏR

Biri vardı, biri yoxdu, bir zamənlar Qottemde bir adam yaşayırdı. Bir dəfə o, yığışıb bazara pendir satmağa yollandı. Təpədən üzü aşağı düşüb Nottinqem körpüsünə yaxınlaşanda torbasındakı pendir tikələrindən biri yerə düşüb yol boyu diyirlənməyə başladı.

- Ey, dostum,- oğlan səsləndi.- Olmaya bazarın yolunu tanıyırsan? Əgər tanıyırsansa, qoy qalan pendirləri də sənin dalınca yola salım.

Qottemli oğlan torbanı çiynindən yerə atıb pendir tikələrini çıxartdı, bir-birinin dalınca yolda cərgəyə düzdü.

Bir parça pendir diyirlənə-diyirlənə gedib kola ilişdi, başqa birisi otların arasına düşdü. Oğlan pendir tikələrinin ardınca qışqırdı:

- Allah qoysa, bazarda görüşərik!

Pendir parçalarını qarşılamaq üçün oğlan bazara çatıb gözləməyə başladı. Bazar bağlanana kimi dayanıb gözlədi.

Sonra bir-bir qonşulara yaxınlaşıb pendirlərini bazarda görüb-görmədiklərini xəbər aldı.

- Onları bazara kim gətirməli idi ki?- Qonşulardan biri soruşdu.

- Necə yəni kim gətirməli idi!- oğlan cavab verdi. -

Özləri gəlməli idilər. Onlar yolu çox yaxşı tanıyırlar. Amma pendirlər elə sürətlə qaçırdı ki, qorxuram, indi Yorka çatmış olsunlar.

Oğlan bu sözləri deyib yola düzəldi. Amma onu da deyim ki, bu günəcən oğlanın pendirlərini görən olmayıbdır.

* * *

Bir dəfə Qottemli on iki oğlan balıq tutmağa getdi. Çaya çatan kimi bəziləri suya girdi, bəziləri isə sahildə dayandı. Evə qayıdanda onlardan biri o birinə dedi:

- Kişilənib yamən dərin yerə getmişdik. Allah eləməsin, birdən suda boğulan olar ha!

- Doğrudan a! Gəlin yoxlayaq. Biz evden gələndə on iki nəfər idik.

Sonra onlar özlərini saymağa başladılar, hamı bir ağızdan dedi:

- On bir nəfər!

Və belə qərara gəldilər ki, biri suda batıb. Qayıdıb çayda balıq tutduqları yerə gəldilər. Acı-acı göz yaşları axıdıb suda batmış yoldaşlarını axtarmağa başladılar. Elə bu dəm yaxınlıqdan atını səyirdib keçən fermer onları görüb nə itirib-axtardıqlarını, niyə kədərli olduqlarını xəbər aldı.

- Bu gün çayda balıq tuturduq. Evdən çıxanda on iki nəfər idik. Birimiz suda batıb.

Fermer soruşdu:

- Deyin görüm, cəmi neçə nəfərsiniz?

Oğlanlardan biri özünü saymadan cavab verdi ki, on bir nəfərdirlər.

- Düzünü desəm, nə verərsiniz?

- Cibimizdə olan pulların hamısını.

- Onda əvvəlcə pulları verin, - fermer təkid etdi.

Sonra o, qamçı ilə bircə-bircə onların çiyninə şappıldada-şappıldada saymağa başladı:

- Bu bir, bu iki...

Sayıb on ikiyə çıxdı. On ikincinin yanına çatıb ona güclü bir qamçı

ilişdirib dedi:

- Alın, bu da sizinçün on ikinci nəfər.

- Allah həmişə sizin köməyinizə yetsin, - Qottemli oğlanlar sevincək dilləndilər.- ölmüş qardaşımızı siz bizə qaytardınız.

* * *

Haçansa bir neçə Qottemli Nottinqemin cənubundan altı mil aralı çay boyunca gəzə-gəzə elə bir yerə gəlib çatdılar ki, orada iki çay bir-birinə qovuşdurundan qıjov əmələ gəlib su burulğanı yaranmışdı.

Onlardan biri:

- Görürsünüz, su necə qaynayır,- dedi.

Kimsə cavab verdi:

- Eh, yulaf unu olsaydı, o qədər yayma bişirərdik ki, bütün ayı kəndə bəs edərdi.

Bəli, qərara gəldilər ki, kəndə bir neçə adam göndərsinlər və tapşırdılar ki, kim nə qədər bacararsa, çox yulaf unu gətirsin. Kəndə gedənlər yulaf unu tapıb tözliklə qayıtdılar. Gətirdikləri unu suya əndərdilər. Yaymanın nə vaxt bişəcəyini bilmək məsələsi ortaya çıxdı. Onlardan biri teklif edib bildirdi ki, suya atılıb yoxlayar. Bununla da bu çətinlik də aradan qaldırıldı.

Həm də razılığa gəldilər ki, suya atılan adam yaymanın hazır olduğunu görən kimi əlini yuxarı qaldırıb işarə versin. Oğlan özünü suya atdı, gördü ki, düşdüyü yer olduqca dərindir. Cəld əl-qol atıb üç dəfə adama boy verməyən suyun üzünə qalxdı, amma heç nə demədi. Onun susmağı yoldaşlarını narahat etdi. Oğlanın işarəsini səbirsizliklə gözləyən yoldaşları onun ağzını açıb-yumduğunu, əllərini yellədiyini görən kimi bu qərara gəldilər ki, yayma hazırdır.

Ləziz neməti oğlanla bölmək üçün dərhal suya atıldılar, əlbəttə ki, hamısı boğulub suda batdı...

TƏK AĞACLI TƏPƏDƏ MƏSKƏN SALMIŞ MƏLƏKLƏR

Çox az adam tapılar ki, Milad bayramının on iki gündən ibaret olduğunu bilməsin. Əlbəttə Şropşir mahalında müqəddəs gün hesab edilən bayram günü opaya daxil deyildir. Milad bayramına hazırlıq evləri yır-yığış etməkdən başlanır. Belə ki, evdəki hər bir eşya güzgü kimi təmizlənir, künc-bucağın tozu alınır. Qalaydan, misdən düzəldilmiş oyuncaqlar gəmiləri sürtüb elə işım-işım işıldadırlar ki, xanımlar, qızlar papaqlarını o gəmilərin içərisinə qoymağı özlərinə rəva görsünlər, yoxsa ruhlar xanımları çimdikləyərlər. Görülmüş iş yaxşı olanda ağa kəniz-qaravaşlara ənam da verir.

Sonra öz səliqə-sahmənı ilə göz oxşayan mətbəx pırkal, sarmaşıqla bəzədilməlidir. Ağ çiçəkli pırkal budağı tünd sarmaşığın qolları arasında pəncərənin qabağına qoyulmuş güldanlardan tutmuş, şabalıdı palıd bufetinin üstündəki qab-qacağa, bürünc şamdanlara, zəncirvari şəbəkələrə, buxarının üstündəki güldən düzəldilmiş oyuncaq itə sarmaşaraq mətbəxi daha da yaraşıqlı göstərməlidir.

Milad bayramı üçün edilmiş bazarlığa təzə pivə, bal, novruzgülü, gəndalaş giləmeyvəsindən və zəncirotundan hazırlanmış şərab, soyutma, qızardılmış dana, donuz, dovşan əti, qaz və başqa quş ətləri, ət və alma piroqları, qoz qatılmış şirin kəsmik, darçınlı piroq və bayram tortu daxildir. Bayram axşamı şam edərkən ət, pudinq, cürbəcür ət piroqları, qızardılmış çörək tikələri və pivə süfrəyə qoyulur.

Bayram axşamında bir qayda olaraq sap əyirib toxumaqla məşğul olmur, tapmacalar deyilir, kart oynayır və rəqs edirlər.

«Görəsən, rəqs edib süzmək olmasaydı, siz nə edərdiniz!»

«Eh, yorulub əldən düşənəcən dəsmal-dəsmal və gözubağlıca oynardıq. Sonra da tapmacalar söyləyib cavab axtarardıq. Kim cavab tapa bilməsə, bu sözləri qışqırardı: «Vay-vay, artıq səhər saat üçdur ki!»

Bəli, gözubağlıca yeniyetmələrin ən sevimli oyunu idi. Bu oyun başa çatan kimi «alma davası» oyunu başlayırdı. Bu oyun zamənı rəqiblər bir-birinin

qollarını arxadan bağlayır, su ilə dolu vannadan almənı ağızları ilə tutub çıxartmağa cəhd edirdilər. Alma uşaqlardan birinin ağzına tuş gələndə marıqda dayanmış yoldaşları onun başını suya basırdılar.

Bu oyunlar başa çatandan sonra müxtəlif əhvalatlar söylənirdi. Bayram axşamı söylənmiş Derbişir mahalındakı Baslo adlı yerlə bağlı olan bir əhvalatı mən də sizə nəql etmək istəyirəm.

Qədim zamənlarda bir təpənin üstündə üç hündür ağac vardı. Ay çıxıb aləmə nur saçan gecələrdə bu ağacların altında üç gənc xanım rəqs edər, hər yana mahnı səsləri yayılardı. Bircə nəfər fermerdan başqa heç kəs cürət edib o yerlərə yaxın getməzdi. Həmin fermer gec çiçək açmış novruzgülülərdən dəstə bağlayıb yayın qızmar çağında ildə bircə dəfə təpəyə dırmaşırdı ki, tər çiçək dəstəsini ağacların dibinə qoysun. Bu dəm yarpaqlar pıçıldaşar, günorta yerinə qalxar, fermer tələsik qayıdıb təpədən düşərdi ki, günəş qüruba enincə sağ-salamat evində olsun. Ferma olduqca varlı-hallı ferma idi, fermer üç oğluna töz-töz söyləyirdi:

- Atam həmişə deyirdi ki, bizim bəxtimiz o təpədə məskən salıb, mən öləndən sonra gördüyüm işi siz də unutmayın. Nəsildən-nəslə keçən bu iş mənə atamdan yadigar qalıb. Siz də bu işin davamçıları olun, balalarım.

Qardaşlar atalarının sözlərinə qulaq assa da, kiçik qardaşdan başqa atalarının nə dediyinə mahal qoyan olmadı.

Qocalıb əldən düşmüş ata vəfat edəndən sonra ferma üç yerə bölündü. Böyük qardaş torpağın çox hissəsinə yiyə çıxdı. Ortancıl qardaş da ondan geri qalmadı. Kiçik qardaşa təpənin ətəyində bir zolaq daş-kəsəkli yararsız sahə düşdü, ancaq o, ağzını açıb bir kəlmə da danışmadı. Əksinə qollarını çırmayıb işə başladı. İşlədikçə zümzümə edir, vaxtını öldürürdü, şər qarışmamış evinə qayıdırdı.

Günlər ötdü, ay dolandı, bir dəfə qardaşları onu görməyə gəldi. Böyük qardaşla ortancıl qardaşın sahəsində bir şey bitməmişdi. Onlar kiçik qardaşın tel-tel olmuş arpa zəmisinə, yaxşı bar tutmuş bir neçə meyvə ağacına, ətir saçan gül-çiçəyinə, bol süd verən üç inəyinə həsədlə baxıb hikkələrindən

partladılar.

- Qardaş, sirr deyilsə, bir de görək, bu işlərdə sənə kim kömək edir?- deyə soruşdular.- Kənddə belə söz gəzir ki, gecələr yaman çalıb-oynamaq səsi gəlir. Axı, gərək çox işləyən adam gecələr yopğan-döşəyinə girib daş kimi yatsın.

Kiçik qardaş onlara cavab verməyib susmağı üstün tutdu. - Bayaq biz gələndə təpədəki ağacların yanında gördüyümüz sən deyildin? Orda nə küllənirdin?

Bu məqamda kiçik qardaş sakitcə dilləndi:

- Bir çox illər bundan əvvəl atamın vəsiyyətini yerinə yetirirdim. Axı, indi yayın oğlan çağına az qalıb.

Qardaşlar bərk qəzəblənib hətta kiçik qardaşa istehza ilə güldülər.

- Bilirsən nə var, bundan sonra təpə mənimdir,- böyük qardaş bağırdı.- Bir də səni bu təpənin üstündə görsəm, vay halına! Təpədəki ağaclara gəldikdə, onu da deyim ki, mənim təzə anbarıma tir lazımdır. Odur ki, ağaclardan birini kəsəcəyəm. Siz ikiniz da mənə kömək edersiniz.

Hə, ortancıl qardaş bazara getməyi bəhanə edib aradan çıxdı. Kiçik qardaş isə dinib-danışmadı. Ertəsi gün, yəni yay tən yarı olan gün böyük qardaş bir dəstə əli baltalı adam və araba ilə gəlib bağçada gül-çiçəyin nazını çəkən kiçik qardaşını səslədi. Kiçik qardaş başını qaldırıb yalnız bu sözləri dedi:

- Bu günku günün hansı olduğu yadından çıxmasın.

Bu sözləri saya salmayan böyük qardaş başının dəstəsilə dırmaşıb təpədki üç ağacın yanına çıxdı. Böyük qardaş birinci ağaca ilk baltanı endirən kimi ağac qadın sayağı şivən qopardı. Atlar hürküb dördnala çapdı. Adamlar da atların dalınca dabanlarına tüpürüb götüruldular, amma böyük qardaş ağacı baltalamaqda davam etdi. Külək vıy-vıy vıyıldayırdı. O biri iki ağacın budaqları qəzəb içində şaqqıldadı. Bir an sonra ömrünə balta vurulmuş ağac yerindən qopub böyük qardaşın başına düşdü, onu xurd-xəşil etdi. Yavaş-yavaş nökər-naiblər yığışıb böyük qardaşın meyitini və qətlə yetirilmiş ağacı təpənin üstündən götürub apardılar. Beləliklə təpənin üstündə aylı gecələrdə

çal-çağırı eşidilən iki gənc xanım qaldı.

Ortancıl qardaş bazardan qayıdıb böyük qardaşının da torpağına sahib çıxdı. Kiçik qardaş isə özünün bir zolaq torpağında işləməkdə davam edir, yayın ortasında təpədəki ağacların dibinə novruzgülü dəstələri qoymağı yadından çıxartmırdı.

Onu da deyim ki, ortancıl qardaşın ucsuz-bucaqsız tarlalarında heç nə bitmirdi. Bir dəfə ortancıl qardaş yayın cırhacırında kiçik qardaşını təpədəki ağacların yanında gördü. Təpəyə qalxmağa ürəyi gəlmədi. Səsini başına atıb qardaşını harayladı.

- Rədd ol mənim torpağımdan, aşağı düş. Çəpərimi sındırıb-dağıdan inəklərini gəl sür apar burdan! Bu təpənin ətrafına dirəklər basdırıb çəpər çəkmək üçün o ağaclardan birini kəsəcəyəm.

Bəli, o gecə musiqi, mahnı səsləri eşidilmədi. Yarpaqlar baş-başa verib nalə dolu səslə gözlərinin qorasını sıxdı. Kiçik qardaş qəm dəryasında qərq oldu. Ertəsi gün tözdən ortancıl qardaş balta əlində təpəyə qalxdı. Baltanı görən iki abacı titrətmə tutdu. Küləyin əsmədiyini müəyyən etdikdən sonra ortancıl qardaş ikinci ağacı baltaladı. Ağac yerə yıxılanda qadın kimi nalə çəkdi. Çəmənlikdə inəklərini otaran kiçik qardaş axırıncı ağacın zorba bir budağını qaldırıb ortancıl qardaşın kəlləsinə ilişdirdiyini, onu öldürdüyünü və gözlərilə gördü.

Bir müddət soira adamlar gəlib ortancıl qardaşın cəsədini və kəsilmiş ikinci ağacı təpədən apardılar. Atasının bütün torpaqlarına kiçik qardaş sahib durdu. Amma o, yenə də özünün təpə yaxınlığındakı sahəsində yaşayır, tənha gənc xanıma göz qoyurdu. Bəzən aylı gecələrdə o gənc xanım yanıqlı, həzin musiqi sədaları altında təkbaşına təpədə rəqs edirdi. Kiçik qardaş hər il yayın oğlan çağında gec açmış novruzgülülərdən dəstə tutub təpədəki tənha ağacın dibinə qoyur və onun tarlaları getdikcə daha bol, məhsul verirdi.

Məlumunuz olsun ki, inidinin özündə belə yay tən yarı olmağa az qalanda tək ağaclı təpəyə dırmanmağa cürət etməyən çoxlu adam var. Dünyagörmüş ixtiyar qocaların bəziləri nəql edir ki, onlar balaca uşaq olanda eşidiblər ki, o

təpənin yan-yörəsini hasara almaq olmaz, çünki o təpə cavan bir xanıma məxsusdur.

RUHLAR VƏ DUZQABI

Qərbi Şropşir mahalının Uorten kəndində yaşayan Betti Kuper adlı qarı (o, qocalığını boynuna almasa da, əslində kənddə hamıdan əvvəl dul qalmış qarılardan biri idi) həmişə «Ruhlar ve duzqabı» əhvalatını söyləməklə uşaqların başını qatırdı. Onun danışdığıı nağıl beləydi:

- Ay uşaqlar, mən əlimin içi kimi bilirəm ki, siz Duzqabı haqqında olan nağılı heç vaxt eşitməmisiniz. Qulağınız məndə olsun, o nağılı sizə söyləyim. Hə, uşaqlar, sizə ərz eləyim ki, lap qədim zamanlarda Qorsti Bonkun yaxınlığında Rannelzlər tayfasından olan bir neçə adam yaşayırdı. Onların çox yaxşı bir ferması var idi. Fermanın həndəvərində elə gözel mülk salmışdılar ki, oranı görən həsədlə deyirdi ki, şah malikanəsidir. Bircə əmması var idi ki, Rannelzlərin yaşadığı bu qədim yerin sinni heç kəsə belli deyildi.

Bir də ən pisi bu idi ki, Rannelzlərin saldığı mülkün yan-yörəsi ruhlar, cinlər ve qulyabanılarla (xatiriniz necə istəyir onları eləcə də adlandıra bilərsiniz) dolu idi. Səhərdən axşamacan o ətrafda vunuxan ilahi varlıqlar balaca-balaca kişi, qadın görkəmində zühur edir, çıxardıqları hoqqalarla Rannelzləri yamanca qorxudurdu. O yerləri cıdır meydanına döndərmiş ruhlar Rannelzlərin mənzilinə girib hoppana-hoppana rəqs eləyir, evdən çıxıb tarla-da, düzdə atılıb-düşür, bir an belə durub-dayanmırdılar. Ruhların əlindən yazıq Rannelzlərin baş-qulağı dənə idi. Ruhların bitib-tükənmək bilməyən hoqqaları onları tənəə gətirmişdi. əsəbləri tarıma çəkilib günləri qara olmuş Rannelzlər çox düşünüb-daşınsalar da, ruhlardan yaxa qurtarmaq üçün bir çarə tapa bilmirdilər.

Hətta, bir dəfə onlar kilsədən keşişi tutub öz evlərinə gətirdilər ki, belkə bir çarə qıla. Rannelzlərdə o bəxt harda idi ki! Keşişi görən ruhlar daha da

qızışıb özlərindən çıxdılar, kişinin başına olmazın oyunlar açdılar. Ruhların bu hərəkəti keşişi də qorxutdu.

Bəli, aylar keçdi, il dolandı, ruhlar getdicə sırtıqlaşdı. Nəhayət biçarə Rannelzlər dözə bilməyib öz yurdlarıını tərk etmək qərarına gəldilər. Ruhlardan yaxa qurtarıb mürdəşir sifətini unutmaq üçun köçüb xudmani bir fermada məskən saldılar.

Onlar xəlvətcə köçdüklərinə görə əvvəl-əvvəl xırda-xuruş əşyalarını yığıb bir neçə müddətə səfərə çıxdıqlarını qoca ruhlara söylədilər. Nəhayət bir dəfə gecə yarıdan keçmiş Rannelzlər köhnə mülkə qayıdıb ev-eşiklərinin hamısını yığışdırıb ruhları dörd quru divar arasında qoydular. Təzə məskənə köçəndən sonra yaxası ruhların əlindən qurtarmış Rannelzlər bir müddət şad-xürrəm ömür sürüb xoş günlər keçirməyə başladılar. Yavaş-yavaş özlərinə gəlib mal-dövlət sahibi oldular.

Demək olar ki, hər şey öz qaydası ilə gedirdi. Amma necə olmuşdusa Rannelzlər qədim duzqabını yaddan çıxarıb köhnə mülkdə qoymuşdular. Bu məsələ onları bir az dilxor elədi. Odur ki, naxırçını çağırıb duzqabını gətirməyi ona həvalə etdilər. Bərk-bərk tapşırdılar ki, olduqca ehtiyatlı tərpənsin, ruhlar duyuq düşməsin. Əgər onlar duyuq düşsəydilər, allah bilir yenə necə qiyamət qopardı!

Duzqabını köhnə mülkdən gətirmək ürəyindən olmasa da, naxırçı naçar qalıb yola düşdü. Naxırçıya göz qoymaq üçün Yeddart adlı gənci də onun dalınca göndərdilər. Birdən mənə inanmazsınız ha, vallah sözlərimdə yalan yoxdur. Bəli, onlar bir az yol gedəndən sonra, kimə rast gəlsələr yaxşıdır? O iki qoca ruhun düz onlara sarı gəldiyini gördülər. Ruhlar o dəqiqə həm naxırçını, həm də Yeddartı tanıdılar. Ona görə da yoldan sapıb özlərini görməməzliyə vurmağın faydası olmayacaqdı. Ruhlar onlara yaxınlaşıb sevinc içində dilləndilər:

- Budur ey, sizin duzqabını gətirirdik.

Beləliklə onlar bir-birinə qoşulub Rannelzlərin təzə yurduna sarı üz tutdular. Ruhları görən kimi Rannelzlərin qanı qaralıb ovqatı təlx oldu.

Amma onlar özlərini o yerə qoymayıb ruhları gülə-gülə qarşıladılar. Hal-əhval tutandan sonra yeyib-içmək üçün onları yuxarı başa dəvət etdilər. Ruhlar zövqlə bəzədilmiş qonaq otağına girib əyləşdilər. Qonaq otağında yemək-içməklə məşğul ikən Rannelzlər qalaqdan çoxlu odun çıxardıb pivə bişirilən otaqda gürhagur yanan ocaq qaladılar. Sonra bir bağ küləş götürüb oğacın yanına qoydular. Naxırçını oçağii başında uzanmağa məcbur edərək, onu başdan-ayağa küləşlə örtüb basdırdılar. İlin soyuq vaxtı olduğuna görə Rannelzlər ruhlardan xahiş etdilər ki, oçağa yaxın oturub qızışsınlar. Ruhlar ayağa duran kimi onları gətirib küləş topasının üstündə oturtdular.

Bir az sonra Rannelzlər ruhlara soyutma dana əti va bir çəllək şərab verib onların başını söhbətə qarışdırdı, ordan-burdan söz açdılar. Söhbətin şirin yerində naxırçı yerindən dik atılıb ruhları küləş qarışıq düz ocağın ortasına atdı. Rannelzlər süpürgə və yabaları qapıb o dəqiqə oçağı mühasirəyə aldılar. Alov dillərinin arasından çıxmağa macal tapa bilməyən ruhlar cızhacızla yanıb kül oldular.

Bu əhvalatdan sonra bir də ruhlar Rannelzlərin gözunə görünmədi. Onlar Qoreti Bonk yaxınlığındakı köhnə mülklərinə qayıdıb arxayın ömür sürməyə başladılar.

XOŞBƏXTLİYİNİ AXTARAN CƏK

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir oğlan var idi. Onun adı Cək idi. Günlərii bir günu sahər tözdai Cək öz xoşbəxtliyini axtarmaq üçün evdən çıxıb yola düşdü. Təzəca yol getməyə başlamışdı ki, qarşısına bir pişik çıxdı.

Pişik dilə gəlib xəbər aldı:

- Hara gedirsən, Cək?

- Xoşbəxtliyimi axtarmağa.

- Olarmı mən də sənlə gedim?

- Əlbəttə, olar!- Cək cavab verdi.- Yoldaş nə qədər çox olsa, vaxtımız bir

o qədər da şən keçər, yolumuz qısalar.

Bəli, pişiklə Cək bir-birinə qoşuldu. Yollarına davam etdilər.

Çox keçməmiş qarşılarına bir it çıxdı.

İt xəbər aldı:

- Yolun hayanadır, Cək?

- Xoşbəxtliyimi axtarmağa gedirəm.

- Olarmı mən də sənlə gedim?

- Əlbəttə, olar!- Cək cavab verdi.- Yoldaş nə qədər çox olsa, vaxtımız bir o qədər da şən keçər.

Onlar birlikdə atılıb-düşərək yollarına davam etdilər.

Çox keçməmiş qarşılarına bir keçi çıxdı.

Keçi soruşdu:

- Hara gedirsən, Cək?

- Xoşbəxtliyimi axtarmağa gedirəm.

- Mən də səniilə gedə bilərəmmi?

- Əlbəttə!- Cək cavab verdi. - Yoldaş nə qədər çox olsa, bir o qədər də çox şənlənərik.

Onlar bir-birilə qoşulub hoppana-hoppana yola düşdülər.

Bir müddət sonra qarşılarına bir kəl çıxdı.

Kəl xəbər aldı:

- Səfərin hayanadır, Cək?

- Xoşbəxtliyimi axtarmağa gedirəm.

- Mən da sənlə gedə bilərəmmi?

- Əlbəttə!- Cək cavab verdi. - Yoldaş çox olan yerdə vaxt çox şən keçər.

Onlar bir-birinə qoşulub yola düşdülər.

Xeyli sonra qabaqlarına bir xoruz çıxdı.

Xoruz soruşdu:

- Hara gedirsən, Cək?

- Xoşbəxtliyimi axtarmağa gedirəm.

- Olarmı mən da sizinlə gedim?

- Əlbəttə, olar! - Cək cavab verdi.- Yoldaş çox olan yerdə şənlik də çox olar.

Bəli, onlar birlikdə atılıb-düşərək yola düşdülər. Qaranlıq qovuşanacan bu minvalla yollarına davam etdilər. Axşam hava qaralanda onlar harada gecələmək haqqında düşünməyə başladılar. Elə bu vaxt yolun kənarında bir ev göründü.

Cək dostlarına səs salmamağı tapşırıb, özü sakitcə evə yaxınlaşdı, pəncərədən içəri boylandı. Evin içində quldurlar bardaş qurub qarət edilmiş pulları sayırdılar.

Hə, bir az sonra Cək dostlarının yanına qayıtdı. O, dostlarına tapşırdı ki, göz-qulaq olub onun işarəsini gözləsinlər. İşarə verilən kimi bir ağızdan səs-səsə verib haray salsınlar. Hamı qulaqlarını şəkləyib Cəkin işarəsini gözləməyə başladı. Cək işarə verən kimi pişik miyoldamağa, it hürməyə, keçi mələməyə, kəl böyürməyə, xoruz banlamağa başladı. Onlar elə Səs-küy qopardılar, ki, quldurlar qorxuya düşüb qaçdılar. Sonra Cək öz dostları ilə sakitcə içəri girdi. Amma Cək qorxurdu ki, birdən quldurlar gecə qayıdar. Odur ki, uzanıb yatmaq vaxtı gələndə Cək pişiyi yelləncəyin üstünə qoydu, iti stolun altına soxdu, keçini taxtapuşa göndərdi, kəli zirzəmidə gizlətdi, xoruzu isə uçub dama qonmağa məcbur etdi. Özü isə çarpayıya uzanıb yorğanı başına çəkdi.

Evdəki işıqların söndüyünü görən kimi quldurlar öz adamlarından birini göndərdilər ki, pulları yığıb gətirsin. Quldurun evə girməyi ilə qaçıb geri qayıtmağı bir oldu. Yoldaşlarına yaxınlaşıb qorxusundan ciyəri ağzına gələn quldur söylədi:

- Evə girib yelləncəkdə oturmaq istəyəndə onu gördüm ki, orda artıq bir qarı bardaş qurub nəsə toxuyur. Heç bilirsiniz qarı əlindəki milləri mənə necə batırdı! Uf, Uf!

Siz ki, bilirsiniz, o, qarı yox, pişik idi.

- Stola yaxınlaşıb pulları yığışdırmaq istəyirdim, bir də onu gördüm ki, stolun altında yekəpər bir çəkməçi oturub. O, əlindəki bizi bədənimə elə batırdı ki! Ax, ax!

Axı, siz onun it olduğunu bilirsiniz.

- Taxtapuşa çıxanda onu gördüm ki, orda kimsə taxıl döyür. Zəncirlə mənə birini elə ilişdirdi ki, az qaldı düşüb kəllə-mayallaq olam!

Bunun da keçi olduğu sizə ki, məlumdur.

- Nəhayət, zirzəmiyə düşəndə orada da bir odunçu gördüm.

Əlindəki balta ilə mənə güclü bir zərbə endirdi. Ayaqlarım sözumə baxmadı. Səntirləyə-səntirləyə güclə aradan çıxdım.

Sizə o da məlumdur ki, zirzəmidəki kəl idi.

- Hələ damdakı cırtdan olmasaydı, yenə dərd yarı idi.

O da bir yandan dil boğaza qoymadan elə hey deyirdi: «Onu mənə verin! Kaş o mənim əlimə keçəydi!..» Mən də dabanıma tüpürüb canımı qurtardım.

Haray salan xoruz idi: «Quq-qu-lu-qu-u-u!»

SİÇAN VƏ PİŞİK

Bir gün siçan pişiklə,
Oynayırdı eşikdə:

Pişik siçanın quyruğunu dişləyib yerindən qopartdı.

- Qaytar quyruğumu,- Siçan çığır-bağır saldı.

- Yox,- Pişik dedi.- İnəyi tapıb mənə süd gətirməsən, quyruğunu verməyəcəyəm.

Gözunu döyə-döyə,
Siçan dedi inəyə:

- Ay İnək, yalvarıram nə olar, mənə bir az süd ver. Mən də onu Pişiyə verim, Pişik də quyruğumu özümə qaytarsın.

- Yox,- İnək dilləndi.- Mənə fermerdən saman gətirməsən, sənə süd-zad veren deyiləm.

Nəfəsin dərə-dərə,

Siçan dedi fermerə:

- Ay fermer qardaş, yalvarıram sənə, nə olar mənə bir az saman ver, aparım İnəyə, o, mənə süd verər, mən də onu Pişiyə çatdıraram, Pişik də quyruğumu özümə qaytarar.

- Yox,- fermer dedi.- Sənə o vaxt saman verərəm ki, gedərsən qəssabın yanına, mənə bir az ət gətirərsən.

Dabanını basa-basa,

Siçan dedi qəssaba:

- Ay qəssab qardaş, nə olar yazığın gəlsin mənə, bir az ət lazımdır, fermer yolumu gözləyir, əti versəm, mənə saman verər, mən də samanı İnəyə aparram, İnək də mənə süd verər, mən də südü Pişiyə, Pişik də quyruğumu özümə qaytarar.

- Yox,- qəssab acıqlandı.- Sənə o vaxt ət verərəm ki, gedərsən çörəkçinin yanına, mənə bir az çörək gətirərsən.

Evinə çatan kimi,

Hayladı çörəkçini:

- Amanın bir günüdür, ay çörəkçi qardaş, mənə bir az çörək ver. Aparım verim qəssaba, o da bəlkə mənə ət verdi, mən də əti fermerə verrəm, fermer də mənə saman verər, mən də samanı İnəyə verrəm, İnək də mənə süd verər, mən də onu Pişiyi verrəm, Pişik də əvəzində quyruğumu özümə raytarar.

Çörəkçi: - Buyur, - dedi –

Bu da olsun nəzirim.

Oğrun girsən evimə

Bil, başını üzərəm.

Bir az sonra çörəkçi Siçana çörək verdi, Siçan da onu qəssaba verdi, qəssab Siçana et verdi, o da etv fermerə verdi, fermer de Siçana saman verdi, o da samənı İliaya verdi, İnək Siçana süd verdi, Siçan da südü Pişiyə verdi. Pişik Siçanın quyruğunu özünə qaytardı.

AĞALARIN AĞASI

Günlərin birində bir qız bazara gəldi, dedi ki, bəlkə onu evə qulluqçu götürən ola. Axır ki, çox gülməli qoca bir centlmen qıza yiyə durdu, onu evinə apardı. Qızı evinə gətirən kimi dedi ki, bəs ona bəzi şeyləri öyrətməlidir, çünki onun evində hər şeyin özünə məxsus adı vardır.

Üzünü qıza tutub dedi:

- Yaxşı, məni necə çağıracaqsan, hə?

Qız cavab verdi:

- Ağa, ya da ki mister, bir də necə istəsəniz, ser.

- Siz məni «ağaların ağası» deyə çağırmalısınız. Bəs, yaxşı, buna nə deyəcəksən?- deyə kişi öz çarpayısını göstərdi.

- Çarpayı, ya da taxt, ya siz necə məsləhət bilsəniz, ser.

- Yox, bu mənim «ördəyim»dir. Bəs bunlara nə deyirsən? - alt paltarlarını göstərib soruşdu.

- Tuman, ya da şalvar, bir də siz bilən məsləhətdir, ser.

- Sən də onlara «fitil» deyərsən, bildin?! Hə, bəs bunu necə çağıracaqsan? - deyə pişiyini göstərdi.

- Pişik, ya da pişik balası, bir də siz necə məsləhət bilsəniz, ser.

- Yox, sən onu «ağ meymun» çağırarsan. Bəs bu necə?- odu göstərib soruşdu.- Ona nə deyəcəksən?

- Od, ya da alov, bir də özünüz necə məsləhət görsəniz, ser.

- Sən ona «qızğın xoruzcuğaz» deməlisən. Bəs buna nə ad verərsən? - deyə suyu göstərdi.

- Su, ya da rütubət, bir də nə məsləhət görsəniz, elə də deyərəm, ser.

- Yox, onun adı «dağarcıq»dır. Bəs buna nə deyəcəksən?- evi göstərib soruşdu.

- Ev, ya da koma, bir də necə məsləhətdirsə, elə də deyerəm, ser.

- Sən ona «yekə papaqlı dağ» deməlisən.

Elə həmin gecə qulluqçu qız sahibkarını hövlank yerindən oyadıb dedi:

- Ey sahibkarların sahibi, ördəyindən hoppan düş, fitillərini əyninə gey. Ağ meymunun quyruğuna qızğın xoruzcuğazından alov düşüb, dağarcığından su gətirməyincə, yekə papaqlı dağın qızğın xoruzcuğazında yanıb kül olacaq...

Burda nağıl qurtardı.

ADƏMİN OĞLU

Bir gün bir kişi elə hey işləyirdi. İsti bir gün idi, o isə yer qazırdı. Hərdənbir başını qaldırıb nəfəsini dərirdi, dəsmalla üzünün tərini silirdi. Möhkəmcə əsəbləşmişdi, fikirləşirdi ki, nə var-nə var Adəmin günahı ucbatından qana-tərə bulaşmışdır. Beləliklə acı-acı şikayət etməyə başladı, Adəmin qarasına o ki var danışıb ürəyini boşaltdı.

İş elə gətirdi ki, sahibkarı həmin kişinin dediklərini bir-bir eşitdi. Odur ki, xəbər aldı:

- Adəmin günahı nadir?! Adəmin yerində olsaydın, sən də onun kimi edərdin.

- Yox, eləməzdim,- kişi cavab verdi, - mən işləri daha yaxşı qurardım.

- Yaxşı, yaxşı səni sınamaq mənə borc olsun,- sahibkar dedi.- Nahar vaxtı yanıma gələrsən.

Hə, deyilən vədə çatdı, kişi də gəlib çıxdı. Sahibkarı onu elə bir otağa apardı ki, dünyanın bütün naz-neməti yemək stolunun üstünə tökülmüşdu.

Sahibkar dedi:

- Bax, indi süfrədəki ləziz nemətlərdən kefin istədiyin qədər ye. Amma mən qayıdanacan məbadə ağzı bağlı qaba al vurasan ha!

Bunu deyib o, otaqdan çıxdı, kişini tək qoydu.

Hə, kişi yerini rahatladı, bir az bu xərəkdən, bir az o xərəkdən nuş elədi, yeməklərdən ləzzət aldı. Amma bir qədər keçdi, gördü ki, sahibkarı gələnə oxşamır, ağzı bağlı qaba baxıb marağını saxlaya bilmədi, fikirləşdi ki, görəsən onun içində nə olar. Belə belə kişini maraq bürüdü, öz-özünə dedi: «Bu nəsə çox gözəl bir şey ola bilər. Niyə də ona baxmayım? Bu dəqiqə əlimlə yoxlayaram. Gözucu baxmaqla, nə pis iş olasıdır ki!» Hə, axır ki, özünü saxlaya bilmədi, bağlamanın örtüyünü bir balaca qaldırdı, amma heç nə görə bilmədi. Sonra onu bir az da yuxarı qaldırdı, qabın içindən siçan hoppanıb çıxdı. Kişi əl atdı ki, onu tutsun, amma siçan götürüldü, stolun üstündən aşdı, kişi də onun dalınca. Siçan özünü evin bir bucağına atdı, sonra o biri bucağına, stolun altında gizləndi, bütün otağı dolana-dolana qaçıb aradan çıxdı. Kişinin haray-həşiri, taq-tuqu aləmə yayıldı, siçanın dalınca o qədər atılıb-düşdü ki, axırda sahibkar da gəlib çıxdı.

- Eh,- o dedi.- Bir də Adəmdə işin olmasın, onun günahı yoxdur, ay səni pir olmuş!..

ÜÇ DONUZ BALASININ NAĞILI

Biri vardı, biri yoxdu, üç balası olan bir ana donuz vardı. Ana donuz çox kasıb idi və balalarını dolandıra bilmirdi. Günlərin bir günü ana donuz balalarını evdən çıxardıb öz xoşbəxtliklərini axtarmağa yola saldı. Evdən çıxıb uzaqlaşan birinci bala bir kişi ilə üz-üzə gəldi. Kişinin belində bir şələ saman vardı. Donuz balası kişiyə yalvarıb dedi:

- Ay dayı, zəhmət olmasa, saman şələsini mənə ver ki, özümə ev tikim.

Kişi bala donuzun xahişinə əməl elədi bala donuz da saman şələsindən

özünə ev düzəltdi. Çox keçməmiş canavar gəlib çıxdı, bala donuzun qapısını tıqqıldadıb dedi:

- Bala donuz, ay bala donuz, aç qapını içəri girim.

Bala donuz cavabında canavara seyladi:

- Yox canım, yox, sən nə danışırsan, istəyirsən ki, tükümü didəsən hə!

Bu sözlərdən hirslənən canavar bala donuzu hədələdi:

- Onda mən səni məcbur edərəm, üfürüb ev-eşiyini başına uçurdaram!

Canavar dediyi kimi də etdi. Üfürüb damı donuz balasının başına uçurtdu, tutub onu yedi.

İkinci donuz balası əlində bir bağlama nazotu tutmuş bir kişiyə rast gəldi. Donuz balası kişiyə yalvarıb dedi:

- Dayı, ay dayı, zəhmət olmasa, nazotu bağlamasını mənə ver, özümə ev tikim.

Kişi otu donuz balasına verdi. O, otdan özünə ev düzəltdi.

Yenə canavar gəlib çıxdı, donuz balasını səslədi:

- Bala donuz, ay bala donuz, aç qapını içəri girim.

- Xeyr, xeyr, anamın ipək saçlarına and olsun ki, açа bilmərəm.

- Onda mən səni məcbur edərəm, vurub evini başına uçurdaram.

Qeyzlənmiş canavar üfürüb-üfürüb axırda evi tar-mar etdi, bala donuzu tutub həzmi-rabedən keçirtdi.

Üçüncu donuz balası öz xoşbəxtliyini axtararkən kərpicdən yükü olan bir kişi ilə rastlaşdı:

- Dayıcan, ay dayıcan, zəhmət olmasa, kərpicləri mənə ver, özümə ev tikim.

Bəli, kişi kərpicləri donuz balasına verdi. Donuz balası özünə kərpicdən ev tikdi. Çox keçməmiş canavar gəlib donuz balasına dedi:

- Donuz balası, ay donuz balası, aç qapını içəri girim.

- Elə şey yoxdur. Yox, mən heç cur qapını açа bilmərəm.

- Onda səni məcbur edərəm; üfürüb evini yerlə yeksan edərəm.

Hə, quduzlaşmış canavar çox əsib-coşdu, çox üfürdü; az qaldı ki,

üfürməkdən ovurdları şişib partlasın, amma evi uçurdub-dağıda bilmədi. Əsib-coşmaqla, üfürməklə evi dağıda bilməyəcəyini görən canavar yağlı dilini işə saldı:

- Ay bala donuz, axı mən gözəl ağ turp ləklərinin yerini bilirəm.

- Hardadır?

- Eh, cənab Smitin məhləsində, əgər sabaha hazır olsan, gələrəm birlikdə gedib nahar üçün bir neçə turp qopardarıq.

-Yaxşı, mən razıyam,- bala donuz razılaşdı.- Sabaha hazırlaşaram. Saat neçədə gedəcəyik?

- Oo, düz saat altıda.

Bəli, donuz balası beşdə durub evden çıxdı, canavar gəlməmiş turpları yoluşdurub qayıtdı. Canavar saat altıda gəlib soruşdu:

- Bala donuz, hazırsanmı?

Donuz balası cavab verdi:

- Əşşi, hazırsan da sözdur! Mən artıq gedib qayıtmışam. Özü də nahar üçün bir qazan turp gətirmişəm.

Bu sözləri eşidən canavarın cin beyninə vurdu, ancaq fikirləşəndə ki, donuz balasını haçansa caynağına keçirib ləzzətlə yeyəcək, hirsini boğub mülayim-mülayim dedi:

- Ay donuz balası, çox gəşənə bir alma ağacının yerini bilirəm.

- Hardadır o alma ağacı?

- Odur ey, Meri bağının yanında, - canavar cavab verdi, - əgər məni aldatmasan, sabah saat beşdə gələrəm, gedib bir neçə alma dərərik.

Beləliklə donuz balası səhəri gün saat dörddə xoruldaya-xoruldaya evdən çıxıb alma yığmağa getdi. Donuz balası canavar gəlincə evə qayıtmaq ümidində idi. Amma o, uzun yol qət edib alma dərmək üçün ağaca dırmaşmalı oldu, belə ki, sürüşüb ağacdan düşəndə canavarın gəldiyini gördü. Qorxudan ödü ağzına gəlmiş donuz balasını əsməcə tutdu.

Canavar donuz balasına yaxınlaşıb xəbər aldı:

- Bura bax, ay bala donuz, nə üçün sən buraya məndən əvvəl gəlmisən?

Almalar xoşuna gəlirmi?

- Bəli, bəli, çox xoşuma gəlir,- donuz balası təbəssümlə cavab verdi. - Bu saat birini də sənin çün ataram.

Bunu deyib donuz balası almanı lap uzağa tolazladı. Canavar almanı götürənə kimi bala donuz ağacdan yerə hoppanıb evə qaçdı.

Səhəri gün canavar yenə gəldi, donuz balasını şirin dilə tutdu:

- Ay bala donuz, bu günorta Şanklində yarmarka olacaq, getmək istəyirsənmi?

- Əlbəttə istəyirəm, gedərəm, niyə getmirəm ki, nə vaxt getməyə hazır olacaqsan?

- Üç tamamda, - canavar cavab verdi.

Beləliklə donuz balası həmişəki kimi vaxtından əvvəl yola düşüb yarmarkaya çatdı. Bir nəhrə alıb çiyninə atdı, evə sarı yollananda canavarın gəldiyini gördü. İşin fırıq olduğunu görən donuz balası nə edəcəyini bilməyib matı-qutu qurudu. Odur ki, donuz balası gizlənmək üçün cəld nəhrənin içinə girdi. Nəhrənin içində tərpənib onu hərəkətə gətirdi. Donuz balası ilə birlikdə təpə aşağı dığırlanan nəhrə canavarı elə vahiməyə saldı ki, o, yarmarkaya çatmamış qayıdıb birnəfəsə evə qaçdı. Canavar dincini alandan sonra bala donuzun evinə gedib təpə aşağı diyirlənə-diyirlənə yanından keçən girdə bir şeyin onu necə qorxduğunu təşvişlə söylədi. Məsələdən xəbərdar olan donuz balası gülə-gülə dedi:

- Ha, ha səni qorxudan mən idim ey. Yarmarkaya gedib nəhrə almışdım. Sənin gəldiyini görən kimi nəhrəya girdim, onu təpə aşağı diyirlətməyə başladım.

Bunu eşidən canavarın acığından dişi bağırsağını kəsdi. O bilirdi ki, mütləq donuz balasını tutub yeyəcək, bu işi görmək üçün evin bacasından içəri düşəcək. Canavarın niyyətindən xəbər tutan donuz balası gur ocaq çatıb üstünə su ilə dolu iri bir qazan asdı. Canavar baca ilə üzüaşağı düşmək istəyəndə bala donuz qazanın qapağını götürdü. Canavar guppultu ilə qazanın içinə düşdü. Beləliklə donuz balası bir göz qırpımında qapağı qazanın ağzına

basdı, pıqqa-pıqqla canavarı qaynadıb bişirdi, özü üçün şam etdi. Deyilənə görə donuz balası, o vaxtdan bəri xoşbəxt ömür sürüb, xoş güzəran keçiribdir.

SAĞSAĞAN YUVASI

Vaxt var idi donuzlar şer deyirdi,
Mey.m.unlar da tənbəki çeynəyirdi.
Toyuqlar cumub onu iyləyirdi,
Ördəklər qağıl.dayıb söylənirdi!..

Bir dəfə dünyanın bütün quşları məsləhət üçün uçub sağsağanın yanına gəldilər. Dil-ağız elədilər ki, onlara yuva tikməyi öyrətsin. Sağsağan yuva tikməkdə ən ağıllı və pərgar quş idi. O bütün quşları bir yerə toplayıb onlara yuva tikməyin çəmini göstərirdi. O, əvvəlcə bir az palçıq götürdü, ondan torta bənzər girdə bir şey düzəltdi.

- Hə, demək yuvanı belə tikirlər - deyə Qaratoyuq uçub getdi.

Qaratoyuqlar özlərinə belə yuva qururlar.

Sonra Sağsağan bir neçə çör-çöp götürüb palçığı yuvanın iç tərəfinə vurdu.

Sonra çör-çöpun üstünə bir qat da palçıq çəkdi.

- Yuva tikmək elə buymuş? Bu ki, çox asandır – deyə ağıllı Bayquş da məclisi tərk etdi.

Elə o vaxtdan bayquşlar özlərinə ağıllı-başlı yuva qura bilmirlər.

Bir az keçəndan sonra Sağsağan bir az da çör-çöp yığdı, onları hərləmə yuvanın yan-yörəsinə pərçimlədi.

- Mənə elə bu lazım idi,- deyə Sərçə cikkildəyə-cikkildəyə uçub getdi.

Sərçələr də özlərinə səliqə-sahmansız yuva qururlar.

Bəli, bir az sonra Sağsağan bir qədər lələk və toz-torpaq götürdü, yuva rahat olsun deyə onun içini döşədi.

- Əsl mənim malımdır, - Sağsağan haray-həşir saldı.

Hə, sağsağanların yuvaları insafən çox rahatdır.

Belə, belə İşlər. Quşlar yuva qurmaq haqda bəzi şeyləri öyrəndi, amma onlardan biri də sağsağanı axıracan dinləmədi. Sağsağan isə öz işində idi, gözünü qaldırıb heç nəyə baxmırdı. Qalan bircə Qumru quşuydu, o heç nəyə göz qoymurdu, elə hey səfeh bağırtıyla deyirdi: «İkisini götür, ikisini götür-r...»

Nəhayət Sağsağan axırıncı çör-çöpu yuvaya vuranda bu sözləri eşitdi. Odur ki, cavab verdi: «Elə biri də bəsdir».

Amma Qumru quşu dediyini deyirdi: «İkisini götür, ikisini götür-r-r...»

Sağsağan bərk acıqlanıb dedi: «Biri də bəsdir, mən sənə deyirəm».

Qumru quşu isə dediyini deyirdi: «İkisini götür, ikisini götür-r-r...»

Axırda Sağsağan başını çevirib yan-yörəsinə baxdı, gördü ki, Qumru quşundan savayı heç kəs qalmayıb. Həvsələdən çıxdı, uçub getdi. Bir daha quşlara yuva tikməyin sirrini öyrətməyəcəyini söylədi. Hə, əzizlərim, elə buna görədir ki, heç bir quşun yuvası bir-birinə bənzəmir. Hərə bildiyi kimi özünə yuva tikir.

KƏKİLLİ FƏRƏ

Bir dəfə kəkilli fərə həyət-bacada dənlənərkən birdən nəsə tappıltı ilə onun başına düşdü. «Allah sən özün saxla!» Kəkilli fərə fikirləşdi: «Axı deyəsən göy yerə tökülür. Qoy mən qaçıb bu barədə krala xəbər verim».

Beləliklə kəkilli fərə az getdi, dərə-təpə düz getdi, nəhayət pipikli xoruzla rastlaşdı.

Pipikli xoruz maraqlanıb soruşdu:

- Yolun hayanadır, ay kəkilli fərə?

Kəkilli fərə cavab verdi:

- Ah! Mən gedirəm krala xəbər verəm ki, göy sınıb yerə tökülür.

- Olar mən də sənlə gedim?

- Əlbəttə, olar.

Bu minvalla pipikli xoruzla kəkilli fərə bir-birinə qoşulub getdilər krala xəbər versinlər ki, göy yerə tökülür.

Az gedib çox dayandılar, çox gedib az dayandılar, nəhayət yastıpəncə ördəyə rast gəldilər.

Yastıpəncə ördək soruşdu:

- Belə haraya gedirsiz, ay kəkilli fərə, mərcan xoruz?

- Oh! gedirik krala xəbər verək ki, göy sökülüb yerə tökülür, - kəkilli fərə ilə pipikli xoruz birdən cavab verdilər.

- Olarmı mən da sizinlə gedim? - yastıpəncə ördək xəbər aldı.

- Niyə olmur ki, olar, - kəkilli fərə ilə pipikli xoruz bir ağızdan razılıq verdilər.

Beləliklə kəkilli fərə, pipikli xoruz və yastıpəncə ördək bir-birinə qoşulub göyün yerə töküldüyünü krala xəbər verməyə getdilər.

Az getdilər, üz getdilər, dağdan aşıb düz getdilər, yolda yağlı qaza rast gəldilər.

- Səfəriniz hayanadır, ay kəkilli fərə, pipikli xoruz, yastıpəncə ördək?- yağlı qaz onları suala tutdu.

- Eh! Gedirik krala xəbər verək ki, Göy sökülüb yerə tökülür, - kəkilli fərə, pipikli xoruz və yastıpəncə ördək bir ağızdan cavab verdilər.

- Olarmı mən də sizinlə gedim?- yağlı qaz soruşdu.

- Əlbəttə olar,- kəkilli fərə, pipikli xoruz, yastıpənca ördək xorla dedilər.

Bəli, kəkilli fərə, pipikli xoruz, yastıpəncə ördək va yağlı qaz bir-birinə qoşulub göyün yerə töküldüyünü krala xəbər verməkdən ötrü yola düzəldilər.

Beləliklə onlar dağdan aşıb, dərədan keçib yolun dabanını qırdılar, yolda qırmızısaqqal hind toyuğuna rast gəldilər.

- Siz haraya gedirsiniz?- qırmızısaqqal hind toyuğu maraqla xəbər aldı.

- Oh! gedirik krala xəbər verək ki, göy sökülüb yerə tökülür,- kəkilli fərə, mərcan xoruz, yastıpəncə ördək və yağlı qaz xorla cavab verdilər.

- Olarmı mən də sizə qoşulam, ay kəkilli fərə, pipikli xoruz, yastıpəncə ördək və yağlı qaz?- Qırmızısaqqal hind toyuğu acizanə sual verdi.

- Bu nə sözdür, əlbəttə olar, ay qırmızısaqqal hind toyuğu,- kəkilli fərə, mərcan xoruz, yastıpəncə ördək və yağlı qaz bir ağızdan razılıq verdilər.

Hə, kəkilli fərə, pipikli xoruz, yastıpəncə ördək, yağlı qaz və qırmızısaqqal hind toyuğu boy sırasına düzülüb göyün yerə töküldüyünü krala xəbər vermək üçün yola düzəldilər.

Az getdilər, üz getdilər, dərə-təpə, düz getdilər, yolda şələquyruq tülkü ilə rastlaşdılar. Şələquyruq tülkü gözlərini işıldadıb bic-bic xəbər aldı:

- Səfəriniz hansı səmtədir, ay kəkilli fərə, mərcan xoruz, yastıpəncə ördək, yağlı qaz va qırmızısaqqal hind toyuğu?

Onlar xorla belə cavab verdilər:

- Oh! gedirik krala xəbər verək ki, göy sökülüb yerə tökülür.

- Eh! Axı bu yol kralın yanına gedən yol deyil, ay kəkilli fərə, pipiyi qan xoruz, yastıpəncə ördək, ay yağlı qaz, qırmızısaqqal hind toyuğu, - şələquyruq tülkü canıyananlıqla dedi, - mən kralın yanına gedən yolu yaxşı tanıyıram. O yolu sizə göstərimmi?

- Ah, əlbəttə göstər, ay şələquyruq, - kəkilli fərə, pipikli xoruz, yastıpəncə ördək, yağlı qaz və qırmızısaqqal hind toyuğu xorla dedilər.

Beləliklə, kəkilli fərə, pipikli xoruz, yastıpəncə ördək, yağlı qaz, qırmızısaqqal hind toyuğu və şələquyruq tülkü bir-birinə qoşulub göyün yerə töküldüyünü krala xəbər verməkdən ötrü yola çıxdılar. Onlar çox gedib az dayandılar, az gedib çox dayandılar, gəlib çox darısqal, qaranlıq oyuğun yanına çıxdılar. Onu da deyim ki, bu oyuq şələquyruq tülkünün yuvasının ağzı idi. Şələquyruq tülkü özünü o yerə qoymayıb sakitcə dedi:

- Kralın sarayına gedən qısa yol budur. Əgər mənim dalımca gəlsəniz, tözliklə oraya çataçaqsınız. Qabaqda mən gedərəm. Siz mənim arxamca gəlin, ay kəkilli fərə, mərcan xoruz, yastıpəncə ördək, yağlı qaz, qırmızısaqqal hind toyuğu.

- Bıy, əlbəttə gələrik, heç şübhəsiz ki, gələrik, balam, nə üçün də gəlməyək axı? - kəkilli fərə, pipikli xoruz, yastıpəncə ördək, yağlı qaz va hind toyuğu səs-səsə verib qaqqıldaşdılar.

Bəli, şələquyruq tülkü yuvasına girdi, lakin çox uzağa getməyib kəkilli fərəni, pipikli xoruzu, yastıpəncə ördəyi, yağlı qazı va qırmızısaqqal hind toyuğunu gözləmək üçün ayaq saxlayıb geri boylandı. Əvvəlcə qırmızısaqqal hind toyuğu göz-gözü görməyən oyuğa soxulub yuvanın içinə girdi. Hind toyuğu heç beş-on addım getməmiş şələquyruq tülkü «happ» eləyib onu tutdu. Başını üzüb bədənini sol çiyninin üstünə atdı. Bundan sonra yağlı qaz içəri girdi, «happ» edib şələquyruq tülkü onun da boğazını üzdü. Bədənini qırmızısaqqal hind toyuğunun yanına atdı. Sonra yastıpəncə ördək yanlarını basa-basa yuvaya düşdü. Şələquyruq tülkü yenə «happ» eləyib ördəyin da başını üzdü, bədənini qırmızısaqqal hind toyuğu ilə yağlı qazın yanına tulladı. Bundan sonra pipikli xoruz yuvaya daxil oldu. Pipikli xoruz yuva boyunca bir neçə addım atan kimi şələquyruq tülkü sıçrayıb «happ» eləyib onu qamarladı, xirtdəyindən yapışdı. Şələquyruq tülkü pipikli xoruzu da qırmızısaqqal hind toyuğunun, yağlı qazın və yastıpəncə ördəyin yanına atdı.

Məsələ burasında idi ki, şələquyruq tülkünün ikicə dişi xoruza batmışdı. Şələquyruq tülkü xoruzun boğazından yapışan kimi xoruz bayılmış, amma ölməmişdi. Buna görə də pipikli xoruz tələş içərisində haray salıb kəkilli fərəni köməyə çağırdı. Amma qorxusundan bədəninə üşütmə düşən ağciyər kəkilli fərə dabanına tüpürüb birbaş evə qaçdı, heç zaman göyün yerə töküldüyünü krala xəbər vermədi.

SVOFFOMLU XIRDAVATÇI

Çox, çox qədim zamanlarda London körpüsünün kənarlarında mağazalar sıra ilə düzülən, qızıl balıqlar ala qapıların ətəyində üzə-üzə sağa-sola şütüyən bir əyyamda Norfok mahalındakı Svoffom adlı yerin yaxınlarında bir kasıb xırdavatçı yaşayırdı. Pul qazanmaqda çətinlik çəkən həmin xırdavatçı boğçasını çiyninə atır, itini yanına salır, qapı-qapı pay-piyada gəzib-dolaşırdı. İş günü sona çatanda biçarə xırdavatçı ayaqlarını qatlayıb oturduğuna, yatıb yuxuya getdiyinə çox sevinirdi. İş elə gətirdi ki, bir gecə o, yuxu gördü.

London şəhərinin böyük körpüsü onun yuxusuna girmişdi. Dərin yuxuya getmiş xırdavatçının qulağına səs gəldi ki, əgər o durub London körpüsünə sarı yollansa, dürlü xəbərlər eşidəcək. Gördüklərinin yuxu olduğunu dərk edən xırdavatçı əhvalını o qədər də pozmadı. Amma ikinci, üçüncu gecə də London körpüsü onun yuxusuna girdi.

Belə olduqda xırdavatçı ürəyində özü-özünə dedi: «Axı, deyəsən bu yuxumu sınaqdan keçirməyə ehtiyac var». Bu minvalla xırdavatçı durub pay-piyada London şəhərinə doğru yola düşdü.

Londonun yolu çox uzaq idi. Odur ki, körpünün üstündə dayanıb sağda-solda göyə ucalan binalara, asta-asta axan suyun parıltısına, yaxınlıqdan üzüb keçən gəmilərə tamaşa edən xırdavatçının fərəhinin həddi-hüdudu yox idi. O, bütün günü körpü boyunca var-gəl etdi, amma ürəyini sakitləşdirən bir şey eşitmədi ki, eşitmədi, arabir dayanıb gözünü çaya zillədi, amma heç nə görmədi, heç bir şey de eşitmədi. Üçüncu gün də gəlib körpünün üstündə dayanan, çayı diqqətlə gözdən keçirən xırdavatçıya bir dügəncı yaxınlaşıb dedi:

- Dostum, əbəs yerə uzun-uzadı körpünün üstündə dayanmağın məni yamanca təəccübləndirir. Bəyəm satmağa malın yoxdurmu?

- Yox, qardaş, doğrudan da yoxumdur, - xırdavatçı cavab verdi.

- Sədəqə üçün əl açmırsan ki?

-Başımı girləyə bildiyimçün hələlik sədəqəyə ehtiyacım yoxdur.

- Onda, allah eşqinə, deyin görüm, axı, sizin bu körpünün üstündə nə itiniz azıb?

- Madam ki, soruşursan, xeyirxah cənab, qoy mən sənə düzünü deyim. Yuxuda görmüşəm ki, buraya gəlsəm, xoş xəbər eşidəcəyəm.

Bunu eşidən dügəncı ürəkdən qəh-qəhə çəkdi.

- Sən allah bir işə bax, heç bilmirəm nə cür səfeh olmalısan ki, belə mənasız yuxunun ucbatından durub pay-piyada səfərə çıxasan. Onu da sənə deyim ki, ay kənddən gəlmiş ağıldan kəm zavallı gənc, elə mən də hər gecə yatıb yuxu görürəm. Lap keçən gecə yuxuda özümü Svoffomda qətiyyən

tanımadığım bir yerdə görmüşəm. Amma səhv etmirəmsə, mən Norfokdakı xırdavatçının evinin dalındakı bağın içində idim. O bağda bir dənə də nəhənə palıd ağacı vardı. Sanki o ağacın dibini oyub külli miqdarda ləl-cavahirat tapdığım da yadıma gəlir. Ay gicbəsər, bir başına vur gör ki, məgər mən o qədər axmağam ki, bir səfeh yuxuya görə çarığımın bağını bərkidib adamı tənəə gətirən səfərə çıxım? Xeyr, xeyr, yaxşı oğlan, ağlını başına cem elə, özündən müdriklərin məsləhətinə qulaq as.

Bu sözləri eşidən xırdavatçı ağzına su alıb bir kəlmə də danışmadı, amma qəlbi fərəhdən cuşə gəldi. O, iti addımlarla evə qayıdıb nəhənə palıd ağacının dibini qazıb tökdü, çox qiymətli xəzinə tapdı. Xırdavatçının var-dövləti günbəgün artdı. Pulu başından aşan xırdavatçı özünün cah-cəlalı ilə öyünsə də, allah qarşısında öz borcunu unutmadı. Belə ki, o, Svoffom yaxınlarındakı kilsənin inşasını başa çatdırdı. Gününü görüb, dövranını sürmüş xırdavatçı dünyadan köçəndən sonra yerli camaat yığışıb kilsədə ona heykəl qoydu. Daşdan yonulmuş bu heykəlin boğçası çiynində, iti də yanında idi. Belə nəql edirlər ki, mənim yalan danışmadığıma şahidlik etməkdən ötrü həmin heykəl bu günəcən o kilsədə durur.

SƏFEHİN SƏS-KÜYÜ

Biri var idi, biri yox idi, bir balaca oğlan var idi. Bir gün anası onu qoyun başı və içalatı almağa göndərdi. Uşaq qorxdu ki, birdən yadından çıxar, odur ki, yol boyu oxumağa başladı.

Qoyun başı, içalatı!
Qoyun başı, içalatı!

Oğlan xeyli yol getdi, bir də gördü ki, ingilis qabağında çəpər var, istədi ki, çəpəri dırmaşıb keçsin keçə bilmədi, yıxılıb əzildi, başladı zır-zır ağlamağa,

nə üçün getdiyi də huş-başından çıxdı. Hə, başladı başını qaşımağa, yadına düşdü, odur ki, təkrar eləməyə başladı:

Qaraciyər və göz, od və hamısı!
Qaraciyər və göz, od və hamısı!

Yolçu yolda gərək deyə yolu əlinə aldı, axırda gəlib elə bir yerə çıxdı ki, burda bir kişi qarnını tutub bar-bar bağırırdı:

Qaraciyər və göz, od və hamısı!
Qaraciyər və göz, od və hamısı!

Bu dəm kişi oğlanın yaxasından yapışdı, o ki var onu əzişdirdi, axırda oğlanı məcbur elədi ki bu sözləri desin:

Ay allah, bir də göndərmə!
Ay allah, bir də göndərmə!

Oğlan bu sözü deye-deye çıxıb getdi, gəlib bir zəmiyə çıxdı, burda bir muzdur taxıl əkirdi:

Ay allah, bir də göndərmə!
Ay allah, bir də göndərmə!

Oğlan elə hey bunu deyirdi. Odur ki, kişi tənəə gəlib başladı oğlanı əməllicə kötəkləməyə, məcbur elədi ki, bu sözləri təkrar eləsin:

Ay allah, daha çox göndər!
Ay allah, daha çox göndər!

Oğlan bu sözləri deyə-deyə aradan çıxdı, gəlib kilsənin həyətinə yetişdi, gördü ki, ölü götürürlər, amma söz dilindən düşmürdü:

Ay allah, daha çox göndər!
Ay allah, daha çox göndər!

Keşiş başaşağı oğlanın dalınça götürüldü, onu əməllicə əzişdirdi, məcbur elədi ki, aşağıdakı sözləri təkrar eləsin:

Ay allah, qoy ruhu şad olsun!
Ay allah, qoy ruhu şad olsun!

Oğlan yola düzəldi, yolda dar ağacından asılmağa aparılan itlə pişiyə rast gəldi. Amma səsini kəsmədi ki, kəsmədi.

Ay allah, qoy ruhu şad olsun!
Ay allah, qoy ruhu şad olsun!

Təmiz ürəkli camaat qəzəbdən əsib-coşdu, tözcə oğlanı yaxaladı, bir-iki kötək vurub məcbur elədilər ki, belə desin:

İtlə pişik dar ağacından asılsın!
İtlə pişik dar ağacından asılsın!

Yazıq oğlan belə də söylədi, axırda evlənməyə hazırlaşan oğlanla qızın yanından ötüb keçdi. «Ah», o dedi:

İtlə pişik dar ağacından asılsın!
İtlə pişik dar ağacından asılsın!

Gənc özündən çıxdı, oğlanı bir-iki şapalaqlayıb əmr elədi ki, bunu tekrar etsin:

Sizə sevinc arzulayıram!
Sizə sevinc arzulayıram!

Oğlan atılıb-düşdü, bu sözü deyə-deyə xəndəyə yıxılıb duşmuş iki fəhlənin yanından ötdü, yol boyu bar-bar bağırırdı:

Sizə sevinc arzulayıram!
Sizə sevinc arzulayıram!

Hirsindən dişi bağırsaqlarını kəsən fəhlələrdən biri var-kücünc toplayıb xəndəkdən çıxdı, oğlanı əzişdirdi, ona belə deməyi təvəqqe elədi:

Biri çıxdı, o *birisi da kaş çıxa!*
Biri çıxdı, o *birisi da kaş çıxa!*

Oğlan beləcə yoluna davam etdi, axırda gəlib tay gözlü bir gəncə tuş gəldi, amma dediyini deyirdi:

Biri çıxdı, o *birisi da kaş çıxa!*
Biri çıxdı, o *birisi da kaş çıxa!*

Bu, tay gözlü sahubkara çox yer elədi, odur ki, oğlanın götürüldü götürüldü, rurub o ki var kötəklədi; belə deməyi əmr etdi:

Bir tayı par-par yanır, kaş o *birisi də yansın!*
Bir tayı par-par yanır, kaş o *birisi də yansın!*

Bu sözləri beləcə tekrar-tekrar söylədi. Heç buna şəkk-şübhə ola bilməz, nəhayət gəlib bir evə çatdı, evin bir tayına od düşmüşdü. Camaat oğlanı görüb fikirləşdi ki, evə od vuran yəqin elə oğlanın özüdür, odur ki, onu birbaşa zindana apardılar. Axırı da belə oldu ki, hakim qara şlyapasını başına qoyub oğlana ölüm hökmü verdi.

HİLTON ŞEYTANI

Çox, çox əvvəllər Hilton Holda elə bir Şeytan yaşayırdı ki, siz ömründə beləsinə rast gəlməmisiniz. Gecələr, qulluqçular yatmağa gedəndən sonra əlinə keçən şeyləri alt-üst eləyərdi, şəkəri düz qabına əndərər, istiotu pivə qabına tökərdi. Bir sözlə min cür oyundan çıxardı, Gah stulları vurub yıxar, gah da stolları arxası üstə aşırardı. Oçaqdakı kömürü kürüyüb atar, mümkün qədər çox ziyankarlıq eləyərdi. Amma hərdən kefi durular, sonra!.. Şeytanın kimliyini soruşursan. Ah, bu Qarabasma kimi bir şeydir, amma sən deyən o Qırmızıpapaq kimi rəhmsiz deyil. Nə?! Sən Qarabasma, ya da o Qırmızıpapağı tanımırsan? Aman allah! Gör bir dünyanın axırı hara gəlib çıxdı. Əlbəttə, Şeytan gülməli balaca bir məxluqdur. Şeşə qulaqlı, dərisi tüklü yarı adam, yarı cin cildinə girib. İşdir xəzinə-zad gizlətməli olan, təzəcə kəsilmiş çəpişin, ya quzunun qanından onun üstünə damcıladarsan. Ya da hamısından yaxşısı budur ki, kəsilmiş heyvanı elə xəzinəyə bir torpaqlayasan. Bax, onda Şeytan göz-qulaq olar, bura gələni qorxudub qaçırdar.

Hə, harda qaldım? Deyirəm, axı, Hilton Holdakı Şeytan şər işlərə qarışır. Yox, əgər evdəki nökər-naiblər bunun əvəzinə qabağına bir qab qaymaq, ya da bal sürtülmüş şirnili Qoğal qoysaydılar, onların bir işini iki eləməzdi, mətbəxdə hər şeyi səliqə-sahmanda saxlayardı. Bir gecə, yatmağa çox gec gedən qulluqçuların mətbəxdə qulağına səs gəldi. Boylanıb gördülər ki, Şeytan Cəkin başı üstündə zənciri yellədə-yellədə oxuyur:

Axır yaman dərdə düşdüm!
Nə vaxtdır ki, ağaclardan
Şitil tutub əkməmişik.
Göy meşələr bir az orta,
Taxtasından yüyryk salaq,
Bəbələrə layla çalaq.
Böyüsünlər bala-bala,
Bəlkə bir gün adam ola.

Ağır işlər mənə düşdü,
Axır yaman dərdə düşdüm.

Beləliklə onların yazıq şeytana rəhmi gəldi, yaxınlıqdakı quşçu arvadın yanına gedib dedilər ki, bəs onu buralardan itkin salmaq üçün başlarına haranın daşını töksünlər.

- Bu, çox asan işdir,- quşçu arvad dilləndi və onlara tapşırdı ki, Şeytana gördüyu işlər üçün bir xələt vərmək lazımdır, yoxca siz düşünən kimi olmayaçaq, o dəqiqə dabanına tüpürüb bir yolluq gedəcək. Beləliklə Linkoln otlarından ona başlıqlı qolsuz, uzun üst köynəyi hazırlayıb ocağın yanına qoydular və güdməyə başladılar. Gördülər ki, budur Şeytan ocağa tərəf yaxınlaşdı, başlığı və köynəyi görüb başına keçirdi, atılıb-düşdü, bir ayağının üstündə sındıra-sındıra söylədi:

Köynəyini, papağını geymişəm,
Çətin ki, mən yaxşı işə girişəm.

Hə, Şeytan bunu deyib yoxa çıxdı, sonralar bir də onu gördüm deyən olmadı.

CƏK VƏ LOBYA TAĞI

Qədim zamanlarda bir kasıb dul arvadın Cək adında gözünün ağı-qarası bircə oğlu, bir də Ağgül adlı südlü inəyi vardı. Ana-bala gözünü inəyin südünə dikmişdi. İnək hər səhər süd verər, onlar da bazara aparıb satardı. Amma bir səhər Ağgül süd vermədi, ana-bala gözlərini döyüb baxa-baxa qaldı.

- Görəsən başımıza haranın daşını salaq, neyləyək? - deyə dul arvad əlləri ilə başını tutdu.

- Özünə gəl, ana, gedib özümə bir yerdə iş taparam – Cək onu

ovundurmağa çalışdı.

- Eh, a bala, əvvəl də bəxtimizi sınadıq, iş sarıdan da bizimki gətirmədi, - ana sözə başladı.- Yox, gərək Ağgül inəyi sataq, puluna dükan açarıq, başımıza bir çarə qılarıq.

- Di yaxşı, ana,- Cək dedi,- bu gün elə bazardır, bu saat Ağgül inəyi aparıb sataram, sonra bir şey fikirləşərik.

Beləliklə Cək inəyin başına kəndir salıb yola düzəldi. Bir az getmişdi ki, yolda məzəli qoca bir kişiyə rast gəldi.

Kişi dedi:

- Sabahın xeyir, Cək.

- Hər vaxtınız xeyir,- Cək dilləndi, amma kişinin onun adını bildiyinə bərk təəccübləndi.

Kişi xəbər aldı:

- Yaxşı, Cək, bəs yolun hayanadır?

- Bazara gedirəm, inəyimizi satmağa.

- Gör a, sən lap inək alverçisinə oxşayırsan – kişi dedi. - Hə, mənim beş dənə lobyam var, tap görüm hardadır?

- Hər əlində ikisi, biri də ağzında, - Cək düppədüz cavab verdi.

- Düzdür, tapdın,- kişi dilləndi,- budur ey onlar, əsl lobyalar. Əlini cibinə salıb xeyli cürəbəcür lobya çıxartdı, sözünə davam etdi.- Sən çox ağıllı oğlansan, dedi - gəlsənə dəyiş-düyüş eləyək – al bu lobyanı, inəyi ver. Mən razı.

- Başına hava-zad gəlməyib ki? - Cək dedi, - aldın ha?! - Eh, heç bilirsən bunlar necə lobyadır, - kişi dedi, - gecə əksən, səhər görərsən ki, başı göylərə çatır.

- Doğrudan? - Cəki maraq bürüdü. - Ola bilməz.

- Hə, düzünü deyirəm, işdir görsən ki, yalan çıxdı, onda inəyi geri qaytararsan.

- Razıyam,- deyə Cək Ağgül inəyinin kəndirini ona verdi, lobyaları cibinə doldurdu.

Cək evlərinə tərəf götürüldü. Qaranlıq düşməmiş evlərinə gəlib çatdı.

- Qayıtdınmı, Cək? - anası soruşdu.- Bəs Ağgül inək gözümə dəymir, şükür, demək satmısan. Bəs neçəyə verdin, ay oğul?

- Tapa bilməzsən, ay ana? - Cək dedi.

- Yox, elə demə, a balaca kişi! Beş funt, on, on beş, yox iyirmi ola bilməz.

- Dedim, axı, tapa bilməyəcəksən. Bu lobyalara sözün nədir? Hə, onlar sehrlidir, gecə əksən sə...

- Nə?!- Cəkin anası çımxırdı.- Sən nə yaman səfehsənmiş, kütün biri küt. Adam da Ağgül kimi inəyi, bu mahalın ən sağmal inəyini, ətliyini beş-altı gərəksiz lobyaya dəyişərmi? Götür bunları, bir də gözümə görünməsin. Götür, yoxsa onları bir-bir pəncərədən vızıldadaram. Sonra da get, yerinə gir. Bu axşam sənə nə bir qurtum su, nə də bir udum çörək verən deyiləm.

Cək suyu süzülə-süzülə çardaqdakı yatağına girdi. Elə bil gəmisi dəryada batmışdı. Bir tərəfdən anası kefinə soğan doğramışdı, bir tərəfdən də şam yeməyi əlindən çıxmışdı. Nəhayət birtəhər gözlərini yumub ac-yalavac yuxuya getdi.

Yuxudan qalxanda otaq gülməli görünürdü. Günəş otağın bir künçünə işıq salmışdı, qalan yeri qaranlıq ve toranlı idi. Cək sıçrayıb yerindən qalxdı, paltarını geyinib pəncərəyə tərəf getdi. Hə, sizcə nə görsə yaxşıdır? İşə bax, anasının pəncərədən bağçaya tolazladığı lobyalar iri tağ atmışdı, az qalırdı başı göylərə dəysin. Hə demək kişi doğru deyirmiş.

Lobyanın tağı uzanıb düz Cəkin pəncərəsindən keçirdi. Beləliklə o pəncərəni açası oldu, böyük nərdivan kimi üzü yuxarı qalxan lobya tağının üstünə çıxdı. Çıx, ha çıx, çıx ha çıx, Cək axırda gəlib göyün kəlləsinə çatdı. Burda o, dümdüz ox kimi uzun böyük bir yola rast gəldi. Beləliklə bu yolla az getdi, üz getdi axır gəlib böyük bir evə çatdı. Astanada kök, cantıraq bir arvad dayanmışdı.

- Sabahın xeyir, xanım,- Cək ədəb-ərkanla salam verdi. - Nə olar, yazığın gəlsin, mənə bir tikə çörək ver, yeyim.

Hə, əzizlərim, o, dünən gecədən indiyənəcən dilinə çörək vurmamışdı, canavar kimi acmışdı.

- Nahar eləmək istəyirsən, eləmi?- kök, cantıraq arvad xəbər aldı.- əgər burdan cəhənnəm olub getməsən, sənin özünü nahar yeməyi edəcəyəm. Mənim ərim elə adamyeyəndir, ocaqda qızardılmış oğlan uşaqlarından başqa heç nəyi ona bəyəndirmək olmur. Di tərpən burdan, yoxsa bu saat o nərildəyib gələcək.

- Ay, aman, nə olar, ay xanım, acından ürəyim sıyrılır, bir şey ver yeyim, - Cək yalvarıb-yaxardı.- Acından ölməkdənsə, qoy elə qazanda canım çıxsın.

İnsaf da yaxşı şeydir, adamyeyənin arvadı siz deyən o qədər də pis adam deyildi. Cəkin əlindən tutub mətbəxə gətirdi, iri bir tikə pendir, çörək, bir qab da süd verdi. Amma Cək çörəyini yarılamamış bütün ev kiminsə tappatarap ayaq səsindən lərzəyə gəldi.

- Aman allah! Gələn qoca ərimdir,- adamyeyən kişinin arvadı dilləndi.- İndi başıma haranın külünü töküm? Sən də cəld bura tullan görüm, - deyə əri içəri keçənə kimi Cəki sobanın içində gizlətdi.

Hə, adamyeyənin yekəliyinə şəkk-şübhə ola bilməz. Üç dənə buzovu ayaqlarından bağlayıb toqqasına bərkitmişdi, içəri girən kimi onların ayaqlarını açdı, stolun üstünə tullayıb bağırdı:

- Götür, arvad, onların bir cütünü mənim üçün qızart. Səhər çörəyini yeyim. A - ha! Burnuma nə yaxşı iy gəlir?

Deyəsən ingilisdir,
Nə yaxşı iysi gəlir.
Olsun ölü, ya diri-
Bişir onu, ver bəri.

- Boş şeydir, əzizim, - arvadı dil tökdü,- sən yuxu görursən. Bəlkə dünən naharda sənə ləzzət eləyən balaca oğlan uşağından qalan tikənin iysi burnuna gəlir. İndi isə get əvvəlcə yuyun, özünü səliqə-sahmana sal, qayıdıncı səhər yeməyin da hazır olar.

Beləliklə adamyeyən çıxıb getdi. Cək sobadan çıxıb qaçmağa hazırlaşırdı ki, arvad ona işarə etdi.

- Yuxuya gedincəyə qədər gözləyərsən, - dedi. - O həmişə səhər

yeməyindən sonra xorhaxorla gözünü yumub çimir alır.

Hə, adamyeyən səhər yeməyini yedi, sonra sandığına tərəf addımladı, qızılla dolu bir cüt kisəni götürdü, çömələb yerdə oturdu, ta başı yerə dəyənə qədər qızıllarını saydı, sonra elə xoruldamağa başladı ki, evin tirləri titrədi.

Bu vaxt Cək barmaqlarının ucunda sobadan sürüşüb çıxdı, adamyeyənin yanından keçəndə qolunun altındakı qızıl dolu kisələrdən birini çırpışdırdı. Qaça-qaça özünü lobya tağına yetirdi, sonra qızıl olan kisəni üzü aşağı tulladı. Əlbəttə, həmin kisə anasının bağçasına düşmüşdü. Sonra o özü sürüşüb aşağı endi, düş ha düş axırda gəlib evə çatdı. Hər şeyi anasına danışdı, qızılları da ona göstərib dedi:

- Yaxşı, ana, məgər lobyalar haqda mən düz demirdim? Görursən, onlar doğurdan da sehrlidir.

Beləliklə ana-bala bir kisə qızılın hesabına bir müddət yaxşıca dolandılar. Amma günlərin birində onun axırına çatdılar. Cək fikirləşdi ki, lobya tağının başında bəxtini bir də sınasa, pis olmaz. Hə, əzizlərim, bir gözəl səhər o yerindan çox erkən durdu, özünü lobya tağına çatdırdı. Çıx ha çıx, çıx ha çıx, axırda gəlib yenə əvvəl rast gəldiyi həmin yola və nəhənə evə çatdı. Hə, burda astanada həmin kök, cantıraq arvad dayanmışdı.

- Sabahın xeyir, xanım,- Cək hörmət-izzətlə salam verdi.

- Amanın bir günüdür, yazığın gəlsin, bir tikə çörək verin yeyim.

- Çıx, get burdan,- cantıraq arvad çımxırdı,- yoxsa ərim bu saat gəlib sənin özünü yeyəcək. Məgər sən buralara bir dəfə ayaq basan həmin oğlan deyilsənmi? Heç xəbərin varmı, həmin gün ərim qızıl kisələrindən birini itirib?

- Qəribədir, xanım, - Cək dilləndi,- doğru sözümdür, bu haqda mən sizə nəsə deyə bilərəm, amma o qədər acam ki, dilimə bir şey dəyməsə, dilim söz tutmaz.

Bəli, cantıraq arvad o qədər sadəlövh idi ki, oğlanı içəri aparıb yeməyə bir tikə çörək verdi. Təzəcə boğazından çörək keçmişdi ki, birdən tappa-tarapla nəhənəin ayaq səsləri gəldi. Arvad Cəki sobanın içində gizlətdi.

Hər şey əvvəlki kimi oldu. adamyeyən yenə içəri keçib dedi:

- Nə yaxşı iy gəlir.

Qızardılmış üç öküzü səhər yeməyi üçün nuş elədi. Sonra dedi:

- Arvad, o qızıl yumurta çıxardan toyuğu bəri ver görüm. Hə, arvadı əri deyəni gətirdi. Adamyeyən dedi:

- Yumurtla!

Toyuq bir qızıl yumurta yumurtladı. Sonra adamyeyən başladı başını yellətməyə, ev zağ-zağ zağıldayanacan xor-xor xoruldadı.

Bir azdan Cək barmaqlarının ucunda sürüşüb sobadan çıxdı, qızıl toyuğu tutub qoltuğuna vurdu, göz qırpımında aradan çıxdı. Amma bu dəfə toyuğun qaqqıltısı adamyeyəni yuxudan oyatdı. Cək dabanına tüpürüb təzəcə evdən çıxmışdı ki, səs-küy eşitdi:

- Arvad, arvad, mənim qızıl toyuğuma neylədin ki?! Arvadı hay verdi:

- Nə olub, əzizim?

Cək bundan başqa daha heç nə eşitmədi, özünü lobya tağına çatdırdı, içinə qor dolmuş kimi tağdan sallanıb üzüaşağı sürüşdü. Evə çatanda anasına qəribə toyuğu göstərib dedi:

- Yumurtla!

Toyuq hər dəfə yumurta çıxardandan sonra Cək bir də deyirdi:

- Yumurtla!

Hə, belə-belə işlər, amma onu deyim ki, bu, Cəki siz deyən qədər açmırdı. Çox keçmədi ki, o, lobya tağının başında bəxtini bir də sınamaq istədi. Hə, beləcə gözəl səhərlərin birində yerindən çox erkən durdu, özünü lobya tağının yanına verdi, çıx ha, çıx, çıx ha çıx axırda gəlib düz tağın kəlləsinə çıxdı. Amma bu dəfə o, birbaş adamyeyənin evinə getməyi üstün tutdu. Təzəcə gəlib evin həndəvərinə çatanda gördü ki, adamyeyənin arvadı badya əlində su gətirməyə gedir. Cək isə kolun dalında gizlənmişdi. Hə, bir azdan, o, sürünə-sürünə özünü içəri saldı, mis qazanın içində gizləndi. Bu ara evə bir tappa-tarap düşdü ki, gəl görəsən, adamyeyənlə arvadı otağa daxil oldu.

- Deyəsən, adam iysi gəlir, - adamyeyən çığır-bağır saldı.

- İysi lap burnumu qıcıqlandırır.

- Doğrumu deyirsən, əzizim?- arvadı sözə başladı.

- Əgər, bu sənin qızılını, qızıl yumurtlayan toyuğunu əkişdirən o balaca cibgirdisə, onda yəqinki sobanın içinə giribdir.

Ər-arvad sobaya tərəf götürüldu. Amma Cək xoşbəxtlikdən onun içində deyildi. Adamyeyənin arvadı dilləndi:

- Sən də iy çəkməkdə lap pərgarsan. Hə, yadıma düşdü, dünən gecə caynağına keçirdiyin oğlan uşağının iysidir də evi basıb, mən onu səhər yeməyi üçün qızartmışam. Gör necə huşsuzam. Sən neçə vaxtdır ki, ölüynən dirinin fərqini ayrıd eləyə bilmirsən ki, bilmirsən. Əcəb kişisən.

Hə, beləliklə adamyeyən səhər yeməyinə oturdu, toqqasının altını bərkitdi, amma iki dəqiqədən bir donquldayırdı:

- Yaxşı, niyə belə elədim, görək arvadıma and içdirəydim...

Sonra yerindən qalxıb anbarı, dolabları, küncü-bucağı ələk-vələk elədi, amma xoşbəxtlikdən mis qazana baxmaq ağlına gəlmədi.

Səhər yeməyinden sonra adamyeyən arvadını səslədi:

- Arvad, arvad, get mənim o qızıl arfamı bəri gətir.

Beləliklə arvad arfanı gətirib kişinin qabağına qoydu.

Sonra adamyeyən üzünü ona tutub dedi:

-Oxu!

Adamyeyən yuxuya gedənəcən ildırım kimi gur-gur gurulbayıb xoruldayanacan, arfa o ki var oxudu.

Sonra Cək mis qazanın qapağını qaldırıb siçan kimi sivişib çıxdı, sürünə-sürünə gəlib stola çatdı, əlini uzatdı, qızıl arfanı çırpışdırıb qapıya sarı götürüldu. Di gəl arfa bar-bar bağırdı:

- Ay sahibkar! Ay sahibkar!

Adamyeyən vaxtında gözünü açıb onu gördü ki, Cək arfa əlində qaçhaqaçdadır.

Cək güllə kimi gedirdi, adamyeyən onun izinə düşmüşdü, az qalmışdı ki, onu tuta, Cək bir balaca fənd işlətdi, yolunu azdırdı. Lobya tağına özünu yetirəndə adamyeyən ondan heç iyirmi yard aralıda deyildi. Gözünü açanda

Cək qəfildən yoxa çıxdı, yolun axırına gəlib çatanda onu gördü ki, Cək üzüaşağı sürüşüb yerə enir. Hə, adamyeyən ehtiyat edib belə pilləkənə bel bağlamadı. Odur ki, dayanıb gözləməyə başladı. Cək rəqibini üstələmişdi. Amma birdən arfa çığırmağa başladı:

- Ay sahibkar! Ay sahibkar!

Adamyeyən dözə bilməyib özünü lobya tağının üstünə atdı, tağ ağırlıqdan o yan-bu yana lənəər vurdu. Cək, onun arxasınca adamyeyən uzuaşağı sürüşdü. Bu vaxt Cəkin ayağı yerə dəydi, nəhayət gəlib evlərinin həndəvərinə çatdı.

Sonra anasını harayladı:

- Ana, ay ana! Töz ol baltanı mənə ver, baltanı mənə ver. Anası əlində balta özünu ona çatdırdı, amma lobya tağının yanında qorxub yerində qaldı, çünki buludların içindən aşıb keçən adamyeyənin baldırları görünürdü.

Amma Cək tullanıb baltanı əlinə aldı, lobya tağına elə zərbə endirdi ki, tağ para-para oldu. Adamyeyən hiss elədi ki, lobya tağı lənəər vurub əsim-əsim əsir, odur ki, nə baş verdiyinə baxmağa macal tapmadı. Cək balta ilə bir zərbə də endirdi, lobya tağı yerindən qopub yerə sərildi. Adamyeyən kəllə-mayallaq olub tağı sındırdı, lobya tağı da üstünə düşdü.

Sonra Cək anasına qızıl arfanı göstərdi. Hə, onu göstərməkdən, qızıl yumurtaları satmaqdan nə fayda? Faydası odur ki, Cəklə anası xeyli var-dövlət sahibi oldu. Cək ürəyi istəyən şahzadə qızla evləndi, o vaxtdan onlar xoşbəxt ömür-gün sürdü.

ÜÇ AYI HAQQINDA NAĞIL

Biri vardı, biri yoxdu, çox-çox qədim zamanlarda bir meşədə üç ayı yaşayırdı. Onlardan biri bapbalaca və arıq idi. İkinci ondan bir qədər canlı, üçüncüsü isə çox yekəpər, zırpı bir ayı idi. Onlardan hər birinin özünün sıyıq

qazanı vardı. Balaca ayının qazanı bapbalaca, orta boylu ayının nisbeten bvjuk, yekəpər, zırpı ayının qazanı çox iri idi. Ajıların hərəsinin oturmara bir stulu vardı. Çılız ayının stulu balaca, orta boylu ayının stulu iri, yekəpər, zırpı ayının stulu isə çox iri idi. Bundan başqa ayıların hərəsinin yatmağa bir çarpayısı da var idi. Cılız ayının çarpayısı bapbalaca, orta boylu ayının çarpayısı iri, yekəpər, zırpı ayının çarpayısı isə lap böyük idi.

Günlərin bir günu ayılar nahara sıyıq bişirib soyumaq üçün qazanlarına doldurdular, çıxıb meşədə var-gəl etdilər ki, sıyıq yaxşıca soyusun. Yoxsa ayılar töz-teləsik sıyığı yeməklə ağız-burunlarını yandıra bilərdilər. Bəli, ayılar meşədə gəzişərkən onların evinə qoca bir qarı gəldi. Qarı təhər-töhüründən yaxşı adama oxşamırdı. Belə ki, o əvvəl-əvvəl pəncərədən boylandı, sonra açar deşiyindən içərini gözdən keçirdi, evdə heç kəsin olmadığrını yəqin edib cəftəyə əl atdı. Qapı qıfıllı deyildi, çünki ayılar xeyirxah ayılar idi. Onlar ömrü boyu heç kəsə ziyan vurmamışdı. Odur ki, kiminsə onlara ziyan verəcəyi də ağıllarına gəlməmişdi.

Beləliklə balacaboy qarı qapını açıb evə girdi. Stolun üstündə sıyıq görəndə gözlərinə işıq gəldi. O, yaxşı, imanlı qarı olsaydı, ayıların evə qayıtmasını gözləyərdi, çox guman ki, ayılar onu nahara dəvət ederdi. Axı onlar xeyirxah ayılar idi. Əlbəttə, onlar ayı kimi bir balaca kobud olsalar da, çox mehriban, qonaqpərvər idilər. Amma qarı sırtıq, abırsız arvad idi. Ona görə də sıyığı yeməyə başladı.

Qarı əvvəlcə yekəpər ayının qazanındakı sıyığın dadına baxdı. Sıyıq isti idi. Qarı üzünü sıyığa tutub çox ədəbsiz bir söz işlətdi. Sonra orta boylu ayının sıyıq payını barmaqlayıb tamına baxdı. Bu sıyıq da yemək üçün çox cojyr idi. Qarı yenə ağzını açıb, gözünü yumdu. O, sonra cılız ayının qazanına yaxınlaşıb sıyığın dadına baxdı. Sıyıq nə çox isti, nə də çox soyuq idi. Yeyilməli vaxtı idi. Sıyıq qarının xoşuna gəldi, süpürləyib hamısını yedi. Amma qarnı doymadı, çünki xırda qazanda bir doyumluq sıyıq yox idi. Buna görə də şıltaq qarı balaca qazanın da ünvanına bir neçə nalayiq söyüş yağdırdı.

Bir az sonra qarı yanını basıb yekəpər ayının stulunda oturdu. Stul qarıya

çox bərk görünürdü. Odur ki, durub orta boylu ayının stulunda əyləşdi. Bu stul da qarıya çox yumşaq gəldi. İşi belə görən qarı durub çəlimsiz ayının stulunda oturdu. Stul nə çox bərk, nə də çox yumşaq idi. Əsl qarının malı idi. Qarı stulda o qədər oturdu ki, stulun altlığı qopub düşdü, stuldan yıxılıb tappıltı ilə döşəməyə dəydi. Şıltaq qarı özünü düzəldib bu stula da söyüş yağdırdı.

Qarı sonra durub ayıların yuxarıdakı yataq otağına qalxdı. O, əvvəlcə özünü yekəpər ayının çarpayısına yıxdı, gördü ki, bu çarpayının baş tərəfi çox hündürdür. Ayağa qalxıb orta boylu ayının çarpayısına qurbağa kimi sərildi. Bu çarpayı isə ayaq tərəfdən qarıya çox hündür gəldi. Odur ki, qalxıb bapbalaca, çəlimsiz ayının çarpayısında şelləndi. Bu çarpayı nə baş, nə də ayaq tərəfdən çox hündür deyildi. Əsl qarı deyən idi. Beləliklə qarı üst-başını yaxşıca basdırıb çarpayıda o qədər uzandı ki, onu möhkəmcə yuxu tutdu.

Bu vaxt ayılar evə nahar etməyə qayıtdılar. Qarı yekəpər ayının qaşığını sıyıq qazanının içində qoymuşdu.

- Kimsə mənim sıyıq payımı yeyib!- yekəpər ayı acıqlı-acıqlı donquldandı.

Orta boylu ayı baxıb gördü ki, onun qaşığı da sıyığın içindədir. Yaxşı ki, qaşıqlar taxtadan idi. Əgər gümüşdən olsaydı, şıltaq qarı qaşıqarı çoxdan cibinə qoyardı.

- Kimsə mənim sıyıq payımı yeyib! - orta boylu ayı gileyləndi.

Bapbalaca, çəlimsiz ayı oz qazanına baxanda gördü ki, onun da qaşığı qazanın içindədir, qazan da boşdur.

- Kimsə mənim sıyığımın hamısını yeyib – çəlimsiz ayı ağlamsındı.

Balaca ayının nahar payının tamam yeyildiyini görən ayılar evi gözdən keçirməyə başladılar. Məsələ burasında idi ki, qarı yekəpər ayının stulundan duranda onu yerinə düz qoymamışdı.

- Kimsə mənim stulumda oturub!- deyə yekəpər ayı yenə də zabitəli, kobud səslə donquldandı.

Qoça qarı orta boylu ayının da oturduğu yumşaq taxtı vurub yanı üstə yıxmışdı.

- Kimsə mənim stulumda oturub!- orta boylu ayı yenə də gileyləndi.

Heç bilirsiniz yaramaz qarı üçüncü stulun başına nə oyun gətirmişdi.

- Kimsə mənim stu lumda o qədər oturub ki, onun oturacağı sınıb tökülüb!- çəlimsiz, balaca ayı güclə eşidilən səslə ah-vay etdi.

İşi belə görən ayılar günahkarı tapmaq üçün yuxarı otağa qalxdılar.

Hə, qarı yekəpər ayının yasıtığını dartıb yerini dəyişmişdi.

- Kimsə mənim çarpayımda uzanıb! - zırpı ayı gur-gur guruldadı.

Qoca qarı orta boylu ayının mütəkkəsini də dartıb yerinden götürmüşdü.

- Kimsə mənim yerimdə yatıb! - orta boylu ayı gileyləndi.

Bapbalaca, çəlimsiz ayı öz çarpayısına baxmağa gələndə mütəkkənin öz yerində, balışın da onun üstündə olduğunu gördü. Həm də balışın üstündə qarının yöndəmsiz, çirkli başı da gözünə dəydi. Qarının orda ne işi ola bilərdi.

- Kimsə mənim yerimdə yatıb. O, hələ də mənim çarpayımın üstündədir. - Bapbalaca, çəlimsiz ayı ağlamsındı.

Qarı yekəpər ayının qulaq batıran kobud səsini yuxuda eşitdi. Amma o, elə dərin yuxuya getmişdi ki, bu səs ona külək vıyıltısını, çaxan şimşəyin gurultusunu andırırdı. Orta boylu ayının səsi də qarının qulağına çatdı, amma qarı elə bildi ki, kimsə yuxuda sayıqlayır. Qarı bapbalaca, çəlimsiz ayının sızıltılı səsini eşidəndə juxudan dik atıldı. Ayaq üstə dikələn qarı üç ayının çarpayının bir tərəfində dayandığını görüb cəld o biri çarpayının üstünə sıçradı, pəncərəyə sarı qaçdı. Bu vaxt pəncərə açıq idi, çünki mehriban, səliqəli ayılar səhər tözden yuxudan duran kimi həmişə yataq otağının pəncərəsini taybatay açırdılar. Xırda boylu qarı pəncərədən bayıra tullandı. Guppultu ilə yerə dəyəndə qarının boynu sındımı, yoxsa meşəyə qaçıb orada itib-batdımı, ya da yol tapıb meşədən çıxdımı, tutulub polis rəisinin yanına aparıldımı, yoxsa avara-sərgərdanlar üçün islah evinə göndərildimi, mən sizə heç nə deyə bilmərəm. Amma onu deyə bilərəm ki, qaçıb aradan çıxmış qarı bir də heç vaxt ayıların gözünə görünmədi.

QARI VƏ DONUZ BALASI

Günlərin bir günu qarı ev-eşiyini silib-süpürəndə əyri-üyrü altı penslik pul tapdı.

- Bıy, pərvərdigara, - qarı sevincək dilləndi,- bu altı pensi mən neyləyim? Yaxşı olar ki, bazara gedib bir donuz balası alım.

Evə qayıdanda qarı yolun bir yerində pilləkəndən qalxıb keçməli idi. Yolun bu hissəsinə yetişəndə donuz balası tərslik edib pillələri dırmaşmaq istəmədi.

Qarı ətrafa göz gəzdirib bir it gördü. O, iti səsləyib çağırdı:

- İt! Ay it! Gəl bu donuz balasını qap. Bu çər dəymiş pillələri dırmaşmasa, heç axşama kimi də gedib evə çatmayacağam.

Tərs donuz balası yenə də yerindən tərpənmədi.

Qarı bir az irəliləyib bir çubuq gördü. O, üzünü çubuğa tutub kömək dilədi:

- Çubuq! Ay çubuq! Sən iti döy! Çünki it donuz balasını dişləmək istəmir. İt donuzu dişləməsə, o, pillələri dırmaşmayacaq, mən də axşama kimi küçələri ələk-vələk edəcəyəm.

Amma nə faydası ki, çubuq da sözə baxmadı.

Qarı bir az da qabağa gedib bir ocağa rast gəldi. Qarı xahişə başladı:

- Ocaq! Ay ocaq! Çubuğu yandır. Bilirsənmi, çubuq iti döymək istəmir; odur ki, it də donuzu dişləmir; donuz balası da tərslik edib pillələri dırmaşmır, ona görə də mən axşama kimi gedib evə çatmayacağam.

Amma ocaq da qarının sözünü saya salmadı.

İşi belə görən qarı bir az da irəliləyib suyla rastlaşdı.

O, kövrək səslə sudan imdad istədi:

- Su! Ay su! Ocağı söndür, ocaq çubuğu yandırmaq istəmir; buna görə də çubuq iti döymək istəmir, it də donuz balasını dişləmir, donuz balası da pillələri çıxmaq istəmir. Belə getsə, mən gün batanacan evə gedib çıxa bilməyəcəyəm.

Bunun da bir faydası olmadı, çünki su axıb ocağı söndürmədi.

Qarı bir az da gedib öküzlə rastlaşdı. Əlacını allah kəsmiş qarı, öküzə

müraciət etdi:

- Öküz! Ay öküz! Get suyu iç, su ocağı söndürmək istəmir, ocaq çubuğu yandırmaq istəmir, odur ki, çubuq da iti döymək istəmir, it də donuz balasını qapmaq istəmir, donuz balası da tərs damarına salıb pillələri dırmaşmır.

Mənə bu işdə kömək eləyən olmasa, axşama kimi küçədə qalmalı olacağam.

Qarının sözləri öküzə də təsir etmədi. Öküzdən əli üzülən qarı bir az da irəli gedəndən sonra bir qəssabla üz-üzə gəldi.

O, qəssabdan kömək istədi:

- Qəssab qardaş! Ay qəssab qardaş! Get öküzün başını kəs, çünki o, su içmək istəmir, su ocağı söndürmək istəmir, ocaq isə çubuğu yandırmaq istəmir, çubuq da iti döymək istəmir, odur ki, it də donuz balasını dişləmək istəmir. donuz balası da tərslik edib pillələri çıxmaq istəmir. Əgər belə getsə, axşam düşənə kimi evə yetişə bilmərəm axı.

Qəssab da qarının sözlərinə məhəl qoymadı.

Qarı bir azca da getdi, kəndirə rast gəldi. Qarı kəndiri köməyə çağırdı:

- Kəndir! Ay kəndir! Sən qəssabı boğazından as, ona görə ki, qəssab öküzü kəsməyəcək, öküz də suyu içməyəcək, su da ki, ocağı söndürməyəcək, ocaq çubuğu yandırmasa, o da iti döyməyəcək, it isə donuz balasını qapmadığına görə o da tərslik edib pillələri çıxmayacaq, buna görə də mən axşamacan gedib evə çatmayacağam.

Bunun da xeyri olmadı. Kəndir qəssabı boğmadı.

Bəli, qarı bir az da qabağa getdi, kəsəyənlə üzbəüz gəldi.

O, üzünü kəsəyənə tutub dedi:

- Kəsəyən! Ay kəsəyən! Sən canın, get kəndiri çeynəyib-did. Bilirsənmi, kəndir qəssabı boğmaq istəmir, qəssab isə öküzün başını kəsmək istəmir, odur ki, öküz də suyu içmək istəmir, su da ki, ocağı söndürmək istəmir, ocaq çubuğu yandırmaq istəmir, çubuq da iti döymək istəmir, it də donuz balasını qapmaq istəmir, donuz balası isə tərslik edib pillələri qalxmır, axı belə getsə, qaranlıq düşənə kimi küçələrdə qalmalı olacağam.

Kəsəyən də qarının özlərinə əhəmiyyət vermedi.

Qarı bir az da irəli getdi, pişiye tuş gəldi. O, sevincək pişiyi dilə tutdu:

- Pişik! Ay məstan pişik! Get kəsəyənin boğazını üz, çünki kəsəyən kəndiri çeynəmək istəmir, ona görə də kəndir qəssabın boynuna keçmək istəmir, odur ki, qəssab öküzü kəsmək istəmir, öküz isə suyu içmək istəmir, su da öz növbəsində ocağı söndürmək istəmir, bunu görən ocaq da çubuğu yandırmır, çubuq da gedib iti döymək istəmir, it isə donuz balasını qapmaq istəmir, donuz balası da tərslik edib pillələri qalxmır ki, qalxmır. İş belə getsə, axşama kimi gedib evə çatmayacağam.

Qarının sözlərini diqqətlə dinləyən pişik gözünü qıyıb bic-bic dedi:

- Qarı nənə, sən ordakı inəyin yanına gedib mənə bir nəlbəki süd gətirsən, kəsəyəni tutub öldürərəm.

Beləliklə qarı kor-peşman çıxıb inəyin yanına getdi.

Məsələdən agah olan inək qarıya dedi:

- Qarı nənə, sən ordakı küləş tayasından mənə bir çənəə saman gətirsən, sənə bir nəlbəki süd verərəm.

Bəli, qarı küləş tayasının yanına gedib inəyə bir çənəə saman gətirdi.

İnək samanı gövşəyən kimi qarıya bir nəlbəki süd verdi. Qarı südu götürub pişiyin yanına gəldi.

Pişik südü başına çəkib kəsəyəni sıxma-boğmaya saldı, canına qorxu düşmüş kəsəyən kəndiri didişdirməyə başladı, kəndir boğazına keçmiş qəssab öküzü kəsməyə girişdi, naçar qalmış öküz cumub suyu içməyə başladı, su isə axıb ocağın üstünə töküldü, ocaq gedib çubuğu yandırdı. Canına isti keçən kimi çubuq iti döyməyə başladı, it çumub donuz balasını dişləm-dişləm elədi, canını qorxu almış donuz balası pillələri soncuqlaya-soncuqlaya çıxdı, beləliklə qarı həmin axşam evinə çatdı.

BU, MƏN ÖZÜMƏM

Bir zamanlar Şimal ölkəsində gözdən uzaq guşədə darısqal evdə yoxsul dul bir qadın yaşayırdı. Bu qadının altı yaşlı oğlundan başqa kimsəsi yox idi.

Dul qadının evinin qapısı təpəliyə sarı açılırdı. Evin dörd tərəfi gölməçələr, iri daşlarla əhatə olunmuşdu. O ətrafda nə başqa ev, nə də həyat nişanəsi gözə dəyirdi. Dul qadının ən yaxın qonşuları dərədə məskən salmış pərilər, bir də yol boyu uzun otların arasında qaçdı-tutdu oynayan əcinnələr idi.

Palıd budaqlarının arasından bir-birini səsləyən «Mehriban məxluqlardan və qaranlıq gecələrdə hoppanıb pəncərənin qabağına düşən titrək işıqlardan qadın çoxlu-çoxlu nağıl söyləyə bilərdi. Bu evdə İllərlə tənha ömür sürdüyünə baxmayaraq qadın oranı tərk etmək niyyətində deyildi, çünki bu mənzil üçün kirayə haqqı istəyən yox idi.

Amma gecələr uzun müddət oyaq qalmaq dul qadının xoşuna gəlmirdi, qəzavü-qədərdən uzaq olsun deyə, şam yeməyini yeyən kimi gur ocaq qalayıb yorğan-döşəyə girirdi. Qorxulu bir şey baş verəndə qadın həmişə başını balışının altına soxurdu.

Di gəl, töz yatağa girmək balaca oğlanın ürəyincə olmurdu. Anası onu yatmaq uçun səsləyəndə özünü eşitməməzliyə vurub ocaq başında elə hey oynayırdı.

Bəli, oğlan dünyaya göz açan gündən ipə-sapa yatmır, sözə qulaq asmırdı. Buna görə də zavallı ana öz oğlunu töz-töz danlayırdı. Amma qadın oğlanı özünə nə qədər çox ram etməyə çalışsa da, oğlan daha da çızığından çıxıb anasının sözlərini saya salmır, adətən öz bildiyini edirdi.

Amma bir qış axşamı güclü külək vıyıltı ilə qapıya çırpılanda, pəncərənin çərçivəsini şaqqıldadanda qadın oğlunu ocaq başında oynayan qoyub heç cür yatağa girə bilmədi. O çox yaxşı bilirdi ki, belə gecələrdə pərilər və başqa ruhlar hər yerə soxulur, adamın başına min bir oyun açırdılar. Odur ki, qadın oğlunu dərhal yerinə girsin deyə dilə tutdu:

- Ay oğul, belə gecədə ən təhlükəsiz yer çarpayıdır.

Amma oğlan tərslik edib çarpayısına uzanmadı. İşi belə görən qadın

oğlunu hədələyib bildirdi ki, onu çubuqla kötəkləyəcək. Bunun da heç bir faydası olmadı.

Qadın çox yalvarıb-yaxardı, lakin oğlu inadla başını silkələdi. Axırda hövsələsi tükənən qadın qışqıra-qışqıra deyəndə ki, pərilər gəlib onu aparacaq, oğlan dişini ağardıb söylədi ki, kaş pərilər onu aparaydı. Oynamaq üçün yoldaş tapmaq onun lap ürəyindən olardı.

İş bu yerə çatanda biçarə ana göz yaşlarını sel kimi axıdıb ümidsiz halda yerinə uzandı. O, əmin idi ki, bu sözlərdən sonra nəsə qorxulu şey baş verəcək. Anasının ah-ufuna məhəl qoymayıb oğlan oçağın başında ketilin üstündə oturdu.

Oğlan bir müddət ocağın başında tək-tənha oturandan sonra buxarıdan gələn qanad səsləri eşitdi. Çox keçməmiş oğlanın yanına ağla gəlməyəcək dərəcədə bapbalaca, nermənazik bir qız düşdü. Boyu güclə bir qarış olan bu qızın gümüşü telləri, zümrüd kimi yaşıl gözləri, İyun gülləri kimi al-qırmızı yanaqları vardı.

Oğlan başını döndərib təəccüblə qıza baxdı:

- Oo! Ay qız, sənin adın nedir? Səni necə çağırım?- o soruşdu.

- Öz adımla,- qız titrək, zərif səslə cavab verib oğlanı təpədən-dırnağa süzdü. - Bəs səni necə çağırırlar, oğlan?

- Elə məni də öz adımla,- oğlan ehtiyatla cavab verdi. Beləliklə onlar birlikdə oynamağa başladılar.

Qız bir neçə qəşənə Oyun göstərdi. O, güldən gözləri çıppıldayan diri heyvanlar, xırda evlərin üstündə yaşıl yarpaqlı budaqları yırğalanan ağaclar, budaqlara çıxmış bapbalaca arvadlar yaratdı. Qız ağzını açıb arvadların üzünə hava üfürən kimi onlar gəzişə-gəzişə əməlli-başlı danışmağa başladılar.

Amma ocaqdakı od getdikcə öləziyib işığı azaldı. Oğlan çubuqla odu qurdaladı, gözlər işarıb işıq saçdı. Elə bu dəm qızmar bir köz sıçradı. Sizcə köz haraya düşse yaxşıdır, dyz pərinin cuppulu ayağının üstünə.

İlahi, qızdan bir qışqırıq qopdu ki, oğlan çubuğu yerə atıb əllərilə qulaqlarını tutdu. Ət ürpəşdirən qışqırıq səsi getdikcə şiddətlənib açar

yerindən uğultu ilə içəri dolan küləyin vıyıltısını andırdı.

Bacadan yenə səs eşidildi, amma bu dəfə gələnin kim olduğunu görmək üçün gözləməyə ürək etməyib oğlan birbaşa yerinə cumdu. Yorğanı başına çəkib qorxudan əsə-əsə qulağını şəkləyib nə baş verdiyini bilmək istədi.

Bacanın içindən çox qəzəbli səs gəldi:

- Orda kim var, nə olub, balam?

- Bu, mənim özüməm,- pəri içini çəkdi,- ayağım yanıb.- U-u-f, U-u-u-f!

- Kim yandırıb?- səs əsib-coşdu. Bu dəfə daha yaxından eşidildi. Oğlan başını yorğanın altından azacıq çıxardıb bacanın ağzından bayıra çıxmış ağappaq bir üz gördü.

- Bu, mən özüməm də! - pəri-uşaq yenə ağlamsındı.

- Əgər sənin özün edibsənsə, - pəri-ana hikkə ilə qışqırdı, - onda bəs niyə qaraçılıq eləyirsən? Bunu deyən ana pəri arıq uzun qolunu bacadan bayıra çıxardıb bala pərinin qularından yapışdı, bura-bura dalınca dartdı və bacanın içində yoxa çıxdı.

Balaca oğlan uzun müddət yata bilməyib oyaq qaldı. Diqqətlə ətrafı dinləyib ana pərinin yenə qayıdıb-qayıtmayacağını bilmək istədi. Səhəri gün axşam şam edəndən sonra oğlunun həvəslə yerinə uzanıb yatmaq istədiyini görən ananın təəccübündən əli üzündə qaldı.

- Allah, sənə qurban olum, axır ki, oğlum imana gəlib, daşı ətəyindən töküb! - Dul qadın öz-özünə sevinc içində pıçıldadı. Amma bu vaxt şıltaq oğlan fikirləşirdi ki, gələn dəfə pəri oynamağa gələndə o, bu dəfəki kimi asanlıqla yerinə girib yorğanı başına çəkməyəcəkdir.

PİŞİKLƏRİN ŞAHI

Bir qış axşamı məzarçının arvadı qara pişiyi Qoça Tomla buxarının başında üzbəüz oturub mürgü döyə-döyə ərinin evə gəlməsini gözləyirdi. Evin kişisini gözləməkdən onların gözlərinin kökü saraldı, amma o gəlib çıxmadı.

Nəhayət kişi qaça-qaça gəlib evə girdi və «Tommi Tildram kimdir? sualını elə qorxunc səslə çığıra-çığıra tekrar etdi ki, arvadı da, qara pişik də gözlərini ona dikib nə baş verdiyini bilmək istədilər.

- A kişi, bu nə işdir belə?- arvad təəccüblə soruşdu, - axı sən niyə Tommi Tildramın kim olduğunu bilmək istəyirsən?

- Ah, arvad, qulaq as, başıma gələni sənə neql eləyim.

Qoca Fordays cənablarının həndəvərində qəbir qazarkən necə olubsa, məni yuxu tutub. Bircə onu bilirəm ki, pişik miyoltusu eşidib yuxudan ayıldım.

- Miyao!?- qoca Tom maraqlanıb xəbər aldı.

- Bəli, bəli, əlbəttə miyao! Odur ki, boylanıb qəbirin yan-yörəsindən nəzər saldım. Sizcə nə görsəm yaxşıdır, hə?

- Eh, ay kişi, sən də söz danışdın da! Mən hardan bilim sən nə görmüsən?- məzarçının arvadı çiynini dartdı.

- Qulağın məndə olsun, arvad, bax bizim bu Toma oxşayan doqquz dənə qara pişik gördüm. Pişiklərin hamısının sinəsində ağ xal vardı. Heç bilirsiniz o pişiklər nə aparırdı? Desəm ki, üstünə qara məxmərdən örtük çəkilmiş xırda bir tabut, inanmazsınız. Bəli, örtüyün üstündə də bir qızıl tac var idi. Tabutu apara-apara pişiklər hər üç addımdan bir uca səslə Miyao deyirdi.

- Yenə Miyao!- qoca Tom heyrətləndi.

- Bəli, bəli, miyao!- məzarçı cavab verdi, - pişiklər mənə lap yaxınlaşdığına görə onları aydınca gördüm. Hamısının gözündə bir cürə yaşıl işıq yanırdı. Vay, vay, pişiklərin hamısıl mənə tərəf gəlirdi. Səkkizi tabutu gətirir, hamısından böyük doqquzuncu pişik qabaqda şəstlə yeriyirdi. Arvad, sən bir bizim Tomun üzünə bax. Sanki mən də deyənlərin hamısını Tom çoxdan bilir.

- Ay kişi, sözünü yarımçıq qoyma,- arvad dilləndi, - Tomun bura nə dəxli var, ondan ziyan gəlməz.

- Hə, dediyim kimi, onlar asta-asta kədər içində mənə taref irəliləyir, hər üç addımdan bir «miyao» deyərək şivən qoparırdılar.

- Miyao? - qoca Tom yenə maraqla xəbər aldı.

- Əşi, dedim ki, Miyao da! Bu minvalla pişiklər miyoldaşa-miyoldaşa gəlib Fordays cənablarının qəbri ilə üz-üzə dayandılar. Axı, mən də orda idim. Pişiklər sükut için də dayanıb gözlərini üzümə zillədilər. Vay, dədə vay, qorxudan tüklərim qabardı! Ay arvad, sən allah, bir Toma bax! Bu məlun pişik da onlar kimi üzümə baxır ey!

- Əşi, sözünü yarımçıq qoyma, - arvad dedi.- Tomdan heç bir ziyan gəlməz.

- Arvad, axırıncı sözüm nə oldu? Aha, onu deyirdim ki, pişiklər sükut içində mənə baxanda tabutun qabağında gələn pişik irəli yeriyib gözlərini gözümə dikib dedi - bəli, arvad, birdən elə bilərsən yalan deyirəm ha! A tövbe, o pişik hüznlü səslə mənə, yenə deyirəm, mənə dedi:

- Tom Tildrama çatdır ki, Tim Tildram vəfat edib.

Ona görə də mən sizdən Tom Tildramı tanıyıb tanımadığınızı soruşurdum. Axı, mən Tom Tildramı tanımadığım halda Tim Tildramın ölümünü ona necə xəbər verim?

- Ay kişi, qoça Toma bax bir, sən allah, Toma bir bax! - məzarçının arvadı təşvişlə çığırdı.

Bəli, məzarçı çevrilib Tomu süzdu. Tom özünü dəyirman xoruzu kimi dartıb gözünü sahibinə zilləmişdi. Nəhayət Tom səsini başına atıb qışqırdı:

- Sən deyirsən ki, qoca Tim ölyb! Onda pişiklərin şahı mənəm! Tom sözünü qurtaran kimi bacaya cumub yuxarı dırmaşdı, bir daha Tomu görən olmadı.

ÜÇ DİLƏK

Biri var idi, biri yox idi, çox-çox illər bundan əvvəl böyük meşənin ətəyində kasıb bir odunçu yaşayırdı. O, hər gün meşəyə odun qırmağa gedirdi. Günlərin birində meşəyə getməyə hazırlaşırdı, arvadı heybəsini yeməklə doldurdu, su qabına su doldurub çiynində aşırdı ki, açanda, susayanda

təntiməsin. Kişi böyük palıd ağacının üstündə nişanəah qoymuşdu, fikirləşirdi ki, kəsib doğrasa, bir araba odunu çıxar. Ağacın həndəvərinə gəldi, baltanı əlinə alıb yuxarı qaldırdı, elə bildi ki, bircə zərbə ilə ağacı böyrü üstə yıxacaq. Hı deyib zərbə ilə ağacı aşırmaq istəyirdi ki, qulağına inilti gəldi, hardansa bir pəri çıxıb qabağında dayandı, yalvarıb-yaxardı ki, bəs bu ağacla işi olmasın. Kişi yerindəcə donub qaldı, əcəb işiydi, heyrət və qorxudan ağzında dili qurudu. Handan-hana özünə gəlib dedi:

- Yaxşı, - sözünü yerə salmaram.

- Bilirsən, mənim üçün böyük iş gördün, - pəri razılıq etdi, - elə bilmə ki, yaxşılığını unudacağam yox, mən də əvəzində üç diləyini yerinə yetirəcəyəm. Bunu deyib yoxa çıxdı. Odunçu heybəsini çiyninə aşırıb su qabını toqqasına bərkidib evinə qayıtdı.

Di gəl yol da uzandıqca uzanırdı. Bir az əvvəl qarşısına çıxan qəribə məxluq odunçunu lap hejrətə gətirmişdi. Nəhayət evinə çatan kimi hər şeyi unutdu, oturub istirahət etdi. Belkə bu da pərinin əməli idi. Hardan bilmək olar? Cırthacırtla yanan ocağın yanında təzəcə əyləşmişdi ki, əməllicə açdığını hiss elədi. Amma hələ şam yeməyinə xeyli qalmışdı.

- Əzizim, yeməyə bir şey varındımı? - arvadına dedi.

- Yoxdur. Hələ yemək vaxtına iki saatdan çox qalıb.

- Ah!- odunçu içini çəkdi - kaş elə, bax, burda qabağıma yaxşıca qara pudinq qoyaydılar, doyunca yeyərdim.

Sözünü təzəcə deyib qurtarmışdı ki, tappa-tarapla, şappıldaya-şappıldaya bacadan bir-birinə bağlanmış qəşənə qara pudinqlər üzü aşağı gilləndi. Hə, kişinin arzuladığı elə bu idi.

Əgər odunçu pudinqlərə beş dəfə baxdısa, arvadı üç dəfə artıq baxdı.

- Hə, bunlar nədir?! - arvad heyrətini gizlədə bilmədi.

Odunçu məcbur olub səhərki nağılını necə vardısa, əvvəldən axıracan arvadına söylədi. Kişi danışanda hirsindən arvadın dişləri bağırsağını kəsirdi. Söhbətini tamamlayan kimi arvadı gül ağzını açdı:

- Əbləhin biri əbləh, səndən adam olmaz, sən ki səfehin yekəsisən, Cək.

Görüm bu pudinqlər sənin burnunda bitsin. Ah, bilsən mən bunu necə arzulayıram.

Hə, bu vaxt evin kişisi əstəğfürullah deməmiş, burnunun ucunda bir-birinə bağlanmış iri qara pudinq bitdi.

Kişi əlini atıb burnundakını qoparmaq istədi, amma qopmadı ki, qopmadı. Arvadı güc gəldi, yenə bir şey çıxmadı. İkisi də bir-birinə qoşulub dartdılar, dartdılar amma yekə burunu yerindən qopara bilmədilər.

- Hə, bəs indi bunun axırı nə olacaq? - kişini fikir götürdu.

- Sən deyən o qədər də pis deyil, - arvadı gözünü ərinə zilləyib urək-dirək verdi.

Sonra odunçunun ağlına gəldi ki, əgər diləyini desə, hər şey qaydasına düşəcək. Odur ki, bunu töz eləmək lazımdır. Hə, bu dəfə diləyi bu oldu ki, o qara pudinq burnundan qopub onu rahat buraxsın. Belə, belə işlər, pudinq elə həmin anda stolun üstündəki boşqaba düşdü. Əgər evin kişisi və arvadı qızıl arabaya minib özləri üçün gəzməyibsə, ya da ipəkdən, atlasdan paltar geyməyibsə, bəs onda niyə də onlar heç olmazsa, şam yeməyi üçün gözəl qara pudinqi nuş eləməsin. Axı, kişi bunu ürəkdən arzulamışdı.

AĞCA SİÇAN VƏ QARACA SİÇAN

Biri vardı, biri yoxdu bir Ağca siçanla Qaraca siçan vardı. Ağca siçanla Qaraca siçan bir damın altında yaşayırdı. Siçanların hər ikisi borç almağı xoşlayırdı. Ağca siçan borc alan kimi Qaraca siçan da borc alırdı.

Bir gün Ağca siçan bir dənə buğda sünbülü borc aldı.

Qaraca siçan da dostundan geri qalmayıb bir dənə buğda sünbülü borc aldı.

Ağca siçan pudinq bişirən kimi, Qaraca siçan da pudinq bişirdi.

Bəli, Qaraca siçan pudinqini qazana qoydu ki, qaynatsın.

Amma Ağca siçan öz pudinqini qazana qoyanda qazan aşıb onu xurd-

xəşil elədi.

Qaraca siçan elə yana-yana gözünün qorasını axıtdı ki, üç ayaqlı kətil dedi:

- Qaraca siçan, niyə ağlayırsan?

- Ağca siçan ölüb, - Qaraca siçan cavab verdi, - mən ona ağlayıram.

- Onda mən hoppanacağam,- kətil bildirdi.

Beləliklə kətil atılıb-düşməyə başladı. Otağın küncündəki süpürgə bunu görüb xəbər aldı:

- Ay kətil, niyə hoppanıb-düşürsən?

- Eh!- kətil cavab verdi,- Ağca siçan ölüb, Qaraca siçan ona ağlayır. Odur ki, mən də atılıb-düşürəm.

- Elə isə,- süpürgə dilləndi,- mən də yeri süpürəcəyəm.

Bəli, süpürgə yeri süpürməyə başladı.

İşi belə görən qapı dilə gəlib:

- Süpürgə, ay süpürgə, yeri niyə süpürürsən? – xəbər aldı.

- Oh!- süpürgə cavab verdi,- Ağca siçan ölüb, Qaraca siçan ona ağlayır, kətil də atılıb-düşür, ona görə mən də yeri süpürürəm.

- Onda,- qapı dilə gəldi,- mən də bu saat cırıltı ilə açılıb-örtüləcəyəm.

Bunu deyib qapı cırhacırla aralandı. Qapının bu hərəkətindən xəbər tutan pəncərə üzünü qapıya tutub soruşdu:

- Qapı, ay qapı, niyə açılırsan?

- Ah! - qapı kədərlə dilləndi, - Ağca siçan ölüb, Qaraca siçan ağlayıb ona yas saxlayır, kətil hoppanır, süpürgə yeri süpürür. Odur ki, mən də açılıram.

- Madam ki, belədir,- pəncərə dedi,- onda mən də cır-cır cırıldayacağam.

Beləliklə pəncərə zəhlətökən səslə cırıldamağa başladı.

Hə, siçanlar yaşayan evin həyətində köhnə bir fiqur vardı. Pəncərə cırıltı salanda fiqur ondan xəbər aldı:

- Ay pəncərə, niyə cırıldayırsan?

- Ah - pəncərə keks ötürdü,- Ağca siçan ölüb, Qaraca siçan ona ağlayır, kətil atılıb-düşür, süpürgə yeri süpürür, qapı öz-özünə açılır. Odur ki, mən də

cırıldayıram.

- Onda mən də,- köhnə fiqur söylədi,- qaça-qaça evin başına fırlanacağam.

Evin həndəvərində bitib gecə ucalan qəşənə bir qoz ağacı vardı. Qoz ağacı köhnə fiqurun hərəkətinə məəttəl qalıb xəbər aldı:

- Ay fiqur, sən nə üçün qaça-qaça evin başına dövrə vurursan?

- Ah!- fiqur cavab verdi,- Ağca siçan ölüb, Qaraca siçan ağlayıb saçını yolur, kətil hoppanıb-düşür, süpürgə yeri süpürür, qapı öz-özünə açılır, pəncərə isə cırıldayır. Ona görə mən də qaça-qaça evin başına fırlanıram.

- Madam ki, belədir,- qoz ağacı qüssə içində bildirdi,- onda mən də yarpaqlarımı tökəcəyəm.

Bu minvalla qoz ağacı göz oxşayan yaşıl yarpaqlarını yerə tökdü.

Qoz ağacının budağında yuva salmış bir quşcuğaz vardı.

Ağac yarpaqlarını yerə tökən kimi quş civildədi:

- Ay qoz ağacı, yarpaqlarını niyə tökürsən?

- Oh! Ağca siçan dünyadan köçüb, Qaraca siçan ona ağlayır, kətil elə hey atılıb-düşür, süpürgə yeri süpürür, qapı öz-özünə açılır, pəncərə cırıldayır, köhnə fiqur isə qaça-qaça evin başına dövrə vurur. Ona görə mən də yarpaqlarımı yerə tökürəm.

- Onda,- quş dedi,- mən də tükümü tökəcəyəm.

Bəli, quş da tükünü töküb lümək qaldı. Qardaş və bacılarına şam etməkçün süd aparan bir qız ordan keçirdi. Tükünü töküb lümək qalmış quşu görəndə qız xəbər aldı:

- Ay quşcuğaz, tüklərini niyə tökmüsən?

- Ah!- quşcuğaz pərişan-pərişan cikkildədi,- Ağca siçan dünyadan köçüb, Qaraca siçan ona ağlayır, kətil hoppanıb-düşür, süpürgə yeri süpürür, qapı öz-özünə aralanır, pəncərə cırıltı salır, köhnə fiqur qaça-qaça evin başına dolanır, qoz ağacı isə yarpağını tökür. Odur ki, mən tükümü tökmüşəm.

- Elə isə mən də,- qız dedi,- bu saat südü yerə calayacağam.

Beləliklə qız əlindəki küpəni yerə salıb südü caladı. Elə bu an yaxınlıqda

nərdivanın başına çıxıb taya quran bir qoca, qızın südü caladığını görəndə soruşdu:

- Ay qızcığaz, niyə südü yerə caladın? Axı sənin kiçik bacı-qardaşların şamsız qalacaq.

Qız qəmli səslə cavab verdi:

- Ağca siçan dünyadan köçüb, Qaraca siçan ona ağlayıb di.zinə döyür, kətil elə hey atılıb-düşür, süpürgə yeri süpürür, qapı öz-özünə açılır, pəncərə cırıltı salır, köhnə fiqur qaça-qaça evin başına dövrə vurur, qoz ağacı yarpağını, quş isə tükünü tökür. Odur ki, mən də südü yerə caladım.

- Ah!- qoca dilləndi,- onda mən də nərdivanı aşırıb boynumu sındıracağam.

Bəli, qoca nərdivandan kəllə-mayallaq olub boynunu sındırdı. Bunu görən qoz ağacı şaqqıltı ilə yerə yıxıldı, köhnə fiquru və evi vurub yıxdı. Ev uçarkən pəncərəni yerindən qopartdı. Pəncərənin çərçivəsi zərblə dəyib qapını yerindən çıxartdı. Yerindən çıxmış qapı süpürgəni yanı üstə aşırdı. Süpürgə isə kətili vurub yıxdı. Buna görə də zavallı Qaraca siçan tar-mar olmuş evin daşkəsəyi altında qalıb öldü.

TƏNBƏL CƏK

Biri vardı, biri yoxdu, Cək adlı bir oğlan vardı. Cək anası ilə birlikdə kasıb yaşayırdılar. Demək olar çox kasıb idilər. Biçarə ana ip əyirib-toxumaqla çörək pulu qazanırdı. Cək isə çox tənbəl idi. O, heç bir işlə məşğul olmur, isti havalarda özünü günə verir, qışda isə bardaş qurub oçağın başında otururdu. Buna görə də onun adını tənbəl Cək qoymuşdular. Anası ona bir iş gördürə bilmədi. Nəhayət bir bazar ertəsi Cəkə dedi ki, işləyib qəpik-quruş qazanmasa, onu evdən qovacaq.

Anasının bu sözləri Cəkin kefinə toxundu. O, ayağa durub evdən çıxdı, səhəri gün qonşuluqdakı fermerin yanına bir peni muzdla işə düzəldi. Heç

zaman pul görməmiş Cək axşam eve qayıdarkən çayın üstündən keçəndə penini salıb itirdi.

- Ay allahın gici,- anası hirslə dilləndi,- görək pulu cibinə qoyaydın.

- Gələn dəfə sən deyən kimi edərəm,- Cək cavab verdi.

Çərşənbə günu Cək yenə yola düşüb bir örüşə gəldi, naxırçıya kömək elədi. Bunun əvəzində naxırçı Cəkə bir badya süd verdi. O, süd dolu badyanı götürub pencəyinin torba kimi cibinə soxdu. Eve gəlib çatana kimi südün hamısı tökülüb dağıldı.

- Xudaya! Sən ağılsızlarına ağıl ver!- ana qəmli-qəmli Cəkin üstünə çımxırdı,- ay səfeh, gərək sən süd badyasını başının üstünə qoyub gətirəydin.

- Eh, dünya dağılmadı ki, gələn dəfə sən deyən kimi eləyərəm.

Beləliklə Cək cümə axşamı bir fermerin hüzurunda əmrə müntəzir dayandı. Fermer bunun əvəzində ona üzlü pendir verdi. Axşam çağı Cək pendiri başına qoyub evə yollandı. Amma eve çatana kimi pendir tamam korlandı. Belə ki, pendirin bir hissəsi əzilib-töküldü, bir hissəsinə isə Cəkin başının tükü qarışmışdı.

- Ay fərsiz oğul,- anası Cəki məzəmmət etdi,- gərək sən pendiri ehtiyatla əlində tutub gətirəydin.

- Vecinə də alma, ay ana, gələn dəfə sən deyən kimi eləyərəm.

Cümə günu Cək yenə də evdən çıxıb yola düşdü, bir çörəkçiye kömək elədi. Bunun əvəzində çörəkçi ona bir yeke erkək pişik bağışladı. Cək pişiyi qucağına alıb qolları üstündə ehtiyatla aparmağa başladı. Amma çox keçməmiş məstan pişik onun əl-ayağını cırmaq-cırmaq etdi. Cək naçar qalıb pişiyi buraxdı. O, evə çatanda anası dedi:

- Ay ağıldan kəm, gərək sən pişiyin boğazına ip bağlayıb onu dalınca darta-darta gətirəydin.

- Eh, ay ana, niyə əsəbiləşirsən, gələn dəfə sən deyən kimi eləyərəm də.

Bu minvalla Cək şənbə günu qəssabın yanında köməkçi durdu. Bunun əvəzində qəssab ona bir bud ət verdi. Cək əti kəndirlə bağlayıb toz-torpağın içi ilə dalınca sürüdü. Bəli, o evə çatana kimi ət tamam korlanıb zibilə döndü.

Cəkin əlindən boğaza yığılmış ananın səbri tamam tükəndi, çünki bazar günu naharına evdə kələmdən başqa heç nə yox idi. Odur ki, ana ağzının acısını Cəkin üstünə tökdü:

- Ay əfəl oğlu əfəl, gərək sən əti çiynində gətirəydin.

- Yaxşı da, ay ana, gələn dəfə sən deyən kimi eləyərəm.

- Hə, əzizlərim, o biri bazar ertəsi Cək yenə de evdən çıxıb yola düşdü, mala baxan bir kişiye kömək elədi. Kişi bunun əvəzində ona bir eşşek bağışladı. Eşşəyi çiyninə götürmək Cəkin gözünə durdu, amma axırda eşşəyi birtəhər çiyninə qaldırıb asta-asta evə qayıtdı. Cək evə qayıdan yolun kənarında varlı-hallı bir kişi yaşayırdı. Bu kişinin ay kimi gözəl bircə qızı vardı. Di gəl ki, qız lal-kar idi. Bilirsinizmi, qız ömründə bircə dəfə də gülməmişdi. Təbiblər deyirdi ki, qızı gülməyə məcbur edən tapılmasa, o heç vaxt dil açıb danışmayacaq. Qismətə bax ki, Cək çiynində eşşək yoldan keçərkən qız təsadüfən pəncərədən baxırdı. Çiynində oturan eşşəyin qabaq qıçlarından yapışmış Cək qızın diqqətini celb etdi. Bu qəribə gülməli mənzərəni görən qız qəhqəhə çəkib ürəkdən güldü. Bir az sonra qız həm danışdı, həm də eşitdi. Sevincindən uçmağa qanadı olmayan ata verdiyi vədə əməl edib qızını Tənbəl Cəkə ərə verdi. Bundan sonra Cək çox varlı adam oldu. O, öz arvadı ilə şad-xürrəm yaşamağa başladı. Anası ömrünü Cəkə bağışlayıb dünyadan köçənə kimi onlarla birgə firavan ömür sürüb kamına çatdı.

MİSTER MİAKKA

Tommi Qrayms hərdən yaxşı, hərdən də pis oğlan olurdu. Onun tərs damarı tutub özündən çıxanda, gözu yeri-yurdu görmürdü. Belə məqamlarda anası Tommiye dönə-dönə deyirdi:

- Tommi, Tommi, yaxşı oğlan ol, küçəmizdən kənara çıxma, yoxsa Mister Miakka səni tutub aparar.

Amma buna baxmayapar Tomminin fırı tutanda yenə küçədən kənara çıxırdı. Bir gün Tommi evdən uzaqlaşıb yenicə tini burulmuşdu ki, Mister Miakka onu tutub təpəsi üstə torbaya saldı, götürub evinə apardı. O, Tommini içəri aparan kimi torbadan çıxardıb döşəmənin üstünə qoydu. əllərini Tomminin qol-qıçında gəzdirib dedi:

– Yaman piylisən ha! Çarə yoxdur, çünki şam etməkdən ötrü əlimə keçən bircə sənsən. Səni yaxşıca qaynatmasam, tamın zay olar. Vay, allah, sən işə bax, ədva götürmək yadımdan çıxıb. Ədva olmasa, sən tamam acı dadarsan axı. Səli! Ay Səli! Ay arvad, səni çağırıram ey!

Bəli, xanım Miakka o biri otaqdan çıxıb ərinə dedi:

- Nə istəyirsən, əzizim? .

- Ay arvad, şama balaca bir oğlan uşağı gətirmişəm. Amma ədva götürməyi tamam-kamal unutmuşam. Mən gedib ədva götürüncə bu uşağı gözdən qoyma.

- Baş üstə, can-ciyer,- xanım Miakka şirin dilini işə saldı, Mister Miakka arxayın olub ədva dalınca getdi.

Tommi Qrayms fürsətdən istifadə edib xanım Miakkadan xəbər aldı:

- Məgər Mister Miakka şama həmişə balaca oğlanlar yeyir?

- Demək olar ki, həmişə, əzizim, - xanım Miakka laqeyd halda cavab verdi, - xüsusilə balaca oğlan uşaqları sözə baxmayıb onun ürcahına çıxanda.

- Bəyəm siz oğlan ətindən başqa heç nə yemirsiniz? Pudinqlə aranız necədir?

- Ah, pudinqdən ötrü sinov gedirəm,- xanım Miakka dil-dodağını yalaya-yalaya cavab verdi.- Amma hər dəfə könlümə pudinq düşəndə tapmağa çətinlik çəkirəm.

- Hahaq yerə, anam bu gün evdə pudinq hazırlayır,- Tommi dilini işə saldı,- əgər anamdan xahiş etsəm, innıram ki, bir parçasını sizdən əsirgəməz. Evə qaçıb bir az pudinq gətirimmi?

- Ay başına dönüm, sən nə dərrakəli oğlansan,- xanım Miakka oğlanın qoltuğuna qarpız verdi,- haydı, cum evə, amma şamın vaxtına kimi qayıdıb

gəl ha.

Bu anı çoxdan gözləyən Tommi dabanına tüpürüb götürüldü. Belə asanlıqla canını qurtardığına çox sevindi, tövbə edib uzun müddət cızığından kənara çıxmadı, bir daha tində dayanmağı özünə yasaq elədi. Hərdən-birdən pis oğlan olmağa vərdiş etmiş Tommi bir gün özünü saxlaya bilməyib yenə küçənin tininə getdi. Sanki taleyinin hökmü ilə o, küçəni burulan kimi Mister Miakka onu qamarlayıb torbasına saldı, götürub evinə apardı. Evin içində torbanın ağzını açıb Tommini döşəmənin üstünə atdı. O, Tomminin üzünə zənnlə baxıb dilləndi:

- Aha, ay yaramaz, sən bizə kələk gəlib aradan çıxmış həmin uşaqsan da! İndi qaç görüm necə qaçacaqsan! Özüm sənə nəzarət edəcəyəm. Bura bax ey, dur divanın altına gir. Mən də oturub qazandakı suyun qaynamasını gözləyim.

Beləliklə, biçarə Tommi sürünə-sürünə divanın altına girdi. Mister Miakka yanını basıb divanın üstündə oturdu, qazanın qaynamasını gözlədi.

Gözlədilər, gözlədilər, amma qazan qaynamadı ki, qaynamadı. Gözləməkdən gözünün kökü saralan Mister Miakka hirslə çığırdı:

- Bura bax, ay divanın altındakı, gözləməyə daha həvəsim çatmır. Qıçını divanın altından bayıra çıxart. Altdan divanı təpikləməyi indi sənə göstərərəm.

Bəli, Tommi divanın altından bir qıç uzatdı. Mister Miakka qiyməkeşi qapıb qıçı xırda-xırda doğradı. Sonra doğranmış tikələri jığıb qazana doldurdu. Birdən səsini başına atıb arvadını harayladı:

- Səli, əzizim, Səli hej!

Amma cavab verən olmadı. Odur ki, Mister Miakka arvadını tapmaq üçün durub o biri otağa getdi. Tommi fürsəti fövtə verməyib. Sürünə-sürünə divanın altından çıxdı, qaçıb canını qurtardı. Sən demə divanın altından Tomminin uzatdığı qıç, divanın taxta qıçı imiş.

Bu minvalla Tommi Qrayms qaçıb evlərinə gəldi, yaşa dolub böyük oğlan olunca onu tinlərdə görən olmadı.

HERAFTERDİS

Biri vardı, biri joxdu, Cək adlı bir fermer vardı. O, fermanın həyətində ev tikib orda tənha yaşayırdı.

Günlər ötüb vaxt keçdikcə Cək düşünürdü ki, evi səliqəli saxlamaq üçün arvad alsa, heç də pis olmaz. Buna görə o, qəşəng bir qıza elçi gedib dedi:

- Ay qız, mənə gələrsənmi?

- Əlbəttə, gələrəm,- qız nazla cavab verdi.

Beləliklə, onlar kilsəyə gedib kəbin kəsdirdilər. Kəbin mərasimi başa çatandan sonra Cək adaxlısını atın tərkinə alıb evə gətirdi. Onlar bütün günu bir-birinə can deyib, can eşitdilər.

Bir gün Cək arvadına sual verdi:

- Ay arvad, inək sağa bilirsənmi?

- Baho, bu nə sözdür, Cək, sağa bilirəm. Mən evimizdə həmişə anamın inək sağdığını görmüşəm.

Bəli, Cək bazara gedib on qırmızı inək aldı. İşlər yağ kimi getməyə başladı. Amma bir dəfə Cəkin arvadı inəkləri haylayıb gölün sahilinə suvata gətirdi. İnəklərin sahildə doyunca su içə bilmədiklərini düşünən qadın onları qovub gölə doldurdu. Yazıq inəklərin hamısı suda boğuldu.

Axşam Cək evə gələn kimi arvadı yanlayıb hər şeyi ona xəbər verdi. Cək halını pozmayıb dedi:

- Eh, canın sağ olsun, əzizim, belə şeyləri vecinə alma. Gələn dəfə hər şey yaxşı olar.

Bir müddət keçəndən sonra bir gün Cək arvadından soruşdu:

- Ay arvad, donuza baxa bilirsənmi?

- Bıy, başıma xeyir, Cək, əlbəttə ki, baxa bilirəm. Evimizdə anamın donuzlara necə baxdığını görmüşəm.

Hə, Cək yenə bazara gedib bir neçə donuz aldı. İşlər qaydasına düşdü. Amma bir gün Cəkin arvadı donuzların yemini axura tökdü. Donuzların yemi yaxşı yeye bilmədiyini düşünən arvad onların başından basıb axura pərçimlədi.

Biçarə donuzların hamıcı boğulub öldü.

Axşam Cək evə gələn kimi arvadı başının üstünu alıb əhvalatı nəql elədi. Cək yenə əhvalını pozmayıb dedi:

- Eh, yaxşı sən allah, eybi yoxdur, əzizim, gələn dəfə bəxtimiz gətirər.

Yenə bir müddət keçəndən sonra bir gün Cək arvadından xəbər aldı:

- Ay arvad, çörək bişirə bilirsənmi?

- Yaxşı görək, Cək, niyəe bişirə bilmirəm ki. Evimizdə anam elə hey çörək bişirirdi.

Bu minvalla Cək lazım olan hər şeyi aldı ki, arvadı çörək bişirsin. İşlər xeyli vaxt qaydasında getdi. Amma bir gün arvadı Cəkin xoşuna gəlmək üçün ağ çörək bişirmək istədi. Buna görə də o, unu götürub təpənin başına çıxdı, düşündü ki, unu küləyə versə, kəpəkdən təmizlənər. Lakin külək unu kəpək qarışıq göyə sovurub tozanaq qopardı. Belə ki, it də getdi, ip də getdi.

Axşam Cək evə qayıdan kimi arvadı hər şeyi açıb danışdı Cək yenə kefini pozmayıb gülə-gülə arvadının könlünü aldı:

- Eh, guya böyük iş olub, əzizim, belə şeyləri vecinə alma. Dünyanın axırı deyil ki, gələn dəfə bəxtimiz gətirər.

Yenə xeyli vaxt köçəndən sonra bir gün Cək arvadından soruşdu:

- Arvad, qadası, pivə bişirmək əlindən gəlirmi?

- Məni sınayırsan, Cək, niyə gəlmir ki. Evimizdə anam həmişə pive bişirirdi də.

Beləliklə Cək lazım olan hər nə vardısa, hamısını aldı ki, arvadı pivə bişirsin.

Bəli, işlər yenə sahmana düşdü. Amma bir gün Cəkin arvadı pivəni bişirib yenicə çəlləyə tökmüşdu ki, bir heyvərə qaramtıl it içəri girib gözlərini ona zillədi. Arvad iti qovub qapıdan bayıra çıxartsa da, it qapının yanında şöngüyüb yenə də gözlərini ondan çəkmədi. Hirs arvadın başına elə vurdu ki, o, çəlləyin tıxacını çıxardıb itin üstünə tolazladı:

- Ay allahın sırtıq heyvanı, nə gözlərini üzümə zilləyib durmusan? Mən Cəkin arvadıyam da.

İşin yaş olduğunu görən it quyruğunu qısıb qaçmağa başladı. Arvad itin dalınca götüruldu, qovub ölkədən çıxartdı o, qayıdıb gələndə gördü ki, pivə çəlləkdən tamam yerə tökülüb.

Axşam yenə Cək evə gələn kimi arvadı yaxın gəlib hər şeyi olduğu kimi söylədi.

Cək jenə ovqatını təlx etməyib arvadına ürək-dirək verdi:

- Elə buna görə fikir edirsən? Eyib etmöz, əzizim, canın sağ olsun, gələn dəfə bəxtimiz gətirər.

Yenə bir müddət keçəndən sonra bir gün arvad öz-özünə mızıldandı:

- Artıq evi silib-süpürmək vaxtıdır ha.

Bəli, arvad iri çarpayını kənara sürütləyəndə taxtanın üstündən bir torba gümüş pul tapdı. Cək axşam evə gələn kimi arvadı başının üstünu alıb töz soruşdu:

- Cək, de görüm taxtanın üstündəki bir torba pul nə üçündür?

- Əzizim, o pullar Herafterdisindir.

Tərslikdən elə bu vaxt pəncərənin altında bir quldur dayanmışdı. O, Cəkin dediklərini eşitdi. Səhəri gün Cək bazara gedəndən sonra quldur gəlib qapını döydü.

Arvad xəbər aldı:

- Nə istəyirsiniz?

- Mən Herafterdisəm. Gümüş torbasının dalınca gəlmişəm.

Onu da deyim ki, quldur ədəb-ərkanlı adam qiyafəsində idi. Odur ki, qadın öz-özünə fikirləşdi ki, bu cür adamın bir torba pul dalınca gəlməsi lütfkarlıqdan başqa heç nə deyil. Buna görə də o, yuxarı qaçıb pul torbasını gətirdi, quldura verdi. Quldur pul torbasını göydə qapıb götüruldu.

Cək bazardan evə qayıdan kimi arvadı dedi:

- Cək, Herafterdis pul torbasını aparmaqçün bizə gəlmişdi.

- Nə demək istəyirsən, arvad?

Bəli, arvad yaxın gəlib əhvalatı Cəkə söylədi.

- Dədəmin evi yıxıldı ki, arvad,- Cək özündən çıxdı,- Axı, o pullarla biz ev

kirəsini verməli idik. Əlac bircə ona qalıb ki, bir torba pul tapmaqdan ötrü gərək bütün dünyanı gəzib-dolaşaq.

Sonra zavallı Cək qapını dartıb həncamasından çıxartdı, özünə təsəlli verib dedi:

- Heç olmasa bu qapının üstündə uzanıb yatarıq.

Bu minvalla Cək qapını dalına aldı. Arvadını da özü ilə götürub Herafterdisi axtarmağa getdi. Gündülər yol gedib yorulan seyyahlar gecələr qapını ağaç budaqlarının üstünə qoyup, çıxıb üstündə yatırdılar.

Bir gün axşam onlar hündür bir təpəyə yaxınlaşdılar. Təpənin ətəyində çox uca bir ağaç vardı. Beləliklə Cək qapını ağacın başına qoydu. Sonra onlar ağaca çıxıb yatdılar.

Bir müddət sonra Cəkin arvadının qulağına səs gəldi. O boylanıb baxdı görsün ki, bu, nə səs-küydür. Bu, təpə tərəfdə açılan qapının saldığı cırıltı idi. Açıq qapıdan əllərində uzun stol tutmuş iki kişi çıxdı. Onlardan sonra hərəsi bir torba pul gətirən gözəl xanımlar və kişilər gözə göründü. O kişilərdən biri əlində gümüş pul torbası tutmuş Herafterdis idi. Onlar yığışıb uzun stolun arxasında oturdular. Yavaş-yavaş yeyib-içməyə, deyib-gülməyə, torbalardakı pulları saymağa başladılar.

İşi belə görən arvad dümsükləyib Cəki oyatdı.

- İndi də bizim növbəmizdir, arvad,- Cək əllərini bir-birinə sürtərək dedi, qapını itələyib budaqların üstündən yerə saldı. Qapı guppultu ilə stolun düz ortasına düşüb quldurları elə qorxutdu ki, qaçıb pərən-pərən oldular. Cəkin arvadı ağacdan düşüb pul torbalarını yığışdırdılar. Pul torbalarını qapının üstünə yığıb evlərinə yollandılar. Bax bu yolla pullanan Cək arvadına daha çox inək, donuz aldı. Onlar ömürlərinin sonuna kimi firavan yaşayıb, xoş gün gördülər.

UZUNQULAQ, STOL VƏ ÇUBUQ

Bir dəfə Cək adlı bir oğlan atasının pis rəftarından cana doyub təngə

gəlmişdi. Ucsuz-bucaqsız dünyada xoşbəxtliyini axtarmaq üçün evdən qaçıb getməyi qərara almışdı.

Evdən baş götürub qaçan Cək o qədər getdi ki, axırda qıçları sözünə baxmadı. Son güçünu toplayıb tövşüyə-tövşüyə çubuq yığan bir qoca qarıya rast gəldi. Özünü saxlaya bilməyib tappıltı ilə qarıya dəydi. Qaçmaqdan nəfəsi kəsildiyinə görə ağzını açıb qarıdan üzr belə istəməyə taqəti çatmadı. Yaxşı ki, qarı xoşxasiyyət arvad idi. Bu səbəbdən də o, Cəkin yaxşı oğlana oxşadığını duyub dedi:

- İstəyirəm ki, mənim yanımda nökər olasan. Razı olsan, sənə yaxşı zəhmət haqqı verərəm.

Cək qarı ilə razılaşdı, çünki aclıq onu heydən salmışdı. Qarı onu meşədəki evinə gətirdi. Cək düz bir il bir gün qarıya sədaqətlə qulluq elədi. Bir ildən sonra qarı Cəki yanına çağırıb dedi ki, ona yaxşı məvəcib verəcək. Beləliklə o, Cəkə tövlədən bir eşşək hədiyyə verdi. Eşşəyin adı Neddi idi. Cək Neddinin qulağını dartan kimi o, ağzını ayırıb anqırdı: -ii-aa! ii-aa!

Bəli, eşşək anqırmağa başlayan kimi ağzından gümüş, qızıl pullar axıb tökülürdü.

Aldığı zəhmət haqqına görə memnun qalan Cək eşşəyi minib yola düşdü. Az getdi, çox getdi, axırda bir mehmanxanaya gəlib yetişdi. Mehmanxana sahibi əvvəlcədən haqqını almasa, xidmət göstərməyəcəyini deyəndə Cək durub tövləyə getdi. Eşşəyin qulaqlarını dartıb ciblərini pulla doldurdu. Amma onu da deyim ki, bütün bunları mehmanxana sahibi qapının arasından baxıb görmüşdü. Odur ki, gecə yarı olanda o, öz eşşəyini gətirib yoxsul gəncin qiymətli Neddisinin yerinə bağladı.

Bu minvalla Cək bu məsələdən xəbər tutmayıb səhər tözdən eşşeyi minib atasıgilə yola düşdü.

Cəkgilin qonşuluğunda bir dul qarı yaşayırdı. Qarının gözünün ağı-qarası bircə qızı vardı. Cəklə qız möhkəm dost olub bir könüldən min könülə bir-birinə vuruldular. Bir gün Cək qızla evlənmək üçün atasından rüsxət istəjəndə o, başını silkələyib dedi:

- Arvadı saxlamağa pulun olmasa, bu iş heç vaxt baş tutan deyil.

- Pul məndə, atacan,- oğlan ərklə cavab verib eşşeyin qulaqlarını dartmağa getdi.

Bəli, dart ki, dartasan; o qədər dartdı ki, eşşəyin bir qulağı qopub onun əlində qaldı. Amma zavallı heyvan nə qədər zil səslə «ii-aa, ii-aa» eləyib anqırsa da, ağzından bir qəpik də düşmədi ki, düşmədi. Ata hirslənib yabanı götürdü, oğlunu o ki var kötəkləyib evdən qovdu. Aman allah, yazıq Cək qorxusundan necə qaçırdı Canını götürub qaçan Cək o qədər qaçdı ki, axırda guppultu ilə bir qapıya dəydi. Qapı taybatay açıldı. Sən demə bu otaq xarrat e'malatxanası imiş.

- Pis oğlana oxşamırsan ha,- xarrat dilləndi,- bir il bir gün mənə xidmət elə, nə qədər desən, sənə haqq verim.

Hə, Cək xarratla razılaşıb düz bir il bir gün sidq ürəkdən ona xidmət elədi. Vaxt ötüb vədə tamam olanda xarrat Cəki yanına çağırıb dedi:

- Cavan oğlan, səni çağırmışam ki, zəhmət haqqını verim.

Beləliklə xarrat ona bir stol bağışlayıb söylədi ki, əgər o bircə dəfə «ay stol açıl» desə, kifayətdir. Stol o dəqiqə açılacaq, üstü yemek-içməklə dolacaqdı.

Cək xarrata təşəkkür etdi. Stolu dalına alıb getdi. O qədər getdi ki, gəlib yenə də mehmanxanaya yetişdi.

- Bura bax, ay mehmanxana sahibi,- Cək ucadan səsləndi,- bu gün mənə elə yemək hazırla ki, tayı-bərabəri olmasın.

- Üzr istəyirəm, cavan oğlan, mehmanxanada yeməyə donuz əti ilə yumurtadan savayı heç nəyimiz yoxdur.

- Mənimçün donuz əti ilə yumurta! Hımm, sözə bir bax ey!- Cək təkəbbürlə dilləndi.- Mən donuz əti ilə yumurtasız da keçinərəm. Gəl, mənim stolum, başına dönüm, gəl açıl görək!

Stol o saat açılıb üstü hind toyuğu əti, kolbasa, qızardılmış qoyun əti, kartof və göyərti ilə doldu. Mehmanxana sahibinin heyrətdən gözu kəlləsinə çıxdı, amma heç nə deməyib susdu. Gecə tən yarı olanda o, çardaqdan bir stol gətirib Cəkin stolu, ilə dəyişdi. Dünyadan bixəbər Cək səhər tözdən dəyərsiz

stolu dalına alıb evlərina getdi.

- Bəs indi sözün nədir, ata, sevdiyim qızla evlənə bilərəmmi?- Cək öyünə-öyünə atasından soruşdu.

- Saxlamağa gücün çatmasa, olmaz.

- Onda bura bax!- Cək atasına müraciət etdi,- ata, mənim bir stolum var ki, hər nə desəm yerinə yetirir.

- Bə hanı sənin stolun? Göstər görüm.

Bəli, Cək stolu evin ortasına qoyub açılmasını əmr elədi, amma bir şey çıxmadı. Stolun üstü boş qaldı. Cin başına vurmuş ata dəmiri qapıb oğlunun kürəyini elə şappıldatdı ki, Cək başı lovlu dabanına tüpürüb evdən qaçdı. O qədər qaçdı ki, axırda gəlib bir çaya çatdı, üzü üstə yıxılıb kəllə-mayallaq oldu. Bir kişi Cəki çaydan çıxardıb əmr etdi ki, çayın üstündən körpü salmaqda ona kömək eləsin.

Heç bilirsiniz o kişi necə körpü düzəldirdi? Eh, ağacı bir sahildən obirinə aşırmaqla. Odur ki, Cək cəld dırmaşıb ağacın başına çıxdı. Ağırlığını ağacın başına elə saldı ki, kişi ağacı dartıb kökündən çıxardanda ağacın ucu o biri sahilə yıxıldı.

- Çox sağ ol, bala,- kişi dedi,- gördüyün işin müqabilində mən sənə zəhmət haqqı verəcəyəm.

Kişi sözünü deyib ağacdan bir budaq qopartdı, bıçaqla yonub çomaq düzəltdi.

- İndi isə,- kişi dilləndi,- bu çomağı götür. Oğlum, sən haçan bu çubuğa əmr etsən ki, «çomaq, ayağa dur, onu əzişdir» o, səni cırnadan hər kimi desən, əzişdirib xurd-xəşil edəcək.

Belə bir çubuq əldə etdiyinə görə çox sevinən Cək kişi ilə xudahafizləşib mehmanxanaya yollandı. Mehmənxana sahibi peyda olan kimi «Çubuq, ayağa qalx, onu əzişdir» deyə Cək əmr etdi.

Bu sözləri eşidən çubuq bir göz qırpımında Cəkin əlindən çıxıb mehmanxana sahibini dalı üstə yerə aşırdı, başını büküb qollarını sarıyandan sonra qabırğalarına o qədər çəkdi ki, kişi ağrıdan zar-zar zarıldayıb ilan kimi

qıvrıldı. Amma çubuq hey kişinin qabırğasına ilişdirirdi. Cək oğurlanmış eşşəyi ilə stolunu alandan sonra çubuğa dayanmağı əmr elədi.

Bir az sonra stolu çiyninə alıb çubuğu əlində bərk-bərk tutmuş Cək eşşəyə minib evlərinə gəldi. Evlərinə çatıb- kerd:u ,JH-1, atası ölüb. Beləliklə Cək eşşayi tövləyə qatıb qulaqlarını o qədər dartdı ki, axur ağzınacan pulla doldu.

Tözliklə şəhərə yayıldı ki, Cək qayıdıb gəlib, özü də pulu başından aşır. Buna görə da şəhərin bütün qızları Cəkə vurulub aşiq oldular.

- Çox yaxşı,- Cək özündan razı halda dedi,-mən şəhərdəki ən varlı qızla evlənəcəyəm. Qoy sabah qızlar pullarını ətəklərinə yığıb evimin qabağına gəlsinlər.

Bəli, səhəri gün küçədə ətəyi qızıl-gümüşlə dolu qızların əlindən tərpənmək olmurdu. Cəkin öz sevgilisi də bu qızların arasında idi. Onun ətəyində iki dənə mis penidan başqa heç nə yox idi.

- Ay qız, kənara çəkil,- Cək yoğun səslə qıza müraciət etdi,- qızıl-gümüşün olmasa da, sən bu qızlardan aralı dayan.

Biçarə qız itaət edib kənara çəkildi, göz yaşları yanağı ilə aşağı süzülüb ətəyini almazla doldurdu.

- Çubuq, qalx ayağa, onları əzişdir!- Cək uca səslə əmr verdi.

Çubuq o dəqiqə dik atılıb qızların saf-saf düzülmüş sıralarına hücum edərək hərəsinin başına bir zərbə endirdi. Qızlar huşunu itirib tir-tap oldular. Cək qızların pullarını yığışdırıb sevgilisinin başına səpdi.

- Hə, gözəl qız,- Cək şəstlə dedi,- indi sən hamıdan varlı olduğun üçün mən sənlə evlənəcəyəm.

BALIQ VƏ UZUK

Biri vardı, biri joxdu, qədim zamanlarda qüdrətindən el danışan, dünyanın gərdişindən qabaqcadan xəbər verən sehrkar bir baron vardı. Günlərin bir günu oğlunun dörd yaşı olanda Tale Kitabını vərəqləyib onun ba-

şına nə gələcəyini bilmək istədi. Görəndə ki, oğlu York kilsəsinin yaxınlığında yenicə dünyaya gəlmiş əsli-nəcabəti olmayan qızla evlənəcək, dilxor oldu. Məsələ burasında idi ki, baron qızın atasının cındırından cin ürkdüyünü yaxşı bilirdi. Bilirdi ki, yoxsul kişinin bu qızdan başqa beş uşağı da var. Odur ki, baron atını minib Yorka çapdı, yoxsul kişinin evinə çatıb onun qəm-qüssə içərisində astanada oturduğunu gördü, atdan düşüb kişiyə yaxınlaşdı.

- Sənə nə olub? Niyə qəm dəryasına batmısan, a kişi?

- Eh, başına dönüm, əlahəzrət, səndən nə gizlədim, beş uşaqdan sonra allah mənə bir qız da verib. Bu uşaqlara doyunca çörək tapmaq dərdi ürəyimi deşir.

- Allahdan ümidini üzüb ruhdan düşmə, dostum,- baron kasıb kişiye ürək-dirək verdi,- bircə bunun dərdini çəkirsənsə, mən sənə kömək edərəm. Körpə qızını apararam, sən də narahat olmazsan.

- Allah sənə kömək olsun, rəhmdil cənab,- kasıb kişi dil-ağız edib içəri cumdu, qızı gətirib barona verdi. Baron atını minib çapdı. Xeyli sonra o, Aus çayının sahilinə çatıb körpəni çaya tulladı, atını səyirdib öz qəsrinə getdi.

Amma onu da deyim ki, körpə qız suda batmadı, əynindəki paltarlar onu bir müddət suyun üzündə saxladı. Su qızcığazı apara-apara gətirib bir balıqçı komasının qarşısında sahilə çıxartdı. Balıqçı qızı görüb jazığı gəldi, götürub komasına apardı. Beləliklə qız on beş yaşına çatana kimi balıqçının komasında yaşadı. Vallah, qız bir gözəl qız olmuşdu ki, tamaşasından doymaq olmurdu.

Bir dəfə iş elə gətirdi ki, baron öz dostları ilə Aus çayının sahilinə ova çıxdı. Susuzluqdan dil-dodağı təpimiş baron atının başını çəkib balıqçının komasının ağzında ayaq saxlayıb su istədi. Barona su vermək üçün qız komadan çıxdı. Onun gözəl hüsnü baronun dostlarını valeh etdi. Onlardan biri barona dedi:

- Qardaş, axı sən taleləri oxuya bilirsən, bir bu qızın falına bax, görək o kimə qismət olacaq?

- Eh, bundan asan nə var ki,- baron lovğalandı,- ya ayağı çarıqlı kəndliyə,

ya da başqa birinə. Aman verin mən bu qız üçün ulduz falı açım. Ay qız, yaxın gəl, söylə görüm həftənin hansı günu dünyaya göz açmısan?

- Bilmirəm, ser,- qız cavab verdi,- duz on beş il bundan əvvəl suyun üzündə axa-axa gəlib buraya çıxmışam.

Bəli, baron işin nə yerdə olduğunu başa düşüb barmağını dişlədi, dostları ilə çıxıb getdi. Bir müddət sonra o, atını geri sürüb qıza dedi:

- Mənə qulaq as, ay qız, sənə ləl-cəvahirat bağışlayacacam. Bu məktubu mənim Skarburqdakı qardaşıma aparsan, ömrün boyu heç nədən korluq çəkməzsən.

Beləliklə qız məktubu aparmağa söz verdi. Məlumunuz olsun ki, baronun məktubunda bu sözlər yazılmışdı:

«Əziz qardaşım, bu məktubu sənə gətirəni tutub öldür.

H ö r m ə t l ə: q*ardaşın Həmfrey».*

Bəli, qız tözliklə Skarburqa yola düşdü. Gün batıb qaş qaralanda gecəni keçirmək üçün bir xırda mehmanxanaya getdi. İş elə gətirdi ki, həmin gecə bir dəstə quldur mehmanxanaya soxulub, qızın üst-başını gəzib məktubdan başqa heç nə tapmadılar. Odur ki, quldurlar məktubu açıb oxudular. Namənin sözləri onların xətrinə dəydi. Quldurların başçısı əlinə qələm götürüb belə bir namə yazdı:

«Əziz qardaşım, bu məktubu sənə gətirəni töz mənim oğlumla evləndir.

H ö r m ə t l ə: q*ardaşın Həmfrey».*

Quldurbaşı yazdığı məktubu qıza verib yola saldı. Qız yola düşüb baronun Skarburqdakı cəngavər qardaşının yanına getdi. Baronun oğlu əmisigildə qalırdı. Qız məktubu barona verəndə o, dərhal toy tədarükü görülməsini əmr etdi. Elə həmin gün qardaşının oğlu ilə qızı evləndirdi.

Bu əhvalatdan bir az sonra baron qardaşının qəsrinə gəldi. Qızı qəsrdə sağ-salamat görüb heyrətləndi. İşlərin bu cür gedişinə tab gətirməyib səhəri günu qızı qayalıqlara gəzməyə apardı. Gözdən uzaq bir guşədə o, qızın qolundan yapışıb qayadan atmaq istədi. Ölüm təhlükəsilə üz-üzə duran qız yalvar-yaxar etdi:

- Aman baron, axı mən heç nə etməmişəm. Əgər məni öldürməsən, xətrin nə istəsə, edərəm. Ürəyindən keçməyincə sənin, nə də oğlunun gözlərinə görünmərəm.

Belə olduqda baron rəhmə gəlib barmağından qızıl üzüyünü çıxardıb dənizə atdı. Sonra dedi:

- Üzüyü tapıb gətirməyincə gözümə görünmə.

Biçarə qız gəzə-gəzə gəlib möhtəşəm bir qalanın yanına çıxdı, içəri girib iş istədi. Qızı qalada aşpaz qoydular.

Günlərin bir günu, heç bilirsiniz qız kimlərin qalaya tərəf gəldiyini gördü? Baronu, qardaşını, bir də öz ərini. Qız nə edəcəyini bilməyib çaşbaş qaldı. Amma fikirləşdi ki, onu qala mətbəxində görən olmaz. Odur ki, qız ah çəkib mətbəxə iş görməyə qayıtdı. Bıçağı götürub nahar üçün bişiriləcək iri bir balığın pullarını təmizləməyə başladı. Qız balığı təmizləyəndə balığın içində par-par parıldayan bir şey gördü. Sizcə o nə tapdı? Əlbəttə ki, bu, baronun qaya başından dənizə tolazladığı üzük idi. Qızın fərəhdən gözu yaşardı. O, özünü ələ alıb balığı məharətlə qızardıb qonaqlar oturan stola gətirdi.

Bəli, stolun üstünə qoyulmuş balığı qonaqlar bəh-bəhlə yeyib bişirəni xəbər aldılar. Qalanın sahibi cavab verə bilməyib xidmətçilərini səslədi:

- Ey, sizinləyəm, balığı bişirən aşpazı bura göndərin.

Xidmətçilər mətbəxə düşüb qıza dedilər ki, onu çağırırlar. İşi belə görən qız baş-gözünə əl gəzdirib baronun qızıl üzüyünü baş barmağına taxdı, yuxarı qalxıb ziyafət salonuna girdi. Qonaqlar cavan, gözal aşpazı görüb təəccüb etdilər. Amma hirsindən dişi bağırsağını kəsən baron yerindən elə atıldı ki, sanki qızı bu saat didib-parçalayacaqdı.

Bu minvalla qız üzük barmağında barona yaxınlaşdı. Üzüyü çıxardıb stolun üstünə qoydu. Axır ki, baron qismətə qarşı mübarizə aparmağın xeyirsiz olduğunu başa düşdü. O, qızın əlindən tutub kresloda əyləşdirdi, üzünü məclis əhlinə tutub şəstlə bildirdi ki, qız onun oğlunun halalca arvadıdır. Bundan sonra baron qızı da, oğlunu da götürüb öz qəsrinə apardı. Onlar ömürlərinin sonuna kimi xoşbəxt günlər görüb, xoş güzəran keçirdilər.

MİSTER VİNEQ AR

Mister Vineqarla xanım Vineqar sirkə şüşəsinin içində yaşayırdılar. Bir gün Mister Vineqar evdə olmayanda, ev işlərini xoşlayan xanım Vineqar döşəməni süpürürdü. Birdən süpürgənin taxta sapı şappıltı ilə tavana dəyib evi çilik-çilik elədi. Ürəyi qəmdən partlayan xanımVineqar başı lovlu qaçıb ərinin yanına getdi. O, ərini görən kimi tələşlə dedi:

- Ah, Mister Vineqar, Mister Vineqar, bədbəxtlik bizi basıb. İşimiz allaha qalıb. Evi vurub çilik-çilik eləmişəm! Bəs biz indi nə edəcəyik?

- Göüzümün işığı, - Mister Vineqar pərişan halda cavab verdi, - bir səbir elə, görək başımıza nə çarə qılaq. Aha, qapı salamatdır ki. Mən qapını dalıma alaram, çıxıb gedərik xoşbəxtliyimizi axtarmağa.

Onlar bütün günü yol gedib axşamçağı qalın bir meşəyə girdiler. Hər ikisi möhkəm yorulub əldən düşmüşdü. Buna görə də Mister Vineqar arvadına dedi:

- Ay arvad, mən qapını götürüb ağaca çıxıram. Sən də dalımca gəl.

Bəli, Mister Vineqar ağaca dırmaşdı. Haldan düşmüş ərlə arvad qabırğalarını qapıya söykəyib dərin yuxuya getdilər. Gecənin yarısı aşağıdan qulağına gələn səslər Mister Vineqarı yuxudan oyatdı. Qorxu içində yan-yörəsinə boylanan Mister Vineqar ağacın altında bir dəstə oğru gördü. Oğrular qarət etdikləri qəniməti bölüşdürürdülər.

Pulları bölən oğru deyirdi:

- Ayə, Cək, götür bu beş funt sənin. Bura bax, Bill, bu on funt da sənin. Ey, Bob, bu üç funt da sənə çatır.

Mister Vineqar daha qulaq asmaq iqtidarında deyildi. O, qorxudan əsim-əsim əsirdi. Odur ki, qapı əlindən çıxıb tappıltı ilə oğruların başına düşdü. Oğrular qaçıb dağılışdılar. Amma Mister Vineqar hava işıqlanana kimi ürək eləyib ağacdan düşmədi. Səhərin gözu açılan kimi o, qapını götürmək üçün

ağacdan yerə düşdü, yerdə xeyli qızıl pul görüb cəld arvadını səslədi:

- Düş aşağı, xanım Vineqar. Ay arvad, töz ol aşağı düş. Bəxtimizə gün doğub ey! Töz ol, töz ol, aşağı düş.

Hə, xanım Vineqar cəld ağacdan yerə düşdü, pulları görüb sevincindən atılıb-düşməyə başladı.

- Nə yaxşı oldu, əzizim,- xanım Vineqar dilləndi, - indi mən sənə bu pulları necə xırıd etməyi öyrədərəm. Kişi, qonşu rayonda bir bazar var. Bu qırx funtla o bazardan bir inək alarsan. Mən də inəyin südündən pendir tutub, yağ alaram, aparıb bazarda satarsan. Heç olmasa bundan sonra biz də adam kimi yaşayarıq.

Mister Vineqar sevinə-sevinə arvadı ilə razılaşıb pulu götürub bazara getdi. Bazarı başdan-ayağa ələk-vələk etdi. Nəhayət qəşəng bir inək gördü. İnək çox südlü inək idi, həm də görkəminə söz ola bilməzdi.

- Oh, - Mister Vineqar fikirləşdi.-- bu inək mənim olsaydı, dünyada məndən bəxtəvər adam olmazdı.

Odur ki, Mister Vineqar inəyin sahibinə yaxınlaşıb inəyi almaq üçün qırx funt təklif etdi. Çox çək-çevirdən sonra sevda baş tutdu. Mister Vineqar inəyin ipindən yapışıb bazar boyunca gəzdirdi. Bir müddət keçəndən sonra o, tuluq zurnası çalan bir kişi gördü. Arxasınca uşaqlar düşən bu kişi hər tərəfdə yaxşıca pul qazanırdı.

Mister Vineqar köks ötürüb dedi:

- Allah, allah, o gözəl alət mənim olsaydı, dünyada dərdim olmazdı. Mənim də bəxtimə gün doğardı.

Beləliklə Mister Vineqar zurna çalan kişiyə yaxınlaşıb şirin dilini işə saldı:

- Ay dost, O nə gözəl çalğı alətidir, sən çoxlu pul qazanırsan hə!

- Eh, eh, hələ soruşursan da, - kişi qürurla dedi, - əlbəttə, çoxlu pul qazanıram, bu alətə də söz ola bilməz.

- Oh, - Mister Vineqar ucadan dilləndi,- kaş o gözəl alət mənim olaydı!

- Fikir eləmə, - kişi cavab verdi, - yaxşı adam olduğuna görə bu aləti sənə sataram. Qırmızı inəyi versən, bu alət səninki olar.

Mister Vineqar sevincək razılıq etdi:

- Yaxşı qoy inək sənin olsun.

Bu minvalla qırmızı inək tuluq zurnası ilə dəyişdirildi. Mister Vineqar təşəxxüslə meydanı gəzə-gəzə bir hava çalmaqdan ötrü əbəs yerə dəridən-qabıqdan çıxdı. Pul yığmağı bir yana qalsın, hələ oğlan uşaqları da dalınca düşüb ona gülür, sataşıb ələ salırdılar.

Biçarə Mister Vineqarın barmaqları buza döndü. O, rayondan çıxıb getmək istəyəndə əlində bir cüt qalın əlcək tutmuş bir kişiyə rast gəldi.

- Ah, barmaqlarım soyuqdan buza dönüb,- Mister Vineqar öz-özünə mızıldandı. - Kaş o qəşəng əlcəklər mənim olaydı. Onda məndən xoşbəxt adam olmazdı.

O, əlcəkli adama yaxın gəlib qılığına girdi:

- Dostum, deyəsən yaxşı əlcəklərin var, axı.

- Bəli, var,- əlcəkli adam cavab verdi,- bu soyuq noyabr günündə barmaqlarım istidən yanır.

- Bura bax, ay dost,- Mister Vineqar yazıq görkəm aldı, - mən istəyirəm ki, o əlcəklər mənimki olsun.

- Bəs əvəzində ne verərsən?- əlcəkli kişi xəbər aldı, - yaxşı adam olduğuna görə tuluq zurnasını mənə versən, əlcəklər sənin olar.

- Razıyam!

Hə, Mister Vineqar tuluq zurnasını kişiyə verib əlcəkləri aldı. Əlcəkləri əlinə geyib evə sarı yollananda o, özünü çox gümrah hiss etdi.

Axırda yorulub kələyi kəsilmiş Mister Vineqar əlində yoğun çubuq olan bir kişiyə rast gəldi.

- Oh, - o dilləndi, - kaş o çubuq mənim olaydı! Onda dünyada məndən xoşbəxt adam tapılmazdı.

Odur ki, Mister Vineqar kişiyə dedi:

- Dostum! Yaman qəşəng çubuğun var ha.

- Elədir, - kişi cavab verdi, - bu çubuq çoxdandır ki, mənə yoldaşlıq edir. Amma nə etmək olar, madam ki, çubuqdan xoşun gəlir, qurbandı sənə.

Əlcəkləri ver, çubuğu götür.

Artıq bu zaman Mister Vineqarın əlləri qızınmış, ayaqları taqətdən düşmüşdü. Odur ki, o, sevinə-sevinə əlcəkləri çubuqla dəyişdi. Arvadını qoyub getdiyi meşəyə yaxınlaşanda budağa qonmuş bir tutuquşunun onu səslədiyini eşitdi:

- Mister Vineqar, ay axmaq kişi, ay taxta baş, ay sadəlövh, bazara gedib olan puluna bir inək aldın. Amma tanrıya təpik atıb inəyi tuluq zurnası ilə dəyişdin. Pullarının ondan birinə dəyməyən tuluq zurnasını da çala bilmədin. Ay əbləh, sən heç üçcə dəqiqə keçməmiş zurnanı verib üç qəpiyə dəyməyən əlcək aldın. Əlcək əlinə gələn kimi yararsız bir çubuqla dəyişdin. Ay yazıq, qırx funt pulun əvəzində sənə qalan o çubuğu hansı hasardan desən çəkə bilərdin.

Quş sözünü tamam edib uzun-uzadı qəh-qəhə çəkdi. Mister Vineqar cinlənib çubuğu quşa sarı tolazladı. Çubuq budaqlara ilişib ağacda qaldı. Mister Vineqar kor-peşman yola düşüb arvadının yanına əliboş gəldi. Arvad dərhal özündən çıxıb ərinin üstünə cumdu, o ki var döyüb qabırğalarını sındırdı.

KƏNTERBERİ ŞAhZADƏSİ

Keçmiş zamanlarda Kamberlənd qraflığında bir zadəgan yaşayırdı. Onun üç oğlu vardı. Oğlanlardan ikisi ağıllı-kamallı uşaqlar idi. Amma üçüncü qardaş səfehin birisiydi. Adı Cək olan bu qardaşın işi-peşəsi qoyunları güdmək idi. Ayrı iş əlindən gəlmirdi.

Cək əyninə ala-bula palto geyər, başına bəzəkli şiş papaq qoyardı.

İndi sizə kimdən söhbət açım, kimdən danışım, Kənterberi kralından. Hə, bu kralın çox gözəl bir qızı vardı. Qız öz mərifəti, ağlı ilə hamıdan seçilirdi. Kral aləmə car çəkmişdi ki, hansı oğlan ona verilən üç suala cavab versə, şahzadə qız onun olacaq, kral yorğan-döşəyə düşən kimi taxt-tacına varis çıxacaq.

Bu haqda aləmə car çəkiləndən çox keçməmiş xəbər zadəganın oğlanlarına da çatdı. İki ağıllı qardaş qərara gəlidlər ki, bəxtlərini sınasınlar. Amma səfeh qardaşlarını oraya getmək fikrindən daşındıra bilməyib dilxor oldular. Yüz oyundan çıxsalar da, səfeh qardaşı tovlayıb başını aldatmaq mümkün olmadı. Axırda əlacı kəsilmiş qardaşlar Cəkin də oraya getməsinə icazə verdilər.

Onlar azacıq yol getmişdilər ki, birdən Cək şaqqanaq çəkib dedi:

- Bir yumurta tapdım.

Qardaşlar dedilər:

- Cibinə qoy.

Bu əhvalatdan çox keçməmiş gülməkdən az qala ürəyi gedən Cək əyri-üyrü ucun haça bir fındıq çubuğu tapıb onu da cibinə qoydu. Üçüncü dəfə Cək elə güldü ki, ağzı qulağının dibinə çatdı, çünki bir dənə də fındıq tapmışdı. Cək fındığı da cibindəki var-dövlətinin yanına qoydu.

Qardaşlar saraya çatan kimi onların pişvazına çıxdılar. Gəlişlərinin məqsədini öyrənib onları bir otağa apardılar. Bu otaqda şahzadə qız kənizləri ilə bardaş qurub oturmuşdu. Heç vaxt belə məclisə düşməmiş Cək heyranlıqla təzim edib dilləndi:

- Ay allah, gözəl yığıncağına düşmüşuk ki! Nə qədər gözəl xanımlar var burda!

- Bəs nə bilmisən, - şahzadə qız naz-qəmzə ilə cilvələndi, - əlbəttə ki, biz gözəl xanımlarıq. Ona görə ki, qoynumuzda od gəzdiririk.

- Yox aaa? - Cək təəccübləndi, - elə isə al bu yumurtanı mənimçün bişir.

Bunu deyib Cək yumurtanı cibindən çıxartdı.

- Bəs yumurtanı mənim qoynumdan necə çıxaracaqsan? - şahzadə qız yenə sual verdi.

- Ucu haça çubuqla.

- Bu çubuq hardan çıxdı?

- Fındıqdan, - Cək cavab verib fındığı da cibindən çıxartdı. - Mən artıq üç suala cavab vermişəm. Odur ki, xanım mənim olacaq.

- Yox, yox, hələ yox,- kral Cəkin sözünu kəsib etiraz etdi, - belə olmaz. Sən hələ sınaqdan keçməlisən. Bir həftədən sonra bura gəlməlisən, bütün gecəni mənim qızımla oturub səhərə kimi oyaq qalmalısən. İşdir, qala bilsən, səhəri gün şahzadəni sənə verib toy edəcəyəm.

Cək soruşdu:

- Bəs qala bilməsəm necə?

Kral təkəbbürlə cavab verdi:

- Onda boynun vurulacaq. Xoşun gəlmirsə, sınaqdan keçməyə ehtiyac yoxdur. Öz işindir ha, can sənin, cəhənnəm tanrının.

Bəli, Cək geri qayıdıb bir həftə evdə qaldı. Şahzadə qızı ələ keçirmək üçün sınaqdan keçməyə gedib-getməyəcəyini uzun müddət götür-qoy etdi. Axır ki, qəti qarara gəldi.

- Cəhənnəmə ki, nə olur olsun ey, - Cək öz-özünə mızıldandı, - bəxtimi sınamağa gedəcəyəm. Öldü var, döndü yox. Ya kralın qızı, ya da başsız çoban!

Beləliklə Cək çantasını çiyninə salıb su şüşəsini belindən asdı, veyillənə-veyillənə kralın imarətinə tərəf getməyə başladı. Saraya gedən yolda bir çaya rast gəldi. Başmaqlarını, cobarlarını soyunub suya girdi. Suyun içində lap ayaqlarının yanında oynaşan bir neçə qəşəng balıq gördü. Bir neçəsini tutub cibinə qoydu. Bir müddət sonra saraya çatıb darvazanı çomağı ilə döyəclədi. Gəlişinin səbəbini bildirən kimi Cəki dərhal kralın qızı əyləşən salona apardılar. Şahzadə qız aşiqlərini görmək üçün hazır vəziyyətdə oturmuşdu. Cəki çox təmtəraqlı bir kresloda əyləşdirib qarşısına cürbəcür ləzzətli şərablar, ləziz təamlar düzdülər. Belə dəbdəbəyə adət etməyən Cək qarınqululuq edib o ki var şərabdan içdi. Buna görə də gecə yarı olmamış əsnəyə-əsnəyə mürgü döyməyə başladı.

- Ədə, ay çoban, mürgü döydüyünü görürəm ha!

- Yox, yox, sevgili canan, balıq tuturam ey.

- Balıq tutursan? - şahzadə qız təəccüb qalıb xəbər aldı, - ədə, ay çoban, kələk gəlmə, salonda göl nə gəzir ki, balıq tutasan.

- Nə olsun göl yoxdur. Mən balığı cibimdən tuturam.

- Aman allah! Sən allah, bir göstər görüm.

..Çoban bic-bic balığı cibindən çıxardıb özünü elə göstərdi ki, sanki yenicə tutub. Qız balığı görən kimi bildirdi ki, heç vaxt beləsini görməyib.

Yarım saat keçəndən sonra şahzadə qız çobandan soruşdu:

- Çoban, ay çoban, bir balıq da tuta bilərsənmi?

- Tuta bilərəm. Tilovu sazlasam, niyə tutmuram ki.

Hə, bir azdan Cək cibindən bir balıq da çıxartdı. Bu balıq daha qəşəng balıq idi. Balığı görən şahzadə qız o qədər sevindi ki, Cəkə dedi:

- Qorxma, get yat. Atama deyərəm səni əfv edər.

Səhər tözdən şahzadə qız əhvalatı krala söylədi. Qız kraldan xahiş etdi ki, Cəkin boynunu vurdurmasın. Kral Cəkin bütün gecəni salonda necə balıq tutmasını eşidəndə çox təəccübləndi. Eşidəndə ki, Cək cibindən gözəl balıqlar tutur, onu çağırıb əmr etdi ki, bir balıq da onun cibindən tutsun.

Cək məsələni o dəqiqə başa düşüb kraldan xahiş elədi ki, yerə uzansın. Bundan sonra Cək özünü elə göstərdi ki, guya kralın cibindən balıq tutur. Odur ki, əlinin içində gizlətdiyi başqa bir balığı hazır tutub iynənin ucunu ustalıqla kralın yanına batırandan sonra balığı yuxarı qaldırıb ona göstərdi. əlahəzrət kralın Cəkin məharətinə şəkk-şübhəsi qalmadı. O, qızına xeyir-dua verib ona xoşbəxtlik arzuladı. Elə həmin gün şahzadə qızla Cək bir-birinə qovuşub ömürlərinin sonuna kimi naz-nemət içində xoş gün görüb, xoşbəxt dövran sürdülər.

MİSTER FOKS

Biri vardı, biri yoxdu, Meri adlı bir qız vardı. Meri həm cavandı, həm də gözəl. Onun iki qardaşı vardı, amma onu istəyənlər çox idi. Di gəl onların ən qoçağı, gözə gəlimlisi mister Foks idi. Xanım onu atasının kənddəki

malikanəsində görmüşdü. Məsələ burasındaydı ki, heç kəsin mister Foksun kimliyindən xəbəri yox idi. Onun qoçaqlığına şəkk-şübhə ola bilməz, hələ varını-dövlətini demirəm. Xanım Meri ona aşiq olanların hamısından çox yalnız mister Foksa ürək qızdırırdı. Axır bu qərara gəldilər ki, ev-eşik qursunlar, evlənsinlər. Xanım Meri mister Foksdan harada yaşayacaqlarını xəbər aldı. O da cavabında öz qəsrini yerli-yataqlı təsvir elədi. Bəs bu qəsr hardaydı, qəribə də olsa mister Foks nə qıza, nə də onun qardaşlarına yerinə-yurduna baxmaq haqda söz salmadı.

Hə, günlərin birində, toya bir neçə gün qalmış qızın qardaşları evdən çıxan kimi mister Foks da bir-iki günlük iş dalınca getdi va xanım Meriyə tapşırdı ki, gedib qəsrinə baş çəksin. Xeyli axtarışdan sonra xanım Meri axır ki, gəlib qəsri tapdı. Bu, hündür divarları olan, qapısında dərin xəndək qazılmış gözəl, möhtəşəm bir ev idi. Xanım darvazaya çatan kimi gördü ki, üstündə nəsə yazılmışdı:

Cürətli ol, cürətli ol.

Alaqapı açıq idi, xanım içəri keçdi, orda bir ins-cins yox idi. Beləliklə içəri qapıya yaxınlaşdı, gördü ki, onun üstündə də yazı var:

Cürətli ol, cürətli ol, dolanma çox arxayınca.

Xanım yoluna davam etdi, axırda gəlib bir saraya çıxdı, iri pilləkənlərlə yuxarı qalxdı, burda şüşəbənd var idi, qapısının üstündə bu sözlər yazılmışdı:

CÜRƏTLİ OL, DOLANMA ÇOX ARXAYINCA,
ÜRƏYİNDƏN SOYUQ QANLAR AXMAYINCA.

Di gəl xanım Meri qocaq, cəsarətli adamdı, yalan deyənin dili qurusun. O, qapını itələyib açdı, hə, orda nə görsə yaxşıdır? Ay aman, gözəl, gözəl qadınların əndamı al qana bulaşmışdı. Xanım Meri barmağını dişlədi ki, daha bu qan çanağından çıxıb getmək vaxtıdır, odur ki, qapını çəkib bağladı. Şüşəbəndin içindən keçib pilləkənlərlə aşağı düşəndə, bir də onu gördü ki, sarayın çöl tərəfində mister Foks darvazanın qapısı ilə gözəl gənç bir xanımı

darta-darta gətirir. Xanım Meri üzü aşağı götürüldü. Mister Foks rəngi-ruhu özündən getmiş yazıq gənc arvadı içəri gətirənəcən o, vaxtında çəlləyin dalında gizlənməyə macal tapdı. Elə bu vaxt xanım Merinin yanına çatar-çatmaz mister Foks sürütləyib apardığı gənc arvadın barmağında işım-işım işıldayan brilyant üzük gördü, hay əl-qol atdı ki, onu dartıb çıxartsın. Di gəl üzük çıxmadı ki, çıxmadı. Beləliklə mister Foks ona lənət oxudu, dişinin dibindən çıxanı dedi, qılıncını qınından çıxartdı, başı üstə qaldırıb yazıq arvadın əlinin ustə endirdi. Qılınc əli dibindən üzdü, əl isə havaya qalxıb var-gəl etdi, dönüb düz xanım Merinin dizi ustə düşdü. Mister Foks biraz o tərəf-bu tərəfə göz gəzdirdi, amma çəlləyin arxasına baxmaq heç ağlına belə gəlmədi. Nəhayət gənc arvadı pilləkənlərlə yuxarı qaldırıb Qanlı Otağa apardı.

Xanım Meri mister Foksun şüşəbənddən ötüb keçdiyini bilən kimi dabanına tüpürüb özünü qapıdan çölə saldı, darvazadan çıxdı, var gücü ilə evlərinə tərəf qaçdı.

Hə, ertəsi gün xanım Meri ilə mister Foksun kəbini kəiləcəkdi. Təmtəraqlı səhər süfrəsi açılacaqdı. Mister Foksu xanım Meri ilə üzbəüz əyləşdirdilər. Onun gözü xanımında idi.

- Əzizim, bu səhər rəngin-ruhun özündə deyil.

- Elədir,- xanım cavab verdi.- Dünən gecə istirahətim heç yaxşı keçmədi. Dəhşətli yuxular görürdüm.

- Bilirsən, deyirlər yuxular həmişə tərsinə olur,- mister Foks dedi.- amma gəl sən onu mənə danış, sənin gözəl, məlahətli səsini xoş anımız gəlib çatınca eşidim.

- Yuxuda gördüm ki,- xanım Meri sözə başladı,- dünən səhər tözdən sənin qəsrinə gedib çıxmışam. Hə, mən onu meşənin içində tapdım, hündür-hündür divarları, bir də qabağında dərin bir xəndəyi vardı. Darvazanın üstündə isə bu sözlər yazılmışdı:

Cürətli ol, cürətli ol.

- Amma ora elə deyil, yox elə deyil,- mister Foks dilləndi.

- Hə, içəri qapıya çatanda gördüm ki, üstündə yazı var: cürətli ol, cürətli

ol, dolanma çox arxayınca.

- Yox, belə deyil, yalandır,- mister Foks özündən çıxdı.

- Hə, sonra qapını açdım, otaq binəva, öldürülmüş arvadların cəsədi ilə dolmuşdu, hamısı da al qan içində idi.

- Yalandır, ola bilməz. Belədirsə, allah, sən özün kömək ol!- mister Foks dedi.

- Sonra yuxuda gördüm ki, özümü şüşəbəndə saldım, pilləkənlərlə təzəcə düşürdüm ki, səni gördüm, mister Foks, şüşəbəndin qapısına tərəf gəlirdin, arxanca yazıq, gənc, gözəl, varlı bir xanım sürütləyirdin.

- Pərvərdigara, belə deyil. Düzdürsə, allah, bəndənə jazığın gəlsin,- mister Foks imdad dilədi.

- Üzü aşağı götürüldüm, sən, mister Foks, gənc xanımı qollarından dartıb içəri sürütləyəndə mən tözcə çəlləyin arxasında gizləndim. Yanımdan ötüb keçəndə, mister Foks, deyəsən zənnim məni aldatmır, arvadın barmağındakı brilyant üzüyü zorla çıxarmaq istədiyini öz gözlərimlə gördüm. Amma bir şey çıxmadı, onda bax sən, mister Foks, hə, yuxumda mənə elə gəldi ki, sən üzüyü əldə eləmək üçün qılıncını çıxardıb binəva arvadın əlini kəsdin.

- Yox, ola bilməz, belə olmayıb. əgər belə iş olubsa, qoy ulu tanrı özü rəhm eləsin,- mister Foks acı-acı dilləndi.

O, yerindən qalxıb daha nəsə demək istəyirdi ki, xanım Meri ucadan dedi:

- Amma bu həqiqətdir, belə də olub. Bax, bu da əllə üzük, mən onu göstərməliyəm, - deyə ətəyində gizlətdiyi xanımın əlini çıxartdı, onu az qala mister Foksun gözlərinin içinə soxsun.

Xanım Merinin qardaşları və dostları elə həmin anda qılınclarını siyirib mister Foksu tikə-tikə doğradılar.

QƏRİBƏ QONAQ

Bir qarı bütün gecəni cəhrəsinin böyründə oturub yenə ip əyirdi, amma təklikdən cana doydu, arzu elədi ki, kaş yanında bir adam olaydı.

Bir azdan bir cüt iri ayaq pəncəsi içəri keçib düz sobanın yanında əyləşdi. Qarı yenə oturdu, yenə ip əyirdi, ürəyindən keçdi ki, kaş yanında bir qulaq həyanı olaydı.

Hə, bir cüt bapbalaca qıç özünü içəri saldı, düz gəlib iri pəncənin üstündə oturdu. Arvad yenə yerindəydi, yenə ip əyirirdi, ürəyindən yenə keçdi ki, kaş yanında bir qulaq həyanı olaydı.

Bu ara bir cüt ətli diz otağa girdi, düz gəlib bapbalaca, xırdaca qıçların üstündə əyləşdi. Qarı yenə yerindən tərpənmədi, yenə ip əyirdi, amma yenə arzuladı ki, kaş yanında bir kəs olaydı.

Bir cüt nərmənazik bud içəri keçdi, ətli-qanlı dizin üstündə oturdu. Di gəl arvad yenə əyləşmişdi, yenə ip əyirirdi, ürəyindən keçdi ki, kaş onunla həmsöhbət olaydı.

Bu dəm bir cüt nəhəng bel içəri girdi, düz gəlib nərmənazik budların üstündə oturdu. Arvad yenə yerindəcə mıxlanmışdı, yenə ip əyirirdi, yenə də arzu eləyirdi ki, kaş oturub-durmağa yanında bir kəs olaydı.

Hə, bu dəfə xırdaca, cuppulu kürək içəri keçdi, gedib düz nəhəng belin üstündə oturdu. Qarı yenə öz yerindəydi, yenə ip əyirirdi, yenə ürəyində arzusu buydu ki, kaş bir kəs ola.

Bir cüt iri, enli çijin otağa girdi, duz gedib ~ırdaça, çuppulu kurejin üstündə əyləşdi. Arvad yenə tərpənmədi, yenə ipini əyirdi, he, yenə de arzu elədi ki, kaş gəlib-gedəni olaydı.

Bir azdan bir cüt xırdaca, bapbalaca qol içəri keçdi, düz gedib iri, enli çiyinlərin üstündə oturdu. Arvad yenə bayaqkı kimi əyləşmişdi, yenə ipini əyirirdi, yenə də arzu eləyirdi ki, kaş qonaqlı-qaralı olaydı.

Bir cüt iri, yekəpər əl içəri gəldi, düz gedib balaca, xırdaca qolların üstündə oturdu. Arvad yerindən qımıldanmaq bilmirdi, yenə ipini əyirməkde idi, yenə də bayaqkı arzusunun üstündə dayanmışdı.

Cıqqılı, xırdaca boyun içəri otağa girdi, gedib düz iri, enli çiyinlərin üstündə əyləşdi. Arvad sözündən qaçan deyildi, yenə ip əyirirdi, yenə arzusu kaş çin olaydı.

Bu ara içəri heyvərə bir baş girdi, nazik, xırdaca boyunun üstündə pərçimləndi.

- De görüm, niyə vəl ayaq olmusan?- arvad soruşdu.
- Pay-piyada çox gəzib-dolaşmaqdan,- ayaq kobud səslə cavab verdi.
- Bəs baldırların niyə çöp kimidir?
- Ayy!.. gec idi, hə, bir balaca,- baldır qaqqıltı saldı.
- Bəs ətli dizlərin niyə qançır olub?
- Çox dua eləməkdən, çox dua eləməkdən,- diz söylədi.
- Bəs budların niyə belə nərmənazikdir?
- Ayy... gec oldu, bir balaca gec,- bud qaqqanaq çəkdi.
- Yaxşı, de görüm belin niyə joğundur?
- Çox oturmaqdan, çox oturmaqdan,- bel kobud cavab verdi.
- Hə onda küreyin niyə çəlimsizdir?
- Ay, gec oldu, bir balaca gec,- kürək qaqqıldaya-qaqqıldaya dedi.
- Elə isə çiyinlərin niyə enlidir?
- Süpürgə daşımaqdan, süpürgə daşımaqdan,- çiyin kobud-kobud dilləndi.
- Bəs qolların niyə belə çubuq kimidir?
- Ay gec oldu, bir balaca gecikdim - qol şaqqanaq çəkdi.
- Bəs niyə əllərin pəldir?
- Dəmir döyməkdən, dəmir döyməkdən,- əl təəssüfləndi.
- Hə, yaxşı de görüm, bəs başın niyə qarpız boydadır?
- Çox bilməkdən, çox bilməkdən,- baş şəstle söylədi.
- Bəs bura niyə gəlmisən?
- Səndən ötrü!- qəribə qonaq qollarını, ayaqlarını yellədib var-gücuylə bağırdı.

ADAMCIĞAZ

Hə, əzizlərim, vaxt var idi ki, adamlar bapbalaca, bir boyda, bir biçimdə idi, nə qədər yalan-palan var idisə, hamısı həqiqət hesab edilirdi. Hə elə vaxtlar

bapbalaca, cıqqılca bir Adamcığaz vardı. Onun da böyük bir İnəyi vardı. Adamcığaz bir səhər yola düzəldi ki, gedib İnəyin südunu sağsın, yaxına gəlib dedi:

Farağat dur, əzizim,
Farğat dur, ay İnək..
Saman taparam sənə,
Südünü ver sən mənə.

Amma şeşpər buynuzlu, yekə İnək atılıb-düşüb tutuq vermədi. Balaca Adamcığaz üzünü İnəyə tutub dedi:

Doldur südu badyama,
Farağat dur, ay İnək.
Gəl, mənumlə oynama,
Paltarın olar ipək".

Şempər buynuzlu, yekə İnək bu dəfə də sözə baxmadı.

- Sən bu yaramazın işinə bax!- cıqqılı Adamcıqaz əsib çoşdu:

Hara çıxıb gedim mən,
Tərs İnəyun əlundən?!

Hə, belə-belə işlər, Adamcığaz bir əlac eləyə bilməyib evlərinə anasının yanına gəldi.

- Ay ana,- dedi,- İnək farağat durmur ki, durmur, mənim kimi cıqqılı Adamcığaz bu yekə İnəkdən çətin ki süd sağa bilsin.

- Ay allahın yazıq bəndəsi!- anası dedi,- bir çubuq götür, o ki var İnəyi özişdir.

Beləliklə Adamcığaz meşəyə getdi ki, ağacdan əməllicə bir çubuq kəssin. Çubuq hazır olanda dedi:

Vur, çubuğum, hayıf al,
Verərəm sənə qoğal.

Amma çubuq yerindən belə tərpənmədi. Adamcığaz kor-peşman evlərinə qayıtdı.

- Ay ana,- o dedi.- Nə İnək farağat durdu, nə də çubuq yerinden qımıldandı, mənim kimi cıqqılı Adamcığaz iri İnəyi necə döysün ki.

- Ay əfəlin biri, əfəl,- anası dedi, - get Qəssabın yanına, de ki İnəyi kəssin.

Hə, Adamcığaz Qəssabı tapıb dedi:

İnəyun yoxdu südü,
Anam onu kəs – dedi.

Di gəl Qəssab cavab verdi ki, gümüş peni vermeyince, İnəyi kəsməyəcək. Hə, Adamcığaz da pul dalınca eve qayıtdı.

- Ay ana,- o dedi - İnək yenə farağat durmur, çubuq yerindən tərpənmək bilmir, Qəssab da deyir ki, gümüş peni gətirməsəm, inəyi kəsməyəcək. Mən yazıq Adamcığaz o boyda İnəyi necə sağım?!

- Yaxşı, yaxşı,- anası dedi - get o İnəyin yanına, de ki, yorulub əldən düşmüş, uzun sarışın saçlı xanım bir fincan süddən ötrü gözünün yaşını tökür.

Cıqqılı Adamcığaz İnəyi tapıb bu sözləri ona çatdırdı, amma o yenə təpik atmağa başladı. Adamcığaz kor-peşman evə gəlib əhvalatı anasına danışdı.

- Yaxşı,- o dedi - indi də get o İnəyə de ki, davadan gözəl-göyçək bir cavan oğlan gəlib, yorulub əldən düşmüş qızılı saçlı anasının yanında oturub, yazıq arvad da bir qurtum süddən ötrü göz jaşını sel kimi axıdır.

Adamcığaz yola düzəldi, İnəyi tapıb hər şeyi olduğu kimi ona söylədi. Amma çər dəymiş yenə farağat durmadı, o da suyu süzülə-süzülə evə qayıtdı, hər şeyi anasına söylədi.

- Di yaxşı,- anası dedi,- gedərsən o şeşpər buynuzlu, yekə İnəyə deyərsən ki, davadan gələn gözəl-göyçək cavan oğlan toqqasına iti bir qılınc bağlayıb,

üzülüb əldən düşmüş qızılı saçlı anasının böyründə oturub, yazıq arvad da bir qurtum süd deyib hönkür-hönkür ağlayır.

Adamcığaz şeşpər buynuzlu, yekə İnəyə hər şeyi bir-bir danışdı, di gəl inək bu dəfə də ipə-sapa yatmadı.

Sonra anası Adamcığaza dedi:

- Cəld tərpən, get ona de ki, əgər bu dəfə de üzülüb əldən düşmüş göz yaşı tökən xanıma bir qurtum süd verməsə, o gözəl-göyçək oğlanın əlindəki iti qılıncla başını bədənindən qoparacaqlar.

Hə, cıqqılı Adamcığaz çıxıb getdi, hər şeyi bir-bir şeşpər buynuzlu, yekə İnəyə danışdı.

Elə ki, İnək davadan gəlmiş gözəl-göyçək oğlanın iti uclu qılıncının parıltısını, üzülüb əldən düşmüş, bir qurtum süddən ötrü göz yaşı tökən xanımı gördü, bu qərara gəldi ki, daha təpik atmağın yeri deyil. Hə, əzizlərim, beləliklə bapbalaca, cıqqılıca Adamcığaz şeşpər buynuzlu, zorba İnəyi sağdı, üzülüb əldən düşmüş qızılı saçlı xanım daha göz yaşını axıtmadı, bir qurtum südünü götürub içdi, təzəcə davadan qayıtmış gözəl-göyçək oğlan da iti uclu qılıncını qınına qoydu. Hə, yaxşı deyiblər ki, çətin günun ömrü az olar.

CEK HANNAFORD

Keçmiş zamanlarda uzun müddət müharibələrdə iştirak etmiş bir qoca əsgər var idi. Qoca əsgər tamamilə müflisləşib yaşamaq üçün qəpik-quruş əldə etməkdən ötrü haraya gedəcəyini bilmirdi. Odur ki, əsgər yola düşüb dağlar aşdı, dərələr keçdi, nəhayət bir fermaya çatdı. Fermanın xeyirxah sahibi cıxıb bazara getmişdi. Fermerin arvadı çox səfeh bir qadın idi. Fermer onunla evlənəndə qadın dul idi. Fermerin özü də kifayət qədər ağıldan seyrək adam idi. Amma onların hansının daha sarsaq olduğunu ayırd etmək çətin idi.

Bəlkə mənim nağılıma qulaq asandan sonra siz onların hansının daha sarsaq olduğunu seçə bildiniz.

Bəli, fermer bazara yola duşməzdən əvvəl arvadına deyir:

- Bu on funt-sterlinq qızıl pulu götür, mən evə qayıdınca ondan muğayat ol.

Görürsünüz, fermer sarsaq olmasaydı, heç vaxt pulu arvadına saxlamağa verməzdi.

Beləliklə, fermer arabasına minib bazara Getdi və onun arvadı öz-özünə dedi: «Mən bu on funt-sterlinqi oğruların gözündən uzaq yerdə tamamilə təhlükəsiz vəziyyətdə saxlayaram». Fermerin arvadı on funt-sterlinqi əskiyə büküb qonaq otağındakı buxarının başına qoydu.

- İndi mən əminəm ki,- qadın mızıldandı,- heç bir oğru o pulu tapa bilməz.

Qoca əsgər Cək Hannaford yaxınlaşıb fermerin qapısını döydü:

- Qapını döyən kimdir?- arvad soruşdu.

- Cək Hannaford.

- Haradan gəlirsən?

- Cənnətdən.

- Adil allah, özün kömək ol! Olmaya mənim qocamı orada görmüsən? - qadın keçmiş ərini nəzərdə tutub xəbər aldı.

- Bəli, görmüşəm.

- O, cənnətdə necə dolanır?

-Belə da, ortabab vəziyyətdə. O, cırıq ayaqqabılara yamaq salır, yeməyə kələmdən başqa heç nəyi olmur.

- Pərvərdigara!- qadın həyəcanla xəbər aldı,- bəs o mənə heç bir xəbər göndərməyib?

- Niyə ki, göndərib,- Cək Hannaford cavab verdi,- o dedi ki, gönü qurtarıb, cibində siçanlar yallı gedir. O məndən xahiş etdi sənə deyəm ki, təzə gön dəsti almaq üçün ona bir neçə şillinq göndərəsən.

- Göndərərəm, allah ona rəhmət eləsin! - deyərək qadın çıxıb qonaq otağındakı buxarının yanına getdi. Əlini uzadıb buxarının başındakı əskiyə bükülmüş on funt sterlinqi götürdu, gətirib hamısını əsgərə verdi. Qadın əsgərə

söylədi ki, pulları ərinə verib desin ki, nə qədər lazımdır xərcləsin, artığını geri göndərsin.

Pulları əlinə keçirən Cəkin oturub gözləməyə səbri çatmadı. Ayağa durub bacardıqca sürətlə fermadan uzaqlaşdı.

Çox keçməmiş fermer evə qayıtdı, arvadına verdiyi pulu istədi. Arvad ərinə bildirdi ki, pulu bir əsgərlə cənnətdəki keçmiş ərinə yollayıb ki, o, gön alıb mələikələrin və qeyri müqəddəs varlıqların ayaqqabılarını yamaya bilsin. Fermer cin atına minib and-aman etdi ki, heç zaman öz arvadı kimi ikinci bir səfehə rast gəlməyib. Amma arvad da söz altında qalmayıb pulu ona saxlamağa verdiyi üçün ərini sərsərın böyüyü adlandırdı.

Bəli, boş-boşuna çərənləməyə vaxt olmadığını görən fermer atını minib Cək Hannafordun dalınca çapdı. Qoca əsgər at nalının səsini eşidib başa düşdü ki, onu təqib edən fermer olacaq. Odur ki, əsgər yerə uzanıb əlinin birini qaşının üstünə tutaraq göyə baxa-baxa o biri əli ilə göyə işarə etməyə başladı.

- Sən burada nə iş görürsən?- fermer atdan əyilib maraqla xəbər aldı.- Nə görmüsən ki?

- Xuda sizə kömək olsun!- Cək uzaqdan cavab verdi. Bir kişinin dırmaşıb göyə çıxdığını görmüşəm. Sanki kişi yolla gedirdi.

- Hələ da sən o kişini görürsən?

- Bəli, görə bilirəm.

- Hardadır o kişi?

- Atından düş, yerə uzan.

- Zəhmət olmasa, atın cilovundan yapış.

Elə bunu çoxdan gözləyən Cək dərhal atın cilovundan tutdu:

- Mən o kişini görə bilmirəm axı,- fermer dilləndi.

- Əlini qaşının üstünə qoj. Bu saat sənin yanından qaçıb uzaqlaşan bir adam görəcəksən.

Doğrudan da belə oldu, çünki Cək sıçrajıb atı minərək çapıb getdi. Bəli, saqqal dalınca gedən fermer darağı da itirib pay-piyada evə qayıtdı.

- Gördün ki, sən məndən də gicbəsərsən, kişi,- arvadı fermeri məzəmmət

etdi,- mən heç olmasa bir sarsaq iş görmüşdüm, amma sən iki səfeh iş tutmusan.

TAMLEYN

Rəvayətə görə gənc Tamleyn Muppej qrafının oğlu, Burd Cənit isə Març qrafı Danbarın qızı imiş. Qızla oğlan böyüyüb həddi-buluğa çatandan sonra eşqə düşüb könüllərini bir-birinə vermişdilər. Vaxt ötdü, vədə tamam oldu, nigah günu yaxınlaşdı. Toy gününə lap az qalmış Tamleyn yoxa çıxdı. Onun başına nə gəldiyindən heç kəs xəbər tuta bilmədi.

Tamleyn xəbərsiz-ətərsiz yoxa çıxandan iki-üç ay sonra Burd Cənit kiriş yacaq edilmiş Kartephaq meşəsinə gəzməyə çıxdı. Gəzə-gəzə kolların dibindan bənövşələr yığıb topladı. Axırda bir nəfəsotu koluna yaxınlaşıb çiçəklərini qopartmağa başladı. Qız yenicə iki-üç çiçək qopartmışdı ki, gənc Tamleyn dik atılıb onun yanında peyda oldu.

- Sən hardan belə gəlib çıxdın, aman Tamleyn, can Tamleyn? - Burd Cənit gözlərinə inanmayıb dili topuq çala-çala soruşdu,- neçə müddətdir ki, səssiz-soraqsız harda itib-batmısan?

- Mən pərilər diyarından sənə salam gətirmişəm, -gənc Tamleyn cavab verdi.- O diyarın kraliçası məni özünə cəngavər seçib.

- Tamleyn, əzizim, bəs sən pərilər diyarına necə gedib çıxıbsan?

- Bir dəfə mən ovda o təpənin həndəvərində at çapanda gözümə şirin yuxu gəldi, bir də gözümü açanda, vallah başına gəlməsə, inanmazsan, özümü pərilərin səltənətində gördüm! Pərilər diyarının yer üzündə tayı-bərabəri ola bilməz. Sən olmasaydın, mən ömürlük orda qalardım. Bir də ki məni qorxudan bir məsələ də var. Belə ki, hər yeddi ildən bir pərilər allahın yolunda qurban verirlər. Kraliçanın məndən ötrü əldən-ayaqdan getməsinə baxmayaraq, qorxuram ki, çanaq axırda mənim başımda çatlaya.

- Oh, Tamleyn, bəyəm xilas olmağına guman yoxdur? Məgər mən səni

xilas etmək üçün bir şey ede bilmərəmmi?

- Məni xilas etmək üçün bircə yol var, Cənit. Sabah axşam pərilərin bayramıdır. Buna görə də onlar dəstə-dəstə karetalara doluşub İngiltərədən 'Şotlandiyaya səfərə çıxacaqlar. Məni pərilərdən xilas etmək istəsən, gecə saat on iki ilə bir arasında Mayls Krosda yol ayrıcında dayanmalı, əlindəki müqəddəs suyu ətrafına səpə-səpə çevrə çəkməlisən.

- Bəs mən səni heç vaxt görmədiyim o qədər cəngavərin arasında necə tanıya biləcəyəm, Tamleyn,- Cənit titrək səslə xəbər aldı.

- Pərilərin birinci dəstəsi yaxınlaşanda, fikir vermə, qoj keçsinlər. İkinci dəstə gəlib çatanda ehtiramla baş əyərsən, ancaq heç nə deməzsən, yadında saxla, heç nə deməzsən ha! Amma üçüncü dəstə, pərilərin əsas dəstəsidir. O dəstənin başında pərilərin kraliçası at sürəcək. Mən də kraliçanın yanınca süd kimi ağappaq köhlən atımı səyirdəcəyəm. Başımda ulduzlu papaq olacaq. Xaç suyuna salınmış cəngavər olduğuma görə, Cənit, mən bu tərəfə layiq görülmüşəm ha! Gözdə-qulaqda ol ki, Cənitcan, əllərim gözündən yayınmasın. Sağ əlim əlcəkli, sol əlimsə yalın olacaq. Bütün bunlardan sonra məni tanıya bilməsən, onda sənə daha sözüm yoxdur.

- Tutaq ki, səni tanıdım, bəs səni necə xilas etmək lazımdır, Tamleyn?- Cənit tələşla xəbər aldı.

- Eəe ki, məni gördün qəfildən üstümə atılarsan, mən də yerə yıxılaram. O saat qamarlayıb məni bərk-bərk tutarsan. Bundan ötrü başıma hər cur müsibət gələ bilər, çünki pərilər sehrli eməllər çıxara bilər. Sən heç nəyə fikir vermədən o vaxtacan məndən möhkəm-möhkəm yapış ki, pərilər məni pul kimi qızarmış dəmirə döndərsinlər. Sonra məni bu hovuzun içinə tullayarsan, mən de yenidən anadan gəlme çılpaq oğlana çevrilərəm. O dəqiqə plaşını üstümə atsan, həmişəlik sənin olub nahaq dünyaya qayıdaram.

Beləliklə Burd Cənit Tamleynin xətirinə hər şey etməyə hazır olduğuna söz verdi, səhəri gün gecə yarı olanda Mayls Krosda yolayrıcında yerini tutub müqəddəs su ilə ətrafına çevrə çəkdi.

Tezliklə qara kəhər atlara minmiş birinci dəstə təpədən aşdı, sonra o biri

dəstə gözə göründü. Bir azdan üçüncü dəstə peyda oldu. Dəstənin başında ağappaq köhlənə minmiş kraliça dayanmışdı. Yanında da papağı ulduzlu, sağ əli əlcəkli, sol əli yalın cəngavər vardı. Cənit o dəqiqə başa düşdü ki, o cəngavər Tamleyndir. Buna görə də cəld irəli atılıb ağ köhlənin cilovundan yapışıb atını yerə yıxdı. Atlı şappıltı ilə yerə dəyən kimi Cənit cilovu əlindən buraxıb ikiəlli atlını qamarladı.

- Ay haray, ay dad, onu məğlub etdilər, onu məğlub etdilər!- pəribaşı haray saldı, pərilər bir göz qırpımında yığışıb Tamleyni ovsunlaya-ovsunlaya tas qurdular. Əvvəlcə onu Cənitin qolları arasında buz parçasına, sonra dilləri adamı qarsılayan alova çevirdilər. Azca sonra alov dilləri yoxa çıxdı, əvəzində qızın qolları arasından sürüşüb çıxmağa cəhd eləyən qorxunc bir gürzə peyda oldu. Amma Cənit tutduğunu buraxmadı ki, buraxmadı. Bunu görən pərilər oğlanı şahmar ilana çevirdilər. İlan quyruğu üstə dikəlib Cəniti çalmaq istədi, lakin yenə də bir mətləb hasil olmadı. Birdən ilan göyərçinə dönüb qızın qucağında çırpına-çırpına az qaldı ki, uçub getsin. Axırda pərilər oğlanı qu quşuna çevirdilər, yenə də bir şey çıxmadı. Nəhayət pərilərin əlacı kəsilib onu bir parça qızmar dəmirə döndərdilər. Cənite də elə bu lazım idi. O saat qızmar dəmir parçasını götürub əlləri yana-yana suya atdı. Dəmir parçası o dəqiqə çevrilib lüt-madərzad oğlan oldu. Cənit dərhal yaşıl plaşını onun üstünə atdı, Tamleyn həmişəlik onun oldu.

Bunu görən pəri kraliça əlini qojnuna qojub qəmli-qəmli bir şərqi oxudu. Sonra kövrəlib gözü yaşla dolmuş pərilər atlarını sürüb uzaqlaşdılar. Burd Cənitlə gənc Tamleyn eve qayıdıb tezliklə toy elədilər. Onlar müqəddəs suda çimib pak olandan sonra yenidən əsl xristian oldular.

CONNİ QLOUK

Conni Qlouk ixtisasca dərzi idi. Paltar biçib-tikmək hərdəmxəyal Conninin canını boğazına yığmışdı. O, dərziliyin daşını atmaq, başqa iş

tapmaq, qaz vurub qazan doldurmaq istəyirdi. Əlinə sərmayə toplayıb şöhrətə çatmaqdan ötrü əvvəl-əvvəl nə edəcəyini bilməyən Conni bir müddət tənbəl-tənbəl qabırğasını günə verib əlinə iynə-sap almadı.

Günlərin bir günü qızmar günəş altında uzanıb şellənən Conniyə çılpaq ayaqlarına daraşan milçəklər göz verib, işıq vermirdi. Axırda səbri tükənən Conni qolunu qaldırıb var gücü ilə milçəklərin topasına bir yumruq ilişdirdi, bir ovuc milçək xurd-xəşil oldu. O, öz hünərinin qurbanlarını hesablayanda fərəhdən ürəyi quş kimi çırpındı. Uçmağa qanadı olmayan Conni əlini qulağının dibinə qoyub səsini başına atdı:

- Əhsən! Mən Conniyəm, belə gəzərəm,

Bir yumruqla əlli milçək əzərəm!

Bu minvalla Conni var-dövlətə, şan-şöhrətə çatmaq üçün qəti qərara gəlib ayağa durdu, uzandığı yerdən lap köhnə, paslı bir xəncər tapıb toqqasından asdı. Çox guman ki, bu xəncər Conninin ulu babalarının idi. Bəli, dəmdəməki Conni yaraqlanıb-yasaqlanıb, «ya allah» deyib yola düşdü. Az getdi, çox dayandı, çox getdi, az dayandı, axırda gəlib bir ölkəyə çıxdı. İki bədheybət nəhəng bu ölkənin başına olmazın oyunlar açırdı. Amma elə bir güclü adam yox idi ki, nəhəngləri qatlayıb dizinin altına qoya. Ölkəni zar-zar əsdirən iki nəhəngin xəbəri tezliklə Conninin də qulağına çatdı. O iyləyib-çüyləyib öyrəndi ki, kral söz verib ki, ölkəsini bu beladan qurtaran adama çoxlu ənamla yanaşı qızını da ərə verəcək. Ürəyinə təpər gəlmiş Conni qorxu-hürkü hissini unudaraq saraya girib kralın hüzurunda əmrə müntəzir dayandı. Nəhənglərin məskəni olan böyük kaha meşədə idi. Odur ki, Conni paslı xəncəri əlinə alıb meşəyə yola düşdü. Elə ki, meşənin qırağına çatdı, oturub fikirləşməyə başladı:

- Ay allah, görəsən mən necə edim ki, nəhənglərə qalib gələ bilim?

Azca sonra Conni əllərində araba odun aparmağa gələn nəhəngləri görəndə qorxusundan ürək-göbəyi düşdü. İlahi! Sizə nəhəng deyirəm ey! Hərəsi bir dağ boyda idi! Yekə başları, balta kimi dişləri vardı!

Biçarə Conni canını necə qurtarmağı fikirləşə-fikirləşə durub ağacın koğuşuna soxuldu. Yerini rahatlayandan sonra gizləndiyi yerdən boylanıb

ağac kəsən nəhənglərə baxdı. Baxa-baxa beynində götür-qoy elədi. Conni bir çaylaq daşını götürüb var gücü ilə nəhənglərdən birinin başına çırpdı. Ağrıdan beyni gizildəyən nəhəng boynunu döndərib yoldaşına dişinin dibindən çıxanı dedi. Qəzəbindən gözləri alışıb-yanan o biri nəhəng and-aman eləyib bildirdiki, atılmış daşdan onun xəbəri yoxdur.

Məqsədinə çatmaq, kralın qızına qovuşmaq üçün işıq yolu olduğunu Conni dərk elədi. Bir müddət sakitcə dayanıb sonra imkan düşən kimi başqa bir daşı da nəhəngin təpəsinə ilişdirdi. Aldığı zərbədən beyni silkələnən nəhəng özündən çıxıb yoldaşının xirtdəyindən yapışdı. O qədər süpürləşdilər ki, axırda hər ikisi taqətdən düşüb süst qaldılar. Dincəlib özlərinə gəlməkdən ötrü tirin üstündə oturdular. Nəhənglərdən biri oturaq vəziyyətdə dilini sürüyə-sürüyə dilləndi:

- İşə bir bax ey, kralın bölük-bölük qoşunları bizim öhdəmizdən gələ bilmirdi, amma indi bir gündəyik ki, qoca bir qarı da bizi kəndirlə döyüb öldürə bilər.

- Allah eləsin, kaş siz deyən doğru olsun, - deyə Conni qızmış şir kimi gizləndiyi koğuşdan yerə atıldı, - bəs paslı xəncərin sahibi Conni Qlouk necə? O da sizin öhdənizdən gələ bilərmi?

Sözü ağzından qurtaran kimi Conni xəncərini sıyırıb hücuma keçdi, nəhənglərin başını kəsdi, qələbə ilə saraya qayıtdı. Kral vədinə əməl edib qızını Conniyə ərə verdi.

Nəhənglərə necə qalib gəldiyini heç vaxt ağzından qaçırtmayan Conni bir müddət sarayda qulağı dinc, xoşbəxt yaşadı.

Günlərin birində Conninin qayınatasının tərəfdarları arasında parxaşlıq düşüb üsyan başladı. Keçmiş şücaətinə görə üsyanı yatırmaq Conniyə tapşırıldı. Bu xəbərdən yazıq Conninin ürəyi qopub ağzına gəldi, amma yetişdiyi şan-şöhrəti itirəcəyindən qorxaraq kişiliyinə sığışdırıb bu işdən imtina edə bilmədi. Gün üzü görməmiş dəlisov köhləni yəhərləyib Connini ata mindirdilər. O, müşkül işin öhdəsindən gəlmək üçün atını qamçılayıb yola düşdü. At sürməyə verdim etməmiş zavallı Conni cilovu əlində saxlaya

bilməyib atın başını buraxdı. Nalından ildırım çıxan dəlisov ürgə dördnala çaparaq sürətlə üsyankar qoşuna sarı irəlilədi. Gözü qızmış dəlisov ürgə yolun qırağındakı dar ağacının altından yel kimi keçdi.

Sınıq-salxaq dar ağacı uçub atın başına töküldü. Buna baxmayaraq at sürətlə üsyançılara tərəf çapdı. Dəlicəsinə irəliləyən bu qəribə mənzərəni görən üsyançıların canına vahimə düşdü, onlar qışqıra-qışqıra bir-birinə dedilər:

- Sən öləsən, iki nəhəngi o dünyaya göndərən Conni Qlouk dar ağacını atının boynuna keçirdib hamımızı asmağa gəlir. Allahın gicləri, nə durmusuz, qaçın canınızı qurtarın!

Bəli, üsyançılar yaraq-yasaqlarını yerə atıb dabanlarına tüpürdülər, evlərinə çatan kimi tez-tələsik içəri girib qapını daldan cəftələdilər. Conni Qlouk bu minvalla ikinci dəfə ölüm-dirim döyüşündən üzü ağ çıxdı. İllər ötüb qərinələr keçdi, günlərin birində Conni Qlouk taxta çıxıb kral kimi uzun, firavan ömür surərək dərddən-qəmdən uzaq oldu.

KEYT KRƏKƏNATS

Biri vardı, biri yoxdu, çox, çox qədim zamanlarda bir kral, bir də bir kraliçə vardı. Kralın Ənni, kraliçanın isə Keyt adlı qızı vardı. Kraliçanın qızı gözəllikdə Ənninin əlinə su Tökməyə yaramırdı. Amma qızlar bir-birini doğma bacı kimi istəyirdilər. Kralın qızının gözəlliyinə paxıllıq edən kraliça bilmirdi necə eləsin ki, qızın gözəlliyinə xələl gətirən bir şey fikirləşib tapsın.

Buna görə də o, quşçu arvadın məsləhətinə qulaq asıb kralın qızını səhər tezdən ac qarına onun yanına göndərib dedi:

- Get, əzizim, get dərədəki quşçu arvadın yanına, ondan bir neçə yumurta istə.

Beləliklə Ənni mətbəxdən keçəndə gözünə bir qırıq çörək dəydi. Qız çörək qırığını ağzına atıb çeynəyə-çeynəyə evdən çıxdı.

Gəlib quşçu arvad gilə çatanda kraliçanın dediyi kimi bir neçə yumurta

istədi. Quşçu arvad məkrli gözlərini dolandırıb qazana işarə etdi:

- O qazanın qapağını qaldırıb içinə bax.

Məsum qızcığaz qazanın qapağını qaldırıb heç nə görmedi.

- Ay qız, get anana de ki, anbarın qapısını qıfıllı saxlasın, - quşçu arvad rişxəndlə dedi.

Ənni evə qayıdıb quşçu arvadın sözlərini kraliçaya çatdırdı. Kraliça o saat başa düşdü ki, qız səhər-səhər nəsə yeyib. Ona görə də səhəri gün alaqaranlıqdan Ənnini , acqarına quşçu arvadın yanına göndərdi.

Kral qızı yol kənarında noxud toplayan bir neçə kəndliyə rast gəldi. Təbiətcə mehriban Ənni kəndliləri salamlayıb bir ovuc noxud götürdu, bir-bir ağzına atıb dişinin altında əzdi. Quşçu arvadın evinə çatan kimi arvad yenə dedi:

- Qazanın qapağını qaldır, gör içində-necə yumurta var. Ənni yenə qazanın qapağını qaldırdı, ancaq heç nə baş vermədi. Quşçu arvad özündən çıxıb hikkə ilə qıza dedi:

- Ay qız, get anana de ki, nə qədər ki, od uzaqdadır, qazan heç vaxt qaynamayacaq.

Biçarə Ənni evə qayıdıb bu sözləri də kraliçaya söylədi.

Hə, üçüncü gün kraliça Ənninin yanına düşüb quşçu arvadın evinə gəldi. Bu dəfə Ənni qazanın qapağını qaldıran kimi gözəl başı qopub yerə düşdü ve onun çiyinləri üstündə bir qoyun kəlləsi peyda oldu.

Bunu görən kraliça məmnun qalıb şad-xürrəm evə qayıtdı.

Bacısı Keyt qəşəng kətan parça ilə zavallı Ənninin başını sarıyıb əlindən yapışdı. Hər iki qız evdən çıxıb bəxtlərini axtarmağa getdilər. Az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, axırda gəlib bir qəsrə yetişdilər. Keyt qapını döyüb həm özü, həm də xəstə bacısı üçün bir gecəlik sığınacaq istədi. Qızlar içəri girib gördülər ki, bura iki oğlu olan bir kralın qəsridir. Kralın oğlunun biri ölüm ayağında idi. Heç kəs onun dərdindən baş açа bilmirdi. Ən maraqlısı bu idi ki, kim gecə oğlana keşik çəkirdisə, səhər yoxa çıxırdı.

Buna görə də kral oğlunun yanında qalan adama bir kisə gümüş ənam

verirdi. Onu da deyim ki, Keyt çox cəsur qız idi. Odur ki, xəstə oğlana keşik çəkməyə razılıq verdi.

Gecənin yarısınacan işlər qaydasında getdi. Elə ki saat on ikini vurdu, xəstə şahzadə ayağa durub paltarını qeydi və barmaqlarının ucunda aşağı düşdü. Keyt xəstə oğlanı gözdən qoymayıb xəlvətcə onun dalınca getdi. Şahzadə oğlan tövləyə girib atını yəhərlədi. Ov tulasını səsləyib yəhərin qaşına atıldı. Keyt fürsəti əldən verməyib səssiz-səmirsiz oğlanın tərkinə mindi. Oğlan atını dördnala çapıb meşəyə girdi. Elə bu zaman Keyt əlini atıb ağaclardan fındıq yoluşdurub önlüyünün ətəyinə yığdı. Oğlan atını çapa-çapa meşədən çıxıb yamyaşıl bir təpənin ətəyinə yetişdi, atın cilovunu çəkib danışmağa başladı:

- Açıl, açıl, yaşıl təpə, qoy gənc şahzadə öz atı və iti ilə içəri girsin.

Keyt o dəqiqə pıçıltı ilə əlavə etdi:

- Qoy şahzadənin tərkindəki xanım da içəri girsin.

Bəli, yaşıl təpə dərhal açıldı və şahzadə öz dəstəsilə içəri girdi. Şahzadə atdan düşüb möhtəşəm bir salona daxil oldu. Salon nə salon, çilçıraqlar bir-birinə göz eləyirdi. Gözəlliyindən günəş utanan bir bölük pəri o saat şahzadəni dövrəyə alıb onu darta-darta rəqs etməyə apardılar.

Bu vaxt heç kəsin nəzərini cəlb etməyən Keyt qapının dalında gizləndi. O, qapının dalından boylanıb rəqs eləyən şahzadəyə baxdı. Ortadan çıxmaq bilməyən şahzadə o qədər rəqs elədi ki, axırda qıçları sözünə baxmayıb taxtın üstünə çul düşdü. Pərilər başına yığışıb onu yelpikləyə-yelpikləyə hələ gətirəndən sonra yenə rəqs etməyə apardılar.

Nəhayət xoruzlar qanadlarını şappıldadıb banlayanda şahzadə tələm-tələsik atın belinə qalxdı. Keyt də atılıb xəlvətçə öz yerini tutdu. Şahzadə atın cilovunu buraxıb evə sarı səyirtdi. Dan yeri sökülüb günəş üfüqdən boylanan da əyan-əşrəf içəri girib Keyti ocaq kənarında şıqha-şıqla fındıq sındıran gördü. Keyt üzünü onlara tutub bildirdi ki, şahzadə oğlan gecəni sakit keçirib. Amma Keyt daş atıb başını altına tutdu ki, ona bir kisə qızıl verilməsə, bir daha oğlana keşik çəkməyəcək. İkinci gecə də birincinin təkrarı oldu. Gecəyarı

şahzadə yenə atlanıb yaşıl təpəyə sarı çapdı, pərilərin ziyafət məclisində iştirak etdi. Keyt yenə də meşədən keçəndə fındıq yığdı.

Amma bu dəfə şahzadəyə göz qoymadı. Bilirdi ki, şahzadənin işi-peşəsi fasiləsiz rəqs etmək olacaq. Odur ki, Keyt ətrafına göz gəzdirməyə başladı. Elə bu dəm əlində çubuq oynadan bir pəri gördü, diqqət kəsilib pərilərdən birinin dediyi bu sözləri eşitdi:

- Keytin xəstə bacısına bu çubuqla üç dəfə sığal çəksən, o əvvəlki kimi gözəl qız olar.

Beləliklə Keyt fındıqları bala pəriyə sarı diyirlətməyə başladı. Bala pəri aşa- aşa fındıqların dalınca qaçıb başı qarışdı, əlindəki çubuğu yerə saldı. Keyt dərhal çubuğu qapıb önluyünün cibində gizlətdi. Xoruz banında onlar yenə də evə qayıtdılar. Keyt ayağını astanaya basan kimi otağına cumub çubuğla Ənnini üç dəfə sığalladı. O dəqiqə yaramaz qoyun kəlləsi qopub yerə düşdü. Ənninin öz gözəl başı çiyinləri üstündə göründü. Üçüncü gecə Keyt şərtini belə kəsdi:

- Əgər məni xəstə şahzadəyə almağa razı olsanız, bu gecə də ona keşik çəkərəm.

Üçüncü gecə də işlər yaxşı gedirdi. Bu dəfə bala pəri bir quşcuğazla oynayırdı. Elə bu dəm Keytin qulağına pərilərdən birinin dediyi bu sözlər çatdı:

- Bu quşcuğazdan xəstə şahzadə üçün diş alsa, o əvvəlki kimi sağlam olar.

Keyt yenə də yanında olan fındıqların hamısını bircə-bircə bala pəriyə tərəf diyirlətdi. Fındıqlara başıqarışan bala pəri quşcuğazı yerə saldı. Keytə elə bu lazım idi, o dəqiqə quşcuğazı qapıb önlüyünün altında gizlətdi.

Onlar yenə də xoruz banında evə qayıtdılar. Bu dəfə fındıq sındırmaq əvəzinə Keyt quşcuğazın tükünü yolub suda qaynatdı. Tezliklə iştah açan bir qoxu ətrafa yayıldı.

- Of, aman allah!- xəstə şahzadə dilə gəldi – kaş o quşçuğazdan bir dişləm ala biləydim.

Keyt quşcuğazdan bir dişləm şahzadəyə verdi. Şahzadə o dəqiqə

dirsəklənib asta-asta xahiş etdi:

- Ah, nə olar o quşcuğazdan mənə bir dişləm də verin!

Keyt quşcuğazdan şahzadəyə bir dişləm də verdi. Şahzadə qalxıb yorğan-döşəyin içində oturdu. Azca sonra o yenə də yağlı dilini işə saldı:

- Ah, o quşcuğazdan üçüncü dişləmi də ala bilsəydim, dərdim olmazdı.

Keyt quşçuqazı şahzadəyə uzatdı. Şahzadə üçüncü dişləmi alan kimi anadangəlmə olub ayağa durdu, paltarlarını geyinib ocağın qırağında əyləşdi. Səhər tezdən camaat içəri doluşanda Keytlə cavan şahzadəni şaqqaşaraqla fındıq sındıran gördülər. Bu arada xəstə şahzadənin qardaşı Ənnini görüb bir könüldən min könülə ona vuruldu. Belə ki, Ənninin gözəlliyindən keçmək mümkün deyildi.

Bəli, xəstə oğul sağlam bacı ilə, sağlam oğulsa xəstə bacı ilə həyat qurub xoşbəxt dövran sürə-sürə can deyib can eşitdiler.

KRAL CON VƏ KƏNTERBERİ KEŞİŞİ

Belə nəql edirlər ki, kral Con taxta çıxıb hakimi-dövran olanda Kənterberide bir keşiş yaşayırdı. Kənterberi mahalının adlı-sanlı bu keşişi hər gün yüz rahibi başına yığıb yeməkxanada qonaqlıq verirdi. Boyunlarında qızıl xaç gəzdirən məxmər pəncəkli əlli cəngavər səhərdən axşamacan canı-dildən keşişin qulluğunda dayanırdı. Bildiyimiz kimi kral Con çox tündməcaz adam idi. O, heç kəslə hesablaşmır, heç kəsin sözünü saya salmırdı.

Bir dəfə kral Con Kənterberi keşişini hüzuruna çağırtdırdı.

Keşiş boynu xaçlı, məxmər pencəkli əlli cəngavərin müşayiətilə saraya təşrif gətirdi. Kral keşişin pişvazına çıxıb dedi:

-Bu necə işdir, müqəddəs ata eşitmişəm ki, sən məndən də böyük dövlət dolandırırsan. Bu, mənim kral ləyaqətimlə bir yerə sığmır. Sənin bu hərəkətin mənim taxt-tacıma xəyanətdir ha!

- Sultanlar sultanı, - keşiş iki qat olub asta səsla sözə başladı, - acizanə surətdə hüzurunuzda ərz edirəm ki, mənim xərclədiyim bütün pulları camaat sidq ürəklə kilsəyə ianə verir. Mən belə güman edirəm ki, kilsəyə məxsus pulları kilsənin yolunda xərcləmək sizin heç də pisinizə gəlməz, qibləgahım.

- Elə şey yoxdur, keşiş ağa,- kral bozardı,- bu gözəl İngiltərə krallığında hər nə varsa, hamısı mənimdir. Belə cah-cəlal yaradıb mənə xəcalət verməyə sənin ixtiyarın yoxdur.

- Bir qələtdir eləmişəm, əlahəzrət, - keşiş üzrxahlıq etdi, - nə qədər ki, ağlım başımdadır, bir də belə iş tutmaram.

- Elə isə,- kral səsini yumşaltdı,- onda de görüm dünyanın mərkəzi haradır? Söylə görüm dünyanın başına atla neçə günə fırlanmaq olar? Və nəhayət, de görüm mən nə fikirləşirəm?

- Ey adil hökmdar... - keşişin dili topuq çaldı.

- Bura bax, müqəddəs ata,- kral hədə ilə bildirdi, - düz üç həftə tamam olunca bu suallara cavab tapa bilməsən, başın bədənindən ayrılacaq.

Kral sözünü deyib getdi.

Bəli, biçarə keşiş qorxudan əsə-əsə atını sürüb əvvəlcə Oksforda gəldi görsün ki, üç suala cavab verə biləcək bir savadlı 1oğman tapa bilirmi. Amma keşişin dərdinə çarə tapan olmadı. Qəm dəryasında qərq olan keşiş yolu əlinə alıb Kənterberiye getdi ki, rahiblərlə halallaşsın. Kilsənin hasarlarına yaxınlaşanda keşiş çobanın quzu küzlərinə sarı getdiyini gördü.

- Xoş gəlmisiniz, keşiş ağa, həmişə siz gələsiniz,- çoban həlim səslə dedi,- Kral Conun yanından nə xəbərlə qayıtmısınız?

- Bəd xəbərlə, çox bəd xəbərlə, çoban, əzizim,- keşiş dərdli-dərdli köks ötürdü və başına gələnləri ona söylədi.

- Eh, burda nə var ki, özünüzu üzməyin, cənab keşiş, - çoban şəstlə keşişə ürək-dirək verdi, - bəzən elə olur ki, səfehin biri ağıllı adamın bilmədiyi şeylərə cavab verə bilir. Qəm yeməyin, sizin yerinizə Londona mən gedərəm. Həm keşiş qiyafənizi, həm də əlli cəngavəri mənə verin. Öləndə də sizin yerinizə qoy

mən ölüm.

- Olmaz, səxavətli çoban, belə yaramaz, - keşiş ümidsiz halda dilləndi, - təhlükəyə mən özüm sinə gəlməliyəm. Mənim əvəzimə kralın hüzurunda sən necə dayana bilərsən?

- Dayanaram da, hələ lap o yana da keçərəm, cənab keşiş. Papaqlı keşiş paltarında məni hardan tanıyacaqlar?

Beləliklə çox çək-çevirdən sonra keşiş razılıq verib çobanı bir bölük cəngavərlə Londona yola saldı. Ruhani paltarı geyib papağı gözünə keçirtmiş çoban saraya gəlib Kral Conun qarşısında təzim elədi.

- Aha, xoş gəlibsən, cənab keşiş, - Kral Con razılıqla keşişə müraciət etdi, - belə çıxır ki, suallara cavab verməyə hazırsan hə?

- Bəli, hazıram, əlahəzrət.

- Onda, birinci sual - yer kürəsinin mərkəzi haradır? - Bax bura, - çoban əlindəki çubuğu yerə sancdı, - qibləgahım, əgər mənə inanmırsınızsa, gedib ölçə bilərsiniz.

- Müqəddəs Məryəmə and olsun ki, - kral uğundu, - çox ağıllı və məzəli cavabdır. Beləliklə ikinci suala keçirəm. Dünyanın başına atla neçə günə fırlana bilərəm?

- Əgər siz, möhtərəm kral, günəş doğanda at yerinə onun belinə qalxsanız, bir gündən sonra günəş yenidən çıxana kimi dünyanın başına dolanmış olarsınız.

- Allaha and olsun, - Kral Con gülümsədi, - dünyanın başına belə tez fırlanmağın mümkünlüyü heç yatsam, yuxuma da girməzdi. Bu cavabına da sözüm yoxdur, keşiş, indi isə üçüncü sualıma cavab ver. Sual belədir - mən nə fikirləşirəm?

- Bunu tapmağa nə var ki, əlahəzrət, - çoban dərhal dilləndi. - Əlahəzrət fikirləşir ki, mən Kənterberinin mötəbər keşişiyəm, amma gördüyünüz kimi, - deyə çoban papağı başından dala itələdi, - mən keşişin zavallı çobanıyam.

Özüm də gəlmişəm ki, keşişin əvəzindən üzrxahlıq eləyəm.

Kral Con ürəkdən şaqqanaq çəkdi.

- Deməzsən ki, aldatdım. Bəyəm sənin o qədər ağlın var ki, keşişin yerində keşişlik edəsən?

- Xeyr, yoxdur. Məndə ağıl hardadır,- çoban yazıq görkəm aldı,- əlimdən nə yazmaq, nə də oxumaq gəlir.

- Elə isə, onda dörd nəfər bilikli mirzə bir həftə ərzində sənin başına ağıl qoyar. Özün də keşişə çatdır ki, mən onu bağışlayıram.

Bəli, Kral Con çobana ömürlük təqaüd kəsib ənam verdi və onu hörmət-izzətlə keşişin yanına yola saldı.

GÖYDƏKİ ULDUZLAR

Biri vardı, biri yoxdu, çox, çox qədim zamanlarda balaca bir qızcığaz vardı. Bu qızcığaz göydəki ulduzlarla oynamaqdan ötru bütün günü gözünün qorasını axıdıb zar-zar ağlayırdı. Xam xəyala düşmüş qızcığaz təkidlə «ulduz, ulduz» deyə-deyə durmuşdu. Beləliklə o, günlərin birində evdən çıxıb ulduzları tapmağa getdi. Az getdi, üz getdi, dərə, təpə, düz getdi və axırda gəzə-gəzə gəlib su bəndinin yanına çıxdı.

- Sabahın xeyir, ay bənd, - qızcığaz ağlamsındı, - Mən qaçdı-tutdu oynamaq üçün göydəki ulduzları gəzirəm. Onlardan sənə rast gələni olmayıb ki?

- Oo, olub, qəşəng qızcığaz, - su bəndi dilə gəldi, - ulduzlar bütün gecəni mənim üzümdə işıq saçır. Onların əlindən yuxu üzünə həsrət qalmışam. At özünü suya, bəlkə birini tapa bildin.

Bəli, qızcığaz suya atılıb o qədər üzdü ki, nəfəsi kəsildi, amma heç bir ulduza rast gəlmədi. Kor-peşman yolu əlinə alıb bəndin yanından uzaqlaşdı. Gəzə-gəzə gəlib bir çayın sahilinə çıxdı.

- Sabahın xeyir olsun, çay, ay çay, - qızcığaz qəmli səslə dedi, - axı mən qaçdı-tutdu oynamaq üçün göydəki ulduzları axtarıram. Sən heç ulduz görmüsənmi?

- Bıy, bu nə sözdür, əlbəttə görmüşəm, gözəl qızcığaz, - çay cavab verdi, -

ulduzlar bütün gecəni sahilimdə sayrışır. Qayığa min, avar çək ki, bəlkə tapasan.

Bu minvalla qızcığaz qayığa minib o qədər avar çəkdi ki, heydən düşüb qollarını qaldıra bilmədi, amma bir dənə də ulduz tapa bilmədi. Naçar qalıb yola düşdü, gəzə-gəzə gəlib halay vurmuş bir dəstə cinin yanına çıxdı.

- Hamınızın sabahınız xeyir, gözəl məxluqlar,- qız cinləri şirin dillə salamladı, - mən qaçdı-tutdu oynamaqdan ötrü göydəki ulduzları axtarıram. heç sizə ulduz rast gəlibmi?

- Eh, eh, əlbəttə, gəlib, gözəl qızcığaz,- cinlər xorla dilləndilər, - ulduzlar bütün gecəni meh düşmüş otların üstündə bir-birinə koz vururlar. Sən də bizə qoşulub rəqs elə ki, bəlkə birini tapa biləsən.

Hə, qızcığaz cinlərə qoşulub o qədər rəqs elədi ki, ayaqlarının altı suluqladı, amma heç bir dənə də ulduz görmədi. Umidi üzülüb yerə oturdu və ağlamağa başladı.

- Pərvərdigara, sən özün mənə rəhm elə, - qızcığaz imdad dilədi, - suda üzmüşəm, avar çəkmişəm, hələ bir desən rəqs də etmişəm, ancaq heç bir faydası olmayıb. Qurbanın olum, allah, sən mənə kömək etməsən, göydəki ulduzları tapmaq heç vaxt mənə qismət olmayacaq.

Elə bu dəm cinlərin arasına pıçhapıç düşdü. Bir azdan onlardan biri yaxınlaşıb qızcığazın qolundan yapışdı:

- Əgər evinizə, ananın yanına qayıtmayacaqsansa, bir başa irəli get. Gözlə yoldan sapmayasan. Dörd Ayaqlıya yalvar-yaxar ki, səni Ayaqsızın yanına aparsın. Ayaqsızdan xahiş et ki, səni pilləsiz pilləkənin yanına aparsın.

İşdir əgər sən o pilləkənlə yuxarı qalxa bilsən...

- Oh, əgər qalxa bilsəm, onda göydəki ulduzların arasında olacağammı?

- Hərçənd ki, sən ulduzların arasında olmasan da, haradasa olacaqsan də, - cinlər xorla cavab verib yenidən yallı getməyə başladılar.

Ürəyindən dərd-qəmi azalıb yüngülləşən qızcığaz yenə də yolu əlinə aldı. Gəzə-gəzə gəlib ağaca bağlanmış yəhərli-yüyənli bir atın yanına çıxdı.

- Sabahın xeyir, ay heyvan, - qızcığaz dedi, - mən qaçdı-tutdu

oynamaqdan ötrü göydəki ulduzları gəzirəm. Məni belənə mindirib apararsanmı? Vallah, pay-piyada yol getməkdən sümüklərim sızıldayır.

- Olmaz, apara bilmərəm! - at etiraz etdi, - mən göydəki ulduzları tanımıram, heç tanımaq da istəmirəm. Mən oz başıma deyiləm, qızcığaz. Mən cinlərin əmrini yerinə yetirməkdən ötrü burada dayanmışam.

- Eh, bayaqdan belə de də, - qızcığaz sevincək dilləndi,- mən cinlərin yanından gəlirəm də. Cinlər mənə tapşırıb ki, Dörd Ayaqlıdan xahiş edim, məni Ayaqsızın yanına aparsın.

- Hə, bu başqa məsələ, - at razılıqla başını tərpətdi, - atıl min belimə çapıb gedək.

Bəli, qızcığaz atı yorğa sürə-sürə meşədən çıxıb bir dənizin qırağına yetişdi. Qarşısında suyun üzündə parıltısı göz qamaşdıran enli bir yol gördü. Bu yol sudan baş qaldırıb göyə uzanan çox qəribə bir şeyə doğru baş alıb gedirdi.

Orada göz oxşayan nə cür glvan rgnklgr desən tapmaq olardı.

- Qızcığaz, belimdən yerə düş, - at söylədi,- mən səni torpağın qurtaracağına kimi gətirmişəm. Dörd Ayaqlı bundan artıq heç nə edə bilməz. Mən artıq cinlərin hüzuruna qayıtmalıyam.

- Bəs, - qızcığaz ümidsiz halda xəbər aldı, - Ayaqsız haradadır? Pilləsiz pilləkənlər hanı?

- Heç nə bilmirəm. Elə şeylərin mənə dəxli yoxdur. Salamat qal, qəşəng qızcığaz, - deyə at dördnala çapıb uzaqlaşdı.

Beləliklə qızcığaz naguman halda xeyli müddət sakitcə dayanıb gözlərini suya dikdi. Nəhayət çox qəribə bir balıq peyda olub üzgəclərini şappıldada-şappıldada qıza yaxınlaşdı.

- Sənin sabahın xeyir olsun, ay yekə balıq, - qız dilləndi, - mən göydəki ulduzları, həm də göyə baş alıb gedən pilləkəni axtarıram. Sən yolu mənə göstərərsənmi?

- Yox, göstərə bilmərəm, - balıq başını silkələdi, - sən cinlərin razılıq bildirən sözlərini mənə çatdırmayınca, bu iş mümkün olmayacaq.

- Çox yaxşı, çox yaxşı, - qızcığaz sevindi, - cinlərin özləri mənə dedilər ki, Dörd Ayaqlı məni Ayaqsızın yanına gətirəcək və Ayaqsız da məni götürüb pilləsiz pilləkənin yanına aparacaq.

- Aha, bu, başqa məsələ. Onda mən razı, - balıq razılıqla başını aşağı əydi, - min belimə, özün də möhkəm yapış.

Bunu deyib yekə balıq özünü şappıltı ilə suya vurdu, gümüş yol boyunca üzə-üzə parlaq alaqapıya sarı irəlilədi. Onlar alaqapıya yaxınlaşdıqca parıltısı lap çoxaldı. Alaqapının şövqündən gözləri qamaşmasın deyə qızcığaz əlini gözünün üstünə qoydu. Alaqapının ətəyinə çatanda qızcığaz burula-burula baş alıb göyə ucalan enli, parlaq bir yol gördü. Göz işlədikcə uzanan bu yolun qurtaracağında cuppulu-cuppulu şeylər sayrışaraq rəqs edirdi.

- Hə, belə-belə işlər, qızcığaz, - balıq dilləndi, gəlib çatdıq. Odur ey pilləkən, bacarırsansa, dırmaş, ancaq möhkəm yapış ki, yıxılmayasan. Onu da deyim ki, bu pilləkənlə yuxarı çıxmaq evdəki pilləkənlərdən asandır. Özü də bu pilləkən sanki sənin addımlarının ölçüsünə görə biçilib.

Balıq sözünü tamamlayıb suya baş vurdu və dalğaların qoynunda gözdən itdi.

Bəli, qızcığaz dırmaşmağa başladı. Amma nə qədər dırmaşdısa, bircə addımdan artıq yuxarı qalxa bilmədi. Gözləri önündə işıq, arxada dəniz var idi. Nə qədər çalışıb- çapalasa da, bir o qədər çox qaranlığa vf soyuğa düşdü.

Dırmaş ki, dırmaşasan, biçarə qızcığaz o qədər dırmaşdı ki, parlaq işıqdan başı gicəllənib gözləri dumanlandı. Soyuqdan tir-tir əsib qorxudan canına vicvicə düşdü. Axır ki, taqəti kəsilib axmaq vəziyyətə düşdü. Əllərini buraxıb tappıltı ilə aşağı düşdü.

Guppultu ilə möhkəm yerə dəyən qızcığazın yançağı əzildi. Gözünü açıb özünü tək-tənha evlərində çarpayısının yanında oturub zar-zar ağlayan gördü.

PEYĞƏMBƏR QOBBORN

Bir zamanlar peyğəmbər Qobborn adlı bir kişi yaşayırdı. Onun Cək adlı bir oğlu vardı.

Günlərin bir günü kişi oğlunu bazara qoyun dərisi satmağa göndərib dedi:

- Oğul, sən həm dərini, həm də dəriyə düşən pulu qaytarıb gətirməlisən.

Hə, Cək bazara yollandı, amma elə bir kəs tapa bilmədi ki, dərini almamış pulunu versin. Odur ki, o, ruhdan düşüb evə qayıtdı.

Peyğəmbər Qobborn halını pozmayıb mülayim-mülayim oğluna təskinlik verdi:

- Bala, heç fikir eləmə, sabah gedib yenə bəxtini sınayarsan.

Səhəri gün Cək yenə də bazara gedib qoyun dərisini satmamış pulunu almağa cəhd etdi, amma bu şərtlə razılaşan tapılmadı.

Alveri uğursuz olduğuna görə Cək mısmırığını sallayıb evə qayıdanda atası yenə ürək-dirək verib dedi:

- Eyb eləməz, ay oğul, sabah da gedib bəxtini sınayarsan.

Üçüncü gün də heç bir dəyişiklik baş vermədi.

Bəli, atasının dilxor olacağını gözü önünə gətirən Cək yarıkönül evə qayıtmaq fikrindən daşındı. Yolunun səmtini dəyişib gəzə-gəzə bir körpünun yanına çatdı. Körpünün qırağına söykənib düşdüyü əzab-əziyyət, bir də evdən qaçıb-qaçmamaq haqqında götür-qoy edib odla su arasında qaldı. Bir az sonra körpünün ayağında sahildə paltar suya çəkən qız gözünə sataşdı. Qız başını yuxarı qaldırıb sual dolu nəzərlərlə Cəkə baxdı:

- Soruşmaq eyb deyilsə, də görüm halın nədən pərişandır?

- Eh, xanım qız, atam bu zəhrimara qalmış dərini mənə verib ki, axşam evə qayıdanda dərini də, onun pulunu da evə aparım.

- Elə bu? Dərini mənə ver, oğlan, bu çox asan məsələdir.

Bunu deyib qız dərini axar suda yuyandan sonra yununu tərtəmiz yolub haqqını oğlana verdi. Çılpaq dərini qaytardı ki, oğlan evə aparsın.

Atası çox məmnun olub Cəkə dedi:

- O kim imişsə, çox ağıllı qadın imiş, oğul. Ondan sənə yaxşıca arvad olarmış. De görüm onu bir də görsən, tanıyarsanmı?

Cəkə elə gəldi ki, tanıya bilər. Odur ki, Cək yavaş-yavaş körpüyə tərəf gedib qızın sahildə olub-olmadığını yoxlamaq və qızı çaya dəvət etmək istədi. Əlbəttə ki, Cək güdüb-güdüb qızı tapdı:

- Xanım qız, atam səni görmək arzusundadır. Etiraz etməsən, çay içmək üçün bizə gedərik.

- Ay oğlan, dəvət üçün təşəkkür edirəm, - qız nəvazişlə dilləndi, - inciməsən sizə sabah gələrəm. Bu gün əlimdə vacib işim var.

- Bu lap əla oldu ki, - Cəkin gözləri güldü, - çay dəstgahına tədarük görmək üçün mənim də xeyli vaxtım olar.

Beləliklə qız gələndə peyğəmbər Qobborn qızın çox ağıllı olduğunu yəqin edib xəbər aldı:

- Gözəl qız, oğlum Cəkə arvad olarsanmı?

- Bəli, olaram, - qız nazla cilvələndi və onlar tezliklə toy edib həyat qurdular.

Bu əhvalatdan bir müddət sonra atası Cəkə dedi:

- Oğlum, sən gərək mənimlə gedib misli-bərabəri olmayan elə bir imarət tikdirəsən ki, krallar baxanda ağzı açıq qala.

Hə, bir gün ata-bala imarətin özül daşını qoymağa gedəndə peyğəmbər Qobborn üzünü Cəkə tutub dedi:

- Bura bax, oğlum, yolumuzu qısalda bilərsənmi?

Biçarə Cək göz işlədikcə uzanıb gedən yola boylanıb məlul-müşgül çiynini çəkdi:

- Ata can, yolu qısaltmaq heç ağlabatan şey deyil.

- Onda səndən mənə yoldaş olmaz. Yaxşı olar ki, qayıdıb evə gedəsən.

Çarəsi kəsilmiş Cək kor-peşman dabanlarını cütləyib evə qayıtdı. Qapıdan içəri girən kimi arvadı başının üstünü alıb sual verdi:

- Ayy, necə oldu ki, evə tək qayıtdın?

Cək hər şeyi olduğu kimi arvadına söylədi.

- Ay allahın gici, - ağıllı arvad Cəki məzəmmət elədi, - atana nağıl söyləsəydin, yolu qısaltmış olardın da! Qulağın məndə olsun, sənə bir nağıl

söyləyim, sonra sən qaç, qaynatama çatan kimi eşitdiyin nağılı söylə. Bilirəm ki, nağıl onun xoşuna gələcək. Sən nağılı söyləyib qurtarana kimi özülün yanına çatarsınız.

Qaçmaqdan təri dabanından çıxan Cək gəlib atasına çatdı. Peyğəmbər Qobborn ağzını açıb kəlmə də kəsmədi, amma Cək nağılı söyləyib yolu qısaltdı.

Bu minvalla ata-bala mənzil başına yetişib misli-bərabəri olmayan imarətin inşasına başladılar. Ağıllı arvad onlara məsləhət görmüşdü ki, nökər-naiblə yumşaq rəftar etsinlər. Onlar belə də etdilər. On bir ay ötüb on ikinci ay başa çatanda müdrik Qobborn elə imarət tikdirdi ki, minlərlə adam tamaşaya yığılıb məftun oldular.

İmarətə tamaşa etməyə gələn kral heyran-heyran razılıq etdi:

- Demək olar ki, imarətin inşası başa çatıb. Sabah qayıdıb hamınızın haqqını verəcəyəm.

- Yuxarıdakı salonun tavanına bir balaca əl gəzdirmək lazımdır, - Qobborn şəstlə bildirdi, - Vəssalam, başqa heç nə lazım deyil.

Kral çıxıb gedəndən sonra dalandar qadın Qobbornla Cəki yanına çağırtdırıb tələsik dedi:

- İmkan axtarırdım sizə xəbər verəm ki, kralın gözü sizdən su içmir. Qorxur ki, siz öz məharətinizi götürüb aradan çıxar, başqa krala da belə əzəmətli imarət tikərsiniz. Buna görə də kral sabah sizin boynunuzu vurduracaq.

Məsələdən agah olan Qobborn oğluna ürək-dirək verdi: - Oğlum, sən heç qorxub eləmə, birtəhər canımızı qurtararıq.

Səhəri gün kral qayıdıb gələndə Qobborn yaxınlaşıb təəssüflə ona söylədi:

- Qibleyi-aləm, alətin birini evdə qoyub gəldiyimə görə işi qurtara bilməmişəm. Əgər izin versəniz, Cək gedib onu gətirər.

- Yox, yox, lazım deyil, - kral əl-ayağa düşdü, - yəni nökər-naibin heç biri o işi görə bilməz?

- Xeyr, hökmdar, onların hamısı səfehdilər. Bu işi bircə Cək görə bilər.

- Sən də, oğlun da burda qalmalısınız. Bəs mən öz oğlumu göndərsəm necə?

- Bu başqa məsələ.

Hə, Qobborn bir barmaq kağız yazıb kralın oğlu ilə Cəkin arvadına göndərdi. Kağızda bu sözlər yazılmışdı. «Bunu ikiqat edib düzəlt».

Kağızı oxuyan kimi Cəkin arvadı stolun üstünə çıxıb əlini divarın başındakı taxçaya uzatdı ki, qutunu götürsün, amma nə qədər dabanlarını qaldırsa da, götürə bilmədi. Ona görə də qolları uzun kral oğlundan xahiş etdi ki, qutunu götürsün.

Kralın oğlu qutunun üstünə əyilən kimi Cəkin arvadı onun qıçlarından yapışıb qutunun içinə itələdi, qutunun qapağını bərkitdi. Beləliklə kralın oğlu qutunun içində ikiqat olub sonra düzəldi.

İşlərin fəna olduğunu görən kralın oğlu ilan dili çıxarıb qələm-kağız istədi. Cəkin arvadı kralın oğlunun bu xahişinə əməl elədi, amma ona qutudan çıxmağa icazə verməyib qutunun jyanlarından deşik açdı ki, nəfəs almaq mümkün olsun.

Kral oğlunun naməsini oxuyub biləndə ki, Qobbornla Cək sağ-salamat evə qayıdandan sonra onu azadlığa buraxacaqlar, o, imarətə çəkilmiş zəhmət haqqını ödəyib ata-balanı evə buraxdı.

Kralın imarətindən uzaqlaşıb gözdən itən kimi Qobborn qürurla oğluna dedi:

- Cək, oğlum, artıq sən öz işinin mahir ustasısan. Odur ki, biz gərək sənin ağıllı arvadın üçün elə möhtəşəm bir imarət tikək ki, kral baxıb paxıllıqdan partlasın.

Deyilənə görə ata-bala belə də ediblər. Onlar əzəmətli bir imarət tikib orda şad-xürrəm ömür sürüblər.

HİKMƏTLİ BUZOV

Belə nəql edirlər ki, qədim zamanlarda ölkənin bu hissəsi çöllü-biyaban olanda balaca bir oğlan uşağı yoxsul daxmada yaşayırdı. Günlərin birində atası oğlanı yanına çağırıb ona bir buzov bağışladı.

Bu əhvalatdan bir az sonra oğlanın atası dünyadan köçdü, anası isə təzədən başqa bir kişiyə ərə getdi. Çox əzazil olan ögey ata oğlana göz verib işıq vermirdi. Nəhayət bir gün o, oğlanın üstünə xoruzlanıb barmağını silkələdi:

- Sənə axırıncı dəfə xəbərdarlıq edirəm. Buzovun ayağı bir də bu qapıya dəysə, vurub onu öldürəcəyəm.

Belə ataya nə demək olar? Yaramızın biridir də, elə deyilmi, uşaqlar?

Bəli, balaca oğlan hər gün buzovunu arpa çörəyi ilə yemləyirdi. Bir dəfə o, buzovu yemləyəndə atalığı yanına gəlib ona dedi:

- Yaxşı olar ki, buzovu da yanına salıb bəxtini sınamağa gedəsən.

Beləliklə biçarə oğlan çarığının bağını bərkidib yolu əlinə aldı. Gethaget, o qədər yol getdi ki, ikinci gün qaranlıq qovuşanda gəlib bir binaya çatdı. Yalvarıb-yaxardı bir parça çörək aldı. Geri qayıdıb çörəyi iki yerə böldü, birhissəsini buzova verdi. Sonra oğlan başqa evin qapısını deyərək əlini açıb bir tikə üzlü pendir aldı. Geri qayıdıb aldığı pendirin yarısını buzova vermək istədi.

- Yox-yox, mən pendir istəmirəm, - buzov dilə gəldi, indi mən bu düzü keçib insan ayağı dəyməmiş cəngəlliklərə gedirəm. Cəngəllik xallı pələnglər, canavarlar, şirlər, meymunlarla doludur. Orda bir dənə də ağzından od püskürən əjdaha var. Əjdahadan başqa vəhşilərin hamısını məhv edəcəyəm. Əjdaha isə məni öldürəcək.

Bunu eşidən oğlanın ürəyi qopdu:

- Ah, yox, amandır elə söz demə, ay mənim körpə buzovum. Allahın köməyi ilə əjdaha səni öldürə bilməz.

- Dedim ki, öldürəcək də, - buzov etiraz edib dedi, - indi isə dur o ağacın başına dırmaş. Elə elə ki, səndən yuxarı heç kim dırmaşa bilməsin. Əgər meymunlar səndən yuxarı dırmaşsalar, üzlü pendir səni xilas edər. Əjdaha

məni öldürəndən sonra çıxıb gedəcək. Elə ki, getdi, tez ağacdan yerə düşüb dərimi soyarsan. Qarnımı yarıb öd kisəmi çıxardarsan. Üfürüb tuluğa döndərərsən sonra onunla kimə birini ilişdirsən, canını sənə tapşıracaq. Buna görə də əjdaha qayıdıb gələn kimi mənim öd kisəmlə onun təpəsinə birini ilişdir. Sonra onun dilini kəsib çıxart. Əlbəttə, oğlan buzovun sözlərinə əməl elədi. O, ağacın başına dırmaşdı. Meymunlar da onun dalınca ağaca çıxdı. Amma oğlan üzlü pendiri əlində tutub meymunları hədələdi:

- Sizin ürəyinizi bu yastı daş kimi sıxıb suyunu çıxartmaq mənə borc olsun.

Birinci meymun gözünü döyüb duruxa-duruxa dilləndi:

- Əgər sən o yastı daşı sıxıb suyunu çıxarda bilsən, məni də sıxıb suyumu çıxarda bilərsən.

Hiyləgər meymun bic-bic gözlərini döyüb aşağı sürüşdü. Bu müddət ərzində çəlimsiz buzov vəhşi heyvanları bir-birinə qatmışdı. Vəhşiləri bircə-bircə şil-küt edən buzov hücuma keçdikcə oğlan ağacın başında ellerini bir-birinə şappıldadıb qışqırdı:

- Gözünə dönüm, igid buzov, irəli cum! Afərin, mənim qəhrəman buzovum, əla vuruşursan!

Hə, buzov bütün vəhşiləri leş-leşə söykədi, amma axırda ağzından od püskürən əjdaha onu öldürdü.

Oğlan ağacın başında o qədər oturub gözlədi ki, əjdaha çıxıb getdi. Sonra o cəld ağacdan düşüb buzovun dərisini soydu, qarnını yarıb öd kisəsini çıxartdı. Vaxtı itirməyib əjdahanın dalınca düşdü. İti addımlarla irəliləyən oğlan sizcə nə görsə yaxşıdır? Saçından asılmış kral qızını. Qızı saçından asmışdılar ki, əjdaha onu didib-parçalasın.

Beləliklə oğlan yaxınlaşıb qızın saçını açdı. Əvəzində qız belə dedi:

- Əjdahaya yem olmaq vaxtım çatıb. Çıx get, oğlan, sən heç nə edə bilməzsən.

- Sən nə danışırsan, ay qız, mən heç yana getməyəcəyəm! Əjdahanın dərsini vermək mənim boynuma!

Qız nə qədər yalvarıb-yaxarsa da, xeyri olmadı. Oğlan yerindən tərpənmədi ki, tərpənmədi.

Bir azdan əjdahanın yeri-göyü lərzəyə salan nəriltisi, gurultusu eşidildi. Yekə bir nizə boyda dili olan bu əjdaha ağzından od püskürə-püskürə kralın qızı asılan səmtə irəliləyirdi. Hə, elə ki, əjdaha tamam onlara yaxınlaşdı, oğlan öd kisəsilə onun təpəsinə birini ilişdirdi. O dəqiqə əjdaha tir-tap oldu. Amma onu da deyim ki, zalım əjdaha yıxılıb ölməmiş macal tapıb oğlanın şəhadət barmağını üzüb salmışdı.

Bəli, oğlan əjdahanın ağzını aralayıb dilini kəsəndən sonra kralın qızına dedi:

- Gözəl qız, mən əlimdən gələni sənin üçün əsirgəmədim. İndi isə izin verin, çıxıb gedim.

Oğlanın getməsinə qız çox təəssüfləndi, amma onun telinə bir brilyant üzük taxıb halal-hümmət elədi.

Elə bu vaxt qoca kral yanlarını basa-basa, gözünün suyunu tökə-tökə gəlirdi görsün ki, heç qızından əsər-əlamət qalıbmı. Lakin kral qızını sağ-salamat görüb heyrətindən yerində dondu. Handan-hana udquna-udquna xəbər aldı:

- Ömrüm-günüm, necə oldu ki, sən xilas oldun?

Qız başına gələnləri atasına söyləyəndən sonra kral onu götürüb saraya apardı.

Bəs necə, kral bütün qəzetlərdə elan verdirib qızını xilas edən, əjdahanın dilini kəsib götürən, telində şahzadənin üzüyünü gəzdirən və şəhadət barmağı olmayan oğlanın tapılmasını xahiş elədi. İngiltərənin bütün guşələrindən şəhadət barmaqları kəsilmiş, brilyant üzükly oğlanlar axışıb saraya gəldilər. Özləri ilə cürəbəcür vəhşi heyvanların dilini gətirmiş oğlanların heç birində əjdahanın dili yox idi. Buna görə də onların hamısını saraydan çıxardıb qovdular.

Nəhayət bir gün balaca oğlan gəlib çıxdı. Cır-cındır içində olan yazıq görkəmli bu oğlandan kralın qızı gözlərini çəkə bilmirdi. Vəziyyəti belə görən

kral cin atına minib dilənçi oğlanın saraydan qovulmasına əmr verdi.

- Ata, atacan, - qız həyəcanla sözə başladı, - o oğlanın haqqında bəzi şeyləri bilirəm.

- Ay qızım, - arif kral təmkinini pozmadan dedi, - görürəm ki, o oğlanı gözün tutub. Qismət ilahidən, neynək qoy sən deyən olsun.

Bunu eşidən vəzir-vüzəranın hamısı ağzını büzüb xorla qışqırdı:

- Pah, pah, pah, o oğlanı rədd eləyin, çıxıb getsin. Ay canım, ondan krala kürəkən çıxmaz!

Kral heç kəsə əhəmiyyət verməyib oğlana üzünü tutdu:

- Hə, oğlum, göstər görək nəyin var.

Bu minvalla oğlan üstünə qızın adı həkk edilmiş brilyant üzüyü, bir də ağzından od püskürən əjdahanın dilini çıxardıb hamıya göstərdi.

Oğlan əşyayi-dəlilləri göstərəndə, ilahi, sanki hamını ildırım vurdu! Bircə kral halını pozmayıb dedi:

- Qızımı sənə verib səni özümə vəliəhd təyin edəcəyəm.

Bəli, sonralar oğlan kralın qızı ilə evlənib onun taxt-tacına sahib oldu. Oğlanın ögey atası məsələdən xəbər tutub ona ata olmaq istədi, lakin oğlan onu tanımaq istəməyib saraydan qovdu.

NİK NOT NOTİNQ

Biri vardı, biri yoxdu, bir kral və kraliça vardı. Onların uşaqları yox idi. Amma günlərin birində kral uzaq ölkələrdə səfərdə olanda kraliçanın bir oğlu oldu. O özünə söz verdi ki, kral evə qayıtmayınca uşaq xaç suyuna salınmayacaq. Kraliça elə hey öz-özünə deyirdi:

- Atası evə qayıdınca uşağı Nik Not Notinq çağırarıq.

Bəli, iş elə gətirdi ki, kral evə qayıdınca aradan çoxlu vaxt ötüb keçdi və uşaq böyüyüb yaraşıqlı oğlan oldu. Nəhayət kral evə qayıdarkən yolda bir çaydan keçməli oldu. Çay burulğan olduğuna görə o, suya girməyə ürək etmədi. Elə bu dəm bir nəhəng yaxınlaşıb krala dedi:

- Mən səni çaydan keçirdərəm.

- Haqqın nə olacaq?

- Eh, Nik Not Notinqi mənə ver, səni dalıma alıb çaydan keçirdim.

Oğlunun Nik Not Notinq çağrıldığından bixəbər kral razılıqla başını tərpətdi:

- İstədiyini sənə verər, özü də məni çaydan keçirdiyin üçün sənə çoxlu təşəkkür edərəm.

Kral evə qayıdıb arvadını və yeniyetmə oğlunu görəndə qəlbi fərəhdən aşıb-daşdı. Arvadı sevincək krala dedi:

- Başımın tacı, mən söz vermişdim ki, sən evə qayıtmayınca uşağa ad qoymayacağam. Bu səbəbdəndir ki, onu sadəcə Nik Not Notinq çağırırıq.

Bu xəbəri eşidən biçarə kral sarsılıb çıxılmaz vəziyyətə düşdü. O, baş-gözünə döyüb dedi:

- İlahi, gör bir mən neyləmişəm? Məni dalında çaydan keçirən nəhəngə söz vermişəm ki, Nik Not Notinqi ona verəcəyəm.

Hə, əzizlərim, kralla kraliça çox qəmgin olub təəssüfləndirən, düşünüb-daşınıb axırda belə dedilər:

- Nəhəng gələndə biz ona quşçu arvadın oğlunu verərik. Nəhəng hardan biləcək ki, o bizim oğlumuzdur ya yox.

Səhəri gün nəhəng peyda olub oğlanı kraldan tələb elədi. Kral quşçu arvadın oğlunu hüzuruna gətirdi. Nəhəng oğlanı dalına atıb saraydan uzaqlaşdı. O qədər yol getdi ki, axırda gəlib yekə bir daşın yanına çıxdı, oturub dincini almağa başladı. Çox keçməmiş nəhəng soruşdu:

- Ədə, ay belimdəki nadürüst, bu gün həftənin neçənci günüdür?

Qorxusundan dil-dodağı təpimiş oğlan cavab verdi:

- Bu gün mənim quşçu anamın kraliçanın səhər yeməyi üçün yumurtaları

yığıb apardığı gündür.

Bu sözləri eşidən nəhəngin hirsindən gözləri hədəqəsindən çıxdı, o dəqiqə oğlanı zərblə daşa çırpıb öldürdü.

Sonra nəhəng qəzəbindən dil-dodağını gəmirə-gəmirə saraya qayıtdı. Bu dəfə ona bostancının oğlunu verdilər. Nəhəng oğlanı dalına atıb saraydan çıxdı, gəzə-gəzə gəlib yenə də yekə daşın yanına çatdı. Oturub nəfəsini dərməyə başladı. Bir az sonra o dilləndi:

- Ədə, ay belimdəki qırışmal, səncə bu gün həftənin neçənci günüdür?

- Əgər zənnim məni aldatmırsa, - bostancının oğlu cavab verdi, - bu gün mənim anamın kraliçanın günorta naharına göy-göyərti yığıb aparan günüdür.

Bu sözləri eşidən kimi nəhəng hirslənib özündən çıxdı, bu oğlanı da vurub öldürdü.

Sonra hikkəsindən zəncir çeynəyən nəhəng saraya qayıdıb barmağını silkələyə-silkələyə bağırdı:

- Əgər bu dəfə də Nik Not Notinqi mənə verməsəniz, sarayı başınıza uçurdub hamınızı məhv edəcəyəm.

Onlar əlacsız qalıb Nik Not Notinqi nəhəngə verməyə məcbur oldular. Nəhəng yekə daşın yanına yetişən kimi yenə də xəbər aldı:

- Ədə, bu gün həftənin neçənci günüdür?

- Bu gün mənim kral atamın şam yeməyi üçün evə gələn günüdür.

- Aha, bax bu mən deyən uşaqdır, - deyib nəhəng Nik Not Notinqi evinə apardı və böyüyüb ərsəyə çatınca ona təlim-tərbiyə verdi.

Onu da deyim ki, nəhəngin çox gözəl bir qızı vardı. Qızın gözü oğlanı yamanca tutmuşdu. Bir gün nəhəng Nik Not Notinqi yanına çağırıb dedi:

- Sənin̂çün sabaha iş tapmışam. Həyətdə yeddi mil eni-uzunu olan bir tövlə var. Bu tövlə duz yeddi ildir ki, süpürgə üzünə həsrətdir. Sən sabah bu tövləni tər-təmiz silib-süpürməlisən, yoxsa səni tutub yeyəcəyəm.

Hə, səhəri gün tezdən nəhəngin qızı oğlanın səhər yeməyi bağlanmış düşüncəsini götürüb onun yanına getdi. Oğlan dəhşətli vəziyyətdə idi, çünki o, tövlənin bir hissəsini süpürüb zibili çölə atan kimi, zibil qayıdıb guppultu ilə

tövləyə düşürdü. Nəhəngin qızı oğlana kömək edəcəyini söyləyib var gücü ilə meşədəki heyvanları və səmada qanad çalan quşları səslədi. Bir göz qırpımında heyvanlar da, quşlar da tökülüb tövlənin içini nəhəng gəlincə tər-təmiz etdilər. Vəziyyəti belə görən nəhəng hirslə dedi:

- Sənə kömək edənə eyib olsun, amma heç qəm eləmə, oğlan, səninçün sabaha bundan da betər iş tapmışam. Yaxınlıqda eni, uzunu, dərinliyi yeddi mil olan bir göl var. Sabah şər qarışana kimi sən o gölün suyunu qurutmalısan. İşdir əgər quruda bilməsən, tutub səni yeyəcəyəm.

Yazıq Nik Not Notinq səhər tezdən gölün suyunu vedrə ilə daşıyıb çölə tökməyə başladı, ancaq gölün suyu azalmaq bilmədi ki, bilmədi. Nik Not Notinq çaşbaş qaldı. Ona görə də nəhəngin qızı dəryadakı bütün balıqları səslədi ki, gəlib gölün suyunu içsinlər. Tezliklə balıqlar suyu elə sümürdülər ki, göldə bir ovuc da su qalmadı. Gölün qupquru olduğunu görən nəhəng qəzəbindən əsib-coşdu:

- Eybi yoxdur, səninçün sabaha bundan da betər iş taparam. Bura bax ey, yaxınlıqda yeddi mil hündürlüyü olan budaqsız bir ağac var. Ağacın kəlləsində içində yeddi yumurta olan bir yuva var. Sən o ağaca dırmaşıb yumurtaların hamısını sağ-salamat aşağı düşürtməlisən. Əgər bircə yumurta sınsa, səni tutub dişimə çəkəcəyəm.

Nik Not Notinqə necə kömək eləmək əvvəl-əvvəl nəhəngin qızının ağlına gəlmədi. Çox götür-qoy edəndən sonra əl və ayaq barmaqlarını doğrayıb pillələr düzəltdi. Oğlan ağaca çıxıb yumurtaları yerə endirməyə başladı. Yerə çatmağa azca qalanda salıb yumurtanın birini sındırdı. Buna görə də onlar birlikdə qaçıb getməyi qərara aldılar. Nəhəngin qızı otağına qayıdıb sehrli su qabını götürəndən sonra, dabanlarına tüpürüb aradan çıxdılar. Üç dağ aşıb, üç düz keçəndən sonra boylanıb dala baxanda nəhəngin sürətlə gəldiyini gördülər.

- Cəld ol, tez ol, - nəhəngin qızı oğlanı səslədi, - mənim darağımı saçımdan çıxardıb yerə at.

Nik Not Notinq qızın darağını çıxardıb yerə tulladı. O dəqiqə darağın hər dişi yoğun bir itburnu olub nəhəngin yolunda bitdi. Heç şübhəsiz ki, nəhəng öz

yolunu itburnu kollarından təmizləyincə çoxlu vaxt itirdi. Odur ki, Nik Not Notinqlə sevgilisi qaçıb uzaqlaşa bildilər. Amma çox keçməmiş nəhəng yenə də onları haqladı. İşi belə görən qız oğlanı səsləyib dedi:

- Tez ol. Cəld ol, telbasanımı saçımdan çıxardıb yerə at.

Nik Not Notinq dərhal qızın telbasanını çıxardıb yerə tulladı. O dəqiqə nəhəngin yoluna tiyəsi iti ülgüclərdən çal-çarpaz çəpər çəkildi. Nəhəng çəpərdən asta-asta ehtiyatla keçməyə məcbur oldu. Bu müddət ərzində qızla oğlan qaçıb yenə gözdən itdilər. Amma yenə çox keçməmiş nəhəng özünü onlara yetirdi. Əlini uzadıb Nik Not Notinqi tutmaq istəyəndə qızı sehrli su qabını çıxardıb zərblə yerə çırpdı. Su qabı parçalanan kimi aləmi su basdı, dalğalar şaxə qalxdı. Dalğanın biri o qədər böyüdü ki, əvvəlcə nəhəngin qurşağına, sonra boğazına və axırda başına çatıb onu boğdu. Doğrudan da nəhəng boğulub öldü. Amma Nik Not Notinq qaçır, hey qaçırdı. Heç bilirsiniz o qaça-qaça hara gəlib çıxdı? Eh, düz ata-anası yaşayan sarayın yaxınlırına. Di gəl ki, nəhəngin qızı elə yorulub əldən düşmüşdü ki, addım atmağa daha heyi qalmamışdı. Odur ki, Nik Not Notinq üzünü qıza tutub dedi:

- Otur burda gözlə, mən də gedim gecələmək üçün bir sığınacaq tapım.

Bəli, Nik Not Notinq saraydan gələn işıqlara tərəf yola düşdü. Yolda, əgər yadınızdan çıxmayıbsa, oğlu nəhəng tərəfindən öldürülmüş quşçu arvadın daxmasına rast gəldi. Quşçu arvad Nik Not Notinqi o dəqiqə tanıyıb nifrət dolu nəzərlərlə onu süzdü, çünki oğlunun ölümünə o bais olmuşdu. Nik Not Notinq quşçu arvaddan saraya gedən yolu soruşanda arvad onu cadulayıb yola saldı. O, saraya çatan kimi içəri girib dəhlizdəki oturacaqların üstündə daş kimi yuxuya getdi. Kralla kraliça oğlanı yuxudan oyatmaq üçün çox çalışsalar da, bir şey çıxmadı. Buna görə də kral əhd edib bildirdi ki, oğlanı ayıldan qızı ona alıb toy çaldıracaq.

Hə, balalarım, sizə kimdən deyim, kimdən söz açım, nəhəngin qızından. Nik Not Notinq gedəndən sonra nəhəngin qızı oturub onun qayıtmasını gözlədi. Gözləməkdən səbri tükənən qız ağaca dırmaşıb gözlərini yollara dikdi. Quyudan su çəkməyə gedən bostancının qızı ağacdakı xanımın əksini suda

görüb elə bildi ki, öz əksidir. O, öz-özünə mızıldandı:

- Madam ki, mən belə gözəl, belə qocaq qızamsa, bəs onda məni niyə quyuya suya göndərirlər?

Bunu deyib bostancının qızı əlindəki vedrəni yerə çırpdı, getdi görsün ki, yatan qəribi oyada bilərmi. Bu minvalla bostancının qızı məsləhət almaq üçün quşçu arvadın yanına getdi. Quşçu arvad ona cadunu açan bir neçə sehrli söz öyrədib dedi:

- Bu sözlərin köməyilə Nik Not Notinqi nə qədər istəsən, oyaq saxlaya bilərsən.

Bostançının qızı sevinə-sevinə saraya gəlib sehrli sözləri zümzümə etdi. Nik Not Notinq gözlərini açıb bir müddət oyaq qaldı. Kral bostancının qızını oğlana nişanlamağa vəd verdi.

Bu hadisələr vaqe olan vaxt bostançı quyudan su götürməyə gedəndə qızın əksini suda gördü. Başını qaldırıb qızı tapdı, ağacdan düşürüb evinə gətirdi. Bostançı qərib qıza sarayda görülən toy tədarükündən söhbət açıb onu saraya apardı, taxtın üstündə yatmış Nik Not Notinqi ona göstərdi. Qız sevgilisini görən kimi onu silkələyib harayladı:

- Həyatım mənim, sənə qurban olum, gözünü aç, mənə bir iki kəlmə söz de!

Amma Nik Not Notinq ayılmadı ki, ayılmadı. Qız kədər içində nalə çəkib sızıldadı:

- Sənə olan məhəbbətimin ucbatından tövləni silib-süpürdüm, gölün suyunu qurutdum, sən ağaca çıxasan deyə barmaqlarımı doğrayıb pillə düzəltdim. Bəs indi sən niyə gözlərini açıb mənimlə söhbət etmək istəmirsən, ay bivəfa?

Kralla kraliça ərşə yüksələn feryad səsini eşidib qızın yanına gəlidlər. Qız qəmli-qəmli onlara şikayətləndi:

- Nik Not Notinqi yuxudan oyadıb danışdırmağa gücüm çatmır.

Qız Nik Not Notinqin adını çəkəndə kralla kraliça təəccüb qalıb soruşdular:

- Nik Not Notinq haradadır, qız?

- Odur ey, taxtda yatan oğlan Nik Not Notinqin özüdür.

Bunu eşidən kralla kraliça oğlanın üstünə atılıb onu öpüşlərə qərq etdilər. Sonra bostançının qızını çağırtdırıb əmr etdilər ki, sehrli sözlərini zümzümə etsin. Qız zümzümə edən kimi oğlan gözünü açıb yuxudan durdu, kövrək qəlbli sevgilisinin etdiyi yaxşılıqları bircə-bircə ata-anasına söylədi.

Kralla kraliça feyziyab olub nəhəngin qızını bağırlarına basıb duz kimi yaladılar. Sonra car çəkib aləmə bildirdilər ki, Nik Not Notinqlə nəhəngin qızına qırx gün, qırx gecə toy çaldıracaqlar.

Onu da deyim ki, elə həmin gün zalım quşçu arvadın ölümünə fərman verildi.

Bəli, çox keçmədi ki, sevgililər bir-birinə qovuşub bəxtiyar günlər keçirməyə başladılar.

TOM ŞİKATRİFT

Deyilənə görə istilaçı Vilyam hakimiyyətə gəlməmişdən çox-çox əvvəl Elay adasındakı bataqlığa yaxın yerdə Tomas Hikatrift adlı bir kişi yaşayırdı. O, gündüzlər işə gedib kasıbçılığını eləyirdi. Onu da deyim ki, Tomas qoldan zorba idi, iki günün işini bir günə görüb qurtara bilirdi. Gözünün ağı-qarası bircə oğluna da öz adını qoymuşdu. Oğluna yaxşı təhsil vermək üçün Tomas müəllim də tutmuşdu. Di gəl ki, oğlan həm kütbeyin, həm də başdan bir balaca xarab idi. Ona görə də keçdiyi dərsin heç bir faydası olmurdu.

Günlərin birində Tomun atası rəhmətə getdi. Anası onu çox istədiyinə görə xətrinə dəyməyib ərköyün böyütdü. Tənbəl oğlan heç nə etmir, buxarının qırağında yanını yerə verib bir oturuma dörd-beş adamın yeməyini aşırırdı. Buna görə də onun on yaşı olanda boyu səkkiz futa çatmış, əlləri qoyun şaqqası boyda olmuşdu.

Bir gün Tomun anası varlı-hallı bir fermerin evinə gedib xahiş etdi ki, ona

bir şələ saman versin. Mərhəmətli, rəhmdil fermer etiraz etməyib dedi:

- Ürəyin nə qədər istəyir, götür.

Arvad evə qayıdıb Tomu dilə tutdu ki, gedib saman gətirsin. Amma nə qədər yalvar-yaxar etsə də, kar aşmadı. Tom dodağını sallayıb dilini sürüyə-sürüyə dedi:

- Mənə yoğun kəndir tapıb gətirməsən, heç yana tərpənən deyiləm.

Biçarə ana kəndiri borc alıb gətirdi. Tom kəndiri əlinə alıb evdən çıxdı. O, fermergilə gəlib çıxanda sahibkarla nökərlər küləfirəngidə qulaqdibi oynayırdılar.

Tom onlara yaxınlaşıb fağır-fağır dilləndi:

- Ağa, saman aparmağa gəlmişəm.

Fermer dedi:

- Gücün çatan qədər götürə bilərsən.

Beləliklə Tom kəndiri yerə uzadıb şələsini tutmağa başladı.

- Ay bala, kəndirin çox gödəkdir ha, - fermer kinayə ilə Toma söz atdı.

Amma zarafat yerinə düşdü, çünki Tom elə bir şələ tutmuşdu ki, ağırlığı, yalan olmasın, iki ton olardı. Hamıya elə gəlirdi ki, o ağırlıqda şələni heç on adam apara bilməz. Di gəl ki, Tom şələnin qulpundan yapışıb iyirmi pudluq kisə kimi dalına atdı. Sahibkarın da, nökərlərin də heyrətdən gözləri bərələ qaldı.

Tomun gücü haqqındakı xəbər ətrafa yayılan gündən o, bir daha ocaq başında küllənməyə macal tapmadı. Hamı ondan kömək istəyib belə deyirdi:

- Bu cür tənbəl həyat keçirmək sənə yaramaz! Ayıbdır, Tom!

Adamların kömək üçün növbəyə durduqlarını görən Tom bircə-bircə hamıya iş görməyə başladı. Bir gün odunçuya meşədən kəsdiyi ağacı evə gətirməkdən ötrü Tomun köməyi lazım oldu. Tom evdən çıxıb dörd kişi ilə meşəyə gəldi. Kişilər qarmaqlarını ağaca keçirdib güç verdilər ki, dartıb arabaya mindirsinlər. Ha güç verdilər, ağacı arabaya qoya bilmədilər. Bunu görən Tom irəli yeriyib kişilərin üstünə təpindi:

- Kənara çəkilin, gicbəsərlər, boyunuzu yerə soxum, elə bil heç kişi

deyillər.

Dişinin dibindən çıxanı deyib ürəyini boşaldandan sonra Tom «hopp» eləyib ağacın ucunu qaldırıb arabanın içinə qoydu. Sonra gövdəsindən yapışıb irəli itələdi. Ağacı arabanın içində rahlayıb yenə də kişiləri məzəmmət etdi:

- Ay zırramalar, görürsünüz kişi nəyə qadir olmalıdır!

- Allah haqqı, düz deyirsən, qardaş, - kişilər xəcalət ilə başlarını yerə dikdilər.

Yalnız odunçu başını çevirib Tomdan xəbər aldı:

- Gördüyün işin əvəzində nə verəcəyəm?

- Eh, heç nə, bir dənə çubuq ver anam ocaqda yandırsın. Söz ağzından qurtaran kimi Tom arabadakı ağacdan da zırpı bir ağacı dartıb kökündən çıxartdı, çiyninə atıb sürətlə evə sarı addımladı.

Zorba qollarında iyirmi kişinin gücü olan Tom cavanlarla deyib-gülməyə, bazar-dükana getməyə, idman yarışlarına tamaşa edib vaxtını şən keçirməyə meyl elədi.

Hədəfi nişan almaqda, güləşməkdə, çəkic atmaqda Tomun qabağına çöp salan tapılmadı. Heç kəs dairəyə girib Tomla küşgü tutmağa ürək eləmədi. Tezliklə onun şöhrəti hər yerə yayıldı.

Ölkədə keçirilən yarışların hamısında Tomı iştirak edirdi. Bir dəfə o, ölkədə heç kəsin onu tanımadığı bir diyarda ayaq saxlayıb bir dəstə gəncin futbol oyununa tamaşa edirdi. Bu çox nadir oyun idi. Amma Tom oyunun ləzzətini qaçırtdı. Belə ki, ona tərəf diyirlənəndə o, qıçını qovzayıb topa elə bir təpik ilişdirdi ki, vızıltı ilə üçan topun hara düşdüyünü görən olmadı. Adamların Toma necə acığı tutduğunu təsəvvür edin. Amma bundan da bir şey çıxmadı, çünki Tom qollu-budaqlı ağacı sağa-sola yellədərək əli yarağlı adamların arasından özünə yol açdı.

Axşamdan xeyli keçmiş Tom evlərinə sarı yollandı. Yolda hər gün sərnişinləri çapıb-talayan dörd qansız quldur Tomla üzbəüz gəldi. Pullarını əlində oynada-oynada gələn Tomu görən quldurlar fikirləşdi ki, girlərinə hərif keçib.

- Dayan, əlindəkini bura ver! - onlar əmr etdilər. Tom soruşdu:

- Nəyi verim?

- Pullarını, gicin biri gic!

- Ağzınızı təmiz saxlayın ha!

- Uzun danışma, xox, qorxduq səndan, bizə sənin pulun lazımdır. Bu saat sənin pullarını əlindən elə alacağıq ki, cınqırını da çəkə bilməyəcəksən.

-Yox əşşi, yəni düz deyirsiniz? - Tom quldurları ələ saldı,- hünərinizi görüm, əgər kişiliyiniz çatırsa, neynək gəlin alın.

Uzun sözün qısası Tom quldurlardan ikisini o dünyaya göndərdi, ikisini isə xurd-xəşil edib əllərində olan iki yüz funt pulu tutub aldı. Qayıdıb evə gələndən sonra başına gəlmiş əhvalatları anasına söyləyəndə arvad gülməkdən özünü saxlaya bilmədi.

Hə, əziz balalar, indi sizə məlum olacaq ki, Tom hərdan bir özündən zorbaya da rast gəlirdi. Belə ki, bir gün Tom meşədə avaralananda yekəpər bir misgərə rast gəldi. Çiynində torba tutmuş misgərin yanında bədheybət bir it də vardı. İt aqzında içi alətlə dolu çanta tutmuşdu.

- Ayə hey, hardan gəlib hara gedirsən?- Tom sınayıcı nəzərlərlə misgəri süzdü,- bura sənincün şose deyil ha!

- Sənə nə var?- misgər suala sualla cavab verdi. - Gərək səfehlər burnunu hər yerə soxsun da!

- Bu saat səni başa salaram, bilərsən ki, mənə nə dəxli var,- Tom yumruğunu düyünlədi.

- Yaxşı sən allah, az asıb-kəs, - misgər saymazyana cavab verdi,- sənin kimilərini çox görmüşəm. Kiminlə desən, tutaşmağa mən hazıram. Hələ desən haqqında ağla sığmayan şeylər danışılan Tom Hikatriftdən də xəbərim var. Haqq-hesabı çürütmək üçün onunla üz-üzə gəlmək istərdim.

- Belə de, - Tom təəccübləndi, - mənə də elə gəlir ki, o sənə bab adam olar. Bura bax, kişi, tutaq ki, Tom mənəm. Sözun nədir?

- İşə bir bax ha, təsadüfən rastlaşmağımıza vallah çox sevinirəm.

- Əşşi, dola nə qədər istəyirsən ələ sal məni.

- Müqəddəs Məryəmə and olsun ki, düz sözümdür, - misgər əlini ürəyinin üstünə qoydu.- Qardaş, deyirsən küşgü tutaq? Mən buna iki əlli razı.

- Qoy onda əvvəlcə bir çubuq tapım,- Tom rüsxət istədi.

- Bıy, tap də, yoxsa silahsız vuruşmaq istəyirsən?

Beləliklə Tom darvaza dirəyini dartıb alina aldı. Tutaşma başlandı, nə başlandı. İki nəhəng növbə ilə bir-birini sıxma-boğmaya saldı. Misgərin əynində dari pencək vardı. Tom hər dəfə zərbə endirdikcə dəri pencək yaralı pələng kimi narildayır, ancaq misgər bir addım da geri çəkilmirdi. Axırda Tom var gücü ilə misgərin gicgahına əla bir zərbə endirdi ki, o yıxılıb qurbağa kimi yerə sərildi.

- Ha, ha, ha, misgər, kefin necədir? - Tom özündən razı halda qürrələndi.

Amma çox çevik misgər cəld sıçrayıb ayağa qalxdı, Toma birini elə ilişdirdi ki, gözü qaraldı. İkinci zərbə Tomun boynunu xıncımladı. Odur ki, Tom silahını yerə atıb təslim oldu. Sonra misgərlə barışıb onu evinə apardı. Onlar birbirinə qulluq edib zədələrini sağaltdılar. O gündən sonra misgərlə Tom möhkəm dost oldular. Onlardan güclü iki dost gördüm deyən tapılmadı.

Bəli, Tomun şöhrəti o qədər yayıldı ki, axırda Linn şəhərindəki pivəbişirənin qulağına da çatdı. Pivəbişirənə zorba bir adam lazım idi ki, pivəni Vizbiçə daşısın. Ona görə da durub getdi ki, Tomu muzdla işə götürsün. Pivəbişirən söz verib dedi ki, Tomun qiyafəsini təpədən dırnağa təzələyəcək, qarnını tox saxlayacaq. Beləliklə Tom pivəbişirənin yanında nökər dayanmağa razılaşdı. Pivəbişirən Toma pivəni hansı yolla aparacağını başa saldı. Uşaqlar, siz bilməlisiniz ki, bataqlığın yanındakı sahələrin yarısına sahib durmuş bədheybət bir nəhəng vardı. Buna görə də heç kəs onun ürcahına çıxmağa cürət etmirdi.

Hə, əzizlərim, Vizbiçə getmək üçun Tom hər gün iyirmi mil yol qət edirdi. «Yamanca zəhlətökan yoldur ha!» öz-özünə fikirləşən Toma tezliklə məlum oldu ki, nəhəngin qoruduğu yol lap yaxınlıqdan keçib gedir. Tünd pivədən nuş eləyib ləziz təamlar yeyən Tomun gücü birə on artmışdı. Günlərin birində Bizbiçə gedərkən heç kəsə heç nə bildirmədən nəhəng qoruyan yaxın yola

çıxdı. Ölmək ölməkdir, xırıldamaq nə deməkdir deyib yoldakı darvazaları taybatay açdı ki, arabası keçə bilsin. Xeyli sonra nəhəng Tomu görüb ildırım sürətilə irəli şığıdı, istədi ki, pivə çəlləyini özünə qənimət götürsün.

Nəhəng Tomla üz-üzə gələn kimi tüklərini pələng sayağı elə qabartdı ki, sanki onu tutub bu dəqiqə udacaqdı.

- Sənə bu yolla gəlməyə kim ixtiyar verib? - nəhəng ildırım kimi şaqqıldadı, - indi mən səni bütün həlləhuşlara göz dağı edərəm. Ay yaramaz, o ağacdan asılı kəllələri görürsənmi? Xəbərdarlıq etmək üçün sənin kəllən bütün kəllələrdən hündürdə asılacaq.

- Hı, hı, - Tom rişxəndlə dilləndi, - iştahana qoz halvası, ay fərsiz, sən mənim kəlləmi heç vaxt ordan asa bilməyəcəksən, çünki sən özün qorxaq bir quldursan.

Tomun özləri nəhəngin heysəyiyyətinə bərk toxundu, o dəqiqə mağaraya cumub zorba çomağını gətirdi ki, bir zərbə ilə onun beyninin qatığını yerə töksün.

Tom silah tapmaqdan ötrü vurnuxa-vurnuxa qaldı. On iki fut hündürlüyü, altı fut eni olan bu bədheybət nəhəngə Tom əlindəki şallaqla nə edə bilərdi ki. Nəhəng cumub çomağını gətirincə, Tom fikirləşib özünə yaxşı silah tapdı. Vaxt itirməyib arabanı ağzı üstə çevirdi, təkərlərin oxunu çıxardıb bir əlinə, təkərin birini isə qalxan kimi biri əlinə aldı. Bax silah buna deyərəm ha!

Elə bu dəm nər kimi qızmış nəhəng Tomun üstünə yeriyib gözlərini ona zillədi:

- Bah, əlindən bir iş gələn adamlar kimi sən bunun götürdüyü silaha bax bir. Budur ey, görürsən bu çubuğu? Bu saat bu çubuqla sənin baş-gözünü əzikləyib əlindəki təkəri də tikə-tikə edəcəyəm. Yalan olmasın, nəhəngin əlindəki çomaq işıq dirəyi yoğunluğunda olardı. Amma Tom da qorxan oğul deyildi ha! Nəhəngin güclü həmlələrindən Tomun əlindəki təkər sınıq-sınıq olsa da, o, bir addım da geri çəkilmirdi. Əksinə, gücünü toplayıb nəhəngə dalbadal zərbələr endirdi. Tomun güclü zərbələrindən biri nəhəngin qulağının

dibinə dəydi. O səntirləyib çul kimi yerə düşdü. Tom o dəqiqə nəhəngin başının üstünü kəsdirib ərklə dedi:

- Bay, nə yedin ki, bu günə düşdün, Nəhəng qardaş, kefli adamlara oxşayırsan ey, olmaya tünd pivədən doyunca gillətmisən?

Tom sözünü qurtaran kimi yenə nəhəngin üstünə atılıb ağır zərbələr ilişdirdi. Yeməkdən şişib dama dönmüş nəhəngin ağız-burnunun qanı qarışdı, nəfəsi kəsilib təri dabanından çıxanda üzünü Toma çevirib yazıq-yazıq dil çıxartdı:

- Olarmı bir azca su içim?

- Yox, yox, olmaz, - Tom etiraz etdi, - anam mənə belə ağıl verməyib. Deməzsən ki, aldatdım?

Bəli, Tom nəhəngin yorulub haldan düşdüyünü hiss etmişdi. Nəhəngin işini dərhal bitirmək qərarına gəlmişdi. Odur ki, əlindəki oxla başına-başına döyəcləyib nəhəngi yerə yıxdı. İşin fırıq olduğunu görən nəhəng şir kimi nərildəsə də, ilan dili çıxarıb yalvarsa da, ömrünün axırına kimi Toma nökər olacağına söz versə də, bir mətləb hasil olmadı. Tom nəhəngdən əl çəkməyib onu o qədər kötəklədi ki, axırda yazıq nəhəng ömrünu sizə bağışladı. Tom nəhəngin başını bədənindən ayırandan sonra mağaraya girdi, bir qalaq qızıl-gümüş görüb sevincindən atılıb düşdü. Beləliklə o, arabasını qızıl-gümüşlə yükləyib pivəni Bizbiçə çatdırandan sonra evə qayıtdı, başına gələn macəranı könül xoşluğu ilə ağasına söylədi. Səhəri gün Tom da, ağası da, Linn şəhərinin camaatı da yığışıb nəhəngin mağarasına gəldi. Tom camaata həm nəhəngin idbar kəlləsini, həm da mağaradakı ləl-cəvahiratı göstərdi. Fərəhindən uşaq kimi əl-qol açıb oynamayan adam qalmadı, çünki nəhəng o mahalın camaatını zinhara gətirmişdi.

Bu minvalla Tom Hikatriftin nəhəngi öldürmək xəbəri ildırım sürətilə ölkənin hər yerinə yayıldı. Ayağı yer tutan mağaraya tamaşa etməyə gəldi. Tomun hörməti camaat arasında birə min artdı. Onlar sevinə-sevinə bayram tonqalları çatıb şənlik etdi. Ümumi razılığa əsasən Tom mağaraya sahib oldu. Axı, qoçaq Tom bu hörməti özü qazanmışdı. Beləliklə o, mağaranı söküb

dağıtdı, yerində bir mülk tikdirdi.

Nəhəngin zor gücünə əlində saxladığı torpaqların bir hissəsini Tom kasıblara payladı, qalan hissəsini da taxıl zəmisinə çevirdi ki, həm özünü, həm da qoca anası Ceyni dolandıra bilsin.

Hər halda siz də eşitmiş olarsınız ki, artıq bu vaxt Tom kəndlərində sayılıb-seçilən ağsaqqal olmuşdu. Onu daha Tom yox, mister Hikatrift çağırırdılar.

Tom evində qul-qaravaş saxlayır, qorxmaz həyat keçirirdi. Hələ desən qoruq düzəldib sürü ilə ceyran da saxlayırdı. Bu minvalla Tom öz malikanəsində ömrünün sonuna kimi xoşbəxt ömür sürüb xoş günlər keçirə-keçirə dərddən-qəmdən uzaq oldu.

ŞOTLANDİYA NAĞILLARI

FERN-DEN QULYABANISI

Deyilənə görə qədim zamanlarda Şotlandiya başdan-ayağa qulyabanılarla dolu imiş. Qulyabanılar ruhlar kimi evlərdə, adamların həyətində yox, yaşayış binalarının həndəvərində məskən salırmış. Həm Bodbekli qulyabanı, həm de Blednoklu qulyabanı haqqında çoxlu rəvayətlər söylənsə də, ən yaxşı rəvayət Fern-Denli qulyabanı haqqında uydurulub.

«Fern-Den»in mənası «Ayıdöşəyi dərəsi» deməkdir. Bir fermaya bu adı vermişdilər, çünki həmin ferma ayıdöşəyilər basmış dərənin lap kənarında yerləşirdi. Fermaya gedib çıxmaq üçün mütləq dərədən keçmək lazım idi.

Hər yerə şaiyə yayılmışdı ki, guya dərədə qulyabanı yaşayır. Qulyabanı gündüzlər gözə görünmür, axşamlar isə hərdən-bir adamlar onun səssiz-səmirsiz, təsvirəgəlməz kölgə kimi ağacdan-ağaca sürünüb keçdiyini görürdülər. Qulyabanı çox cəhd edirdi ki, onu görən olmasın. Bir məsələni də sizə deyim ki, qulyabanı heç vaxt heç kəsə zərər vurmazdı.

Məsələ burasındadır ki, qulyabanıların xətrinə deyən olmasa, onlar adamlara ziyan vurmur, hətta köməyə ehtiyacı olanlara canla-başla əl də tuturlar. Fern-Den fermasının sahibkarı tez-tez təkrar edib deyərdi ki, əgər qulyabanı olmasa, onun işi çox çətin olar, günü ah-vayla keçərdi. İşdir, əgər fermada təcili görüləsi bir iş, tutaq ki, çovdarı döyüb küləyə vermək, yaxud da taxılı kisələrə doldurmaq, ya turpları sahədən yığmaq, ya da döşəkağıları yumaq, nehrə çalxamaq, məhləni sulamaq lazım gələndə qulyabanı həmişə

köməyə gələrdi. Bunun üçün ferma sahibləri yatağa girməzdən əvvəl anbarın, süd damının və yuyulmalı paltarlar yığılmış otağın qapılarını taybatay açar, astananın ağzına bir fincan Buğlanan süd qoyardılar ki, qulyabanı şam edə bilsin. Onlar səhər tezdən yuxudan duranda fermanın bütün işlərinin yerinə yetirdiyini, fincanın bom-boş olduğunu görərdilər. Hər bir iş səliqə-sahmanla görülürdü.

O qulyabanının necə çəlimsiz, xətərsiz olduğunu hamı bilsə də, nədənsə ondan qorxub-çəkinərdilər. Adamlar kilsədən, bazardan evə qayıdanda gecə vaxtı iki-üç mil dolanbaç yollar keçirdilər ki, dərədən keçməsinlər, çünki qulyabanının uzaqdan görünüşü belə onların canına vic-vicə salırdı.

Amma bir iş də var ki, qulyabanıdan qorxmayaraq da tapıldı. Fermerin arvadı çox xeyirxah, rəhmdil bir qadın idi, dünyada heç nədən qorxmurdu. Qulyabanının şamı üçün astananın ağzına bir fincan süd qoyanda qadın fincana yağ, qaymaq da qatırdı.

- Qulyabanı bizim üçün cani-dildən işləyir, - qadın deyirdi, - amma zəhmət haqqı istəmir. Madam ki, belədir gərək biz də onu yaxşı şeylərə qonaq edək.

Hə, bir dəfə fermerin arvadı qəfildən çox bərk xəstələndi. Həmı qorxuya düşdü ki, qadın öləcək. Fermer möhkəm həyəcanlandı, xidmətçilər əl-ayağa düşdülər. Axı fermerin arvadı çox mehriban sahibə idi, hamı onu öz anası kimi çox istəyirdi. Di gəl ki, xidmətçilərin hamısı təcrübəsiz cavanlar idi, xəstəliklərdən başları çıxmırdı. Odur ki, hamı məsləhət görürdü ki, fermadan yeddi mil aralıda çayın o biri sahilində yaşayan, dərmanlardan başı çıxan dünyagörmüş qarını çağırsınlar.

Bəs qarının arxasınca kim getsin?

Elə məsələ də burasında idi! Gecə yarı olmağa az qalmışdı, zülmət qaranlıq çökmüşdü. Ara həkiminin evinə gedən yol dərədən keçirdi. Dərədə isə hamını vahiməyə salan qulyabanıya tuş gəlmək olardı!

Bəli, fermada heç kəsin xəbəri yox idi ki, hamının qorxub-çəkəndiyi məxluq bu saat mətbəx qapısının dalında dayanıb.

Mətbəx qapısının dalında bədəni tüklə örtülmüş olduqca çəlimsiz idbar bir məxluq dayanmışdı. Onun uzun saqqalı, qıpqırmızı qaşları, qurbağa pəncərələrinə oxşar enli yastı üzgəcləri qamətini şax saxlasa da, yerə dəyən uzun qolları var idi.

Qulyabanı həyəcan içərisində mətbəxdə gedən söhbətə qulaq asırdı. O axşam, qulyabanı həmişə olduğu kimi dərədəki gizli yuvasından çıxıb fermaya gəlmişdi ki, bir fincan südünü içsin və orada iş olub-olmadığını öyrənsin.

Elə bu dəmdə də evin giriş qapısının cəftələnmədiyi, pəncərələrdən işıq gəldiyi qulyabanının diqqətini cəlb etmişdi. O, fermada nəsə baş verdiyini duymuşdu. Axı gecənin bu vaxtı fermada həmişə qaranlıq və sakitlik hökm sürürdü. Buna görə də qulyabanı nə baş verdiyini öyrənmək üçün sürünə-sürünə xəlvəti mətbəxin qapısına yaxınlaşmışdı. Xidmətçilərin söhbətindən sahibənin xəstələndiyini başa düşmüşdü. Bu xəbərdən qulyabanının ürəyi qopmuşdu. Axı, o, sahibəni lap çox sevirdi, çünki sahibə həmişə ona qarşı səmimi olmuşdu. Mətbəğə yığışmış ağciyər xidmətçilərin ara həkminin arxasınca getməyə cürət etmədiklərini, ondan-qulyabanıdan qorxduqlarını öyrənəndə bərk hirsləndi.

- Əbləhlər, gicbəsərlər, qanmazlar! - qulyabanı donquldandı, yöndəmsiz enli ayağını yerə döyəcləməyə başladı. - El bil mən bunları görən kimi tutub dişləm-dişləm edəcəyəm! Pərvərdigara, kaş onlar biləydilər ki, mən onların gözünə görünməmək üçün necə dəridən-qabıqdan çıxıram. Eh, bilsəydilər, heç belə qələt eləməzdilər. Amma nə etmək olar, indi bir dəqiqə də gecikmək olmaz. Yoxsa sahibə ölə də bilər. Əlac yoxdur, gərək ara həkminin arxasınca özüm gedəm.

Elə həmin dəqiqə əlini qaldırıb Fermerin mismardan asılmış qara plaşını çıxartdı və başına atdı. Qulyabanı biçimsiz bədənini yaxşıca plaşa bürüyüb at tövləsinə götürüldü, ən diribaş atı yəhərləyib-yüyənlədi. Sonra atı qapının yanına çəkib birtəhər belinə dırmaşdı.

- Haydı, köhlən at, sən həmişə bərk qaçırsan, indi isə dördnala çap!- qulyabanı atın yalına tumar çəkdi.

Sanki at qulyabanını başa düşdü. O, sakitcə kişnəyib qulaqlarını şəklədi, sonra kamandan atılmış ox kimi qaranlığın qoynunda süzməyə başladı. At heç zaman belə sürətlə çapmamışdı. Çox keçməmiş qulyabanı ara həkiminin daxmasına çatıb atın cilovunu dartdı.

Qarı dərin yuxuda idi. Buna baxmayaraq qulyabanı pəncərəni taqqıldatdı, dərhal pəncərənin önündə ağ bir ləçək göründü. Qarı üzünü pəncərənin şüşəsinə sıxdı.

- Kim var orda?- deyə soruşdu.

Qulyabanı irəli əyilib boğuq səslə qarını səslədi.

- Cəld ol, yığış gedək, xala can! Fern-Den sahibəsinin həyatını xilas etmək lazımdır. Ferma da səfeh xidmətçilərdən başqa sahibəni müalicə etmək üçün heç kəs yoxdur.

- Axı, mən oraya gecənin bu vaxtı necə gedə bilərəm? - qarı narahat səslə xəbər aldı. - Məni aparmaq üçün araba göndəriblərmi?

- Yox canım, araba göndərməyiblər, - qulyabanı cavab verdi. - gəl tərkimdə əyləş, məndən dç bərk-bərk yapış. Səni Fern-Dənə kimi sağ-salamat aparıb çıxararam.

Qulyabanı sözlərini adicə yox, amiranə tərzdə dediyinə görə qarı onun sözündən çığmağa ürək etmədi. Onu da deyim ki, qarı cavan vaxtlarında təsadüfi atlıların tərkində bir neçə dəfə süvarilik etmişdi. Odur ki, qarı paltarını başına çəkib cəld evdən çıxdı. Astananın yanındakı daşın üstünə çıxıb çətinliklə atın belinə qalxdı. Yerini rahatlayıb qara plaşlı naməlum atlının belindən möhkəm-möhkəm yapışdı.

Onlar dərəyə çatanacan bir kəlmə də kəsmədilər. Dərəyə yaxınlaşan kimi qarının kürkünə birə düşdü.

- Sizə elə gəlmirmi ki, biz burada qulyabanıya rast gələ bilərik? - qarı qorxa-qorxa xəbər aldı. - Necə olsa qulyabanıya tuş gəlmək istəmirəm! Deyirlər ki, qulyabanı ilə rastlaşanlar xeyir tapmırlar.

Qarının yol yoldaşı çox qəribə təbəssümlə gülümsədi.

- Narahat olma, bir də çox çənə-boğaz eləmə, - qulyabanı çımxırdı. - Sən

eybəcər qulyabanıya tuş gəlməkdən qorxursan. Ay yazıq, indi sənlə bir at belində oturmuş idbar varlıq kimi bir varlığa sən heç vaxt rast gəlməyəcəksən. Mən bu sözümün ağasıyam!

- Sən deyən düzdürsə, onda hər şey qaydasındadır! - qarı köksünü ötürüb cavab verdi. - Hər halda mən sizin üzünüzü görməsəm də, bilirəm ki, siz xeyirxah adamsınız, çünki zavallı bir qarını sakitləşdirməyə çalışırsınız.

Onlar dərəni keçib qurtarınca, at fermanın həyətinə daxil olunca qarı bir daha dillənmədi. At fermanın həyətinə girən kimi atlı tələsik uzun qollarını uzadıb qarını ehmalca atdan yerə endirdi. Qəfildən plaş sürüşüb yerə düşdü, qarı yol yoldaşının gödək enli gövdəli, yöndəmsiz qolları və qıçları olan eybəcər bir məxluq olduğunu gördü.

- Axı, siz kimsiniz? - qarı yol yoldaşının səhər şəfəqlərinin işığı düşən sifətinə boylanıb baxa-baxa xəbər aldı. - Niyə sizin gözləriniz nəlbəkiyə oxşayır? Onlar nə cür üzgəclərdir? O boyda da üzgəc! olar! Qurbağa pəncələri sizinkilərin yanında toya getməlidir.

Çəlimsiz eybəcər məxluqun dodaqlarına təbəssüm qondu.

- Cavanlıqda çoxlu piyada yol getmişəm. Eşitmişəm ki, kim pay-piyada çox gəzir, o, vəlayaq olur, - qulyabanı dilləndi. - Amma xala, sən əbəs yerə vaxt itirmə. Cəld evə gir. İşdir səndən bu tezliklə fermaya necə gəlib çıxdığını soruşan olsa, deyərsən ki, dalınca adam gəlmədiyinə görə Fern-Den qulyabanısının tərkində əyləşib fermaya gəlməyə məcbur olmusan!

SUİTİ CİLDİNƏ GİRMİŞ PƏRİ

Biri vardı, biri yoxdu, dənizə yaxın bir yerdə balaca fermada tək-tənha yaşayan zəhmətkeş bir kişi vardı. Onu çox az adam tanıyırdı. O, səhərdən axşamacan torpaq belləyir, toxum səpir, güclə çörək pulu qazanıb birtəhər başını girləyirdi. İşdən başı ayılmadığı üçün evlənməyə də vaxt tapmamışdı.

- Eh, özüm bir qarın aç, bir qarın tox güclə dolanıram, - o deyirdi.- Bəs,

arvadı necə saxlayaram!?

İş elə gətirdi ki, bir gün işgüzar kişinin yolu sahildən düşdü. Nəğmə sədaları, qızların qəhqəhəsini va şaqraq səslər eşidib təəccübləndi. Ona elə gəldi ki, səslər sahilin qurtaracağındakı qaya parçasının dibindən gəlir. Odur ki, sürünə-sürünə irəliləyib qayaya dırmaşdı. Gördüyü mənzərəyə heyran qalıb, nəfəs çəkmədən maddım-maddım tamaşa etdi. Aşağıda düz suyun qırağında qayanın girintili-çıxıntılı yerində bir dəstə oğlan və qızı çılpaq vəziyyətdə gördü. Ömrü boyu belə cazibədar üzlər, zərif dərilər və nərmənazik bədənlər görmək ona qismət olmamışdı.

- Bunlar suitidir ki! Elədir ki, var, suitidir! - o, öz-özünə pıçıldadı.

Hərdən bir sahilə çıxıb dərilərini kənara tullayan və şan oyunlar keçirən suiti dəstəsi haqqında çoxlu əfsanələr eşitmişdi.

- Aha, bildim siz kimsiniz, - kişi yaxınlıqdakı daşın üstünə yığılmış dəriləri görüb fikirləşdi. - Görəsən, dərilərdan birini götürsəm, heç nə olmaz ki? Dərini salaram yatağıma, yerim isti olar, ya da canlıq düzəldərəm.

Beləliklə, kişi oğrun-oğrun sürünüb aşağı düşdü, qumluğu keçib suitilər qayıtmamış gümüşü dərilərdan birini götürdü.

Çox keçməmiş hər gözəl varlıq öz dərisini götürmək üçün daşa tərəf qaçdı. Dərilərini götürüb suya baş vurdular. Bacardıqca sürətlə üzə-üzə dəriləri əyinlərinə çəkdilər.

İmkandan istifadə edən kişi suiti dərisini qoltuğuna vurub aradan çıxdı. Sahildən yenicə uzaqlaşmışdı ki, arxadan gələn ayaq səsləri və ağlayıb-sızıldayan qızın səsini eşitdi. Ayaq saxlayıb geri çevrilən kimi, əllərini ona tərəf uzatmış gözəl qız gördü. Qız göz yaşları axıda-axıda yalvarmağa başladı:

- Qurbanın olum, ey bəni-insan, əgər ürəyində bir qətrə insaf varsa, dərini qaytar mənə! Dərisiz, dənizdə yaşaya bilmərəm! Mənim suiti dərim olmasa, pərilər məni aralarına qoymaz, qoymaz, qoymaz!

Qızın hıçqırıq dolu yalvarışları kişinin ürəyini yumşaldıb muma döndərdi. Heç vaxt keçirmədiyi qəribə hisslər ürəyini parçalayıb qəlbinə hakim kəsildi. Ömründə qadın eşqi ilə titrəməyən ürəyi dəniz pərisinin məhəbbətinə təslim

olub əsir düşdü. Heç bir vəchlə qızı itirmək istəmədi.

- Dərini sənə qaytarmaq niyyətində deyiləm, - dedi. - Daha dənizə qayıtmayacaqsan, mələyim. Mənimlə qalıb mənə arvad olacaqsan.

Kişi böyük yun şalını ağlayıb-sızlayan dəniz pərisinin çiyninə saldı, əlindən tutub darta-darta evinə apardı. Evə çatan kimi qızı yorğana bürüyüb ona yemək üçün yağlı kökə və yulaf yayması verdi. Qız yemək yeməyə başlayanda kişi xəlvətcə dama çıxdı. Dərini büküb, taxtapuşun altındakı pərdənin üstünə qoydu ki, qız heç vaxt tapa bilməsin.

Biçarə qızcığaz şam edəndən sonra özünü üzü üstə çarpayıya atıb səhərəcən hönkür-hönkür ağladı. Səhəri gün də səsini kəsib kirimədi. Qız bu minvalla haftalarla göz yaşı axıtdı.

Günlər ötüb keçdi və elə bir vaxt gəldi ki, qızın göz yaşları qurudu. Dərdini unudub insan kimi ömür sürməyə başladı. Zəhmətkeş kişi pərvanə kimi onun başına dolanıb yarpaq kimi üstündə əsirdi. Dəniz pərisi də öz növbəsində qənaətcil, ciddi, mehriban və vəfalı arvad olmuşdu. Zəhmətkeş əri üçün yeddi uşaq - dörd oğlan, üç qız dünyaya gətirmişdi.

Bütün məmləkətdə onların cocuqları kimi qara, piyalə gözləri və zərif ağ dərisi olan ikinci bir uşaq tapmaq mümkün deyildi. 3ahirən xoşbəxt görünən dəniz pərisinin ürəyində qövr eləyən dərd ağır yükə çevrilmişdi. O, hardan yola çıxıb dalğın, qəmli nəzərlərlə gözünü dənizə dikirdi. Axşamlar işini qurtarandan sonra, bəzən gedib qumlu sahildə əyləşir, gözünü dənizə zilləyərək sanki dalğalar arasında kimi isə axtarırdı. Dəniz pərisi uşaqlarına elə qəmli nəğmələr öyrətmişdi ki, eşidənlərin ürəyi parça-parça olurdu.

Bir dəfə elə oldu ki, zəhmətkeş kişi oğlanlarını qayığa mindirib balıq tutmağa getdi. Vəfalı arvad isə böyük qızla ortancıl qızı sahilə mərcanqulu və balıqqulağı yığmağa göndərib kiçik qızı ilə evdə tək qalmışdı. Əri və uşaqları evdən çıxan kimi şkafları axtarmağa başlayıb bütün siyirtmələri alt-üst etdi. Çarpayıların altına girib çıxdı, əlinə keçən bütün qutuları eşib-tökdü, ah çəkib köks ötürə-ötürə stolların altına göz gəzdirdi.

- Nə olub, ana? - kiçik qız xəbər aldı. - Nə axtarırsan?

- Oh, mənim körpə balam, - anası dilləndi.- Bir zamanlar atanın evə gətirdiyi gözəl suiti dərisini axtarıram.

- Üstündə narıncı xallar olan yumşaq dərini deyirsən?

- Hə, gözümün işığı, özüdür ki, var. Yoxsa sən yerini bilirsən?

- Çox guman ki, bilirəm. Bir dəfə sən evdə olmayanda mənim çarpayıda yatdığımı guman edən atam bir gözəl dəri gətirib bir neçə saniya heyran-heyran tamaşa etdi. Sonra dərini yığışdırıb köhnə taxtapuşdakı pərdənin üstünə qoydu.

Qızcığazın sözü ağzından qurtarmamış anası otaqdan bayıra atılıb köhnə taxtapuşa sarı qaçdı. Bir göz qırpımında böyük bir qutunun üstünə çıxıb titrək barmaqları ilə pərdələrin üstünü axtarmağa başladı. Toz-torpağa batmış barmaqları bir an sonra nəsə yumşaq bir şeyə toxundu. Hahəyat ki, suiti dərisini tanıdı! Dartıb dərini aşağı saldı. Götürüb məhəbbətlə sinəsinə sıxdı və qayıdıb otağa qaçdı.

- Sağlıqla qal, əziz qızım! - dedi. - Mən öz məskənimə qayıtmalıyam! əl-vi-da!

Dəniz pərisi birnəfəsə qaça-qaça yovşanlı düzdən keçib özünü qayaya yetirdi. Cəld qayanı aşıb çığırla dənizə tərəf üz tutdu. Çoxdan itmiş dərisini əyninə taxıb sahildə dayanmış qızına sonuncu dəfə əl eləyib dənizə milləndi.

Üzüb dənizin ortasına çatanda ərini və oğlanlarını qayıqda gördü. Bir müddət qayığın yanı ilə üzüb nəsə deməyə cəhd etdi. Dalğaların arasından başını çıxarıb qayığın yanına sakit-sakit üzən suiti qayıqdakıları heyrətə saldı.

Suiti gözəl, zərif gözləri ilə onlara baxır, baxışlarından şövq yağırdı. Dəniz pərisinin alışıb yanan baxışlarında kadar qarışmış şən ifadələr oynaşırdı.

Zəhmətkeş kişi birdən su pərisini tanıdı. Yanrılı bir nalə çəkib dərhal toru qamarladı ki, suya atsın. Amma artıq kec idi. Suiti suya cumub dalğaların altında görünməz oldu. Üzə-üzə gedib dənizin dərinliklərinə çıxdı. Su pərisinin yanınca suiti dərisi geymiş bir kişi də üzür vç sevincindçn dil boğaza qoymurdu. Əlini qaşının üstünə qoyub baxışlarını dənizin dərinliklərinə dikən zəhmətkeş kişinin qulağına dalğaları aşıb gələn zəif haray səsi dəydi:

Əlvida, əlvida zəhmətkeş kişi,
Sən mənə xoş gəldin, :mən sənə gülüm,
Yox, mənə əzizdir dəniz sevgilim!..

Sonra səslər zəifləyib eşidilməz oldu. Zəhmətkeş kişi o vaxtdan sonra bir də arvadı olmuş suitini görmədi. Lakin hardan bir günəş qüruba enib şər qarışanda küləyə qovuşub gələn zəif mahnı sədaları qulağında belə səslənirdi:

Na ağac ev, taxtalı ev,
Nə də bəyaz pərdəli ev
Alıb kövrək qəlbimizi,
Evdə bilməz məhbus bizi.

QOĞAL

Nənə can, ay nənə can, gəl, «Qoğal» nağılını bizə söylə.

- Qulaq asın, uşaqlar, bu nağılı siz əvvəllər yüz dəfə eşidibsiniz. Bir də söyləmərəm.

- Axı, nənə can, bu çox gözəl nağıldır. Nə olar, bircə dəfə də söylə.

- Yaxşı, yaxşı, mənim nəvələrim, sakitcə oturub qulaq asmağa söz versəniz, söyləyərəm.

Bəziləri istəklisindən söhbət açıb pəncərənin dibində xısınlaşmadan söz salmağı xoşlayırlar. Mən isə sizə qəşəng yulaf qoğal haqqında maraqlı bir nağıl danışaçağam. Hə, uşaqlar, qulaq asın, başlayıram.

Biri vardı, biri yoxdu, çayın kənarında öz qarısı ilə ömür sürən bir qoca vardı. Vardan, dövlətdən onların iki inəyi, beş toyuğu, bir xoruzu və iki balası olan bir pişiyi vardı. Qoca inəklərə qulluq edir, qarı isə ip əyirib toxuyurdu. Pişik balaları tez-tez cumub sobanın yanında dığırlanan ip yumağını qamarlayırdı. «Pişt, pişt! canı yanmışlar, rədd olun!» - qarı pişik balalarını

qovur, yumaq yenidən dığırlanırdı.

Bir gün səhər yeməyindən sonra qarı qoğal bişirmək qərarına gəldi. Durub yulaf unundan iki dana qoğal hazırlayıb sobanın üstünə qoydu ki, qızarsın. Bir az sonra qoca evə gəlib sobanın yanında bardaş qurdu. Qoğallardan birini götürüb ortadan böldü. O biri qoğal bunu görən kimi sobanın üstündən yerə diyirlənib sürətlə qaçmağa başladı. Bir əlində yun darağı, o birisində əriş olan qarı, qoğalın dalınca düşdü.

Amma balaca qoğal cəld tərpənib gözdən itdi. Qaça-qaça gəlib küləş damlı böyük bir evə çatdı. Cəsarətini toplayıb içəri girdi. Otaqda iri bir stolun arxasında əyləşən üç nəfər dərzi var idi. Qoğalın içəri girdiyini görən kimi dərzilər dərhal qulluqçu qadını səslədilər. Ocaq başında tiftik atan qulluqçu qadın:

- Bura baxın, - dedi.- Qorxmalı heç nə yoxdur. Bu ki, xırdaca qoğaldır. Onu tutun, sizə südlü sıyıq verim. Mən də sizə kömək edərəm.

Qulluqçu yun darağı əlində, dərzilərdən biri ütü əlində, o biri qayçı əlində, üçüncüsu taxta lövhəni qapıb qoğalın dalınca düşdülər. Amma balaca qoğal sürüşüb onların arasından çıxdı, sobanın başına fırlanmağa başladı. Dərzinin biri qoğalı qayçı ilə tutmaq istədi, amma güllüyə yıxıldı. Ütü o biri dərzinin əlindən düşdü. Qulluqçu yun darağını salıb itirdi. Di gəl qoğalı tutmaq mümkün olmadı ki, olmadı.

Qoğal atılıb-düşüb oxumağa başladı:

Mən qapını açmışam
Nənədən də qaçmışam, babadan da qaçmışam,
Qazandan da qaçmışam, tavadan da qaçmışam.
Bax səndən də qaçaram.

Beləliklə, qoğal qaça-qaça gəlib yol kənarındakı balaca bir daxmaya yetişdi, içəri girdi. Ev sahibi küncdə oturub zənbil toxuyur, qadın isə ip əyirib yumaq yığırdı.

- Tibi, ay Tibi, - kişi dilləndi. - O nədir, elə?

- Görmürsən, ay kişi, qoğaldır da!

- Nə yaxşı oldu, - kişi dedi. - Çox xoş gəlib, səfa gətirib qoğal! Bu gün şorbamız yamanca dadsızdır. Tut onu, arvad, tut qoğalı!

- Ay-hay, tutdun ha! O, ağıllı qoğaldır. tamahını yığ, Billi, ağzının suyu axmasın, kişi!

- Qulaq as, arvad, - Billi dedi. - Yumaqla vurub qoğalı aşır.

Qoğal otaqda sürətlə fırlana-fırlana oxumağa başladı:

Mən qapını açmışam,
Nənədən da qaçmışam, babadan da qaçmışam,
Qazandan da qaçmışam, tavadan da qaçmışam. -
Dərziləri aldadıb canımı qurtarmışam,
Bax, səndən də qaçaram.

Sonra qoğal daxmadan çıxıb qaçdı. Dəcəl çəpişlər kimi hoppanıb-düşən qoğal bir müddətdən sonra rastına çıxan ilk evin qapısını açıb içəri girdi, buxarının yanına gəlib ev sahibəsinin nehrə çalxadığını gördü.

- Yanıma gəl, ay balaca qoğal, - qadın dedi. - Gəl, sənə yağ-çörək yaxmacı verim, ye.

Amma Qoğal qadına yaxınlaşmadı, nəhrənin başına sürətlə fırlanmağa başladı. qadın tələsik qoğalın dalınca düşmək istəyəndə əli ilişib nəhrəni ağzı üstə çevirdi. Qadın nəhrəni tarazlayıb düzəldincə iş-işdən keçdi. Qoğal aradan çıxıb təpənin yanındakı dəyirmana sarı qaça-qaça ucadan oxudu:

Mən qapını açmışam,
Nənədən də qaçmışam, babadan da qaçmışam,
Qazandan da qaçmışam, tavadan da qaçmışam,
Dərziləri aldadıb canımı qurtarmışam,
O *zənbilçi arvadın başını aldatmışam.*
Bax, səndən də qaçaram.

Qoğal çatıb özünü dəyirmana saldı, Təknədə dən üyüdən dəyirmançı başını qaldırıb:

- Aha,- dedi.- Ay qoğal, sənin buralarda gəzib-dolaşmağın bolluq əlamətidir. Odur ki, sənin qayğına qalan yoxdur. Amma mənim qoğaldan, bir də pendirdən xoşum gəlir. Yanımda pendirim də var. Yaxına gəl pendir payımı sənə verim.

Bilirsinizmi, uşaqlar, qoğal gönü suya verən qoğal deyildi. Odur ki, o, dəyirmançının şirin dilinə inanmayıb geri döndü. Qaçıb bayıra çıxan kimi oxumağa başladı:

Mən qapını açmışam,
Nənədən də qaçmışam, babadan da qaçmışam,
Qazandan da qaçmışam, tavadan da qaçmışam,
Dərziləri aldadıb canımı qurtarmışam,
O *zənbilçi arvadın başını aldatmışam.*
Yağ çalxayan xalaya yamanca toy tutmuşam,
Bax, səndən də qaçaram.

Beləliklə, diyirlənə-diyirlənə Qoğal qaçıb yenə bir evə çatdı. İçəri keçib buxarının yanında durdu. Evdəkilər şorba yemək üçün stolun başına yığışmışdı. Evin qadını taxta qaşıqla boşqabın dibini sıyırırdı.

- Paho, Cək, - qadın dilləndi, - evimizə bapbalaca bir qoğal gəlib ki, sobanın yanında özünü isitsin.

- Qapını örtün, - evin kişisi dedi. - İndi biz qoğalı tutmağa çalışarıq.

Bu sözləri eşidən qoğal qaçıb evdən çıxdı. Uşaqlar qaşıq əllərində onun dalınca götürüldülər. Evin kişisi papağını qoğala sarı tolazladı. Amma qoğal bu dəfə də qaçıb canını qurtaran kimi oxumağa başladı:

Mən qapını açmışam,

Nənədən də qaçmışam, babadan da qaçmışam,
Qazandan da qaçmışam, tavadan da qaçmışam,
Dərziləri aldadıb canımı qurtarmışam,
O *zənbilçi arvadın başını aldatmışam.*
Yağ çalxayan xalaya yamanca toy tutmuşam,
Dəyirmançı əminin yaxasını açmışam,
Bax, səndən də qaçaram.

Qoğal az qaçdı, üz qaçdı, dərə-təpə düz qaçdı, axırda gəlib başqa bir evin yanına çatdı. Qapının arasından içəri girib gördü ki, uşaqlar yatmaq üçün yerlərinə girib.

Uşaqların atası paltarını soyunub, qadın isə ocağın odunu söndürürdü.

- Bıy, başıma xeyir, ay arvad, o nədir?

- Şşş, sakit ol, - arvad dedi. - Görmürsən, qoğaldır! - Bəh-bəh, arvad, yulaf yarmasından sonra qoğal yemək adama ləzzət verər ha!

- Bacarırsan, tut qoğalı! - arvad dedi.- Bir tikə də mən yeyərəm. Ay kişi, at şalvarı qoğalın üstünə, tut onu saxla da!

Kişi qolunu tovlayıb şalvarını Qoğala sarı atdı. Qoğal az qaldı ki, talaya düşsün, ancaq cəld tərpənib şalvar başında qaçıb aradan çıxdı. Şalvarını itirmək isəaməyən kişi qoğalın dalınca götürüldü. Uzun müddət qaçdı-tutdudan sonra qoğal özünü meynəliyə verib tənəklərin arasında gözdən itdi. Əlacını allah almış kimi suyu süzülə-süzülə kor-peşman yarım çılpaq vəziyyətdə evə qayıdan kişinin qulağına qoğalın səsi gəldi:

Mən qapını açmışam,
Nənədən də qaçmışam, babadan da qaçmışam,
Qazandan da qaçmışam, tavadan da qaçmışam,
Dərziləri aldadıb canımı qurtarmışam,
O *zənbilçi arvadın başını aldatmışam.*
Yağ çalxayan xalaya yamanca toy tutmuşam,

Dəyirmançı əminin yaxasını açmışam,
Məni yemək istəyən adamlardan qaçmışam,
Bax, səndən də qaçaram.

Beləliklə, günün ömrü sona çatdı, qaranlıq düşdü. Balaca qoğal heç yanı görə bilmədi. Gəzə-gəzə gəlib böyük bir naz-naz kolunun dibinə çıxdı ayağı ilişib gumbultu ilə tülkü yuvasına düşdü. İki gün idi ki, tülkünün dilinə ət dəymirdi.

- Aha, xoş gəlib, səfa gətirmisən, ay qoğal, səni mənə allahın özü pay göndərib, - tülkü dedi va qoğalı qapıb ortadan iki böldü.

Bax, uşaqlar, qoğalın ömrü bu cür sona çatdı. Hə, nəvələrim, siz da böyüyüb boya-başa çatın, çalışın ki, heç vaxtsizi şirnikdirib yoldan çıxartmasınlar. Siz həyatda məğlubiyyətin acısını dadmayasınız. Görürsünüz, çoxbilmiş qoğal insanlara kələk gələ-gələ, axırda hiylgər tülküyə qismat oldu.

Gülmə heç vaxt adamlara,
Olsan varlı, kasıb ya da.
Ömür keçir - son u qara
Biz qonağıq bu dünyada.

NORROVEYLİ QARA KƏL

Biri vardı, biri yoxdu, lap qədim zamanlarda, çox-çox əsrlər bundan əvvəl bir dul kraliça vardı. O, üç qızı ilə birlikdə yaşayırdı. Özü də elə müflisləşmişdi ki, qızları ilə güc-bala başını dolandırırdı.

Bir gün öz xoşbəxtliyini axtarmaq üçün kraliçanın böyük qızı evdən çıxıb getmək istədi və anası ona getməyə icazə verdi.

- Evdə qalıb acından ölməkdənsə, başqa yerdə bəxtini sınamaq yaxşıdır - kraliça dedi.

Onların qəsrinə yaxın yerdə bir quşçu qarı yaşayırdı. Deyilənə görə qarı

cadugər imiş və guya gələcəkdən xəbər verə bilirmiş. Odur ki, kraliça böyük qızı onun yanına göndərdi və xoşbəxtliyini axtarmaq üçün hansı səmtə getmək lazım olduğunu cadugərdən soruşub öyrənməyi ona tapşırır. Quşçu qarının kraliçaya va gözəl qızlarına yazığı gəldi, verdiyi xeyirxah məsləhətdən xoşhal oldu.

Qarı dedi:

- Sənə çox da uzağa getmək lazım deyil, mənim quzum.

Mənim daxmamın dal qapısınacan get və bayıra göz gəzdir.

Kraliçanın böyük qızı otların üstü ilə dal qapıya kimi qaçdı və nə görsə yaxşıdır? Altı səmənd at qoşulmuş əla bir kareta yolla irəliləyirdi. Qız həyəcan içində mətbəxə qaçdı ki, quşçu qarıya gördüyünü söyləsin.

- Çox gözəl, çox pakizə!- qarı məmnun halda dilləndi,- Bu da sənin xoşbəxtliyin! Kareta səndən ötrü gəlib. Düzdür, kareta qəsrin darvazaları ağzında ləngərləyib dayandı və kraliçanın ortancıl qızı quşçu qarının daxmasına qaçdı bacısına desin ki, tez evə qayıtsın - axı onun dalınca kareta gəlmişdi!

Sevincindən özünü itirmiş böyük qız tez-tələsik evə gəldi ki, anası və bacıları ilə vidalaşsın. Sonra böyük qız qalxıb karetada əyləşdi və köhlən atlar dördnala çaparaq gözdən itdilər.

Deyirlər ki, guya kareta istiqamət alıb çox qüdrətli və dövlətli şahzadənin sarayına getmiş və şahzadə böyük qızı özünə ömür-gün yoldaşı etmişdi.

Bu əhvalatdan bir neçə həftə sonra kraliçanın ortancıl qızı da qərara aldı ki, böyük bacısı kimi quşçu qarının yanına getsin va xoşbəxtliyini axtarmaq üçün hayana getmək lazım olduğunu ondan soruşsun. Əlbəttə, ortancıl qız ümid edirdi ki, böyük bacısının başına gələnlər onun da nəsibi olacaq.

Elə də oldu. Quşçu qarı ortancıl qıza söylədi ki, gedib dal həyətə açılan qapıdan bayıra boylanıb baxsın. Ortancıl qız baxıb gördü ki, altı at qoşulmuş kareta onların qəsrinə doğru gedir. Ortancıl qız gördüyünü qarıya dedi. Qarı mehriban-mehriban gülümsünərək qıza qəsrə qaçmağı söylədi və bildirdi ki, xoşbəxtliyi dalınca gəlib. Bəli, ortancıl qız evə çatan kimi karetaya mindi və çıxıb getdi.

Kraliçanın kiçik qızı da bəxtini sınamaq istədi. Ürəyi bahar ümidli, deyib-gülən kiçik qız elə həmin axşam sehrbaz qarının yanına qaçdı.

Qarı kiçik qıza dedi ki, dal qapının yanına getsin. Qız sevincək getdi. Fikirləşdi ki, altı at qoşulmuş kareta bu dəqiqə onların qəsrinə yaxınlaşaçaq.

Amma nə kareta! Heç bir kareta gözə dəymirdi. Yolda heç kəs görünmürdü. Kiçik qız dərd-qəm içində quşçu qarının yanına qaçıb dedi ki, bəs kareta yoxdur.

- Belə çıxır ki, sənin xoşbəxtliyin bu gün gələsi olmadı,- qarı gözlərini qıydı.- Səhərəcən gözlə.

Kiçik qız evə gəlib səhəri gün yenə də qarının yanına qayıtdı. Bu dəfə də kiçik qızın ümidi boşa çıxdı. Nə qədər uzaqlara baxsa da, heç bir kareta gözə dəymədi ki, dəymədi. Amma üçüncü gün... Üçüncü gün qız nə görsə yaxşıdır? Yolla başını dik tutub hay-küylə irəliləyən nəhəng bir qara kəl gördü.

Kiçik qızın qorxudan ürəyi qopdu, qapını çırpıb qarının yanına qaçdı və söylədi ki, evə tərəf qorxunc və vəhşi bir kəl sürətlə qaçır.

- Ah, quzum,- qarı əllərini şappıldadaraq ucadan dedi,- kimin ağlına gələrdi ki, sənin xoşbəxtliyin Norroveyli qara kəl olacaq, hə!

Bu sözləri eşidən kiçik qızın rəngi qaçdı. Axı, o öz xoşbəxtliyini axtarırdı, amma bu cür dəhşətli xoşbəxtliyi heç vəchlə gözləmirdi.

- Heç, bu kəl mənim xoşbəxtliyim ola bilərmi?- qız qorxu içərisində qışqırdı.- Axı, mən necə bu kəl ilə çıxıb gedim!

- Əlac yoxdur,- qarı sakitcə dilləndi.- Xoşbəxtliyini tapmaq üçün evimin qapısından baxırdın. Madam ki, xoşbəxtliyin gəlib, gərək qəbul edəsən.

Kiçik qız göz yaşları içəriçində anasının yanına qaçıb gəldi və dönə-dönə təkrar etdi ki, evdən heç hara getmək istəmir. Amma anası da qarı deyəni dedi. Ona görə də qara kəl qəsrin darvazasına yaxınlaşan kimi, kiçik qız kəlin belində əyləşməyə məcbur oldu. Qız yerini rahatlayınca kəl sakitcə dayandı. Yazıq qız kəlin buynuzlarından bərk-bərk yapışıb qorxusundan tir-tir əsir və ağlayırdı.

Qara kəl qaçdıqca qaçır, qanad açıb uçurdu. Amma bəxtiqara qızcığaz

qorxudan və acından tamam haldan düşmüşdü, özünü güclə kəlin belində saxlayırdı. Qorxurdu ki, bu dəqiqə kəlin buynuzları əllərindən çıxacaq və o, kəllə-mayallaq olub yerə yıxılacaq. Qəfildən bədheybət kəlləsini azca qıza tərəf döndərib olduqca zərif və mülayim insani səslə dilə gəldi:

- Sağ qulağımda nə varsa ye, sol qulağımda olanı iç, cana gəl.

Kiçik qız titrəyən əlini kəlin sağ qulağına soxdu və bir parça çörəklə ət çıxartdı. Qız çörəklə əti yeyib özünə gəldi. Sonra əlini kəlin sol qulağına aparıb içində şərab olan balaca bir şuşa qab çıxartdı. Şərabı nuş edən kimi bütün gücü özünə qayıtdı.

Kəl elə hey qaçırdı. Kiçik qız fikirləşirdi ki, tezliklə dünyanın axırına çataçaqlar. Amma birdən irəlidə əzəmətli bir qəsr göründü.

- Gecəni burda keçirəcəyik,- qara kəl dedi.- Bura qardaşlarımdan birinin evidir.

Kiçik qızı heyrət bürüdü, amma yorulub taqətdən düşdüyü üçün heç nə demədi. Qara kəl qəsrin heyətinə qaçıb giriş qapısını buynuzları ilə döyəclədi. Çox gözəl zərbaftalı paltar geymiş qulluqçu o dəqiqə qapını açdı. Çox böyük ehtiramla kələ təzim edib qızı düşürməyə kömək etdi. Sonra onu bəzədilmiş salona apardı. Ev sahibi arvadı və qonaqları ilə birlikdə qızın pişvazına çıxdı. Amma Norroveyli qara kəl qəsrin yanındakı parkın çəmənliyinə getdi ki, gecəni orada keçirsin.

Qəsrin sahibi və arvadi kiçik qızı çox səmimi qarşıladılar. Qıza şam yeməyi verib divarlarından qızıl haşiyəli güzgülər asılmış çox dəbdəbəli yataq otağına gətirdilər.

Səhəri gün qara kəl qəsrin giriş qapısına yaxınlaşan kimi ev sahibləri kiçik qıza qəşəng iri bir alma bağışlayıb dedilər:

- Almanı cibinə qoy və göz bəbəyi kimi qoru. Dəhşətli bəlaya düçar olub, çıxılmaz vəziyyətə düşməyincə almaya toxunma. Elə ki, toxundun, alma səni bəladan xilas edər.

Kiçik qız almanı cibinə qoydu. Onu kəlin belinə oturtdular və kəl yenidən yola düşdü. Onlar bütün günü yolda oldular, axşam isə irəlidə başqa bir qəsr

göründü. Bu qəsr əvvəlkindən də cah-cəlallı idi.

- Gecəni burda keçirərik,- qara kəl dedi.- Bu qəsrdə mənim ortancıl qardaşım yaşayır.

Kiçik qız gecəni göz oxşayan yataq otağında keçirtdi. Yataq otağının bütün divarlarından qumaş parçalar asılmışdı. Bu qəsrin də sahibi və arvadı kiçik qızın xoşuna gəlmək üçün əllərindən gələni etdilər.

Səhəri gün vidalaşanda onlar qıza elə bir armud bağışladılar ki, ömründə beləsini görməmişdi. Onlar da qıza tapşırdılar ki, çıxılmaz, ağır vəziyyətə düşməyincə armuda əl vurmasın. Qız çətin vəziyyətə düşsə armud onu hər bəladan qurtarar. Üçüncü gün qara kəl yenidən yüzlərlə mil yolu qət etdi, gün batıb qaş qaralanda qarşıda əvvəlkilərdən də əzəmətli gözəl bir qəsr göründü.

Bu qəsrin sahibi qara-kəlin kiçik qardaşı idi. Qız gecəni bu qəsrdə keçirdi, amma kəl gecələmək üçün parka getdi. Bu dəfə yola düşməzdən əvvəl qıza çox gözəl bir gavalı verib dedilər ki, ağır vəziyyətə düşməyincə gavalını iki yerə bölməsin. Dara düşəndə gavalını iki yerə bölsün, onu xata-bəladan qurtarar. Dördüncü gün əvvəlki günlərə bənzəmədi. Axşam oldu, lakin kiçik qız heç bir qəsr görmədi. Şer qarışıb qaranlıq düşməyə başlayanda qara kəl qaranlıq və dərin bir dərəyə girdi. Dərə elə zülmət qaranlıq idi ki, az qaldı yazıq qızın ürəyi partlasın.

Dərənin dərinliyinə baş vurmazdan əvvəl qara kəl ayaq saxladı və dedi:

- Bu yerlərdən uzaqlaşmağa tələs, başımın tacı. Mən bu dərədə ölüm-dirim vuruşuna başlayaçağam. Mən tək vuruşacağam. Heç kəs mənə kömək etməli deyil. Qarşımızda uzanıb gedən bu zülmət derə Qaranlıq Ruhunun yuvasıdır. O, dünyamızın başına çox müsibətlər gətirib. Mən onunla döyşmək və ona qalib gəlmək ümidindəyəm. Otur bu daşın üstündə və mən qayıtmayınca nə əlini, nə ayağını, nə də dilini tərpətmə. Azacıq belə yerindən qımıldansan, dərədə məskən salmış Cinin caynağına keçəcəksən.

- Əgər mənə nə danışmaq, nə də tərpənmək olmazsa, sənin başına nə iş gəldiyini necə öyrənim?- kiçik qız həyəcanla soruşdu.

Dörd gündü kiçik qız nəhəng qara kələ xeyli öyrəşmişdi.

- Gözlərini fırlayıb dörd yanına baxarsan və öyrənərsən - qara kəl cavab verdi.- Ətrafında hər şey maviləşsə, bil ki, Cini məğlub etmişəm. Qırmızı rəngə boyansa, agah ol ki, Cin mənə qalib gəlib.

Qara kəl qızdan uzaqlaşdı və tezliklə dərənin zülmət dibində gözdən itdi. Kiçik qız isə daşın üstündə heykəl kim oturub yerindən qımıldanmamağa çalışdı. Qız başını gözlənilməz bəlaya salmaqdan qorxurdu.

Bu minvalla qız bir saat oturub yerindən tərpənmadi. Birdən qızın ətrafında hər şey öz rəngini dəyişməyə əvvəlcə bozumtul, sonra isə elə mavi rəngə düşməyə başladı ki, elə bil səmanın özü yerə enmişdi.

- Qara kəl qalib gəldi! Afərin!- qız fikirləşdi və sevinc içində durub başqa yerdə oturdu və qıçını qıçının üstə aşırdı. İlahi, nə böyük bədbəxtlik! O saat qız tilsimə düşüb Norrovey şahzadəsi üçün gözə görünməz oldu.

Bilirsiniz, Qara Kəl doğrudan da insan idi. Onun adı Norrovey şahzadəsi Qara Cəngavər idi. Nə vaxtsa onu da tilsimləyib qara kələ çevirmişdilər. İndi Cinə qalib gəldiyi üçün yenidən insana çevrilmişdi və qızın yanına qaçırdı ki, əsl qiyafəsində özünü göstərsin, çünki o, qıza aşiq olmuşdu və onunla evlənmək istəyirdi. amma o, qızı görə bilmədi. Dərəni ələk-vələk etdi, qızı tapa bilmədi ki, bilmədi. Qız isə bu vaxt daş üstündə dayanıb səbirsizliklə qara kəli gözləyirdi. Gözləməkdən səbri tükənib hövsələsi daralmışdı. Qız oturmaqdan bərk yoruldu, tək qalmaq fikri onu dəhşətə saldı və ağlayıb, ağlayıb, axırda yuxuya getdi. Səhər yuxudan oyananda qız başa düşdü ki, daşın üstündə oturmağın heç bir xeyri olmayacaq. Odur ki, ayağa qalxıb hara gəldi getməyə başladı. O qədər getdi ki, axırda yol hündür bir şüşə dağa dirəndi. Dağa qalxmaq üçün qız dəridən-qabıqdan çıxdı, lakin bacarmadı. Dağ elə sürüşkən idi ki, səyyah qız balaca büdrəyən kimi üzü aşağı sürüşürdü.

Belə olan halətdə qız, dağın zirvəsinə gedən yolu tapmaq ümidi ilə qərar aldı ki, dağın başına dolansın. Dağ olduqca nəhəng idi, həm də qız yorulub əldən elə düşmüşdü ki, bütün ümidlərini itirib məyus oldu. İçin-için ağlaya-ağlaya güclə qıçlarını arxasınca sürükləyən qız qorxurdu ki, tezliklə olan-qalan gücü tükənib sona yetəcək və yıxılıb ölməkdən başqa heç bir çarəsi olmayacaq.

Bu minvalla qız günortaya az qalmış kiçik bir daxmaya yaxınlaşdı. Daxmanın yanında dəmirçixana var idi və qoca dəmirçi zindanın başında iş görürdü.

Qız dəmirçixanaya girdi və qocadan şüşə dağın zirvəsinə gedən yolun olub-olmadığını soruşdu. Dəmirçi çəkici yerə qoyub qıza baxdı və başını buladı.

- Yoxdur, qızım,- qoca dilləndi.- Şüşə dağdan keçib gedən yol yoxdur. Düzdür, şüşə dağı aşmaq olar, amma bu, asan iş deyil. Yüzlərlə mil yol qət etmək lazımdır. Kim ki, dağı aşıb keçməyə cəhd edir, azıb yolda qalır. Yenə deyirəm, şüşə dağın zirvəsinə qalxmaq olar, yalnız dəmir başmaqlarla.

- Dəmir başmaqları hardan tapmaq olar?- qız soruşdu.- Sən mənə dəmir başmaqlar döyüb hazırlaya bilərsənmi, xeyirxah insan? Haqqını artıqlaması ilə ödəyərəm.

Birdən qızın yadına düşdü ki, pulu yoxdur.

- O başmaqlar pula satılmır,- dəmirçi dedi.- Onları gördüyün işin müqabilində ala bilərsən. Dəmir başmaqları bircə mən döyüb düzəldə bilirəm. Elə adamlar üçün düzəldirəm ki, mənim qulluğumda dayanmağa razı olurlar.

- Nə qədər sənin qulluğunda durmalıyam ki, mənə dəmir başmaqlar düzəldəsən?

- Yeddi il,- qoca cavab verdi.- Çünki başmaqlar adi yox, sehrli olacaq.- «Yeddi» özü də sehrli rəqəmdir, ha.

Əlacı kəsilmiş qız qoca dəmirçiyə qaravaşlıq etməli oldu. Düz yeddi il sərasər qız dəmirçinin evini silib-süpürdü, yırtığını yamadı və paltarını yudu. Yeddi ilin tamamında qoca dəmirçi qızın dəmir başmaqlarını döyüb hazırladı. Qız başmaqları geyinib şüşə dağın başına çıxdı. O, dağa elə asanlıqla dırmaşdı ki, elə bil dağı yaşıl otlar bürümüşdü. Qız dağın zirvəsinə çatdı, sonra vadiyə enib qarşısına çıxan birinci evə sarı yollandı. Həmin evdə bir paltaryuyan qarı yeganə qızı ilə birgə yaşayırdı. Qız yaxınlaşıb evin qapısını döydü və gecəni qalmaq üçün yer istədi.

Çox hiyləgər sir-sifətli idbar qarı dedi ki, onu gecəni keçirmək üçün bir

şərtlə evinə buraxar ki, Norroveyli Qara Cəngavərin ağ plaşını yuyub təmizləyə bilsin. Ağ plaşlı Qara Cəngavər ölüm-dirim vuruşundan çıxmış və plaş başdan-ayağa qan ləkələri ilə örtülübdür.

- Dünən bütün günü plaşı yuyub təmizləməyə cəhd etmişəm, ancaq xeyri olmayıb. Plaşı təknədən axşam çıxartmışam, ləkələr necə vardı, elə də qalıb. Axı, Norroveyli Qara Cəngavərin işinə mən də yaramay istəyirəm. Bilirsən, o, necə dövlətli, necə qüdrətli hakimdir.

- Noroveyli Qara Kəl necə? Onun kəli deyil ki? Qarı şübhə dolu nəzərlərlə qıza baxdı.

- Qara Kəl Qara Cəngavərin özüdür də! - qarı cavab verdi.- Haçansa Qara Cəngavərin tilsimləyib Qara Kələ çevirmişdilər. Yenidən bəni-insana çevrilmək üçün o, qaranlıq dərədə yurd salmış Cini döyüşə çağırıb ona qalib gəlməli idi. Budur, qara kəl Cinlə vuruşub zəfər çalmış və yenə də insana çevrilmişdir. Amma şaiyə gəzir ki, Qara Cəngavər hərdənbir yamanca dilxor görünür, hansı qız haqqındasa elə hey danışır. Qara Cəngavər guya o qızla evlənmək istəyib, lakin onu itirib. Bir də ki, qızın kim olması heç kəsə məlum deyil. Əşşi, bu sənin nəyinə lazımdır axı, sən ki, burda qərib adamsan,- paltaryuyan əlavə edib, sanki artıq-əskik danışdığı üçün təəssüfləndi.

- Sənlə laqqırtı vurmağa vaxtım yoxdur! Plaşı yuyub təmizləmək istəyirsənsə, qal gecələ. İstəmirsənsə, xoş getdin.

Əlbəttə, qız dedi ki, plaşı yuyub təmizləmək əlindən gələni edər. Plaşı suya salan kimi bütün ləkələr yoxa çıxdı, plaş ağarıb təptəzə oldu. Paltaryuyan qarı çox şad oldu və o dəqiqə də qəlbində şübhə toxumları cücərdi. Ona elə gəldi ki, Qara Cəngavərlə bu qız arasında qız sirli glaqg var. Axı, qarı qızı ile birlikde plaşı yumaq üçün dəridən-qabıqdan çıxmış, lakin bir şey alınmamışdı. Qız isə plaşı bir göz qırpımında yuyub təmizlədi.

Qara Cəngavər həmin axşam plaşını aparmaq üçün paltaryuyan qarının yanına gəlməli idi. Qarı fikirləşdi ki, Qara Cəngavər gələndə plaşı qızının yuyub təmizlədiyini deyəcək. Odur ki, qarı qıza məsləhət verdi ki, yaxşı dincəlmək üçün tez uzanıb yatsın. Norroveyli Qara Cəngavər plaşından ötrü

qarının yanına gələndə kiçik qız anbarda dərin yuxuya getmişdi.

Sizə xatırladım ki, son yeddi il ərzində - dərədə Cinlə vuruşduqdan sonra Qara Cəngavər plaşını yudurtmaq üçün çox arvada ağız açmışdı, amma heç kəs plaşı yuya bilməmişdi. Bir cadugər qarı isə Qara Cəngavərə söyləmişdi ki, plaşı kim yuyub ağarda bilsə - istər gözəl olsun, istər idbar, onun arvadı olacaq. Onu çox sevəcək.

«Vəfalı arvad və yaxın köməkçi olacaq,» - demişdi qarı.

Bəli, Qara Cəngavər paltaryuyan qarının yanına gəlib plaşını götürdü. Plaş qar kimi ağappaq idi. Qarı deyəndə ki, plaşı qızım yuyub, Qara Cəngavər elə səhəri gün qarının qızı ilə evlənməyi qərara aldı.

Səhər tezdən şahzadə qız yuxudan oyanıb öyrəndi ki, o, yuxuda olarkən Qara Cəngavər qarının yanına gəlib, plaşını götürüb və bu gün qarının qızı ilə özünə toy edir. Bunu eşidən zavallı qızın az qaldı qüssədən bağrı çatlasın. Ona elə gəldi ki, Qara Cəngavər görüşmək bir daha ona qismət olmayacaq. Amma birdən düz yeddi il özü ilə gəzdirdiyi alma yadına düşdü.

- İndi mənim düçar olduğum dərddən betəri olmaz,- qız düşündü və almanı çıxardıb iki yerə böldü. Almanın içində nə görsə yaxşıdır? Elə qiymətli şəffaf daş-qaş vardı ki, ömründe beləsini görünməmişdi. Qız o dəqiqə nə edəcəyini beynində ölçüb-biçdi, qiymətli daş-qaşı almanın içindən çıxarıb örpəyinin üstünə yığdı və paltaryuyan qarıya apardı.

- Görürsən!- qız dedi.- Mən çox varlıyam. İstəsən, bu daş-qaş sənin olar.

Qarı soruşdu:

- Bunun üçün nə etməliyəm?

Qarı ömründə o cür bahalı daşlar görməmişdi və gözləri alışıb yanırdı.

- Qızının toyunu bircə günlüyə təxirə sal,- qız cavab verdi.- İzin ver bu gecə Qara Cəngavər yuxuda olanda onun otağında əyləşim. Çoxdandır ki, ona tamaşa etmək istəyirəm. Təəccüblü olsa da, qarı razılaşdı. Qarını buna vadar edən şəffaf daşları əldə edib varlanmaq arzusu idi. Həm də şahzadə qızın iltimasında qarı nə özü, nə də qızı üçün təhlükəli bir şey görmürdü. Ancaq hər ehtimala qarşı qarı Qara cəngavərə elə yuxu dərmanı içirtmək qərarına gəldi

ki, o, bütün gecəni bir dəfə də oyanmasın və qızı görməsin.

Bəli, qarı daş-qaşları götürüb sandığına qoydu və qızının toyunu bir gün təxirə saldı.

Gecə Cəngavər dərin yuxuda olanda şahzadə qız onun yataq otağına daxil oldu. Qız bütün gecəni Qara Cəngavərin ayaq ucunda oturub mahnı oxudu. Ümid edirdi ki, Qara Cəngavər yuxudan duracaq və onu eşidəcək. Qız oxuyurdu.

Mən sənin xətrinə nökər də oldum,
Şüşəli dağlara yolumu saldım,
Yudum paltarını alıb əlimə
Oyanıb baxmırsan öz sevgilinə?!

Qız mahını dönə-dönə oxudu, az qaldı ürəyi qəmdən partlasın, ancaq Cəngavər heç nə eşitmədi, çünki o, qarının yuxu dərmanını içib daş kimi yatmışdı.

Səhəri gün şahzadə qız armudu tən böldü. Bu ümid də idi ki, armud ona daha yaxşı kömək edəcək. Armudun da içindən yalnız bərq vuran daş-qaş çıxdı. D üzdür, bu daşlar almanın içindəkilərdən iri idi. Daha nə etmək olardı ki. Qız bu daşları da qarıya aparmağa məcbur oldu.

- Toy bir gün də təzirə sal,- qız qarıya yalvardı.- Mənə də imkan ver, bu gecəni Cəngavərin yataq otağında oturum.

Qarı razılaşdı.

- Belə getsə, çox tezliklə dövlətli olaram,- qarı fikirləşdi və daş-qaşları sandığına qoyub ağzını qıfılladı.

Eh, hər şey əbəs yerə idi! Şahzadə qız bütün gecəni Cəngavərin ayaqucunda oturub məlahətli baxışlarla onu süzür və oxuyurdu:

Mən sənin xətrinə nökər də oldum,
Şüşəli dağlara yolumu saldım,
Yudum paltarını alıb əlimə

Oyanıb baxmırsan öz sevgilinə?!

Qara Cəngavər isə daş kimi hərəkətsiz uzanıb heç nə eşitmirdi.

Səhəri gün qız demək olar ki, umidini itirmişdi.

- Bircə dənə gavalım qalıb. O da kömək eləməsə, heç nə kömək edə bilməyəcək,- qız fikirləşdi.

Titrək barmaqları ilə gavalını çıxardıb yarı böldü və yenə də şəffaf qiymətli daşlar gördü. Bu daşlar daha nadir, daha bahalı daşlar idi. Şahzadə qız qaça-qaça qarının yanına gəldi və daşları onun dizinin üstünə səpələdi.

- Götür!- qız dedi.- Yalnız bircə gün də toyy təxirə sal və mənə imkan ver ki, bircə gecə də Cəngavərin yataq otağında əyləşim.

Qarı çox təəccüblənsə də, yenə razılaşdı.

Qara Cəngavərə toy gününü gözləməkdən cana doyub nökər-naibləri ilə ova çıxdı. Yol boyu nökərlər xısınlaşıb öz aralarında danışırdılar ki, iki gecədir mat-məəttəl qalıblar. Nəhayət ovçulardan ən qocası atını səyirdib Qara Cəngavərə yaxınlaşdı və soruşdu:

- Mehtarəm ağa, sizin yataq otağınızda bütün gecəni məlahətli səslə oxuyanın kim olduğu bizi çox maraqlandırır.

- Nə oxuyan?- Norroveyli şahzadə soruşdu.- Oxuyan nə gəzir, canım! Mənim yataq otağımda məzar sükutu olur, mən isə bu evə gələndən bəri ölü kimi yatıram, heç yuxu da görmürəm.

Qoca ovçu başını yırğalayıb barmağını dişlədi.

- Qibləgahım, innən belə axşamlar qarının verdiyi içkini nuş etmə. Onda biz eşidəni, siz də eşidərsiniz.

Başqa vaxt olsaydı, Qara Cəngavər bu cür sayıqlamalara rişxəndlə gülərdi, amma o gün qocanın sözləri ağlına batdı.

Gün batdı, qaş qaraldı. Paltaryuyan qarı parçdakı şərbətə nəsə qarışdırıb Qara Cəngavərə gətirdi. Ancaq Cəngavərə parçı dodaqlarına toxundurub yerə qoydu və dedi ki, şərbətin şirnisi azdır. Şərbəti şirniləşdirmək üçün qarı mətbəxə getdi ki, bal gətirsin. Və Qara Cəngavər fürsəti fövtə verməyib tez çarpayıdan qalxdı və şərbəti pəncərədən yerə tökdü. Qarı qayıdıb gələndə isə

dedi ki, şərbətin hamısını içib.

Hə, o gecə Cəngavər yuxuya getmədi. Şahzadə qızın içəri girdiyini və şikayət dolu nəğməsini necə həzin-həzin oxuduğunu eşitdi:

Mən sənin xətrinə nökər də oldum,
Şüşəli dağlara yolumu saldım,
Yudum paltarını alıb əlimə
Oyanıb baxmırsan öz sevgilinə?!

Mahnını eşidən kimi hər şey Qara Cəngavərin yadına düşdü. Dərhal çarpayıdan sıçrayıb şahzadə qızı bağrına basdı, üz-gözündən öpüb xahiş etdi ki, başına gəlmiş macəraları bircə-bircə söyləsin. Qız başına gələnlərin hamsını nəql etdi. Norroveyli şahzadə bərk qəzəbləndi, paltaryuyan qarını və onun yalançı qızını hökmdarlıq etdiyi torpaqlardan qovub didərgin saldı. Sonra Norroveyli şahzadə qızı öz qəsrinə apardı və onunla evlənib şad-xürrəm həyat sürməyə başladı.

MEHRİBAN DAYƏ HAQQ İSTƏMƏZ

Mənə elə gəlir ki, ruhların varlığına şəkk edən adam tapılmaz. Onu da sizə deyim ki, müasir ruhlar qədim ruhlar kimi sadəlövh deyil. Hə, uşaqlar, diqqətlə qulaq asın, sizə bir nağıl söyləyim.

Bir çox illər bundan əvvəl Nitsdeylli cavan bir qadın körpəsinin beşiyini yırğalayıb layla çalarkən, sısqa bir məxluq qapını döyüb öz çağası üçün bir damla süd istədi.

- Mənim xırdaca balamı əmizdir,- ruh xahiş etdi. Cavan qadın çağanı ehmalca qucağına aldı. Ruh dərhal:

- Mehriban dayə ol və heç vaxt haqq istəmə,- deyib qeyb oldu.

Beləliklə, gənc ana hər iki uşağın qayğısına qalıb, nazı ilə oynayırdı. Hər səhər oynayıb yuxudan duran qadın hər iki uşaqçun gətirilmiş çoxlu-çoxlu

paltar və ləzzətli yeməklər görürdü. Yeddi gün, yeddi gecə təravətini itirməyən yemək şərab və bal qatılmış şirin çörək tamı verirdi.

Yayın əvvəllərində ruh qayıdıb gəldi. Körpəsi onu görən kimi şadlığından əl-qol atıb qığıldadı. Sısqa ruh körpəni qucağına götürüb qadına işarə etdi ki, onun arxasınca gəlsin. Sonra ruh yolu əlinə alıb irəlilədi. Onlar kol-kos basmış bir neçə meşədən keçib yaşıl bir təpənin yamacındakı enişə çatmağa az qalanda qarşılarında bir qapı açıldı. Onlar addımlayıb astanadan keçən kimi qapı bağlandı. Ruh çevrilib qadının sol göz qapağına üç damla şeh damızdırdı. Sonra onlar bol suyu olan çaylara, sarı buğda zəmilərinə malik bir torpağa qədəm qoydular. Sısqa ruh qadına fiziki gücünü bərpa etmək üçün sehrli məlhəm verib bir-birindən gözəl, gözqamaşdıran paltarlar gətirdi və vəd etdi ki, qadının heç nəyə ehtiyacı olmayacaq. O, qadının sağ gözünə bir damcı yaşıl rəngli şeh salan kimi, qadın yoxa çıxmış dostlarının çoxunu taxıl biçən və meyvə yığan gördü. Bir az sonra ruh əli ilə qadının sağ gözünü sığallayıb adi vəziyyətə saldı. Fürsəti fövtə verməyən qadnn yaşıl rəngli şehdən çırpışdırdı. Vədə tamam olanda ruh onu qapının ağzına qaytardı.

Yaşıl rəngli şehin qüdrətindən istifadə edən qadın uzun müddət yer üzünə təşrif gətirən ruhları görmək qabiliyyətinə malik oldu. Amma bir gün qadın yaşıl rəngli şehin oğurladığı ruhu görüb onu salamladı.

- Hansı gözünlə məni görürsən? - ruh pıçıltı ilə xəbər aldı.

- Hər ikisi ilə.

Bunu eşidən ruh o dəqiqə qadının gözlərinə üfürdü. Yaşıl rəngli şehin sehri dərhal yox olub heç vaxt geri qayıtmadı.

PƏDDU

Biri vardı, biri yoxdu, bir qarıyla onun qızı vardı.

Bir dəfə yoxsul qarı qoğal bişirəndə qızına qab verib quyudan su gətirməyə göndərdi. Qız evdən çıxıb yola düşdü. Dağdan aşıb düzdən keçdi,

nəhayət gəlib quyunun yanına çıxdı. Amma quyunun suyu tamam-kamal qurumuşdu. Nə edəcəyini bilməyən qız çaşbaş qaldı. Axı, o, anasının yanına susuz necə qayıdaydı. Odur ki, qız quyunun başında oturub qəm dəryasın batdı.

Qız xeyli belə oturub qaldı. Birdən iri bir qurbağa quruldaya-quruldaya quyudan çıxıb qızdan nə üçün kədərləndiyini soruşdu. Qız da dərdini deyib bildirdi ki, quyuda bir damcı da su yoxdur.

Qurbağanın adı Peddu idi.

- Bura bax,- peddu dilə gəldi,- mənim sevgilim olsan, sənə çoxlu su verərəm.

Zavallı qız qurbağanın sözünün ciddi olduğuna inanmadı. Buna görə də bir qab sudan ötrü qurbağanın arvadı olacağına söz verdi.

Bəli, qız qurbağanın verdiyi suyu qabına doldurub evə, anasının yanına qayıtdı. O vaxtdan sonra Peddu bir dəfə də olsun qızın yadına düşmədi. Amma bir gecə qız öz anası ilə yatağa uzanmağa hazırlaşanda nəsə qapıya yaxınlaşdı. Ana-bala nəfəslərini içinə çəkib susdular. Qapının dalından bu nəğməni eşitdilər:

Aç qapını, gözəl pəri,
Yoxsa, məni eşitmirsən?!
Göy çəmənlik yadındamı,
Dedin - sənə gələrəm mən.

Qulağına gələn səsdən heyrətlənmiş ana qızından xəbər aldı:

- Qızım, qapının arxasından gələn nə səsdir?

- Ana, qulaq as,- qız cavab verdi,- qapının dalından gələn səs iyrənc Pəddunun səsidir.

- Get biçarə Pedduya qapını aç.

Naçar qalmış qız qapını açdı. Peddu quruldaya-quruldaya hoppanıb içəri keçdi, buxarının başında yanını yerə qoyub zümzümə etməyə başladı:

Şam yeməyi gətir yeyim,
Gözəl mələk, tez ol mənə.
Yadındamıl, nə demişdin,
O vaxt mənə göy çəməndə.

- Sən bundakı üzə bir bax,- qız hikkə ilə dilləndi, - bircə elə o qalıb ki, iyrənc qurbağaya şam yeməyi verəm!

- Ey, ay qız,- ana qızına təpindi,- dur ayağa, qurbağaya şam yeməyi ver.

Beləliklə Peddu şam edib qarnı doyandan sonra yenə oxumağa başladı:

Sal yerimi, gözəl pəri,
Yuxum gəlir yatım bir az.
Yadına sal göy çəməni,
Belə olmaz, belə olmaz.

- Qulaq as, gör bir nə deyir,- qız deyindi,- mən idbar bir qurbağanı yanıma necə buraxım?

- Ey, ay qız,- ana yenə də qızına acıqlandı,- götür yazıq Peddunu uzat yanına.

Qızın yanında uzanan kimi Peddu yenə də oxumağa başladı:

Balta gətir, gözəl mələk
Tez ol, tez ol indi mənə.
Yadındamı söz vermişdin
Göy çəməndə onda mənə.

Çox keçməmiş qız baltanı gətirib gəldi. Baltanı görən Peddu yenə yanıqlı-yanıqlı oxudu:

Üz başımı, kəs başımı

Balta ilə, gözəl pəri.
Nə demişdin göy çəməndə
Sal yadına o *günləri.*

Nə başınızı ağrıdım, qız əlacsız qalıb balta ilə qurbağanın başını kəsdi. Qurbağanın başı üzülüb yerə düşən kimi qızın qarşısında çinar boylu, yaraşıqlı bir gənc şahzadə peyda oldu. Ona bənzər ikinci bir şahzadəni o vaxtacan görən olmamışdı.

Bu minvalla qızla şahzadə ailə qurub ömürlərinin sonuna kimi bəxtəvər günlər keçirdilər.

DÜNYANIN QURTARACAĞINDAKI QUYU

Biri var idi, biri yox idi, qədim zamanlarda bir kral, bir də kraliça var idi. Kralın da kraliçanın da hərəsinin bir qızı var idi. Kralın qızı sərv boylu, xoş xasiyyət bir qız idi, hamının ondan çox xoşu gəlirdi. Kraliçanın qızı isə eybəcər, bədxasiyyətdi. Ona görə də ondan xoşu gələn bir nəfər də tapılmadı. Kraliçanın kralın qızını görməyə gözü yox idi. O nəyin bahasına olursa olsun, kralın qızını başından edib canını qurtarmaq istəyirdi.

Bir gün kraliça kralın qızını bir şüşə su gətirmək üçün dünyanın qurtaracağındakı quyunun başına göndərdi. Kraliça fikirlşirdi ki, kralın qızı oradan heç vaxt geri qayıda bilməyəcəkdir.

Bəli, kralın qızı şüşə qabı götürüb yola düşdü. Az getdi, üz getdi, dərə-təpə düz getdi, axırda gəlib cidarlanmış balaca bir atın yanına çıxdı. At kralın qızını görüb dilə gəldi:

Min çap məni, səyirt məni, ay qızım,
Düz yeddi il bir gündür ki, yalqızam.

Kral qızı məlahətli səslə cavab verdi:

- Niyə minmirəm ki, qəşəng atım, indi səni minib çaparam.

Beləliklə balaca at dizlərini yerə qoydu. Kralın qızı qıçını aşırıb atın belinə mindi. At o dəqiqə dördnala Heklpinz düzlərinə sarı çapdı. Yeldən qanad taxıb ox kimi süzən at dağlar aşdı, dərələr keçdi, Nəhayət dünyanın qurtaracağındakı quyunun başına yetişdi. Qız atdan düşüb quyuya yaxınlaşdı, gördü ki, quyu olduqca dərindir. Nə qədər çalışdısa da, şüşəni su ilə doldura bilmədi. Çaşbaş qalan qız aşağı əyilib quyunun içinə boülandı, ağzı yuxarı baxan ərp bağlamış üç insan kəlləsi gördü. Kəllələr dil açıb qıza dedi:

Ay gözəl qız, gəl yuyundur sən məni,
Sonra kətan önlüyünə sil məni.

Kralın qızı təbəssümlə cavab verdi:

- Niyə yumuram, sizi elə yuyub təmizləyərəm ki!

Hə, kralın qızı ərp bağlamış üç insan kəlləsini yuyub təmizləyəndən sonra onları gül kimi təmiz kətan önlüyü ilə silib quruladı. Qızın nəcib hərəkətindən razı qalan kəllələr şüşəni su ilə doldurub qıza verdilər.

Sonra ərp bağlamış insan kəllələrindən biri o birinə dedi:

- Qardaş, onun bəxtinə sən nə yazmaq istəyirsən?

Birinci kəllə dilə gəlib dedi:

- Mən bircə onu istəyirəm ki, qızda olan bu gözəllik on dəfə artıb çoxalsın.

İkinci kəllə öz arzusunu bildirdi:

- Mənim də arzum budur ki, qız hər dəfə ağzını açıb danışanda, qoy onun dodaqlarının arasından bir dənə almaz, bir dənə yaqut, bir dənə də mərcan düşsün.

Üçüncü kəllə isə dedi:

- Arzum budur ki, qız hər dəfə qulac saçlarını darayanda, qoy onun saçları arasından bir ovuc qızıl, bir ovuc da gümüş tökülsün.

Hə, deyirlər ki, nağıl dili yüyrək olar. Xeyli sonra qız qayıdıb atasının

sarayına gəldi. Evə qayıdandan sonra qızın gözəlliyi birə on artdı; hər dəfə ağzını açıb danışmağa başlayanda dodaqlarının arasından bir almaz, bir yaqut, bir dənə da mərcan düşdü; hər dəfə qız tellərinə şanə çəkəndə zülflərinin arasından bir ovuc qızıl, bir ovuc da gümüş töküldü.

Gözləri kəlləsinə çıxmış kraliça özünü elə itirmişdi ki, nə edəcəyini bilmirdi. Paxıllıqdan bağrı çatlayan kraliça öz qızına da bir şüşə qab verib dünyanın qurtaracağındakı quyunun yanına yola saldı ki, bəlkə onun da bəxti açıla.

Bəli, əzizlərim, kraliçanın qızı da evdən çıxıb yolu əlinə aldı. Dağdan aşdı, düzdən keçdi, axırda gəlib balaca atın yanına çıxdı. At kraliçanın kifir qızına baxıb dilə gəldi:

Min məni çap, səyirt məni, ay qızım,
Düz yeddi il bir gündür ki, yalqızam.

Kraliçanın qızı dodaqlarını büzüb cavab verdi:

- Ay allahın axmaq heyvanı, səncə mən heç səni minib çaparammı? Nə çərənlədiyindən xəbərin varmı? Ay səfeh, mən kraliçanın qızıyam ey!

Ne başınızı ağrıdım, kraliçanın qızı atı minmədi. Odur ki, at da onu belinə alıb Heklpinz düzlərinə sarı çapmadı. Çarəsi kəsilmiş qız ayaqyalın, başıaçıq pay-piyada yola düşdü. Çınqıl daşlar əzib qızın ayaqlarını şilküt elədi. O güclə ayaqlarını arxasınca sürüklədi.

Bu minvalla kraliçanın qızı uzun yolu keçib axırda dünyanın qurtaracağından quyunun başına çatdı. Quyu çox dərin olduğuna görə qız şüşəni su ilə doldura bilmədi. O, döyükə-döyükə başını əyib quyunun dibinə boylananda yuxarı baxan ərp bağlamış üç kəllə gördü. Kəllələr üzlərini qıza tutub xahiş etdilər:

Ay gözəl qız, gəl yuyundur sən məni,
Sonra kətan önlüyünə sil məni.

Kraliçanın qızı narazı halda donquldandı:

- Ay sizi yaramaz pinti heyvanlar, bircə elə o qalmışdı ki, sizi yuyub təmizləyəm! Ay yaramazlar, heç bilirsiniz siz kiminlə danışırsınız? Mən kraliçanın qızıyam ey!

Qız kəllələri yuyub qurulamadı ki, qurulamadı. Ona görə də kəllələr şüşə qabı su ilə doldurmadı.

Ərp bağlamış kəllələrdən biri o birinə dedi:

- Qardaş, bu qızın bəxtinə bir şey yaz. Arzun nədir?

- Arzu edirəm ki, bu qız indikindən on dəfə betər çirkin olsun.

İkinci kəllə dilə gəlib dedi:

- Arzum budur ki, bu qız hər dəfə ağzını açıb danışanda dodaqlarının arasından zırpı bir qurbağa quruldaya-quruldaya hoppanıb yerə düşsün.

Üçüncü kəllə isə dedi:

- Arzu edirəm ki, bu qız hər dəfə saçlarını darayanda, qoy onun tüklərini dibindən bir ovuc bit, bir ovuc da sirkə tökülsün.

Bəli, qız qayıdıb yenidən evlərinə gəldi. Bir qədər sonra o qədər eybəcərləşdi ki, üzünə baxanda adamın ürəyi bulanırdı. Ağzını açan kimi iri bir qurbağa quruldaya-quruldaya hoppanıb ağzından yerə düşürdü; qız hər dəfə saçlarına daraq çəkəndə tüklərinin dibindən bolluca bit-sirkə tökülürdü. Axırda kralın adamları kraliçanın qızını qovub saraydan uzaqlaşdırmağa məcbur oldular.

Çox keçməmiş o yerlərə çox yaraşıqlı gənc bir şahzadə gəlib çıxdı, kralın qızı ilə evləndi. Evdə qalıbsun çuvalına tay olmuş kraliçanın qızı Nəhayət qoca bir pinəçiyə ərə getdi. Pinəçi də hər gün şallaqla arvadını kötəkləyib gününü göy əskiyə bükdü.

YAXŞILIĞI UNUTMAYAN SUİTİ

Bir çox illər bundan əvvəl Mənsi Mur, Haknisə yaxın qumlu sahildə

balıqquları toplayırdı. Birdən daşların arasından qulağına adam iniltisinə bənzər bir səs gəldi.

Bəni-insan səsinə oxşayan bu səs hərdən dəhşətli ağrıdan zarıyır, hərdən də inək kimi ucadan böyürdü. Səs arabir zəifləyib elə əzab dolu zarıltıya çevrilirdi ki, sanki ağrı çəkirdi.

Əzab dolu bu səsə qulaq asan Mənsi donub yerində qalmış və qəlbi kövrək hisslərlə dolmuşdu. O, bir müddət heç nə görə bilmədi. Sonra qayaların yaxınlığında başını sudan çıxardıb nəzərlərini xeyli aralıdakı xırda körfəzə sarı zilləmiş yekə bir suiti Mənsinin diqqətini cəlb etdi.

Mənsi duydu ki, suiti ondan qorxub suya baş vurmur və gözünü körfəzdən çəkmirdi.

O irəliləyib qaya parçasının üstünə çıxdı və körfəzin bir küncündə küçükləmək istəyən ana suitinin ağrı çəkdiyini gördü. Başa düşdü ki, bayaqdan səs-küy salıb zarıldayan ana suiti imiş. Ata suiti isə dənizdə uzanıb yoldaşının əzabına tamaşa edirdi

Dayanıb bu mənzərəni seyr edən Mənsi dilsiz-ağızsız heyvanın qatlaşdığı əzabı görüb təəccübləndi.

Bir az da dayanandan sonra ana suitinin iki toppuş bala doğduğunu gördü. Sürüyüb daşın üstünə çıxan balalar süd əmmək üçün ana suitinin döşlərinə hücum çəkdi.

Mənsi fikirləşdi ki, bala suitilərin dərisindən ona əla canlıq çıxar. Odur ki, qaçıb onlara yaxınlaşdı. Biçarə ana suiti cəld daşın üstü ilə sürünüb üzü üstə özünü dənizə atdı. Bala suitilərin ananın dalınca sürünüb dənizə atılmaq ağıllarına gəlmədi. Mənsi irəli şığıyıb bala suitilərin hər ikisini qamarladı. Bunu görən ana suiti balalarından ötrü çox narahat olub vurnuxmağa başladı. Suyu yara-yara sağa-sola üzərək üzgəclərilə baş-gözünə döyəcləyib həşir saldı. Bir az sonra qabaq qollarının köməyi ilə sürünə-sürünə qaya parçasının üstünə çıxıb yazıq-yazıq Mənsiyə baxdı. Onun baxışlarındakı qəlb göynədən dərin kədəri daş da görsə əriyərdi.

Ata suiti də narahat-narahat ora-bura üzür, amma Mənsiyə

yaxınlaşmırdı. Bala suitiləri qoltuğuna vurmuş Mənsi çıxıb getmək istədi.

Bala suitilər Mənsinin paltosunu ağızlarına salıb elə sorurdu ki, elə bil analarının döşlərini əmirdi. Birdən ana suiti insan səsinə bənzər səslə nalə çəkib inildədi. Onun titrək səsindəki hüzn Mənsinin qəlbini parçalayıb ürəyinə rəhm saldı.

Dönüb ətrafına baxanda ana suitinin onun yanında uzanıb başını daşın üstünə qoyduğunu gördü. Qəm dəryasına qərq olmuş ana suitinin gözlərindən yaş sel kimi axırdı. Dilsiz-ağızsız heyvana təbiətin bəxş etdiyi bala məhəbbətinin gücü qarşısında artıq tab gətirməyən Mənsi aşağı əyilib bala suitiləri daşın üstünə qoydu. Ana suiti dərhal balalarını üzgəcləri arasına alıb bağrına basdı və dönüb Mənsinin üzünə baxdı. Ah, ilahi, suiti necə bəxtiyar-bəxtiyar baxarmış! Ana suitinin bu halı Mənsinin qəlbini fərəhlə doldurdu. Həmin gün dilsiz ana suiti minnətdarlıq üçün yüz oyun çıxartdı.

Bu əhvalatdan sonra Mənsi çox xeyirxah cavan oldu. Bir müddət keçməmiş evlənib özünə ailə qurdu. Hə, əzizlərim, nağıl dili yüyrək olar. İllər ötüb keçdi və Mənsinin uşaqları böyüyüb boya-başa çatdı.

Mənsi köçüb Edey sahillərində yurd saldı. Bir axşam o, balıq tutmaq üçün bir qaya parçasının üstünə çıxıb dənizə tilov atdı. Qaya parçası hər tərəfdən su ilə əhatə olunmuşdu. Daşın üstündə oturmuş Mənsinin ayaqları suya batırdı. Bir müddət balıqlar tilova yaxın düşmədi. Çırpına-çırpına sahilə çıxan dalğaların suyu geri qayıdanda tilovun taxtası suda batıb-çıxmağa başladı.

Mənsi sevincək ayağa durub sahildən asta-asta uzaqlaşan tilovun dalınca addımladı. Bu minvalla tutduğu balıqları zənbilinə bir-bir atan Mənsinin başı bərk qarışdı. Başı ayazıyıb ətrafına nəzər salanda sahildən xeyli uzaqlaşdığını hiss etdi. Hansı yolla qayıdacağını unudub çaşbaş qaldı. Qayıdıb evə getmək istəyində dayandığı yerlə sahil arasındakı məsafəyə baxıb özünü itirdi və matı-qutu qurudu. Şirnikib hər şeyi unudan Mənsinin su artıq boğazına çıxmışdı.

Mənsi vahimə içərisində fəryad qopartdı, nə qopartdı. Ancaq sahildən uzaqlaşıb gözdən itmiş Mənsinin harayını eşidən olmadı. O qədər qışqırdı ki, axırda səsi də batdı. Özünü xilas etmək ümidi ilə çapalayıb Suyun üzünə qalxdı

və gözləri önündə mənfur ölümün dəhşətli pəncələrindən başqa heç nə görmədi.

Getdikcə dərinləşən dənizin suyunda Mənsinin çənəsi görünməz oldu. Xırdaca ləpələrin suyu arabir ağzına dolmağa başladı. Elə bu dəm sanki dəniz Mənsini hop götürüb qayanın üstünə qoydu. Elə bil nəsə pencəyinin boynundan yapışıb onu dik qaldırdı. Hadisədən ağlı bir şey kəsmədi. Haraya aparıldığından xəbəri olmadı. Bir müddət sonra ayaqları suyun dibinə toxunan Mənsi suyun dayaz olduğunu gördü və sahilə sağ-salamat çata biləcəyini başa düşdü. Canlı məxluq onu əlindən buraxdı. Mənsi sürünüb sahilə çıxdı. Özünə gəlib geri çevrildi ki, qayıdıb gəldiyi yollara baxsın. Həmin anda Mənsi suyu yapa-yapa qaya parçasına tərəf üzən yekəpər bir suiti gördü. Suiti qaya parçasına yaxınlaşıb başı üstə suya cumdu. Mənsinin balıq zənbilini çıxardıb sahilə doğru irəlilədi. Sürünüb sahilə çıxan suiti balıqla dolu zənbili ağzında gətirib qumun üstünə qoydu.

Mənsi ağzını açıb qəlbən söylədi:

- Yaxşılığı itirməyən suitini allah saxlasın.

Suiti Mənsiyə elə baxdı ki, sanki danışa bilsəydi, bu sözləri demiş olardı:

- Yaxşılıq itməz.

Bəli, bu suiti qırx il əvvəl Haknis sahillərində balalayan suitinin özü idi.

Mənsi dedi ki, o, bu suitinin nəvazişli baxışlarını harda olsa tanıyardı.

İllər ötüb keçmiş, ana suiti qocalıb ömrünün ixtiyar çağına qədəm qoymuşdu, ancaq Mənsinin yaxşılığını unutmamışdı.

Əzizlərim, sözümün canı budur ki, kaş hər bir kəs o suiti kimi heç vaxt yaxşılığı unutmayaydı.

QƏRB ÖLKƏSİ NAĞILLARI

XEYİRXAH NƏHƏNG

Eşitdiyimə görə bizim Somersetdə çinar boylu nəhəng adamlar azdır. Amma belə nəql edirlər ki, Dansterdə başı göylərə dəyən bir nəhəng var. Vallah, deyəsən, o, bu yerlərə Kornvoldan gəlib çıxıbdır. Onun əsli Devenlidir.

Xalası uşaqları şuluq olduqlarına görə Devendə qalmaq onu açmırdı. Buna görə də doğma yurdunu tərk edib Eksmorda məskən saldı. Eksmor olduqca gözəl, sakit yer idi. Adamları da sözsüz ki, çox mehribandılar. Di gəl ki, əvvəllər Nəhəng çinar boyu Eksmor camaatına xoş gəlmirdi, hətta onları bir az vahiməyə salmışdı. Günlər ötdü, aylar keçdi, eksmorlular başa düşdülər ki Nəhəng oraya köçəndən bəri o ətrafda oğru-quldurun gə-ayağı tamam yığışıbdır. Mal-qaranın, qoyun-quzunun sayı-hesabı bilinmirdi. Nəhəng mala, heyvana dəyib dolaşmırdı. Vaxt keçdikcə eksmorlular Nəhəngə öyrəşib isinişdilər. Yavaş-Yavaş xeyirxah Nəhəng kənd arvadlarının da diqqətini cəlb etdi. Hamı Nəhəngin nə yeyib-içməsi ilə maraqlanmağa başladı.

Bəs necə, əgər desəm ki, bütün arvadların ürəyindən nəhəngə xörək bişirmək keçirdi, səhv etmərəm. Ancaq arvadlar eşidib biləndə ki, Nəhəngə xörək bişirmək lazım deyil çox heyifsləndilər. Bilirsiniz, Yarntondan qulağıma söz çatıb ki, Nəhəng təkcə balıqların dəlisidir. Buna görə də nəhəng hərdən pay-piyada kanalı aşıb birbaşa açıq dənizə çıxır, balıqçı qayıqları isə onun arxasınca düzülürdü. İlahi! Limandan Portişedə doğru üzürdülər. Bu yolları piyada keçib keçib gedən Nəhəngin sinəsinə su güclə qalxırdı. Əllərini suya salıb yığın-yığın balıq çıxaranda balıqçıların kefi kökəlir, damarları çağ olurdu.

Hə, əzizlərim günlərin birində «Dorkas Ceyn» qayığının balıqçıları və qoca Layca Krokom çoxlu balıq tutmuşdu. Bilirsiniz, «Dorkas Ceyn» hay-hayı gedib, vay-vayı qalmış çox köhnə bir qayıq idi. Buna baxmayaraq qayığa ağzınacan balıq doldurmuşdular. Ağır yüklü qayıq ləpələrin arasında asta-asta yırğalanarkən, qəfildən tufan qopdu. Bəli, o saat qayığın içindəkilərin arasında çaxnamşa düşdü. Vəlvələyə düşmüş adamlar qayığın suyun dibinə gedəcəyini düşünürdülər ki, küləyə sinə gərərək onlara tərəf irəliləyən nəhəngi gördülər. O, yaxınlaşıb «Dorkas Ceyn»i qamarladı, qayıqdakılar «sağ ol» deməyə macal tapmamış onu sağ-salamat, Uaçet limanına qoydu. Bir az sonra Nəhəng geri dönüb Dansterə sarı yollandı.

Bu əhvalatdan sonra nəhəng, dansterlilərin əzizi oldu. Belə ki, Nəhəng

dənizdən qayıdanda dansterlilər bir qayda olaraq əllərini yellədib onu gülərüzlə salamlayırdılar. Nəhəng sahil Boyunca irəliləyib təpənin üstündə oturur, qıçlarını qəsrin üstündən aşırır, ayaqlarının palçığını Laun çayında yuyub təmizləyirdi. Təmizlik işini qurtarandan sonra nəhəng ayağa qalxıb təpənin üstündə var-gəl edirdi. Bu zaman camaat pəncərələrdən boylanaraq nəhəngə əl edir, nəhəng də onlara cavab verirdi. Onun əlinin hərəkətindən əmələ gələn küləkdən həftə ərzində yuyulub zivədən asılmış paltarlar dərhal qupquru quruyurdu!

Əlqərəz, qocalıb yaşa dolmuş nəhəng Skillividden Eksmorda ömrünün xoşbəxt çağlarını yaşayarkən qoca Nik o yerlərə qayıtmağı qərara aldı. Yol boyu düzülmüş qamış damlı kilsələr qoca Nikə xoş gəlmədi. Okric camaatı bildirəndə ki, özlərinə 240 metr hündürlükdə tikəcəklər, bu fikir qoca Nikin ağlına batmadı. Ancaq öyrənəndə ki, camaata Nəhəng kömək edir, Nik narazı qalıb qaşqabağını tökdü. Aman allah Qoca Nik hər cür Nəhəngə badalaq gəlməyə cəhd edirdi. Bir dəfə Skillividden qucağında böyük daşlar Snir Kros körpüsündən adlayarkən Nik ona badalaq verdi. Ağır daşlar Nəhəngin qucağından tökülüb sağa-sola diyirləndi. Qoca Nik sevincək halda fikirləşdi ki, Nəhəng bu dəqiqə həngamə qoparacaq. Amma o, məqsədinə çata bilmədi, çünki Nəhəng ağzını açıb bir kəlmə də söz demədi. Əhvalını pozmadan heç nə olmayıbmış kimi təmkinlə aşağı əyildi, daşları bir-bir qaldırıb Okriç kilsəsinin tikilən divarlarının üstünə qoydu. Sonra Nəhəng geri döndü, yerdə qalmış sınıq daş parçasını götürüb qoca Nikin özündən razı halda irişə-irişə əyləşdiyi ağaclığa tolazladı. Ağaclığa düşən daşı görən kimi Nik tələsik aradan çıxdı.

Bu minvalla Nəhəng kilsə üçün yararsız olan daş parçalarının qalanını yığıb Barl çayının içinə düzdü ki, çayı keçmək üçün pillələr duzəlsin.

Bundan sonra Skillividden Eksmorda yaşamağın qeyri-mümkün olduğunu başa düşdü. O, Nikdən yaxasını qurtarmağı qərara aldır. Elə qoca Nik də belə fikileşirdi. Bir məsələ var ki, Nəhəng böyükdən tutmuş kiçiyəcən bütün müqəddəs kilsələri əziz tuturdu. Odur ki, Nəhəng qoca Niklə şərtləşdi ki, Eksmordan kimin gedəcəyini ayırd etmək üçün Porlok yoluna çıxıb yarış

keçirsinlər. Onların hər biri Bossinqtondan Porloka iri bir daş parçası tullamalı idi. Bu iki məkan arasındakı məsafə dörd mir olardı. Yarışda kim uduzsa, o da Eksmoru birdəfəlik tərk etməli olacaqdı.

Onu da deyim ki, birinci daşı qoca Nik atdı. Nikin tulladığı daş dörd mil məsafə havada yol gedib Porlokda yerə düşdü. Sonra növbə Nəhəng çatdı. Qoca Nik bir kələk fikirləşənə kimi Nəhəng daşı yerdən götürüb gücü gəldikcə tolazladı. Daş havada altı millik qövs cızıb Bətlqorda yerə düşdü.

Nəhəngin atdığı daş daha uzağa düşdüyünə görə qoca Nik hirsindən qovrulurdu.

- Bura bax,- Skillividden dilləndi,- yarışımızda biclik olmayıb. Madam ki, uduzmusan, sözünün üstündə durub, Eksmoru tərk etməli, bir də heç vaxt bu yerlərə qayıtmamalısan. Bilirsən ki, heç kəsin sənə inamı yoxdur. Sənin Eksmordan çıxıb getdiyinə əmin olmaq istəyirəm.

Nəhəng bunu deyib qoca Nikin yaxasından yapışdı, onu havaya qaldırdı, Şevern boğazını keçib, açıq dənizə çıxdı. Su dirsəklərinə çatanda dayanıb qoca Niki başı üzərində üç dəfə fırlatdı, var gücü ilə tolazladı.

Hə, əzizlərim, əgər desəm ki, qoca Nik haradasa Qərbi Hindistanda şappıltı ilə yerə dəydi, çox guman ki, səhv etmərəm. Belə ki, geri qayıtmaq üçün üzə-üzə çox məsafə qət etməli idi.

Əlbəttə, ki, qoca Nik çoxdan bu yerlərə qayıdıb. Amma o, Sommersetdə gözə görünmür ki, birdən Nəhənglə rastlaşar.

MƏLƏKLƏRİN LALƏSİ

Qədim zamanlarda ölkənin qərbində, Teyvi yaxınlığında bir ipək qarı yaşayırdı. Onun daxmasının dalında uzanan çəmənlikdə mələklər məskən salmışdılar. Çəmənlikdə yaşıl dairələr gözə dəyirdi. Çoxları deyirdilər ki, mələklər dayçaları tutur və dairəyə salıb çapırlar. Bunu adam deyirdilər ha! Amma qarı yamyaşıl dairələr haqqında başqa şey danışırdı.

Qarının səliqə-sahmanlı daxması qəşəng bağın ortasında yerləşirdi. Bağda gül gülu, bülbül bülbülü çağırırdı. Bağ ətirli qızıləül, lavanda, zanbaq, rozalin çiçəyi, qərənfil, şəbbu çiçəyi, yaddaş və sədəfotuyla doluydu. Bağdakı güllərin şahı iri bir ləkdə əkilmiş lalələr idi. Qarı lalələr üçün əldən-ayaqdan gedirdi. Lalələr qönçələnib çiçək açanda yoldan ötüb-keçənlər ayaq saxlayar, hasarın taxtaları arasından boylanıb lalələrə baxar, zövq alardılar.

Bu bağ mələklərin də sevimli yeri olmuşdu! Mehriban qarı da, bağı da onların çox xoşuna gəlirdi.

Günlərin birində ulduzlu, aydın bir gecədə pəncərənin qabağında ağ yasəmən çiçəkləyəndə qarı qəribə səslər eşidib yuxudan oyandı. Əvvəlcə qarıya elə gəldi ki, onu yuxudan oyadan qarağaçın budağına qonmuş bayquşun səsidir. Diqqətlə qulaq asıb anladı ki, səslər olduqca incə, nəvazişlidir. Bayquşun xırıltılı ulartısına bənzəmir.

«Ah, elə bil layla çalırlar!»- Qarı fikirləşdi və uzanıb bir müddət də səslərə qulaq asdı.

Sonra yorğan-döşəkdən durub, pəncərədən boylandı. Ayın nuruna qərq olmuş bağda lalələr başını zərif musiqi ilə həmahəng yırğalayırdıdar. Adama elə gəlirdi ki, lalələrin özləri oxuyurlar. Bəli, bu əhvalat bir neçə gecə təkrar olunandan sonra qarı nə baş verdiyini anladı. Mələklər öz körpələrini gətirib hərəsini bir lalənin çiçəkləri arasına qoyurdular. Gördüyü mənzərədən xoşhallanan qarı dilləndi:

- Belə de, mələklər öz körpələrinə laylay deyirlər. Şşş.. Sss... Aman allah! Mən onları görürəm! Bu saat körpələr yuxuya gedəcək və mələklər çəmənliyə əylənməyə cumacaqlar.

Belə de oldu. Mələklər çəmənlikdə dövrə vurub, musiqi sədaları altında yallı getməyə başladılar. Ot üstündə yaşıl dairə əmələ gəldi. Dan yeri qızarmağa başlayanda mələklər qayıdıb lalələrin ləçəkləri arasından körpələrini götürdülər. Onları ehmalcla quçaqlarına alıb qeyb oldular.

- İlahi! görməsəydim, heç vaxt inanmazdım! Bu zərif ilahi varlıqlar öz körpələrini beşikdən götürməzdən qabaq onları öpüş selinə qərq edirlər!- qarı

heyrətləndi.- Körpələrini nə çox sevirlər! Mələklər nə qəribə məxluqlarmış.

Bağdakı başqa güllərdən fərqli olaraq, lalələrin gec solmağı qarının nəzərindən yayınmadı. Doğrudan da, elə bil lalələr heç vaxt solmayacaqdı. Bir dəfə əyilib diqqətlə lalələri nəzərdən keçirən qarı hiss etdi ki, mələklərin nəfəsi dəymiş çiçəklər pardaqlanıb daha da füsunkar olub. İndi lalələr də qızıləül və zanbaq kimi məstediçi ətir saçırdı.

- Lalələrden bircəciyini qopardanın barmağını kəsərəm! Heç özüm də əl vurmaram,- qarı dedi.- Qoy lalələr mələklərin ruhunu oxşayıb qəlblərini fərəhlə doldursunlar.

Bu minvalla illər ötüb keçdi.

Bilirsiniz ki, ömür əbədi deyil. Vaxt yetişib vədə tamam olanda qarı da dünyadan köçdü. Həmin gün bağa kədər çökdu.

Lalələr boynunu əyib yasa batdı. Doğrudan da kədərli hadisə idi, çünki qarının vəfatından sonra bağ yad əllərə keçdi. Bağın yeni sahibini nə mələklər, ne də güllər maraqlandırırdı. O, bağı meyvə ağacları və giləmeyvələrə görə sevirdi. Qarağatdan və moruqdan elə dadlı piroq olurdu ki!

- Qarağatı yetişməmiş yığmayın,- qonşu xəbərdarlıq etdi.- Başınıza bəla açarsınız. Məhsulu yetişməmiş yığranda mələklər dilxor olurlar ha!

- Mələklər? Boş sözdur!- Bağ sahibi gülümsədi.

- Doğrudan lalələri qazıb atacaqsınız? - Başqa bir qonşu xəbər aldı.- Bu lalə ləkini qarı çox xoşlayırdı. Siz oraya nç əkəcəksiniz?

- Sizin üçün çox maraqlıdırsa, bilin, cəfəri əkəcəyəm.

- Cəfəri? Aman allah! Nə danışırsınız, məgər bilmirsiniz ki, cəfəri əksəniz, bədbəxtlik üz verər? Bir zamanlar cəfəri əkmiş adam haqqında mənə danışıblar. Deyirlər ki, cəfəri əkən o adam dərhal xəstələnib yorğan-döşəyə düşüb, bir də ayağa durmayıb. Bilirsiniz, ondan sonra bu yerlərdə heç kəs cəfəri əkməyə ürək eləməyibdir.

- Ağzınıza gələni danışmayın,- bağın təzə sahibi onları acıladı.

Sehrli lalələri yolub tökdü və onların yerində cəfəri əkdi. Lalələrin saralıb-solduğunu görən mələklər qəzəbləndilər. Lalələrin ləkində cəfəri bitmədi,

bütün bağsa quruyub xəzana döndü.

Bağdakı lalə ləkindən layalay səsləri kəsilsə də, qonşuluqda məskən salmış mələklər baş-başa verib oxuyurdu. Amma indi mahnı sədaları qarının məzarından gəlirdi. Bu çox kədərli, ələm dolu nəğmə idi və hər gecə ay çıxmamışdan qabaq eşidilirdi.

Qarının qəbrinə qulluq edən yox idi, bununla belə orada bir dənə də olsun alaq otu kök sala bilmədi. Bir zamanlar mələklərin lalələrinə qulluq edən qarının məzarına indi mələklər qulluq edirdi. Qarının məzarı başında heç kəs gül əkməsə də, burda onun çox sevdiyi gül-çiçəklər qol-budaq atmışdı. Onların arasında rozmarin, lavanda, şabbü çiçəkləri, sədəfotu göz oxşayırdı.

İnanmırsan inanma,
dərə keçdim, dağ aşdım,
Eşitdiyim nağılı -
necə vardı danışdım.

LUTEY VƏ SU PƏRİSİ

Təxminən yüz il bundan əvvəl haradasa, Lizard Poynt tərəflərdə Lutey adlı bir kişi yaşayırdı. O vaxtlar Korantin adlanan mahalda Luteyin bir neçə akr* torpaq sahəsi vardı. Bir yay axşamı torf yığmaq üçün gündəlik normanı yerinə yetirən Lutey uçurumun kənarında dayanıb baxdı və dənizin dalğasız quzu kimi sakit olduğunu görüb aşağı düşdü. Dalğaların döyəcləyə-döyəcləyə sahilə atdığı taxta parçalarından tapmaq ümidilə qumlar üstündə gəzib-dolaşdı. İllərdən bəri Lizard torpaqları allahın bəxş etdiyi bol məhsula həsrət qaldığına görə mızıldanıb taleyindan şikayətləndi.

Qumlu sahildə heç nə tapmayıb evə getmək istəyəndə, Lutey nəğməyə bənzər zumzuma eşitdi. Zümzümə həm həzin qadın naləsinə, həm də uşaq qırıltısına bənzəyirdi. Deyəsən, səs dəniz tərəfdən gəlirdi. Dayanıb qulaq

* akr – 0,4 hektar

asmağa başlayan kimi qədim Kornuel nəğməsinin özləri qulağına gəldi:

Karvan-karvan gəmilər
Balıqla dolu gələr.
Atar-tutar küləklər
Yeyilər siyənəklər -
Dadlıdır, ləzzətlidir
Qızıldan qiymətlidir.

Eşitdiyi zümzüməyə tərəf addımlaya-addımlaya Lutey gəlib suyun altında qalan bir neçə qaya parçasının yanına çıxdı. İndi dəniz sakit-sakit uyuyur, həmişə qaya parçalarının sinəsinə çırpılan dalğalar uzaqlarda mürgü döyürdü. Qaya parçalarının dənizə sarı baxan tərəfinə keçən Luteyin gözlərinə heç vaxt rast gəlmədiyi ay parçası kimi bir qadın göründü. Qadının yalnız başı və çiyinləri görünürdü, çünki əndamının qalan hissəsi qaya parçaları arasında bitmiş dəniz otlarının arasında gizlənmişdi. Onun sarışın saçları çiyinlərindən tökülüb suyun üstündə dənizə düşmüş günəş şüaları kimi bərq vururdu.

Qadının dərisi zərif cilalanmış güzgü kimi idi. İlahi varlıq məlul-məlul dayanıb kədər dolu malahatli mahnısını hələ da zümzümə edir va gözünü zi:llajib getdikçə sahildan uzaqlaşıb əlçatmaz olan ləpələrə baxırdı. Lutey dayandığı yerdən tərpənməyib heyran-heyran qadına tamaşa edirdi. Qadına təskinlik vermək istəyirdi, lakin bilmirdi nə desin. Özünu qəfildən göstərməyə ürəyi gəlmirdi. Qadını hürküdəcəyindən qorxurdu. Odur ki, yaxına gəlməzdən qabaq öskürüb onun diqqətini cəlb etdi.

Ətrafa göz gəzdirib Luteyi görən qadın yanıqlı nalə qoparıb şümal qaya parçasından aşağı sürüşdü, dəniz otlarının arasında bədənini gizlətdi, yaraşıqlı başı sudan bayırda qaldı.

- Getmə, bir dayan, mənim mələyim, bu görkəmdə hara gedirsən?- Lutey dilə gəldi.- Məndan qorxub çəkinmə. Onsuz da mən sakit, evli adamam, otuza yaxın da yaşım var. Paltarlarını itirmisən? Bu ətrafda gözümə dəymir! Bura

bax, pəri, sənə təskinlik vermək üçün mən nə etməliyəm? Mənim qumrum, heç vaxt sənin xətrinə dəymərəm.

Lutey azca irəli getdi. Ovsunlanıb gözəl varlıqdan gözlərini çəkə bilmədi. Eşitdiyi nəvaziş dolu sözlərdən kefi durulan qəşəng qadın ağlamağını kəsdi. Başını qaldırıb Luteyə baxdı. Gözləri qaranlıq gecələrdə sayrışan ən parlaq ulduzlar kimi alışıb-yandı.

Lutey qaya parçasının qırağına yaxınlaşıb suyun içinə baxdı. Ləpələnən dəniz otlarının arasında sağa-sola yellənən balıq quyruğunun üzgəcləri gözünə dəydi.

Başa düşdü ki, gördüyü gözəl su pərisidir. Aylı gecələrdə tez-tez su üzünə qalxıb zümzümə edən pərilərə rast gəlsə də, heç vaxt onlara belə yaxından tamaşa etməmişdi.

- Yaxşı, ay dənizlərin gözəl pərisi,- Lutey dilləndi.- Sənin̂çün bəs mən nə edim? İnsafa gəl, bir kəlmə söz de yox əgər mənim dilimi anlamırsansa, eybi yoxdur, əlinlə işarə et.

- Ey gözəl, mehriban insan,- pəri dil açdı.- Biz dəniz məxluqları bütün dilləri başa düşürük, çünki biz bütün ölkələrin sahillərinə səfər edirik. Yer üzünün bütün tayfaları bizim səltənətə tabedir. Bundan başqa bizim qulağımız darı dəlir, əzizim, biz dalğaların qoynunda uzaqlarda olanda belə, sahildə nə danışıldığını çox yaxşı eşidirik. Bəlkə mənim lüt vücüdümü görüb, qorxuya düşmüsən hə? Axı sizin qadınlar kimi bürümək bizim dalğalar qoynunda əylənməyimizə mane olur.

- Xeyr, gözümün işığı, səni paltarsız görmək məni heç də qorxuya salmır,- Lutey cavab verdi və bir az da qadına yaxınlaşdı.- Bura bax, gözəlim, əndamını daha suda gizlətmə. Qalx yuxarı, daşın üstündə otur, dərdini mənə söylə.

Su pərisi sudan çıxdı, qaya parçasının kənarında əyləşdi və üzünə tökülmüş qızılı tellərini geri atdı. Lutey gördü ki, pərinin uzun gur saçları bədənini göz qamaşdıran qızıl paltar kimi bürüyüb. Bir az sonra su pərisi ah çəkib dilə gəldi:

- Ah, mən olduqca bədbəxtəm. Ay xeyirxah adam, sənə məlum olsun ki, üçcə saat bundan əvvəl mən yumşaq, zərif dəniz çiçəklərindən düzəldilmiş çarpayıda ərimi yatmış, uşaqlarımı onun yanında şıltaqlıq edən qoyub çıxmışam. Böyük uşağa tapşırmışam ki, atasından göz-qulaq olsun ki, ilbizlər və dəniz xərçəngləri atalarının burun-qulağına doluşub istirahətini pozmasınlar. Ehtiyatlı olun ki, onlara dedim.- yengəclər atanızın quyruğunu sancıb onu yuxudan oyatmasın. Mən sizinçün şama bir şey əldə etməkdən ötrü çıxıb gedəndə özünüzü yaxşı aparsanız, qayıdanda bir neçə qəşəng xırda delfin və suiti gətirəcəyəm ki, onlarla oynayasınız. Amma - pəri sözünə davam etdi.- Bütün bunlara baxmayaraq qorxuram ki, mən evə qayıdanacan kişi yuxudan oynayıb yeməyə bir şey istəsin. Gərək mən dalğaların sahildən çəkilib uzaqlaşmasına fikir verəydim. Mən isə səfeh kimi burda dayanıb, suya düşmüş əksimə nazlana-nazlana tamaşa edir və saçlarıma dolaşmış dəniz otlarını, xərçəngləri, əqrəbləri və yengəcləri dağayıb yerə tökürdum. Başım özümə qarışdığına görə suyun sahildən çəkilib getməsindən xəbərim olmayıb. Başımı qaldırıb ətrafa baxanda dalğalarla mənim aramda quru qumdan sədd əmələ gəldiyini gördüm.

- Heç bu qədər narahat olmağa dəyərmi, gözümün işığı?- Lutey soruşdu.- Sən burada gözləyə bilməzsənmi? Əgər gözləyə bilsən, dalğalar qayıdıb sahilə gələnə kimi mən də burda sənə qulaq hayanı olaram. Dalğalar qayıdıb gələn kimi üzüb evə gedə bilərsən.

- Eh, əlbəttə, gözləyə bilmərəm,- su pərisi cavab verdi.-Mən dalğalar qayıtmazdan əvvəl evdə olmaq istəyirəm. Əgər qayıda bilməsəm, ərim və dəniz məxluqlarının hamısı yuxudan oynayıb, şam yeməyi axtaracaqlar. Sən inana bilməzsən ki, onlar yuxudan durunca mən beş-altı kefal balığı, iyirmi-otuz skumbriya ilə evdə olmasam və onun xaşal qarnını doydurmasam, o, gözəl-göyçək uşaqlarımızın bir neçəsini basıb yeyəcək, çünki onun iştahası itidir. əgər qarınqulu atalar qəşəng balalarını yeməsəydilər, indi dənizdə tritonların, su pərilərinin kürü kimi sayı-hesabı olmazdı. Eh, mənim iyirmidən artıq əziz Ciyərparam onun qaban dişlərinin arasından keçib həmişəlik işıq üzünə həsrət

qalıb.

Su perisi ah çekib qəmli gözlərini iki quyruqlu insana zillədi.

- Ah,- o, sözünə davam etdi,- mənim də sənin kimi iki quyruğum olsaydı, dünyanı məndən istəsələr əsirgəməzdim. Əgər iki quyruğum olsaydı, könlüm istəyəndə sahilə çıxar, dalğaların qoynundan seyr etdiyim qəribə, gözəl varlıqlara yaxından tamaşa edərdim. Əgər indi sən yaxşılıq edib məni aparıb dalğaların qoynuna atsan, ürəyindən keçən hər hansı üç arzunu yerinə yetirərəm.

Bu sözləri deyib su pərisi saçlarına taxdığı sədəf dəstəkli qızıl darağı çıxartdı. Luteyə verib dedi:

- Buyur əzizim, götür bu darağı, mənim sənə olan sedaqətimin nişanəsi kimi özündə saxla; Yaxşı-yaxşı yadında saxla, çətinliyə duşsən, bu darağı üç dəfə dənizin suyuna çek və məni səslə. Mən o saat sahilə sənin hüzuruna gələrəm. Mənim adım Məci Ficidir. Su pərisinin həzin fleyta melodiyasına bənzər səsi Luteyi elə sehrləmişdi ki, o dayanıb su pərisinə qulaq asır, onun dəniz kimi mavi gözlərinin içinə baxırdı. Tilsimə düşmüş adamlar kimi su pərisinin xatirinə hər şey etməyə hazır idi. Odur ki, Lutey aşağı əyilib, su pərisini qucağına aldı ki, dənizə apara bilsin.

O, qüvvətli gənc olduğuna görə su pərisini sol qolunun üstə asanlıqla tutmuşdu. Su pərisi burulub gövdəsini Luteyin boynuna qarmaq kimi keçirtmişdi. Onlar bu vəziyyətdə qumun üstü ilə bir neçə dəqiqə yol getdilər. Sonra Lutey su pərisindən nə istəyəcəyini götür-qoy etdi. Belə bir xoşbəxtlik müyəssər olmuş bir kişidən eşitmişdi ki, o nəyə toxunsa, onun qızıla çevrilməsini arzulamış və bu səfeh arzunun ucbatından başına olmazın müsibətlər gəlmişdi. Başqaları da belə xudpəsənd arzuların qurbanı olmuşdu.

- Bir az tez ol, xeyirxah adam,- su pərisi Luteyi fikirdən ayırdı.- Daha vaxt itirmə, de görüm hansı üç arzunun yerinə yetirilməsini istəyirsən? Uzun ömür, güc-qüvvə, bir də var-dövlət istəyirsənmi?

- Xeyr, istəmirəm,- Lutey cavab verdi.- Mən istəyirəm ki, qonşularıma yaxşılıq edə bilim, cadugərlərin tilsimini sındırmağa qadir olum, ikincisi,

xəstəliklərin kökünü kəsə bilim, ücüncüsü, bu ilahi vergi nəslimə əbədilik verilsin.

Su pərisi söz verdi ki, Luteyin nəsli bu vergiyə əbədi sahib olacaq, çox alicənab arzular dilədiyi üçün onun nəsli, heç vaxt heç nəyə möhtac olmayacaq.

Onlar dənizin ləpələrinə çatmaq üçün hələ xeyli getməli idilər. Yolu asta-asta getdiklərinə görə su pərisi dənizin dibindəki əzəmətli səltənətdən və sürdükləri xoş dövrandan ağız dolusu danışdı.

- Bizim sərin kahalarda ürəyimiz istəyən hər şey var. Bundan başqa, yaşayış yerlərimizin divarları mərcanla, kəhraba ilə bəzədilib, hər cür ətri olan dəniz güllərinə bürünüb. Mənzillərimizin döşəməsinə sədəfdən naxış salınıb damlarımıza döşənmiş almazlar və başqa daş-qaşlar elə bərq vurur ki, onların şəfəqi bizim dərin mağaraları süd kimi işıqlı edir.

Luteyin bonyunu iki əlilə bərk-bərk qucan su pərisi sözünə davam etdi:

- Gedək mənimlə, məhəbbətim mənim, su pərilərinin iqamətgahının əsrarəngiz gözəlliyinə tamaşa elə. Bizim salonların, mənzillərin gözoxşayan naxışları, bəzək-düzəyi yer üzünün əşrəfi olan insanın oğul-qızlarıdır. Onları bizim məskənlərə küləklər dalğalar batmış gəmilərdə sovqat göndərir. Gedək, sənə məlhəm çəkilib mumyalanmış minlərlə elə yaraşıqlı insan bədəni göstərərəm ki, onlar sağlığında olduğundan da gözəl görünürlər. Biz onları yalnız məlum seçmə duzlar, nadir edvələr vasitəsilə bu şəklə salırıq. Sən onları kəhrəbadan, mərcandan və sədəfdən düzəldilmiş çarpayılarda şirin-şirin yatan görəndə heyrətdən donacaqsan. Bəli, bəli, onların əzalarına bənd edilmiş gözqamaşdıran daş-qaşların dalğaların təzyiqi ilə sağa-sola asta-asta yelləndiyini görəndə sənə elə gələçək ki, onlar diridirlər.

- Şübhəsiz ki, bunlar hamısı çox gözəldir,- Lutey cavab verdi,- amma gözəl pərim, mən istərdim ki, sizin məkanda bir neçə rom çəlləyi tapım. Yəqin ki, belə şeylər batmış gəmilərdə sizə tez-tez qismət olur. Bir de görüm, sizin məkana gəlib düşən əla likörü, tütünü və başqa gözəl şeyləri neynəmisiniz?

- Hə, əlbəttə,- su pərisi cavab verdi,- konyak, rom, şərab və araq

çelləklərini görəndə sevincindən ürəyin sinənə sığmayacaq. Biz onları yığıb saxlayırıq, hərdən içib qarnımızı qızışdırırıq. Amma sənin üçün ürəyin istəyən qədər içki tapılar. Di gedək!

Lutey dedi:

- Sənlə getməkdən ötrü lap ürəyimin başı göynəyir. Bəs mən dalğaların altında qalıb boğulmarammı?

- Belə şeyləri ağlına da gətirmə! Sən bilirsən ki, biz, dəniz pəriləri hər cür möcüzə yaratmağa qadirik. Beş dəqiqəyə sənincün bir cüt elə qəlsəmə düzəldərəm ki, balıq kimi suyun dibində xətrin istəyən qədər yaşaya bilərsən. Yaraşıqlı sifətinin gözəlliyinə heç bir xələl gəlməyəcək, çünki çənənin altından açacağım uzun kəsikləri saqqalının və bığlarının tükləri ört-basdır edəcək. Bundan başqa, elə ki, səni maraqlandıran hər şeyi gördün, yaxud da suyun dibində mənə yoldaş olmaq səni bezdirdi, qayıdıb quruya çıxa bilərsən və bizim dəfinələrdən könlün istəyən qədər özünlə götürərsən.

Belə şirin söhbətlərlə vaxt tez ötüb keçdi. Lutey su dizlərinə çıxanacan dənizə girib, su pərisini dalğaların qoynuna buraxdı. Su pərisinin cazibədər gözəlliyinə valeh olan Luteyi onun səsindəki məlahət elə ovsunlamışdı ki, o, su pərisilə birgə dalğalara baş vurmağa hazır idi. İnsanın tora düşdüyünü duyan su pərisinin zümrüd kimi mavi gözləri şövqlə par-par parıldadı.

Bir az sonra xəlvətcə Luteyi izləyən iti elə bərkden hürüb zingildədi ki, sehrlənmiş Lutey dönüb ətrafa nəzər saldı, bacasından burula-burula çıxan tüstünü, örüşdəki inəkləri, gözoxşayan alyaşıldan don geymiş düzləri gördü və su pərisinin nermesinin tilsimi sındı. Su perisinin möhkəm-möhkəm sıxılmış qolları arasından çıxmağa uzun müddət çalışsa da, faydası olmadı. Su pərisinin axçalı bədəninə və balıqvari quyruğuna nifrət dolu nəzər salıb, vahimə içərisində gücü gəldikcə bağırdı:

- Ey adamlar, allah xatirinə, məni bu lənətə gəlmiş məlun balığın əlindən xilas edin!

Sonra Lutey düşdüyü vəziyyətdən qurtarmaq üçün silkələndi, sağ əli ilə kəmərindəki bıçağı cəld qapdı, parlaq polad tiyəsini su pərisinin gözləri

önündə yellədib qışqırdı:

- Allaha and içirəm, əgər qollarını mənim boynumdan açmasan, quyruğunu qıçlarımdan aralamasan, xirtdəyini bıçaqla üzüb, dartıb ürəyini bayıra çıxararam.

Parıldayan poladı (deyilənə görə, polad tilsimə əks təsir göstərir) görən kimi su pərisi Luteyin boynundan açılıb şappıltı ilə suya düşdü. Hələ də gözlərini Luteyden çəkməyən su pərisi şikayət dolu səslə oxuya-oxuya üzüb uzaqlaşdı.

- Əlvida, sevəilim, düz doqquz il keçər, sonra mən yenə də sənin dalınca gələrəm. Hava qaralanacan Lutey güclə sürünə-sürünə dənizdən çıxıb, uçurumun yanındakı sığınacağa çatdı. O bu sığınacaqda həmişə bir neçə şüşə likörü quma basdırar, üstünə daş, yaxud da taxta parçası qoyub elə edərdi ki, oraya heç vaxt su dəyməsin. Yorulub taqətdən düşmüş Lutey dirçəlib cana gəlmək üçün cibindən bir burğu çıxartdı, eşib likör şüşəsinin tıxacında deşik açdı. Boru kimi içi boş quş lələyini deşiyə taxdı və bir qədər likör içdi. Sonra uzanıb köhnə yelkənli qayıqların arasında yuxuya getdi.

Bu vaxt madam Lutey çox narahat idi, sanki iynə üstündə oturmuşdu, əri şama evə gəlməmişdi. Onun sevimli əri heç vaxt şama gecikməzdi. həmin gün xanım Lutey ərinin ən sevimli yeməklərindən hazırlayıb, stolun üstünə düzmüşdü. Stolun üstündə Kornuel piroqu, böyrəkdən hazırlanmış pudinq, kişmiş və başqa çərəzlər var idi.

Nahar hazır olduqdan sonra ərinden xəbər-ətər olmadığı üçün madam Lutey aşağı düşüb, sığınacağa gəldi və ərini bərk yatmış gördü.

- Ey, Lutey, oyan!- qadın qışqırdı.- Şam yeməyi qalıb masanın üstündə, səni burda saxlayan nədir? Elimin içi kimi bilirəm ki, boğazından bir qurtum su da keçməyib!

Lutey dikəlib oturdu və ətrafa göz gəzdirib dedi:

- Elədir, allah haqqı, düz deyirsən.- Bəs mən indi haradayam? Sığınacaqda, yoxsa dənizin dibindəki səltənətdəyəm?

Sən sevimli Məcisənmi? Əgər sən Məcisənsə, mənə bir buynuz rom doldur

ver. Ancaq sən Məciye oxşamırsan ki!

- Əlbəttə, oxşamıram,- arvadı cavab verdi.- Mənim adım Ənn Beti Luteydir. Sənə daha nə lazımdır? Xəyalı ilə pərvaz etdiyin o qız haqqında mən heç nə eşitməmişəm.

- Onda qulaq as, əgər sən mənim arvadımsansa, anan namaz üstə imiş, yoxsa bu gecə sən dul, yazıq uşaqların isə yetim qalacaqdı.

Yolüstü o, sahildə qum üstündə qalmış su pərisini necə tapdığını arvadına söylədi. Aralarında olmuş söhbəti yerli-yataqlı danışıb, su pərisinin bağışladığı darağı arvadına göstərdi.

- Bilirsən,- Lutey dedi,- dostum Campın zingiltisi olmasaydı xəyaldan ayrılıb sahildən nə qədər aralandığımı hiss etməzdim. İndi çoxdan su pərilərinin iqamətgahında rom içir, ya da dənizin dibində onlarla köpək balığı ovlayırdım.

Lutey hər şeyi olduğu kimi söyləyib qurtarandan sonra arvadına ilan dili çıxarıb xahiş etdi ki, qonşulara bu haqda heç nə deməsin. Ola bilsin ki, qonşuların bəzisi onun qeyri-adi macərasına inanmayacaqdı. Amma bu xəbər hülqumu olmayan madam Luteyin beynini qurd kimi gəmirib sinəsini deşirdi. Odur ki, o, kəndi qarış-qarış gəzib girinə keçən bütün qarılara bu xəbəri məxfi sirr kimi pıçıldadı və söylədiyi əhvalata qarılar inansın deyə su pərisinin Luteyə bəxş etdiyi darağı dəlil kimi göstərdi.

Bu möcüzə haqqındakı xəbər iki həftənin içində yaxın uzaq ellərə yayıldı. Tezliklə caduya tutulub tilsimə düşmüş dəstə-dəstə adamlar kömək üçün Luteyin yanına gəlməyə başladılar.

Lutey su pərisindən ədəb-ərkanla ayrılmasa da, çox keçməmiş ona məlum oldu ki, su pərisi verdiyi vədə çox sadiqdir. Bir azdan aşkar oldu ki, Lutey hər hansı bir cadugərdən daha qabiliyyətlidir və tilsim açmaqda mahirdir. Amma Lutey su pərisinin bəxş etdiyi sehrbazlıq əməllərindən nadir hallarda istifadə edirdi.

Söz vaxtına çəkər, duz doqquz il bundan əvvəl Lutey su pərisini aparıb dənizə saldığı gün aylı bir axşamda Lutey və bir dostu dənizdə balıq

tuturdular. Hava durğun olduğuna görə dəniz mışıl-mışıl uyuyurdu. Axşamdan xeyli keçmiş onların qayığının yan-yörəsindən dəniz lərzəyə gəldi. Şaxə qalxan dalğaların ağ köpükləri üstündə bir su pərisi onlara yaxınlaşıb bədənini qurşağacan sudan bayıra çıxartdı. Su pərisinin qızılı saçları ətrafına səpələnib suda dalğalanırdı.

Lutey su pərisini görən kimi,- mənim son saatlarım gəlib çatıb,- dedi və özünü unudub, dənizə atıldı. Bir xeyli su pərisi ilə yanaşı üzdükdən sonra hər ikisi suda batıb görünməz oldu və dəniz yenə əvvəlki kimi sakitləşib quzuya döndü.

Luteyin meyiti tapılmadı ki, tapılmadı. Luteyin xələfləri doqquz ildən sonra dənizdə bir məzara rast gəlidlər. İllər keçib nəsilər dəyişsə də, Luteylər tayfası bu gün də qabiliyyətli türkəçəra biliciləri kimi bütün Kornvolda məşhrdurlar. Onlardan biri bu günəcən su pərisinin darağını hifz edib saxlayıb. Amma bəzi bedguman adamlar belə hesab edirlər ki, o, daraq deyil, kəpək balığının çənəsinin bir parçasıdır.

ZENNORLU ÇERRİ

Qoca Hani arvadı və uşaqları ilə birlikdə Trifinin qayalıq hissəsi olan Zennorda üç kiçik otaqdan ibarət bir mənzildə yaşayırdı. Haninin altı uşağı vardı. Qoca Haninin ailəsi əllərində olan bir neçə akr torpağın hesabına birtəhər başlarını dolandırırdı. Amma torpaq da münbit torpaq deyildi və çox az məhsul verirdi.

Haninin evinin yan-yörəsi ora-bura səpələnmiş balıqqulağılarla dolu idi. Adama elə gəlirdi ki, bu evdəkilər yalnız balıq və dəniz ilbizləri yeyirlçr. Lakin bu mənzildə bəzən balığı kartofla yeyir, bazar günləri isə donuz əti ilə şorba da bişirirdilər.

Milad və pasxa bayramlarında Haninin ailəsi ağ çörək de yeyirdi. Bütün mahalda qoca Haninin övladları kimi sağlam və zorba uşaqlar yox idi.

Haninin qızı Çerri dovşan kimi ayıq və çevik idi. Çerrinin işi-peşəsi dəcəllik və şıltaqlıq etmək idi.

Tutaq ki, dəyirmançının oğlu şəhərə gəlib atını gavalı ağacına bağlasa, ağzını açıb dəyirmana dən aparanları səsləməyə macal tapmamış Çerri bir göz qırpımında sıçrayıb onun atının belinə minər və dördnala qayalara Doğru çapardı. Dəyirmançının oğlu da Çerrinin dalınca götürülüb onu təqib edərdi. Sıldırım qayaların ətəyində o, Çerriyə çatanda qız cəld özünü atdan yerə atar və qaçıb elə bir qayaya dırmanardı ki, oraya nəinki dəyirmançının oğlu, heç ov tulası da çıxa bilməzdi.

Çerri boy atıb böyük qız oldu və dərdi-qəmi çoxaldı. Düz bir il idi anası vəd edirdi ki, ona yaxşı bir don alacaq. Çerri donu geyinəndə heç kəsdən geri qalmayacaq. İş burasında idi ki, heç vaxt evdə kifayət qədər pul tapılmır və Çerriyə yaxşı don almaq qismət olmurdu. Odur ki, Çerri nə bazar dükana, nə kilsəyə, nə də gəzintiye gedə bilmirdi.

Vaxt ötüb keçdi və Çerrinin on altı yaşı Tamam oldu. Çerrinin rəfiqəsinə qəşəng bir don bağışladılar. Bir gün Çerrinin rəfiqəsi gözəl donunu geyinib Nankledri kilsəsinə ibadətə getdi və evə qayıdanda onu ötürmək istəyən pərəstişkarlarının sayı-hesabı olmadı. Çerri tamam başını itirdi, heç cür rahatlıq tapa bilmədi. Bir gün anasına bildirdi ki, çıxıb Toudnak və Zennor vadilərinə iş axtarmağa getmək istəyir. İşdir, əgər onu qulluqçu götürsələr, o da başqa qızlar kimi qəşəng paltarlar geyinə bilər.

- Gedirsənsə, Toudnak vadisinə get ki,- anası məsləhət verdi,- heç olmasa bazar günləri sənə baş çəkə bilək.

- Bilirsiniz,- Çerri dedi.- Orda inəklər zınqırovlu kəndirləri çeynəyib udur, ara günləri adamlar balıqla kartof, bazar günləri isə ankvil ətindən piroq yeyirler.

Bir günəşli səhər çağı Çerri şeylərini qablaşdırıb yola hazırlaşdı. Atasına söz verdi ki, doğma yurdlarının yaxınlığında qulluqçuluq edəcək və imkan düşən kimi evə qayıdıb gələcək.

Özünü dənizçilərdən və quldurlardan gözləməyi qızına tövsiyə edən qoca

xeyir-dua verib Çerrini allaha tapşırdı.

Çerri Ludqvan və Qulvaldan keçib getməli idi. Tririn sobalarının bacalarında burula-burula ərşə yüksələn tüstü görünməz olub gözdən itəndə Çerrinin canına vicvicə düşdü. Dönüb geri qayıtmaq istədi, ancaq məcburən, qorxa-qorxa yoluna davam etdi.

Ledi Daunzda dörd yol ayrıcına çatan kimi bir daşın üstündə oturub evlərini bir də haçan görəceyi haqda fikirləşib hönkür-hönkür ağladı. Ağlayıb ürəyini boşaldandan sonra durub dərhal evə qaçmaq istədi. Göz yaşlarını silib başını yuxarı qaldırdı və özünü itirib çaşbaş qaldı; duz ona tərəf bir centlmen gəlirdi. Görəsən, bir dəqiqə bundan əvvəl bir ins-cins gözə dəyməyən bu yerdə centlmen necə peyda olmuşdu?

Centlmen ədəblə salam verib Toudnaka gedən yolu xəbər aldı və Çerrinin haraya getdiyi ilə maraqlandı.

Səhər-səhər iş axtarmaq niyyətilə evdən çıxdığı və səbri tükəndiyindən Zennora, evlərinə qayıtmaq istədiyini centlmenə söylədi.

- Səni allah mənə özü yetirib,- centlmen həyəcanla dilləndi.- Səhər tezdən evdən çıxıb yaxşı təmizkar bir qız axtarıram ki, mənim təsərrüfat işlərimə və ev-eşiyimə baxsın. İndi budur, sən gəlib mənim urcahıma çıxmısan.

O, Çerriyə bu yaxınlarda özünün dul, yaraşıqlı oğlunun da anadan yetim qaldığını söylədi. Sonra centlmen əlavə edib dedi ki, Çerri onun oğlunun qulluğunda dura bilər və ümumiyyətlə ona yaraşır, çünki Çerri qamətli və gözəl qızdır. Donunu çox gözəl səliqə ilə yamayıb. Gül kimi çöhrəsi, qar kimi ağ zərif dərisi var. Zavallı Çerri deyilənləri anlamadan qızarıb-bozarır, «bəli, cənab», deyə cavab verirdi.

Anası ona öyrətmişdi ki, ruhani atanı, yaxud da xeyirxah cənabların sözləri başa düşmək çətin olduğuna görə həmişə «bəli, cənab», deyə cavab vermək lazımdır. Centlmen Çerriyə söylədi ki, o, qonşuluqda yaşayır. Çerrinin işi inəyi sağmaq və uşağın qayğısına qalmaq olacaq. Çerri onunla razılaşdı.

Yolda centlmen Çerri ilə o qədər mehriban danışırdı ki, qız vaxtın necə ötüb-keçdiyini hiss etmədi.

Xeyli yol gedəndən sonra onlar bir xiyabana sarı buruldular. Xiyaban başdan-başa ağaclarla dolu idi. Cığıra sanki qeyri-adi günəş işığı düşmüşdü. Göz işlədikcə yalnız çiçəklər 1m çatir barlamış budaqlar görünürdü. haBadaH

DOqquzdon kollarının va itburnu çiçəklərinin xoş ətri gəlirdi. Budaqlardan sallanan dəymiş alyanaq almalar adama «gəl-gəl» deyirdi.

Onlar gəzə-gəzə suyu büllur kimi şəffaf bir çayın kənarına gəlib çıxdılar. Çayı keçmək lazım idi. Artıq qaranlıq düşmüşdü. Çerri çayı gecə bilməyib ayaq saxladı. Centlmən Çerrinin belindən yapışıb o biri sahilə keçirtdi. Çerrinin ayaqları da suya dəymədi.

Xiyabana çökmüş qaranlıq getdikcə qatılaşırdı. Adama elə gəlirdi ki, onlar bir azdan təpənin ətəyinə çatacaqlar. Centlmenin qolundan bərk-bərk yapışmış Çerri düşünürdü ki, belə alicənab kişinin dalınca dunyanın o başına da getmək olar.

Bir qədər de yol qət etdikden sonra Centlmen darvazaları açıb gözoxşayan bir bağa girdi və dedi:

- Budur, əzizim Çerri, mən burada yaşayıram.

Çerri gözlərinə inanmadı. Bağ cənnətə bənzəyirdi. Çerri ömründə belə gözəl bağ görməmişdi. Bağın hər tərəfi rəngarəng gül-çiçək idi. Ağaclardan dadlı meyvələr sallanmışdı. Budaqlara doluşmuş quşlar şaqraq səslə cəh-cəh vururdu. Çerri heç vaxt belə gözəl və lətafətli melodiya eşitməmişdi.

Birdən nənəsinin haçansa haqqında söhbət açdığı tilsimlənmiş yerlər yadına düşdü. Olmaya, bu bağ o yerlərdən biri idi? Ola bilməzdi, çünki centlmen boy-buxunundan kənd kilsəsinin keşişinə oxşayırdı. Həm də bağın o başından xırda bir oğlan uşağı «Ata, ata!» qışqıraraq centlmənə tərəf qaçdı.

Uşaq lap körpəydi. İki-üç yaşı ancaq olardı. Amma yerişindən, duruşundan uşağa oxşamırdı. Xırdacana gözləri alışıb yanır, hiyləgər baxışları adamın batininə sirayət edirdi.

- Eh, sənin baxışların kimi desən çaşdıra bilər!- Çerri dilləndi.

Lakin Çerri oğlanla söhbət etməyə imkan tapa bilmədi, çünki sümükləri çıxmış eybəcər bir qarı peyda olub oğlanın əlindən yapışdı və hədələyici sözlər

donquldaya-donquldaya dartıb oğlanı evə apardı.

Otağa girməzdən əvvəl iyrənc qarı çevrilib zəhmli baxışlarla Çerrini təpədən dırnağacan süzdü.

Çerrinin bir az qorxub-çəkindiyini hiss edən Centlmen izah etdi ki, qarı mərhum arvadının nənəsidir. Qarı qocalıb əldən düşməsinə baxmayaraq çox hikkəlidir. Sonra ev sahibi sözünə davam edib bildirdi ki, Çerri ev işlərinə öyrəşən kimi qarının ayağı bir də oraya dəyməyəcək.

Çerri bağı seyr edənden sonra onu evə dəvət etdilər. Otaqlara tamaşa edən Çerrinin heyrətdən gözləri bərələ qaldı. İlahi, otaqlarda daha hansı güller yox idi!

Otaqlara günəş düşməsə də, sanki hər şey günəş şüaları altında bərq vururdu.

Trudens nənə - qarının adı belə idi - bir göz qırpımında stolun üstünü mümkün olan hər cür ləziz təamla doldurdu və Çerri doyunca yedi. Sonra Çerrini yuxarıya, uşağın və onun çarpayısı qoyulmuş yataq otağına apardılar. Trudens Çerriyə məsləhət gördü ki, yata bilməsə də, gözlərini yumsun, yoxsa gözlərinə elə şeylər görünər ki, qorxudan ağlını itirə bilər. Gecələr Oğlanla danışmaq olmaz. Dan yeri yeri söküləndə Çerri yuxudan durub oğlanı bağdakı bulağın yanına aparıb yuyundurmalı, yarğanda gizlədilmiş büllur qutudakı məlhəmdən oğlanın gözlərinə çəkməli, özü isə heç bir vəchlə bu məlhəmdən istifadə etməməlidi.

Daha sonra Çerri inəyi haylayıb gətirməli, bir vedrə süd sağmalı, südün üzünü parça yığıb səhər yeməyi üçün oğlana vermeli idi.

Hər şeyi bilmək həvəsi Çerrini dinc buraxmırdı. Bu həvəs Çerrinin içini qurd kimi gəmirsə də, o, bir dəfə də olsun oğlana sual verməyə cürət etmemişdi. Amma oğlan hər dəfə Çerrini hədələyib deyirdi:

- Eybi yoxdur, mən hər şeyi Trudens nənəyə söyləyərəm.

Səhər tezdən Çerri əmrə müntəzir yuxudan oynayıb ayağa durdu. Oğlan Çerrini göz yaşı kimi dumduru çeşmənin yanına gətirdi. Çeşmənin saf suyu zərif mamır ve sarmaşıq basmış qranit qayaların arasından axıb gəlirdi. Çerri

oğlanı mafi-qayda ilə yuyundurub gözlərinə məlhəm sürtdü. Ancaq inək heç yerdə gözə dəyəməsə də, balaca oğlan inəyi mütləq haylayıb tapmağı Çerriden tələb etdi.

- Pru, pru, pru!- Çerri evlərində olduğu kimi inəyi səslədi.

Aman allah, ağacların dalından yaraşıqlı bir inək çıxıb irəlilədi və onların yanında ayaq saxladı.

Çerrinin barmaqları inəyin yelininə toxunan kimi süd fışqırdı və çox keçməmiş vedrə südlə doldu. Çerri parçı südlə doldurdu və oğlan südü birnəfəsə başına çəkdi. İnək dayandığı yerdən asta-asta uzaqlaşandan sonra Çerri evə qayıtdı öyrənsin ki, sonra nə etməlidir.

Trudens qarı Çerrini doyunca yedirdəndən sonra izah etdi ki, mətbəx işlərini görmək lazımdır. Yəni ki, süd bişirilməli, nehrə çalxanmalı, boşqablar ve parçlar qumla sürtülməlidir. Qarı sonra əlavə etdi ki, başqa işlərə Çerri burnunu soxmasın. Hara gəldi dürtülüb qapıları dartıb açmasın.

İkinci günün səhəri Çerri özünün adəti işlərini görərkən ev sahibi səsləyib onu bağa çağırdı ki, alma, armud toplamağa, soğan və kəvər leklərinin alağını etməyə kömək etsin.

Çerri, Trudens qarının nəzarətindən uzaqlaşmağa imkan düşdüyü üçün sevincindən atılıb-düşdü. Bir tez toxuyanda belə Trudens qarının bir gözü milləərdə, o biri isə Çerridə olurdu. Qarı arabir donquldanırdı:

- Mən elə belə də bilirdim ki, Robin Zennordan əlinə keçən gicbəsəri götürüb gələcək. Bu onların hər ikisi üçün əlverişlidir, çünki Robinin arvadını qara torpaq qoynuna çəkibdir.

Çerri bağda ev sahibi ilə çiyin-çiyinə işləyirdi. Növbəti ləkin alağını qurtaran kimi ağa razılıqla Çerrini busələrə qərq edirdi.

Bir neçə gün ötüb keçdi. Trudens qarı Çerrini evin indiyəcən görmədiyi başqa hissələrinə apardı. Onlar uzun və qaranlıq bir dəhlizlə getdilər. Çerri başmaqlarını soyundu və onlar şüşə döşəməli bir otağa daxil oldular. Həm otağın döşəməsi, həm də divarlardakı taxçalar oturaq vəziyyətdə daşa döndərilmiş böyük və balaca adamlarla dolu idi. Bəzilərinin qolu kəsilmiş,

bəzilərinin yalnız başı çiyinlərinin üstündə qalmış, bəzilərinə isə heç bir xətər yetirilməmişdi.

- Başımı kəssəniz də burdan o yana getməyəcəyəm,- Çerri etirazını bildirdi.

Əvvəl-əvvəl Çerriyə elə gəldi ki, ev sahibindən başqa bütün sakinləri liliputlar olan yeraltı bir ölkəyə düşüb, ancaq sonra başa düşdü ki, cadugərlər diyarına gəlib çıxıb və bu adamlar cadugərlərin mərhəməti ucbatından daşa dönüblər.

Belə şeylər haqqında Zennorda çox əhvalatlar eşitmiş Çerri bilirdi ki, bu xırda xilqətlər istənilən anda dirilib onu həzmi-rabedən keçirə bilərlər. Qarı irişə-irişə Çerrini qabağa itələyib dedi ki, küncdə dayanmış tabuta oxşar altı ayaqlı balaca qutunu sürtməyə başlasın. Öz əksini qutuda görənə kimi sürtsün. Çerri qorxaq qızlardan deyildi. Qutunu sürtüb parıldatmağa girişdi. Bu vaxt qarı həm əlində nəsə toxuyur, həm də Çerriyə nəzarət edərək ucadan əmr edirdi:

- Üç üç üç! Bərk-bərk sil cəld ol!

Çerri cidd-cəhdlə, var kücü ilə qutunu silərkən az qaldı ki, qutu yerə düşsün. Allah, sən özün saxla! Qutudan elə həzin, qüssəli bir səs gəldi ki, sanki səs axirət dünyasından gəlirdi. Çerriyə elə gəldi ki, bu dəqiqə daşa dönmüş məxluqların hamısı diriləcək. Bu fikirdən vahimələnən Çerri huşunu itirib şappıltı ilə yerə yıxıldı.

Səs-küyə sahibkar gəlib çıxdı. Çerrini qadaqan olunmuş otağa gətirən qarıya sahibkarın bərk acığı tutdu. Trudensi evdən qovdu. Çerrini qolları üstünə alıb mətbəxə apardı və urək damcıları verib qızı özünə gətirdi.

Başına nə gəldiyindən bixəbər olan Çerri bircə şeyi yaxşı xatırlayırdı ki, malikanənin yasaq edilmiş hissəsində nəsə qorxunc hadisələr baş verir.

Trudens qarı malikanədən qovulandan sonra bütün ixtiyar Çerrinin əlinə keçdi. Sahibkar Çerri ilə elə mehriban, elə nəvazişlə rəftar edirdi ki, günlərin necə keçib il olduğunu qız hiss etmədi.

Sahibkar bəzən uzun müddətə çıxıb gedir, qayıdanda isə vaxtının çoxunu

malikanənin yasaq edilmiş hissəsində keçirirdi.

Sahibkarın daşa dönmüş adamlarla necə söhbət etdiyini Çerri öz qulaqları ilə eşitmişdi.

Çerrinin hər şeyi vardı, lakin o, xoşbəxt deyildi. Çerri bu malikanə və onun sakinləri haqqında hər şeyi öyrənmək istəyirdi. Çerri guman edirdi ki, oğlanın gözlərinə qəribəlik və parlaqlıq verən yəqin ki, məlhəmdir. Ona çox tez-tez elə gəlirdi ki, oğlan Çerrinin görmədiklərini görə bilir. Çerri çox istəyirdi ki, məlhəmi öz üzərində sınaqdan keçirsin. Bu istək Çerrinin qəlbinə hakim kəsilib səbir kasasını daşdırdı!

Odur ki, bir səhər oğlanı yuyundurdu gözlərinə məlhəm çəkəndən və inəyi sağandan sonra Çerri oğlanı bağa gül dərməyə göndərib barmağının üçü ilə azacıq məlhəm götürdü və gözünün üstünə qoydu. O dəqiqə gözü alışıb-yanmağa başladı!

Çerri alışan gözünü yuyub təmizləmək üçün qayanın dibindəki gölün kənarına qaçıb gəldi. Və birdən... Çerri gördü ki, gölün dibində saysız-hesabsız xırda məxluqlar gülüb-oynaşır. Onların əksəriyyəti qadınlardır. Sahibkar da onların arasındadır və xırdalaşıb bapbalaca bir məxluq olub. Bir göz qırpımında hər şey Çerrinin gözləri önündə dəyişdi. Hara baxdısa gözünə sısqa xilqətlər göründü. Onlar yarpaqlarından almazlar sallanan güllərin arasında gizlənmiş ağacların budaqlarında yellənir, su otlarının əmələ gətirdiyi talalarda qaçıb hoppanırdılar. Bütün günü sahibkar sudan çıxmadı. Axşam isə Çerrinin həmişə gördüyü qamətli centlmen qiyafəsində atını səyirdib evə gəldi. Atdan düşüb tilsimlənmiş otağa girdi və tezliklə Çerrinin qulağına məftunedici musiqi sədaları gəldi.

Səhər tezdən sahibkar ova gedən adamlar kimi geyinib tazıları yanına saldı və çıxıb getdi. Gün batıb qaranlıq düşəndə evə qayıtdı və Çerrini saya salmadan öz otağına keçdi. Bu minvalla günlər bir-birini əvəz edirdi. Nəhayət Çerrinin səbri tükəndi. Qəsrdəki quyuya boylanıb sahibkarın cürbecür qadınlarla nəğmə oxuduğunu gördü. Qadınlardan biri şahzadə kimi geyinmişdi və tabutun qapağını əlləri ilə döyəcləyirdi.

Elə oldu ki, sahibkar sabahı gün meyvə dərmək üçün evdə qaldı. Çerri sahibkara kömək etməli oldu. Sahibkar adəti üzrə Çerrini öpüb oxşamaq istəyəndə Çerri onun sifətinə bir sillə çəkib dedi ki, qoy sahibkar suyun altında oynayıb-güldüyü özünə oxşar məxluqları qucaqlayıb öpsün.

Beləliklə sahibkar Çerrinin məlhəmdən istifadə etdiyini öyrəndi.

Qəlbini kədər sarmış sahibkar Çerriyə bildirdi ki, çıxıb evə getsin, çünki o heç kəsin onu güdməsinə razı ola bilməz. Trudens nənəni də evə dəvət etməli olacaq... Dan yeri sökülməmiş sahibkar Çerrini yanına çağırıb ona cürbəcür donlar və başqa şeylər verdi. Sonra qızın kəmərindən yapışıb, o biri əlinə fənər aldı və xahiş etdi ki, onun dalınca getsin.

Onlar uzun yollar aşıb, dağlardan keçib, xiyabanlardan və dar cığırlardan adlayıb axırda bir düzəngaha çıxdılar. Artıq hava işıqlaşmaq üzrə idi. Sahibkar Çerrini bağrına basıb öpdü və dedi ki, hər şeylə maraqlanıb özbaşınalıq etdiyi üçün cəzasını çəkməlidir. Amma buna baxmayaraq sahibkar vəd etdi ki, işdir, Çerri özünü yaxşı aparsa, onlar haçansa burada, Ledi Daunzda yenidən bir-birinə rast gələ bilərlər.

Bu sözləri deyib sahibkar yoxa çıxdı. Gün çıxıb günorta oldu. Ancaq binəvə Çerri tək-tənha daş üstündə oturub qaldı. Ətrafındakı cənnət-məkan bağdan əsər-əlamət qalmadı. Bağın yerində nəhəng bir bataqlıq əmələ gəldi. Dərdi sinəsində qövr edən Çerri uzun müddət beləcə oturub qaldı ve nəhayət, evə getməyi qərara aldı.

Valideynləri Çerrini çoxdan ölmüş hesab edirdilər. Odur ki, onlar qızı görəndə elə bildilər ki, o, ruhdur. Çerri başına gəlmiş sərgüzəştləri söyləyəndə ona inanan olmadı. Biçarə Çerri hər şeyi olduğu kimi dönə-dönə nəql edəndən sonra hamı ona inandı.

Deyilənə görə bu əhvalatdan sonra başına hava gəlmiş Çerri ömrünün son günlərinə kimi aylı gecələrdə Ledi Daunzda sahibkarı tapmaq umidi ilə gəzib-dolaşıb, amma sahibkara rast gəlmək bir də Çerriyə qismət olmayıbdır.

ÜÇ SƏFEH

Səlli Moqqinzin böyük qızı Meri Ceyn boy-buxunlu, gözəl-göyçək bir qız idi. O, özündən kiçik iki bacısı kimi qulluqçuluq etmirdi, evdəcə oturub səliqə-sahman yaratmaq üçün anasına kömək edirdi. Deyilənə görə Meri Ceyn çox təmizkar qız olmaqla bərabər, canını tənbəllik azarı almış müasir kifir xanımlar kimi işdən qorxmur, canına qəsd edib səhərdən-axşamacan paltar yuyurdu. Əgər desəm ki, reklam edilən paltaryuyan maşınlar, yuyucu tozlar və sair bu kimi şeylər çox yaxşıdır, buna inanın. Amma onu da bilin ki, elsiz iş getməz, hər şeyi paltaryuyan maşınlarla yuyub təmizləmək mümkün deyildir.

Nə başınızı ağrıdım, çox keçməmiş Meri Ceynin derdinden divanə olub yan-yörəsinə fırlanan iki-üç cavan peyda oldu. Amma Meri Ceynin xoşuna gəlib könlünu verdiyi Tom Çidli adlı gənc oldu. Tom Çidli cantıraq, kürən saçlı oğlan idi. O, bir qayda olaraq fermer Millerin ipə-sapa yatmayan dəlisov atlarını Bənqhəm yollarında səyirdə-səyirdə əhliləşdirirdi.

Bir gün Meri Ceyn adeti üzre evdə yır-yığış edərkən nəsə qəfildən ağlına bir şey gəldi. Meri kətilin üstünə çöküb önlüyünü başına atdı. Sonra oturduğu yerdə irəli-geri əyilib-durmağa başladı. Qorxusundan hıçqırıb içini çəkən Merinin az qaldı ürəyi partlasın.

- Allah, sən mənim qızıma bir az ağıl ver, - deyə ana heyrətdən bərələ qalmış gözlərini Meriyə zilledi. - Ay qız, nə iş görsən, xəbər ver ki, biz də bilək. Axı sənə nə olub?

- Ah, ana can,- Meri cavab verdi,- sən allah məni qınama, özümlə bacara bilmirəm! Axı, hərdən hamının başına məzəli fikirlər gələ bilər! Ana can, indi də mənim beynimə çox qəribə fikir gəlib. Bu neəə oldu, daha heç nə deyə bilmərəm. Bircə onu bilirəm ki, bir də gördüm oturub öz-özümə fikirləşirəm:

- Fərz edək ki, mən Toma ərə getmişəm. Bizim balaca bir oğlumuz olub. Oğlumuz oynamaq üçün çıxıb həyətdə ora-bura qaçır və...və - ağlına gətir ki, o, quyuya yıxılıb boğulur. Vay, ana can, bütün bunları fikirləşdikcə az qalır ki, ürəyim sinəmi yarıb bayıra çıxsın.

- Gic-gic danışma, Meri Ceyn! - ana qızının sözünü kəsdi, - mən həmişə ən böyük səfehlerden eşitmişəm ki, gərək tanrıya təpik atıb naşükürlük eləməyəsən! Xudaya, məni zinhara gətirən bu yelbeyin səfeh qızımla nə edim? Mən bilmək istərdim ki, sən mənasız «fərz edək»lərinlə nə demək istəyirsən! Lap tutaq ki, sən ərə getdin, balaca bir oğlun da oldu, quyuya yıxılası oldu!.. Allah eləməsin, allah eləməsin, doğrudan da günahsız körpə uşağın quyuya yıxılıb boğulmağı heç də yaxşı fikir deyil ha!..

Bu minvalla ana da o biri kətilin üstündə əyləşib qızı ilə mubahisəni davam etdirdi.

Elə bu dəm ata içəri girdi.

- Salam,- ata yanaşı oturub yerlərində qurcuxan ana-balaya diqqətlə baxandan sonra dilləndi,- salam, görəsən, mən öz evimdəyəm, yoxsa özgənin evində? Mən bilmək istəyirəm ki, bu nə hoqqadır çıxarırsınız? Olmaya pantomima göstərirsiniz? Yoxsa lal dili danışırsınız?

- Ah, ana can,- Meri hıçqırıb içini çəkdi,- atama sən de. Belə şeyleri söyləməyə, axı, mənim üzüm gəlmir.

- Yaxşı, ay kişi,- ana sözə başladı,- mən hər şeyi sənə nəql edərəm. Ancaq, sən allah, qızına acığın tutmasın. Əşşi, qızdır də, özü ilə bacara bilmir. Əzizim, özün bilirsən ki, hərdən hamının ağlına məzəli fikirlər gəlir. Bu gün də sənin qızının ağlına qəribə bir fikirşəlib. Belə ki, Meri həmişə olduğu kimi iş görərkən birdən öz-özünə fikirləşməyə başlayıb: «Tutaq ki, Meri Toma ərə gedib, onların balaca bir oğlu olub. Uşaq çıxıb həyətdə oynayanda, tutaq ki, quyuya düşüb boğulub».

- Çərənnəmə, arvad,- ata əl-qolunu ölçdü,-elə uydurmalar söyləyirsən ki, bişmim toyuğun da gülməyi gəlir. Ömrüm boyu ikiniz kimi səfeh xəyalpərvərə rast gəlməmişəm. Guman et ki, qız ərə gedib, bunu guman et, onu guman et... Bura bax, Tom heç qıza evlənməyi təklif edibmi? Əgər edibsə, bəs nə üçün toy etməyə heç tələsmir? Niyə Tom irəli durub bu haqda mənimlə bir kəlmə kəsmir? Bir dayan görüm, uşaq nə etmişdi? Quyuya düşüb boğulmuşdu? Bir işə bax ha, ümumiyyətlə günahsız balaca uşağın quyuya yıxılıb öl...öl...fikri adamı

yamanca dilxor edir ha!

Belə-belə işlər, əzizlərim, bilirəm ki, dediklərim sizin ağlınıza batmayacaq. Atanın kətil çəkərək onların yanında oturub hönkür-hönkür ağladığını görməsəydim, heç mən də inanmazdım!

Bax, elə bu dəmdə Tomun özü qapıdan içəri girdi! Yan-yana əyləşib naləsi ərşə yüksələn üç nəfərin kədərli çöhrəsi Tomu çaşbaş saldı. O, iflic adamlar kimi gözlərini onlara zilləyib yerindəcə dondu. Handan-hana Tom dilə gəlib:

- Bütün bunlar nə deməkdir? Mən dəlixanaya gəlib çıxmışam, yoxsa dəli yığıncağına düşmüşəm? Bəlkə mən?..

- Aman, ana can, dərdimizi sən ona söylə,- Meri dilləndi,- atama söyləyə bilmədiyim kimi, Toma deməyə də üzüm gəlmir.

Bəli, ana əhvalatı olduğu kimi başdan-ayağa Toma da nəql etdi. Ananın sözu ağzından qurtarmamış Tom bomba kimi partladı:

- Ay canım, mən ömrümdə sizin üçünüzdən də böyük səfehə rast gəlmişəmsə, qoy bundan sonra yuxu üzünə həsrət qalım! Allah, allah! Sən bir işə bax ha! «Tutaq ki, biz evlənmişik!» Əcəb işdir! Qız evində dambadurumdur, oğlan evinin xəbəri yoxdur! Meri, axı, mən heç toy gününü de sənlə təyin etməmişəm. Bu, arxı hoppanmamış hop deməkdir! Sizə mənim sözüm budur: hərdəmxəyal qızla evlənib səfehlərlə qohum olmaqdansa, mən ölənəcən subay qalmağı üstün tuturam. Çıxıb getməmişdən əvvəl onu da deyim ki, siz mənim gözlədiyimdən də artıq səfehsiniz. Tayınız-bərabəriniz yer üzünə hələ gəlməyib. Allaha and içirəm ki, bir de heç vaxt qapınıza ayaq basmayacağam.

Beləliklə, Tom qapını arxasınca çırpıb çıxdı. Yol uzunu öz-özünə hey deyinir, başı ağrıyan ayı kimi donquldanırdı.

- Bunlara bir bax, başıboş səfehlər,- Tom yana-yana mızıldandı,- vallah, bu cür üç səfehi əli çıraqlı gəzsəm də, heç vaxt tapa bilmərəm. Belə səfehlərə nə Dəndə, nə də Beyrşeybdə rast gəlmək mümkündur. Meri ilə mənimki daha tutmaz. Aramızda nə olubsa, bir daş altda, bir daş da üstdə, vəssalam!

Amma bir az keçəndən sonra Tomun hirsi yatıb başı ayazıdı. O, düşünüb-

daşındı ki, dünyada o qədər səfeh var ki, saymaqla başa gəlməz. Bundan neçə gün sonra Tom bir məhəllədən keçəndə təsadüfən bir oğlanın aliminium tabağa qaynar su əndərdiyini gördü.

- Qaynar suyu o tabağa niyə tökürsən ki?!- Tom maraqlanıb soruşdu.

- Nə borcuna qalıb?! Dilinə yiyəlik ede bilmirsən? oğlan çımxırdı,- təcrübə aparıram.

- O - o - o, belə de! Nədir o elə?

- E - e - eh, toyuqlara qaynar su verirəm görüm ki, onlar bişmiş yumurta doğa bilir, ya yox!

- Get özünü dola, gicin biri gic!- Tom özündən çıxdı,- ay aman, bu, Meridən də gicbəsərdir ki!

Sonra yoluna davam edən Tom gəlib bir saman tayasının yanına çıxdı. Tayaya doğru uzanan yolda bir kişi gördü. Kişi inəyin kəndirindən yapışıb saman tayasına tərəf dartırdı.

- Ay kişi, nə üçün inəyi belə inadla dartışdırırsan?- Tom soruşdu.

- Gözün kordur?- kişi özündən çıxdı,- məgər görmürsən niyə dartıram? Bu çər dəymiş inəyi tayanın yanına dartıram ki, bir az saman yesin də!

- Dayan, ay qanmaz!- Tom əsəbləşdi,- adə, Meri sənə baxanda toya-bayrama getməlidir ki! Ay allahın gic bəndəsi, inəyi güc-bəla tayanın yanına dartmaq əvəzinə, samanı qucaqlayıb inəyin qabağına tökə bilməzsənmi?

- Bıy, doğrudan ha,- kişi sevincək dilləndi,- bu heç ağlıma gəlməyib!

Bəli, Tom yenə yoluna davam edib özü-özünə danışmağa başladı:

- İşdir, mən əgər bu gün Meridən də böyük iki səfehə rast gəlməsəydim, allah mənə lənət etsin ki, heç üçüncü səfehə rast gəlmək fikri beynimə gəlməzdi.

Yorulub əldən düşmüş Tom qatı qaranlıq düşəndə Benqhəmə çatdı. Yatmağa yer olmadığı üçün o, başqa bir oğlanla bir çarpayıda yatmalı oldu. Səhər tezdən Tom gözlərini açanda o biri oğlanı döşəmənin üstündə gördü. Oğlan şalvarını əlində tərsinə tutub dodaqlarını gəmirə-gəmirə iki ayağını birdən şalvarın balaqlarına keçirtməyə çalışırdı, lakin bacarmırdı, şappıltı ilə

döşəməyə yıxılırdı.

Tom bir-iki dəqiqə tamaşa edəndən sonra oğlandan nə iş görmək istədiyini xəbər aldı.

- Məgər görmürsən ki nə edirəm?- oğlan cin atına mindi,- bu zəhirmara qalmış şalvarın içinə girmək istəyirəm də!

- Bir dayan görüm, ay tanrının səfeh bəndəsi,- Tom əda ilə qımıldandı,- axı, şalvarı elə geyməzlər. Əvvəlcə şalvarı bir ayağına, sonra da o birisinə keçirt. Belə etsən, nə şalvar cırılar, nə de sən xərcə düşərsən.

- Pah atonnan, doğru sözə nə deyəsən!- oğlan sevindi. Mən nə yaman səfeh oğlanam! Qardaş, sən deyən fikir heç mənim ağlıma gəlməyib!

- Görəcəkli günlərimiz varmış, ilahi,- Tom lovğalandı,- Meridən də ağılsız səfehlər varmış. Əgər indi gedib Meri ilə barışmasam, allah başıma daş yağdırar. İşdir, qızın barışmağa meyli olsa, dediyim kimi də edəcəyəm, çünki ziyanlığın arısından qayıtmaq özü də xeyirdir.

Bu minvalla Tom o saat dabanına tüpürüb götürüldü. Onlar barışıb evləndilər. Vaxt keçib vədə tamam olanda onların balaca bir oğlu dünyaya gəldi. Vaxt keçdikcə onların uşaqları artıb çoxaldı.

BATAQLIQ İŞIĞI

Biri vardı, biri yoxdu, çox, çox qədim zamanlarda Ceykob adlı qoca bir çoban vardı. O, yaşadığı mahaldan sərişẗəli, qoyun sürüsünün cikinə-bikinə bələd olan adam hesab edilirdi. Deyilənə görə Ceykobun qoca qoyun iti də özü kimi ağıllı imiş. Amma onların hər ikisi qocalıb əldən düşdüyünə görə fermer bu qərara gəlmişdi ki, soraqlaşıb onlara bir cüt köməkçi tapsın. Köməkçilərin biri kişi, biri də it olmalı idi. Qoca Ceykob isə öz itiylə təlim keçib onları öyrətməli idi.

«İşdir, əgər şəyirdlər öyrənməyə həvəs göstərsələr, qoca Ceykobla iti Tən onlara ürəkdən təlim kecər. Yox, əgər tərslik edib özlərini qanmazlığa qoysalar, onda Ceykob tezcə arayıb bir çarə tapar», fermer düşündü.

Bir gün fermer o ətrafda özünün cavan qoyun itiylə ad çıxarmışdı, işdə çox diribaş olan bir oğlanın dalınca adam göndərdi.

- Cavandır yaxşı öyrənər, hafizəsi iti olar,- fermer qoca Ceykoba söylədi.

Belə iş üçün əlinə imkan düşdüyünə görə qürrələnən həmin gənç Fən adlı itini də götürüb fermaya gəldi ki, qoyun güdməkdə nəyə qadir olduğunu fermerə göstərsin. Fermaya çatan kimi gənc beş dəqiqənin içində iyirmi qoyunu dəstələyib bir yerə yığdı. Sonra iti Fənlə birlikdə öyünə-öyünə qayıdıb fermerin hüzurunda əmrə müntəzir dayandı. Fermerlə qoca Ceykob dayanıb gəncin bütün hərəkətlərinə göz qoyurdular. Tən onların yanında səssiz-səmirsiz yerə sinmişdi.

- İt hürüşü, çaxnaşma, fit səsləri içərisində ağız deyəni qulaq eşitmirdi,- fermer narazı halda dilləndi.

- O nə vurhavur idi salmışdın? Əzizim, qoyunların yersiz hay-küydən xoşu gəlmir. Qoyunların ağzını yığmaq bundan sonra sənin üçün çətin olacaq. Qoyunların yadından heç nə çıxmır ha!

Həm oğlan, həm də ki, Fən fermerin sözlərini bu qulağından alıb, o birindən ötürdülər. Onlara elə gəlirdi ki, qoyun otarmaqda hamıdan mahir idilər.

Sonra fermer dedi:

- Başına dönüm, qoca Ceykob, göstər bunlara məharətini.

Bəli, qoca Ceykob da başını qaldırıb sakitçə dedi:

- Sürü hayana dönsə də, həmişə sürünun ortasında küllənən bir axsaq qoyun var. Get o axsaq qoyunu sürünün ortasından çıxart gətir, Tən!

Ətrafa ürkə-ürkə baxan sürünün yanından Tən asta-asta, səssiz-küysüz keçib-getdi. Üzü Tənə doğru olan qoyunlar onun sürünün ətrafında dövrə vurduqdan sonra sakitcə çömələb oturduğunu gördülər. Onlara kəşik çəkən Təni qoyunlar tanıyıb sakitləşdilər, yenidən başlarını aşağı salıb otları

qırpmağa başladılar. Bir az sonra qoca Tən quyruğunu bulaya-bulaya hiss olunmadan sürünün arasına girib, axsaq qoyunu tutub gətirdi. Qoyunların bundan heç xəbəri də olmadı.

Qoca Ceykob qətran qutusunu çıxararaq qoyunun yarasını silib təmizlədi. Tən yerə çömələlib sahibinə tamaşa edirdi. Elə bu dəm fermer üzünü o gəncə və onun itinə tutub dedi:

- Hürkmüş sürünü yola gətirib sakitləşdirmək üçün sizə çoxlu vaxt lazımdır. Bala, necə edək ki, bunu öyrənəsiniz. Oğlaqlarla küçüklər həmişə dava salıb kuşku tuta bilərlər. Ancaq qoyunların belə şeydən zəhləsi gedir.

Hətta bu xəbərdarlıqlardan sonra da gənc heç nəyi vecinə almayıb, qoca Ceykobu ölüvay adam hesab edir, fitlə Fənə get-gəl öyrətmir, tələsməklə işi olmayan Tənə ağızucu bir-iki söz deməklə kifayətlənir, qocalıb heydən düşdüyünə görə Tənin güllələnməkdən başqa çarəsi olmadığını götür-qoy edirdi. Sanki Fən də onun sarsaq cavan olduğunuçduymuşdu. Məsələ burasındadır ki, o heç vaxt sürünü izləmir, qoyunların asta yerişiniz haram qatmırdı.

Qoca Ceykob çox hövsələli adam idi. Bir gün fermer cavan oğlanla Fənə iş başında baxmaq üçün onların yanına gəldi. Sürünün birbaşa uçuruma doğru irəlilədiyini, oğlanın qaşqabaını salladığını, Fənin şikayət dolu səslə zingildəyə-zingildəyə sahibinin dabanlarını didişdirdiyini gördü. Tən qaça-qaça gəlib, sürünün başının üstünü təhlükə aldığını qoca Ceykoba bildirdi.

- Möhtərəm Ceykob, bu oğlan adam kimi söz qanmaq istəmir,- fermer əsəbi halda sözə başladı.- Bizim Tənə də çox pis münasibət bəsləyir. Bir bax, ora bax, Ceykob. Küçuk fərli küçüyə oxşayır. Buna mən etiraz edə bilmərəm, amma mənə belə gəlir ki, onların hər ikisinə elm öyrətmək üçün şallaq lazım gələcək.

Qoca Ceykob əlini qaşının üstünə qoyub, sürünün yanında sakitcə şöngüyüb oturmuş Tənə, bədənini əsmə tutmuş mırıldayan Fənə və gəncin qaşqabağına diqqətlə nəzər salıb, təmkinlə cavab verdi:

- Bu oğlanı kamil çoban etmək üçün çox vaxt lazım gəlməyəcək.

Bəli, qoyunlar quzulayan vaxt qoca Ceykobun sözləri sübuta yetdi. Fən böyüdükçə ağıllı, faydalı it oldu. Əgər oğlan Fəni sarsaq hərəkətləri ilə hirsləndirməsə, O, Tənin iş başında etdiyi hərəkətləri çoxdan götürərdi, hirslənib oğlanla süpürüləşməzdi. Amma Fən keçə bilmirdi, çünki oğlan onun sahibi idi. Qar yağıb havalar soyuduqca Tən sahibinin göstərişlərini səylə yerinə yetirmək üçün dəridən-qabıqdan çıxırdı. Qoca Ceykob Təni küzə salmışdı ki, o, anasız qalmış yetim quzuları yalaya-yalaya nəfəsilə qızındırsın.

Əkiz quzuların anasının ölməsi qoca Ceykoba yamanca dərd olmuşdu. Ceykob həmişə öyünə-öyünə deyirdi ki, fermer necə ildir bir dənə də qoyun itirmir. Amma bu ölmüş qoyunun həyatı fermer üçün daha qiymətli idi, çünki o, iki bala vermişdi. Əgər Tənin qayğısı olmasaydı, əkiz quzular da çoxdan ölərdi.

Qaş qaralıb şər qarışanda oğlanla Fən dəstədən yayınıb geridə qalmış qoyunların əl-ayağını yığışdırıb sürüyə qatır, evə qayıdırdı.

Göstərilmiş etibardan razı qalan oğlan təkəbbürlə içəri girib barmağını Tənə silkələdi. Qoca Ceykobun ona göz qoyduğunu görüb gülümsəməyə məcbur oldu.

- Fən ilə mən ağıla iyirmi bir qoyun salmışıq, ey,- oğlan qürurla dilləndi.

- Bəs balalamağa hazırlaşan o üç qoyun hanı? Gərək onlardan göz-qulaq olaydın,- qoca Ceykob qaşqabaqla cavab verdi.- Yəqin sürünü qovubsunuz, onlar da dala qalıblar.

- Eh, duman getdikcə qatılaşır, qar da ki, lap dizə çıxır,- oğlan donquldandı,- sazaq da iliyə işləyir.

- Mən heç nə bilmirəm. Gedin, canınız çıxsın, qoyunları tapın. Sən hələ də çobanlırın sirlərinə bələd olmamısan. Doğum sancısı keçirən bu heyvanı mən qoyub gedə bilmərəm. Belə işəzrdə Tənin təcrübəsi var, sizə kömək edər. İmkan olsa, bir azdan mən də dalınızca gələrəm. Həqiqətən bu qoyunu sancı doğrayır.

Ten artıq göz-gözü görməyən qaranlıqda quzu küzlərinin həndəvərində əmrə müntəzir dayanmışdı, oğlan suyu süzülə-süzülə evdən çıxıb əsə-əsə yola

düşdü. Fən gödək quyruğunu bulaya-bulaya mırıldanıb sahibini qarabaqara izləyirdi. Onlar evdən uzaqlaşıb qatı duman içərisində gözdən itəndə oğlan çəkməsinin burnu ilə Tənə bir təpik ilişdirdi. Tən də tənbəllik eləməyib ağzını ataraq oğlanın baldırının ətini dişlərinin arasına salıb möhkəm-möhkəm sıxdı. Ayağı gömgöy göyərib qançır olsa da, həftələrlə qıçını çəksə də, Tənə vurduğu təpiyi qoca Ceykobun görmədiyi üçün oğlan allaha şükür elədi.

Məsəl var ki, buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz. Bəli, vaxt gəldi, o təpiyin əvəzini Təndən də beter çıxan bir nəfər tapıldı.

Bataqlıq İşığı gecələr gəlib quzu küzlərinin damında oturur, küzdən qalxan isti vurduqca xoşallanır, qoca Ceykobun onun üçün axşamlar bayıra qoyduğu bir parç qoyun südünün ətrini çəkə-çəkə içib məst olurdu. Bataqlıq İşığının qoca Ceykobdan çox xoşu gəlirdi, çünki duman çöküb qar yağanda və gecələr sərt gülək yalquzaq kimi ulayanda o, küzlərin damında canını qızdırıb rahatlanırdı. Hətta bir dəfə Fənin dama qaymaq qoyduğu da yadından çıxmamışdı. Nə qədər etsələr də, Fən bir də dama çıxmamış, hər dəfə körpə küçuk kimi zingildəyə-zingildəyə küzün içinə təpilmişdi. Oğlan çox düşünüb-daşınsa da, buna bir səbəb tapa bilməmişdi.

Bu məsələdən qoca Ceykob da, Tən də xəbərdar idilər, lakin Ceykob ağzından söz qaçıran adam deyildi. Oğlan yanında olmasa, Fən gecələr bayıra çıxmağa həvəs göstərmirdi. Ancaq indi sahibi və Tən yanında olduğuna görə olduqca uzun, çətin yol köçəndən sonra geri qayıdıb var sesile hürşeye başladı. Sonra atılıb birinçi darvazanı keçərək küzə yaxınlaşdı. Oğlan da itin dalınca getdi, lakin Tən darvaza dirəyinin yanında yerə sinib tərpənmədi.

Bəli, oğlan Tənin kəlləsinə bir çomaq endirib, axsaya-axsaya dumanın içində görünməz oldu. Çox keçməmiş oğlan gördü ki, kimsə əlində fənərlə işarə edib onu çağırır. «Allaha çox şükür ki, qoca Ceykob nəhayət gəlib çıxdı», oğlan fikirləşdi. Fikirləşib tutarlı cavab tapmadığına görə oğlan Təndən söz açmağa tələsmədi. Fən irəli atılıb hürməyə başladı. İşığı artıb-azalan fənər qatı duman və qar qalaqları arasında yıralana-yırğalana uzaqlaşdı. Oğlan da fənərin dalınca getdi.

Fənər getdikcə uzaqlaşır, Fən irəli atılaraq hürürdü. Oğlan axsaya-axsaya Fənərin ardınca irəlilədikcə soyuqdan dişi-dişinə deyir vç Bataqlıq İşığı ilç heç cür ayaqlaşa bilmirdi. Nəhayət Bataqlıq İşığı onları gətirib, suyu dizə çatan, lehmə basıb sırsıra bağlamış çox gözəl bir bulağın içinə saldı. Sonra Fənər şaqraq səslə qəhqəhə çəkib bulaqdan uzaqlaşdı.

Fənər işığının ardınca yol gedərkən hava soyuq, gecə qaranlıq idisə, Fənər yoxa çıxandan sonra quru şaxta adamı qılınc kimi kəsməyə başladı. Oğlan suyu süzülə-süzülə, Fən quyruğunu bulaya-bulaya bulağın başından uzaqlaşdılar. Dağdan aşıb, düzdən keçib, nəhayət fermerin malikanəsinə yaxınlaşdılar. İt bərkdən hürməyə başlayanda fermer bayıra çıxıb onları fənərlə işıqlandırdı.

- Yetim quzuları arvadın yanına aparırdım ki, onlara şüşədə süd versin. Ay əbləhlər, on ildir ki, siz ikiniz harda itib-batmısınız?

Oğlan hönkür-hönkür ağlayaraq cavab verdi:

- Ağa, vallah biz fermadan bir neçə mil aralanıb doğuş vaxtı yaxınlaşan üç qoyunu axtarırdıq.

- Doğuş vaxtı yaxınlaşan qoyunları?- fermer təəccüb içərisində xəbər aldı.- O üç qoyunu darvazanın yan-yörəsindən Tən tapıb gətirmişdi. Bu iş ona bir xaltaya başa gəlmişdi. Quzuların sağ-salamat dünyaya göz açmasına mənim itim vaxtında kömək etdi. Qoca Ceykobun köməyi sayəsində quzular gümrahdılar. Onlar vaxtında dünyaya gəlmiş üç toppuş quzudurlar. Tən yaxşı bilirmiş ki, özgə itinə etibar etmək olmaz. İçəri keçin, özünüzü qoca Ceykoba təqdim edin. Qoy, o, necə lazımdır, dərsinizi versin. Bu sözləri deyən fermer köhnə paltoya bükülmuş yetim quzular qucağında, iti yanında və şölə saçan fənər əlində çıxıb getdi.

Oğlan (inadkar olsa da, ürəyi çox yumşaq idi) islanıb cücəyə dönmüş, soyuqdan donub tir-tir əsən Fənin başına sığal çəkib dedi:

- Gəl, ay gözümün işığı, gəl ki, yaxşıca kötəklənək, bəlkə canımız yenə qıza.

Sonra haradansa cingiltili gülüş səsi eşidildi və küzün damında bir fənər işıq saçdı. Qoca Ceykob əlində qırmanc qapıja çıxdı, onları içəri apardı.

Fən quyruğunu qısıb Tənin arxa tərəfindəki divara qısıldı. Qoca Ceykob oğlana beş-on şallaq çəki dayandı.

- Məncə Fənin aşının suyunu da Tən yaxşıca verib, Ceykob dilləndi. - İndi isə durun, doyunca sıyıq yeyin ki, bəlkə sümüklərinizin donu açıla.

Hə, əzizlərim, onu da deyim ki, Bataqlıq İşığı bu vaxt duman basmış damda oturub gülür, hey gülürdü. Dama qoyulan sıyıq kasasını görən kimi Bataqlıq İşığının gülüş səsləri eşidilməz oldu.

CƏNUB ŞƏRQİ İNGİLTƏRƏ NAĞILLARI

LAYMİNSTER ƏJDAHASI

Ağacları budayan bağban əlcəklərini çıxardıb tərtəmiz sildiyi bağ qayçısının üstünə atdı. Xəzəl arasından təzəcə çırtlayan novruzgülü qönçələrilə dolu torpağın üstündə oturub nahar bükülmüş düyünçəsini açmağa başladı.

Bağban asta-asta qırmızı xalxal dəsmalını dizinin üstünə sərib sözə başladı:

- Belə nəql edirlər ki, çox qədim zamanlarda bax, bu göldə bədheybət bir əjdaha yaşayırmış. Adamlar ona qarınqulu adı qoymuşdular. Bu gölə indi də qarınqulu dəryaçası deyirlər. Bəli, bu qarınqulu əjdaha, məlumunuz olsun ki, hər axşam sahilə çıxıb şam yeməyi üçün bir şey ələ keçirməyə adət etmişdi. O, üzüb sahilə çıxan kimi bir göz qırpımında ya bir neçə atı, ya da bir-iki inəyi girinə keçirərdi. Əlinə keçənləri o saat da həzmi-rabedan keçirərdi. Zaman keçdikcə yeməklə xaşal qarnı doymayan əjdaha bəndin üstündə pusquda durur, yaxınlıqdan ötüb keçənləri kama çəkib udurdu, elə bil qurbağa daş üstündəki çibinləri yalayıb yeyərdi. Getdikcə acgözləşən həyasızlaşan əjdaha gündüzlər də suyun üzünə qalxıb bədheybət sifətini lövbər salmış gəmilərin pəncərəsindən içəri soxur, göytəpədə bardaş qurub çay içən adamlara iştahla baxırdı. Bu zaman Arundeldə aləm bir-birinə dəyir, it yiyəsini tanımırdı.

Buna görə da Arundelin o zamankı bələdiyyə rəisi əjdahanı öldürən adama mükafat boyun olmuşdu. İmanımı yandırıb pulun nə qədər olduğunu deyə bilmərəm, amma onu bilirəm ki, o mükafat böyük məbləğdə pul idi. Deyirlər ki, ilan vuran ala çatıdan qorxar. Əzizlərim, xaşalqarın əjdaha camaatın gözünü elə qorxutmuşdu ki, sinəsinə döyüb irəli çıxan bir nəfər də tapılmadı.

İşi belə görən bələdiyyə rəisi mükafatın məbləğini iki qat artırdı. Bu dəfə Vik mahalından olan bir Gənc bələdiyyə rəisinin hüzuruna gəlib əjdaha ilə vuruşmağa hazır olduğunu bildirdi. Düzdür, indi bəziləri deyirlər ki; o cavan oğlan Arundelli imiş, amma bu, yanlış fikirdir. Bilirsinizmi, o oğlanın adı Cim Pattok idi, özü də Vik mahalının yetirməsi idi. Ömrüm boyu Toddinqtonda yaşadığıma görə, məna belə gəlir ki, nə dediyimi yaxşı bilirəm. Bir də ki, mənim ulu nənəm Cudit bax orada, hündür qarağacların yanından yolun burulduğu yerdə yaşayırdı. Nənəm nəql edirdi ki, o, yeniyetmə qız olanda yaxınlıqda bir gənc yaşayırmış. O gənc Cuditin başına pərvanə kimi dolanırmış. Odur ki, axırda Cudit Cim Pattokun nəslindən olan o oğlana ərə gedib.

Bu məsələnin bizə dəxli yoxdur, bala, sözümün canı ondadır ki, həmin

Cim Pattok bələdiyyə rəisinin yanına gəlib, düşünüb hazırladığı plandan ona söhbət açır. Bələdiyyə rəisi əmr edib göstəriş verir ki, Cimə nə lazımdırsa, versinlər. Xəsislik etməsinlər və Cimə sağ ol desinlər ki, o, camaatın canını əjdahadan qurtaracaq.

Beləliklə Cim dəmirçinin yanına gedib ba-ax, bu bo-oyda nəhəng bir qazan düzəltməyi sifariş verir.

Sonra Cim dəyirmançının yanına gedib yekə bir kisə un tələb edir.

Daha sonra Cim odunçuların yanına gedib şəhər meydanının ortasında nəhəng bir ocaq çatmağı onlara tapşırır.

Bəli, bütün göstərişlərinə əməl ediləndən sonra Cim qolunu çırmayıb işə başlayır, o vaxtacan heç kəsin görmədiyi böyük, olduqca iri bir pudinq bişirir. Üzü bişib içi alaçiy qalan pudinq zindan kimi ağır idi. Əlbəttə, Cimin istədiyi da elə bu idi. Camaat yığışıb pudinqi bərəyə qoyur, sonra kiminsə verdiyi atı bərəyə qoşub yüyəni Cimə verirlər ki, dartıb pudinqi apara bilsin. Qorxy-hürkünü unutmuş Cim şirə dönüb yola düşür va xaşalqarın əjdahanın hüzuruna təşrif gətirir.

Cimimi müşayiət edən adamlar körpüyə çatıb dayandılar. Körpünu keçməyə heç kəs cürət etmədi, çünki kaftar xaşalqarın Bill Doisin daxmasından aşağıda suda səvərmişdi. Onun başı suyun dibində, boynu və bədəninin qalan hissəsi sahil bəndinin üstündə idi. Onun uzun quyruğu stansiyadan da o yana keçmişdi. O, arabir quyruğunu ilişdirib Batvort parkındakı ağacları köklü-köməcli qopardırdı.

Yüklü bərə gözünə dayan kimi əjdaha şirin dilini işə salıb məlahətli səslə dey ir:

- Ay səni xoş gördük, insan!

- Salam, əjdaha,- Cim cavab verir. - Gətirdiyin nədir elə, ay insan?- əjdaha havanı iyləyə-iyləyə xəbər alır.

- Əşşi, pudinqdir.

- Pudinq nədir?- əjdaha soruşur-- o nə olan şeydir elə?

- Ye, dadına bax, bilərsən.

İkinci dəfə təklif etməyə ehtiyac qalmadı. Əjdaha bir göz qırpımında pudinqi atla birlikdə qarnına ötürüb ağız-burnunu yaladı. O, Cimi də süpürləyib dişinin altına qoymaq istədi, amma Cim keçən il tufanın vurub yıxdığı ağaclardan birinə ilişib havada sallana qaldı.

- Yamanca yeməli idi ha!- əjdaha dodaqlarını marçıldada-marçıldada donquldandı.

Cim soruşdu:

- İstəyirsən birini də gətirim?

- Etirazım yoxdur.

- Yaxşı, onda günorta sənə bir pudinq də gətirərəm. Bu işin necə nəticələnəcəyi Cimə gün kimi aydın idi.

Bir az vaxt ötüb keçəndən sonra adamlar xaşal qarnı partlamaq dərəcəsinə çatmış əjdahanın göldə fır-fır fırlanaraq böyürməsini, fəryad etməsini eşitdilər. Partlamaya düşmüş əjdaha quyruğunu hikkə ilə hara çırpırdısa, oradan dam boyda daş-kəsək qopub havaya qalxır, ağaclar sınıb yıxılırdı. Onu da sizə deyim ki, heç Cim Pattok da qorxan bala deyildi. Nahar vaxtı Cim bir-iki şüşə şərab nuş edib əjdahaya tamaşa etməyə getdi.

Cim gözünə sataşan kimi qoca qarınqulu var səsilə bağırdı:

- O pudinqdən mənə bir də gətirsən, özünü ölmüş bil, cavan Oğlan!

- Niyə, əşşi,- Cim xəbər aldı.- De görüm, axı nə olub sənə?

- Nə olacaq,- əjdaha çığır-bağır saldı.- Qarnımda lap cəhənnəm ağrısı var. Sanki mə'dəmdən daş asılıb. Ayağa da qalxa bilmirəm. Deyəsən vəziyyətim lap fənadır.

- Gərək qarınqululuq etməyəydin,- Cim dilləndi.- Canım, daha neynəmək olar, ürəyini sıxma, səni bu bəladan tez xilas etmək üçün mənim cibimdə bir neçə həb var.

- Həblər hanı?

- Budur ey,- deyə Cim arxasında hazır tutduru balta ilə güclü zərbə endirib əjdahanın başını üzür!

Söhbətin bu yerində bağban çaydan bir qurtum alıb fikrə getdi.

- Elə bu? Bəs sonra?

- Sonrası yoxdur, ser. Amma siz o balaca doqqazdan keçib kilsənin həyətindəki qəbiristana daxil olsanız, Cimin, məzarını orada görərsiniz. Onun məzarı qəbiristanın sol küncündə kilsə divarının dibindədir.

Doğrudan da kilsə divarının dibində bir məzar var.

O məzarın üstünü horşam daşından kəsilmiş bir konus bəzəyir. Amma o daşın üstünə heç bir yazı həkk olunmayıb. Yerli əhalinin bu məzarı qonaqlara qürurla göstərməsinə baxmayaraq bağban bizim qəhrəmana ad verib onun dünyaya göz açdığı yeri göstərən yeganə adam idi. İkinci belə bir adam heç vaxt mənə rast gəlməmişdi. Camaatın qalanı isə Cimi sadəcə olaraq «Əjdahanı öldürmüş oğlan» kimi tanıyırdı.

Bəli, orhəmlilər, arundellilere bu cür ayama deyirlər:

Arundeldə iyli balıq yeyirlər,
Qab-qaşığı görən nə vaxt yuyurlar?!

Arundellilər də onlara belə cavab verirlər:

Səhər-axşam kilsə zəngi çalırlar,
Orhəmlilər bəs ac necə qalırlar?!

HAYTEP QULYABANILARI

Anamın xalalarından biri esseksli Hayter Cona ərə getmişdi. Hayter Con arabaçı idi. Esseksin yollarında isə arabalar çox az gözə dəyirdi. Bataqlıqlar kənarından, daş-kəsəkli yollardan ağır yükləri sağ-salamat mənzil başına çatdırmaq üçün iri yük atlarına böyük ehtijaç vardı. Bataqlırı hündür qamış basmış, ətrafda qobular əmələ gəlmişdi. Bataqlırın yanından keçən yolun kənarında yaranmış çala-çuxurlar ağzınacan lehmə ilə dolu idi. Əsas qorxu orasında idi ki, adamlar o çuxurlara yıxılıb boğula bilərdilər. Buna görə də

diqqətli, ehtiyatlı Conun hər həftə adamların yükünü sağ-salamat bazara daşımağı onları çox razı salırdı. Bu çuxurlar arasında qupquru bir yarğan vardı. Yarğanın daşlı-qumlu kənarları qızlarquşu yuvası ilə dolu idi. Bu yarğanın kənarı ilə addımladıqca qızlarquşular pırıltı ilə uçuşurdu. Qızlarquşundan başqa özgə əcaib varlıqlar da qanad çalıb havaya qalxırdı. Onların bozumtul rəngi, yamyaşıl gözləri vardı. Amma heç kəs onlara yaxından tamaşa etmək üçün ayaq saxlamağa ürək eləmirdi.

Haytep qulyabanılarının məskəni olan yerin yaxınlığından ötüb keçəndə hamı ağzına su alıb dayanır, heç kəs onların adını çəkməyə cürət etmirdi. Qulyabanılardan söz salmaq heç də yaxşı iş hesab edilmirdi. Di gəl ki, Somerset camaatı qulyabanılardan harda gəldi söhbət açır, heç nədən qorxub çəkinmirdilər. Onu da sizə deyim ki, qulyabanılarla somersetlilər sanki bir tayfanın törəmələri idilər.

Bəli, qulyabanılar bəzən insan qiyafəsində zühur edib adamların başına oyun gətirir, əksər hallarda isə balaca boylu, çəlimsiz məxluqlar kimi gözə görünürdülər. Gecə vaxtı suda bitmiş qamışların arası ilə yol gedəsi olsan, gərək özün-özünə ürək-dirək verəsən. Amma Hayter Con və onun Meq adlı madyanı qulyabanılardan qorxmurdular. Bir dəfə Con öz atı ilə bataqlırın dərin yerindən keçəndə qamışlara ilişib qalmış bir qulyabanı balasını dartıb çıxartdı. Sonra qulyabanılar pərvanə kimi onun başına fırlanır, bu yaşıl gözlu varlıqlar gecə vaxtı Meqi yol boyu müşayiət edərək onu yoldan çıxmağa qoymurdular.

Beləliklə anamın xalası qulyabanıların əri Condan muğayat olmasını bilir, həmişə onlara minnətdarlıq edirdi. Məlumunuz olsun ki, Hayter onun gedişgəlişinə göz qoyan başqa bir adam da var idi. O, Conun yaxşı adını batırmaq, onu ləkələyib tora salmaq üçün hey götür-qoy edirdi. O, hiyləgər, məkrli varlığın adı Bic Borley idi. Beynindən keçən qara fikirləri sirr saxlayıb qınına çəkilmiş Borlej bir dənə Haytep qulyabanısını tutmaq üçün illərla məqam gözlədi. Nəhayət əlinə çox körpə bir qulyabanı balası keçdi.

Qara fikirlərini həyata keçirmak üçün bala qulyabanıdan kar

aşmayacağını görən Borley hirslənib cin atına mindi, qulyabanı balasını tolazlayıb lilli suya atdı. Yaxşı deyiblər ki, sən saydığını say, görək nə sayır. Öz atı ilə oradan keçib gedən Con qulyabanı balasını lilli sudan çıxardıb onu sağ-salamat elə bir yerə qoydu ki, ana qulyabanı öz balasını asanlıqla tapa bilsin.

Hayter qulyabanıları bu yaxşılığı heç vaxt unutmadılar. Con isə :günü-gündən artıb-çoxalan səxavəti ilə dillər əzbəri oldu.

Camaatın ona e'tibarı artıb, e'timadı çoxaldı. Arvadının nəsihətlərini Con həmişəlik sırğa edib qulaqlarından asdı. (O nəsihətləri mən də sizə deyacəyəm. Çalışın ki, yadınızda saxlayasınız.)

Söz veribsən,
Dur *üstündə*
Ağası ol -
innan belə.
Söz veribsən,
Sözdən qaçsan
İtil burdan
cəhənnəmə.

Bəli, əzizlərim, bic Borley Conu gözdən salmaq üçün ağlına gələn bütün kələklərə əl atsa da, heç bir iş görə bilmədi.

Bu minvalla bir May günü səhərdən-axşamacan leysan töküb sel suya qarışdı. Həmin günü yol gedən Con qurşağacan palçığa bulaşdı. Su Meqin qarnının altına çıxdı. Buna baxmayaraq Con öz atı *ilə* yolun dabanını qırıb bazara gəldi, mətahını xırıd elədi. Kəndin mülkədarına iki balaca çəllək brəndi alıb kəmərindən asdı. Qalan pulları cibinə qoyub evə doğru yola duzəldi. Əlbəttə, Meq sağrılarınacan lil-palçığa batmasaydı, Con madyanı səyirdib dördnala çapardı. Amma nə etmək olardı, ehtiyatı əldən verмək olmazdı.

Ertəsi gün anamın xalası Cona dedi:

- Hava işıqlaşanda mən həyətə çıxdım. Dərhal gözümə inəklə buzovun yan-yörəsində fır-fır fırlanan taxta bir neştər görüb evə qaçdım. Duz qabını qapıb ovcumu duzla doldurdum. Bayıra çıxıb duzu neştərin üstünə səpdim. Kaş, sən onun çıxardığı həşiri öz gözunlə görəydin!

Sonra nə qədər pusquda dayanıb gözləsəm də, çəmənlikdə heç nə gözumə dəymədi. Bir onu bilirəm ki, biç Borley yaxınlıqdan ötüb keçirdi. Yamanca nalayiq söyüşlər yağdırırdı. Özü də möhkəm axsayırdı. Axı, mən həmişə duz qabının içində yastı bir dəmir parçası saxlayırdım. Bəlkə duz qarışıq onu da atmışam! Con, bu saat *mənə* söz ver ki, bazardan gətirdiyin pullarla heç yana getməyəcək, brəndi çəlləklərini aparıb mülkədara verən kimi qayıdıb bir baş evə gələcəksən.

Bəli, Hayter Con arvadına bərk-bərk söz verdi. Amma işin tərsliyinə bax ki, mülkədarın malikanəsinə çatmağa yarım mil qalanda, kənd mehmanxanasının yaxınlığında Meqin nalı qopub düşdü. Atı kim pulsuz nallayar ki!

Odur ki, Con səsini başına atıb nalbəndi harayladı ki, gəlib atı nallasın. Atın yüyənindən yapışıb naləgndi gözləyan Con yağışdan islanıb cücəyə döndü. Amma nalbənd gəlib çıxmadı. Hamı böyük buxarının istisinə xumarlana-xumarlana yuxuya getmişdi. Odur ki, Hayter Con bir anlığa atı ağaca bağlayıb nalbəndi çağırmaq üçün mehmanxanaya girdi. Ocağın istisi canına dəydi kimi Con süstəlıb mürgülədi. Bir muddət sonra kiminsə onu silkələdiyini hiss edib gözlərini açdı. Qarşısında boz xalatlı bapbalaca xidmətçi bir qadın gördü.

- Sənin işin də, şərəfli adın da əlindən getdi, Hayter Con.

İstinin və mürgünün xumarı gözlərindən dağılıb ağlı başına gələndə Con hiss etdi ki, cibindəki pul da, brəndi çəlləkləri də yoxa çıxıbdır.

- Bəs sən indi nə edəcəksən? - xidmətçi qadın xəbər aldı.

- Necə yəni nə edəcəksən? Gedib hər şeyi mülkədara söyləyəcəyəm. Qəpiyinəcən brəndinin pulunu ona ödəməliyəm. Vədimə yamanca xilaf çıxmışam.

- Həm də hörmətdən düşmüsən,- qadın dilləndi.

- O eyb etməz, vədimə əməl etməmişəm, ey!- deyə Con yenidən küçəyə çıxdı.

Yağış başına döyə-döyə gəlib Məqin yanına çatdı. Yağan yağış Məqin palçığını tərtəmiz yumuşdu. Məq sinəsinəcən selə batmışdı. Con Məqin cilovundan yapışıb mülkədarın yanına getdi. Başına gələn qəza-qədəri ona danışıb, başılovlu evə qayıtdı. Ürəyi ağzından çıxa-çıxa arvadını çağırıb hər şeyi ona da söylədi.

Arvad ərinə təskinlik verdi:

- Ürəyinə salma, ay kişi, mülkədar mərhəmətli adamdır. Allah qoysa, ikimiz də işləyib çoxlu pul qazanarıq, mülkədarın borcunu mümkün qədər tez qaytararıq. Amma birdən başını qaldırıb xəbər aldı:

- O xidmətçi qadının gözlərinin rəngi necə idi?

- Deyəsən yaşıla çalırdı. Özü də bapbalaca idi. Əynində də boz paltar vardı.

- Əzizim, qorxub eləmə, çox keçməz borcumuzu son qəpiyinəcən qaytararıq.

Beləliklə ərlə arvad qollarını çırmayıb işə başladılar.

- Arvad çildən palaz toxuyub, sürətlə papaq düzəldirdi, sanki onun bir dəstə köməkçisi vardı.

Con isə küləşdən cürbəcür əşyalar, asılqanlər və təzə çıxan qamışlardan şəhər evlərinin döşəmələri üçün ayaqaltılar düzəldirdi. Sanki Məq yeldən qanad taxmışdı. Satılmalı şeyləri bir göz qırpımında bazara çatdırıb geri qayıdırdı. Çox keçməmiş kasıbların, sonra isə mülkədarın borcu son

qəpiyinəcən ödənildi.

- Yeddicə günə bütün borclarınızı qaytardınız,- mülkədar təəccüblə dedi.- Kiminsə sizdən xoşu gəlir. Çıxıb gedin. Qoca madyanı da yolla əyri-üyrü sürüb aparın. Belə etsəniz, biç Borley sizi bir daha narahat edə bilməz. Hər halda biç Borley əlimə keçəcək. Allah kərimdir, əlbət ona dabir əncam çəkən tapılar.

Hə, Con yenidən öz atı Meqlə quş yuvalarının yanından ötüb keçəndə çox gözəl bir May gecəsi idi, onlar cikkildəyən quş səsinə bənzər səslər eşitdilər:

Ay Hayter Con, ay Hayter Con.
Torpaqdakı yuvaya bax,
Var-dövlətli olarsən,
Sən şah kimi bax sabah.

Con başını çevirib yuvaya baxdı, mülkədar üçün aldığı çəlləkləri brəndi ilə dolu gördü. Biç Borley axsaya-axsaya gəlmişdi ki, gizlətdiyi çəlləkləri götürüb aparsın. Sirri faş olduğu üçün Borley paxıllıqdan partlayıb, qəzəb içində inildədi. Sonra Conun bazarlıq edib yığdığı pulun kisəsini havada yelləyərək qışqırdı:

- Eh, bu pullar hamısı mənimdir ki! Heç inanmağınız gələrmi ki, o dəqiqə bir dəstə qızlarquşu qanad çala-çala uçub gəldi, Borleyin gözlərini elə qamaşdırdı ki, o çaşıb yoldan çıxdı, ən dərin çalaya düşdü.

Belə-belə işlər, əzizlərim, Con öz atı ilə köməkləşib Borleyi çaladan çıxartmağa cəhd etdi. Borley üç dəfə lilli suya batıb çıxandan sonra onu dartıb palçıqdan çıxartdılar. Con pullarını Borleyin əlindən aldı, şad-xürrəm öz atı ilə evə qayıtdı.

Məlumunuz olsun ki, biç Borley axsaya-axsaya evinə sarı addımladıqca kimsə onu qarabaqara izləyib yamsılayır, qəhqəhə çəkib şaqraq səslə gülür, güldükcə sifətində yüzlərlə yaşıl göz alışıb-yanırdı.

MADYAN YUMYRTASI

Çox-çox illər bundan əvvəl Lunnonlu iki cavan gəzə-gəzə Sasseksə gəlib çıxdı. Rəvayətə görə Lunnonluların hamısı bayquş kimi ağıllı imişlər. Cavanlar bir kəndin yaxınlığında qoltuğunda balqabaq tutub yolda var-gəl edən Sasseksli bir qocaya rast gəlidlər. Lunnonlu cavanlar balqabaq nə olduğunu bilmirdilər, çünki onu heç vaxt görməmşdilər. Odur ki, cavanlardan biri o birinə dedi:

- Gəl soruşub öyrənək, görək qocanın qoltuğunda gəzdirdiyi nədir?

Qocaya yaxınlaşıb soruşdular:

- Sabahınız xeyir, cənab.

- Sabahınız xeyir, cavanlar,- qoca səmimi cavab verdi. - Baba, soruşmaq ayıb olmasın, qoltuğunuzda gəzdirdiyiniz nədir?

- Ayıb niyə olur ki, madyan yumurtasıdır!- qoca ciddi cavab verdi.

- Bıy, belə də!- sadəlövh cavanlar inandılar.- Ömrümüzdə belə qəşəng yumurta görməmişik.

- Görməzsiniz də!- qoca dedi.- Bala, sizin gördüyünüz hər yanda dolu olan adi yumurtalardır. Amma bu yumurta cins yumurtadır. Ona görə belə böyükdur.

- Baba, o yumurtanı satarsınızmı?

- Bilirsiniz,- qoca tərəddüdlə dilləndi.- Satmağına, sataram, amma güman etmirəm ki, mən istəyən pulu veresiniz. Bu yumurta cins madyanın yumurtası olduğuna görə mən onu bir qızıl funtdan bir qəpik də aşağı vermərəm.

Uzun-uzadı məsləhətdən sonra lunnonlu cavanlar qocaya bir qızıl funt verdilər. Beləliklə, qoca balqabarı onlara verib tövsiyə etdi:

- Yumurtanı ehtiyatla aparmaq yadınızdan çıxmasın ha! Səhv etmirəmsə, bir-iki günə yumurtadan bala çıxaçaq.

- Baş üstə, baba,- cavanlar dedilər.- Ehtiyatlı olarıq.

Cavanlar madyan yumurtacınıl götürüb dağdan aşdılar, düzdən keçdilər və birdən balqabağı bərk-bərk tutmuş cavanın ayağı çalaya düşüb büdrədi. Balqabaq şappıltı ilə yerə dəydi. Elə bu dəm kolun arasından bir dovşan çıxıb sürətlə qaçmağa başladı. Təpə aşağı götürülən dovşan birdə qiqənin içərisində ilim-ilim itdi. Cavanlar yəqin etdilər ki, madyan yumurtasından bala çıxıb. Təşvişə düşüb həyəcanlandılar, haray salıb təpənin ətəyində işləyən adamları köməyə çağırdılar: .

Ehey, kömək edin, dayçamızı tutun! Dayçamızı tutub saxlayın!

Amma qaçanı nə görən oldu, nə də onu tutan.

UELS NAĞILLARI

LLİN FƏN FƏÇ GÖLÜNDƏ YAŞAYAN QIZ

Məlumunuz olsun ki, cənubi Uelsin bomboz dağları arasında Llin Fan Fəç adlı bir göl vardır. Bu gölün ətrafında yerlaşan təpələrdən xeyli aralıda Karmartenşir əyalətində, Lləndəsənt yaxınlığındakı Vlansod fermasında dul bir qadın yaşayırdı. O, Qronv adlı yeganə oğlu ilə yaşayırdı. İllər keçdikcə böyüyüb yaşa dolan oğlan vaxtaşırı mal-qaranı haylayıb otlamaq üçün gölün kənarındakı örüşə gətirirdi.

Bir dəfə Qronv gölün kənarında oturmuşdu. İnəklar qalın otların dizə qədər qalxdığı örüşdə arxayın-arxayın otlayırdı. Qronv birdən göldən qəlboxşayan su şırıltısını eşidib heyrətləndi. Ətrafına göz gəzdirib gölün sahilində bardaş qurub oturdu. Birdən suda əks olunan şəklinə baxa-baxa uzun saçlarını darayan gənc bir qız gördü. Qız çox gözəl idi. Aya deyərdi, sən çıxma, mən çixım, günə deyirdi, sən çıxma mən çıxım. Ulu tanrı ikinci belə qənirsiz gözəl yaratmamışdı!

Qız birdən çevrilib gölün kənarında oturmuş, əlində bir parça arpa çörəyi və pendir olan, heyrət dolu baxışlarını ona zilləyən cavan oğlanı gördü. Dərhal göldən çıxıb oğlana sarı gəldi. Qronv özünü qabağa verib əli ilə qıza toxunmaq istədi, amma qız geri çəkilə-çəkilə bu sözləri dedi:

Çörəyin daşdır, oğlan,
Heç məni tutmaq olar?!

Sözünü tamamlayıb suya baş vurdu, bir daha görünməz oldu. Yazıq Qronv kədərləndi, çünki o, göldən peyda olmuş qıza ilk baxışdan vurulmuşdu.

Qronv evə qayıdıb gördüklərini anasına söylədi, qıza sahib olmaq üçün anasından məsləhət istədi. Dul qadın oğluna gələn dəfə göl qırağına gedərkən nal götürməyi, ya da cibinə bir az xəmir qoymağı məsləhət gördü. Qadının fikrincə, quruyub qaxsımış çörəkdə nəsə bir sehr ola bilərdi və qızın qaçıb uzaqlaşmasına səbəb də güman ki, elə bu idi.

Səhəri gün günəşin zərrin şəfəqləri Fan dağının zirvəsinə düşəndə, artıq Qronv nalı əlində tutub gölün kənarında dayanmışdı. İntizarla qızın gəlişini gözləyirdi. Dəqiqələr ötüb saata çevrilsə də, Qronv gözlərini sudan çəkə bilmirdi. Vaxt ötüb keçir, xəfif mehin yaratdığı xırda ləpələrdən, sularda oynaşan günəş şəfəqlərindən başqa heç nə gözə dəymirdi. Gün günortadan əyiləndə evə getməyə hazırlaşan Qronv birdən günəş şüaları altında par-par parıldayan sulardan qızın peyda olduğunu görüb çox sevindi.

Qız əvvəlkindən da gözəl görünürdü. Qronv həvəslə çiy xəmiri irəli uzatdı, amma qız yaraşıqlı başını bulayıb dedi:

Bişməyibdir çörəyin,
Saxla olar gərəyin.

Bu dəfə, gölün dibinə cummazdan əvvəl qız elə işbəli təbəssumlə gülümsədi ki, yazıq Qronvun canına od düşdü. Bir az sonra evə doğru addımlayan Qronv qızın gülüşünü xatırlayıb təskinlik tapdı. Qəlbində ümid közərməyə başladı ki, gələn dəfə qız zühur edəndə onun töhfəsini rədd etməycək.

Qronv evə çatıb başına gələnləri anasına nəql elədi. Ana oğluna bu dəfə çörəyi azca qızartmağı məsləhət gördü. Beləliklə, səhəri gün dan yeri sökülməzdən çox-çox əvvəl əlində azca bişmiş çörək gölün lap qırağında vargəl edəndə Qronv gözlərini sakit sulara dikmişdi.

Qoyunlarla keçilər Fan dağının sıldırım qayalıqlarında yem gəzir, inəklər isə daş parçalarının arasında veyl-veyl gəzərək yol axtarırdı. Arabir səmanı qara buludlar basır, yağış tökür, yenidən havanın qaş-qabağı açılır, günəş baxtiyar-bəxtiyar gülümsəyirdi. Amma Qronv ətrafında baş verən bu dəyişiklikləri hiss etmək iqtidarında deyildi, çünki o, məhəbbət dəryasın qərq

olub hər şeyi unutmuşdu. Səhər öz yerini günortaya verdi, bir müddət sonra günəş dağların dalında gizləndi. Beləliklə, axşam düşüb şər qapışdı. Yağış damcılarının qaranlıqdan don geymiş göl sularında yaratdığı halələrdən və pıçıldaşan ləpələrdən başqa heç nə gözə dəymirdi ki, dəymirdi.

Qaranlıq qatılaşmağa başlayıb göz-gözü görməyəndə Qronv qəlbini sarmış kədər içərisində axırıncı dəfə gölə nəzər saldı, birden Suyun üzü ilə addımlayan bir neçə qapqara inək gördü. Bu qəribə heyvanların görünüşü Qronvun qəlbində göldə yaşayan gözəl qızı görmək umidini artırdı. Bəli, çox keçməmiş qız yenidən peyda oldu. O, hemişəkindən də gözəl idi.

Qız Qronva yaxınlaşan kimi o özünü gölün buz kimi soyuq suyuna atıb qızı qarşılamaq üçün əl-qol atdı. Qronv yarıbişmiş çörəyi qıza uzatdı. Bu dəfə qız minnətdarlıqla Qronvun töhfəsini qəbul etdi, hətta sahilə çıxmaq üçün əlini Qronva verdi. Onun nitqi tamam tutuldu. Yanaqları pörtüb-allanmış Qronv başını aşağı dikib, gözlərini qızın ayaqlarına zilləmişdi. Elə bu dəm qızın sol ayağındakı səndəlin başını qırıq olduğu Qronvun nəzərini cəlb etdi.

Xeyli sonra Qronv cürətlə gəldi, gözlərini qızın qonur gözlərinə zilləyib dedi:

- Göldə yaşayan əziz xanım, mən sizi elə çox sevirəm ki, bu sevgimi sözlə izhar etməyə çətinlik çəkirəm. Sizə yalvarıram ki, mənim arvadım olasınız.

Qronv qıza elə ürəkdən yalvarıb, ilan dili çıxartdı ki, axırda qız ona söz verdi ki, onun nişanlısı olacaq. Amma bir şərtlə: Qronv əl qaldırıb onu döyməsin.

İşdir, haçansa Qronv qıza yersiz üç şillə vursa, qız həmişəlik onu atıb gedəcəkdi. Qronv onunla razılaşdı, dedi ki, o heç vaxt qıza əl qaldırmaz. Belə yaramaz iş görməkdənsə, əlini kəsib atar.

Əlini ehmalca Qronvun əlindən çəkən qız ox kimi süzdü, gölə atılıb suya cumdu. Rəhmsizcəsinə ələ salındığını fikirləşən Qronva elə gəldi ki, qız bir daha geri qayıtmayacaq. Qronlvun qüssədən beli büküldü, özünü göldə boğub öldürmək qərarına gəldi. Qalxıb becid addımlarla gölə doğru meyllənən nəhəng qaya parçasının başına qalxdı. Elə özünü gölün dibinə atmaq istəyirdi ki, qulağına qışqırıq səsi gəldi:

- Dayan, igid oğlan, bura gəl!

Qronv çevrilib səs gələn tərəfə baxdı, ağsaçlı bir qoca gördü. Qoca kral qiyafəsində idi, yanında da iki gözəl qız var idi. Onların hər üçu göldən peyda olmuşdu. Qronv qayadan aşağı düşüb onlara yaxınlaşdı. Qoca müraciətlə Qronva dedi:

- Sən mənim qızlarımın biri ilə evlənmək istəyirsən. Qoy sən deyən olsun. Sənin arzunun həyata keçməsinə mənə olmayacamğam, çünki qızımın da sənə meyli var. Amma əvvəlcə, evlənmək istədiyin qızı tanımalısan.

Qronvun qəlbinə yüngüllük çökdü. Heç o, göldə yaşayan sevgilisini tanımaya bilərdimi? Lakin Qronv Qocanın yanındakı iki qıza diqqətlə baxıb çaş baş qaldı, çünki qızların hər ikisi sanki bir gülun iki ləçəyi idilər. Əgər Qronv fürsəti fövtə verib barmağını səhv uzatsa, sevdiyi qızın üzünə ömürlük həsrət qalacaqdı.

Qronv fikirləşəndə ki, səhv ede bilər, bütün ümidləri alt-üst oldu, bu çətin imtahandan boyun qaçırmaq istədi. Lakin birdən qızlardan birinin sol ayağını yngülcə tərpətdiyini gördü. Qızın bu zərif hərəkəti Qronvun iti gözlərindən yayınmadı, o, qızların ayağına baxan kimi qırıq səndəl bağı nəzərlərini cəlb etdi. Sevincindən qışqıran Qronv dərhal sevgilisinin əlindən tutdu.

- Sevdiyin qızı düz tapmısan,- inadkar qoca dilə gəldi.- Qızım üçün mehriban və sevimli ər ol. Mən də sizə cehiz kimi saysız-hesabsız inək, qoyun, keçi, donuz və at verəcəyəm. Amma bunu yadında saxla: əgər sən qızıma üç dəfə yersiz şillə vursan, o həmişəlik mənim yanıma qayıdacaq.

Qronvun sevincinin həddi-hüdudu yox idi. Sevdiyi qız birnəfəsə saymağa başladı və inəklər böyürə- böyürə göldən çıxdı. Qız saymaqda davam etdi, bir göz qırpımında göldən bir sürü qoyun mələşə-mələşə sahilə çıxdı. Bu minvalla qız bir sürü keçi, donuz, bir ilxı da at götürdu.

Qoca və ikinci qızı artıq qeyb olmuşdular. Qronv nişanlısının qoluna girib onu öz fermasına apardı. Bütün heyvanlar onların arxasınca axışıb gəldi.

Bir neçə gündən sonra Qronv qızla evləndi. Bir müddət sonra Midvey kəndindən təxminən bir mil aralıda yerləşən Esqer Lletdi adlı fermaya köçüb orada məskən saldılar. Bu fermada onlar bir neçə il şad-xürrəm yaşadılar. Gün

keçdi, ay dolandı, onların üç qəşəng oğlu oldu. Kiçik oğlanın on yaşı tamam olanda Qronvla arvadı Nelferçi (göldə yaşayan qızın adı belə idi) qonşu kəndə xaç suyuna salmaqla ad qoydu mərasiminə dəvət etdilər. Onlar pay-piyada fermadan yola düşdülər. Hava olduqca isti, kənd isə uzaq idi. Tezliklə Nelferçin ayaqları ağrıdı, o şikayətlənib bildirdi ki, daha piyada gedə bilməyəcək.

- Piyada getməyə həvəsin yoxdursa,- Qronv dilləndi, evə qayıdıb sənin üçün at gətirim.

Nelferç razılığını bildirib ərindən xahiş etdi ki, onun əlcəklərini də gətirsin. Qronv evə qayıdıb arvadının əlcəklərini və bir dənə də at gətirdi. Qət etdiyi uzun yol onu yorub əldən saldı, isti nəfəsini qaraltdı.' .

Qronv arvadına at belinə qalxmağa kömək etmək istəyəndə Nelferç gözlənilmədən dedi:

- Mən fikrimi dəyişmişəm. Ay kişi, gəl qayıdıb evə gedək.

Arvadından gözləmədiyi bu sözlər Qronvu azacıq hövsələdən çıxartdı, o, özünü elə alıb ağlını başına toplayınca əlcəklərlə yüngülcə arvadını vurub dedi:

- Hə, Nelferç, gəl yolumuza davam edək.

Nelferç ata minib dərindən köks ötürdü: - Sən məni yersiz vurdun, bu birinci zərbədir.- Nelferç sözə başladı və ona ərə gedəndə qoyduğu şərti Qronvun yadına saldı.

Qronvun özünə acığı tutub dişi bağırsağını kəssə də, bu, ilk zərbə olduğuna görə o toxtayıb təskinlik tapdı. Qəti söz verib bildirdi ki, bir də heç vaxt arvadına əl qaldırmayacaq.

Bir neçə il sonra Qronvla arvadı bir toy məclisində iştirak edərkən Nelferç qəfildən elə yanıqlı-yanıqlı hıçqırmağa başladı ki, qonaqların sevinci, qəhqəhəli gülüşləri dərhal yoxa çıxdı. Qonaqların hamısı çevrilib Nelferçə baxdı.

- Sənə nə alub, ay gözümün işığı?- Qronv nəzakətlə xəbər aldı.

- Ağlayıram ona görə ki, bu iki gənc əzab dolu bir həyata qədəm qoyurlar: axı onlar bir-birinin tayı deyillər.

Qonaqların hamısı təəccübləndi, bəzilərinin bu yersiz sözlərə qəzəbi tutdu.

Bir neçə stəkan tünd pivə içmiş Qranv hikkəsindən qıpqırmızı oldu, arvadının çiynindən bərk-bərk yapışıb silkələdi.

Nelferç səsini kəsib gözlərindən yaş süzülə-süzülə ərinə baxdı.

- Eh, ay kişi,- o köks ötürdü - sən məni ikinci dəfə yersiz olaraq vurdun ha!

Bu hadisədən sonra Qronvun sayıqlığı birə min artdı. Arvadına olan məhəbbəti onu elə baxtiyar etmişdi ki, bir yersiz şillə ilə Nelferç onu əbədi tərk edib getsəydi, heç şübhəsiz ki, Qronvun ürəyi partlayardı.

İllər ötüb keçdi, uşaqlar böyüyüb yaşa doldu, ağıllı-kamallı gənc oldular.

Günlərin birində iş elə gətirdi ki, Qronv arvadı ilə yas yerinə getdi. Dəfn mərasiminin qızğın yerində Nelferç elə ucadan qəhqəhə çəkib gülməyə başladı ki, yas sahiblari nifrət dolu baxışlarla Nelferçi başdan-ayağa süzdülər.

Biçarə Qronv dilə gəlib arvadının qulağına pıçıldadı:

- Sakit al, arvad, yas sahiblarinin yanında bizi biabır etmə!

Nelferç ərinin sözlərinə əhəmiyyət verməyib daha da ucadan güldu. Başını itirib özünü unutmuş Qronv kobudluqla arvadının qolundan yapışıb onu məzarın yanından kənara itələdi. Qronv nə etdiyini dərhal dərk edib üzünü əlləri arasına aldı.

Nelferçin gülüş səsləri o saat kəsildi. O, ərinə tərəf çevrilib dedi:

-Mən gülürdüm, çünki adamlar bu dünyadan köçənda canları əzab-əziyyətdən qurtarır. Çox təəssüflər olsun ki, sevgili ərim, sən artıq üçüncü dəfədir məni vurursan. Sənə məlumdur ki, artıq bizim nigahımız pozulmalıdır. Əlvida, Qronv, mən həmişəlik səni tərk edib getməliyəm.

Nelferç sözünü tamamlayıb Esqer Lletdi fermasına tərəf yola düşdü. Fermaya çatıb cehiz gətirdiyi heyvanları adbaad səsləməyə başladı. Əvvəlcə inəkləri çağırdı:

Ala-bula xallı inək
Xal-xal inək, çilli inək
Ay ağ inək, qoca inək, -
Xalı mənə bəlli inək.

Ay boz rəngli Qerincerim,
Saraylardan gələn buğa,
Ay balaca qara dana,
Nə var göydən asılmağa
Düş qabağa, haydı gedək,
Evimizin yolu gödək.

Heyvanların hamısı dərhal Nelferçin çağırışına tabe oldu. Hətta kəsilib anbar divarında qarmaqdan asılmış balaca qara dana da dirilib qarmaqdan qopub düşdü, dərisinə bürünüb inəklara qoşuldu. Qoyunlar, keçilər, donuzlar, atlar səf-səf düzüləndən sonra heyvanların hamısı Nelferçin arxasınca yola düşdü. Onlar bir çox illər bundan əvvəl çıxdıqları gölə doğru üz tutdular.

Altı mil yol qət edəndən sonra gəlib gölə çatdılar. Onlar tərəddüd etmədən gölə doluşdular. Çox keçməmiş onlar sakit suların altında görünməz oldular. Sahildə qalan yeganə nişan gölə cumarkən bir atın arxasınca dartıb apardığı xışın torpaqda açdığı şırım idi. Deyilənlərə görə o şırım bu günəcən gölün sahilində qalır.

Arvadı gedəndən sonra həyat Qronv üçün öz mənasını itirdi. Sinəsi dərddən deşilən Qronv ümidsiz halda arvadını axtara-axtara gəlib gölün yanına çıxdı, onu tapmaq ümidilə özünü gölə atıb suda görünməz oldu.

Qronvun cəsədini gördüm deyən olmadı. İtkin düşmüş ata-analarını yenidən görmək ümidilə üç qardaş kol sahilinda günlərlə keşikdə durub gözlərini göldən ayırmadılar. Qardaşların valideynlərinə olan sədaqəti nəhayət öz bəhrəsini verdi. Bir neçə həftədən sonra Nelferç sudan çıxdı. Sonra o, gölün hamar səthi ilə asta-asta böyük oğlu Rivallona yaxınlaşdı.

Nelferç oğlundan xahiş etdi ki, kədərlənməsin. Axı, bundan sonra onlar yer üzündə yaşayıb insanların dərd-qəmini yüngülləşdirməli olacaqdılar. Bunu deyib Nelferç böyük oğluna insanları xəstəliklərdən müalicə edib sağaltmaq üçün çoxlu məsləhət verdi. Məsləhətə böyük ehtiyacları olsa, oğlanlarının görüşünə gələcəyinə söz verdi. Sonra Nelferç suya baş vurub gözdən itdi.

Sonralar bir neçə dəfə Nelferç oğlanları ilə göl sahilində görüşdü. Hətta

bir dəfə Nelferç onlarla evə sarı addımlayıb bu günəcən «həkimlər dərəsi» adı ilə tanınan al-yaşıla bürünmüş yerə kimi gəlib dərmən bitkilərini oğlanlarına tanıtdırdı.

Analarının məsləhətlərini yerinə yetiran qardaşlar o mahalda an bacarıqlı həkim kimi ad-san qazandılar. Qardaşlar Midveydə xəstəxana açıb köməyə ehtiyacı olanları müalilə etməyə başladılar. Müalica haqqını vermək imkanı olmayan kimsəsiz yoxsulları qardaşlar pulsuz-parasız müalicə edirdilər. O vaxtdan bəri Midvey həkimlərinin şöhrəti ölkənin hər yerinə yayılıb. Bu gün də onları ehtiramla yad edirlər.

YUMURTA Q ABIĞINDA BİTƏN ŞORBA

Treveqlis mahalında, Llandilos yaxınlığında yerləşən Montqomeri qraflığında bir çoban daxması var. Daxmanın adı Tut-i-Kumrusdur. Bunun mənası Ədavət Evi deməkdir. Sizə bu daxmanın adı ilə bağlı bir rəvayət danışacağıq.

Bir zamanlar o evdə ar-arvad yaşayırdı. Onların əkiz uşaqları olmuşdu. Ərlə arvad əkizlərə gözlərinin yağını yedirtməyə hazır idilər.

Bir dəfə qonşu qadın arvadı səsləyib yanına çağırdı. Arvad əkizləri evdə tək qoyub getdi. Qonşunun yanına gedib qayıtmaq çox vaxt almasa da, beşiyi bir dəqiqə belə nəzarətsiz qoyub getmək qorxulu idi. Axı ev kənddən çox aralıda yerləşirdi və deyilənlərə görə qulyabanılar bu yerlərdə olmazın oyunlar çıxarıb, şuluq salırdılar.

Arvad tələsə-tələsə gedirdi, yarı canı əkizlərin yanında qalmışdı. Geri qayıdanda yolda bir neçə qoca «mavi köynəklər» adlı qulyabanıya rast gəldi. Günün günorta çağı qulyabanıların gəzib-dolaşdığını, ora-bura vurnuxduğunu görən arvadın ürəyi qopdu! Evə girib əkizləri yerində görəndən sonra arvadın ürəyi yerinə gəlib sakitləşdi.

Günlər ötüb keçir, ancaq əkizlər böyümürdü. Ərlə arvad bu işə məəttəl qalmışdı. Əkizlər cırtdan kimi balaca qalmışdılar. Ər hirslənib özündən çıxır, deyirdi ki, əkizlər onunku deyil. Arvad hikkə ilə xəbər alırdı ki, əkizlər onunku

deyilsə, bəs kimindir. Bu minvalla ərla arvad arasına ixtilaf düşmüş vç o ətrafın camaatı bu evi ədavət evi adlandırmağa başlamışdı.

Bir axşam arvad dərdinə çarə tapmaq üçün Qur Kifaridin yanına məsləhətə getməyi qərara aldı. Arvada elə gəldi ki, müdrik Qur Kifarid fikirləşib onun dərdinə əlac tapar. Sizə onu da söyləyim ki, o vaxtlar vələmir və arpa zəmilərini biçməyə hazırlaşırdılar. Odur ki, Qur Kifarid bir az fikrə gedib sonra qadına dedi:

- Sən biçinçilərə xörək bişirəndə yumurtaların başını dəlib qazana tök, onların qabığında şorba bişir. Sonra otaqdan çıxıb qapını ört və özünü elə göstər ki, zəmidəki biçinçilərə yemək aparırsan, amma qapının dalında dayanıb qulaq as, gör əkizlər nə danışırlar. Əgər onlar uşaq ağlı kəsməyən şeylər desələr, dərhal otağa girib əkizlərin yaxasından yapış və hər ikisini suya tolazla. Allaha şükür, Llin Ebir çayı düz pəncərənizin altından axırki! İşdir, əgər qeyri-adi heç nə eşitməsən, əkizlərə toxunma.

Biçin vaxtı gəlib çatanda qadın müdrik qocanın dediyinə aməl etdi. Otaqdan çıxıb qapını dalınca örtən kimi qulağına səs gəldi. Bir körpə o birinə belə deyirdi:

- Qoza dönüb oldu palıd,
Çıxdı Cücə jumurtadan.
Qabığında şorba bişdi,
Heç doymadı bircə adam.

Bu sözləri eşidən ana qaçıb otaqa girdi, cəld əkizləri qamarlayıb tərəddüd etmədən Llin gölünə tulladı. Birdən haradansa peyda olan yarıçılpaq qulyabanılar gölə atılıb cırtdan boylu körpələrini sudan çıxartdılar və geri baxmadan dabanlarına tüpürüb aradan çıxdılar.

Qadın evə qayıdıb öz ciyərparalarını beşikdə sağ-salamat görəndə sevincinin həddi-hududu olmadı. Qulyabanılarbir daha cürət edib qadına kələk gələ bilmədilər. O vaxtdan bəri ərlə arvad arasında bir də narazılıq olmadı.

PANTANNAS ƏFSANƏSİ

Mertur Tidfil mahalında böyük bir çala var. Bəziləri bu çalanı ruhlar məskəni, bəziləri isə əfsanələr çalası adlandırırlar. Bir əsr bundan əvvəl bu çalaya yaxın bir yerdə Pantannas ferması yurd salmışdı. O vaxt fermerin örüşlərindən bir neçəsində ruhlar yerləşmişdilər. Hoqqabaz, səs-küylü ruhlar dəstəsindən femerin zəhləsi gedirdi. Odur ki, fermer ruhlardan canını qurtarmaq üçün uzun müddət çarə arayıb-axtardı.

Nəhayət qoca bir cadugər qarı fermerə söylədi ki, ruhlardan yaxa qurtarmaq olduqca asan bir məsələdir. Əgər fermer bir günün içində fermada sağılan südün hamısını ona versə, ruhlardan can qurtarmağın yolunu ona öyrədər. Fermer dərhal cadugər qarı ilə razılaşdı. Qarı fermerə məsləhət verdi ki, ruhlar dövrə vurub rəqs etdikləri örüşlərin hamısını kotanla şumlasın. Ruhlar onların əyləndiyi çəmənliyin altı üstünə çevrildiyini görəndə o saat küsüb inciyəcək və bir daha geri qayıdıb fermeri narahat etməyəcəklər.

Fermer cadugər qarının sözlərinə əməl etdi və ruhlar yoxa çıxdılar. Bundan sonra fermerin örüşlərində bir dənə də olsun ruh gözə dəymədi. Həmişə çəmənlikdən ruhların ərşə yüksələn xoş musiqi sədaları eşidilməz oldu. Pantannas fermasının bütün örüşlərində qulaqbatırıcı süküt hökm sürməyə başladı.

Amma bir axşam Pantannas fermeri çöldən evə qayıdarkən, yolda əynində qırmızı paltosu olan insan qiyafəsinə girmiş bir xırda varlığa rast gəldi. Fermer irəliləyib xırda adama lap yaxınlaşanda o, qılıncını sıyırıb ucunu fermerin sinəsinə doğru tuşladı və bu sözləri dedi:

- İntiqam vaxtı yaxınlaşır.

Fermer gülümsəməyə çalışdı, amma xırda adamın qəzəb dolu soyuq baxışları fermerin canına vic-vicə saldı.

Bir neçə gün sonra fermerin ailəsi istirahət etməyə hazırlaşarkən, dəhşətli bir gurultu qopub evin divarlarını silkələdi, fermerin ailəsi vahiməyə düşdü. Onlar ucadan danışan bir kəsin bu sözləri dediyini eşitdi:

- İntiqam vaxtı yaxınlaşır.

Səhəri gün zəmilərdən biçilmiş taxıl anbarlara daşınmaq üçün hazır olanda, bağlanmış dərzlər gözlənilmədən od tutub yandı. Nə bir sünbül, nə də bir dənə küləş ələ gəldi. Taxılı odlamaq ruhlardan başqa heç kəsin işi deyildi.

Asanlıqla guman etmək olurdu ki, fermer cadugər qarının sözlərinə qulaq asıb tutduğu işdən peşman olub bu hadisə ilə əlaqədar ürəyində çox təəssüfləndi. Çünki fermer ruhların qəzəbinə düçar olmuşdu.

Taxıl od tutub yanandan bir gün sonra fermer ruhların tutduğu işi gözdən keçirirdi. Bir neçə gün bundan qabaq rastına çıxmış çırtdan yenidən onun qarşısında peyda olub hədələyici baxışlarla qılıncını fermerin köksunə tuşlayıb dedi:

- Bu, intiqamın başlanğıcıdır.

Fermerin bənizi avazıyıb ağappaq oldu. Ayaq üstə quruyub qalmış fermer handan-hana cırtdanı səsləyib geri qayıtmasını xahiş etdi. Xırda adam fermerin yanına qayıtmağa həvəs göstərmədi, lakin bir az düşünüb-daşındıqdan sonra könülsüz-könülsüz fermerin yanına gəlib amiranə səslə nə istədiyini xəbər aldı. Fermer dərdinə ondan imdad istədi və dedi ki, o, böyük məmnuniyyətlə örüşləri yenidən dince qoyaçaq və ot göyərəndən sonra ruhlara imkan verəcək ki, istədikləri qədər göy çəmənliklərdə əylənsinlər, ancaq hirslərini onun başına tökməsinlər.

- Elə şey yoxdur,- cırtdan cavab verdi,- kral artıq öz sözünü deyib. O, ömrünün son gününəcən səndən qisas alacaq. Heç allahın da kralı bu sözündən döndərməyə gücü çatmaz. Mən bilirəm ki, əlahəzrət kral tüpürdüyünü alayan deyil.

Bu sözləri eşidən fermer hönkürtü ilç ağlamağa başladı. Bir müddət sonra ürəyinə insaf düşən cırtdan söylədi ki, bu məsələ barəsində şahənşahla söhbət edib üç gündən sonra qürub çağı bu yerə gələr və nəticəsini fermerə bildirər.

Fermer and-aman edib söz verdi ki, üç gündən sonra onu gözləyəcək. Təyin olunmuş vaxt tamam olanda cırtdan gəlib fermerin onu gözlədiyini gördü. Cırtdan fermeri görən kimi dedi ki, şahənşah onun xahişini ciddi

şəkildə götür-qoy etmiş, lakin kralın qərarını dəyişmək mümkün olmamışdı. Odur ki, fermerin ailəsindən qisas almaq qərarı qüvvədə qalır. Fermerin peşmançılıq hissi keçirib səhvini etiraf etməsi nəzərə alındığı üçün qisas nə fermerin, nə də uşaqlarının sağ vaxtına təsadüf etməyəcəkdi.

Bu xəbəri eşidən fermer xeyli sakitləşib təskinlik tapdı. Ruhlar yenidən fermerin örüşlərinə ayaq açıb əylənməyə başladılar. Onların qəlbəyatan şirin nəğmələri fermanın ətrafında gecələrin sükutunu tez-tez pozurdu.

* * *

Bir əsr ötüb keçdi. cırtdanın hədə dolu qarğışı fermerin ailəsinin başına düşməsə də, hamı bu bədbəxtliyin bir vaxt baş verəcəyinə əmin idi.

Ancaq cırtdanın, «İntiqam vaxtı gəlir» sözlərini eşitməyə o qədər adət etmişdilər ki, artıq hamı heç nə baş verməyəcəyinə inanmağa başlamışdı.

Yüz ildən sonra, Pantannas fermasının vəliəhdi qonşu fermerin qızı ilə evlənməyi qərara aldı. Qız Pen Kpeüq Daf fermasında yaşayırdı. Toy bir-iki həftədən sonra olmalı idi. Hər iki tərəfin valideynləri razılığa gəlmişdilər. Milad bayramı başlanmışdı. Qız gələcək ər evinə ayaq açıb tez-tez ora baş çəkirdi. Qızın gəlişi münasibətilə oğlan evi təmtəraqlı qonaqlıqlar təşkil edirdi.

Bəxtəvər sevgililər sobanın başında bardaş qurub vaxtlarını xoş keçirmək üçün bir-birinə məzəli əhvalatlar söyləyirdilər. Elə bu vaxt Taff çayının mənsəbindən ərşə yüksələn qorxunc bir səs iki gənci vahiməyə saldı. Evin aşağısından axıb gedən çayın yatağından bu sözlər eşidildi:

- İntiqam vaxtı gəlib!

Fermanı lal sükut bürüdü. Sonra hamı evdən bayıra axışıb ətrafı dinlədi. Səs ikinci dəfə eşidilmədi. Eşidilən yalnız qaya parçalarına çırpılan suyun coşub-daşan gurultusu idi. Dayanıb bir az gözləyəndən sonra, onlar kükrəyən suların səs-küyü arasından açıq-aydın seçilən və daşlara dəyib əks-səda verən hədələyici səsi yenidən eşitdilər:

- İntiqam vaxtı gəlib!

Bu hədəni heç kəs yozub bir yana çıxara bilmədi. Bəxtəvər sevgililər bərk qorxuya düşdülər. Qorxudan onların nitqi tutuldu. Çox keçməmiş onlar kor-

peşman evə qayıtdılar. Yenicə otağa girmişdilər ki, bütün bina məhvərindən silkələndi. Sevgililər həyəcan içində bir-birinə sarıldılar. Elə bu dəm pəncərənin yanındakı stolun üstündə balacaboy bir qadın peyda oldu.

- Ay eybəcər məxluq, sən nə istəyirsən?- evdəkilərdən biri xəbər aldı.

- Ay dili zəhər adam, mənim sənlə heç bir işim yoxdur,- balacaboy qadın dedi.- Məni buraya göndəriblər ki, bu ailənin başına nələr gələcəyindən agah olum. Sənə mən bunu deyə bilərəm: qız ürəyi limana yan ala bilməyən sahildə qalmış gəmi kimidir.

Losmanı yoxa çıxmış gəmi heç vaxt limana yan ala bilməz.

Sözu ağzından qurtaran kimi balacaboy qadın qeyb oldu. Qadının necə qeyb olduğundan heç kimin xəbəri olmadı.

Qadın zühur edəndən sonra çayın yatağından yüksələn səs xırp kəssə də, qadın yox olan kimi yenidən eşidilməyə başladı.

- İntiqam vaxtı gəlib çatıb!

Uzun müddət bu səs ara vermədi. Sevgililərin canını qorxu aldı və onlar bir-birilə danışmaq iqtidarında olmadılar. Hər ikisinin çöhrəsini kədər bürüdü. Nəhayət ayrılmaq məqamı gəlib çatdı. Vəliəhd Rayderk sevgilisi Qverfili Pen Kreyq Daff, evlərinə ötürmək üçün yola çıxdı. Bu yol Rayderk üçün gedər-gəlməz yol oldu. O, bir daha geri qayıtmadı.

Bədbəxt gəncin evə qayıtmadığını görən valideynlər yasa batıb qəm dəryasında qərq oldular. Gumanları gələn bütün yerləri ələk-vələk etsələr də oğlandan heç bir nişanə tapa bilmədilər. İxtiyar qoca Qverfid əli yerdən-göydən üzülmüş valideynlərə söylədi ki, yəqin oğlanı mələklər şirnikdirib təpəlikdəki Raven Rifan ruhlarının mağaralarından birinə aparıb.

* * *

Vaxt ildırım sürətilə ötüb keçir, həftələr aylara, aylarsa illərə dönürdü. Vaxt gəlib vədə tamam olanda Rayderkin atası da, anası da ömürlərini başa vurub dünyadan köçdülər. Pantannas fermalarında həyat əvvəlki kimi davam edirdi. Amma qərinələr ötdükcə fermanın sakinləri də bir-birini əvəz edirdi. Odur ki, Rayderkin yoxa çıxması ilə bağlı rəvayətlər tədricən yaddaşlardan

silinirdi. Bütün bunlara baxmayaraq Rayderkin yolunu hələ də gözləyən və onu görmək ümidini itirməyən bir nəfər vardı. O qadın hər səhər yola çıxıb təpəliyə sarı yeyin addımlarla gedir, sevgilisini görmək ümidi ilə gözlərində yaş gilələnə-gilələnə dörd tərəfi diqqətlə nəzərdən keçirirdi. Qadının dərdinə şərik çıxan yollar da qara geymişdi.

Qadın gözləri tor gətirənəcən yollara baxa-baxa qalır, göz yaşlarını sel kimi axıdaraq istəklisinin yolunda qəlbini şam kimi gilə-gilə əridirdi. Nəhayət qadının gözləri tutulub dünya işığına həsrət qaldı, ancaq yenə da nursuz gözlərini yollara dikməkdə davam etdi. Nə faydası, oğlan gəlmədi ki, gəlmədi.

Gününü görüb, dövranını sürmüş qarı ölüm yatağına düşdü. Çox keçməmiş dəhşətli ölüm qarının bütün ümidlərinə son qoydu. Qarının çəlimsiz, quru cəsədi qədim Fən kilsəsinin həyətindəki məzarlıqda qara torpağa basdırıldı.

Quş qanadlı illər keçib tüstü kimi yoxa çıxdı. Rayderki xatırlayan sağ adam qalmadı. Amma onun qəfildən yoxa çıxması ilə bağlı əfsanələr ağızdan-ağıza keçərək yaşamaqda davam edirdi. Bəli, Rayderk yoxa çıxandan sonra ruhlar bir də o yerlərdə peyda olmadı. O gecədən sonra ruhların lətif musiqi sədaları birdəfəlik kəsilib eşidilməz oldu.

Bilirsinizmi, bir gün Rayderk qayıdıb gəldi. Həqiqətən, onu pərilər yoldan çıxarıb mağaralarına aparıbmış. Bax əhvalat bu cür baş verib, Rayderk Pen Kreyq Dafdan evə qayıdarkən Raven Riftdəki mağaradan musiqi səsləri eşidib. Dayanıb ki, qulaq assın. Bir an sonra musiqi sədaları getdikcə uzaqlaşıb. Musiqini yaxşı eşitsin deyə Rayderk irəli addımlayıb mağaraya girib. Bir iki saat qulaq asandan sonra Rayderkə elə gəlib ki, musiqi səsləri kəsildi. Odur ki, sürətlə geriyə tərəf addımlayıb mağaranın ağzına gəlib.

Rayderk mağaradan çıxanda günəş buludsuz səmada millənib zərrin şəfəqlərini torpağa səpələyirmiş. Getdikcə Raven Riftdən uzaqlaşan Rayderk qədim Fən kilsəsi yerləşən sahəyə yaxınlaşdı. Kilsəni yerində görməyib heyrətindən mat qaldı! Rayderki fikirlər ağuşuna aldı. Görəsən, o, bu yerlərdə nə qədər olmayıb ki, kilsə yerində yoxdur?

Bir an sonra Rayderk özünü ələ alıb cəld addımlarla Pantannasa tələsdi.

O, evlərinin qapısını açıb birbaşa içəri keçdi. Otağın içərisi ona olduqca qəribə göründü, çünki o gedəndə otağı belə qoyub getməmişdi. Sobanın yanında bardaş qurub oturan qoca kişi da ona tanış gəlmədi. Qoca anlaşılmaz baxışlarla Rayderki süzüb xəbər aldı:

- Sən kimsən ki, belə cürətlə mənim evimə girmisən? Rayderk dərhal cavab verməyib susdu. İndi-indi ona agah olmağa başladı ki, həyatında nəsə izaha ehtiyacı olan böyük dəyişikliklər baş verib. Nəhayət Rayderk iradəsini toplayıb astadan cavab verdi:

- Mən Rayderkəm.

- Rayderk?- qoca təəccübləndi,- hansı Rayderk, bala? Mən səni tanımıram. Burada Rayderk adlı adam yaşamır. Ömrümdə Rayderk adlı tanışım olmayıb. Rayderk adını mən bir zamanlar babamdan eşitmişəm. Rəhmətlik babam bu yerlərdən altmış-üetmiş il bundan əvvəl lapdan yoxa çıxmış Rayderk haqqında hərdən söhbət salardı.

Rayderk çul kimi kətilin üstünə düşdü və hönkür-hönkür ağlamağa başladı.

Qüssəyə batmış Rayderkin acınacaqlı vəziyəti qocanın qəlbini muma döndərdi. O, Rayderki sakitləşdirmək üçün ayağa durdu. Nurani qoca əlini Rayderkin çiyninə qoyan kimi, pərvərdigara, nə olsa yaxşıdır, göz yaşları tökən varlıq xırdalanıb bir ovuc toza döndü!

TAFFİ AP SİON VƏ SEHRLİ DAİRƏ

Biri vardı, biri yoxdu, çox qədim zamanlarda pərilərin yığışıb gecə səhərəcən Nəğmələr oxuduğu, rəqs etdiyi çoxlu yaşıl çəmənlər var idi.

Pərilər yaşıl dairələrin içərisinə toplaşıb əylənərdilər. Bu vaxt bir kəs bura ayaq bassa, hər şeyi unudub illərlə orada qalar, onların musiqisinə qulaq asarmış. Belə yaşıl dairələrə Karmartenşir əyalətində Penkader yaxınlığındakı dərədə də rast gəlmək olur.

Keçmiş zamanlarda pinəçi oğlu Taffi Ap Sion adlı bir oğlan qoyunlarını tez-tez o dərədə otarırmış. Bir yay axşamı Taffi qoyunları haylayıb obaya

qaytarmağa hazırlaşırdı ki, qəfildən yaxınlıqdakı daşın üstündə bardaş qurub oturmuş balaca bir kişi gördü. Onun əynində mamırdan şalvar, qoltuğunda isə skripka var idi.

Bundan balaca bəni-insan məxluqunu təsəvvür etmək mümkün deyildi. Onun paltosu tozağacının yarpaqlarından tikilmişdi. Başında qaratikan gülündən dəbilqə var idi. Ayaqlarını böcək qanadlarından tikilmiş ayaqqabılara pərçim etmişdi. Balaca kişi barmaqlarını skripkanın üstündə gəzdirdi, musiqi sədaları Taffinin tüklərini ürpəşdirdi.

- Axşamın xeyir olsun, bala, axşamın xeyir olsun,- cırtdan dilləndi.

Taffi cavab verdi:

- Aqibətiniz xeyir.

Sonra cırtdan sözünə davam edib dedi:

- Sən rəqsi çox xoşlayırsan, Taffi, əgər bir az gözləsən, Uelsdəki ən mötəbər rəqqasələri görəcəksən. Mən özüm də onların sazəndəsiyəm.

- Bəs onda arfa hanı?- Taffi xəbər aldı.- Yaxşı görək, axı Uelslilər arfasız qol qaldırıb süzə bilməzlər.

- Bıy, canım-gözüm,- cırtdan cuşa gəldi.- Mən oyun havalarını skripkada daha yaxşı çalıram.

- O, əlindəki sim çəkilmiş taxta qaşığı skripka adlandırırsan? - Taffi gözünü çəkmədi, çünki ömründə bel əmusiqi aləti görməmişdi.

Bəli, çox keçməmiş Taffi gecənin qara qanadları arasından çıxıb onların dayandığı yerə tərəf yüzlərlə gözəl balaca pərilərin irəlilədiyini gördü. Dağın bütün guşələrindən pərilər axışıb gəlirdi. Bəzilərinin palları ağ, bəzilərininki mavi, bəzilərininki isə çəhrayı idi. Bəziləri də əllərində məşəl əvəzinə işıldaquş tutmuşdu. Pərilər barmaqlarının ucunda elə asta yeriyirdilər ki, ayaqları altında nə bir yarpaq, nə də bir çiçək əzilmirdi. Onlar Taffinin yanından ötüb keçəndə ədəblə baş əyib təzim edir, Taffi isə əvəzində papağını çıxardıb pərilərə baş əyirdi.

Bu dəm balaca çalğıçı kamanını skripkanın simlərinə vurdu. Onun tellərinden elə ecazkar təranələr axıb töküldü ki, Taffi heyrətdən donub qaldı. Füsunkar təranələr altında pərilər bölük-bölük mahnı oxumağa, rəqs etməyə

başladılar. Nəğmələri beləydi:

Oxuyuruq bütün gecə,
Əl-qol atıb oynayırıq.
O *yerdə ay bədilənir –*
Biz həməşə bəxtiyarıq!

Kədər, qəm də buzdən uzaq –
Hamımız şən bəxtəvərik.
Oxuyuruq, oynayırıq –
Biz həmişə bəxtəvərki!

Taffinin əvvəllər gördüyü rəqslərin heç birini indikilərlə müqayisə etmək olmazdı. Musiqi Taffinin sümüyünə düşmüşdü. Şən musiqi sədaları altında dingildəyən Taffi rəqsə qoşulmağa ürək eləmirdi, fikirləşirdi ki, gecə vaxtı dağın döşündə yad məxluqların dəstəsinə qoşulub şeytanın skripka təranələri altında qol qaldırıb sındıra-sındıra oynamaq, çox güman ki, tanrıya xoş gəlməzdi.

Nəhayət, sehrli musiqidən imtina edə bilməyən Taffi atılıb-duşən pərilərin dəstəsinə qoşuldu.

- Bax, belə ha!- Taffi sevincindən papağını göyə atıb ucadan qışqırdı.- Çal, ay qoca şeytan, çal görüm!

Taffi sözünü yenicə deyib qurtarmışdı ki, gözlərinin qabağındakı bütün varlıqların vücudu dəyişməyə başladı. Çalğıçının başındakı qaratikan gülündən olan papaq görünmədi, əvəzində bir cüt buruq keçi buynuzu püskürüb çıxdı. çalğıçının sifəti kömür kimi qapqara oldu. Yarpaq paltosunun altından uzun bir quyruq çıxıb yerə sallandı. Qanad başmaqlara pərçim etdiyi ayaqlarının yerində haça dırnaqlar peyda oldu. Taffinin ürəyi tıp-tıp döyünməyə başladı. Bütün varlığına hakim kəsilmiş qorxu qıçlarına dəli gücü verdi.

Pərilər də cürəbəcürə vücudlara çevrildi. Bəziləri keçi, bəziləri it, bəziləri pişik, bəziləri isə tülkü qiyafəsinə girdi. Heç yerdə belə qəribə dəstəyə rast gəlməzdin. Meydan getdikcə qızışdı, rəqqasələr elə çılğınlıqla rəqs edib dövrə

vururdular ki, biçarə Taffi artıq gözləri önündə kimin kim olduğunu ayırd etməyə çətinlik çəkirdi.

Pərilər onun başına elə sürətlə fırlanırdılar ki, sanki onlar alovdan yoğrulmuş təkərlər idilər.

Taffi hələ də rəqs edirdi. İstəsə də dayanmaq iqtidarında deyildi, çünki şeytanın skripkasından yüksələn sehrli səslər onun ixtiyarını əlindən almışdı. Odur ki, başından keçi buynuzları çıxmış o vücud tez-tez çaldıqca Taffi istəməsə də, fırfıra kimi fırlanırdı.

Bəli, bir qədər də rəqs edəndən sonra birdən Taffiyə elə gəldi ki, təsadüfən sehrli dairədən kənara bir neçə addım atıbdır. Bununla da hər şeyə son qoyuldu.

Artıq Taffinin gözləri öyrəşmiş tanış mənzərələr tamamilə dəyişib tanınmaz olanda onu təəccüb bürüdü. Bu yolları, evləri Taffi ömründə görməmişdi. Atasının uçuq-sökük daxmasının yerində möhtəşəm bir daş bina yüksəlirdi. Taffi yaxınlıqdakı hər qarışına bələd olduğu kecəl dağın əvəzində əkin üçün yararlı sahələr görüb təəccüb qaldı.

- Aha,- Taffi fikirləşdi.- Yəqin məni çaşdırmaq üçün bu da pərilərin təzə kələyidir. Vallah, heç on dəqiqə olmaz ki, o dairənin içərisinə qədəm basmışam. Madam ki, belədir bəs onda necə olub ki, cinlər atam üçün təzə bir mülk tikiblər! Eh, kaş gördüklərim çin olaydı. Hər halda gedib evə baxmaq pis olmaz.

Beləliklə Taffi tanıdığı cığırı tutub yola düzəldi, qəfildən ayağı möhkəm taxta çəpərə ilişdi. Gözlərini ovuşdurub barmaqları ilə çəpəri yoxladı. Boynunu qaşıyıb əlini yenidən çəpərə sürtdü. Barmağına tikan batdı, ucadan deyinməyə başladı:

- Hım! Əşşi, bu heç sehrbaz çəpərinə oxşamır ki! Elə tikanların zorbalığından da bilinir ki, çəpər köhnə çəpərdir.

Bu minvalla Taffi çəpərdən aşıb həyətə girdi.

- İşə bir bax ha!- deyib sual dolu baxışlarla ətrafına göz gəzdirdi.- Burada dünyaya göz açsam da, bu həyətdə mənə tanış gələn heç nə yoxdur.

Yekəpər bir it qəzəblə hürə-hürə irəli atılanda Taffinin matı-qutu qurudu.

- Bu nə deməkdir? İtil cəhənnəmə, idbar heyvan. Məgər bilmirsən ki, bu həyətin sahibi mənəm?

Taffinin sözlərinə məhəl qoymayıb it daha da bərkdən hürməyə başladı.

- Ola bilsin ki,- Taffi mızıldandı,- yolumu azıb tanımadığım bir qonşunun həyətində veyillənirəm. Ay canım, bu belə ola bilməz axı! Bax, bu da Kareqhir daşıdır ki!

Taffi ayaq saxlayıb indiyəcən Pennader dağının cənubunda qalan məşhur daşa nəzər saldı. 'Taffi dayanıb nəhəng daşı diqqətlə gözdən keçirəndə arxadan ayaq səsləri eşidib geri çevrildi, itinin niyə hürdüyünü ayırd etmək üçün gələn ev sahibini gördü. Zavallı Taffinin nimdaş vücudu Uels fermerinin ürəyinə rəhm saldı. Onun Taffiyə yazığı gəldi.

Fermer xəbər aldı:

- Sən kimsən, ay kasıb kişi?

- Bir zamanlar kim olduğumu bilirdim, amma indi kimliyimi deyə bilmərəm. Mən indiyəcən bu yerlərdə yaşayan pinəçinin oğluyam. Bir balaca dəyişsəm də, o qaya parçasını çox yaxşı tanıyıram.

- Zavallı,- fermer dilləndi,- sənin ağlın deyəsən başında deyil. Bu mülkü mənim ulu babam tikib, babam da təmir edibdir. Binanın təzə inşa edilmiş hissəsi ki var, onu da mən öz pulumla üç il qabaq tikdirmişəm. Cavan oğlan, sən ya səhv edirsən, ya da yolu azıbsan. Eybi yoxdur, içəri keç. Qonağım ol, toqqanın altını bərkidib özünə gəl.

Taffi inana bilmirdi ki, uzun müddət yatıb yuxuya qalıb yolunu azıbdır. ətrafına göz gəzdirib qaya parçasını gördü, dedi:

- Axı, mən heç bir saat olmaz ki, o qayanın başında qırğı yuvasını eşib alt-üst edirdim.

Bir az sonra Taffi başına gələnləri ev sahibinə söylədi.

- Aha, ev sahibi dilləndi,- indi mənə hər şey aydındır, demək sən pərilərlə bir yerdə olmusan. Bala, de görüm sənin atan kim olub?

- Qlenridli Sion Evan Krid,- Taffi cavab verdi.

- Belə bir adam haqqında heç vaxt eşitməmişəm,- deyə ev sahibi başını buladı,- məsələ burasındadır ki, mən heç Qlenrid adlı yeri də tanımıram.

Amma sən qəm yemə, bir az yeməkdən nuş elə, sonra gedək Penkaderli Kətti Şonun yanına. Bizə yenə o, kömək edə bilər.

Ev sahibi Taffiyə tapşırdı ki, onun arxasınca gəlsin. Xeyli sonra ev sahibi arxadan gələn ayaq səslərinin getdikcə zəiflədiyini hiss edib geri çevrildi, biçarə gəncin əriyib bir çimdik qapqara gülə döndüyünü görəndə qorxudan canına vicvicə düşdü. Gördüyü bu mənzərənin dəhşəti fermeri vahiməyə salsa da, o özünü elə alıb qoca Kəttini görmək üçün dərhal yola düzəldi. Çünki fermer Penkaderdə yaşayan cadugəri qarının bacarığına heç vaxt şəkk etmirdi. Fermer qarının daxmasına girdi. Qarı çör-çöpdən qaladığı ocağa yaxın oturub sümüklərini qızdırırdı.

- Xoş gördük, necəsən, Kətti Şon?

- Əşşi,- qarı dilləndi,- necə olacağam, lap dəf kimi, ay fermer, özüm də oturub fikirləşirəm ki, görəsən mənim neçə yaşım olar.

- Hə, qarı nənə, sən lap nuh əyyamından qalmısan. Madam ki, yaşının neçə olduğunu unutmusan izin ver səndən bir şey soruşum. De görüm Qlenridli Sion Krid haqqında yadında qalan bir şey varmı? Ümumiyyətlə, sən belə bir adam tanıyırdınmı?

- Dayan, dayan, Qlenridli Sion deyirsən? Bəli bir zamanlar qoca babam Evan Şenkinin dediklərini dumanlı şəkildə xatırlayıram. Babam nəql edirdi ki, bir səhər Sionun oğlu yoxa çıxmış, onu bir daha gördüm deyən olmamışdı. Rəvayətə görə onu pərilər aparmışdı. Onun atasının daxması da haradasa sənin mülkünün yan-yörəsindən idi.

Fermer xəbər aldı:

- Keçmiş zamanlarda pərilər çox olurdu?

- Eh, nə qədər desən. Bax, o təpənin üstündə pəriləri çox tez-tez görmüşlər. Hətta onları bu yaxınlarda Pənt Şon Şenkində bir həyətdən çırpışdırdıqları yumurta qabığında bişmiş yulaf sıyığı yeyən görüblər.

- Pərvərdigara, sən özün kömək ol!- fermer səsini qaldırdı.- İndi yadıma düşür ki, onları mən özüm də görmüşəm. Amma indi pərilər Sionun oğlunun vaxtındakı kimi çox deyillər.

Sonra fermer şahidi olduğu kədərli hadisəni yerli-yataqlı qarıya söyləyib

ürəyini boşaltdı.

LLİN BALA GÖLÜNÜN DİBİNƏ GÖMÜLMÜŞ ŞƏHƏR

Aqil qocaların dediyinə görə bir zamanlar Llin Bala gölünun sahilində möhtəşəm bir şəhər varmış. İndi bu şəhər qədimdən qalma sarayların su basmış qəbiristanına çevrilmişdir. Gölün dibinə gömülmüş bu şəhər bir daha hava və işıq üzü görməsə də, gəl öz dibində bu şəhəri əbədi olaraq canlı şahid kimi hifz edib saxlayıbdır. Hətta indinin özündə belə çox nadir hallarda olsa da bəzən gözlərini zilləyib gölün dibinə diqqətlə baxan adam zümrüd suların qoynunda təkcə göz qamaşdıran növ şəkilli torpaq qalaqlarını və həzin-həzin ləpələnən dəniz çiçəyi topalarını yox, sükuta qərq olmuş bu şəhərin enli küçələrini, çox qiymətli, möhtəşəm binalarını varaylarını görə bilər. Amma onu da deməliyəm ki, bu şəhər heç də həmişə sakit olmur. Hərdənbir bu şəhərdən də saat və zəng səsləri gah uzaqdan, gah da yaxından eşidilir. Bu səslərələ həzin, məlahətli olur ki, sanki insanları ibadətə çağırır. Bəzən də səslər qələbə sevinci dadmış insan səslərini andırır. Bilirsinizmi, zəng səslərini yalnız musiqi qabiliyyəti olan adamlar eşidə bilir. Bu səslər gün batıb qaş qaralan vaxt, bir də gecələr daha çox eşidilir.

Bəzi yaşlı qayıqçılar səsləyirlər ki, sakit aylı gecələrdə onlar su pərilərinin zəng səslərini saydığını eşidiblər.

- Bir, iki, üç, beş.

Bir iki, üç, beş.

Su pərisi bacardıqca sürətlə sayırdı.

Gölün dibindəki bu şəhərdən gələn səslər qədimdə olub-keçənləri unutmamaq üçün çalınan həyəcan təbilidir. Məsələ burasındadır ki, qədim zamanlarda şəhərdəki saraylardan birində təqid adlı Uels şahzadəsi öz arvadı Seridven ilə birlikdə yaşayırdı. Təqid çox rəhmsiz və qəzəbli bir adam idi. Onun haqqında deyirdilər: «Kimi istəsə öldürə bilər, kimi istəsə bağışlaya bilər». Təqidin hakimiyyəti, hökmü və müstəqilliyi bu qədər idi.

Bir gün şahzadə bağda gəzib yay səhərinin xoş mehindən zövq alarkən qulağına bir səs gəldi:- Qisas günü gəlib çıxacar.

Demək olar ki, o dəqiqə ikinci bir səs xəbər aldı: - Nə vaxt gəlib çıxacaq?

Sonra Teqid birinci səsin verdiyi cavabı da eşitdi:

Üçüncü nəsil ömür sürməyə başlayanda.

Bu sözlərə gülən Teqid nifrətlə hədəni özündən uzaqlaşdırıb bir daha bu haqda düşünmək istəmədi.

Bir neçə il sonra Teqidin üç oğlu oldu.

Oğlanlar Teqidden də qansız olmağa başladılar. Teqid bir dəfə bağda gəzərkən həmin səslərin eyni sözləri təkrar etdiyini yenə eşitdi:

- Qisas günü gəlib çıxacaq.

- Nə vaxt gəlib çıxacaq?

- Üçüncü nəsil ömür sürməyə başlayanda.

Teqid yenə də hədəni özünə yaxın buraxmadı.

Quş qanadlı illər ötüb keçdi. Teqidin böyük oğlunun ilk uşağı dünyaya göz açdı. Oğlan uşağının doğulduğu gün sarayın divarları da sevindi, çünki kralla kraliçanın oğlu olmuşdu. Qonşuluqdakı təpələrin ətəyində yaşayan yoxsul arfa çalanın dalınca adam göndərdilər ki, gəlib o gecə məclisi və rəqs edənləri musiqi ilə əyləndirsin. Gəlib saraya yetişən arfa çalan saysız-hesabsız qonaq görüb təəccübündən əli üzündə qaldı. Qonaqların arasında nəcabətli lordlar, şahzadələr və şahzadə xanımlar var idi. O, heç zaman belə cah-calal və büsat görməmişdi. O, arfasını çalmağa başlayanda rəqs edən alicənab ağalar və xanımlar çox əla görkəmə düşürdülər. Şənlik mərasiminə şərab xüsusi gözəllik verir, gümüş şamdanlar və qızıl qədəhlər də rəqsə başlayıb mənliyin ahənginə uyğun cingildəyirdi. Qəddar şahzadə və onun başının xlaqsız dəstəsi üçün arfa çalmaq ona daxilən əzab verirdi.

Gecə yarısına az qalmış rəqs mərasimi ara verəndə arfa çalanı tək buraxdılar və birdən onun qulağına pıçıltı ilə avazla deyilən nəğməyə bənzər bir səs gəldi:

- Qisas günü gələcək, qisas günü gələcək!

Arfa çalan dərhal ətrafına göz gəzdirib başı üstə qanad çalan xırdaça bir

quş gördü. Quş onun başı üstündə dövrə vurub arfa çalana işarə etdi ki, onun dalınca gəlsin. Quşun arxasınca düşən arfa çalan onu gözdən qaçırmamağa çalışsa da, onlar saraydan kənara çıxan kimi arfa çalan geri qayıtmaq istədi. Amma quş arfa çalandan əl çəkməyib onu arxasınca getməyə dəvət etdi və şikayət dolu qüssəli səslə bu sözləri zümzümə etdi:

- Qisas günü gələcək, qisas günü gələcək.

Əgər quşu izləməsə, bir şey baş verəcəyindən qorxub çəkinən qoca arfa çalan quşu izləyə-izləyə bataqlıqlar üstündən aşıb, cəngəlliklərdən keçdi. Bütün bu vaxtı arfa çalanın qənşərində qanad çalan quş onu təhlükəsiz çığırlardan keçirtdi. Arfa çalan bir anlıra ayaq saxlayan kimi quş daha dərin kədərə bələnmiş bir səslə eyni sözləri yanıq lı-yanıqlı zümzümə edirdi:

- Qisas günü gələcək, qisas günü gələcək!

Onlar xeyli yol gedəndən sonra saraydan aralıdakı təpənin başına gəlib çatdılar. Qoca arfa çalan yorulub taqətdən düşdüyü üçün cürətlənib dincini almaqdan ötrü ayaq saxladı. Quşun xəbərdaredici səsi bir daha eşidilmədi. Qulaqlarını şəkləyib ətrafı dinlədi. Yaxınlıqdan şırıltı ilə axıb gedən çay səsindən başqa heç nə eşitmədi. Arfasını sarayda qoyub çıxdığını əfəllik hesab edib öz-özünü məzəmmət etdi.

Elə bu vaxt ay qara bir buludun arxasında gizləndi. Aləmə qatı qaranlıq çəkib göz-gözü görmədi. Çox keçməmiş həm qaranlıq, həm də yorğunluq onu üstələdi. Uzanıb dan yeri qızaranacan şirin-şirin yatdı.

Səhər tezdən arfa çalan yuxudan oynayıb ətrafına nəzər saldı və az qaldı ki, gözlərinə inanmasın. Məsələ burasındadır ki, o, başını döndərib saraya doğru baxanda saraydan əsər-əlamət görmədi. Sarayın yerində iri, sakit bir göl əmələ gəlmişdi. Arfa çalan gölə baxanda suyun üstündə üzən bir əşya diqqətini cəlb etdi. Gölün sahilinə yaxınlaşıb suyun səthində öz arfasını gördü. Arfa gölün sakit suyu ilə üzə-üzə ona tərəf irəliləyirdi.

ŞƏRQİ İNGİLTƏRƏ NAĞILARI

BATAQLIQ MƏLƏKLƏRİ

Mələk adı çəkdiniz? Canım-gözüm, köhnə bataqlıq mələklərlə doludur. Onları günortadan-gün əyiləndən sonra, yəni saat dörddə, səkkizdə, on ikidə görmək ən münasib vaxtdır. Soruşursunuz ki, mən heç mələk görmüşəmmi?

Əlbəttə, görmüşəm. İşdir, siz də mənim qədər dövran sürüb, gün görsəniz, həftədə beş gec brakonyerlik edib balıq ovuna çıxsanız, şübhə etmirəm ki, mələk görmək sizə də qismət olar. Vaxt var idi mən balıqların yeməli vaxtında çayda cəmləşmiş çanaq balığı ovlayırdım. Bir qayda olaraq çanaq balıqları Litlport Çeyrə çathaçatda başı göylərə çatan lənətə gəlmiş o göyrüş ağacının həndəvərinə toplaşırdı. Çox-çox illər bundan əvvəl çayın lap kənarında bir ev var idi. İndi o evdən əsər-əlamət qalmayıb. Bir axşam çaya tilov atıb saatlarla gözləsəm də, bircə dənə də olsun balıq tuta bilmədim. Şey-şuyumu yığışdırıb evə getmək istəyəndə sınıq-salxaq qayığım ləngər vurmağa başladı. Təəccübləndim ki, görəsən nə olub. Çox keçməmiş iki əl qayığın böyründən möhkəm-möhkəm yapışdı, özümü yıxılmaqdan güclə saxladım. Qorxudan nitqim tutulmuşdu. Qayığın içində təzəcə oturmuşdum ki, yaraşıqlı gənc bir qadının dırmaşıb qayığa qalxdığını gördüm. Onun düz topuğuna çatan uzun saçları var idi. Əndamına yayılmış bu saçlar onu yalnız soyuqdan qoruya bilərdi. Siz düşünən qədər də ağciyər deyildim, amma məndən bir az yuxarıda bir gəncin balıq tutduğunu bildiyimçün az-maz narahat olmağa başladım, çünki o oğlanın gəlib məni qayıqda gözəl, cavan bir qadınla görəcəyi fikri heç xoşuma gəlmirdi. Odur ki, qadından xəbər aldım:

- Nə istəyirsiniz, gözəl xanım?

Qadın başını buladı. Onun saçlarından su damcıları ətrafa sıçradı. Bir-iki damcı düz gözümün içinə düşdü. Cözlərim sulansa da, qadının dərisinin mərmər kimi ağ olduğu nəzərimdən yayınmadı. Yenidən sual verdim:

- Axı, sizə nə lazımdır?

Amma sözümü qurtarmamış qadın qayıqdan atılıb çaya düşdü, qolları arasında tutduğu bir çağa ilə yenidən qayığa qayıtdı. Mən qadının balıq tutmaqda pərgar olduğunu söyləyib əlavə etdim ki, bütün gecəni burda lövbər salmışam. Çaya tilov atsam da, heç ne tuta bilməmişəm.

Bəli, qadın bir müddət qayıqda oturub çağaya qulluq etdi. Sonra bəxtimin koğlurundan şikayətlənib bildirəndəki, evə qayıdıb yatmaq istəyirəm, qadın əlini çaya salıb sudan bir neçə çanaq balığı çıxartdı. Bir an sonra qayıq elə şiddətlə ləngər vurmağa başladı ki, oturduğum yerdən arxası üstə yerə

yıxıldım. Peysərim qayığın dibindəki taxtaya şappıltı ilə elə dəydi ki, dərhal huşumu itirib özümdən getdim. Bayaq dediyim oğlanın gəlib məni ayıldıncaya qədər dünyadan xəbərim olmadı. Oğlan məni oyada-oyada bu sözləri dedi:

- Ay səni lənətə gələsən, bütün gücünü çayda keçirsəm də, bir dənə də balıq tuta bilməmişəm, amma sən çaydan bu qədər balıq tutmusan; əldən-dildən düşüb yatmısam.

Onu da deyim ki, qayığın dibinə baxanda lap təəccüb qaldım. Vallah, bu qədər balığı mən heç bir həftəyə də tuta bilməzdim. Toru sudan dartıb çıxardanda onun da balıqla dolu olduğunu gördüm.

- Belədir də,- dilləndim,- bu gecə bəxtim gətirib. Həm də köməkçim var idi. Amma mənə elə gəlir ki, o, çoxdan yığışıb evə gedibdir.

- Elə mənim də evə getmək vaxtımdır,- oğlan dedi, yəqin ki, kaftar arvadınla çayda bir dənə də balıq qoymamısınız.

Səhəri gün məhəlləmizdə yaşayan ixtiyar qoca Bob Hyutonu görməyə getdim. Yalan olmasın, yaşı çoxdan yüzu haqlayıbdır. Çox ağır eşitdiyinə görə ağzımı onun qulağına söykəyib qışqırdım:

- Bob baba, sən heç axşamlar o lənətə gəlmiş göyrüş ağacının yan-yörəsində balıq tutmusanmı?

- Altmış ildən çoxdur ki, balıq tutmuram,- o cavab vərdi,- çünki bir axşam mən orada balıq tutarkən, allaha and içirəm ki, o vaxt sərxoş-zad deyildim, sudan bir arvad atılıb çıxdı, dırmaşıb mənim qayığımın içinə düşdü. həmin anda mən qayıqla sahildən təxminən dörd yard aralanmışdım. Qorxudan qıçlarıma necə güc gəldisə, təkan vərib bir sıçrayışla sahilə düşdüm, bir nəfəsə evə sarı qaçdım. Bilirsiniz, keçmiş bir əhvalatın ucundan-qulağından eşitmişdim ki, çox illər bundan əvvəl o göyrüş ağacının yaxınlığındakı evdə yaşayan kişinin qızı qulluqçuluq etdiyi Kembric şəhərindən evlərinə körpə uşaqla qayıdıbdır. Qızını uşaqla görən ata qəzəbindən əsib-coşaraq onların hər ikisini tutub çaya atmışdı. Əlbəttə, bu dediklərim mən dünyaya göz açmazdan çox-çox əvvəl olubdur. Odur ki, bu hadisənin həqiqət olub-olmadığını deyə bilmərəm. Amma dünya görmuş ixtiyar qocalar and-aman edirlər ki, bu, olmuş əhvalatdır. Buna görə də çayın o hissəsi çanaq balığı ilə doludur. Bu

söbətdən də qaranlıq düşəndən sonra heç kəs orda balıq tutmağa cürət eləmir. Əgər siz həqiqətən qoca Cək Meykronun başına gələnləri öyrənib-bilmək istəyirsinizsə, gedin ondan soruşun. İşdir, o sizə bir şey deməsə, onun başına gələnləri mən bircə-bircə sizə söyləyərəm.

Bəli, Cək cavanlıqda Villo Rou fermasında qulluqçu bir qıza vurulub onun nazı ilə oynayırdı. Bir axşam qulluqçu qızın xanımı və ağası evə çox gec qayıdası idilər. Odur ki, qulluqçu qız Cəki vadar etdi ki, fermaya gəlib ona qulaq yoldaşı olsun. Cək bu təklifi məmnuniyyətlə qəbul etdi. O bilirdi ki, ləzzətli şam yeməyi ilə qarnını doydurub, evdə saxlanan pivə və viskidən nuş etməyə imkanı olacaq. Sözsuz ki, sevgilisi onu qonaq edəcəkdi. Hə, Cək yeyib içəndən, qızla dilxoşluq edəndən sonra gecə saat birə qalmış öz evlərinə yollandı. Əgər kimsə Bob Smitin qayığını minib çayın o biri sahilində saxlamasaydı, çox güman ki, Cəkin başına heç bir hadisə də gəlməzdi. Belə ki, Bob öz qayığına minmək istəyəndə gözləyirdi ki, o biri sahildən gələn bir adam sürüb qayığı onun yanına gətirsin. Onu da deyim ki, həmişə təkrar olunan bu hərəkətlər Bobun canını boğazına yığmışdı. Lazım olanda qayığı yerində tapsın deyə Bob hər axşam qayığın başına yoğun bir kəndir keçirdib, o biri ucunu əlində tutaraq evə gəlir, kəndiri yataq otağının pəncərəsindən aşırıb yatdığı çarpayının qıçına sarıyır. Sonra tüfəngini doldurub pusquda dayanır.

Bəli, Cək o məlun göyrüş ağacının yanına çatana kimi sahil boyunca addımladı. Bu yerin ruhlarla dolu olduğunu bilirdi. Odur ki, bədənini sarmış vahiməni özündən uzaqlaşdırmaqdan ötrü fit çalmağa başladı. Yenicə ağaçın yanından keçmək istəyirdi ki, suyun şırıltısını eşidib dayandı. Başını döndərib körpə uşağını bağrına basıb sahilə çıxan bir qadın gördü. Cəkin qorxudan ödü ağzına gəldi, dabanına tüpürüb sahil boyunca götürüldü. Qəfildən Bobun qayığına bağladığı kəndir Cəkin xirtdəyinə keçib onu saxladı. Çarpayının qıçına sarınmış kəndirin verdiyi güclü təkan qoca Bobu yuxudan ayıltdı. O, sıçrayıb çarpayıdan dik atıldı, pəncərədən patronları havaya boşaltdı. Ani olaraq baş verən bu hadisələrə tab gətirməyən Cək üzü üstə tirtap düşüb huşunu itirdi, səhərəcən dünyadan xəbərsiz uzanıb orada qaldı. Sehərə-səhər sahil boyunca gəzib-dolaşan bir cavan Cəki tapıb evinə apardı. Cəki çarpayıya

uzatdılar, o, bir neçə həftə yorğan-döşkdən qalxa bilmedi. Dizinə qüvvət gəlib ayağa durduqdan sonra Cək istəklisinin yanına gedib bildirdi ki, bir də heç vaxt şər qarışandan sonra qızın yanında qalmayacaq, çünki, o ruhla bir də üz-üzə gəlmək istəmirdi.

Bax, qoca Bobun mənə nəql etdiyi əhvalat belədir. O vaxtdan bəri mən də oraya balıq tutmağa getməmişəm.

O biri yay Kembriç kolleclərinin birindən iki oğlan bizim kəndə gəlib çıxdı. Məndən çoxlu balıq tutmaq üçün ən münasib yeri xəbər aldılar. Onlar axşamlar yelkəni aşağı salıb qayığın üstünə çadır çəkir, göyərtədə yatırdılar. Demişdim ki, qayıqlarını lə'nətə gəlmiş göyrüş ağaçının yaxınlığında saxlasınlar. Əvvəlinci bir neçə axşam onlar bütün günü əldən-ayaqdan getsələr də, balıq tuta bilmədilər. Axşamlar yanımıza gəlib pivəxanada bizimlə söhbətə qoşuldular.

Bir gecə öz qayıqlarında uzanıb yenicə yuxuya getmişdilər ki, qayıq ləngər vurdu, ara verməyən su şırıltısı onları yuxudan oyatdı. Oğlanlardan biri başını çadırdan çıxardıb ətrafa boylandı. Ona elə gəldi ki, bir dəstə yük boşaldan kiçik gəmi ötüb keçir, amma heç nə görə bilməyib yerinə uzandı. Çox keçməmiş qayığın şiddətli ləngəri ikisini də yuxudan durmağa məcbur etdi. Paltarlarını geyinib çadırdan çıxdılar. Alatoranda çaya çökmuş dumanın arasından bir qadın çıxdı. O, tamam çılpaq idi, ayaqlarını qayığın kurəklərinə keçirdib suda avar çəkirdi. Oğlanlardan biri sürünə-sürünə qadına yaxınlaşıb irəli əyildi ki, onun belindən yapışıb yuxarı qaldırsın. Qadını qaldırmaq üçün bütün gücünü toplamaq istədi. Amma heç nədən yapışdığını görüb müvazinətini itirdi, kəllə-mayallaq suya yıxıldı. Yoldaşını xilas etmək üçün qa-yıqdakı oğlan cəld suya kəndir atdı. Suya yıxılan oğlan isə xeyli sonra bizə nəql etdi ki, o, yıxılan kimi qadın onun ayaqlarından yapışıb üzməyə imkan verməmişdi, onu suyun altına dartmağa cəhd etmişdi.

Belə-belə işlər, oğlanların hər ikisi bütün gecəni oturub qadının yenə sudan çıxmasını gözlədilər. Amma qadın bir daha sahilə çıxmadı ki, çıxmadı. Odur ki, oğlanlar qayığı sahilə çəkdilər, Kembricə qayıdana kimi qayıq orada qaldı. Onlar gedəndən iki həftə sonra gənc pivəxanasının sahibinə bir qəzet

göndərdilər. O, qəzeti bizimçün ucaDan oxumağa başladı, çünki çoxumuz qəzet oxuya bilmirdik. Qəzetdə yazılmışdı ki, Brandon Krik yaxınlığındakı Aus çayında su pərisini görənlər olub. Belə ki, iki cavan Oğlan qayığın lap kənarında dayanıb saçını darayan su pərisinə saatlarla tamaşa ediblər. Guya su pərisi oğlanlardan birinin boyunlurundan yapışıb onu suya salıbdır. Yoldaşı olmasaymış, oğlanı özü ilə suyun altına aparacaqmış.

Bu xəbər aləmə yayılandan sonra su pərisini yenidən görmək ümidilə sahilə nə qədər adam yığışdığını bir təsəvvürünüzə gətirin!

Yaranmış qarmaqarışıqlıqdan istifadə edib düz bircə ay heç birimiz içdiyimiz pivənin pulunu ödəmədik. Girəvə idi keçmişdi əlimizə də! Xeyli sonra bu məsələyə camaatın marağı azalıb ara soyumağa başlayanda bu yerlərə haradansa bir oğlan gəlib çıxdı, bildirdi ki, qəzetdə çap olunmuş yazının müəlliflərindən biri də odur. Adamlarla söhbət əsnasında dedi ki, gündüzlər yatacaq, sudan peyda olan qadını, görmək üçün gecələr keşik çəkəçəkdir.

O oğlanın kalan pulu vardı. Onu da deyim ki, pulunun qədrini bilən oğlan idi. Qaranlıq düşəndən sonra o, bizə bircə-bircə haqq verib özü ilə çaya aparırdı. Bir saat müddətində ona həyan olmaq üçün beş şillinq pul verirdi. Səhərəcən onunla qayıqda oturan axırıncı adamı bir qayda olaraq özü ilə pivəxanaya şam yeməyinə aparırdı. Sonra oğlan qayığa bir səbət yemək qoyurdu. Soyuqdan qorunmaq üçün həmişə qayıqda bir şüşe likör olurdu. Oğlanda xoşa gəlməyən yeganə cəhət onun bir az pinti olması idi. Pivəxana sahibinin arvadı donquldanırdı ki, oğlan gündüzlər pivə içməyə gələndə o, bir iri qazan su asmağa məcbur olurdu, çünki üst-başını tamam -kamal yudurtmasa, yatmağa getmirdi. Hamımız fikirləşirdik ki, bu, suya, oduna israfçılıqdır. Pivəxana sahibi oğlanın lazımlı işlə məşğul olduğunu bilsə də, o bezib təngə gəlmişdi. Hər səhər tər-təmiz geyinmək istəyən oğlanın pal-paltarını yumaqla əlavə iş görən qarı deyinib kişinin beynini qurd kimi deşirdi. Bir dəfə oğlan kişiyə deyəndə ki, biz hamımız qanmaz əbləhlərik, kişi lap cin atına mindi. Amma biz ağzımıza su alıb durduq, çünki onun başı xarab olmadığını, hər gün ondan pul çəkdiyimizi nəzərə alıb dediklərinə əhəmiyyət

vermədik.

Bir gün oğlan gözləməkdən cana doyduğunu söyləyib həftənin sonunda Londona qayıtmaq niyyətində olduğunu bildirdi. Dedi ki, əgər həqiqətən su pərisi varsa, üç gecə keçməmiş o zühur edəcək. Cümə günü oğlanla birkə keşik çəkmək mənim növbəmə düşdü. Dedim ki, həmin günü su pərisinin peyda olması üçün çox yaxşı imkan var, çünki o gecə yarıdan keçəndən sonra ay şəklini deyişəcəkdir. Məsələ burasındadır ki, ay şəklini dəyişəndə o gecə həmişə sudan çıxır. Bu xəbərdən xoşhal olan oğlan bildirdi ki, cümə axşamı doyunca yatıb gözünün acısını alacaq, çünki o gecə oyaq qalmağın xeyiri yox idi. Porki Porterin mənə açığı tutdu, çünki cümə axşamı. Ləzzətli şam etmək onun növbəsi idi. Mənsə Porkiye bildirdim ki, o, şam üçün əlini cibinə salmalı olmayacaq, çünki mən ona da, arvadına da iş tapmışdım.

Bəli, cümə günü gəldi. Gün batıb qaş qaraldı. Oğlan Porkini şam yeməyinə apardı. Onlar şam edib qurtarandan sonra dəyib-güldüyümüz pivəxanaya təşrif gətirdilər. Bir az sonra pivəxananın sahibi oğlana yaxınlaşıb çaya getməzdən əvvəl haqq-hesabı çürütməsini ondan xahiş etdi. Axı, ay şəklini dəyişən vaxt su pərisi həmişə peyda olurdu. Nə baş verəcəyini nə bilmək olardı! Ona görə də sahibkar haqq-hesabı bu başdan almaq istəyirdi. Bu, oğlanı heç də qorxutmadı. O, haqq-hesabı qızılla ödəyib bir funt sterlinq də artıq verdi, əmin olaq ki, o gedəndən sonra biz pivə puluna möhtac olmayacağıq. Çox keçməmiş oğlana bildirdim ki, Porki vahiməyə düşdüyünə görə onunla qayıqda getmək istəmir. Özüm getmək istəyirəm dedim. Bu təhlükəli səfər üçün qabaqcadan ikiqat haqq verməsini tələb etdim.

- İgid oğlan,- o dilləndi,- əgər bu gecə o cavan qızı görə bilsək, sənə beş funt sterlinq pul verəcəyəm.

- Bilirsən nə var, qardaş, ola bilsin ki, sənə heç nə olmayacaq. Bəlkə mənim yolum gedər-gəlməz oldu. Ona görə də yaxşı olar ki, biz yola düşməzdən əvvəl mənə iki funt sterlinq yarım pul verəsən, qalanının eybi yoxdur. Axı, mənim evdə qoca bir qarım var. İşlər pis getsə, qoy ürəyim sakit olsun ki, bir müddət başını kirləmək üçün qarının əlində, qəpik-quruşu var.

Oğlan bu mahalda hamının tülkü kimi qorxaq olduğunu söyləyəndən sonra istədiyim pulu mənə verdi. Pivəxana sahibindən xahiş etdim ki, pulu bizim qarıya çatdırsın. Daha sonra oğlan sözünə davam edərək söylədi ki, çox yerler gəzib dolanıb, amma heç vaxt bizim kimi serçə ürəkli, qorxacaq adamlar görməyibdir. Oğlanın bu sözləri kefimizə soğan doğradı. İçdiyimiz pivənin ilişib borazımızda qaldığını görən oğlan təəccüb içərisində dediyi sözlərdən peşman oldu. Sonra sahibkardan xahiş etdi ki, böyük qrafinlərdə pivə gətirsin ki, hamı xətri istəyən qədər içə bilsin. Amma, qardaş, hər birimiz vitrində konfet görüb ağzı sulanan pulsuz uşaq görkəmi alsaq da, şər qarışınca bir qurtum da pivə içə bilmədik.

Biz pivəxanadan çıxan kimi hamı bir-bir oğlanın əlini sıxıb yaxşı yol arzuladıqca onun ayağını da basdalayırdı. Belə ki, aşağı düşüb qayığa minmək vaxtı gələndə oğlan yanını basan ördəklər kimi axsayırdı. Avar çəkə-çəkə mən oğlanı lənətə gəlmiş göyrüş ağacının həndəvərinə apardım. Qayığı sahilə çəkib lövbər atdım. Balıq tutmağrım xoşuna gəlmədiyi üçün gözlərimi yumub mürgülədim. Amma onun uca səslə söyüşlər yağdırdığını eşidib gözlərimi açdım. Oğlan səbəti açıb yemək əvəzinə çoxlu kərpici, viski şüşəsini ağzınacan su ilə dolu görəndə özündən çıxmışdı.

Mən oğlandan səsini kəsib giriməyi xahiş etdim, bildirdim ki, bu bataqlıqlarda camaata qaranlıq qalan o qədər hadisələr baş verir ki. Axı, bu gecə yarı olanda ay şəklini dəyişərkən nə cür hadisə desən gözləmək olardı. Azca sonra oğlanın arxadan müəmmalı xışıltı eşidib yerində qurcuxduğunu, yan-yörəsinə boylandığını görüb xahiş etdim ki, sakitcə yerində otursun, çünki bu səs-küy küləyin qamışlıqda yaratdığı xışıltı idi. Bilirsiniz, istəmirdim ki, oğlan bu səs-küyü arxamızca düşüb o biri sahildə uzanan, xısınlaşıb gülməkdən özlərini güclə saxlayan cavanların etdiyini başa düşsün.

Xeyli sonra xudmani Aus kilsəsinin saatı on ikini vuranda oğlanın qulağına pıçıldadım:

- Hə, dostum, ya indi, ya da heç vaxt.

O qorxudan tir-tir əsirdi, qayığı da əsdirirdi. Yenə də onun qulağına pıçıltı ilə dedim:

- Su pərisi bura gəlir ha.

Oğlanın görə bilmədiyini mən görürdüm. Suda yaranmış ləpələr düz qayığa tərəf irəliləyirdi.

Qorxu içərisinde onun qulağına pıçıldadım:

- Qayıqdan möhkəm yapış, su pərisi buradadır.

Pərvərdigara, sudan bir cüt el çıxıb qayığın qırağından yapışanda oğlanın gözləri kəlləsinə çıxdı. Saçları çiyninə tökülmüş bir qadın yarıyacan sudan çıxandan sonra oğlan vəhşi səslə qışqırdı, huşunu itirib özündən getdi. O daha dərin yuxuya getsin deyə çənəsinin altına bir saz yumruq da mən ilişdirdim. Ölüm yuxusuna getdiyinə əmin olduqdan sonra qadına dedim ki, hələ qayığa minməyib gözləsin. Axı oğlan özünə gəlincə görək Porki arvadına geyinmək üçün bir şey gətirəydi. Qayıqdan düşüb sahilə qaçdım ki, Porkiyə xəbər verim paltarları mümkün qədər tez gətirsin. Sonra yerə uzanıb başımı əllərimin arasına aldım, uğunub getdim. Sahildəki oğlanlar da qarınlarını tutub qəhqəhə çəkdilər. Xeyli sonra Porki yanımıza qayıdıb bildirdi ki, suyun altı ilə otuz yard üzmüş xanım-xatını təngənəfəs olub, bir-iki dəqiqə də möhlət istədiyi üçün bir azca da gözləməli olduq.

Çox keçməmiş imdad diləyən zarıltı səsi oğlanın ayılıb özünə gəldiyini xəbər vərdi. Porki qayıdıb təkbaşına qayığa tərəf getdi. Qalanlarımız sahildə yerə sinib qayığa göz qoymağa başladıq. Porkinin şivən qoparıb oğlandan gecənin bu vaxtı özgənin arvadı ilə çayın ortasında nə iş gördüyünü xəbər aldığını eşitdik. Sonra Porki hirsli-hirslisöylədi ki, bataqlıqlar diyarında belə işlə məşğul olan kişinin xilas olmaq üçün bircə yolu vardır. O da çayın ortasında küşgü tutub vuruşmaq idi. Porki əl-qol ata-ata paltarlarını soyunmağa başlayanda oğlan zarıya-zarıya bildirdi ki, o, üzmək bacarmır.

- Hım, bacarmırsan,- Porki dodaqlarını gəmirərək çımxırdı,- onda sən ən gicbəser əbləhsən ki! Sən ki, üzməyi bacarmırsan, de görüm, axı, sənin başqa kişinin arvadı ilə çayın ortasında nə itin azıb? Bura bax, çaya ya özün hoppanmalısən, ya da mən itələyib səni çaya salaçağam, çünki sənin başqa çıxış yolun yoxdur.

Bunu deyib Porki oğlanı itələyib suya saldı. Biz hamımız ayağa qalxdıq.

Porki oğlandan yapışıb onu suyun üzündə saxladı, bir az sonra onu əlindən buraxdı. Oğlan suyun dibinə gömüldü. Porki dartıb oğlanı yenidən suyun üzünə çıxardanda yazıq mənim qoca pişiyimin oynatdığı suya düşmüş siçana oxşayırdı. Bir az vaxt keçəndən sonra biz oğlanı sahildə qoyub pivəxanaya qayıtdıq. İçə bilmədiyimiz axşamdan qalmış pivəni sumürməyə başladıq. Bayaq boğazımızdan getməyən pivə indi yağ kimi gedirdi.

Zavallı oğlan sürünə-sürünə gəlib pivəxanaya çatanda bizi görmədi. Amma biz onun qapını döyməsinə tamaşa etdik. Pivəxana sahibinin oğlanın çantasını sürürüyərək gətirdiyini də gördük.

- İndi yola düşsən, səhər qatarına çatarsan. Eybi yoxdur, Londona çatanda evdə yuyunarsan. Bu saat yuyuna bilməyəcəksən, çünki qara qazanda su qızdırılmayıb. Bilirsənmi, cavan oğlan, indiyəcən Bataqlıqlar diyarında gecə vaxtı özgə kişinin arvadı ilə bir qayıqda tutulanın sağ-salamat geri qayıtdığını görən olmayıb,- pivəxana sahibi dedi.

Belə-belə işlər, o vaxtdan bəri qamışlıqlar arası ilə yüz yard yol qət etdikdən sonra suyun altı ilə otuz yard üzən çılpaq su pərisi haqqında Londondan bizə nə bir məktub, nə də bir qəzet göndərilmədi. Mən isə iki funt sterlinq yarımı Porkinin arvadı ilə qardaş malı kimi yarı böldüm. Londonlu oğlanın başına açdığımız kələkdə barmağı olanların hamısı Porkinin arvadının öz rolunu məharətlə oynadığını razılıqla qeyd etdilər.

TOM TİT TOT

Biri vardı, biri yoxdu, qədim zamanlarda bizim bu gözəl dünyamızda yaşayan bir qadın vardı. Bir dəfə o, beş dənə piroq bişirdi. Piroqları sobadan çıxaranda qadının əli üzündə qaldı, çünki piroqların üstü qızarıb qazmağa dönmüşdu. Piroqlara diş batırmaq mümkün deyildi. Odur ki, qızını səsləyib dedi:

- Qızım, piroqları, bax, o taxçanın üstünə qoy! Qoy bir azca orda qalsın, bəlkə yenidən özləri gəldi.

Qadın demək istəyirdi ki, bəlkə piroqların qabığı yumşaldı.

Beləliklə qız piroqları taxçanın üstünə düzə-düzə fikirləşdi:

- Ay allah! Əgər piroqlar yenidən gələcəksə, nə üçün mən bunları indi yeməyim.

Bəli, qız yeməyə girişib onları bircə-bircə aşırandan sonra dodaqlarını marçıldatdı.

Qaş qaralıb şam yeməyinin vaxtı çatanda qadın qızına dedi:

- Bala, get piroqlardan birini gətir. Məncə onlar artıq gəliblər. Qız dabanı üstündə fırlanıb mətbəxə getdi, lakin taxçanın üstündə bomboş qablardan başqa heç nə görmədi. Buna görə də geri qayıdıb anasına dedi:

- Hələ gəlməyiblər.

- Heç biri gəlməyib?

- Heç biri.

- Gəlsələr də, gəlməsələr deə- səbri tükənmiş ana dilə gəldi,- fərqi yoxdur, onsuz da onların biri ilə şam edəcəyəm.

- Necə yəni şam edəcəksən! Axı, onlar hələ gəlməyiblər.

- Cəhənnəmə gəlsinlər!- qadın çımxırdı,- yeri, piroqların ən yaxşısını bura gətir.

- Ana can, axı, piroqların nə yaxşısı, nə də pisi var,- qız dilləndi,- mən piroqların hamısını yemişəm. Onlar yenidən gəlməsələr, mən hardan sənə piroq gətirim.

Əlacı hər şeydən kəsilmiş qadın cəhrəni qapının yanına qoyub ip əyirdi.

Qadın ipi əyirdikcə dodağaltı zümzümə etməyə başladı :

Qızım bu gün beş dana piroq aşırıb,
Qızım bu gün beş dənə piroq aşırıb.

Elə bu anda kral küçədən keçirdi. O, qadının zümzüməsini eşitsə də, sözlərini başa düşməyib ayaq saxladı, qadı nə yaxınlaşıb xəbər aldı:

- Oxuduğun mahnı kimin haqqındadır, möhtərəm ana?

Qızının əməllərini kralın hüzurunda etiraf etməyə xəcalət çəkən ana nəğməsinin sözlərini dəyişərək belə oxudu:

Mənim qızım beş yumaq sapı bircə günə əyirir,
Mənim qızım beş yumaq sapı bircə günə əyirir.

- Pərvərdigara! - kral sevinc içərisində ucadan dedi, -mən ömrümə belə sap əyirən görməmişəm!

Kral sonra üzünü qadına tutub dedi:

- Bura bax, mən özümə çoxdandır ki, həyat yoldaşı gəzirəm. İndi sənin qızınla evlənmək niyyətindəyəm. Bilirsən nə var,- kral sözünə davam etdi,- ilin on bir ayını sənin qızın ürəyi istəyən ləziz nemətlərdən dadacaq, qəlbinə yatan paltarları geyəcək, kimlərlə istəsə oturub-duracaq. Amma ilin sonuncu ayında hər gün beş yumaq sap əyirəcək. İşdir, əgər əyirməsə, mən sənin qızını edam edəcəyəm.

- Çox yaxşı,- ana sevinclə razılaşdı. Qızının təmtəraqlı toy günü ananın gözünün qabağına gəldi. «Beş yumaq sapı əyirməyə gəldikdə,- ana düşündü,- vaxtı gələndə buna da bir çarə qılarıq. Allah kərimdir, bəlkə o vaxtacçan sapı əyirmək kralın yadından çıxdı!»

Bəli, kral toy edib qızla evləndi. Düz on bir ay gənc kraliça ürəyi istəyəni yeyib - geydi, hər şeyi unudub dünyanın kefini çəkdi.

Vaxt ötub vədə yaxınlaşanda gündə beş yumaq sapı əyirmək fikri qızı narahat etməyə başladı. «Allah, görəsən, bu məsələ kralın yadından çıxıb ya

yox» - o fikirleşdi.

Kral da nədənsə bu məsələdən Söhbət salıb kəlmə kəsmirdi. Sap məsələsinin kralın yadından çıxması qızın ağlına yaman batmışdı. Amma kral on birinci ayın axırıncı günü qızı aparıb o vaxtacan görmədiyi bir otağa saldı. Otaqda cəhrədən və bir kətildən başqa heç nə gözə dəymirdi.

- Hə, əzizim, sabah səni bu otağa salıb ağzını qıfıllayacağam. Otaqda bir az yemək, beş yumaq da kətan lifi olacaq. Axşamacan o lifləri əyirib qurtarmasan, başını bədənindən ayıracağam!

Kral bu sözləri deyib öz işinin dalınca getdi. Yazıq qız qorxusundan öfkəyə dönmüşdü. İş burasında idi ki, qız ömrü boyu tənbəllik mərəzinə tutulub əlini ağdan-qaraya vurmamışdı. Heç sap əyirmək də əlindən gəlmirdi. «Sabah mənim halım necə olacaq?» o fikirləşdi, «Gecə mənə kömək etmək üçün kim gələcək ki!» Naçar qalmış qız kətilin üstündə oturub hıçqırdı. İlahi, adam necə açı-açı ağlayarmış!

Elə bu dəm gözlənilmədən qapının asta-asta döyüldüyünü eşitdi. Bir göz qırpımında qız ayağa qalxıb qapını açdı.

Sizcə o nə görsə yaxşıdır? Qızın qarşısında uzun quyruqlu bapbalaca, çəlimsiz bir qara şeytan dayanmışdı. Şeytan maraq içərisində qızı süzüb xəbər aldı:

- Nə üçün gözünün qorasını sıxırsan?

- Sənə ne var?

- Ele-belə. Hər halda nə üçün ağladıqını mənə desən, pis olmaz.

- Desəm də, deməsəm də heç bir xeyiri olmayacaq.

- Bilmək olmaz,- şeytan qımışaraq uzun quyruğunu tovladı.

- Madam ki, belədir,- kraliça köks ötürdü,- dərdimi sənə söyləməkdən mənə bir xeyir gəlməsə də , yəqin ki, ziyan da dəyməz.

Beləliklə qız ayağa qalxıb piroqdan tutmuş sap məsələsinəcən hər şeyi bircə-bircə şeytana söyləyərək ürəyini boşaltdı.

- Bu, mənim əlimdə su içmək kimi bir şeydir,- bapbalaca qara şeytan dilə gəldi,- mən hər səhər sənin pəncərənə yaxınlaşıb kətan lifini götürər, axşam beş yumaq sap gətirərəm.

- Əmək haqqın nə olacaq?- qız soruşdu.

Qaraca şeytan gözlərini qıyıb bic-bic qıza baxdı, sonra cavab vərdi:

- Hər axşam səndən üç dəfə adımın nə olduğunu soruşacağam. On ikinci ay başa çatınca adımı tapa bilməsən, mənim olacaqsan! Bir ay içində şeytanın adını tapacağına şübhə etməyən kraliça fikrə gedib cavab verdi:

- Çox yaxşı, razıyam.

- Çox gözəl, çox da pakizə!- deyə şeytan məmnun halda uzun quyruğunu fırlatdı.

Ertəsi gün səhər tezdən kral öz arvadını götürüb o otağa apardı. Artıq otağa bir günluk yemək və kətan lifi qoyulmuşdu. Kral üzünü arvadına tutub dedi:

- Bu da sənинçün kətan lifi, arvad, axşama kimi beş yumaq sap əyirməsən, başın bədənindən ayrılacaq ha.

Bir an içində kral dönüb otaqdan çıxdı, qapını kilidlədi. O yenicə getmişdi ki, otağın pəncərəsi döyüldü. Kraliça cəld atılıb pəncərəni taybatay açdı. Bapbalaca qara şeytanı pəncərənin qarşısında oturan gördü.

- Liflər hanı? - şeytan xəbər aldı.

- Budur ey,- deyib kraliça lifləri şeytana verdi.

Bəli, axşamçağı pəncərə yenidən döyüldu. Kraliça o dəqiqə ayağa qalxıb pəncərəni açdı. Əlbəttə, gələn bapbalaca qara şeytan idi. O, qucağında beş yumaq sap gətirmişdi.

- Bu da sənin beş yumaq sapın,- deyə şeytan yumaqları qıza verdi,- İndi de görüm mənim adım nədir?

- Yəqin ki, Billdir, elə deyilmi?

- Elə şey yoxdur, tapa bilmədin.

- Onda Neddir, elə deyilmi?

- Xeyr, Ned deyil.

- Bəlkə, Markdır?

- Xeyr, xeyr, Mark da deyil- şeytan cavab verib quyruğunu yellədərək uçub getdi.

Beləliklə kral axşam otağa gələndə beş yumaq sapın hazır olduğunu

gördü.

- Belə çıxır ki, bu axşam sənin boynunu vurmaq lazım gəlməyəcək, mənim əzizim,- kral əda ilə dedi,- səhər tezdən sənə yenə yemək və kətan lifi gətirəcəklər.

Sonra kral çıxıb getdi.

Hər gün qıza kətan lifi və yemək gətiriləndən sonra, bapbalaca qara şeytan bir qayda olaraq səhər-axşam qızın yanında zühur edirdi. Kraliça bütün günü fikrə gedirdi ki, axşam şeytan gələndə onun adını yoza bilsin. Amma şeytanın adını yozmaq kraliçaya müəssər olmurdu ki, olmurdu. On ikinci ay sona yaxınlaşdıqça qaraca şeytan sevinc qarışıq hikkə ilə kraliçaya nəzər salır, qız hər dəfə onun adını yoza bilməyəndə quyruğunu daha tez-tez yellədirdi.

Nəhayət on ikinci ayın qurtarmasına bircə gün qaldı.

Hər axşam olduğu kimi şeytan yenə beş yumaq sap qoltuğunda gəldi, kraliçadan xəbər aldı:

- De görüm, adımı tapa bilmisən, ya yox?

- Nikodim deyil ki?

- Yox, tapmadın.

- Səml də deyil?

- Xeyr, xeyr.

- Onda, bəlkə Mefusalemdir?

- Yox, yox, heç o da deyill - şeytan bağırdı, gözləri ocaq da qızaran kömür kimi alışıb- yandı, - Bura bax, ay qadın, ayın qurtarmasına bircə gün qalıb ha! Tapa bilməsən, sabah axşam mənim olacaqsan!

Bu minvalla qaraca şeytan sözlərini tamamlayıb yoxa çıxdı.

Kraliçanın canına vəlvələ düşdü. Elə bu dəmdə qız kralın ayaq səslərini eşitdi. Kral otağa daxil olub beş yumaq sapı hazır görüb dedi:

- Hə, əzizim, mənə belə gəlir ki, sabah axşama kimi sən yenə də beş yumaq sap əyirəcəksən. Mən də səni edam etmzəyəcəyəm. Gəl birlikdə əyləşib şam edək.

Beləliklə həm şam yeməyi, həm də kral üçün ikinci bir ketil gətirdilər. Hər ikisi əyləşib şam etməyə başladılar. Kral bir-iki tikə çeynəyib udandan sonra

yeməkdən əlini çəkib gülməyə başladı.

- Sənə nə olub?- kraliça xəbər aldı.

- Qulaq as, deyim,- kral dilləndi,- bu gün ova çıxmışdım. Gəzə-gəzə gəlib meşədə heç vaxt görmədiyim bir yerə çıxdım. Orda bərbad vəziyyətə düşmüş əhəng dolu bir çala vardı. Birdən o çaladan qulağıma vızıltı səsi gəldi.

O dəqiqə hoppanıb atdan yerə düşdüm, çalanın qırağına ayaq basıb aşağı boylandım. Çalada kimi görsəm yaxşıdır, arvad? Çox gülməli, məzəli bapbalaca qara bir şeytan gözümə dəydi. Səncə, şeytan o çala da nə etsə yaxşıdır? Çər dəymiş çalanın dibində oturub bapbalaca bir cəhrə ilə sap əyirirdi. Sapı ildırım sürətilə əyirdikcə quyruğunu fırladır, öz-özünə zümzümə edirdi:

Nimmi nimmi not,
Adım - Tom Tit Tot.

Bu sözləri eşidən kimi kraliçanın qəlbi fərəhlə doldu, amma sevincinİ güclə boğub heç nə demədi. Səhəri gün qaraca şeytan kətan lifini aparmağa gələndə kraliçanı tənəli baxışlarla süzdü. Qaranlıq düşüb Şər qarışanda kraliça pəncərənin döyüldüyünü eşitdi. O, pəncərəni açan kimi bapbalaca qapqara məxluq özünü içəri soxdu. İlahi, şeytan elə şaqqanaq çəkirdi ki, ağzı qulağının dibinə çatırdı! Quyruğunu elə sürətlə fırladırdı ki, gözlə izləmək mümkün deyildi.

- Bir də görüm, axı mənim adım nədir?- şeytan beş yumaq sapı qıza uzadaraq xəbər aldı.

- Solomondurmu? - qız qorxaq səslə elə soruşdu ki, sanki qəlbini vahimə basmışdı.

- Yox, tapmadın!- şeytan sevincək səsini başına atıb qıza yaxınlaşdı.

- Bəs, Zebedey də deyil?

- Əlbəttə ki, yox! Tapa bilmədin!- deyən şeytan qəhqəhə çəkib quyruğunu ildırım sürətilə fırlatdı.

- Yaxşı - yaxşı fikirləş, qadın! - o, əlini əlinə sürtərək xəbərdarlıq etdi,- bir də səhv etsən, Sən mənim sən ha!

Sözünü tamama yetirən şeytan qapqara cılız pəncəsini qıza tərəf uzatdI.

Başını qaldırıb gözlərini şeytana zilləyən qız geriyə bir-iki addım atıb ürəkdən güldu. Sonra barmağını şeytana tuşlayaraq avazla dedi:

Nimmi nimmi not,
Adın - Tom Tit Tot.

Hə, əzizlərim, şeytan bu sözləri eşidən kimi vızıltı ilə pəncərədən çıxıb qaranlıqda yoxa çıxdı. Bir də o yerlərə gəlib qızın gözunə görunmədi.

QAMIŞ PAPAQ

Lap qədim zamanlarda varlı bir kişi yaşayırdı. Onun üç qızı vardı. Günlərin birində kişini fikir götürdu. İstədi ki, öyrənsin qızları onu çox istəyir, ya yox. Odur ki, böyük qızından soruşur:

- Məni çoxmu istəyirsən, qızım?

- Əlbəttə, ata,- o, cavab verir.- Mən Səni həyatım qədər sevirəm.

- Çox yaxşı,- ata deyir.

Sonra ortancıl qızından soruşur:

- Bəs sən necə, məni çoxmu istəyirsən, qızım?

- Əlbəttə,- O cavab vərir.- Mən Səni dünyada hamıdan çox sevirəm.

- Çox yaxşı,- ata deyir.

Axırda üçüncü qızından soruşur:

- Sən necə, atanı çoxmu istəyirsən, qızım??

- Əlbəttə, təzə ət duz istəyən kimi mən də. Səni sevirəm o cavab vərir.

Bu sözu eşidən ata bərk əsəbiləşdi.

- Yox, Sən məni istəmirsən,- dedi.- Günü bu gündən evimdə qalmayacaqsan.

Beləliklə, ata qapını qızın üzünə çırpıb onu evindən qovdu.

Hə, qız da üz tutub düz aşdı, dərə keçdi, axır ki, gəlib bir bataqlığa çıxdı. Oralardan xeyli qamış yırdı, özünə papaqlı bir paltar hördü. Hördü ki, onu

başdan ayağa əyninə keçirsin, altdakı təəzə paltarını görən olmasın. Sonra yenə yola duzəldi, az getdi, üz getdi, dərə-təpə düz getdi, axır gəlib bir evə çatdı. Qapını döyüb:

- Sizə qulluqçu lazım deyil ki?- soruşdu.

Evin sahibi.

- Yox, istəmirik,- deyə cavab vərdi.

Qız dedi:

- Mənim daha gedəsi yerim yoxdur.- Pul-zad istəmirəm, Nə iş desəniz görərəm.

- Yaxşı,- dedilər,- əgər küpələri yumaq, qazanları təmizləmək istəyirsənsə, qal.

Hə, qız da beləcə burada qaldı. Küpələri yudu, qazanları təmizlədi, bütün çirkli işlərin qulpundan yapışdı. Bu evdə öz adını açıb heç kimə söyləmədi. Odur ki, onu «Qamış papaq» deyə çağırdılar.

Günlərin birində qonşulardan birinin evində rəqs gecəsi olasıydı. Qulluqçulara da ora getməyə izin vermişdiLər ki, əsil-nəcabətli cavanlara tamaşa eləsinlər. Amma qamış papaq dedi ki, yorulub tamam əldən düşüb, ora gedə bilməyəcək. Odur ki, evdə qaldı. Di gəl hamı çıxıb gedəndən sonra qamış paltarını çıxartdı, özünə bəzək-düzək verib rəqsə getdi. Burada heç kəs onun kimi belə qəşəng geyinib-keçinməmişdi.

Hə, ev sahibinin - aşpazın oğlu da burada idi. O, qızı görən kimi bir könüldən min könülə ona vuruldu. Bütün rəqsləri onunla oynadı.

Rəqs gecəsi qurtarmamış Qamış papaq aradan çıxıb evə gəldi. O birisi qulluqçular geri qayıdanda isə qamış paltarını geyinib özünü yuxuluğa vurmuşdu.

Hə, səhərisi gün qulluqçular üzünü ona tutub dedilər, - heç bilirsən orda kim var idi, Qamış papaq?

- Kimiydi ki? - o soruşur.

- Ən gözəl bir xanımıydı. Heç bilirsən necə bəzənib-düzənmişdi. Ev sahibimizin oğlu gözünü heç ondan çəkmirdi.

- Nə yaxşı, kaş mən də onu görə biləydim,- Qamış papaq deyir.

- Hə, bu axşam yenə rəqs olacaq, ola bilsin ki, o da gələ.

Amma elə ki, axşam oldu, Qamış papaq dedi ki, bəs çox yorulub onlarla gedə bilməyəcək. Amma qulluqçular gedən kimi o, qamışdan hördüyü paltarını çıxartdı. Özünə bəzək-düzək verib yenə rəqsə getdi.

Ev sahibi - aşpazın oğlu nəzərləri ilə qızı axtarıb tapdı. Bütün rəqsləri onunla oynadı, gözlərini ondan çəkmədi. Amma rəqs gecəsi qurtarmamış Qamış papaq aradan çıxıb evə gəldi.

O birisi qulluqçular geri dönəndə o, qamış paltarını geyinib özünü yuxuluğa vurdu.

Səhərisi gün qulluqçular təzədən ona dedilər:

- Hə, Qamış papaq, gərək sən də gələydin, o xanımı görəydin. O yenə elə bəzənib-düzənmişdi ki, sahibimizin oğlu gözünü heç ondan çəkmirdi.

- Nə yaxşı,- o deyir.- Kaş mən də onu görə biləydim.

- Hə,- onlar söyləyir,- bu axşam da rəqs olacaq. Bizimlə gedə bilərsən. Yəqin ki, o da orada olacaq.

Axşam düşdü. Qamış papaq dedi ki, yorulub tamam əldən düşüb gedə bilməyəcək, evdə qalacaq. Amma elə ki, onlar çıxıb getdi, qamışdan hördüyü paltarını çıxartdı, özünə bəzək-düzək verib rəqsə getdi.

Ev sahibi - aşpazın oğlu qızı görəndə çiçəyi çırtladı. Bütün rəqsləri onunla oynadı. Gözünü ondan çəkmədi. Bu dəfə də, o, oğlana nə adını, nə də haradan gəldiyini dedi. Odur ki, oğlan qıza bir üzük bağışladı və dedi ki, bir daha onu görməsə, ürəyi partlayacaq.

Hə, bu dəfə də o, rəqs qurtarmamış aradan çıxıb evə gəldi. Qulluqçular geri dönəndə o, qamış paltarını geyinib yenə özünü yuxuluğa vurmuşdu.

Səhərisi gün yenə deyirlər:

- Eh, Qamış papaq, bax dünən də gəlib çıxmadın. Daha o xanımı görə bilməyəcəksən. Ona görə ki, daha rəqs gecəsi olmayacaq.

- Neyləmək olar. Amma mən onu elə görmək istəyirdim ki?!- qız deyir.

Ev sahibi - aşpazın oğlu yer qalmadı ki, gedib onu soraqlamasın. Amma hara getmişdisə, kimdən soruşmuşdusa, qızı gördüm deyən olmamışdı. Onun üçün yamanca darıxmışdı. Get-gedə halı pisləşdi, yatağa düşdü.

- Ona yeməyə duru bir şey bişir,- ev sahibi aşpaza deyir.- Gör nə hala düşüb, qızın məhəbbəti gör onu nə günə salıb.

Ev sahibi - aşpaz yemək bişirməyə hazırlaşırdı ki, Qamış papaq içəri girdi.

- Bişirdiyin nədir?- o soruşdu.

- Sıyıq,- aşpaz cavab verir.- Bəlkə özünə gəldi. Görmürsənmi yazıq nə günə düşüb.

- İcazə ver, mən hazırlayım,- Qamış papaq deyir.

Hə, aşpaz əvvəlcə razılaşmadı, amma sonra nə fikirləşdisə, razılıq verdi və Qamış papaq başladı sıyıq bişirməyə. Elə ki, sıyıq hazır oldu, aşpaz gəlib yeməyi aparmamış barmağındakı üzüyü çıxarıb xəlvəti onun içinə atdı.

Xəstə oğlan sıyığı yeyib qurtaranda qabın dibinde üzük gördü.

- Aşpazı, anamı çağırın - deyə qışqırdı.

Bir az keçmiş anası gəlib çıxdı.

O soruşdu:

- Bu sıyığı kim bişirib?

- Mən,- o, qorxudan cavab verir.

Oğlan anasını süzüb:

- Yox, sən bişirməmisən,- deyir.- Düzünü de, kim bişirib?

- Qamış papaq! - ana cavab vərir.

- Onu yanıma göndərin,- oğlan əmr edir.

- Sıyığı sən mənə hazırlamısan? - qızdan soruşur.

Qız cavab vərir:

- Hə, mən.

Oğlan soruşur:

- Bəs bu üzüyü kimdən almısan?

- Kim verib ondan - qız deyir.

- Elə isə sən kimsən?- oğlan soruşur.

- İndi özün görərsən,- deyə qız qamışdan hördüyü paltarını çıxartdı. Gözəl-göyçək paltarında onun qabağında dayandı.

Hə, ev sahibinin - aşpazın oğlu tezliklə sağaldı. Az vaxta onların toyu olmalıydı. Bu elə bir toy olmalıydı ki, vilayətdə nə qədər yaxın, uzaq adam

varıydı, hamısı toya dəvət olunmuşdu.

Qamış papağın atasını da toya çağırmışdılar. Amma qız heç kimə kimliyini açıb söyləməmişdi. Amma toya lap az qalmış o, ev sahibi - aşpazın yanına gəlib deyir:

- Yeməyə ət xörəyi hazırlayarsən, amma heç birine duz vurmazsan.

- Yaxşı düşməz, ətin onda nə dadı olar,- aşpaz deyir.

- Heç nə olmaz,- qız cavab vərir.

- Yaxşı, siz deyən olsun,- aşpaz razılaşır.

Hə, toy günü gəlib çatdı. Bəylə gəlinin kəbinini kəsdilər. Sonra camaat yemək stolunun başına keçdi.

Elə ki, ətin tamına baxdılar, gördülər ki, yeyiləsi deyil, yemədilər. Amma Qamış papağın atası əvvəlcə bir tikə götürdu, sonra o birisini və başladı gözünün yaşını sel kimi axıtmğa.

- Sizə nə olub?!- ev sahibi - aşpazın oğlu soruşdu.

- Eh,- o cavab verir.- Mənim bir qızım vardı. Bir gün ondan soruşdum ki, sən məni nə qədər istəyirsən, o da cavab verdi ki: «Təzə ət duz istəyən kimi». Mən də onu evimdən qovdum, elə fikirləşdim ki, məni sevmir. Bax, indi görurəm ki, o məni hamıdan çox istəyirmiş. Eh, yəqin ki, indi o heç salamat da deyil.

- Y - o - x, a - ta, o, burdadır,- deyə Qamış papaq özünü atasının üstünə atır. Onun boynuna sarılır.

Hə, bundan sonra onlar beləcə şən - bəxtəvər yaşadılar.

HEÇ NƏDƏN QORXMAYAN MERİ

Biri vardı, biri yoxdu, bir fermada Meri adlı bir qız yaşayırdı. Bir dəfə fermer dostları ilə oturub yeyib-içirdi. Onların içkiləri qurtarır. Fermer ayağa

qalxıb deyir:

- Narahat olmayın, indi Meri zirzəmiyə düşər və bizə bir şüşə də likör gətirdi.

Çox qaranlıq gecə olduğu üçün fermerin dostları deyir:

- Əlbəttə, Meri belə zülmət gecədə bayıra tək çıxsa, qorxusundan ödü ağzına gələr.

- Elə şey yoxdur. Meri nə ölüdən, nə də diridən qorxur, fermer etiraz edir.

Beləliklə Meri zirzəmiyə enib bir şüşə likör gətirir.

Nəql edirlər ki, Merinin belə cəsarətli olması fermerin dostlarını çox təccübləndirir. Amma fermer sözunə davam edərək deyir:

- Əziz dostlar, təəccüblü heç nə yoxdur. Meri gündüz də, gecə də hara istəsə gedə bilər, çünki o, nə ölüdən, nə də diridən qorxur.

Fermer dostlarına bir qızıl camdan mərc gəlməyi təklif edib bildirir ki, onlar elə bir şey düşünüb deyə bilməzlər ki, Meri onu edə bilməsin. Dostlarından biri fermerin mərci ilə razılaşıb gələn həftənin bu günü göruşməli olacaqlarını ona söyləyir və deyir ki, Merinin edəcəyi işi də həmin gün müəyyən edəcək. Bundan sonra o, qoca keşişin yanına gedir və kilsənin açarını ondan alır. Sonra özünü qoca qəbirqazanın yanına verib ona da pul təklif edib razı salır ki, kilsəyə daxil olsun, ölüxanada gizlənib, qorxmaz Meri gələndə onu qorxutsun. Vədə tamam olub onlar bir yerə yığışdıqdan sonra fermerin dostu deyir:

- Sənin Merin bax bu işi edə bilməz - o, gecəyarı tək-tənha kilsəyə daxil olub ölüxanaya girməz və bir kəllə sümüyü gətirməz!

Bunu eşidən Merinin tükü də tərpənmədi. O, ayağa durub səssiz-səmirsiz kilsəyə tərəf yollandı. Çatan kimi itələyib ölüxananın qapısını açdı və yerdən bəni-insanın kəllə sümüyünü götürdu.

Elə bu vaxt qoca qəbirqazan qapının dalından boğuq səslə dilləndi:

- Qoy o qalsın, axı o mənim anamın kəllə sümüyüdür. Meri əlindəki kəllə sümüyünü yerə atıb başqasını götürdü. Qoca qəbirqazanın boğuq səsi yenidən eşidildi:

- Amandır, qoy o da qalsın, o da atamınkıdır axı!

Meri o kəllə sümüyünü də yerə atıb başqa birisini götürdü. Əhvalı pərişan olduğu üçün:

- İstəyir atan olsun, istəyir anan, ya bacın, ya da qardaşın, mən kəllə sümüyü aparmalıyam, bildinmi, bu mənim axır sözümdür - deyə Meri kəllə sümüyü əlində ayağa durub bayıra çıxdı və ölüxananın qapısını qıfılladı. Meri evə çatıb kəllə sümüyünü stolun üstünə qoyarar:

- Bu da sizinçün kəllə sümüyü, ser,- dedi və qayıdıb getmək istəyirdi ki, mərc gəlmiş adam dik atılıb soruşdu:

- Qulağına heç bir səs gəlmədi, Meri?

- Gəldi, gəldi! Hansı səfeh ruhsa məni səsləyib «ona dəymə, o mənim atamın kəllə sümüyüdür, ona da toxunma, o da anamın kəllə sümüyüdür», dedi. Mən də onun sözünü ağzında qoyub qısaca bildirdim ki, ata, ana, qardaş, ya bacı olsun, mənimçün heç bir fərqi yoxdur. Mənə kəllə sümüyü lazımdır. Mən birini götürdum, qapını kilidləyib çıxıb gəlmək istəyəndə hansısa qoca ruhun dəlicəsinə çığır-bağır saldığını eşitdim.

Mərci uduzmuş adam çox pərt oldu, çünki o bilirdi ki, ölüxananın qıfıllanmış qapısı arxasında qara-qışqırıq qoparan yalqız qalmış qoca qəbirqazan idi. Bu, doğrudan da belə idi. Dostlar qoca məzarçını açıb buraxmaqçün kilsəyə gələndə onun üzü üstə düşən cəsədini gördülər. Qorxudan onun ürəyi partlamışdı. Merinin ağası ixtiyar sahibi oldu və mərcdən udduğu qızıl camı Meriyə bağışladı.

Bu əhvalatdan xeyli sonra Saffolkun aşağısında güzəranı xoş keçən bir mülkədar vardı. Anası onunla qalırdı. Ömrünün qürub vaxtı idi. Ay keçdi, il dolandı, bir gün qarı vəfat etdi və onu dəfn etdilər. Amma qarı əbədiyyət evində qərar tutub dincələ bilmir, oğlunun malikanəsinə gedib gəlməkdə davam edirdi. Qarı bir qayda olaraq «nahar vaxtı» zühur edirdi. Bəzən qarının kölgəsi tamam, bəzən də yarımçıq şəkildə gözə görünürdü. Amma əlləri harada olsaydı, oradan da çəngəl və bıçağın götüruldüyünü və havada əyri-üyrü xətlər cızdığını görmək olurdu. Bu hadisə nökər-naibi o qədər qorxuya salmışdı ki, hamı baş götürüb qaçmağa başlamışdı və mülkədar qəm dəryasında batmışdı. Bir dəfə mülkədara üç kənd aralıda yaşayan və heç nədən qopxmayan qız

haqqında söhbət açdılar. Mülkədar atını səyirdib o kgndə gəldi və başına gələn əhvalatı ətraflı şəkildə qıza söylədi və qızdan xahiş etdi ki, mümkünsə onun evində qulluqçu işləsin. Qız ona bildirdi ki, ruhlaları saya salmır və qulluqçu işləməyə razıdır, bir şərtlə ki, məvacibi bir az artıq olsun.

Razılaşdılar və qız mülkədarla çıxıb getdi. Qızın gördüyü ilk iş süfrə başında qarının ruhu üçün həmişə cahmanla saxladığı yer oldu. Qız bir qayda olaraq çəngəl və bıçağı bir-birinin üstünə xaç şəklində qoymamağa həmişə diqqət yetirirdi. Qız qarının ruhuna tərəvəzi və başqa şeyləri elə ötürürdü ki, elə bilirdin ki, ryh canlı bir adamdr. Və həmişə müraciətlə «İstiot, madam», ya da «Duz lazımdırmı, xanım» deyərdi. Qızın xoş rəftarı qoca ruhu məmnun edər, amma ondan səs-səmir eşidilməzdi. Mülkədar bəzi hüquq məsələlərilə əlaqədar Londona gedənəcən hadisələr bu şəkildə davam edirdi.

Mülkədar Londona gedən günün səhəri Meri dizləri üstə çöküb qonaq otağındakı buxarını silib təmizləyirdi ki, nazik bir şeyin qapıdan içəri keçdiyini gördü. Azacıq aralı qalmış qapı taybatay açıldı va aydın oldu ki, gələn qarının ruhudur. İçəri girmiş ruh dikəlib ilk dəfə olaraq dil açdı və soruşdu:

- Sən məndən qorxursanmı, Meri?

- Xeyr, xanım, səndən qorxmaq üçün heç bir səbəb yoxdur, çünki sən ölüsən, mənsə diri.

Qızın cavabı qoca ruhu tamam çaşbaş saldı, lakin o, yenə də soruşdu:

- Meri, sən mənimlə zirzəmiyə gedərsənmi? Getsən, lampa götürməməlisən. Sənin yoluna mən özüm işıq salacağam.

Beləliklə onlar zirzəmiyə gedən pillələrlə aşağı düşdülər. Qoca ruh köhnə fənər kimi işıq saçırdı. Onlar zirzəmiyə çatan kimi ruh bir neçə dağınıq kərpicə işarə edib dedi:

- O kərpicləri yığışdır.

Qız ruhun sözlərinə əməl etdi və gördü ki, kərpiclərin altında iki kisə qızıl var.

Ruh sözünə davam etdi:

- Meri, o böyük kisə sənin ağanın, balaca kisə isə qoy sənin olsun. Çünki sən cəsur qızsan və buna layiqsən.

Bunu deyib qoca ruh qeyb oldu və bir da heç vaxt gözə görünmədi. Meri çox çətinliklə zülmət qaranlıqda yolu tapıb zirzəmidən çıxdı. Üç gündən sonra mülkədar qayıdıb gəldi və dedi:

- Sabahın xeyir, Meri, mən gedəndən bəri anamı heç görmüsənmi?

LANKAŞİR NAĞILLARI

SEHRBAZIM DƏFNİ

Lankaşir mahalında çox az yer tapılar ki, orada sehrbaz olmasın. Penvortam meşəsinin qırağı ilə uzanan şose yolunun yaxınlığındakı Kasl dağının ətəyində xırda bir ferma yerləşir. Fermanın yanından uzanan çəmənlik böyük çaya gedib çıxır. Eşitmişəm ki, əlli-altmış il bundan əvvəl bir gecə həmin fermadan iki adam çıxıb Lonqton kəndinə evlərinə gedirlərmiş. Onlardan biri mal həkimi imiş və fermada çox iş olduğuna görə ləngiyib gecə yarısına qalıblarmış.

Gecə yarısı olmasına baxmayaraq çox aydın bir gecə idi, badirlənmiş ay sükuta qərq olmuş çölə-düzə işıq saçırdı. Süd kimi aydın gecənin qoynuna elə lal sükut çökmüşdü ki, sanki xəfif meh da yuxuya gedib susmuşdu. Küləkdan əsər-əlamət yox idi, nə bir yarpaq xışıldayır, nə də bir ot tərpənirdi. Dərın belinə qurşaq kimi dolanmış çala-çuxur araba yolu ilə sürətlə aşağı düşən iki nəfərin addım səsləri dağı- dərəni bürümüş ölüm sükutunu pozurdu.

Yolçular yaxınlıqda Köhnə qəbiristanın yanından keçirdilər. Qəbiristanın yanındakı döngədən səyyahlar keçərdi. Qəbiristanın mamır basmış alçaq hacar divarlarından köhnə dəbli baş daşları nəzərə çarpırdı. Onlar elə şax dayanmışdı ki, elə bil torpağa gömülmüş neçə-neçə həyatın keşikçiləri idi. Əbədiyyət yuxusuna getmişlərə yarpaqların həzin pıçıltısı, əsən küləyin xəfif xışıltısı kədərli layla çalırdı.

O, iki nəfər qəbiristanın küncündəki darvazanı açan kimi kilsənin zəngi çalındı. Gecənin yarısı idi.

- Saat on ikidir ki!- yaşlı adam dilləndi.

- Neynək, olsun, uca boylu, gənc dedi.- Günümüzün biri də ötüb keçir. Hamıya danışmasam bağrım çatlar. Bizi görməsələr çox yaxşı olar. Ay can, ay can, vaxtımız yamanca daralıb. Adam, elə baxırsan ki, elə bil saatın on ikini vurması sənin vecinə deyil. Rəngin də dəyişməyib. Sən allah, kəc-kəc baxma mənə.

Yaşlı kişi əllərini ovuşdura-ovuşdura gülümsədi, sonra ciddi görkəm alıb dedi:

- Yavaş danış, Robin, lap pıçıltı ilə danış. Heç danışmasn, lap yaxşı olar! Vallah uşaqsan ki, uşaq! Amma özünü hamıdan ağıllı hesab edirsən. Heç ağlına da gəlmir ki, divarların da qulağı var. Axı, nə üçün ana quşlar dura-dura balaları civildəşir?

Onlar söhbət edə-edə darvazadan uzaqlaşıb səki ilə irəlilədilər. Gəlib sıx yarpaqların ay işığının qabağını kəsdiyi qaranlıq bir yerə çıxdılar. Sürətlə addımlayıb gözətçi budkasına çatanda gözlənilmədən gurultulu zəng səsləri sükutu pozdu. Hər iki yolçu yerə mıxlanıb qulaqlarını şəklədilər.

- Əşşi, bu elə-belə zəngdir,- Adam dedi.- Görəsən, gecənin bu vaxtı kim oyaqdır? Axı, gərək zəng çalınmayaydı. Mən bu işə məəttəl qalmışam.

- Hay-küy salma!- Robin pıçıldadı.- Səsini ud və yerindən qımıldanma! Qoy görək, zəngi çalan kimdir.

Nə qədər ki, zəng çalınırdı, onların hər ikisi nəfəsini içəri çəkib sakitcə dayandı və sonra Adam dedi: - Zəngi çalan sən yaşda olar, tap görüm o kimdir?

- İndicə biz oradan keçəndə zəng qülləsindan işıq gəlmirdi. İndi isə gəlir. Bax, bax! Eh, kaş indi çarpayımda uzanıb yuxu bişirəydim və belə şeylər görməyəydim!

Adam dedi:

- Vallah düz deyirsən. Amma qoca Cemminin heç tükü də tərpənmir. Axı, niyə tərpənsin ki, ey! Zalım oğlu bütün ömrünu ölülərin arasında keçirib, uf da deməyib. O, ölülərin nəyindən qorxacaq ki! Deyilənə görə, imkan düşəndə o, ruhlarla zarafat da eləyir. Yaxşı, məzarda qorxulu nə var ki! Amma xorttamış ölülər isə başqa məsələ! Bilirsən nə var, nə qədər ki, gec deyil, gəl buradan rədd olub uzaqlaşaq. Qardaş, sabah bu haqda laqqırtı vurarıq da!

Onlar söhbəti yarımçıq qoyub gözətçi budkasına yaxınlaşdılar. Budkaya çatmağa bir neçə addım qalanda darvazalar səssiz-səmirsiz taybatay açıldı. Cırıltılı zəng səsi eşidildi. Hər ikisi tələş içərisində geri çəkildi. Başında qırmızımtıl papağı olan qara geyimli, bəstə boylu bir məxluq sakinin üstü ilə

addımlaya-addımlaya çox lətif səslə bir neçə anlaşılmaz sözü təkrar edirdi.

- Amanın günüdür, gəl qaçaq, dostum!- qorxudan nəfəsi kəsilən Adam qışqırdı.- Allah eşqinə, qaçaq canımızı qurtaraq! O gördüyün ruhdur, pyh! Amma onu da bilirəm ki, onları sancmasan, işlərinə qarışmasan, sənə heç vaxt toxunmazlar.

Onlar qaçmağa imkan olmadığını görüb kürəklərini yoğun bir ağacın gövdəsinə söykədilər. Gözlərini zilləyib ay ışırında yüngül yerişlə var-gəl edən zərif varlığa tamaşa etdilər. Oxuyan olduqca incə xilqət idi, lakin onun oxuduğu mahnının ağırlığını nə Adam, nə də Robin dərk edə bilirdi. Ancaq kədərli misralardan ruhun ölü duası oxuduğu aydın olurdu. İki yoldaş daş kimi sakit dayanmışdı. Bir az sonra o incə xilqət səsini kəsib ətrafına boylandı. Elə bil ki, kimi isə gözləyirdi. Sonra yenidən qüssəli-qüssəli zümzümə etdi. Yavaş-yavaş oxuyan səslər artıb çoxaldı. Yolun ortasında dayanmış ruh səsini kəsdi və yalnız duanın nəqarətını oxudu. Çox keçməmiş hər iki dost bir dəstə süvarinin darvazadan içəri girdiyini gördü. Bir qrup birbirinə oxşayan varlıq cərgəyl iki-iki addımlayırdı. Onların apxasınca papaqlarını əllərində tutmuş başqaları gəlirdi. Qoşa-qoşa addımlayan xilqətlərin çiynində kiçik bir tabut var idi. Tabutun qapağı azca aralı qalmışdı və içindəki cəsəd görünürdü. Arxada yenə də iki-iki irəliləyən balaca adamlar nəzərə çarpırdı. Hamı yas içində qəmli-qəmli oxuyurdu. Məqəm gələndə hamı səsini kəsir və təkcə birinin avazı eşidilirdi. Axırıncı iki varlıq həyətə daxil olan kimi, darvazalar açıldığı kimi, səssiz-səmirsiz də bağlandı.

Tabut aparanlar yolçuların yanından keçəndə Adam ayılib baxdı ay işığında tabutun içində xırda bir meyit gördü.

- Robin, əzizim,- o, titrək səslə dedi.- Tabutdakı meyit elə bil ki, sənin şəklindir. Qorxudan nəfəsini içəri çəkən Robin tabutu aparanlara tərəf ayılıb meyitin doğrudan da ona oxşadığını gördü. Fərq orasında idi ki, cəsədin çöhrəsi sapsarı idi.

Yaslı dəstə ötüb keçən kimi Robin danışmaq istədi, amma dili söz tutmadı. Bilirsinizmi, ruhların gözlənilməz gəlişi və meyitin xarici görkəmi onu çox qorxutmuş, əsəblərini sarsıtmışdı. Dəhşətdən gözləri bərələ qalmış Robin

yoldaşının çiyninə toxunub qırıq səslə dilləndi:

- Tabutdakı, həqiqətən mən idim, Adam! Bu, mənimçün xəbərdarlıqdır! Görünür, eləcəyəm!

Adam ona ürək-dirək verdi:

-Şübhəsiz ki, Robin, gördüyümüz çox dəhşətli mənzərə idi. Amma qorxma! Mən belə şeylər çox görmüşəm. Bu mərasim bu gecə sona yetəcək. İstər sənə xəbərdarlıq olsun, istərsə də yox. Sənə heç bir xətər toxunmayacaq. Qorxaq olma!

Qəribə müğənnilərin kədər dolu avazı və dəfn zamanı çalınan zəng sədaları hələ də eşidilirdi. Qorxudan canlarına vic-vicə düşmüş iki yoldaş dayanıb baxışları ilə süvari dəstəsini müşayiət edirdi.

- Yəqin ki, bu, xəbərdarlıqdır,- Robin yenidən dilləndi.- Kaş, haçan öləcəyimi onlardan xəbər alaydım! Bəlkə də deyərdilər, hə!

- Mənə elə gəlir ki, deməzdilər.- Eşitmişəm ki, onlar çox nadir halda danışırlar. Danışanda da aləmi qatırlar bir-birinə!

- Qatıb eləmirlər. Görürsən ki, məni öldürüblər,- Robin umidini itirmiş halda əlavə etdi.- İndi də məni dəfn edirlər, elə deyilmi? Bu saat gedib xəbər alacağam. Gəl gedək. Əgər qorxursansa çıx get evə!

- Nədən qorxacağam. Qorxub eləmirəm. Əgər onları istintaq etmək istəyirsənsə, dayanıb axırını gözləyərəm.

Söhbəti qurtarıb iki yoldaş matəm dəstəsinin arxasınca yollandılar. Köhnə qəbiristanın həyətinə girmək üzrə olan dəstəyə çatdılar. Darvazalar laybalay açıldı. Robin yaxınlaşıb cənazəni aparanlardan titrək səslə soruşdu:

- Deyərsinizmi, yaşamaq üçün mənim nə qədər ömrüm qalıb?

Robinin sualına cavab verən olmadı. Qabaqda gedən sısqa daha dərin hüznlə nəqarətı təkrar etməyə başladı. Xırdacana varlığın dəstənin başçısı olduğunu güman edən Robin əlini uzadıb onun çiyninə toxunan kimi süvarilər dəstəsi bir göz qırpımında qeyb oldu. Darvazalar şappıltı ilə örtüldü. Hər yerə zil qaranlıq çökdü. Külək hüznlü vıyıltı ilə kilsənin və məzarlıqdakı baş daşılarının dövrəsində şivən qopardı. Yarpaqlara yağış damcıları çiləndi, Göy gurultusu dağ-daşı lərzəyə saldı, şimşək çaxdı, hər yanda ayrı-üyrü işıq

zolaqları görünüb yox oldu.

- Axı, mən sənə dedim ki, onlarla işin olmasın,- Adam dilləndi.- Yaxşı qurtarmışıq!

- Nə olub, ey? Səni bilmirəm, amma mən özümü çox yaxşı hiss edirəm. Tərpən evə gedək,- Robin saymazyana cavab verdi.- Bu haqda camaata heç nə demə, ha! Desən, arvadlar qorxuya düşəcək. İki yoldaş budkanın yanındakı darvazaya yenicə çatmışdı ki, güclü tufan qopdu. Sinələrini tufana sipər edib çox çətinliklə irəliləyə-irəliləyə kənd yoluna çıxdılar.

Robinin daxilində təbəddülat yaranmışdı. Həmişə kənd şənliklərinin yuxarı başında əyləşib deyib-gülən Robin ciddiləşib qaraqabaq olmuşdu. İş gününün sonunda veyl-veyl gəzib-dolaşır, adamların gözünə görünməyə qorxurdu. Axşamlar Adamgilə gedir, onun cinlər haqqında söhbətinə qulaq asıb vaxtını keçirirdi.

Qəribə olsa da deməliyəm ki, o əhvalatdan heç bircə ay keçməmiş Robin tayadan yıxıldı va yorğan-döşəyə düşdü. Tez-tez halı qarışanda o qorxunc gecə gördüklərini sayıqlamağa başladı və uzun sürən ağır xəstəlikdən sonra gözlərini yumub dünyadan köçdü. Məzarçı qoca Cemmi təzə bir qəbir də qazmalı oldu. Bir müddət bundan əvvəl sehrbaz dəfninin şahidi olmuş iki yoldaşın dayandığı səki ilə Robinin cənazəsini aparanların arasında saçlarına qar yağmış Adam da var idi.

NƏNSİ QARI VƏ GÜMÜŞ TÖHFƏ

Nənsi qarı mətbəx sobasının başına yığışıb mürgü deyən bir bölük adama dedi:

- Siz necə? Cinlərə inanırsınızmı? Balam, mənciyəz şəkk etmirəm. Düzdür, heç vaxt onları görməmişəm, ancaq varlğqına şübhəm yoxdur.

- Maraqlıdır, amma ağla batan deyil,- ocağa yaxın əyləşmiş qız dilləndi.

Nənsi qarı kinayəli nəzərlərlə qıza baxıb sözünə davam etdi:

- Dediyim kimi, cin adlı məxluq görməmişəm, amma onlardan birini südlə xilas etmişəm. Diqqətlə qulaq asın, əhvalat belə baş vərib. Bir gün qürub çağı

fermada inəyi sağanda qəfildən bir xırda sərçənin yerdən sıçrayıb özünü daşa çırpdı. İnanın ki, qorxudan ödüm ağzıma gəldi. Diqqətlə baxıb qarşımda bir parça gümüş gördüm. Çox götür-qoy etdim, amma gümüşün haradan düşdüyünü ayırd edə bilmədim. Aşağı əyilib təəccüblə gözlərimi gümüşə zilləmdim. Əlimi uzadıb gümüş parçasını götürdüm. Gümüş parpar parıldayır, ay kimi şölə saçırdı; özü də quş kimi yüngül idi, nədən düzəldildiyini söyləmək asan iş deyildi. Sərnic şəklində olan gümüş parçasını daşın üstünə qoymaq istəyirdim ki, altı penslik gümüş pul da gördüm. Dərhal bu qənaətə gəldim ki, yenə süd lazımdır. Kecikmədən sərnici südlə doldurub torpağın üstünə qoydum. Aman allah, sərnici yenicə daşın üstünə qoymuşdum ki, yerindən sıçrayıb gözdən itdi. Fikirləşdim ki, yəqin məni qarabasır, ancaq o dəqiqə atamın sözləri yadıma düşdü. O, dönə-dənə deyirdi ki, cinlər adama pul verəndə götürmək, heç kəsə bir kəlmə də deməmək lazımdır. Mən belə də etdim. Allaha and içirəm ki, söz qarnımı deşsə də, bu məsələni sirr kimi udub saxladım. Amma sizə deməliyəm ki, hər axşam bir qayda olaraq sağın vaxtı xırda sərnici və altı penslik gümüş pulu daşın üstündə görürdüm və sərnici cəld götürüb südlə doldururdum. Pulun qəlp olmadığını yoxlamaq üçün onu mismarla yoxlayırdım. günlər ötüb keçirdi və nəhayət bir dəfə ağlıma gəldi ki, ürəyimdə qubara dönmüş, dilimin ucunda düyünlənib qalmış bu sirri bircə adama açıb söyləsəm, heç də dünya dağılmaz. Beləliklə, nişanlım Rocer fermaya gələn kimi ağzı yırtıqlıq edib sinəmi dələn sirri açıb ona söylədim. Hə, əzizlərim, atam haqlı imiş. Atalar çox düz deyiblər ki, aşıq gördüyünü çağırar. Bəli, o gündən sonra nə sərnic, nə də altı penslik gümüş pul daş üstündə görunmgdi. O vaxtdan bu günəcən onların üzünə həsrət qalmışam. Axırıncı dəfə daş üstündən pul götürdüyüm vaxtdan bəri düz qırx il keçib.

BAŞSIZ QADIN

Lonqbric adlı kəndin qurtaracağında Ağ Kəlin ocağı başında kürəyini istiyə verib xoşhallanan Qabriel Fişer mətbəxdə səs-səsə verib oxuyan

qulluqçularla xudahafizləşəndə saat on ikiyə az qalırdı.

Qabriel küçəyə çıxdı və ayın işığına qərq olmuş yolla getməyə başladı. Troti adlı iti də yanında idi. Qabriel cəsarətlə Tikanlı Təpəyə doğru addımladı. O, tək-tənha hələ çox yol keçib getməli idi. Olduqca aydın və ayazlı bir gecə idi, amma haradansa balaca bir bulud topası gəlib ay işığının qabağını kəsdi. Aləmə zülmət çökdu. O, səliqə-sahmandan uzaq olan kənd daxmalarının arası ilə sürətlə yeriyirdi. Don bağlamış torpaq ayaqları altında şaqqıldayırdı.

Tələsə-tələsə getdiyindən tez-tez ayağı büdrəyən Qabriel eşitdiyi axırıncı mahnının bir-iki bəndini dodağaltı zümzümə edir və arabir qoca Şaflerin söylədiyi çox məzəli əhvalatı yadına salıb gülümsəyirdi.

Qoca Şaflerin nəfəsinin yalanla gedib-gəldiyini hamı bilirdi. Yəqin ki, o, bu dəfə də ağzına gələni özündən uydurub danışmışdı.

Qabriel yolun ən hündür yerinə çatıb ayaq saxladı. Göz gəzdirib Çinninq vadisinə sarı baxdı. Yarpaqları yalayıb keçən xəfif mehin pıçıltısı, zəif dalğaların qumlu sahillə görüşdüyü vaxt çıxartdığı ecazkar səsləri andırırdı. Nəzərə çarpan kəndli daxmalarının sırsıra bağlamış daşları ayın şəfəqlərini əks edirdi. Camaat isə çoxdan yuxuya getmişdi. Adamın canına vic-vicə salan sükut içərisində hər şey sirrli-soraqlı görünürdü; heç nədən qorxmadığını dönə-dönə təkrar edib özünə ürək-dirək verən Qabriel həzin-həzin pıçıldaşan budaqların kölgəsinə çatanda vahimələndi və ürəyindən keçdi ki, kaş, yanında bir adam olaydı. Tələş dolu hisslər qəlbini sardı; keçən gün tənha sağsağanla rastlaşdığı səhnə birdən yadına düşdü. Gənclik eşqilə çırpınan qəlbini qurd kimi didib-parçalayan bir neçə qorxulu əhvalat beynində dolanmağa başladı. Bu dumanlı fikirləri qovub özündən uzaqlaşdırmağa çalışan Qabrielin qəlbində belə bir güclü arzu baş qaldırdı ki, kaş, Kempl Endə tez çataydı.

- Belə fikirləşdikcə gözümə cin-şeytan görünür – o dedi.

Çox keçməmişdi ki, aləmi tükürpədici qışqırıq səsi bürüdü, səs bir neçə dəfə təkrar oldu.

- Sakit ol, Qabriel, ağciyər olma,- o, ucadan dilləndi. - Nə olub axı?!

Qışqırıq səsləri kəsilib eşidilməz oldu və Qabriel yoluna davam etdi, amma bataqlığın kənarına çatıb qarşısında uzanıb gedən sahənin zil

qaranlığına gözünü dikdi və ona elə gəldi ki, bir qədər aralıda nəyinsə tərpəndiyini gördü. Dayanıb bir anlığa ətrafı dinlədi, özünə ürək-dirək verib asta-asta addımlamağa başladı. Gözünə görunənlə arasındakı məsafə qısaldıqca ürəyi həyəcandan daha da şiddətlə döyynməyə başladı. Sanki, it də bunu hiss etmişdi. Odur ki, sahibinin arxasınca şübhə dolu hürkək addımlarla sürünürdü.

- Gözümə görünən, qadındır, vəssalam,- Qabriel dilləndi.- Bəlkə, kiminsə halı xarabdır, qadın köməyə tələsir, hə! Gəl, Troti, gəl gedək.

Beləliklə, Qabriel addımlarını yeyinlətdi. İt də sahibindən geri qalmaq istəmədi.

Nəhayət o, uzaqdan gördüyü adama xeyli yaxınlaşdı. Elə bu vaxt it dəlicəsinə zingildəyərək üzü aşağı götürüldü. Qabriel yaxınlaşıb gördü ki, onun əynində uzun nazik papaqlı plaş və başında qadın şlyapası var. Onun ayaq səslərinə qadının əhəmiyyət verməməsi Qabrieli heyrətə saldı və o, səsini başına atıb:

- Görürəm ki, qadınsan! De görüm, gecənin bu vaxtı çöldə nə itin azıb?

- Çox gözəl, deyərəm,- qadın şirin səslə cavab vərdi. Qabriel ömründə belə məlahətli səs eşitməmişdi. Amma qadın danışarkən üzünü Qabrielə tərəf çevirmədi.

- Evinizdə bədbəxtlik baş verməyib ki?- Qabriel söhbəti uzatmaq üçün yenidən xəbər aldı. Sualına cavab almayıb nə edəcəyini bilmədi. Araya çökmüş sükutdan istifadə edən qadın yaxınlaşıb Qabriellə çiyin-çiyinə addımladı. Görəsən, qadın gecənin bu vaxtında çöllərə düşmüş işsiz-gücsüz, avara sərsəri idimi? Nəyə görə tanınmamaq üçün üz-gözünü örtmüşdü? «Əgər belə olsaydı,- Qabriel fikirləşdi- qadın onunla çiyin-çiyinə addımlayardımı?» Bayaq eşitdiyi səs, əlbəttə, kübar xanımlara məxsus səs idi. Yaxşı, tutaq ki, qadın yüksək təbəqədəndi. Onda bəs nə üçün əynində nimdaş plaş və şlyapa var idi. İri bazar zənbili onun nəyinə lazım idi?

Bu mülahizələri ildırıb sürətilə beynində saf-çürük edən Qabrieli qadının paltarı daha çox özünə cəlb etdi. Yenidən qadına müraciət etmək qərarına gəldi.

- Məgər, dilinizi pişik aparıb, xanım? Mədəni bir adama da cavab verə bilmirsiniz!

Yenə də qadından cavab ala bilməyən Qabriel, sanki, qadının əlindəki ağzı örtülü səbətin içindən zəif gülüş səsi eşidib diksindi.

Qadın səssiz-səmirsiz səbəti ona tərəf uzatdı. Qabriel səbətin qulpundan yapışan kimi, əlinə çox yaxın bir səs dedi:

- Mən şübhə etmirəm ki, siz çox mehriban adamsınız. Və o saat həmin yerdən şaqraq gülüş səsi gəldi.

- Pərvərdigara! Bu nə işdir mən düşdüm?!- Qabriel dilə gəldi və qorxudan səbət əlindən yerə düşdü. Bu vəziyyət uzun çəkmədi, çünki səbətin ağzındakı süfrə sürüşdü və gözləri bərələ qalmış bir adam başı torpağa düşüb diyirləndi.

- Ay allah, bu başsız ruhdur ki! - Qabriel qışqırdı və kəlləni götürmək üçün dönüb aşağı əyilən qadının şlyapasının boş olduğunu gördü.

Dayandıqları təpənin üstündən ağzı aşağı Qabriel qaçdı, nə qaçdı. Az qaçdı, çox dayandı, çox qaçdı, az dayandı və birdən arxada donmuş torpağa deyib şappıldayan ayaq səsləri eşitdi. Yenicə gördüyü mənzərədən qorxu içində tir-tir əsən Qabriel yel qanadlı ceyran kimi şütüyüb təpəni aşdı. Ayaq səsləri getdikcə zəiflədi. Amma Qabriel Çeyli döngəsinə burulan kimi başsız ruhun atdığı idbar görkəmli kəllə fit çala-çala qabağa keçib onun qarşısında diyirlənməyə başladı.

Qabriel bir-iki saniyə çaşbaş qalıb nə edəcəyini bilmədi, çünki başsız qadın arxada, qorxunc kəllə isə qabaqda idi. Qabrielin hərəkətə gəlməsi uzun çəkmədi. Cəsarətini toplayıb qabağa addımladı ki, qarşısında diyirlənən kəllənin yanından sürətlə ötüb keçsin. Yenicə kəllənin yanına çatmışdı ki, o iyrənc varlıq iblisanə gülüşlə yolunu dəyişib Qabrielin qarşısına keçdi. O gülüşü sonralar da unuda bilməyən Qabriel gözlənilməz və instinktiv bir sıçrayışla kəllənin üstündən hoppandı. O, hoppanan kimi, kəllə de yerdən tullanıb Qabrielin baldırını dişlədi. Kəllənin dişləri zərblə bir-birinə dəyib qorxunc səslə şaqqıldadı. Qabriel cəld tərpənib canını qurtardı. Xeyli aralandıqdan sonra dayanıb qadının uzaqdan eşidilən ayaq tappıltılarına və geridə qalmış kəllənin atılıb-düşdükcə yerdən qopan şappıltı səslərinə qulaq asdı.

Qabriel sürətlə uzaqlaşdıqca səslər get-gedə zəiflədi. Təpə tərəfdəki ayıdöşəyi kollarının arasında itib-batmış bulağın döngəyəcən burula-burula axıb gələn suyu üstündən keçəndən sonra Qabrielin ürəyini lərzəyə salan səslər tamam kəsildi. Buna baxmayaraq Qabriel nəfəsini dərmək üçün bir an belə dayanmadı. Qaçıb evinə çatdı və özünü güclə yorğanın altına saldı. Qorxudan tir-tir əsən Troti yerə sinib daxmanın qapısı ağzında görünməz olmuşdu. Qabrieli görən kimi dal ayaqları üstündə oğrun-oğrun yuxarı çıxıb özünü çarpayının altına soxdu.

- Sənə həmişə demişəm ki, gecələr gəzməyə çıxan cinlərdən özünü gözlə,- Qabriel başına gəlmiş macəranı söyləyib qurtarandan sonra arvadı dedi.- Ancaq bil ki, sənin başına gətirilmiş oyunu yalnız və yalnız başı çiyinlərinin üstündə olan adam çıxara bilər.

LANKAŞİR CADUGƏRLƏRİ

Nadir şəhərlər, əzəmətli dağlar, sıx meşələr, yamyaşıl örüşlər, gözəl çaylarla üzük qaşı kimi əhatə olunmuş Lankaşir olduqca məşhur və gözoxşayan diyardır. Bir vaxtlar Lankaşir qəribə oyunlu cadugərləri ilə də məşhur olmuşdur.

Çox-çox illər bundan əvvəl Vudhil dağının ətəklərində Kutbert adlı bir qadın yaşayırdı. Qadının iki gözəl qızı var idi. Qızlar pul qazanmaq üçün səhərdən-axşama kimi ip əyirib toxuyur, amma kasıblıqdan yaxa qurtara bilmirdilər.

Bir dəfə Kutbert kol-kosa ilişib qalmış yunu yığmaq üçün təpəlikdə gəzib-dolaşarkən yaxınlıqdakı pöhrəlikdən dovşana bənzər bir heyvan çıxıb qaçmağa başladı, bir an sonra ov tulasına çevrildi və çox keçməmiş kişi qiyafəsinə girdi; qadın qorxusundan əsim-əsim əssə də, durduğu yerdən tərpənə bilmədi. Kişi yaxınlaşıb qadının ovcuna bir pul kisəsi basdı, sabah da bu yerə gəlməsini qadına tapşırıb dərhal qeyb oldu. Qoca Kutbert qorxu, tələş içərisində evə qayıtdı. O, evə çatana kimi pul kisəsini açmağa cürət etmədi. Evdə açıb gördü ki, pul kisəsinin içində on dənə qızıl sikkə var. Beləliklə,

Kutbert qızlarını yanına çağırıb başına gələni onlara söylədi.

Qızlar çox şad oldular. Sevindilər ki, pulları var. Düşündülər ki, çoxdandır həsrətində olduqları mal ətini, pudinqi alar və doyunca yeyərlər. Qızlar Kutbertə məsləhət gördülər ki, kişinin sözündən çıxmasın və yenə də oraya getsin. Kutbert belə də etdi.

Kutbert əvvəl-əvvəl torpaqdan bir ağac çıxdığını, ona tərəf hərəkət etdiyini gördü. Qəribə olsa da, həmin ağac çoxalıb Kutbertin dörd yanında qalın meşəyə çevrildi. Qadın azıb meşədə qalacağından xoflananda, qəfildən gözünə bir bina dəydi və musiqi sədaları eşitdi. İnana bilmədi; sonra cürətlənib binaya sarı addımladı. Görəndə ki, bina şah sarayına oxşayır və stolların üstü hər cür naz-nemətlə doludur, ürəyi yerinə gəldi, yaxınlaşıb ortalıqda şən-şən süzən bir dəstə qadına tamaşa eləməyə başladı. Rəqs sona yetəndən sonra Kutbert də başqa qonaqlar kimi süfrə başına dəvət olundu. O, əvvəlcə tərəddüd etdi, amma ac olduğu üçün yeməkdən imtina edə bilmədi. Yeməkdən sonra Kutberti qəbul etmiş malikanə sahibəsi əlindəki sehrli çubuğu ilə döşəməni döyəcləyib cürbəcür canlı varlıqlar - pişiklər, meymunlar, ayılar va s. yaratdı, qəndqıranla stolun üstünü taqqıldadaraq əmr etdi ki, oynasınlar.

Malikanə sahibəsi işini qurtarıb Kutberti kənara çəkdi, şənliyin xoşuna gəlib-gəlmədiyini xəbər aldı. Kutbert hər şeyin əla olduğunu söyləyib, kimlərin arasına düşdüyünü bilmək istədi.

Ev sahibəsi Kutberta dedi ki, o, Uelsin Penmur dağından olan cadugərdir, qalan arvadlar isə həmyerliləridir. Sonra qadın Kutberti dilə tutub bildirdi ki, onunla bacılıq olsa, həmişə ləl-cəvahirət içərisində xoşbəxt yaşayar.

Qadının yağlı dilindən yaxa qurtara bilməyən Kutbert razılaşdı və cadugərlər dərhal onun sinəsinə məlhəm sürtüb bir-iki dua oxudular. Sonra qalan məlhəmi və qutuda köstəbəyə bənzər balaca bir şeyi Kutberta verib dedilər ki, qutudakı onun dividir. Bir azdan cadugərlər Kutberti də götürüb yel qanadlı karetaya doluşdular və uçub səmaya qalxdılar. Çox keçməmiş Kutberti gətirib qapısının ağzına qoydular və küləyin istiqamətində yollarına davam etdilər.

Bu minvalla, sehrbazlar cəmiyyətinə məlhəmin və şeytanın gücü ilə daxil

olan Kutbert cadugərliyə başladı. Kutbertin şeytanı damağı çağ olanda deyib-gülür, özünü müxtəlif varlıqlara çevirir və cürbəcür hoqqalardan çıxırdı.

Bir neçə vaxt bundan əvvəl Lankasterin meri Kutberti soyuq qış günündə onun çəpərini sındırıb ocaq qalamaqda təqsirkar bilib kötəkləmişdi. İntiqam üçün münasib məqam gəzən Kutbert bir gün meri dostları ilə yeyib-içən gördü. İmkandan istifada edib merin ovcuna bir məktub basdı və yoxa çıxdı. Mer naməni oxuyub qurtaran kimi, dostlarına bildirdi ki, cındıra çıxmalıdır. Odur ki, qonşu otağa keçib lüm-lüt soyundu. Sonra qamçı götürüb küçəyə qaçdı və yanlarını qırmanclayaraq çığır-bağır saldı:

- Çəkilin! Gəlirəm! Mən qalib gələcəyəm! Qələbə mənim olacaq!

Camaata elə gəldi ki, mer dəli olub. Qaçdılar ki, onu tutub saxlasınlar, amma mer şəhərin o başına qaça-qaça yanlarını qamçılayıb qançır etdi. Ağlı başına gələndə qorxusundan matı-qutu qurudu və bütün günahların şeytanda olduğuna and içdi, çünki bütün vaxtı özünü at belində hiss etmiş, özünə çəkdiyi qamçılardan xəbəri olmamışdı.

Günlər keçdikcə cadugərlik sənətinə daha dərindən yiyələnən Kutbert, bu peşənin sirrlərini qızlarına da öyrətməyi qərara aldı. Qızlar analarının başçılığı altında fəaliyyat göstərməyə razılıq verəndən sonra, Kutbert onların kamil sehrbaz olmaları üçün əlindən gələni əsirgəmədi.

Qızlardan birinin adı Marqəri, o birininki Sisili idi. Ay keçdi, il dolandı və bir gün evin kiçik qızı Sisili evlərindən bir mil aralı yaşayan kişinin oğluna vuruldu. Oğlan həd-buluğa çatmış, çinar boylu bir gənc idi və qızların dərdindən ölən vaxtı idi. Sisili için-için məhəbbət alovunda qovrulur və necə olursa olsun, oğlanın ağuşuna atılmaq istəyirdi. Oğlanın ov etməkdən xoşu gəlirdi. Bundan xəbərdar olan Sisili tez-tez özünü dovşan cildinə salıb oynaqlayar və evlərinə tərəf götürülərdi, çünki oğlanın yolu onlar tərəfdən keçəndə həmişə Kutbertgilə baş çəkib hal-əhval tutardı. Şəhvət dolu bu ehtiras ələ o vaxtdan da Sisilinin qəlbinə hakim kəçilmişdi.

Bir dəfə bu ehtiras Sisiliyə çox baha başa gəldi. Cadunun gücü ilə oğlanı əyləndirən Sisilini ov tulalarından biri lapdan qamarlamış və sıxıb budunu göyərtmişdi. Yaxşı ki, Sisili qaçıb canını qurtara bilmişdi. Xoşbəxtlikdən,

yuvası yaxın imiş, yoxsa Sisilinin məhəbbəti həmişəlik nakam qala bilərdi.

Dovşanın binanın içinə soxulduğunu güman edən oğlan otağa girdi və Sisilini ağrıdan üz-gözünü turşudub kürəyini ovuşduran gördü. Oğlan çaşbaş qalıb geri qayıtdı və Sisili ehtiyatlı tərpənib oyunbazlığından birdəfəlik əl çəkdi.

Vaxt gəlib vədə tamam olanda oğlan çox gözəl, nəcib bir qızla evlənmək istədi, ancaq Sisili həmin qızı cadunun köməyi ilə meşəyə apardı və qızın gözlərinə əbədi yuxu bəxş etdi. Sonra özünü gəlin cildinə salıb muradına çatdı. İşlərin belə çox davam edə bilməyəcəyini yaxşı bilən Sisili oğlanı da dərin-dərin yuxulara qərq etdi; Sevgilisini gətirib oğlanın qolları arasına saldı. Aşiqlə məşuq oyanıb gözlərini açanda onlara elə gəldi ki, həmişə bir yataqda qol-boyun olublar.

YORKŞİR VƏ LİNKORŞİR NAĞILLARI

HELLEN POT QULYABANISI

Gecən payız havalar soyumamışdan qabaq mən imkandan istifadə edib

qamış basmış Yorkşir ovlaqlarına səfərə çıxdım. Tozlu-torpaqlı sahələrdən uzaqlaşıb saf havadan döyünca ciyərlərimə çəkdim. Uzun müddət gözəl Varfedeyli gəzib-dolaşdıqdan sonra ilk gecəni Voltonda keçirtdim. Strid çayının sahilini gəzə-gəzə gəlib elə bir yerə çatdım ki, orada çay qayaların arasındakı ensiz yapğandan axıb keçirdi. Bu yerdə çayın üstündən hoppanıb keçmək olardı. Uzanıb dincəlməyi qərara aldım. Bir an sonra mürgülədim.

Haçan durub veyl-veyl avaralandırım gücləI yadıma Gəlir, ancaq Silverdeylə gedib çıxdığımı dəqiq xatırlayıram. İnqlburqun qala divarları yanında pendir-çörək yeməyim də yaddaşıma həkk olunub.

Ayağa qalxıb irəliyə addımladım. Ele bu vaxt. yaylaqdal yurd salmış çobanın illər görüb qərinələr yola salmış Yorkşir gədiyində qoyunları saydığını eşitdim: «Bir, iki, bizimki, üç, dörd, qapını ört…»

Arnklifə doğru getməyə başlayanda kiminsə sürətlə arxamca gəldiyini birdən hiss etdim. Ürəyimə damdı ki, mənə çətmaq istəyir. Axşamdan xeyli keçmişdi. Mavi səmada sayrışan ulduzlar yeri-göyü işıqlandırdığı üçün arxamca irəliləyən qaraltının insana bənzədiyini seçə bildim.

Amma onun çox qəribə yerişi vardı. İlan kimi əyri-üyrü, ördək kimi yanlarını basa-basa yeriyirdi. Nəhayət, o gəlib mənə yaxınlaşdı.

- Axşamın xeyir; ay dost,- dedim.- Ovlaqda yolunu azmış bir qəribəm. Arnklifin yolunu mənə göstərə bilərsənmi?

- Gəl mənimlə gedək,- cavab gəldi. O, əlini yelleyərək barmabı ilə qabağı göstərdi.

- Yaman qaranlıq gecədir, ha! - dedim.

- Aşağıda bundan da qaranlıqdır,- o sanki öz-özünə mızıldandı - Qaranlıqdır, daha da qaranlıqdır.

- Görəsən, ay üzünü bizə göstərməyəcək, dostum?

Müsahibim cavab vermədi. Ayağını çəkə-çəkə onun arrxasınca getməyi mənə işarə etdi. Özünü qəribə aparması məni çaşbaş saldı. Elə bil tikan üstündə oturmuşdum. Onun davranışında və zahiri görkəmində fövqəltəbii nəsə var idi.

Çox getmişdim bilmirəm, az getmişdim bilmirəm. Bircə onu bilirəm ki,

qulağıma su səsi gəldi. Çox güman ki, bu səs daşların arası ilə şırıltı ilə axan kiçik bir çayın səsi idi. Mənə elə gəldi ki, bələdçim çaya çatan kimi qeyb oldu. Mən onu səslədim, amma cavab gəlmədi. Nəfəsimi udub qulaq asdım. Axar suyun şırıltısından başqa heç nə eşitmədim; bir də çox-çox uzaqlardan bayquş ulartısı eşidilirdi.

Fikirləşdim ki, axın boyu irəliləsəm, gedib çaya çıxacağam, çay isə aparıb məni insan məskənina çıxaracaq. Fikirlərin ağuşundan ayrılmamış ayağım sürüşkən bir daşa ilişdi. Büdrəyib suyun içinə yıxıldım. Balaca çayın sahilləri qalxıb ərşə yüksəldi. Başımı qaldırıb yuxarı baxdım. Çayın sağ sahilində ətəyini naznazı çiçəkləri bürümüş yalçın qaya görünürdü. Qayanın başında əyri-üyrü biçimli bir insan dayanmışdı. Bu, mənim qəribə yol yoldaşımın fiquru idi. O, qayanı keçi kimi hoppana-hoppana düşüb, duz birbaşa üstümə gəldi. Qollarını yana açıb bir göz qırpımında məni qolları arasına aldı va ayaqlarım yerdən üzüldü. Neçə heyrətlanmişdimsə, dartınıb inad göstərmək yadımdan çıxmışdı. Məni bərk-bərk qucaqlamış məxluq on-on beş addım atmışdı ki, qulağıma sanki nəhəng bir qazana tökülən su səsi gəldi. Çevrilib qarşımda dibsiz-bucaqsız qara bir çala gördüm. Əcayib məxluğun aşağı əyilərək mənimlə birlikdə çalaya atılmaq istədiyini hiss etdim. Dartınıb sağ qolumu çıxartdım və qanadlarını uçurumun üzərinə gərmiş üvəz ağacının budağından yapışdım.

Həmin anda gözlərim önündə fənər yandırıldı. Zəif, sarımtıl işıq dilləri məni aparmaq istəyənin sifətini işıqlandırdı. Əlində şam tutan cavan bir qadın idi. Olduqca gözəl çöhrəsi vardı, ancaq gözləri elə kədərli idi ki, sözlə təsvir etmək çətindir. Fənərin işığı qara qazanın açıq ağzını da işıqlandırdı. Qazanın ağzı görünən kimi belimə dolanmış qollar boşaldı və qəribə məxluğun kəllə--mayallaq olub dibsiz uçuruma düşdüyünü gördüm. O, uçuruma vızıltı ilə düşən daş kimi yox, suya baş vuran adam kimi düşdü. Beləliklə, mən fənər işığında onun qanı qaçmış ağ sifətini və dəhşətdən bərələ qalmış gözlərini yaxşıcana görə bildim.

Fikirlərimi cəmləşdirib özümü tarazlayan kimi ağlıma gələn ilk şey, sahil boyunca qaçıb məni uda biləcək qorxunc quyudan mümkün qədər uzaqlaşmaq

oldu. Sonra mən ətrafı axtarıb əlində işıq tutan qadını tapmaq fikrinə düşdüm. Xeyli aralıda fənər gözümə dəydi, ancaq fənərin sahibini qaranlıqda seçə bilmədim.

Ucadan qadını səslədim. Qadın fənər tutmuş əlini yuxarı qaldırdı və arxasınca getmək üçün əli ilə mənə işarə etdi. Qaçıb qadına çatmaq istədim. Mən sürətimi artırdıqca, işıq da sürətlə uzaqlaşırdı. Mən ayaq saxlayan kimi, qadın da dayanırdı. Mən addım atmağa başlayanda qadın da hərəkətə gəlir və həmişə eyni məsafəni aramızda saxlayırdı. Biz iki milə yaxın yol gəlmişdik ki, birdən fənər söndü və həmin anda mən qarşımda xırda bir kənd evi gördüm.

Vaxt itirmədən evi dövrəyə almış məhləyə daxil olub qapını tələsik döydüm. Uzun, arıq bir kəndli qapını açıb təəccüblə üzümə baxdı.

İcazə verin, bir az sizdə rahatlanıb dincimi alım. Sonra Arnklifə gedən yolu mənə göstərərsiniz, çıxıb gedərəm, yaxşımı?- xəbər aldım. - Yolu azmışam. Başıma gələn sərgüzəşt isə əsəblərimi yerindən oynadıb.

- Gəl, gəl içəri, bəyəndiyin yerdə əyləş,- dedi və qəlyanının külü tökülmüş künçə işarə etdi. Sonra qapını örtüb cəftəsini keçirtdi və gedib əks tərəfdəki küncdə olan sınıq-salxaq stulda əyləşdi. Dalğın nəzərlərlə mənə baxdı və bir söz demədən qəlyanını tüstülətməkdə davam etdi. Düz on dəqiqə qəlyanın tüstüsünü sümürəndən sonra, kəndli var gücü ilə qışqırdı.

- Ay qız, qonağa bir stəkan pivə katir.

- Kişi, vaxtı m yoxdyp, axı- cavab mətbəxdən gəldi.

Başımı döndərib çiynimin ucundan çəpəki nəzərlərlə mətbəxi gözdən keçirtdim. Mətbəxdə stolüstü lampanın işığında yamaq salan bir qadın gördüm.

- Bu axşam Arnklifə getməyə da vaxtın yoxdur?- Qəlyanını asta-asta dodaqlarının arasından çıxaran kişi xəbər aldı.

- Yolu göstərin, özüm gedərəm,- mən cavab verdim.- Bilirsiniz, orada məni gözləyən bir dostum var.

- Hım! Belə de!

Qəlyanını təzədən on dəqiqə tüstülədən kişi xəbər aldı: - Bu yerlərə necə gəlib çıxmısan?

- İndi hər şeyi danışaram,- dedim və başıma gələni nəql etməyə başladım. Yolda rast gəldiyim qəribə yol yoldaşımdan söz salan kimi kişi sözümü ağzımda qoyub: - Qulyabanının işidir, arvad!- zövcəsinə müraciətlə dilləndi.- Yenə o məlun camaatın başına kəndir salıb oynatmağa başlayıb. Lənətə gəlmiş, adam azdırmaqdan zövq alır də! Kədər dolu solğun benizli qadının sifətinə düşən işıqdan kişinin qorxub qolları boşaldığını söyləyəndə: - - Kifayətdir, Peqqidir, Peqqi! - kişi səsini başına atıb yenə arvadına müraciət etdi. - Əlində fənər gəzdirən Peqqidən başqa heç kim ola bilməz, arvad!

- Peqqi çox yaxşı qızdır, - qadın mətbəxdən cavab verdi.

- Qulyabanı ilə Peqqinin nə əlaqəsi var? - soruşdum. - Elə danışırsınız ki, sanki onlar sizin yaxın tanışlarınızdır.

Yorkşirli qoca cavab verməyib uzun-uzadı fısıldadı və mürgü döyən gözlərini ocağa dikdi. Xeyli sonra dodaqlarına təbəssüm qonan qoca dilləndi: - Ay səni, qulyabanı elə bilib ki, səni süpürləyən kimi özü ilə uçurumun dibinə aparacaq. Mən belə hesab edirəm ki, Peqqini görən qulyabanı qorxub özünü itirib!

- Kaş, siz,- dedim,- onların hər ikisi haqqında hər şeyi mənə söyləyəydiniz.

- Söyləyəcəəyəm, cavan oğlan, səbrli ol. Bu axşam Arnklifə getməli olsan da, söyləyəcəyəm. Arvad, bizimçün işıq yandır,- arvadını səsləyən qoca döyüb. Qəlyanının külünü tökdü və ayağa durub taxçadan bir şam düşürtdü.

Xeyirxah qadın şamı alışdırdı. Qoca şamı götürüb papağını başına qoydu və mənə dedi:

- Hə, vaxtın varsa, arxamca gəl.

Durub onu izləməyə başladım. Qoca küçə ilə Arnklifə doğru irəlilədikçə aşağıdakı əhvalatı mənə söylədi.

Bir neçə yüz il bundan əvvəl Ketlvel yaxınlığındakı daxmada cavan bir qız yaşayırdı. Qəribə bir kişi qızın qonşuluğunda məskən saldı. O, qızın xoşuna gəldi və çox keçməmiş evləndilər. Onlar indi mənim bələdçimin yaşadığrı kiçik fermada qərar tutub dövran sürməyə başladılar. Ər-arvad kimi bir il yaşamamış, polislər bir axşam evə doluşub kişini tutub apardılar. Sən demə, kişinin Boltonda arvad-uşağı var imiş. Polislərdən yaxasını qurtarmaq üçün

kişi dartınıb onların əlindən çıxıb, quş kimi süzərək bataqlığın üstündən keçib. Deyilənə görə, bir də heç vaxt ələ keçməyib. Bəziləri fərz edirdi ki, o, aradan çıxıb Amerikaya gedib. Başqaları güman edirdi ki, kişi qara qazanlardan birinin içinə yıxılıb həlak olub. Kişinin zavallı ikinci arvadı Peqqi dərd ürəyini deşə-deşə çöllərə düşüb, bütün gecəni kişini axtarıb. Səhər tezdən Peqqinin meyitini tapıblar. Rəvayətə görə,- bələdçim alçaq səslə əlavə etdi, - Peqqi hələ də kişini axtarır. Guya, kişi əlinə düşən kimi qulağından yapışıb allahın hüzuruna araracaq ki, onu xoşbəxtlikdən məhrum etdiyi və ölümünə səbəb olduğu üçün allah kişini məhkum etsin. Bax, elə buna görə də qulyabanı Peqqidən qorxub qaçıb. Hə, ay Yorkşir ovlaqlarında veyl-veyl gəzib-dolaşan səyyah, gözün açıq olsun. Çalış ki, bir də Hellen Pot qulyabanısına tuş gəlməyəsən.

BİR ŞÜŞƏ AĞIL

Bir zamanlar bu yerlərdə yaşayıb dövran sürən ağılsız bir cavan vardı. O, özünə bir şüşə ağıl almaq istəyirdi, çünki səfehliyinin ucbatından başına cürbəcür oyunlar gəlir və adamlar onu ələ salıb lağa qoyardılar. Bir dəfə adamlardan biri ona dedi ki, dağın başında məskən salmış müdrik qadın dağ otlarından elə dərman düzəldir ki, içən kvmi adam ağıl dəryasına çevrilir və hətta, gələcəkdən xəbər verə bilir. Ağılsız cavan bu xəbəri anasına söyləyib, bir şüşə ağıl almaqdan ötrü dağa qalxıb qadını axtarmaq üçün anasından icazə istədi.

- İcazə verirəm,- anası cavab verdi.- Sənin ağıla ehtiyacın var. Allah eləməmiş, düşüb ölsəm, sənin kimi bir səfehdən heç kəs muğayat olmayacaq. Hərənin öz dərdi var. Körpə uşağa baxmaq, sənin qayğına qalmaqdan asandır. O qadının yanında özünü yaxşı apar, onunla xoş danış, qılığına gir, oğlum. Aqil adamlar qüsurları tez görür və biraz da barışmaz olurlar ha!

Beləliklə ağılsız gənc anası ilə halallaşıb yola düşdü. Təpələrdən aşdı, düzlərdən keçdi və gəlib müdrik qadının yanına çatdı. Ocaq başında əyləşmiş qadın bir böyük qazanda nəsə qarışdırırdı.

- Axşamınız xeyir, möhtərəm xanım! Çox gözəl gecədir, elə deyilmi?

- Aha - qadın qazanı qarışdırmaqda davam etdi.

- Çox güman ki, yağış yağacaq - ağılsız gənc ayağının birini götürüb o birini qoydu.

- Ola bilər ki, yağacaq.

- Ola bilər heç yağmasın,- oğlan dedi və boynunu qaşıyıb, papağını əlləşdirdi.

- O da mümkündur.

- Çox gözəl, havanın necə olacağına heç bir etirazım yoxdur, amma imkan verin, qazanda qaynayan şeylərə baxım.

- Çox pakizə, bax.

- Vay-Vay! Qazandakı məhlul artıq hazırdır,- səfeh cavan dedi.- Mən elə hesab edirəm ki, sövdələşmək vaxtıdır. Deyin görüm, sizdə heç satlıq ağıl varmı?

- O baxır adamına,- qadın cavab verdi.- Əgər sənə şah ağlı, əsgər ağlı, ya da müəllim ağlı lazımdırsa, işin düzəlməyəcək, çünki onlardan məndə olmur.

- Yox, yox, mənə sadə ağıl, yəni hamıda olan ağıldan lazımdır.

- Aydındır,- müdrik qadın dedi.- Eləsini duzəldərəm, amma sən də kömək etməlisən.

- O necə köməkdir ki, hörmətli xanım?

- Elə-belə,- gözlərini qazana zilləmiş qadın cavab verdi.- Sənin üçün dünyada ən əziz bir məxluqun ürəyini mənə gətirsən, bir şüşə ağılın yerini sənə deyərəm.

- Axı,- səfeh cavan başınI qaşıya-qaşıya xəbər aldı.- Mən bunu necə edim?

- Məndən niyə soruşursən, cavan Oğlan! 8mrunun sonunacan səfeh qalmaq istəmirsənsə, düşün özün tap! Elə ki, gətirdin, sənə bir tapmaca verəcəyəm yozasan. Əgər yozsan, biləcəyəm ki, mən istəyəni gətirmisən. Mən bəzi başqa şeylərin də şahidi olmalıyam, di get! Qoy xuda sənə kömək olsun.

Bəli, müdrik qadın iri qazanı götürüb dib otağa apardı.

Ağılsız cavan isə bir başa anasının yanına qayıtdı və müdrik qadının sözlərini ona nəql etdi.

- Mənə elə gəlir ki, donuzumuzu kəsməliyəm,- ağılsız cavan dilləndi,-

çünki hər şeydən çox mənim xoşuma yağlı donuz budu gəlir.

- Elə isə kəs, oğlum. Bir şüşə ağıl alıb özünü idarə edə bilsən, donuz sənə qurbandır.

Ağılsız gənc donuzu kəsdi. Səhəri gün müdrik qadının daxmasına getdi və onu nəhəng bir kitab oxuyan gördü.

- Axşamınız xeyir, xanım!- o dilləndi. – Mənimçün ən əziz olan məxluqun ürəyini sizin hüzurunuza gətirmişəm. Kağıza büküb gətirdiyim ürək stolunuzun üstündədir.

- Görürəm, görürəm,- qadın deyib çeşməyinin altından zəndlə ağılsız cavana baxdı.- Onda de görüm, o nədir ki, ayaqları yoxdur, ancaq qaçır?

Səfeh cavan boynunun ardını qaşıya-qaşıya fikrə getdi, lakin tapmacanı yoza bilmədi.

- Çıx, öz yolunla get,- qadın dedi.- Mən istəyəni gətirməyibsən. Bu gün sənə ağıl tapa bilmərəm.

Mudrik qadın kitabını şappıltı ilə örtüb kürəyini oğlana çevirdi.

Bu minvalla ağılsız gənc evə qayıtdı ki, əhvalatı anasına söyəlsin. Gəlib yenicə həyətlərinə çatmışdı ki, bir nəfər evdən çıxıb anasının can verdiyini xəbər verdi. O, otağa girən kimi anası ona nəzər salıb güclə gülümsədi. Elə bil, qadın demək istəyirdi ki, daha oğlundan sarı nigarançılığı yoxdur, çünki o, özünə ağıl almışdı və özünü dolandıra biləcəkdi. Sonra ana gözlərini yumub ömrünü oğluna bağışladI. Ağılsız gənc oturub dərin fikirlərə qərq oldu və fikirləşdikcə halı xarab oldu. Anasının əzab-əziyyətə qatlaşaraq nazı ilə oynadığını, dərslərinə kömək etdiyini, növbənöv xörəklər bişirdiyini, paltarlarını yuduğunu və onun səfehliyinə mətanətlə dözdüyünü yadına saldı. Bu dəm dərin kədər içərisində hönkürtü ilə ağlamağa başladı.

- Ah, ana, ana!- o dedi.- Bundan sonra mənim qayğıma kim qalacaq? Gərək məni yetim qoyub getməyəydin. Axı, mən səni hər şeydən çox istəyirdim, əziz ana!

Axırıncı kəlmələri deyəndə müdrik qadının sözləri ağılsız cavanın yadına düşdü.

- Belə-belə işlər!- o dedi.- Görəsən, anamın ürəyini çıxarıb müdrik qadına

aparımmı? Pis olmaz, hə?

Ağılsız gənc bıçağını çıxardıb barmağını tiyəyə sürtdü.

- Xeyr, xeyr! Mən bunu edə bilmərəm. Xudaya, bəs nə edim? Necə edim ki, bir şüşə ağılı əldə edim? Axı, bu dünyada tənha qalmışam!

Ağılsız cavan dərin fikrə gedib dağı arana, aranı isə dağa apardı. Səhər tezdən gedib bir iri kisə borc aldı. Evə gəlib anasını kisəyə salıb çiyninə götürdü və müdrik qadının komasına tərəf yollandı.

- Axşamınız xeyir, xanım,- ağılsız gənc dedi.- Ümid edirəm ki, bu dəfə istədiyiniz şeyi gətirmişəm.

Ağılsız cavan çiynindəki kisəni şappıltı ilə qapının kəndarına saldı.

- Ola bilər,- müdrik qadın dilləndi.- Yoz görüm, o nədir ki, sarıdır, narındır, ancaq qızıl deyil?

Cavan başını qaşıyaraq fikrə getdi, lakin yenə də cavab tapa bilmədi.

- İstədiyimi gətirməmisən, cavan oğlan! Sən mənim düşündüyümdən də gicbəsərsən! Heç vaxt sənin kimi ağıldankəm görməmişəm!- qadın dedi və qapını onun üzünə çırpdı.

- Bəs mən başıma haranın daşını töküm! – ağılsız gənc dedi və qüssə içərisində yol kənarında oturdu.

- Ümidim gələn iki şeyin, ikisini də, itirmişəm. Bir şüşə ağıl almaq üçün daha heç nə tapmağa gümanım gəlmir!

Bəli, göz yaşları axıb ağzına dolanaçan ağılsız gənc doyunca gözünün qorasını sıxdı.

Elə bu dəm yaxınlıqda yaşayan qız gəlib çıxdı. Qız oğlana baxıb soruşdu:

- Sənə nə olub, ay səfeh!

- Nə olacaq, donuzumu öldürmüşəm, anamı da itirmişəm. Məndən də yekə səfeh yoxdur.

- Çox pis,- qız dedi.- bəs sənin qulluğunda kim duracaq?

- Bilirsən, bir şüşə ağıl ala bilsəm, özüm başımı dolandıraram.

- Hansı ağıl şüşəsindən danışırsan?

Qız çönüb ağılsız gəncin yanında oturdu. Gənc başına gəlmiş sərgüzəşti necə vardı qıza söylədi.

- Belə-belə işlər,- qız dedi.- Sənin qulluğunda mən özüm də dura bilərəm.

- Bacararsanmı?

- Eh, əlbəttə bacararam. Deyilənə görə, ağılsız adamdan yaxşı ər çıxır. Əclaflıq etməsən, sənə ərə gedərəm.

- Yemək bişirə bilirsən?

- Bilirəm.

- Paltar yuyub yumağı bacarırsən?

- Baçarıram.

- Onda səndən yaxşı arvad çıxar. Bircə de görüm, müdrik qadınla məsələni necə həll edim?

- Bir az gözlə,- qız cavab verdi. - Məni alandan sonra bir şey fikirləşib taparıq.

- Düz deyirsən,- ağılsız gənc dedi və çıxıb getdi. Bir müddətdən sonra o, qızla evləndi. Qız onun ev-eşiyini sil-süpür edib sahmana saldı və çox ləzzətli xörəklər bişirməyə başladı.

Bir axşam ağılsız gənc qıza dedi:

- Gözəl qız, mənə elə gəlir ki, dünyada mənimçün hər şeydən əziz sənsən.

- Belə ürəkaçan sözlər eşitmək mənə xoşdur, bəs son rası?

- Gəlsənə səni öldüdüb ürəyini müdrik qadına aparım ki, mənə bir şuşə aqıl versin.

- Allah eləməsin! Ele şey etmə!- qız təşvişlə dedi. Məni öldurməyə ürəyin gəlməz! Bura bax, sən, ananın ürəyini çıxartmamışdın, elədirmi?

- Bəli, elədir. Çıxardıb aparsaydım, ağılla dolu şüşəni çoxdan əldə etmiş olardım.

- Elə şey yoxdur. Bilirsən nə var, sal məni kisəyə, diri-diri apar ki, tapmacaları yozmaqda sənə kömək edə bilim.

- Əlindən gələrmi?- səfeh cavan tərəddüdlə xəbər aldı.- Mənə elə gəlir ki, tapmaca yozmaq arvad işi deyil.

Canım-gözüm, indi baxarıq, qadın işidir ya yox. birinci tapmacanı söylə görüm.

- O nədir ki, ayağı yoxdur, qaçır?

- Eh, sudur da!

- Doğrudan ha!

- Bəs, o nədir ki, sarıdır, parıldayır, ancaq qızıl deyil?

- Bəh-bəh-bəh, günəşdir də!

- Əla qadası, əla! Dur, bu saat gedək müdrik qadının yanına.

Onlar gəlib qadının daxmasına çatanda o, qarının ağzında oturub güləşdən zənbil toxuyurdu.

- Axşamınız xeyir, xanım.

- Xoş gördük, ay səfeh.

- Mən belə hesab edirəm ki, xanım, bu dəfə sizin isəediyinizi gətirməkdə səhv etməmişəm. Amma ürəyini kəsib çıxartmamışam. Bilirsiniz, bu çox əzablı işdir.

Müdrik qadın çeşməyini silib təmizlədi və onların hər ikisinə diqqətlə baxdı.

- Deyə bilərsinizmi, o nedir ki, səhər dörd ayaqlı, günorta iki, axşam üç ayaqlı olur?

Ağılsız cavan yenə də boynunu qaşıya-qaşıya fikre getdi, lakin cavab tapa bilmədi.

Qız onun qulaqına pıçıldadı: «Uşaqdır».

- Yəqin ki,- Səfeh gənc sonra cavab verdi.- O, uşaqdır, hə, xanım?

Müdrik qadın başı ilə təsdiq edib:- Düzdür.- dedi. Artıq sən bir şüşə ağıl əldə etmisən, səfeh.

- Hanı? Hardadır?- səfeh cavan etrafına göz gəzdirib ciblələini axtardı.

- Arvadının başındadır. Səfehlər üçün ən gözəl müalicə ağıllı arvad almaqdır. O da sənin qismətinə çıxıbdır; Qoy, allah özü həmişə sizin köməyinizə gəlsin!

Bu sözlərdən sonra müdrik qadın ayağa durdu, ehtiramla xeyir-dua verib otağına girdi.

Beləliklə, onlar birlikdə evə qayıtdılar. Yeyib-içib xoş güzəran keçirtdilər və səfeh cavan bir də ağıl almaq xülyasına düşmədi, çünki arvadının ağlı hər ikisinə bəs idi.

QRASSİNQTON CİNİ

Bilirsiniz,- Billi dedi.- Qrassinqtonda zəngli saatın səsi çıxan kimi durub geyindim. Dilimə şərab vurduğumdan vaxtın necə ötdüyündən xəbərim olmamışdı. Yox, sərxoş deyildim, ağlım başımda idi. Yerimdən durub yola düşəndə saat on birə az qalırdı. Çox gözəl bir gecə idi. Ay hər tərəfi nura boyamış, ulduzlar sayrışırdı. Onu da deyim ki, heç vaxt Rilston Fell düzünü görməmişdim. İndi isə, gördüyunuz kimi, deyirman yolundakı döngəyə çatanda nəyinsə sürətlə yanımdan ötüb keçdiyini hiss etdim.

Aralıda zəncir cingiltisi eşitdim. Lakin heç nə görə bilmədim. Fikirləşdim ki, çox qəribə işdir. Sonra sakitcə dayanıb ətrafa göz gəzdirdim. Deyirman yolunun hər iki tərəfində ucalan daş divarlardan başqa bir şey gözumə dəymədi.

Çox keçməmiş zəncir cingiltisini yeniden eşitdim. Mən ayaq saxlayıb sakit dayananda cingilti də kesilirdi. Birdən ağlıma gəldi ki, bu, cin əməlidir. Cinlər haqqında çox şey eşitdiyimə görə addımlarımı yeyinlədib körpüyə tərəf irəlilədim. Deyilənə görə, Qrassinqton cini su üstündən keçmçkdən bərk qorxurdu. Amma mən körpünun ortasına çatanda cingilği səsi yenidən gəldi. İlahi, deyəsən, cin də suyu keçmişdi. Bəlkə də suyun başına fırlanıb gəlmişdi.

Əvvəlcə bərk qorxdum. Sonra cürətlənib fikirləşdim ki, gəlsənə, bir dönüb arəxamca düşən Məxluğa baxım. Beləliklə, geri döndüm, Linton sahilinə tərəf getməyə başladım. Zəncir səsini eşitdim, amma bir şey görə bilmədim ki, bilmədim. Birdən səs xırp kəsildi.

Bəli, istiqamətimi dəyişib evə qayıtdım. Yenicə ayağımı kandara qoymaq istəyirdim ki, zəncir cingiltisi yanımdan ötüb Holin Hayca tərəf uzaqlaşdığını eşitdim. Səsi izləməyə başladım. Ay buludların arasından çıxıb aləmi işıqlandırmışdı, gözümə bir quyruq göründü.

- Ay səni, qoca kaftar,- fikirləşdim.- Axır ki, səni görə bildim. İndi evə gedə bilərəm. Evin qapısına çatanda astananın ağzında qoyuna bənzər yekə bir şeyin uzandığını gördüm. Onun üstü yunla örtülü idi.

- Ayağa dur,- əmr etdim.- Bir tərpən də!

Ancaq o, yerindən tərpənmədi ki, tərpənmədi. Cəsarətimi toplayıb onu vurmaq üçün çubuğu yuxarı qaldırdım. O, gözünü qaldırıb üzümə baxdı. Pərvərdigara, necə gözlər olarmış! Gözlərindən od tökülürdü! Gözləri nəlbəki boyda idi. Girdə topa bənzəyirdi. O, gözlərini çevirdikcə içində iri həlqələr oynaşırdı. Rəngbərəng idi. Qırmızı, mavi, ağ həlqələr getdikcə kiçilib nöqtəyə döndü.

O, qorxulu güluşlə dişlərini ağartsa da, daha ondan qorxmurdum. Odur ki, yenə təkrar etdim:

- Dur ayağa, sürüş burdan!

Arvad səsimi eşidib qapını açdı. Qapıdakı varlıq ayağa durub çıxıb getdi. Görünür, arvaddan çox qorxurmuş! Əhvalatı arvada söylədim. Arvad dedi ki, o, cin imiş. O vaxtdan bəri cin gözumə görünməyib. Söylədiyim həqiqətə şübhə etməyə bilərsiniz.

ŞİPTON AVA

Qədim zamanlarda Neyesburq, Ursula Sauzeylin məskəni olubdur. O, iri gövdəli, başı yekə və çirkin sifətli yöndəmsiz qız olsa da, həddindən artıq ağıllı-kamallı idi. On altıncı əsrdə yaşayıb dövran sürmüş Ursula əvvəlcədən xəbər verildiyi kimi 1561-ci ilin müəyyən gün və saatında ömrünu başa vurmuşdu.

Böyüyüb ərsəyə çatmış Ursula York yaxınlığında yaşayan Tobi Şiptona ərə getmiş və həyatının son illərini Nid çayının sahillərində yerləşən cansıxıcı mağarada keçirmişdi. İndi pöhrəliklər arasında itib görünməz olan bu yer Şipton ananın Mağarası kimi məşhurlaşıb.

Camaatın gözünə görünməyə çalışsa da, qabiliyyətli cadugər olduğuna görə hamı ona hörmət edirmiş. Onun sərgüzəştlərindən birini sizə söyləmək istəyirik.

Eşidəndə ki, kardinal Volsey York məmləkətinə səfər edəcək, Şipton ana aləmə car çəkib bildirmişdi ki, Volsey heç vaxt belə iş görməz. Bunu eşidən kardinal hirslənib özündən çıxmış və dərhal Saffolklu hersoqy, lord Persini və

lord Darsini maskalandırıb onun evinə göndərmişdi. Yorkda yaşayan Besli ağa adlı bir nəfər onları Şipton ananın hüzuruna gətirmişdi. Onlar evə yaxınlaşıb qapını döydülər.

- Buyur içəri, Besli ağa, qoy möhtərəm lordlar da içəri gəlsinlər.- Şipton ana dilləndi.

Hamı təəccübləndi, çünki o, qonaqlarını görməmişdi. Bəs qonaqların kim olduğunu haradan öyrənə bilmişdi? Onlar içəri girib Şipton ananı buxarının qabağında əyləşən gördülər. Şipton ana adbaad qonaqlarına xoşgəldin edib piroq və pivə gətirdi. Qonaqpərvərlik göstərib onları əyləndirdi.

- Eh,- Saffolklu hersoq dilləndi.- Bilsən ki, sənin yanına nəyə gəlmişik, bizi

belə hörmətlə qarşılamazdın. Axı, demisən ki, kardinala Yorku görmək heç vaxt qismət olmayacaq.

- Yox, yox! Elə deməmişəm. Mən demişəm ki, kardinal Yorku görə bilər, amma ora ayaq basa bilməz.

- Bil və agah ol!- hersoq sözünə davam etdi.- Kardinal Yorka gələn kimi səni oda atıb yandıracaqlar.

- Baxarıq necə yandırarlar,- Şipton ana cavab verdi və yaylığını başından açıb ocağa atdı. Qəribə görünsə də, yaylıq alışmadı. Sonra o, yaylığını sakitcə odun üstündən götürüb başına bağladı.

- Bununla nə demək istəyirsən?- hersoq təkidlə xəbər aldı.

- Yaylıq yansaydı, məni də yandırmaq olardı.

Bu əhvalatdan çox keçməmiş kardinal Volsey Yorkdan səkkiz mil uzaqda yerləşən Kavuda səfər etdi. York şəhərinin uzaqlardan nəzəri cəlb edən qala divarlarını kardinala göstərdilər. O dedi:

- Sizə söz verirəm ki, York şəhərinin qapılarından mən içəri qədəm qoyan kimi Şipton ana bir cadugər kimi tonqalda yandırılacaq.

Düzü, kardinal arzusuna çata bilmədi, çünki elə həmin axşam kral VIII Henrinin əmri ilə həbs edilib Laysester qalasına salındı və çox keçməmiş orada da cəhənnəmə vasil oldu. Şipton ananın söylədikləri həqiqətə çevrildi.

CIRTDAN

O kanallar çəkilməmişdən, o çay məcrasını dəyişməmişdən çox-çox əvvəllər bu bataqlıqlar sürətlə artıb çoxalan su siçanları ilə dolu idi.

Onu da deyim ki, bu bataqlıqlar saysız-hesabsız pərilərin, ruhların da məskəniydi. Bu yerlərdə ruhların qayibanə səsi səhər açılanacan bir-birinə qarışar, inilti, zarıltı, qışqırıq səsləri qaranlıq gecələrin sükutunu pozardı. Pərilər suda bitmiş topa-topa otların üstündə atılıb-düşər, ifritələr suya batmış qol-budağı minib səyirdər, özlərini ilan şəklinə salıb bəhəg durardılar. Bir sözlə, axşamlar qəribə məxluqlarla dolu olan bu yerdən keçən adamın əti ürpəşirdi.

Bu yerlərdən qorxub çəkinən adamlar əllərində dini kitablar tutmasalar, axşamlar bu yerlərdən yollarını salmağa ürək eləmirdilər. Əcayib-qərayib varlıqlar haqqında söhbətimiz qalsın sonraya. Onu da deyim ki, siz də bataqlıqa qaranlıqda gəlsəniz, qorxudan dizləriniz əsər, diliniz tutulub, nitqiniz kəsilər.

Bataqlığı bürümüş qara qızdırma epidemiyası ilahi varlıqlar arasında da yayılıb onları taqətdən salmışdı. Mualicə üçün hərə bir şeydən istifadə edirdi. Qızdırmadan uçunmağı kəsmək üçün tiryək çəkib nəşələnənlər də vardı.

Cavaq olduğum vaxtlarda hamımız qara qızdırmaya tutulmuşduq. Xəstə qadınlar ocaq kənarında uzanır, kişilərsə həyət-bacada başlarını girləyirdi. Qızdırıb titrətmə uşaqlar üçün adi hala çevrilmişdi. Yaxşı ki indi o mərəzin kökü kəsilib. Belə nəql edirlər ki, bu xəstəliyin səbəbkarı cırtdan boylu sısqa bir məxluq imiş. Babal yuduğuma görə tanrı özü məni bağışlasın. Burası da sizə məlumdur ki, çirkab dolu bataqlıqlar həmişə qızdırma xəstəliyinə səbəb olubdur. Amma bəzilərinin dediyinə Görə bataqlıqda məskən salmış cırtdan suyu bulandırıb üfunət iyini ətrafa yayırmış. Bataqlıqdakı qoca məxluqlar da qollarını çırmayıb ona kömək edirmiş. Bəs necə, yaxşı iş deyildi ki, əllərindən gəlməsin.

Zaman keçdikcə bataqlığın suyu quruyub yerində horra kimi palçıq qaldı. Dağlardan sürünüb gələn çən-duman bataqlığın üstünə örtük çəkib

qızdırmanın axırına çıxdı. Baş verən dəyişiklik bataqlıqdakı məxluqların xoşuna gəlmədi. Qazıntı işləri aparmaq üçün dənizlər aşıb bu yerlərə danimarkalıların təşrif gətirməsi hər şeyə son qoydu. Amma yerli camaat onların üzünə xoş baxmır, ərzaqla təmin etmək istəmirdi. Danimarkalılarla xoş kəlmə kəsib onları evinə dəvət edən, qalmaq üçün yer vermək arzusunda olan bir nəfər belə tapılmadı. Camaat arasında şayiə gəzirdi ki, bataqlığın altını-üstünə çevirib biçarə məxluqların gününu qara edəcəklər. Cırtdanın da kürkünə birə düşmüşdü ki, günü göü əskiyə bukləcək.

Bildiyiniz kimi, cırtdan bataqlıqda gömgöy suların dərinliyində məskən salıb dövran sürür, axşamlar duman çəkiləndə sudan bayıra çıxırdı. Şər qarışanda sudan çıxan cırtdan çox çəlimsiz ixtiyar qocalar kimi aram-aram var-gəl edirdi. Yanlarını basa-basa gəzən cırtdanın pambıq kimi ağ saçları, həddindən artıq uzun çal saqqalı bir-birinə qarışıb pırtlaşmışdı. Əynində bozumtul xalatı vardı. Sıx dumanın arasından güclə görünən cırtdan, axar su şırıltısına, külək vıyıltısına bənzər səslə yeriyir, cüllüt civiltisini andıran səslə zümzümə edirdi.

Cırtdanın sir-sifəti pərilərin üz-gözü kimi qorxunc deyildi. Gözlərindən ifritələr kimi qəzəb yağmırdı. Çöhrəsi də meyit kimi sapsarı deyildi. Bütün bunlara baxmayapar, onun burulğan kimi içəri girib ciyiltili gülüşlə soba başında əyləşdiyini görəndə adamı vahimə basır, əsmə tuturdu. Yuxarı başa keçən cırtdan çiyni üstündən yanakı baxıb pıçıldadı:

- Cırtdana sığınacaq verin!

Təsəvvür edin ki, qoca cırtdan heç kəsi incitməzdi. Əksinə hərdən bir xoş xasiyyət olardı. İl yağmurlu keçib bataqlıqlarda suyun səviyyəsi artar, sel gəlib qapıların ağzına çatanda ay doğan kimi ata-analar uşaqları ilə evlərindən çıxıb çölə qaçar, üzlərini bataqlığa sarı tutub qorxa-qorxa, əsə-əsə cırtdan məxluqu səsləyərdilər:

- Adsız cırtdan, amandır, gəl.

Çıx sulardan, köməyə gəl.

Bir-birindən tutmuş camaat ayaq üstə əsib-titrəyəndə cırtdanın bataqlığı səs-küylə keçdiyini görən kimi təskinlik tapıb deyərdilər:

- Bu cırtdanın səs-küyüdür.

Səhəri gün bataqlığın suyu azalar, qapılardan göl çəkilərdi. Hamı bilərdi ki, bu, cırtdanın işidir.

Üç yaşlı uşaq boyda olduğuna görə onu cırtdan adlandırmışdılar. Özünün adı yox idi.

Dediyim kimi, cırtdan bataqlıqda məskən salmışdı. Bataqlığı qazıb tökən danimarkalılar ilahi məxluqları yurd-yuvalarından didərgin salmışdı. Yurdsuz qalmış cırtdanın şərəfinə söz qoşmuşdular:

Adsız -cırtdan, axsaq cırtdan
Axsaq cırtdan, qıçın dartan –
Su dolunca həşir salmaz,
Heç bir kəslə işi olmaz.

Bəli, qardaş, bataqlıqlar qupquru olmuşdu. Su qazılmış iri arxlarla axıb getmişdi. Sulu bataqlıq quruyub cadar-cadar olmuşdu. Bataqlığın qara günləri başlanmışdı. Yazıq cırtdan bataqlıqdan perik duşməyəydi, bəs neyləyəydi? Əlac yox idi.

Danimarkalıların qazdığı arxlar getdikcə uzanır, su dəydikcə torpaq yuyulub gedir, arxlar daha da dərinləşirdi. Bataqlığın durğun suyu bu arxlarla axa-axa gəlib çaya tökülürdü. Belə getsə, qara bataqlıq çəmənzara çevrilə bilərdi.

Hamı narahat olmağa başlamışdı. Axşamlar meyxanalarda, gediş-gəliş gur olan yerlərdə, həyətlərdə, mətbəxlərdə qəribə əhvalatlar danışırdılar. Düz sözə nə deyəsən! Od olmasa, tüstü çıxmaz. Qocalar narazı-narazı başlarını yırğalayır, cavanlar dizlərinə güc verirdi. Kimi fikrə gedib susur, kimi fikir söyləyirdi:

- Cırtdan hirslənərsə, bu yerləri bədbəxtlik basacaq. Allah, sənə min şükür! Camaat xısınlaşırdı ki, danimarkalılar yoxa çıxıblar, tamamila qeyb olublar! Onların izi-tozu heç harda gözə dəymirdi! Amma bataqlıq məxluqları çox gözəl bilirdi ki, məhkəmə işinə baxan ruhlar müqəssirləri qulaqlayıb gətirməyincə, haray salıb əyalətə xəbər yaymayınca heç kəs onları görə

bilməyəcəkdi.

Bir axşam cırtdan danimarkalılardan birini gətirib suyu tamam qurumamış bataqlığa salıb boğdu.

Bataqlıq məxluqları bunu görüb dönə-dönə təkrar etdi:

- Hə, cırtdan cin atına minməyə başlayır.

Sonra cırtdan danimarkalıları birbəbir gətirib bataqlıqların suyunu qurutmaq üçün qul kimi işlətsə də, heç bir xeyri olmadı.

Tezliklə yaxınlıqda yaşayan adamlar başa düşdülər ki, cırtdanın hamıya qəzəbi tutub.

Çünki cırtdan növbə ilə hər şeyi saraldıb-soldururdu; inəklər sozalmış, donuzların iştahı küsmüş, dayçalar taqətdən düşüb yabıya dönmüşdü. Uşaqlar arasında xəstəlik yayılmış, qoyun-quzu qırılmağa başlamışdı. Ehtiyat ərzaq öz-özünə alışıb yanır, təzəcə sağılmış süd dərhal turşuyub qıcqırırdı.

Küləş damlar axıb tökülür, divarlar uçub dağılır, bir sözlə hər şey tar-mar olurdu.

Əvvəl-əvvəl yaxınlıqda yaşayanların ağlına heç cür batmırdı ki, qoca cırtdan adamların başına müsibətlər gətirə bilər. Onlara elə gəlirdi ki, bu bəlaları törədən su pəriləri, ifritələrdi. Odur ki, cavanlar dombagöz cadugəri daşqalaq edib bazardan qovmuş, cingöz Səllini ölüləri ovsunlayıb qəbirdən çıxartdığına görə daşa basmışdılar. Onu kilsənin həyətindən tutub ata mindirmiş, Səlli qorxusundan ölümcül vəziyyətə düşənəcən atı qovmuşdular. Cadugərlərin çıxartdığı hoqqalardan xilas olmaq üçün cavanlar haylayıb onları ölkədən uzaqlaşdırdılar, amma yenə də heç bir faydası olmadı. Çünki hirslənib özündən çıxmış cırtdan quraqlığa bais idi. Odur ki, camaat mat-məəttəl qalmışdı. Analarının qucağında haldan düşüb ilınan körpələrin gül üzü gülmür, eyinləri açılmırdı. Atalar dalğın-dalğın papiros tüstülədir, analar üzünün rəngi qaçmış, süstəlmış məsum körpələrin başı üstündə acı-acı göz yaşı tökürdü. Sanki şaxta tər gülləri vurub xəzana döndərmişdi. Ürəkləri qəm yükünə tab gətirməyən adamların qarnı ac idi. Məhsul qıtlığı, xəstəlik onların amanını qırmışdı. Əgər bir tədbir görülməsə, yaxınlıqda yaşayanların hamısı ölümə məhkum idi.

Nəhayət kimsə təklif etdi ki, bataqlıqlarda su peyda olan kimi camaat cırtdanı haraylasın. Təzə ay səmada görünəndə hamı cırtdana yalvarıb dil töksün ki, bəlkə onun ürəyinə rəhm gələ, quraqlığa son qoyub tilsimi sındıra. Adamlara məlum idi ki, cırtdan insafa gəlib onları əfv etsə, şər qüvvələrin tilsimini də sındıra bilər.

Beləliklə, camaat təzə ay çıxanda köndələn arxın başında görüşməyi qərara aldılar. Gələnlərin hərəsi Con Rəttonun məhləsindən adama bir vedrə su gətirməli idi. Gələnlərin arasında kimi desən görmək olardı; Tom Həç, Vilyam, qozbel Fred, Helqeytli Hrok, Əmim Ted Bədley, körpələrini qucağına almış qadınlar da adamların arasında idi.

Üç-üç, dörd-dörd gələn adamlar cüzi külək səsindən belə qorxub diksinir, cüllüt civiltisi eşidən kimi qulaqlarını şəkləyib səksəkəyə düşürdülər. Amma buna ehtiyac yox idi, çünki suyu qurumuş bataqlıqda bir ins-cins qalmamışdı.

Əvvəlcə dediyim kimi, hər adamın əlində bir vedrə su var idi. Qaranlıq düşənə kimi adamlar bir yerə yığışıb pıçıldaşır, ümid içində vurnuxa-vurnuxa ətrafa nəzər salıb axar su şırıltısını, külək burulğanının vıyıltısını eşitmək arzusu ilə gözləyirdilər.

Nəhayət axşam oldu, qaranlıq düşdü. Adamların hamısı arxın başına yığışıb gözlərini təzə çaya zillədi, çox qəribə uca səslə haray saldılar:

Adsız cırtdan, adsız cırtdan
Bax bu da su - buzu qırdın.

Bəli, adamlar vedrələrdəki suyu şarıltı ilə arxa əndərdilər.

Bir-birindən yapışıb qorxu içində lal-dinməz dayandıLar. Nəfəslərini udub cırtdanın onlara cavab verib-vermədiyini eşitmək istədilər. Amma qulaqbatırıcı sakitlik ətrafa hakim kəsilmişdi. Bir müddət sonra gözləməkdən bezikən adamlar çıxıb getmək istəyirdi ki, birdən güclü külək burulğanı başlayıb onların başına dövrə vupmağa başladı. Sağa-sola cövlan edən burulğan anasını görmüş körpə kimi kövrək səslə ağlayaraq hamının ürəyini parçaladı. Sonra burulğan hıçqıra-hıçqıra içini çəkib yavaş-yavaş sakitləşdi,

bir qədərdan sonra yenə güclənib kədər dolu səslə inilti qopardı.

Analar dərhal şivən qopardıb sanki öz balalarını oxşayıb ağlamağa başladı, cırtdanı rəhmli olmağa və tilsimi sındırmağa səsləyib xahiş etdilər ki, körpələrə sağalıb boy atmaqa imkan versin. Biçarə günahsız körpələr də analarının yanıqlı naləsini eşidib ürək parçalayan səslə ağlayıb-sızlayaraq onların köksünə sığındılar. Körpələrin bu halına acıyan analar onları nəvazişlə tumarlayıb buz kimi soyuq öpüşlərə qərq etdilər.

Xeyli müddət sonra hamı toxtayıb sakitləşdi. Araya dərin sükut çökdü. Adamlar birdən ayaqlarını isladan axar suyun şır-şır səsini eşitdilər. Həyətlərdə itlər zingildədi. Bir az sonra çayın içindən zəif uğultu eşidildi. Tanış cüllüt civiltisi əks-səda verdi. Civilti bir neçə dəfə təkrar olundu. Camaat əmin oldu ki, bu, cırtdanın səsidir. Qoca cırtdanın mehriban və təəssüf dolu uğultudan aydın oldu ki, o, tilsimi sındıracaq, bəlanı camaatdan uzaqlaşdıracaq. İnsan sevincinin hüdudu olmazmış!! Onlar şadlıqdan göz yaşı axıdIr, bir dəstə məktəbli uşaq kimi atılıb-düşürdü. Qəlbən yüngüllük tapan adamlar evə qayıdanda heç kəs ruhlar, cadugərlər haqqında düşünmürdü. Yalnız analar ölmüş körpələrinin qanı qaçmış soyuq dodaqlarını, toppuş xırda əllərini, gözlərində donub qalmış anlaşılmaz ifadəni yada salıb xiffət edirdilər. İtirilmiş övlad kədəri anaları sarsıtmışdı. Bütün bunlara baxmayaraq o axşam insanların nə dərəcədə sevindiyini təsvir etməkdə söz tapmağa çətinlik çəkirəm! İnsanı riqqətə gətirən mənzərə yaranmışdı! Bataqlıq kənarında çal-çağır idi. Ümidsiz xəstə uşaqlar dirçəlib gözünü açmış, mal-qara cana gəlmiş, donuz potalarının iştahı açılmışdı. Cırtdan tilsimi sındırmışdı! Camaat yaxşı məvacib almağa başlamışdı.

Amma hər dəfə təzə ay göydə görünən axşam camaat axışıb arxın qırağına gəlir, hərə arxa bir vedrə su əndarib ucadan səsləyirdi:

Su gətirdik, adsız cırtdan,
İndi qurtar bizi dardan.

O saat mehriban, zərif cüllüt civiltisi çox məmnun halda əks-səda verirdi. Dediklərimdə bir qətrə da şübhə yoxdur ki, camaata qoşulub arxın başına

getməyən adam dərhal xəstələnib yorğan-döşəyə düşürdü, çünki cırtdan hirslənib o adamı magirləyirdi. Bir də təzə ay göydə yenidən peyda olunca, həmin adam gedib cırtdanın əl-ayağına düşüb yalvarınca vəziyyəti pis olurdu.

Körpələrin halı xarablaşan kimi hamı bilirdi ki, cırtdanın işidir. İndi o vaxtdan çox illər keçib. Camaat cırtdanı çoxdan unudubdur. Amma onu da deyim ki, cırtdanı öz gözümlə görmüşəm. Allah haqqı düz sözümdür! Saçı-saqqalı ağappaq cırtdan həmişə dumanda zühur edib yanlarını basa-basa cüllüt kimi səs salardı. Cırtdan üçün vedrə ilə su aparanlardan biri da mən özüm olmuşam. Eh, əzizlərim, o vaxtdan bəri illər ötüb, qərinələr dolanıb. Artıq ömrümun ixtiyar çağıdır. Əlimdəki əsa da sözümə baxmaq istəmir. Əsə-əsə güclə gəzirəm. Elə güman edirəm ki, həyatın inkişafı qarşısında aciz qalan cırtdan qorxudan bu yerlərdən qaçıb uzaqlaşıbdır. İndi onun yerini heç kəs bilmir. Amma cavan vaxtında olduğu kimi yenə da adamlardan bəxti üz döndərib dara düşən kimi onlar köhnə xatirələri yada salıb deyirlər:

- Axırıncı dəfə təzə ay çıxanda arxın başına getmişdinmi? Yox? Odur da! Yəqin yenə cırtdan hirslanib özündən çıxıb!

OYUN

Samuel Satklif Hebdən Heyda, təxminən Nyubriçdən yarım kilometr qərbdə yaşayırdı. Hebden hey Uaythilədlı çınqıllı dərədən başlayan və Hebden çayının sahillərinəcən gedib çıxan bir yer idi. Samuelin evi indi dabaşqa evlərdən asanlıqla seçilir. Onun evinin rəngi ağappaqdır, qapısının ağzında hündür küknar ağacı var. Küknar ağacı Tommi Rokinin evinə sarı baş alıb gedən dar cığırın başlanqıcında bitib. Bəli, söyləyəcəyim bu nağılı damən hamının Sammi çağırdığı Samueldan eşitmişəm. Qulaq asın, nağıla başlayıram.

Qardaşım Tom çox nadir hallarda dilinə içki vurardı. Bir dəfə o, cıdır meydanına getmiş, çoxlu pivə içmişdi. Təxinən saat on birin yarısında meydandan küçəyə çıxan Tomun ağlı başında deyildi və hansı tərəfə getdiyini bilmirdi. Amma qəribə olsa da, düz yolun ortası ilə gedirdi. Elə bu dəm kiminsə həmin yolla ona tərəf irəlilədiyini gördü.

- İndi mən,- Tom fikirləşdi,- kənara çəkilməsəm, onunla kəllə-kəlləyə gələcəyəm və o vurub məni aşıracaq.

Ay doğmuşdu, lakin arabir buludların dalında gizlənir və adamın əyri-üyrü kölgəsi yerə düşürdü. Tom onunla toqquşmamaq üçün səntirləyə-səntirləyə kənara çəkildi, lakin onun kölgəsi gözunə dəydi. Toma elə gəldi ki, kölgə adamın özüdür və onu haçan yıxdığını ağlına gətirə bilmədi. Beləliklə, Tom oğlanın üstündən addımlayıb kölgəsindən uzaqlaşmaq İstədi. Bunu görən adam şappıltI ilə qardaşımla baş-başa dəydi.

- Ay səni, yaramaz əclaf! - o dedi və qardaşımın qulağından yapışıb var gücü ilə dartdı.

- Söyüş etmə, təqsir səndədir,- Tom dilləndi.- Sənin kimi dik dayanan möhkəm kölgə görməmişəm. Belə də iş olar?

O adam Toma bir kəllə də ilişdirib yerə yıxdı. Gücünü toplayıb ayağa qalxan qardaşım yolu əlinə alıb getməyə başladı və öz-özünə mızıldandı:

- Qələt eləyib səhv etmərəm ki, bu axşam bir də kölgələrlə üz-üzə gəlim.

Çox keçməmiş Tomun gözünə başqa bir oğlan göründü.

Yoldan çıxıb kənara çəkildi. Səmtini dəyişib bir darvazanın yanında ayaq saxladı ki, gələn adama keçib getmək üçün yol versin. Tom hələ də sərxoş idi, çünki pivənin təsiri dağılmamışdı. Hara gedəcəyini düşünüb tapa bilməyən Tom tarlada xeyli gəzib dolaşdı. Ay buludların arxasında gizləndi. Qatı qaranlıq çökdü və göz-gözü görmədi.

- Ay da batdı,- Tom yenə donquldandı.- Cəhənnəmə batsın! Çox elə mənə lazımdır ay! Bu saat yıxılıb burada yatacağam.

Bir an sonra Tom torpağın üstünə uzandı. Yuxu onu apardı.

Çox keçməmiş soyuqdan titrəyə-titrəyə oyandı. Üstünə qırov düşüb onu islatmışdı, dişləri bir-birinə dəyib şaqıldayırdı. Tom gözlərini açıb ətrafa nəzər

saldı.

- Sizcə nə görsə yaxşıdır? Hə, başının üstündə qarğa kimi qaramtıl qorxunc bir vücud dayanmışdı. O vücudun qıçları qarmaq kimi əyri idi və qolları yana açılmışdı, barmaqlarındakı caynaqlar Tomun diqqətindən yayınmadı. Vücudun sifəti insan sifətinə bənzəmirdi, çox pırtlaşıq saçları və uzun sivri buynuzları var idi. Qəzəbli gözlərini Tomun üzünə zilləmişdi.

Eh, sizə elə gəlməsin ki, məleykələr göydən enib Tomun hüzuruna pişvaza gəlmişdilər. Qətiyyən yox! Tom buna layiq oğlan deyildi.

Birdən Tomun ağlına gəldi ki, vücud onun ruhunu alıb axirət dünyasına aparmaq istəyir. Odur ki, sakitcə uzanıb səsini çıxartmadı. Özünu yatmış kimi qələmə verməyə çalışan Tom fikirləşirdi ki, əgər yuxuya gedə bilsə, vücud ədəbsizlik edib onu oyatmaz və onu heç yerə aparmaz. Onunla kəllə-kəlləyə gəlməsinə baxmayaraq günahından keçər.

Beləliklə, Tom gözlərini bərk-bərk yumub sakitcə uzanmış vəziyyətdə qaldı. Elə o dəm vücudun barmaqlarının cibində gəzdiyini və cibinin hansı küncünəsə düşüb qalmış iki penslik xırda pulu axtardığını hiss etdi. Qəfildən yerindən dik atılan Tom vücuda tərəf çevrilib bağırdı:.

- Ay səfil sərsəri! Ay oğru əclaf! Ay dombagöz cibgir! Aparırsan, cəhənnəmə, götür ruhumu apar! Mənim qəpik-quruşumda sənin nə işin var, ay dələduz?

Tom yersiz hərəkət edib vaxtında vücudun üstünə düşməmişdi, O, Tomun boğazından yapışıb qəzəblə silkələdi.

Vücud hirsindən tir-tir əsirdi, səsini çıxartmırdı. Nədənsə ağzına su alıb dayanmışdı. Tom üzünü ona tərəf çevirəndə vücudun quru taxta kimi dayanıb sağa-sola ləngərlədiyini və məchul bir nöqtəyə baxdığını gördü.

Vaxtsız danışdığı üçün daha özünü yuxulu göstərməyin əhəmiyyəti olmadığını anlayan Tom fikrə getdi:

- İndi mən nə etməliyəm? Bu necə vücuddur? Əl vurursan, barıt çəlləyi kimi partlayır! Danışmaq da istəmir! Heç eybi yoxdur, indi səni dindirərəm!

Tom gözlərini bərəldib vücuda baxdı və soruşdu:

- Təzə bir şey varmı?

Sirrli-soraqlı vücud cavab vermədən susub durdu. Tom yenidən sözə başladı:

- Çox güman ki, sən uzaq yollar keçib buraya gəlibsən. İstəyirsən pay-piyada, istəyirsən uça-uça, ya da qatarla gəl. Fərqi yoxdur, uzun səfər yorucu olur. Yorulub əldən düşdüyünü çox gözəl başa düşürəm. Dağlar aşıb, düzlər keçib mənim yanıma gəlmək sənin tərəfindən lütfkarlıqdır. Hələ onu demirəm arvadım evdən çıxıb yarımca mil dalımca cıdır meydanına gələndə nə qədər donquldanır. Ola bilsin ki, sən mənim yanıma gəlmək üçün beş min mil məsafə qət etmisən. Bu, əsil alicənablıqdır. Səni inandırıram ki, mənim yerlilərimin heç biri bunu etməz! Amma onu da deyim ki, bizim camaat bir balaca çənədən sazdır. Çərənləməyə başlayanda qurtarmaq bilmirlər. Vay onların çənəsinin altına düşənin halına! Ancaq, əzizim, mən onlar kimi mərifətsiz deyiləm. Heç olmaq da istəmirəm! Yamanca istidir, ha! Bircə dəqiqə gözlə, qaçım sənə bir parç ev pivəsi gətirim.

Tom sözünü sona yetirib çevikliklə ayağa qalxdı, sincab kimi sürətlə irəliləyib evə çatdı və qapını itələdi. Arvadı Sara Ənn qapını açdı. Tom evə gec qayıtdığı üçün arvad hind xoruzu kimi hikkəsindən qıpqırmızı qızardı, ağzını açıb gözünü yummaq istəyirdi ki, əri onu qabaqladı:

- Sara Ənn, gözümün işığı! Qaç bir parç pivə gətir. Tez aparıb vücuda ver. O, sənin pivəni gözləyir.

Toma elə gəlirdi ki, arvadını vücudun yanına göndərsə, vücud o dünyaya Tomun əvəzinə arvadını aparardı və onun canı ölümün pəncəsindən qurtarardı. Amma Sara Ənn sən deyən arvadlardan deyildi. O, *cə*ld yerindən sıçrayıb Tomun təpəsinə elə bir qapaz ilişdirdi ki, onun gözləri önündə sarımtıl ləkələr oynaşmağa başladı. Qapazın səsi qıcqırmış pivə şüşəsinin ağzından çıxan tıxacın səsinə bənzədi. Daşdan səs çıxdı, Tomdan yox!

Bəli, əzizlərim, səhər tezdən qardaşım Tom gecə azıb qaldığı yerə getdi və... qəribə vücudun hələ də orada dayandığını gördü. Üfuqdən boylanan güneş aləmi nura qərq etmişdi. Deyin görüm, Tom nə görsə yaxşıdır? Sən demə o qəribə vücud oyuq imiş.

ŞİMAL-ŞƏRQİ İNGİLTƏRƏ NAĞILLARI

İNƏK CİLDİNƏ GİRMİŞ QULIYABANI

Gecən əsrdə Rayvensvortun qərbində, Blekbern Fellin ətəklərində Hedli adlanan yerin yaxınlığındanTenfildə gedən yolda inək qulyabanının kələkləri camaatı lap bezdirmişdi. İnək qulyabanı çox da qəddar deyildi, amma olduqca fəndgir və dəcəl idi. O, heç kəsin başına olmazın oyunlar açmazdı, adamları qorxutmaq isə canına sarı yağ kimi yayılardı. Bir kimsəyə rast gələn kimi hoq-qabazlıq edər, qorxub özünü itirmiş adama baxar və şaqqanaq çəkib gülərdi.

Mərdimazar qulyabanı Fell yaxınlıqındakı fermada işləyən yeniyetmə qızların qənimi kəsilmişdi. Bə'zən namərd qulyabanı pəncərə qabaqında qızların istəklilərinini səsi ilə yamsılayardı, qızlar da yorğan-döşəkdən dik

atılıb pəncərəyə tərəf qaçardı. Bə'zən də qızlar evdən çıxan kimi küpələri vurub yıxar, anbarın qapısını açıb pişikləri qaymaq yeməyə çağırar, toxunan corabların ilməsini qaçırdar, qızların cəhrəsini sındırardı.

Qulyabanı tez-tez sağıcının sevimli inəyinin cildinə girər və qızı məcbur edərdi ki, arxasınca düşüb qovsun, onu tutsun. Qız onu tutub sağmağa başlayanda, təpik atar və çox bərkdən şikayət dolu səslə ele böyürərdi ki, elə bil qəlbinə şeytan girmişdi. Sonra vurub vedrəni böyrü üstə yıxar, kəndirdən çox ustalıqla çıxar, böyürə-böyürə aradan çıxanda qız başa düşərdi ki, onu elə salıb başına oyun açan, inək cildinə girmiş qulyabanı imiş. Bu hoqqa qulyabanının ən çox xoşladığı kələk idi və çox güman ki, adını da elə bu əməlinə görə qoymuşdular. İnək cildinə girmiş qulyabanı haqqında yayılmış rəvayətlərdən biri belə olubdur.

Biri vardı, biri yoxdu, Qudi Bleyk adlı qoca bir qarı vardı. Qarı bapbalaca daxmada yaşayıb qonum-qonşuya iş görməklə özünə çörək pulu qazanardı. Gördüyü işə görə bir evdə səhər yeməyi yeyər, o birində nahar eləyər, birtəhər başını girləyərdi. Qarı həmişə elə şən və qıvraq gəzib dolanardı ki, elə bil heç nəyə ehtiyacı yox idi.

Bir yay axşamı Qudi böyük bir yol ilə evinə gedirdi. Adəti üzrə gülümsəyən qarı birdən yolun kənarındakı çalada bir iri qara küpə gördü.

- Allah, sən kömək ol! - Qudi həyəcanla dilləndi. Nə mənim malımdır! Əfsus ki, içində bişirməyə heç nəyim yoxdur. Görəsən, onu çalaya kim atıb?

Küpənin sahibini görmək ümidilə qarı dörd yana göz gəzdirdi, amma heç kəsi görmədi.

- Bəlkə küpənin dibi deşilib - Qudi fikirləşdi, elə ona görə də onu atıblar. Nə olsun, küpədə gül əkib pəncərəmə qoyapam. Yerinə düşər. Götürüb evə aparım.

Qudi küpəni götürdü, qapağını qaldırıb içinə baxdı.

- İlahi! - qarı heyrətlə qışqırdı.- Küpə qızıl pullarla doludur ki! Qismətimdir, allah yetirib! Bəxtim gətirib!

Doğrudan da küpə ağzınacan qızıl pulla dolu idi. Əvvəlcə Qudi heyrətdən yerində quruyub qaldı, sonra özünü ələ alıb dedi:

- Məgər mən də varlanmışam? Bəli, bəli! Çox dövlətli bir adam olmuşam!

Bu sözləri bir neçə dəfə təkrar edən Qudi fikirləşməyə başladı ki, tapdığı xəzinəni evə necə aparsın. Küpəni əlinə alıb aparmağa onun gücü çatmazdı. Odur ki, Qudi yaylığını küpəyə sarıyıb onu əl arabası kimi arxasınca sürməyi qərara aldı.

- Tezliklə qaranlıq düşəcək,- Qudi öz-özünə fikirləşdi - Lap yaxşı. Qonşular evə gətirdiyimi görməzlər və mən də arxayınca götür-qoy eləyərəm, görüm, bu dəfinənin neyləyərəm. Bəlkə, bir böyük ev alıb buxarı kənarında bardaş qurub, kraliça kimi çaydan icib, əlimi ağdan-qaraya vurmayıb. Ya da ki, qazıb küpəni bağda basdırım, yalnız bir neçə qızıl götürüb buxarının üstündəki çini çaynikə atım hə! Bəlkə... Eh, Qudi, Qudi! Xoşbəxtlik sel kimi axıb gedir!

Bu dəm qarı hiss etdi ki, küpəni sürütləmək onu əldən salıb. Nəfəsini dərmək üçün ayaq saxladı və başını döndərdi ki, var-dövlətinə baxsın. Baxdı! Qızıl dolu küpənin yerində bir parça gümüş gördü. Qarı diqqətlə gümüş parçasına baxdı, gözlərini ovuşdurub bir də baxdı və nəhayət dilləndi:

- İşə bir bax! Məgər də elə bilirdim ki, qızıl dolu küpə tapmışam. Yəqin yuxu görmüşəm. Bu da pis deyil! Gümüşün baş ağrısı da az olar. Onu gizlətmək asan, oğurlamaq isə çox çətindir. Qızıllara görə məni öldürə bilərlər, gümüşə görə isə...

Qarı yoluna davam etdi və fikirləşməyə başladı ki, gümüşü neynəsin. Az getdi, çox getdi, nəhayət yorulub əldən düşdü. Dincəlib toxdamaq üçün dayandı və baxdı görsün ki, xəzinəsi yerindədir, ya yox. Gümüşün yerində bir böyük dəmir parçası vardı.

- İşə bax ha! - Qudi ucadan dilləndi,- mən də elə bilirdim ki, tapdığım gümüşdür. Yəqin gümüşü yuxuda görmüşəm. Canım, bu da qənimətdir! Bəxtim yamanca gətirib! Heç dəmir də pis deyil. Köhnə dəmir parçasına bir neçə pens pul ala bilərəm. Pulu olmaq qızıldan da, gümüşdən də yaxşıdır. Qızıl-gümüşüm olsaydı, qorxudan gözümü də yuma bilməzdim ki, məni soyacaqlar. Penslər isə əsl mənim malımdır. Dəmirin əvəzində çoxlu pul qazanıb elə varlı olacağam ki...

Az getdi, üz getdi, dərə-təpə düz getdi və fikirləşməyə başladı ki, qazanacaqı pulları necə xərçləsin. Yorulub taqətdən düşəndə dayandı ki, dincin alsın və sərvətinin yerində olub-olmadığına baxsın. Baxanda dəmirin yerində böyük bir daş gördü.

- İşə bax ha! - Qudi ucadan dedi və gülümsədi.- Mən elə bilmişəm ki, tapdığım dəmir parçasıdır. Çox güman ki, dəmir parçasını yuxuda - görmüşəm. Bu daşı tapmaqda bəxtim yamanca gətirib! Çoxdandır belə bir daş gəzirdim ki, doqqazımın taxtalarına dayaq qoyum. Bax, bu çox yaxşı oldu! Adamın bəxti gətirəndə nə yaxşı olur!

Qarı bu sözləri deyib tələsik yola düşdü. Təpəni aşıb evə gəldi görsün ki, daş doqqaza necə dayaq olacaq. Evə çatıb doqqazın qıfılını açdı və döndü ki, daşa sarıdığı yaylığını açıb götürsün. Bəli, daş əsl daş idi. Hava hələ işıqlı olduğundan daşın yerdə düşüb qaldığı aydınca görünürdü. Yaylığını açmaqdan ötrü Qudi daşın üzərinə əyildi.

- Oy, oy! Ağlınıza nə gəldi! Daş qəfildən yerindən sıçradı, zingildəməyə başladı və bir göz qırpımında ot topası boyda oldu. Sonra onun dörd dənə üzun, kök ayaqları, üzun qulaqları və quyruğu çıxdı və o, dəcəl, kələkbaz oğlanlar kimi hoppana-hoppana zingildəyə-zingildəyə, ulaya-ulaya və qəhqəhə çəkə-çəkə qaçıb uzaqlaşdı.

O, gözdən itincə Qudi onun arxasınca baxa-baxa qaldı və sonra özü də gəlməyə başladı.

- Gör bəxtim necə gətirib! - Qudi -gülümsündü.- Bu dünyada məndən bəxtəvəri tapılmaz. İşə bir bax, mən öz gözlərimlə inək cildinə girmiş qulyabanını görmüşəm. Səhərdən başıma açmadığı oyun qalmayıb. Bu bəxtəvərlik deyil, bəs nədir?!

Bəli, Qudi Bleyk daxmacığına girdi, bütün gecəni başına gələnləri yadına salıb doyunca güldü.

SEHRLİ MƏLHƏM

Biri vardı, biri yoxdu, keçmiş zamanlarda nə Terviton kəndində bir kəndli

və onun arvadı vardı. Kəndlinin övladı yox idi, bu da onlar üçün böyük dərd olmuşdu. Yay gəlib istilər düşəndə kəndli tənha təpəlikdə torf çıxaranda tez-tez boylanıb vadini gözdən keçirər, çayda çimən uşaqların suya baş vurmasına tamaşa edər, ürəyindən keçərdi ki, kaş uşaqlardan biri onun olaydı. Üzun qış gecələrində kəndli, soba yanında əyləşib çoban çomaqı düzəldər, öz-özünə fikirləşərdi:

- Ah, gərək bizim də balaca bir oğlumuz olaydı ki, biz də onu ocaq başında oynadaydıq. Mən ona da çomaq düzəldərdim. Havalar xoş olanda özümlə təpəyə aparar, sarışın cüllütlərin yuvasını göstərər, ona xallı balıqları tutmaqı öyrədərdim.

Arvad da kəndlinin yanında oturub toxuyur, fikirləşirdi:

- Oğlumüz olsaydı, yurdumüzun durlu-durlu nağıllarını ona danışar, nəğmələrimizi onun üçün zümzümə edərdim.

Çox təəssüf ki, onların uşaqı yox idi. Kəndli ilə arvadı hər gecə qussə içərisində lampanı söndürər, qəmli-qəmli yerlərinə üzanıb küləyin səsinə qulaq asardılar.

Bir axşam kəndli çomağı düzəldib arvadı isə toxumağı başa vurub, şam eləyəndən sonra, lampanı söndürmək istəyirdilər ki, qapı döyüldü. Gecənin bu vaxtı qonaqların nə niyyətlə gəldiyini öyrənmək üçün kəndli yerindən qalxıb qapıya tərəf getdi. Qapını açıb qonaqları içəri dəvət etdi.

Üç nəfər - bir kişi, bir qadın, bir də balaca oğlan uşaqı - içəri girdi. Onlar adi adamlar kimi geyinmişdilər, amma kişi şah kimi yaraşıqlı idi, qadında da gözəl şahzadə görkəmi vardı, oğlan isə vəliəhdə oxşayırdı. Şah, ya da dilənçi olsalar da, kəndli ilə arvadı gələnləri səmimi qarşıladılar.

- Şam edəcəksinizmi, ay qonaq? Qarı soruşdu.

- Yox, çox saq olun, - kişi cavab verdi.- Gəlmişik ki, bizə başqa bir yaxşılıq edəsiniz.

- Əlimizdən gəlsə niyə etmirik ki!?

- Arvadımla bu axşam uzun yollar kecib gəlmişik, amma yolumuzun çoxu hələ qalır. Biz bir müddət ölkəmizi tərk etməliyik. Eşitmişik ki, uşağınız yoxdur, ona görə də sizdən xahiş etmək istəyirik ki, okeanın o tayından

qayıdıb gələnəcən oğlumuzun qayğıcına qalasınız. Haqqınızı artıqlaması ilə ödəyəcəyik. Hə, nə deyirsiniz?

- Ser, bu işi həvəslə görərik,- kəndli cavab verdi. Pula isə heç bir ehtiyacımız yoxdur. Bu balaca oğlanı tumarlayıb, əziələmək bizim üçün ən yaxşı haqq olar.

- Oğlum yaxşı uşaqdır. O, sözünüzə baxar, sizə minnətdar olar və bircə şərtə əməl etsəniz, böyüyüb igid oğlan olar. Siz həp axşam bu məlhəmi onun gözlərinə sürtün. Bilin və agah olun, bu məlhəmdən özünüz istifadə etsəniz, sizə xətər toxuna bilər.

Kişi pencəyinin qoltuq cibindan qəribə naxışları olan məlhəm qabını çıxardıb kəndliyə verdi. Sonra onlar uşaqın üzündən-gözündən öpüb küçəyə çıxdı, zülmət gecənin ağuşuna atıldılar.

O axşam oğlan, kəndlinin həmişə səliqə-sahmanla saxladığı çardaqda yatdı, səhər tezdən durub təzə atası ilə gəzməyə getdi.

Həmin gündən kəndli ilə arvadı yeni həyata qədəm basdılar. Oğlan hər gün qəyyum atası ilə təpəliyə gedərdi. Kəndli ona qoyun-quzuya göz olmağı öyrədərdi. Onlar su qamışlarından çubuq va şax-şax düzəldər, təpəyə dırmaşıb böyürtkən, qaragilə yığardılar.

Oğlan toyuqların hara çıxmasına, qaranquşların eyvanda qurduğu yuvalarına tamaşa edər, yağmurlu qaranlıq gecələrdə atası ilə min cur oyun oynayardı. Anası isə o yerlərin bütün lordları, şahzadələri və nəhənglərilə bağlı olan rəvayətlərdən söz açar, Şimal ölkəsinin lətif nəğmələrini zümzümə edərdi. Çox zaman qadının səsi evin damında əks-səda verərdi.

Kəndli də uşağı dizinin üstündə atıb-tutar, mahnı oxuyardı:

Oyna, oyna, ay bala
Quzu bala, bəy bala.
Oyna, məni sevindir
Hər şey, hər şey sənindir.

Kişinin tapşırığına əməl edən kəndli hər axşam oğlanın gözlərinə qəribə ətri olan məlhəmi sürtürdü. Bir neçə gecə idi ki, arvad yatandan sonra kəndli

məlhəm qabını götürüb baxırdı. Məlhəm qabının sehrli olmasına kəndli şübhə etmirdi, çünki məlhəm azalmaq bilmirdi. Onda nə güc vardısa oğlanı nə xəstələnməyə, nə bikef olmağa qoymurdu. Bir neçə dəfə kəndli əlini üzadıb məlhəmdan bir dırnaq gözünə çəkmək istəmiş, lakin hər dəfə qonağın xəbərdərlığını yadına salıb əlini geri çəkmişdi.

Necə oldusa kəndli, bir axşam bərk şirniklənib dayana bilmədi. Arvadla uşaq çoxdan yatmışdılar. Kəndli mətbəxdə oturub sabah geyəcəyi ayaqqabısını yağlayırdı.

- Əşşi,- kəndli dedi.- Bir dırnaq məlhəm mənə xətər toxundurmaz.

Əfsus ki, kəndli evinə gəlmiş qonağın qəlbilərin həmişəyaşar padşahı olduğunu bilmirdi. Bilsəydi, məlhəmə əlini vurmazdı. Odur ki, maraq kəndlinin ixtiyapını əlindən aldı, o, əliny üzadıb məlhəmdən azca götürdü və gözünün birinə sürtdü. Heç nə olmadı. Kəndlinin əhvalı dəyişmədi.

- Yəqin ki,- kəndli öz-özünə fikirləşdi,- bu məlhəm oğlanın görmə qabiliyyətini qoruyub saxlamaq üçündür. Bəlkə də uşağın gözləri zəif görür.

Beləliklə, kəndli yerinə girib ayıq yatdı. Səhəri gün də heç nə hiss etmədi. Hamısı tezdən durub Lonqhorsirey kəndinə beş mil yolu pay-piyada getdilər. Kənddə bir böyük bazar var idi. Bazarda bütün yerlər dolu idi. İynə atsan, yerə düşməzdi. Bazar satlıq heyvanlarla - köhlən atlar, inək-camış, qoyun-qüzu, it-pişiklə dolmuşdu. Piştaxtaların üstündə yağ, pendir, çörək, piroq, gül-çiçək, xalçalar və cürbəcür geyimlər var idi. Kəndli ilə arvadı bunları əvvəllər də görmüşdü, amma oğlan gördüklərinə heypan qalmışdı.

Birdən kəndli, üstünə yağ, pendir düzülmüş piştaxtanın arxasında uşağı onlara gətirmiş qərib adamı gördu.

Ora bax, arvad, ora bax! Oğlumuzun atası oradadır ki!

- Haradadır?

- Yağ piştaxtasının yanında.

- Axı mən onu görə bilmirəm.

- Necə yəni görmurəm. Arvadı da yanındadır.

- Boş-boş danışma, ay kişi. Yəqin yuxu görubsən. Gəlsənə gedib güləşə tamaşa edək.

- Xeyr, arvad! Yuxu-zad görməmişəm. Mən onları yenə də görürəm. Onlar camaatın yağ-pendirini oğurlayır ki!

- Mənciyəz onları görə bilmirəm.

- Amma mən görürəm. İndi mən onların yanına gedərəm. Bu söələri deyib, kəndli özündən başqa heç kəsin gözünə görunməyən cinlər padşahı dayanmış yerə doğru irəlilədi, onlara çatıb dedi:

- Ser, əl saxlayın! Nə üçün oğurluq edirsiniz? Tündməcaz cinlər padşahı dərhal çevrilib:

- Hansı gözünlə məni görürsən? - deyə xəbər aldı.

Bu gözümlə - kəndli fikirləşmədən məlhəm çəkdiyi gözünü göstərdi.

Cilinlər padşahı dərindən nəfəs alıb kəndlinin gözünə üfürdu. O, gözünün işığını itirdi, cinlər padşahı ilə arvadı yoxa çıxdı.

- Ay arvad! - kəndli geri qayıdıb səsini başına atdı. Arvad, bir gözüm görmur. Bəs, uşaq hanı?

Onlar axşamacan hər yeri ələk-vələk etdilər, amma oğlanı tapa bilmədilər. Oğlan birdəfəlik yoxa çıxıb geri qayıtmadı. Biçarə kəndlinin sağ gözü həmişəlik tutulub dünya işığına həsrət qaldı.

İRLANDİYA NAĞILLARI

NƏHƏNG DREQLİN HOQNİ

Biri var idi, biri yox idi, qədim zamanlarda bir kişi var idi. Onun da üç oğlu var idi. Amma uşaqları saxlamaq üçün kişinin heç vaxt kifayət qədər pulu olmurdu.

Buna görə də ailənin böyük oğlu ərsəyə çatıb görəndə ki, evdə yeməyə heç nə yoxdur, atasının yanına gəlib dedi:

- Atacan, mənə minmək üçün bir at, ova çıxmaq üçün bir tula, quş quşlamaq üçün bir şahin ver. Çarığımın bağını bərkidib yolun ucunu əlimə alım, öz xoşbəxtliyimi axtarmağa gedim.

Ata oğlunun bütün xahişlərini yerinə yetirdi, böyük oğul evdən çıxıb yola düşdü. Bu minvalla böyük oğul dağlar aşıb, dərələr keçdi, bir axşam gəlib zülmət çökmüş, sakit-sakit uyuyan bir meşəyə yetişdi. Meşəyə girib irəlilədi, tezliklə lap xəlvət bir guşəyə çatdı. Fikirləşdi ki, meşədən çıxmaq üçün bir cığır tapar. Amma meşədə heç bir cığıra rast gəlmədi. Kol-kos arasında xeyli ora-bura vurnuxandan sonra oğlan başa düşdü ki, yolu azıb.

Əlacı kəsilmiş oğlan atını ağaca bağlayıb yatmar üçün özünə

yarpaqlardan yep düzəltməyə başladı. Bir az sonra xeyli aralıda oğlanın gözünə sayrışan işıq dilləri görundu. Oğlan atın bəlinə qalxıb işıq gələn səmtə surdu.

Bir qədər yol gedəndən sonra gəlib bir talaya çıxdı. Burada möhtəşəm bir sapay göylərə ucalırdı. Sapayın bütün pəncərələrindən işıq görünsə də, giriş qapısı bağlı idi.

Oğlan yaxınlaşıb qapını döydu. Qapını açan olmadı. İşi belə görən oğlan ov tütəyini dodaqlarına sıxıb ucadan çaldı. O ümid edirdi ki, tütək səsini saraydakılar eşidər.

Elə bu dəm qapı birdən öz-özünə açıldı. Təəccübdən onlanın əli üzündə qaldı. Saraya girib otaqları gəzdikcə ürəyi çırpındı. Bütün otaqlardakı buxarılarda Gurha-gurla yanan ocaqlar göz qamaşdırırdı. Böyük salonda isə stol açılmışdı. Stolun üstündə ağız sulandıran hər cür təam vardı. Amma adama elə gəlirdi ki, bu böyüklükdə sarayda bir nəfər də bəni-insan yoxdur.

Uzun səyahətdən sonra oğlan yorulub əldən-dildən düşmüşdü. Odur ki, atını dartıb iri at tövləsindəki burda qabaqladı.

İtlə şahini özü ilə götürüb saraya qayıtdı. Böyük salondakı stolun arxasına keçib doyunca şam etdi. Sonra durub buxarının qırağında uzandı ki, islanmış üst-başını qurutsun.

Artıq gec idi. Yataq otaqlarından birində gözünün acısını almaq üçün ayağa durub getmək istəyəndə divar saatı gecə yarısını vurdu. O dəqiqə qapılar taybatay açıldı, dəhşətli görkəmi olan çinar boylu nəhəng Dreqlin Hoqni salona daxil oldu. Onun pırtlaşıq saçı, üzun saqqalı var idi. Cod tüklü qaşlarının altındakı gözlərindən tutqun işıq saçırdı. Əlində yonulmamış dəyənəyə bənzər bir şey tutmuşdu. Çağırılmamış qonağı görən nəhəng sanki heç təəccüblənmədi də. O addımlayıb salonu keçdi, çömələlib buxarının kənarında oğlanla üz-üzə oturdu. Dirsəyini dizinin üstünə qoyub əlini çənəsinin altına dayaq verdi, gözlərini qonağa zillədi.

- De görum sənin atın şıllaq atır? - Nəhayət nəhəng kobud, qulaqbatırıcı səslə xəbər aldı.

Oğlan cavab verdi:

- Eh, şıllaq atır da sözdur!? Heç onu minmək mumkün deyil!

Burası da bir həqiqətdir ki, ata oğluna xam at vermişdi.

- Mən atları əhliləşdirə bilirəm,- nəhəng dilləndi,- sənə də atını əhliləşdirməyə kömək edərəm. Bax, bunu götür, öz atının üstünə tulla.

Bunu deyib nəhəng başından uzun cod bir tük çəkib oğlana verdi.

O, elə hədələyici tərzdə danışdı ki, oğlan onun sözündən çıxmağa cürət etmədi. Odur ki, ayağa qalxıb tövləyə getdi, tüku atın üstünə tulladı. Sonra geri qayıdıb yenə də buxarının başında oturdu. Oğlan təzəcə oturmuşdu ki, nəhəng yenidən xəbər aldı:

- De görum sənin tazın adamı qapırmı?

- Qapır da sözdur?!

Həqiqətən də oğlanın iti çox bədxasiyyət idi, sahibindən başqa heç kəs onu tumarlamağa cəsarət etmirdi.

- Mən dünyanın ən vəhşi itlərini ram etməyi bacarıram,- nəhəng dedi.- Bunu götür, at itin üstünə.

O, başından başqa bir tük çəkib oğlana verdi. Oğlan da həmin dəqiqə tükü itin üstünə atdı.

Bir an sonra nəhəng oğlana üçüncu sualı verdi:

- De görum, sənin şahinin dimdikləyirmi?

Oğlan gülümsünüb cavab verdi:

Elə dimdikləyir ki! O, səmaya qalxmayınca mən onu gözü bağlı saxlamağa məcbur oluram. Əşşi, bu zalım quş dimdiyinin altına düşəni ağına-bozuna baxmadan dimdikləyir.

- Bir daha dimdikləməz, - nəhəng əsəbi halda deyindi. Al bunu da şahinin üstünə at.

Bəli, nəhəng üçüncu dəfə başından tük çəkib oğlana verdi.

Oğlan o dəqiqə tüku şahinin üstünə tulladı.

Elə bu dəm Nəhəng bir göz qırpımında dik atılıb əlindəki yonulmamış dəyənəyi elə zərblə oğlanın kəlləsinə ilişdirdi ki, binəva oğlan o dəqiqə huşunu itirib tir-tap oldu. O saat it də, şahin də ölü kimi sahiblərinin yanında çul düşdülər. At isə tövlədə quruyub heykələ döndü. At burdaqda elə hərəkətsiz

dayanmışdı ki, sanki daşdan düzəldilmişdi.

Sən demə, nəhəng xam heyvanları bax belə ram etməyi bacarırmış. Aylar ötüb il dolandı, bir gün ortancıl qardaş atasının yanına gedib böyük qardaşı kimi xahiş etdi:

- Atacan, mənə at, şahin və it ver. Həm də öz səadətimi axtarmaqdan ötrü dünyanı gəzib dolaşmağa mənə rüsxət ver.

Ata ortancıl oğlunun sözünə axıradək qulaq asıb onun da xahişinə əməl etdi.

Bəli, oğlan yolu əli nə alıb dardan aşdı, dərədən keçdi, axşam tərəfi böyük qardaşı kimi yuxuya getmiş qaranlıq meşəyə çatdı. Meşəyə girib yolu itirdi. O da böyük qardaşı kimi üzaqda işıq dilləri görub saraya yaxınlaşdı. İçəri girib şam edəndən sonra ocağın başında bardaş qurdu. Bir sözlə, oğlan böyük qardaşının hərəkətini təkrar etdi. Sonra nəhəng içəri girdi, ona da üç sual verdi. Bu oğlan da böyük qardaşı kimi cavab verdi. Nəhəng ortancıl qardaşa da üç tük verib onları atın, quşun və itin üstünə atmağı əmr etdi, onu da böyük qardaşı kimi vurub öldürdü.

Vaxt ötüb keçdi, kiçik qardaş böyük qardaşlarını gözləyə-gözləyə qaldı və nəhayət səbri tükəndi. O da atasından at, it və şahin istəyib bildirdi ki, qardaşlarını axtarmağa getmək istəyir. Biçarə qoca ömrünün ixtiyar çağında tək qalmaqdan qorxsa da, kiçik oğlunun xahişinə əməl etdi.

Kiçik qardaş yolun dabanını qırıb axşam mürgü döyən qaranlıq meşəyə çatıb saraya getdi. Kiçik qardaş çox dərrakəli oğlan idi, gördükləri ürəyinə yatmadı. Nə bomboş saray, nə üstü dolu stol, nə də sarayın arası nəhəng Dreqlin Hoqni oğlanın xoşuna gəlmədi. Odur ki, oğlan ehtiyatlı olmaq qərarına gəldi.

Hə, nəhəng atının təpik atıb-atmadırını oğlandan xəbər alanda o çox qısa cavab verdi:

- Bəli.

Amma nəhəng öz tukünu oğlana verib əmr edəndə ki, tüku atının üstünə atsın, oğlan durub tövləyə yollandı, amma tükü atın üstünə tullamadı. Tükü ovucunun içində bərk-bərk tutub saraya qayıtdı. Nəhəng ondan bir anlığa

gözünü çəkən kimi imkandan istifadə edib tüku ocaqa atdı. Tük ilan kimi fısıldaya-fısıldaya alışıb yandı.

Nəhəng şübhə ilə xəbər aldı:

- Fısıldayan nədir elə?

Oğlan halını pozmadan cavab verdi:

- Eh, yarpaqlardan axıb tökülən şeh damlalarının səsidir.

Nəhəng ona inandı. Sonra oğlana daha iki tük verib itlə şahinin üstünə tullamasını əmr etdi. Amma oğlan fürsət tapıb onları da oda atdı. Tüklər fısıltı salsa da, Nəhəng daha fikir vermədi. O fikirləşdi ki, qonaq artıq onun ixtiyarındadır. Odur ki, nəhəng dik atılıb əlindəki dəyənəklə oğlana hücum etdi. Amma oğlan da sayıq dayanmışdı. Buna görə də nəhəngin yerindən dikəlməsi ilə oğlanın birdən fit çalmağı bir oldu.

Fit səsi eşidilən kimi oğlanın vəfalı atı tövlədən bayıra atıldı. İt oyanıb sahibinin hüzurunda əmrə muntəzir dayandı. Oğlanın çiyninə qonmuş şahin qanadlarını şappıldadıb cikkildədi. Bir göz qırpımında onların üçü də nəhəngin üstünə atıldı. At nəhəngi təpikləməyə, it dişdəm-dişdəm etməyə, şahin dimdikləyib əndamını deşik-deşik etməyə başladı. Çox keçməmiş nəhəng canını onlara tapşırıb gözlərini yumdu.

Nəhəngin artıq öldüyünü görən oğlan onun əlindən dəyənəyi çıxardıb götürdü, sarayı gəzməyə getdi. Gəzə-gəzə gəlib göz-gözu görməyən bir zirzəmiyə çıxdı, böyük qardaşlarını orada tapdı. Daş kimi soyuq qardaşlar yş:tahı uzanmışdılar. Kiçik qardaş nəhəngin dəyənəyini onlara toxunduran kimi qardaşları cana gəlib dik atıldılar. Onların heç birinə xətər toxunmamışdı. Hər ikisi sağ-salamat idi.

Sonra kiçik qardaş başqa bir zirzəmiyə düşüb orada iki at, iki şahin, iki dənə də it gördu. Onlar da öz sahibləri kimi hərəkətsiz uzanıb qalmışdı. Oğlan dəyənəyi onlara toxunduran kimi onlar da dirildilər. İşi belə görən oğlan qardaşlarını səslədi. Hər üçu birlikdə başqa zirzəmiləri gəzib qalaq-qalaq qızıl-gümüş tapdılar. Tapdıqları qızıl-gümüş qardaşlara yüz il də kifayət edərdi.

Bu minvalla qardaşlar nəhəngi torpağa basdırıb onun sarayına keçdilər. Qardaşlardan ikisi evlərinə gedib qoca atalarını da gətirdilər. Onlar sarayda

xoşbəxt ömür sürməyə başladılar. Belə nəql edirlər ki, qardaşlar bu günəcən sarayda yaşayıb kef çəkirlər.

Q ARAQABAQ PATRİK VƏ QAPĞALAR HÖKMDARI KROMAXİ

Konnaxt hökmdarı çox mərhəmətli bir padşahdı. Onun üç ədəbsiz oğlu vardı. Bir dəfə oğlanları padşahın başına olmazın müsibətlər gətirdi.

Məlumunuz olsun ki, o dəhşətli fəlakət, qardaşlar çox təhlükəli bir adam olan qaröaların hökmdarı Kromaxiya sataşdığı üçün baş vermişdi.

Kromaxi köhnə cadügar imiş. Meşənin ətəyində şah sarayının yaxınlığında darısqal bir daxmada yaşayırdı.

Kromaxinin daxmasının yanındakı ağacların başında qarğalar yuva salmışdı. Əslində onlar qarğa yox, öz hökmdarları Kromaxiya canla-başla qulluq göstərən əcinnələr idi.

Bəli, bir gün bekar qalıb heç bir məşğuliyyət tapa bilməyən üç qardaş Diklan, Darmid va Dati qərarsiz - filansız, sadəcə olaraq əylənmak üçun qoca Kromaxiya sataşmağı qərara aldılar. Beləliklə qardaşlar bir daş parçası götürüb Kromaxinin bacasına saldılar. Az qaldı ki, tüstü cadügəri boğub öldürsün.

Bərk hirslənmiş Kromaxi şahın sarayınacan qardaşların dalınca qaçdı, sarayın qapısı ağzında atalarının yanında qardaşlara qarğış töküb, lənət elədi. Dedi ki, böyük qardaş oğru olacaq va ömrü boyu qanunların təqibindən yaxa qurtara bilməyəcək, ortancıl qardaş qatil olub ölənəcən bıçağı əlindən yerə qoymayacaq, kiçik qardaş isə dilənçiyə çevrilib həyatının son gününədək sədəqə yığacaq. Bu sözləri eşidən yazıq padşahın ürəyi partlamaq dərəcəsinə çatdı.

Qoça Kromaxi avara-sərgərdan oğullar böyütmüş padşaha da lənətlər yağdırıb bildirdi ki, padşah hər üç oğlunun amansız taleyini caynaqlarında bircə-bircə çapaladığını görənə kimi yaşayacaq.

Kədər və qüssədən ikiqat olmuş zavallı padşah dərhal yorğan-döşəyə düşdü. Bəli, padşah yorğan-döşəyə düşən kimi dörd qara qarğa onun yataq

otağına soxulub çarpayısının başlarına qonaraq bərk səslə qarıldaşmağa başladı: «Qarr! Qarr! Qarr!»

Günlər ötüb keçir, amma qarğalar zəhlətökən qarıltılarını nə gündüz kəsirdi, nə də gecə.

Qarıltı səslərindən nəinki təkcə padşahın səhhəti pozulmuş, beyni dumanlanmışdı, həm də saray əhlinin hamısı, sarayın yan-yörəsində yaşayanlar belə bezib zinhara gəlmişdilər. Padşah öz krallığında yaşayan bütün aqilləri və alimləri çağırıb saraya yığmışdı ki, bu bəladan yaxa qurtarmaq üçün məsləhət versinlər. Amma heç bir xeyri olmamışdı.

Nəhayət, padşahın və rəiyyətinin xəstəliyi haqqında gəzən səfeh xəbərlər Doneqol dağlarına gedib yetişdi, qaraqabaq Patrikin qulağına dəydi. Qəlbini qüssə sarmış Patrik daxmasının qapısını bağlayıb qırmızı boxçasını çiyninə atdı, Konnaxt krallığına tərəf üz tutdu.

Yoxsul Patrik sarayda özünü təqdim edib padşahın yataq otağına aparılmasını xahiş edəndə az qaldı ki, nökər-naiblər itləri onun üstünə qısqırtsınlar. Amma səs-küyü eşidən Məlikə nə baş verdiyini soruşdu. Belə ki, dərddən ürəyi deşilən Məlikə hər bir şeyi sınaqdan keçirməyə hazır idi.

Odur ki, dedi:

- Madam ki, aqillərin və alimlərin heç biri bizə kömək əlini uzada bilmədi, bu qaraqabaq yoxsuldan da hər halda bizə pislik dəyməz; onu içəri aparın. Nə olar, olar!?

Bu minvalla qaraqabaq Patrik bir az sonra özünü filosofların, müdrik məsləhətçilərin və həkimlərin üzük qaşı kimi mühasirəyə aldığı yataq otağında gördu.

Qaraqabaq Patrik irəli yeridi. Hamıya təzim edib görülmüş işlərin mahiyyəti haqda ona məlumat verilməsini ədəblə xahiş etdi.

Sonra Patrik padşahın çarpayısının başlarına qonmuş qarğalara nəzər saldI, tələb etdi ki, üç qardaş padşahın hüzuruna çağırılsın.

O, böyük qardaşın adını xəbər aldı.

- Mənim adım Diklandır.

- Kromaxi sənə nə qarğış edib?

- O dedi ki, oğru olacağam, ömrümün sonunacan qanunlar məni təqib edəcəkdir.

Qaraqabaq Patrik qorxudan tir-tir əsən Məlikəyə tərəf çevrilib dedi:

- Bu saat Diklanı ən yaxşı hüquq məktəbinə göndərin. Qoy oxuyub hakim olsun. Onda heç bir hüquqşünas onunla mübahisə etməyə girişə bilməz!

Söz Patrikin ağzından çıxmamış çarpayının sol qıçının üstünə qonmuş qapğa tükürpədici səslə qarıldadI, qanad çalıb açıq pəncərədən çıxdı. Qapğanın vahiməli səsindən hamı donub qaldı.

Elə bu vaxt qaraqabaq Patrik ortancıl qardaşa üzünü tutdu:

- Sənin adın nədir?

- Darmid.

- Sənə nə qarğış ediblər?

- Məndə qatil olub ölənəcən bıçağı əlimdən yerə qoymayacağam.

Qaraqabaq Patrik ürəyi köksündə intizarla çırpınan Məlikəyə doğru dönüb dedi:

- Dərhal Darmidi ən mükəmməl tibb məktəbinə göndərin. Qoy oxuyub həkim olsun!

Onda onun əlində tutacağı bıçaq qatil bıçağı olmaz.

Bu dəmdə çarpayının sağ qıçı üstünə qonmuş qarğa damarlarda qanı dondonduran müdhiş bir səslə qarıldaya-qarıldaya qanadlarını açıb pəncərədən bayıra uçdu. Sonra qaraqabaq Patrik kiçik qardaşa müraciət etdi:

- Bəs sənin adın nədir, oğlan?

- Dati.

- Kromaxi səni necə qarğıyıb?

- Məgər dilənçi olub ömrümün axırına kimi sədəqə ilə dolanacağam.

Qaraqabaq Patrik həyəcandan boğazında tıxac yaranmış Məlikəyə sarı çevrilib:

- Qiymətli vaxtı itirmədən bu gənci universitetə göndərin,- dedi - Qoy oxuyub şair olsun. Əsərlərinə görə ona nə versələr, əmək harrı kimi özünə götürər!

Çarpayının sol tərəfinə qonmuş o biri yaramaz qarğa qulaqbatırıcı səslə

qarıldadı, uçub pəncərədən çıxdı.

Yavaş-yavaş padşahın qəlbini bürüyən sevinc hissi onu yorğan-döşəkdən qaldırdı.

Elə həmin dəqiqə dördüncu qarğa ürək parçalayan bir qarıltı ilə havaya qalxıb pəncərədən bayıra uçdu. Çox güman ki, bu qarğanın dəhşətli qarıltısı Konnaxt krallığının hər tərəfində eşidildi.

Sevincindən uçmağa qanadı olmayan padşahın və arvadının təklif etdikləri ənamlardan qaraqabaq Patrik çidd-cəhdlə imtina etdi. O həm də padşahla birlikdə bütün aqillərin, alimlərin və filosofların təklif etdikləri baş məsləhətçi vəzifəsindən də imtina etdi. Qaraqabaq Patrik onlara söylədi ki, o, sadə yoxsul bir dağlıdır, sarayda məşhur alimlər arasında yaşamağa adət etməyibdir. O yalnız Doneqoldakı daxmasında yaşayıb dağın ətəyindəki sahədə kartof becərəndə özünü xoşbəxt hesab edir.

Beləliklə qaraqabaq Patrik qırmızı boxçasını çiyninə aşırıb geri, evinə qayıtdı.

Qədim zamanlarda deyərmişlər: üç şeydən özünü gözlə; at dırnağından, kəl buynuzundan, bir də ingilis gülüşündən.

KRAL, KEŞİŞ VƏ QAZ HAQQINDA NAĞIL

Qədim zamanlarda İrlandiyada yaşamış O'Tul adlı kral haqqında bir şey eşitmisinizmi? Ömrünün ixtiyar çağında kral O'Tulun qismətinə çıxmış gözlənilməz səadət barəsində nə deyə bilərsiniz? Bilmirsinizsə, qulatınız məndə olsun, nəql eləyim. Deyilənə görə, kral O'Tul cavan olanda bütün İrlandiyada ondan cəsarətli ikinci bir gənc tapmaq mümkün deyildi. Kralın ən sevimlİ işi ovçuluq idi. Dan yeri söküləndən şər qarışana kimi kral atını mahmızlaya-mahmzəlaya ovlaqları ələk-vələk edər, itlərini qısqırdardı.

Kral qocalıb bəli bu gülənəcan həyatı çox firavan va şən keçdi. Qocalıb haldan düşmüş kral daha nə yayda, nə də qışda günlərini ovda keçirə bilirdi. Günlər ötüb keçdi, elə bir an gəlib çıxdı ki, biçarə qoca kral asasına söykənə-

söykənə bağda gəzməkdən başqa heç nə edə bilmədi. Madam ki, nə sevinc, nə əyləncə yoxdur,- o fikirləşdi,- demək həyat sona çatıb.

Kral özünə təsəlli verib əylənmək üçün bir qaz saxlamağa başladı. İstəyirsiniz inanın, istəyirsiniz yox, amma onu deməliyəm ki, qaz biçarə qoca kralın mehriban dostuna, qulaq həyanına çevrildi.

Bir müddət onlar ikilikdə yaxşıca əyləndilər. Nə gülürsünüz? Burada gülməli nə var ki!? Haraya uçub getməsindən asılı olmayaraq kral onu səsləyən kimi qaz geri qayıdır, kralın ürəyi istəyən qədər yanlarını basa-basa onun arxasınca gəzdirdi.

Cümə günləri - axı siz bilirsiniz ki, müqəddəs dini qanunlara görə allahpərəst xristianlar həmin günü ət yeməkdən imtina edirlər, - onu deyirdim axı, cümə günləri qaz üzə-üzə gölə baş vurar, öz sahibinə nahar üçün yaraşıqlı, yağlı alabalıq gətiərdi.

Bəs necə, bu xeyirxah məxluq yazıq qoca kralın yeganə sevinci, təsəllisi idi. Amma çox təəssüflər olsun ki, bu fani dünyada əbədi heç nə yoxdur! Elə bir gün gəldi ki, kralın qazı da qocalıb taqətdən düşdü. Qanadlarında güc qalmadı. Kralın ayaqları kimi qazın da ayaqları sözünə baxmadı. Zavallı quşcuğaz sahibini nəşələndirmək üçün çox çalışsa da, bacarmadı. Yəqin ki, taleyin hökmündən qaçıb qurtarmaq mümkün deyil!

Kral O'Tul xiffət etməyə başladı. Günlərin bir günü qocalar, yəni qoca kralla qocalmış qaz göl sahilində oturub qəm dəryasında qərq olmuşdular. Kral qazı dizinin üstündə oturdub yazıq-yazıq ona baxırdı. Gözlərində yaş gilələnmişdi:

- Eh, belə mənasız, gərəksiz ömür sürməkdənsə, yıxılıb ölmək, ya da bu göldə boğulmaq daha yaxşıdır,- deyə kral fikirləşdi.

O, qazı əlindən buraxdI. Qaz taytıya-taytıya yaxınlığındakı qamışlığa girdi ki, bəlkə əlinə bir şey kecə. Kral isə oturduğu yerdən qımıldanmadan elə hey özünün kədərli həyatı haqqında düşünürdü.

Kral birdən başını qaldırıb qarşısında yaraşıqlı ciddi görkəmli naməlum bir oğlan uşağı gördü.

- Hər vaxtın xeyir, kral O'Tul - gənc dilləndi.

Kral təəccüblə xəbər aldı:

- Bu necə işdir, adımı hardan bilirsən?!

- Bunun əhəmiyyəti yoxdur. Mən hələ bə'zi şeyləri də bilirəm. Cürət edib sizdən soruşa bilərəmmi, mehriban kral O'Tul? Sizin qazınızın əhvalı necədir?

Axı, qaz bu vaxt qamışlıqda ova çıxdığına görə onu görmək mümkün deyildi.

Kral soruşdu:

- Demək qazımdan da xəbərin var?

Mən qazınız haqqında hər şeyi bilirəm. Amma hər görmək mümkün deyildi.

Kral soruşdu:

- Demək qazımdan da xəbərin var?

- Man qazınız haqqında hər şeyi bilirəm. Amma hər maraqlandı.

- Köhnə şeyləri ta:Y:'şayiram.

- Demək onda sən qalayçısan?

- Yox əşşi, tapa bilmədin! İşdir alttap sənin qoca qazını yenidən cavanlandırsam, mənə nə ad verərsən?

- Yenidən cavan!?- Dönə-dönə soruşan kralın qırışmış üz-gözü sevincdən işıqlandı. Bundan yaxşı nə ola bilərdi ki? - Əlbəttə yenidən cavan,- oğlan başı ilə təsdiq etdi.

Kral O'Tul fit çaldı. O dəqiqə qoca qaz qamışlıqdan çıxıb yanlarını basa-basa bükülüb yumağa dönmüş sahibinə yaxınlaşdı.

Sözümün canı budur ki, qoca qaz krala çox sədaqətli idi.

Oğlan qazı başdan-ayağa süzüb dilləndi:

- Əgər ürəyindən keçirsə, söz verirəm ki, qazı cavanlaşdıraram.

- Ulu Tanrıya and içirəm!- riqqətə gəlmiş kral da bir dəri, bir sümük qalmış qoca qazı başdan-ayağa süzüb cavab verdi.- Əgər sən qazı cavan etsən, mən səni öz krallığımda ən kamallı gənc hesab edərəm.

- İşə bax a! Sən də söz danışdın da! -oğlan gülümsənərək bic-bic dedi.- Axı, sən demə din ki, bu işin əvəzində mənə nə verəcəksən?

- Xətrin nə istəsə! - kral sevinərək cavab verdi.- Bu çox ədalətli iş olar.

- Bura bax, mən qazı cavanlaşdırdığım gün qazın uçub getdiyi bütün

torpaqlarını mənə verərsənmi?

- Verərəm!

- Cığallıq eləməzsən ki?

- Vallah eləmərəm!

Belə olan halətdə oğlan qoca qazı səsləyib yanına çağırdı. Sonra oğlan aşağı əyilib qazı qolları üstünə götürdüyü. Qanadlarını dartıb düzəltdi. Havaya atmazdan əvvəl qazın qanadlarının altından üfürdü ki, qaz asanlıqla uça bilsin.

Bəli,- allaha and içirəm ki, mənə inanasınız!- qoca qaz havaya qalxıb qartal kimi sücməyə başladı. Qaz səmada dövrə vura-vura hərdən ox kimi başı aşağı millənir, hərdən də qaranquş kimi yungülcə qanadlarını çalıb yüksəklərə pərvaz edirdi.

Səmada yorulmadan qanad çalıb torağay kimi dövrə vuran qoca qaza baxdıqca kralın kefi kökəlirdi. O özünü unudub heyrət içərisində ağzını açıb tamaşa edir, nəşələnirdi. Hə, bəs necə, qaz göydə iri bir dövrə vurub gözdən itdi. Bir an sonra yenidən peyda oldu. Bə nəhayət aşağı enib sahibinin ayağının yanına qondu. Kral qazın başını, qanadlarını sığallayıb əmin oldu ki, qaz doğrudan da cavanlaşıb, əvvəlkindən də sağlam olub.

- Ay can, ay can, bundan yaxşı qaz hələ dünyaya gəlməyib!- kral tərifə başladı.

- Bəs mənə deməyə sözün yoxdur! - oğlan kraldan xəbər aldı.

- Necə yəni yoxdur! Sən İrlandiya torpağına ayaq basmış oğlanların hamısından ağıllısan,- hələ də heyran-heyran qazdan göz çəkməyən kral cavab verdi.

- Daha nə demək istəyirsən?

- Demək istəyirəm ki, ömrüm boyu sənə minnətdar olacağam.

- Sözünün üstündə durub bir az əvvəl qazın uçub getdiyi torpaqlarını mənə verəcəksənmi?

- Əlbəttə, verəcəyəm,- kral dedi,- həmişə səni öz torpağımda salamlamağa şadam. Bir qarış torpağım qalsa da, sən həmişə əziz qonağım olacaqsan.

- Görürəm ki, vicdanlı, mehriban qocasan,- Oğlan dedi.- Bəxtin onda

gətirdi ki, sözündən qaçmadın, yoxca sənin qazın səma üzunə həmişəlik həsrət qalacaqdı!

- Ay cavan, axı, sən kimsən? - kral ikinci dəfə gəncdən xəbər aldı.

- Mən müqəddəs keşiş Kevinəm,-cavab gəldi.

- Ay allah! Sən işə bir bax!- kral heyrət içərisində güc-bəla ilə diz çökdu, çünki qoca sümükləri sözünə baxmaq istəmirdi.-Belə çıxır ki, səhərdən bəri mən burada dünyanın ən müqəddəs məxluqu ilə söhbət edirəm?

Belə çıxır də,- keşiş Kevin şəstlə cavab verdi. - Mən də səhərdən fikirləşirəm ki, söhbət etdiyim sadə, kasıb bir oğlandı!

- Qiyafəmi dəyişmişəm,- keşiş dedi,- buna görə də sən məni tanıya bilmədin. Özüm də gəlmişdim ki, səni sınayam. Bu səhər əmin oldum ki, sən vicdanlı, xeyirxah kralsan, çünki mənim timsalımda adi bir qalayçıya verdiyin vədə xilaf çıxmadın. Buna görə də mən səni mükafatlandırıram, qoy sənin qazın cavan qalsın!

İstəyirsiniz inanın, istəyirsiniz yox, söylədiyim bu əhvalat həqiqətən qoca kral O'Tulun başına gəlib.

Qədim zamanlarda belə deyərmişlər:

Tula ovu dərhal yaxaladığı kimi ömrümüzun payızı da yaxamızdan çox erkən yapışır.

TOMAS KONNOLİ VƏ SEHRBAZ

Paho, indi ki, söhbət sehrbaplardan düşdü, onda qulaq asın. Bir gün mən mister Kassidgildə işimi qurtarıb evə qayıdırdım. Gün batmış, şər qarışmışdı. İş yerimə yaxın olsun deyə bir-iki mil aralıda Biddi MakBiradlı mədəni bir dul qadının evində kirayənişin qalırdım.

Noyabrın ilk həftəsi olardı. İnə-cinə gözə dəyməyən yolla tək-tənha irəliləyirdim. Yolun kənarları ağaclıq idi. Baş-başa verib saçaqlarını düz yolun ortasına sərmişdi. Odur ki, yol qaranlıq idi. Evə getmək üçün Dodderəte gülən kiçik çayın üstündəki ensiz körpüdən keçməli idim. O vaxt səki olmadığına görə yolun düz ortası ilə gedirdim.

Bəli, mister Harri, heç son zamanlaracan bizim yolların kənarında piyadalar üçün səki olmayıb.

Hə, onu deyirdim axı, yolun ortası ilə gəzə-gəzə gəlib körpüyə çatdım. Körpünün başında bir tala yer uçub tökülmüş, deşik əmələ gəlmişdi. Köhnə dəbdə inşa edilmiş körpünün başlanğıcındakı deşiyə çalınmış yoğun ağac parçası bir muddətdən sonra aşağı düşmüşdü. Sudan qalxan ağ duman kimi buxar buğlana-buğlana oradan çıxırdı.

Sözümün canı var, mister Harri, dediyim kimi, bu körpüdən tez-tez keçirdim. Nədənsə, o axşam hər şey mənə çox qəribə göründü. Sanki bu yeri ilk dəfə yuxuda görürdüm. Körpüyə yaxınlaşanda az qala qorxudan urəyim ağzıma gəldi. Elə bil içimdə soyuq külək əsirdi.

- Muşa Tomas,- öz-özümə mızıldandım.- Bu sənsən, ya yox? Əgər sənsənsə, bəs onda nə olub? Özünü ələ al, ağciyər olma! Qorxan gözə çöp düşər!

Toxtayıb cəsarətimi topladım, addımlamağa başladım. Körpünün başına çatanda, allah, sən özün bizə kömək ol! Nə görsəm yaxşıdır? Körpünün küncündə bir qarı dizlərinə dirsəklənib oturmuşdu. Başını yerə dikmiş qarının üz-gözündən dərin kədər yağırdı. Qapıya çox yazığım gəldi. Zəif bir qarıdan qorxduğuma görə özümu məzzmmət etdim. Yaxınlaşıb ona dedim:

- Burda sizə soyuq olar, qarı nənə.

Qəmli qarı sözümu caya salmayıb məgərə fikir vermədi. Sanki məgər ağzımı açıb bir kəlmə də kəsməmişdim. Qarı oturaq vəziyyətdə əyilib düzəlirdi. Ele bil qüssədən ürəyi bu saat partlayacaqdı.

Yenə də qarıya müraciət etdim:

- Ay qarı nənə, olmasın kədər, olmaya sizə bir bədbəxtlik üz verib?

Qarının çiyninə toxunmaq istədim, lakin nəsə mənə mane oldu. Əyilib diqqətlə qarının üzune baxdım. O, artıq qoca qarı deyildi. Nəzərimi cəlb edən ilk şey, mister Harri, onun hörükləri oldu. Çiynindən aşağı sallanan hörüklər yerlə sürünürdü. Allaha and olsun, ilahələrə layiq hörüklər idi!

Nə cavan qızlarda, nə də yaşlı qadınlarda heç vaxt bu cür hörüklər görməmişdim. Hörüklər elə sıx, ele yoğun idi ki, heç qızlarda beləsi olmur. Hörüklərin rəngi isə təsvirə gəlməzdir! Əvvəlcə gözlərimi qıyıb baxdım və mənə

elə gəldi ki, gümüşü rəngdir. Ancaq qarıya yaxınlaşanda gördum ki, hörüklər, yalan desəm ağzım əyilsin, al-qırmızı rəngdədir. Beləri də ipək kimi par-par parıldayırdı. Əllərini başına söykəmiş qarının saçları çiyninə tökülmüşdü. Vallah, qarı Meri Maqdalenin küpəyə girmiş ruhuna oxşayırdı. Sonra diqqətlə baxanda qarının altına sərdöi bozumtul plaşın və əynindəki yaşıl xalatın ömrümdə görmədiyim qeyri-adi parçadan tikildiyini hiss etdim. Tez qarının yanından bir addım geri çəkilib:

- Ey ulu tanrı, sən bizi qadadan-bəladan uzaq et!- dedim və xaç çevirməyə başladım.

Baş ağrısı olmasın, mister Harri, sözümü yenicə qurtarmışdım ki, o, üzünü mənə çevirdi. Xudaya dünyada hələ çirkin sifətlər varmış! Belə eybəcərini görməmişdim! hərzə-hərzə danışdığıma görə, xuda məni əfv eləsin!

Qarının hinduşka yumurtası kimi çil-çil sifəti meyit rəngində idi. Bir cüt yaddaş çiçəyinə bənzər ala gözləri ağlamaqdan qıpqırmızı olmuşdu. Belə bir ayaz gecədə qarının üzumə zillənmiş ay kimi soyuq baxışları canıma vic-vicə saldı. Mən düşən vəziyyətə allah heç kəsi salmasın! Qorxudan alnımdan soyuq tər sel kimi süzülürdü.

Qarı dirsəklərini yerə qoyub dikəldi. Fikirləşdim ki, axırım çatıb. Qarı Dublindəki işıq direklərinə oxşayırdı. Başını döndərib gözlərini üzümə zillədi. Gözlərindəki güclü parıltı məni vahiməyə saldı ve tüklərim qabardı. Sonra qarı aram-aram addımlayıb körpünün başlanğıcındakı böyük deşiyə çatdı. özünü deşiyə atıb çaya düşdü və suya cumub yoxa çıxdı. Bundan sonra qarının kim olması məni şübhəyə saldı. Keçirdiyim qorxudan sarsılıb haldan düşməyimə baxmayaraq ayaqlarımı birtəhər sürükləyib oradan uzaqlaşdım. Evə necə gəlib çıxdığımı bircə göydəki allah bilir. Bircə o yadımdadır ki, qapının ağzında büdrədim və başım zərblə qapıya dəydi. Huşumu itirib döşəmənin üstünə tir-tap uzandım. Bu vəziyyətdə bir saata yaxın qaldım. Özümə gəlib gözlərimi açanda missis Makvir başımın üstündə dayanıb iri bir dolçadan boğazıma punş tökürdü. Məni ölümün pəncəsindən qurtarmaq üçün missis Makvir təlaş içində bir vedrə soyuq suyu üstümə əndərmişdi. Su yan-yörəmdə göllənmişdi.

- Bıy, cənab Konnoli, olmasın azar, sizə nə olub?- missis Makvir

həyəcanla xəbər aldı,- mənim kimi kimsəsiz bir qadını da belə qorxudarlarmı?

- Mən haqq dünyadayam, yoxsa nahaq?

- Muşa, əzizim! Sən burda, mənim mətbəximdəsən!

- Vay, Vay, allah eşqinə!- dedim.- Bəs mən elə bilirdim ki, məhşər ayağında qır qazanının üstündəyəm. Amma buna baxmayaraq yamanca üşüyürdüm. Heç canım qızmaq bilmirdi.

- Mənə inanın, mister Konnoli, bayaqdan burdasınız. Amma deyin görum, başınıza nə iş gəlib? Bəlkə sizi hal aparıb, yoxsa sizi qara basıb?

- Eh, boş şeydir! - cavab verdim.- Fikir verməyin! Özümə gəlib bir az dirçələndən sonra gördüyüm sehrbazdan missis Makvirə söhbət açdım.

- Onun doğrudan da sehrbaz olduğunu hardan bildin, Tomas?- qadın soruşdu.

- Allah haqqı, onu lap yaxından görmüşəm.

- Mister Harri, onu da deyim ki, gördüyümün sehrbaz olduğunu sübut edən başqa bir əhvalat da həmin axşam baş vermişdi.

Mister O'Neylz adlı birisi, bilməmiş olmazsan, qonşuluğa qonaq gəlibmiş. Tiron qraflığındakı əsil-nəcabətli İrland ailəsinin qonağı imiş. Həmin axşam sehrbazın evin başına fır-fır fırlandığını görənlər olub. Səhər durub qonağı yatağında ölmüş tapıblar.

Bəs buna sözünüz nədir, mister Harri? Yaxşı deyin görum, o vaxt rast gəldiyim sehrbaz deyilmişsə, lütfən söyləyin, bəs onda nə imiş?

MERİ HOQAN VƏ RUH

Dünyada bir vaxtlar rast gəlmiş bəzi-bəzi adamlar var ki, üzdə özlərini dinsiz göstərib heç nəyə inanmadıqlarını söyləyir, amma daxilən xürafata bağlı olub allahın hüzurunda səcdə qılırlar.

Bizim qəhrəman Feyli Muni belə adamlardan biri idi. Feyli (əgər sizlərdən onu Tanıyan varsa) avara-avara veyllənir, özünü arsızlığa vurub heç nəyin fikrini çəkmir, burdan batıb ordan çıxırdı. Gündə azı bir xəlvər yalan, cəfəng

şeyler söyləyirdi. Ona qulaq asanlara özünü elə göstərirdi ki, guya nə pərilərə, nə ruhlara, nə də cinlərin varlığına inanır. Hərdən qəti e'tiraz edib gopa basırdı ki, hamının sitayiş etdiyi insan ruhunun varlığı da onda şübhə doğurur.

Amma bəzi adamlar Feylinin ruhlar haqqında çuğul söhbətinə qulaq asanda bir-birinə Bic-Bic baxıb göz vururdular. Məsələ burasında idi ki, Feylinin cürətsiz, ağciyər olduğunu görüb duyanlar olmuşdu. Belə ki, Feyli qaranlıq düşəndən sonra Ahnamo yolundan keçməyə ürək etmirdi, çünki bir dəfə qaranlıqda qədim Tinner qəbiristanlığının yanı ilə atını səyirdən Billi ev pivəsindən doyunca vurub havalanmışdı. Odur ki, atı qamçılayırdı. Quş kimi səkanat dördnala irəli şırıyırdı. Feyli addımbaşı boynunu döndərib sol çiyninin üstündən ürkək nəzərlərlə geriyə baxırdı.

Bəli, bir axşam qonşular Larri Reylinin meyxanasına yığışıb bala-bala vurur və söhbət edirdilər. Feyli də məclisdəkilərin arasında idi. Həmişəki kimi pərilər haqqında cəfəng şeylər uydurub hədyan sözlər söyləyən Feyli and-aman edib hamını inandırmağa çalışırdı ki, yer üzündə iləhi varlıqlar yaşaya bilməz. Dindar adamlar haqqında Feylinin küfr danışması məclisdə olanların bəzisini xəcil etdi. Onlar hirslənib dil-dodaqlarını gəmirdilər. Çiyinlərinə uzun mavi rəngli plaş atmış Meri Hoqan adlı qoca bir qadın buxarı dibində səssiz-səmirsiz bardaş qurub qəlyanını tüstülədirdi. Səbri tükənmiş Meri Hoqan ətrafında gedən söhbətə müdaxilə etmək məqsədilə qəlyanını ağzından götürdü, çırpıb gülunu yerə tökdü. Sonra o, ocaqdakı közün üstünə bir parça tüpürüb gözlərini Feylinin üzünıə zillədi.

- Bura bax, ay kafir, deyirsən ki, ruha-zada inanmırsan, elədirmi? - qadın soruşdu.

Bəli, Feylinin boğazı qurudu, udquna-udquna qaldI. Səsi batdı.

- Yaxşı, bəs niyə susursan? Ay bala, ulu babanın, ulu nənənin etiqad etdiyi ruhların varlığını şübhə altına almaq sənin kimi bir cavana heç yaraşmır. Uzun sözün qısası «çörək götürüb inanasan» deyiblər. Mən sənin nənən yerində olaram, oğul. Ruhların varlığına şəkk eləmə! Mən onlardan birini öz gözlərimlə görmüşəm! İndi sən inanmırsan, heç inanma! Camaata söyləyərəm.

Məclis əhlinin hamısını heyrət götürdü. Qarıya qulaq asmaq üçün hamı

buxarının başına toplaşdı. Feyli gülümsəməyə çalışsa da, bir şey alınmadı, çünki ona fikir verən olmadı.

- Yaxşı yadımdadır, - qarı söhbətə başladı, - mən namuslu bir kişiyə ərə getmişdim. O, artıq bu dünyadan keçub. Allah onun kor evini nurla doldursun. İlk körpəmiz dünyaya gəlməmişdən azacıq əvvəl (o vaxtdan çoxlu illər kecib) xudmani bağçamızda əyleşib ip əyirirdim. Hərdən başımı qaldırıb dəstə ilə uçuşan bal arılarına tamaşa edirdim. Təxminən iyunun ortalarında günəşli bir gün idi. Bal arıları vızıldaşaraq güldən-gülə qonur, quşlar kol-kosun arasında eşələnib pöhrəlikdə civildəşir, qanad çalan xal-xal kəpənəklər çiçəklərlə öpüşürdü. Bir sözlə, hər yan gözəl idi və xoş ətir hər yeri bürümüşdü. Özümü elə bəxtiyar hiss edirdim ki, harada olduğumu da unutmuşdum.

Birdən bağın küncündəki qaymaq çiçəklərin arasından qulağıma səs gəldii: tıq, tıq, tıq, taq. Sanki pinəçi başmağa dabanaltı vururdu. «Xudaya, sən özün kömək ol», öz-özümə mızıldandım. «Görəsən, o nə ola bilər?»

Maraq mənə güc gəldi. Ərişi yerə atıb ayağa durdum. Sinə-sinə qaymaqçiçəyi ləklərinin yanına getdim. Gördüyümə inanmağım gəlmədi. Mənim tuşumda qaymaq çiçəklərin düz ortasında təzə doğulmuş uşaq boyda bir qoca oturmuşdu. Başında dudkeş papağı, ağzında tüstülənən demi vardı. Nimdaş bozumtul paltosunun iri mis düymələri, başmaqlarının üstündəki enli gümüşü toqqalar nəzəri cəlb edirdi. Başmaqları ayağına çox yekə idi. Qoca vur-hay bircə balaca başmağa daban vururdu. Ruh olduğunu başa düşüb o dəqiqə gözlərimi ona zillədim. Cəsarətli olduğum üçün cılız qocaya dedim:

- Allah işini avand eləsin, xeyirxah qoca! Belə bir qoca başını qaldırıb tərəddüdlə üzümə baxdı. Bir göz qırpımında atılıb onu süpürlədim. Möhkəm-möhkəm yapışıb ondan pulunun yerini xəbər aldım:

- Nə pul?- qoca dedi.- Pul hardandır məndə! Mənim kimi balaca bir xilqətdə pul nə gəzir?

- Bəsdir, səsini kəs, -dedim.- Adamların başına az oyunlar açırsan? Hamı bilir ki, sənin kimi ruhlar ləl-cəvahirat içində üzürlər.

Dərhal cibimdə gəzdirdiyim bıçağı çıxardıb sir-sifətimə qəddar görkəm verdim. Belə görkəmə düşmək o zamanlar mənim üçün heç də asan iş deyildi,

çünki mən sakit təbiətli, deyib-gülən bir gözəl qız idim. Elə indi də pis deyiləm ha! Nə başınızı ağrıdım, barmağımı silkələyə-silkələyə hədələyib ona dedim ki, pul kisəsini mənə verməsə, ya da bir küpə qızıl yeri göstərməsə, burnunu bıçaqla sifətindən sıyırıb atacağam. Bu sözləri eşidən qoca qorxusundan elə sapsarı saraldı ki, ürəyimdə bu zavallı məxluqa yazığım gəldi.

- Bura bax, -qoca dilləndi.- Dur mənimlə gəzə-gəzə gedək. Pulumu saxladığım yeri sənə göstərim.

Razılaşıb getdim. Qocadan bərk-bərk yapışıb onu əlimdən buraxmadım. Bütün yolu gözümü ona zilləmişdim. Birdən arxadan vızıltı səsi eşitdim.

Qoyma! Getdi!- qoca haray saldı.- Odur, bax, sənin arıların küsüb gedirlər. Ay aman, necə bir yerə cəm olublarsa, alov dillərini xatırladırlar.

Səfeh kimi başımı döndərib geri boylandım. heç nə görməyib üzümü yenə ruha tərəf çevirdim. Ruh nə gəzirdi! Onu tutan əlim bomboş idi. Nəzərlərim ondan yayınıb başım qarışan kimi ruh hiss olunmadan sürüşüb barmaqlarımın arasından çıxmışdı. Sanki rüh tüstüdən yoğrulmuşdu. Bəli, əzizlərim, ruh o gedən gedib bir də mənim bağıma qədəm basmadı.

TEYQ O'KEYN VƏ CƏSƏD

Biri vardı, biri yoxdu, bir zamanlar Leytrim mahalında yaşayan həddi-buluğa çatmış bir oğlan vardı. O, çox çevik, güclu oğlan idi. Oğlanın atası varlı-hallı fermer idi. Çoxlu pulu olan fermer oğlundan heç nə əsirgəmirdi. Yeganə oğlunu fermer həddindən artıq çox istəyir, uşağa könlü istəyəni etməyə icazə verirdi. Bu səbəbdən idi ki, oğlan boy-buxuna dolduqca işdən çox idmana meyl edirdİ.

O, küçələri veyl-veyl gəzir, nadir hallarda geceni evlərində keçirirdi. Çinar kimi boy atıb gözəlləşən oğlan bir baxışla qızların qəlbinə od salırdı. Qızlar bir könüldən min könülə ona vurulurdu. Yaraşıqlı oğlana kənddə buse verib dərdindən dəli olmayan qız tapmaq olmazdı. Kənddəki hər qız istəyirdi ki, oğlan ondan başqa heç kəsə baxmasın. Məhz buna görə də kimsə oğlanın şəninə bu misraları qoşmuşdu:

Veyllənən əbləhə bax, əbləhə
Öpüşməyi peşə edib özünə.
Gündüz yatar, gəzər gecə kirpitək
Bircə çimir yuxu getməz gözünə.

Zaman keçdikcə azğınlaşan oğlan ipə-sapa yatmadı. Eşqi topuğuna vurub busə təşnəsi ilə çöllərə düşən oğlan bir daha ata evində görünmədi.

Qaynar qanını soyudub sakitləşmək üçün bir axşam çöldə-düzdə gəzib-dolaşan oğlanın qulağına səda gəldi. Qarşıdakı yolda ayaq səsləri eşidildi. Bilmirəm, gecənin bu vaxtı kücədə gəzib-dolaşan kimdir" oğlan öz-özünə deyindi. Dayanıb qulaq asdı. Bir-birilə danışan çoxlu adam səsi eşitdi.

Çox çalışdı, ancaq adamların söhbətindən bir şey qana bilmədi.

- Eh, gidi dünya!- oğlan dedi.- Canıma bərk qorxu düşüb. Danışıqları qətiyyən ingilis danışığına oxşamır! Heç fransızlara da bənzəmirlər!

O, bir neçə yard irəli gedib ay işığında bir dəstə cırtdan boylu adamın ona tərəf gəldiyini gördu. Onlar özləri ilə böyük, ağır bir şey gətirirdilər.

- Ah, qatillər!- O, astadan pıçıldadı.- Mən inanmıram ki, onlar yaxşı adam olsun!

Adamların sürətlə ona tərəf gəldiyini hiss edən oğlanın başının tükləri qabardı, qorxudan bütün əzaları gizildədi.

Yenidən diqqətlə adamlara baxdı ve ona məlum oldu ki, gələn dəstədə iyirmiyə yaxıın cırtdan boylu kişi var. Özü də hamısı bir ölçüdə, bir biçimdə! Onların bəzisinin saçları çal idi ve çox qoca görünürdü. Oğlan dəstədəki adamları yenidən nəzərdən keçirtdi. Dəstə gəlib tamam yaxınlaşmayınca gətirdikləri ağır şeyin nə olduğunu ayırd ede bilmədi. Xırdaboy kişilər oğlanın başına yığışıb halay çəkdilər. Çiyinlərindəki ağır şeyi yola tulladılar. Yerdəkinin meyit olduğu dərhal Oğlana aşkar oldu. Qorxusundan buza dönen oğlanı soyuq ölüm təri basdı. Qanı damarlarında dondu. Azacıq sonra saç-saqqalı ağarmış xırdaboy qoca oğlana yaxınlaşıb:

Sənə rast gəldiyimizə sevinmirsən, Teyq O'Keyn? - dedi.

Biçarə Teyq ağzını açıb bir söz də deyə bilmədi. Bütün dünyanı ona

bağışlasan da cavab verməyə heyi yox idi.

- Teyq O'Keyn,- ağbaş liliput yenidən səsləndi.- Sən bizə vaxtında rast gəlməmisən?

Teyq cavab verməyib susdu.

- Teyq O'Keyn, - kişi üçüncu dəfə xəbər aldı.- Vaxtında sənə rast gəlməyimizə sevinirsənmi?

Teyq ağzına su alıb dayanmışdı, çünki cavab verməyə ürək etmirdi. Ona görə də dilini dişləyib durmuşdu.

Xırdaboy ağbaş qoca yoldaşlarına tərəf döndü. Kişinin xırda parlaq gözlərindən sevinc yağırdı.

- Belə-belə işlər,- o dilləndi,- Teyq O'Keynin deməyə sözü yoxdur. Demək, onunla ürəyimiz istəyən kimi rəftar edə bilərik. Teyq, a Teyq, sən pis həyat keçirirsən. Bilirsənmi, biz səndən qul kimi istifadə edə bilərik. Sən bizimle bacarmazsan! Buna görə də bizimlə mubahisə etməyin faydası yoxdur. Meyiti yerdən götür görüm!

Qorxusundan ödünü udan Teyq yalnız bircə bu kəlməni deyə bildi:

- Bacarmaram. Və inadla sözünün üstündə durdu.

- Mən sizə dedim axı, Teyq O'Keyn meyiti götürməz, məkrlə dillənən qocanın dodaqları azca yana qaçdı. Rişxəndlə irişən qocanın dodaqları sınan quru budaq kimi xırçıldadı. Bir az sonra qoca, sınıq-salxaq zəng səsi kimi cırıldaya-cırıldaya sözünə davam etdi:

- Ha, ha, Teyq O'Keyn cəsədi yerdən qaldırmayacaq! Neynək, məcbur edərsiniz, qaldırar.

Qoca sözünü qurtaran kimi xırdaboy adamlar Teyqi üzuk qaşı kimi araya alıb qəhqəhə ilə söhbət etməyə başladılar.

Teyq qaçıb onlardan canını qurtarmaq istədi, amma balacaboy məxluqlar arxasınca götürüldülər. Onlardan biri arxadan badalaq atıb Teyqi üzu üstə torpağa sərdi. Teyq özünü yığışdırıb ayağa qalxanacan ruhlar başının üstünü alıb əl-ayağından yapışdılar. Teyqi ağzı üstə yerə möhkəm-möhkəm sıxdılar ki, tərpənə bilməsin. Sonra ruhlardan beşaltısı cəsədi yerdən qaldırıb Teyqin belinə uzatdılar. Cəsədin sinəsini Teyqin kürəyinə yapışdırıb qollarını boynuna

doladılar. İşlərini qurtarıb kənara çəkildilər ki, Teyq ayağa qalxa bilsin. Qeyzindən kükrəyib ağzı köpüklənə-köpüklənə söyüş yağdıran Teyq ayağa durub fikirləşdi ki, silkələnsə cəsəd belindən düşər. Bərk-bərk silkələnməyə başladı. Tər dabanından çıxsa da, qollarını boynuna möhkəmcə dolayıb, qıçlarını onun belində sıxıb dayanmış cəsədi kürəyindən yerə sala bilmədi. Sanki cəsəd Teyqin belinə yəhəp kimi bağlanmışdı. Qorxusundan bənizində qan nişanəsi qalmayan Teyqə elə gəldi ki, axırı çatıb.

- Əfsus! Çox təəssüf ki,- o öz-özünə dedi.- Keçirtdiyim xoşagəlməz həyatın nəticəsidir ki, başıma bu müsibət gəldi. Ey ulu tanrı, muqəddəs Məryəm, Patrik ata, Vriqet ana, hüzurunuzda diz çöküb yalvararaq söz verirəm: bu dəhşətdən qurtara bilsəm, nə qədər ki, ömrüm var, pis əməllərimdən əl çəkib, səfeh işlər tutmayacağam!

Xırdaboy ağbaş qoca yenə Teyqin yanına gəlib:

- Deməli belə, Teyrciyəz,- dedi.- Mən sənə deyəndə ki, cəsədi götür, sözümə baxmadın. Eybi yoxdur, görürsən, adamı necə məcbur edirlər? Sənə desəm, apar meyiti basdır, mən biləni, yenə tərslik edəcksən. Neynək, yenə məcbur edərik, basdırarsan!

- Sizin xətrinizə ölü basdırmaq nədir ki, lap cəhənnəmə də gedərəm,- Teyq dilə gəldi.- Niyə basdırmıram ki, basdıraram.

Düşdüyu böyük təhlükənin dəhşətini hiss etməsəydi, Teyq ağzından belə mədəni söz qaçırtmazdı.

Xırdaboy kişi çox qəribə gülüşlə şaqqanaq çəkdi.

- Ha, ha, ha! Adın nədir, Daşdəmir, yumşalısan, yumşalı, Teyq!- o dedi.- özünü düzəltmək üçün, zamin durub sənə möhlət verirəm. Nə qədər ki, əl-ayağım sənə dəyməyib, özünü yığışdır! İndi isə qulaq as, Teyq O'Keyn, əgər bir də mənim dediyimə əməl etməsən, özündən küs. Peşman olarsan, ha! Belindəki meyiti özünlə Tempol-Demus məzarlığına ararmalı, sərdabənin tən ortasında qəbir qazıb cəsədi basdırmalı, üstünə bayraqlar sancmalısan. Həmin günu bayraqları yenidən endirib cəsədi sərdabədən çıxardıb aparmalısan. Elə etməlisən ki, məzarlıqda baş vermiş dəyişiklikdən heç kəs xəbər tutmasın.

Xırdaboy ağbaş qoca sözünü deyib qurtaran kimi yoldaşları əllərini-

əllərinə şappıldadıb qəşş etdilər.

- Can, ay can! ha-ha-ha! hi-hi-hi!- hamısı birdən səslərini ucaltdı.- Di get! Nə durmusan, get də! Səhər açılmağa cəmi səkkiz saat var. Gün doğunca cəsədi basdırmasan, Teyq, işin bitdi.

Xırdaboy məxluqlar Teyqi qapazlayıb arxasına bir təpik ilişdirdilər. Sonra Teyqin dalınca düşüb qovmağa başladılar. Onu sürətlə qaçmağa məcbur edib dincini almağa imkan vermədilər. Teyqə elə gəldi ki, o gecə bütün vilayətdə kecib getmədiyi şehli cığır, dərə-təpə, bir-birini kəsib keçən əyri-üyrü yol qalmadı. Arabir ay buluda girir, aləm zülmətə bürünürdü. Teyq ayağının altını seçə bilmir, büdrəyib tez-tez ağzı üstə yerə deyirdi. Hər yıxıldıqca hərdən əzilib ah-may edir, hərdən də sakitcə ayağa durub yoluna davam edirdi. Ay buluddan çıxıb yollara nur səpdikcə, Teyq qanrılıb geri baxır, xırdaboy məxluqların onunla daban-dabana gəldiyini görürdu. Məxluqlar öz aralarında söhbət edir, hay-küy salır və qağayı sürüsü kimi qığıldaşırdı. Teyq onların söhbətinden bir kəlmə də başa düşmürdü. Nə qədər yol getdiyindən Teyqin xəbəri yox idi. Nəhayət onlardan biri Teyqi səsləyib:

- Burda dayan!- dedi. Teyq ayar saxladı.

Məxluqlar onu dövrəyə aldılar.

- Oradakı qurumuş ağacları görürsən? Tempol-Demus o ağacların arasındadır. Sən ora tək getməlisən. Bizim səninle getməyə ixtiyarımız yoxdur. Biz burda qalmalıyıq. Get, qorxma! Ürəkli ol!

Teyq başını çevirib baxdı. Xeyli aralıda ora-burası uçub tökülmüş hündür bir divar gözünə dəydi. Divarın iç tərəfində çox qədim bozumtul bir sərdabə görünürdü. Sərdabənin ətrafında təxminən on-on iki qurumuş ağaç dağınıq şəkildə dayanmışdı. Ağacların heç birində nə bir yarpaq, nə də yaşıl budaq vardı. Ağacların əyri-üyrü, yalın, quru budaqları qəzəbindən əsib-coşan hirsli adam qolu kimi uzanmışdı. İmdad diləməyə imkanı olmayan Teyqin irəli getməkdən başqa çarəsi qalmamışdı.

Artıq sədabəyə iki yüz yard yol qalırdı. Qəbiristanlığın darvazasına çatmayınca Teyq bir dəfə də dönüb geri baxmadı.

Sınıq-salxaq darvaza qopub yerə düşdüyünə görə Teyq içəri keçməyə

çətinlik çəkmədi. Sonra dönüb geri baxdı. Görmək istəyirdi ki, xırdaboy məxluqlardan heç dalınca gələn varmı. Elə o dəm haradansa bir bulud topası peyda olub ayın qabağını tutdu. Hər yan zülmətə döndü və Teyq heç nə görə bilmədi. O, qəbiristanlığa daxil olub ot basmış köhnə cığırla sərdabəyə doğru getdi. Sərdabəyə çatanda qapının qıfıllı olduğunu gördu. Qapı çox böyük və möhkəm idi. Teyq nə edəcəyini bilmədi. handan-hana bıçağını çətinliklə çıxardıb qapının taxtasına zərbə endirdi. Taxta qətiyyən cürük deyildi.

- Yaxşı,- o öz-özünə düşündü.- Bəs, mən nə etməliyəm? Qapı açarla bağlanıb. Onu açmaq müşkül işdir.

Fikirlərini beynində cəm etməmiş Teyqin qulağına bir səs gəldi:

- Açarı qapının başında, ya da divarın üstündə axtar.

- Bu nə deməkdir?- qorxusundan alnında tər pucurlanan Teyq xəbər aldı.- Kimdir mənimlə danışan?

- Sənlə danışan mənəm, cəsədəm, cəsəd!

- İlahi, bəyəm sən danışa da bilirsən?

- Hərdən bir danışa bilirəm.

Teyq axtarıb açarı divarın üstündən tapdı. Qorxusundan bir daha heç nə soruşmayıb cəld qapını taybatay açdı. Meyit də dalında içəri girdi. İçəri cəhənnəm kimi qaranlıq idi.

Teyq təlaş içərisində tir-tir əsməyə başladı.

- Şamı yandır,- cəsəddilləndi.

Teyq əlini cibinə soxub çaxmaq daşı və bir qırıq polad çıxartdI. Onları zərblə bir-birinə vurub Qığılcım aldı. Cibində olan yanığ əski parçasına od salıb üfürməyə başladı. Əski parçası şölələnəndə ətrafına göz gəzdirdi. Kilsə qədim kilsə idi. Divarlarının bir hissəsi uçub tökülmüşdü. Pəncərə şüşələrinin bəzisi sınıb dağılmış, bəziləri qat-qat olmuşdu.

Pəncərələrin alt taxtası cürüyüb peyinə dönmüşdü. İçəridə yaddan çıxıb qalan altı-yeddi köhnə dəmir şamdan vardI. Teyq onlardan birinin içində köhnə şam kötüyü tapıb alışdIrdı. Gəlib düşdüyü bu qorxunc yeri gözdən keçirən Teyq birdən buz kimi soyuq cəsədin səsini eşitdi:

- Artıq vaxtdır, dəfn et məni! Basdır məni! Bəli götür, torpağı qaz.

Teyq ətrafa göz gəzdirib səcdəgaha düşüb qalmış bir bel gördu. Beli yerdən götürüb sərdabənin ortasına sancılmış bayrağın dibində tarazladı. İrəli əyilib bütün ağırlığını belin sapına salaraq güc verdİ, bayrağı çıxartdI.

Birinci bayrağı çıxardandan sonra qalanları yerdən asanlıqla qopdu. Beləliklə, Teyq üç-dörd bayrağı çıxardıb, yerini dəyişdirdi. Bayraqları çıxarılmış yerin torpağı yumşaq olduğuna görə qazmaq çətin deyildi. Amma Teyq təzəcə dörd-beş bel torpaq götürüb kənara atmışdı ki, belin ağzının ət kimi yumşaq nəsə bir şeyə toxunduğunu hiss etdi.

Torpağı eşib gördu ki, qazdığı yerdə bir meyit dəfn edilib.

- Görəsən, iki ölünü bir qəbirdə basdırmağa razı olarlarmı? - Teyq düşündü.

- Cəsəd, ay belimdəki cəsəd, səninləyəm,- Teyq dilləndi. - Səni bu ölünün yanında basdırsam, razı qalarsanmı? Cəsəddən səs çıxmadı.

- Susmaq razılıq əlamətidir. - Teyq fikirləşdi, - Bəlkə, cəsədin dili tutulub, hə?

Beli götürüb yenə torpağa sancdı. Deyəsən, belin ağzı qəbirdəki ölünün bədəninə dəyib onu zədələdi. Odur ki, ölü xortlayıb qəbirdən dik atıldı, dəhşətli səslə bağırdI:

- Of!! Uf!! Ah!!! Çəkil gözlərimdən! Rədd ol burdan! İtil cəhənnəmə!!! Yoxca özünü ölmüş bil, ölmüş, ölmüş bil!

Bu sözləri deyən ölü yenidən arxası ustə qəbrə yıxıldı. Teyqin başının tüku biz-biz oldu. Sifətində soyuq tər pucurlandı. Bütün sümükləri gizildədi. Halsızlaşıb gözləri qaraldı, dizləri əsməyə başladı.

Xeyli sonra özünə gəlib cürətləndi. ölü çul düşüb sakitcə qəbirdə uzanmışdı. Teyq beli götürüb ölünun üstünu torpaqladı. Torpağı hamarlayıb bayraqları əvvəlki kimi ehtiyatla öz yerlərinə taxdı.

İnanmıram ki, ölü bir də qəbirdən çıxa bilsin, Teyq özü-özünə təskinlik verdi. Addımlayıb sərdabənin qapısına yaxınlaşdı. Bayraqları bir-bir dartıb çıxardan Teyq belindəki cəsəd üçün munasib yer axtarırdı. O, yenə üç-dörd bayraq çıxardıb yeri qazmağa başladı. Bir az qazdıqdan sonra torpağın altından əynində köynəyi olan bir qoca arvad cəsədi çıxdı. Qarı əvvəlki

meyitdən diribaş tərpənib üstünün torpağı kənara atılan kimi haray-həşir saldı:

- Ehey, ay gicbəsər, nə edirsən? Ay sarsaq! Belindəki harda küllənirmiş ki, yatmağa yeri də yoxdur?

Biçarə Teyq geri çəkildi. Sualı cavabsız qalmış qarı, aram-aram gözlərini yumub halsızlaşdı və ehmalca arxası üstə düşüb yavaş-yavaş torpağa gömüldü. Teyq qarının da üstünü torpaqlayıb bayraqları yerinə sancdı.

Dincini alıb qapının yanını qazmağa başladı. İki-üç bel torpaq atmamış Teyqin gözünə çılpaq bir kişi qolu göründü.

- Allaha and olsun ki, daha qazan deyiləm,- Teyq mızıldandı. Qazmağın nə faydası var?

Bəli, Teyq kişi qolunu da torpaqlayıb bayraqları yerinə sancdı. Sonra sərdabədən bayıra çıxdı. Ürəyi sinəsində daşa dönmüşdü. Teyq fikirli-fikirli qapını örtüb kilidlədi və açarı tapdığı yerə qoydu. Qapıya yaxın məzar daşının üstündə əyləşib fikrə getdi. Tərəddüd içərisində duruxub qaldı. Sifətini əlləri arasına alıb yorğun halda dərd sinəsini deşə-deşə göz yaşı tökdü. Teyqə elə gəldi ki, ölüb orada qalacaq, heç vaxt evə sağ qayıda bilməyəcək. Varlığını saran həzin bir titrəyiş Teyqi üşəndirdi və o, belindəki cəsədin ilan kimi boynuna dolanmış qollarını boşaltmağa cəhd etdi. Nə qədər çalışsa da bir şey hasil olmadı. Sanki cəsədin qolları Teyqin boğazına pərçimlənmişdi. Ağac kəsilən Teyq yenidən oturmaq istəyirdi ki, cəsədin bumbuz qoP"YN"l dodaqları aralanıb:

- Məni məzarlıqda dəfn et,- dedi. Birdən cəsəd Teyqin boğazını sıxan sol qolunu aralayıb bir cığıra işarə etdi. cəsədin sol əli uzanan istiqamətdə hərəkət edib, Teyq məzarlığa daxil oldu.

Nəhayət cəsəd yenidən dilə gəldi:

- Məni orada basdır.

Teyq dönüb ətrafına boylandı. Qarşısında yenicə qazılmış bir qəbir görüb bərk diksindi. Yaxınlamıb qəbirin dibinə baxdı və orada qapqara bir tabut gördu. Teyq sürüşüb məzara düşdü. Tabutun qapağını qaldırıb içini boş gördu. Qayıdıb məzardan təzəcə çıxan Teyq məzarın kənarında dayanıb tamaşa edirdi. Birdən düz səkkiz saat boynundan sallanıb qalmış cəsədin

qolları boşaldı, kəmər kimi Teyqin gövdəsinə sarınmış qıçlar aralandı və cəsəd guppultu ilə ağzı açıq tabuta düşdü. Teyq qəbirin kənarında diz çöküb allaha dua etməyə başladı. Sonra gecikmədən durub tabutun qapağını ağzına basdı. Torpağı ovuclayıb tabutun, üstünə tökməyə başladı. Torpaq qalanıb məzar hazır olanda üstünə çıxıb atılıb düşdü. Torpağı təpikləyib möhkəmlətdi və dərhal oradan uzaqlaşdı.

Teyq işini qurtarıb yola çıxanda günəş üfüqdən boylanırdı. Teyq əvvəlcə el yoluna çıxıb dincIini almaq üçün ev axtardı. Nəhayət bir kənd mehmanxanasına gəlib çıxdı.

Uzanıb axşamacan yatdı. Axşam oyanıb bir az şam etdi və yenidən yuxuya gedib səhərə kimi orada qaldı. Dan yeri sökülәndə durub bir at kirayə etdi və evə çapdı. Sən demə, Teyq evdən iyirmi altı mil aralı imiş. Bu qədər yolu cəsəd belində bir gecədə qət etmişdi! Evdəkilər fikirləşirdi ki, Teyq kənddən çıxıb gedib. Odur ki, onlar Teyqin qayıdıb gəldiyini görəndə çox sevindilər. Hamı Teyqdən harada itib-batdığını xəbər aldı. Amma Teyq atasından başqa heç kəsə bir söz demədi. O gündən sonra Teyq dəyişib başqa adam oldu.

Bir daha içib sərxoş olmadı, qumarın daşını birdəfəlik atdı. Qaranlıq gecələrdə tək-tənha seyrə çıxmağı tərgidib evdə oturdu.

Başına gəlmiş əhvalatdan iki həftə keçməmiş evlənib özünə arvad aldı. Onun toyunda igidlər kuşku tutdular.

Teyq xoşbəxt olub xoş dövran surdu. Arzum budur ki, siz də xoşbəxt olub niskilsiz ömür surəsiniz.

AĞ ALABALIQ

Biri vardı, biri yoxdu, çox-çox qədim zamanlarda göl kənarındakı qəsrdə yaşayan cazibədar bir qız vardı. Rəvayətə görə bu qız kralın oğlunun nişanlısı idi və onlar toy tədarukündə idilər ki, gözlənilmədən kralın oğlunu qətlə yetirdilər, cəsədini gölə atdılar. Çox təəssüf ki, kralın oğlu gözəl qızla etdiyi əhd-peymana əməl edə bilmədi. Deyilənə görə o gözəl qız şahzadəni itirdiyi

üçün ağlı başından çıxıb dəli oldu. O, çox səmimi qız idi.

Allah ona yar olsun! Çox keçmədi ki, qız da özünü gölə atdı və o vaxtdan sonra qızın nə ölüsunu, nə də dirisini görən olmadı. Əfsanələr uydurdular ki, qızı su pəriləri aparıb.

Əzizlərim, vaxt keçdi, il dolandı və bir gün yaxınlıqdakı çayda Ağ Alabalıq gördülər. Allah onu saxlasın! Məgər inanıram ki, adamlar bu canlı varlıq haqqında heç bir fikir yürüdə bilmədilər, çünki onlar o vaxtacan Alabalıq haqqında heç bir şey eşitməmişdilər. İllər ötüb keçmiş, amma Alabalıq indi sizin xoş dəqiqədə gördüyünüz bu yerdə məskən salıb qalmışdı. Yaddaşımda qalan, bax bunlardır.

Nəhayət, adamların ağlına gəlmişdi ki, Alabalıq su pərisidir. Bəs o, nə ola bilərdi ki? Bir müddət Alabalığa dəyib-dolaşan olmadı. O vaxtacan ki, bir neçə mə'lun əsgərin güzarı bu yerlərə düşdü. İmansız əskərlər adamlara rişxəndlə gülür, onları ələ salıb məsxərəyə qoyurdular. Əsgərlərdən biri (Bəxti qara gəlmiş; hərzə-hərzə danışdığımçun, qoy allah məni xatadan uzaq etsin!) and-aman edirdi ki, Alabalığı tutub nahar vaxtı yeyib. Yaxşı, siz əsgərin yaramazlığına nə ad verirsiniz? Şübhə yoxdur ki, əsgər Alabalığı tutub evə aparmış və balaca gözəl xilqəti qızartmaqçun tavaya atmışdı. Alabalıqdan ürək parçalayan nalə səsi eşidən yaramaz əsgər çiyinlərini ata-ata irişmişdi; balığın bir üzünü qızarmış hesab edən əsgər onu o biri üzü ustə çevirdi; nə görsə yaxşıdır, balıq tamam yanmışdı və əsgərə elə gəldi ki, bu çox qəribə alabalıqdır və onu qızartmaq mümkün deyil.

- Asta-asta balığı o üz-bu üzunə çevirərəm - insafsız əsgər fikirləşib balığı çevirəndə tüstü aləmi basdı. Bəxtim niyə gətirmədi? Dünya gözlərimdə qaralır. Amma səni yenidən qızardacağam, əzizim. Elə bilirsən ki, sən hamıdan hiyləgərsən! -deyib əsgər balığı çevirməkdə davam etdi, amma alov balığı bişirmədi ki, bişirmədi. Naçar qalmış yaramaz əsgər deyinməyə başladı:

- Ömrüm günüm, mənim sevimli sısqa alabalığım, bəlkə sən artıq yaxşıca qızarmısan? Hərçənd qızarana oxşamırsan. Bəlkə görkəmin məni aldadır? Yaman yağlı tikəyə oxşayırcan ha!

Bu sözləri deyən əsgər bıçaq və çəngəl götürüb Alabalığın bir tikəsinin

dadına baxmaq istəyir. Amma əsgər bıçağı balığa sancan kimi balıq tükürpədici şüvən qoparır. Bıçaq əsgərin əlindən düşür və Alabalıq tavadan sıçrayıb döşəmənin ortasına yıxılır. Balığın yıxıldığı yerdən çox qəşəng bir qız dikəlib ayağa qalxır. Bu qız elə qənirsiz gözəl idi ki, tayı-bərabəri tapılmazdı; əynində qar kimi ağ paltarı, saçlarında qızılı bantı vardı və qolundan qan süzülürdü.

- Ay yaramaz, görürsən, məni haramdan yaralamısan?- deyib qız qolunu əsgərə tərəf uzatdı. Pərvərdigara, əsgərin gözlərinə qaranlıq çökdü.

- Olmazdımı ki, məni tora salıb xoş güzəran keçirdiyim sərin çaydan çıxarmayaydın. Axı, nə üçün məni öz işimdən ayrı saldın?

Bu məqamda əsgər suya düşmüş siçan kimi titrəməyə başladı, sonra nəsə kəkələdi və dizi üstə çöküb qıza yalvardı ki, onu əfv etsin. Əsgər qızın çayda keşik çəkdiyini bilmədiyini söylədi, bildirdi kl, o, çox əlicənab əsgərdir. Bilsəydi, qızı iş-gücündən ayırmazdı.

- Sən məni tutanda keşik çəkirdim - qız dedi - sevgilimin axınla yanıma gələcəyini gözləyirdim. Əgər mən onu görməsəm, çox darıxaram və nə qədər ki, sağam, səndən qisas almağa çalışaram. İllər kecib qərinələr dolansa da səndən qisas alacağam! Səni qurd-quşa döndərərəm!

Qurd-quşa çevrilmək fikri əsgərin canına vəlvələ saldı, dünya gözlərində qaraldı və qıza yalvardı ki, ona rəhm etsin.

- Bəd əməllərindən əl çəkəcəyinə tövbə et, alçaq! Sonrakı peşmançılığın fayda verməz. Bundan sonra xeyirxah adam ol və öz işinlə məşrul ol! İndi isə apar məni çaya burax. O çaya ki, məni ordan çıxarmısan!

Amandır, gözəl xanım! Mənim ürəyim o dərəcədə daş deyil ki, sizin kimi gözəl qızı çayda batıra bilim.

Əsgər sözünü deyib qurtarmamış qız qeyb oldu. O, döşemənin üstündə bapbalaca bir alabalıq gördu və götürüb onu təmiz boşqaba qoydu. Öz həyatını xilas etsin deyə boşqabı götürüb sürətlə çaya tərəf qaçmağa başladı. Az qaçdı, çox qaçdı, nəhayət gəlib özünü çaya yetirdi ve alabalığı dərhal suya atdı, çünki qorxurdu ki, qızın sevgilisi gəlib keçmiş olar və işlər korlanar. Balıq suya düşən kimi çayın suyu bir anlığa qan kimi qıpqırmızı oldu. Bu, o

səbəbdən idi kl, balıqda bıçaq yapası vardı. Sonra su qan ləkələrini yuyub apardı, amma bu günəcən alabalığın kəsik böyründə balaca qırmızı nişanə qalıb.

Belə-belə işlər, uşaqlar! O gündən sonra əsgər imana gəlib, allah adamı oldu, pis əməllərdən uzaqlaşıb heç kəsin işinə qarışmadı. Həftədə üç dəfə keşikdə dayandı, keçirdiyi sarsıntıdan sonra heç vaxt balıq tutmadı və ömürlük balığa həsrət qaldı.

Əvvəl dediyim kimi, axı, əsgər allah adamı olmuşdu. Odur ki, ay keçdi, il dolandı, o, ordunu tərk edib evlərinə qayıtdı; belə nəql edirlər ki, əsgər hər yerde Ağ Alabalığın puhuna dua edirmiş.

NÖKƏR VƏ FERMER

Bu əhvalat lap qədim zamanlarda, mən hələ dünyaya göz açıb nağıllar söyləməyə başlamazdan qabaq olub. Ona görə də indi söyləyəcəyim nağıla diqqətlə qulaq asın. Bəlkə sabah əhvalınız belə yaxşı olmadı.

Hə, əzizlərim, bir zamanlar bu yerlərdən kasıb-kusubların oğul və qızları nökər-qaravaş işləmək üçün Limerik qraflığına gedərdilər. Qismətinə mərhəmətli ağa çıxanların bəxti gətirər, pisi çıxanların isə başına gətirilən min bir müsibəti görən adamın zavallı məxluqlara çox yazığı gələrdi. Limerik qraflığının ucqar yerlərində varlı fermerlerin əksəriyyəti barmağını salıb adamın ağzından tikəsini çıxardar, nökərçilik edən oğlan və qızları Pərikdirmək üçün hər pis əmələ əl atardılar.

Deyilənə görə, bu mahalda bir dul qadın yaşayırmış. Onun aman-zaman bircə oğlu varmış. Bir dəfə oğlan pul qazanmaq üçün evdən çıxıb getmək istədiyini anasına bildirdi, gəlib Nyukasl Vestdəki qul bazarına yetişdi. Bir müddət meydanda dayandıqdan sonra qraflığın şərqindən olan bir fermer ona yaxınlaşıb əmək müqaviləsi bağlamaq üçün sövdələşməyə başladı. Fermer oğlana dedi ki, ona başqalarından iki dəfə çox əmək haqqı verəcək, hər il ququ quşlarının ilk cəh-cəhi eşidilən kimi məvacibini verib onu evə yola

salacaqdır. Bir şərtlə ki, heç kəs heç kesi hirsləndirməsin və hirslənən adama on iki qamçı çəkilsin.

Bəli, oğlan quzu kimi sakit və səbirli idi. Fermerin vəd etdiyi məvacib oğlana çox göründü, ona elə gəldi ki, fermer onu elə salıb barmağına dolayır. Fikrindən keçənləri büruzə verməyən oğlan fermerin şərti ilə razılaşdı, ona qoşulub getdi.

Bahar gəlmişdi, işlər öz qaydası ilə gedirdi. Oğlan çox zəhmətkeş nökər idi və kim olsaydı belə işçisi olduğuna sevinərdi. Amma bu fermer bütün günü oğlana göz qoyur, düşünürdü necə etsin ki, kələk gəlib onun qəpik-quruş məvacibini əlindən çıxartsın. Fermer olduqca pis adam idi, amma arvadı o qədər yaramaz, kələkbaz idi ki, fermer onun yanında toya getməliydi.

Onlar əvvəlcə oğlanla çox yaxşı rəftar edirdilər ki, onu bacardıqca çox işlətsinlər. Yaz işləri sona yaxınlaşanda fermerlə arvadı oğlanı hirsləndirib müqaviləni pozmaq üçün min bir hoqqa çıxarırdılar; oğlana çox yararsız yeməklər verir, gecəyarı səsləyib yuxudan qaldırır, yağışlı havada çöldə işləməyə məcbur edir, ağıllarına gələn hər cür iyrenc işi ona gördürürdülər.

Namərd fermerin bir dəstə dana-buzovu var idi. Danalar tez-tez naxırdan ayrı düşüb yolunu azırdı və biçarə oğlana əmr edirdilər ki, gəzib danaları tapsın. Danalar tapılıb tövləyə salınmayınca oğlan çörək üzünə həsrət qalırdı. Oğlan bütün gününü ac qarına keçirib taqətdən düşürdü.

Hə, bir gün səhər fermer tezdən evdən çıxıb danaları pəyədə gizlətdi və əmr etdi ki, danaları axtarıb tapmayınca səhər yemeyi verilməyəcək.

- Ser, mən onları harada axtarım?

- Mənə dəxli yoxdur. İstəyirsən dağı gəz, istəyirsən dərəni, ancaq danaları tap gətir!

Çox keçməmiş fermerin qulağına gurultulu səs gəldi. Özünü cəld bayıra salıb küləş damın yerlə yekcan olduğunu gördu. Oğlan saman və vələmir dərələrini hara gəldi götürüb atırdı.

- Ay gədə, orda sənin nə itin azıb? -fermer səsini qaldırıb soruşdu.

- Mən dağı-dərəni belə gəzirəm,- oğlan cavab verdi. Olmaya, hirslənmisən?

- Yox, yox! hirslənməmişəm. Duş aşaqı, get çörəyini ye.

Səhəri gün fermer yenə də oğlana tapşırdı ki, danalardan göz-qulaq olsun.

- Danaları çaydan keçirərsən. Ehtiyatlı ol ki, heç birinin ayağı islanmasın. Bax, sənə deyirəm, bircə dananın ayağı islansa, özündən küs!

Oğlan danaları qova-qova çaya apardı. Danalardan birini tutub arxası üstə çemirdi və qıçlarından yapışıb çayın içi ilə sürütlədi. Başı suda qalan dana boğulub öldü. Danaların hamısını suda boğandan sonra oğlan ağasının yanınaa qayıtdı.

- Danaları çaydan keçirtdim, ser,- oğlan dedi.- Qıçlarını havada saxlamışdım. Hamısı qupqurudur. Amma başları yamyaşdır.

Oğlan fermərlə birlikdə çayın sahilinə qayıtdı. Danalar çoxdan murdar olmuşdu.

- Mənə hirsin tutmur ki, ser?

- Yox, tutmur.Get, çörəyini ye.

Səhəri gün elə leysan başladı ki, tut ucundan göyə çıx. Çoxdandır belə yağış yağdığını görən olmamışdı.

- İndi mən bilərəm sənə neylərəm, - fermerin arvadı öz-özünə fikirləşdi və oğlanı səsləyib yuxudan qaldırdı.

- Bilirsən, qorxuram ki, kələmlərimi oğurlasınlar, - qadın dedi.- Ona görə də indi sən bostana getməli və qaranlıq düşənə kimi orada keşik çəkməlisən. Hər baş kələmə göz qoymasan, özündən küs!

Oğlan ac qarına həyətə çıxıb bostana getdi və leysan yağış başından süzülüb dabanından töküldü. Bir az sonra o, qayıdıb evə gəldi. Ərle arvad çaşqın nəzərlərlə bir-birinə baxdı.

- Sənə demədim ki, kələmlərə göz qoy?

- Dediniz, xanım,- oğlan cavab verdi.- Hər baş kələmə göz qoymuşam. Mənə inanın, xanım.

Oğlan stolun arxasında əyləşib bir parça çörəyə yağmaç çəkməyə başladı.

Ər-arvad göz qırpımında bayıra atıldı və gördulər ki, həyətdə nə qədər toyuq-cücə, ördək, qaz ve başqa quş varsa hamısı leş-leşə söykənib. Ev quşlarının hamısının gözü çıxarılmışdı.

Fermer dərhal qoyunları saxladığı küzə tərəf qaçdı. Qoyun-quzu da quşların kökünə düşmüdü. Matı-qutu qurumuş fermer qayıdıb bağçaya girdi və hər baş kələmin üstündə bir göz gördu. Fermer dəli olub çöllərə düşmək dərəcəsinə çatdı, amma arvadı onu sakitləşdirdi.

- Əlbəttə, məvacibi uduzmaq heç də yaxşı deyil,- arvad dedi.- hələ heç qamçının göynərtisini demirəm.

- Əşşi, düz deyirsən, axı, bəs necə edek ki, o bizi qaraçı kökünə salmamış yaxamızı ondan qurtaraq, arvad!

- Gözlə, qoy o, bostana qayıtsın. Elə ki, qayıtdı çəpərin dibində gizlənərəm və ququ quşu kimi səs-küy salaram,- arvad dedi və çəpərin dibində gizlənmək üçün getdi.

- Gedək bala,- fermer dedi.- Gün günorta olub. Gedək torpaqı şumlayıb qurtaraq.

- Ser, göz məsələsinə görə acığınız tutmur ki?

- Qetiyyen! Olan şeydir!

Onlar tarlanı kotanlamağa başladı və çox keçməmiş ququ səsi ətrafı bürüdü.

- Ququ quşu oxuyur ki! Bu il nə əcəb tez gəlib? Deyəsən, sənin evə getmək vaxtın çatıb ha!

- Heç yana getməyəcəyəm. Rədd olsun ququ quşu! Sizin kimi təvazökar bir insanın tarlasını şumlamamış mən evə gedə bilmərəm.

Oğlan bu sözləri deyib, yerdən böyük bir daş parçası götürdü və səs gələn yerə tolazladı. Mahnı səsi dərhal kesildi.

Fermer tez çəpərin dibinə qaçdı. Arvad əl-ayağını üzadıb çul düşmüşdü. Ölümcül vəziyyətde idi. Fermer haray-həşir saldı va qonşular tökülüşüb gəldi. Qadını götürüb evə apardılar. Keşişin və həkimin dalınca adam göndərdilər.

- Deyəsən, mənə qəzəbiniz tutub, ser?

- Tutmasın bəs neyləsin?! Ay iblis balası iblis! Məni dilənçi vəziyyətinə salmısan! Arvadımı o dünyalıq etmisən! Mən ömrümdə belə hirslənməmişəm. Oğlana da elə bu lazım idi. Müqaviləni pozan fermer oğlanın haqqını ödəyib qamçının ləzzətini dadmaq üçün şalvarını soyunmağa məcbur oldu. Belə nəql

edirlər ki, oğlan qamçı ilə fermerin yanlarına şappıldadıb ləzzət almış, ürəyindən tikan çıxmış, bütün ağrı-acılarını unutmuşdu.

QOZBEL LUZMOR

Biri vardı, biri yoxdu, qədim zamanlarda zirvəsi həmişə sis-dumanlı olan Qalti dağının dibindəki bollu-bəhrəli Aherlo dərəsində yoxsul bir kişi yaşayırdı. Belində iri donqarı vardı. Sanki onun gövdəsini dürməklayib çiyinləri üstünə qoymuşdular. Boynu içəri batmışdı. Yöndəmsiz uzun çənəsinin ağırlığından başı bir qayda olaraq aşağı sallanırdı. Odur ki, əyləşəndə çənəsini dayaq üçün dizinə söykəyirdi.

Zavallı qozbel ziyankar adam deyildi. Heç nə xətrinə dəyməzdi. Kənd adamları onunla üz-üzə gələndə utanıb xəcalət çəkirdilər, çünki qozbelin vüçudu o qədər eybəcər idi ki, onu güclə adama oxşatmaq olurdu. Bundan istifadə edən bəzi xabis adamlar, yazıq qozbel haqqında müxtəlif şayiələr uydurub yaymışdılar.

Deyilənlərə görə, qozbel türkəçarə ilə məşğul olur, cadügərlik edirmiş. Mən bir şeyi dəqiq bilirəm ki, küləş papaq va qamış sabatlar toxumaqda mahir ustaymış. Yaramaz üçün çörək pulunu da bu yolla qazanırmış.

Həmişə naxışlı gözəl papaqlar qoyduğu, şlyapasına üskükotu taxdığına görə Luzmor ləqəbi verilmiş qozbel, toxuduğu şeylər üçün hamıdan çox qazanırdı. Çox güman ki, elə buna görə də bəzi üzdəniraq ağzıgöyçəklər paxıllıqdan onun haqqında cürbəcür əhvalatlar toqquşdurub aləmə faş etmişdilər.

Uydurmalar öz yerində, bir dəfə Luzmor axşam üstü yaraşıqlı Kahir şəhərindən Kappaqa qayıdırdı. Belindəki iri donqara görə asta-asta irəliləyən Luzmor, Nokqrafton yolunun sağındakı su basmış köhnə çuxura çatanda gün batıb şər qarışmışdı. Yorulub əldan düşmüş Luzmor, hələ çox yol getməli olacağını beynində götür-qoy edib dincini almaq üçün çüxurun yanında oturdu. Başını qaldırıb qəmgin-qəmgin aya baxdı. Qaranlıqlar şahzadəsi dünyaya nur çiləyirdi. Birdən adamın qəlbini ehtizaza gətirən qeyri-adi bir

melodiya eşidildi. Luzmor diqqətlə qulaq asmağa başladı. Ona elə gəldi ki, heç vaxt bu cür ecazkar musiqi eşitməyib. Mahnı oxuyan səslər çox idi, lakin səslər çox qəribə tərzdə bir-birinə qarışıb elə ahəngdar avaz yaradırdı ki, elə bilirdin, oxuyan bircə səsdir. Arabir səslər kəsilib fasilə olur, sonra yenidən məlahətli musiqi başlayırdı.

Ən cüzi xalları belə nəzərdən qaçırmaq istəməyən Luzmor nəfəsini udub çox diqqətlə qulaq asırdı. Artıq ona açıq aşkar məlum idi ki, oxuyan səslər su basmış çüxurdan gəlir. Əvvəlcə Lüzmoru əfsunlayıb heyran edən «Da Luan, Da Mort» misrasından ibarət olan Mahnı, axırda onu bezikdirdi. Lüzmor eşitdiyi Harmaya «Aqus Da Dardin» misrasını əlavə edib zümzümə etməyə başladı.

Çuxurdakı pərilər Harmaya edilmiş bu əlavəni eşidib çox mamnun oldular. Dərhal bəni-insanı öz aralarına gətirməyi qərara aldılar, çünki Lüzmor onlardan da məharətli musiqiçi idi. Bəli, beləliklə Lüzmor burulğan sürətilə pərilərin dəstəsinə qatıldı. Ecazkar musiqinin sədaları altında saman kimi burula-burula çüxura düşən Lüzmor gözlərinə inanmadı. Onu böyük təmtəraqla qarşılayıb musiqiçilər dəstəsinin yuxarı başında əyləşdirdilər. Kənizlər pərvanə kimi başına dolanırdılar. Hamı onun üçün əldan-ayaqdan gedirdi. Bir sözlə, Lüzmora elə hörmət edib ehtiram göstərirdilər ki, sanki o, ölkədə ən ləyaqətli adam idi. Sonra pərilər bir-birinə pıçıldaşıb ədəblə Lüzmora təzim edəndə o sıxılıb utanır, daxilən özünü narahat hiss edirdi. Nəhayət pərilərdən biri gəlib Lüzmora yaxınlaşdı və bu sözləri dedi:

Luzmor, Luzmor, bəri bax,
Ağlayırsan sən nahaq.
Belindəki donqarın,
Yerində yoxdur daha.
Əyil yerə özün bax,
Görürsənmi, ay axmaq!?

Pəri sözlərini yenicə qurtarmışdı ki, zavallı Luzmor özünü olduqca yüngül və bəxtiyar hiss etdi. Ona elə gəldiki, bircə sıçrayışla hoppanıb ayın ətəyindən

yapışa bilər. Belindəki donqarın şappıltısı ilə yerə düşdüyünü görən Luzmorun qəlbini anlaşılmaz şən hisslər bürüdü. Ehtiyatla başını yuxarı qaldırıb yan-yörəsinə baxdı. Qorxdu ki, başı tavana dəysin. Ortasında dayandığı möhtəşəm salona heyran-heyran tamaşa etməyə başladı. Gözləri önündə hər şey getdikcə daha gözəl göründü. Salon məstedici ətirlə doldu. Başı gicəllənib gözlərinə qaranlıq çökdü. Bir az sonra Lüzmor dərin yuxuya getdi. Oyanıb gözlərini açanda gün günorta olduğunu gördu. Günəş zərrin şəfəqlərini ətrafa səpir, quşlar qəlboxşayan səslə cəh-cəh vururdular. Nokqrafson çuxurunun yanında uzanıb qalmış Luzmorun dörd yanında inəklər və qoyunlar sakit-sakit otlayırdılar.

Allaha dua etdikdən sonra, Luzmor əlini belində gəzdirdi. Belindəki donqardan əsər-əlamət qalmamışdı. Özünü qürurla nəzərdən keçirdi. Qaməti düzəlmiş, şumal oğlan olmuşdu. Bundan başqa, əynində təzə libas var idi. Luzmor bu neticəyə gəldi ki, pərilərin işidir.

Kappaq yolunu əlinə alıb gedən Luzmor, çox qıvraq hərəkət edir, addımbaşı elə atılıb-düşürdü ki, elə bil, bütün ömrü boyu mahir rəqqas olmuşdu. Donqarı yoxa çıxmış Luzmoru heç kəs tanıya bilmədi. Xarci görünüşü dəyişsə də, Luzmor olduğunu sübut etməkdən ötrü çox and-aman etməli oldu.

Əlbəttə, çox keçməmiş Luzmorun donqar əhvalatı hər yerə yayıldı və eşidənlərin əli heyrətdən üzündə qaldı. Bütün mahalda məmə yeyəndən pəpə yeyənəcən hamı bu məsələdən danışırdı.

Bir səhər Luzmor məmnun halda astanada oturmuşdu ki, bir qoca qarı ona yaxınlaşıb Rappaqa gedən yolu xəbər aldı.

- İzaha ehtiyac yoxdur, nənəcan,- Luzmor dedi.- Çünki Kappaq elə buradır. Sizə kim lazımdır?

- Mən buraya Vaterford vilayətindəki Desi kəndindən gəlmişəm. Luzmor adlı bir nəfəri axtarıram. Eşitmişəm ki, pərilər onun donqarını götürüb. Mənim rəfiqəmin də belində donqarı olan başı batmış bir oğlu var. Deyirəm bəlkə, Luzmor sirrini mənə açar, onun da beli düzələr. Yoxsa, belindəki donqar oğlanın ölümünə səbəb olacaq. Gəlişimin səbəbini açıb sənə söylədim, ay oğul.

Nə bilmək olar, bəlkə, o sirri öyrənə bildim.

Təbiətən həmişə xeyirxah olan Luzmor başına gəlmiş sərgüzəşti yerli-yataqlı qarıya nəql etdi. Pərilərin şərqisinə artırdığı misradan, donqarının yerə necə düşməsindən, təzə libasından söhbət açdı.

Qəlbən rahatlanıb özünü gümrah hiss edən qarı minnətdarlıq edib, çıxıb getdi. Vaterforda - rəfiqəsinin evinə çatan kimi, qarı Lüzmordan öyrəndiklərinin hamısını Bircə-bircə ona söylədi. Rəfiqələr sir-sifətindən biclik yağan, tündməcaz qozbeli maşına mindirib Rappaqa yola düşdülər. Yolun uzun, seferin uzaq olması rəfiqələri qorxutmurdu. Axı, uşağın qozbəli düzələcəkdi! Neçə kənd, neçə şəhərlər kecib qaranlıq düşəndə Nokqrafton çuxuruna çatdılar. Qozbel oğlanı düşürdüb çuxurun yanına qoydular.

Adı Cək Madden olan qozbel oğlan orada bir müddət oturduqdan sonra qulağına çuxurun içindən çox məlahətli mahnı səsi gəldi.

Gözəldir vaxt, gözəldir gün
Lap gözəldir daha bir gün.

Bu sözlərlə başlanan mahnı bitib-tükənmək bilmirdi. Donqarından yaxa qurtarmaq üçün ürəyi uçan Cək Maddenin pərilərin oxuyub qurtarmasını gözləməyə hövsələsi çatmadı. Pərilər mahnının misralarını yeddi dəfə təkrar edəndən sonra, səbir kasası dolub-daşan Cək qafiyəyə və melodiyanın ahənginə məhəl qoymadan səsini başına atıb nəğmənin sonuna bir misra da artırdı: «Bir gün gözəldirsə, iki gün ondan da gözəldir» və fikirləşdi ki, Luzmora bir dəst paltar vermişdilərsə, ona iki dəst libas verəcəklər.

Cək sözünü qurtaran kimi onu havaya qaldırıb zərblə çuxura çırpdılar. Sonra pərilər Cəkin başına toplaşıb qözeblə qışqırışıb fəryad qopartdılar: «Bizim nəğməni kim korladı? Melodiyanı kim zay etdi?» Yuxarı başda dayanmışI pəri Cəkə yaxınlaşıb dedi:

Ey Cək Madden, Cək Madden,
O *nə sözdü sən dedin.*
Qəsirdəki nəğmələr

Büründü qəm, kədərə.
hayıf allıq biz indi
Qoşa donqar sənindi.

Pəri sözünü qurtaran kimi qoldan zorlu pərilər Luzmorun donqarını götürüb biçarə Cəkin donqarının üstünə qoydular. Donqar Cəkin belinə elə möhkəm yapışdı ki, sanki ən mahir dulgər onu yüz əllilik mismarla mıxlamışdı. Bundan sonra pərilər Cəki təpikləyib qəsirdən bayıra saldılar. Rəfiqələr Cəkdən hal-əhval tutmaq üçün çüxurun yanına gələndə onu ölmüş vəziyyətdə tapdılar. Çuxurun yanında tir-tap olmuş Cəkin donqarı qoşalaşmışdı. Bəli, rəfiqələr heyrətlə bir-birinə baxdılar, amma ağzlarını açıb bir kəlmə də kəsmədilər. Qorxdular ki, onların da belinə donqar çıxar.

Dilxor olmuş rəfiqələr, bədbəxt Cəki götürüb kor-peşiman evə gətirdilər. Uzaq yolun yorğunluğuna və donqarların ağırlığına tab gətirə bilməyən Cək, tezliklə dünyadan köçüb ömrünü sizə bağışladı. Belə nəql edirlər ki, Cək ölənəcən Pəri nəğməsinə qulaq asmaq istəyənləri yamanlayar, allahın qəzəbinə düçar olmalarını arzulardı.

TOM FİTSPATRİK VƏ CADUGƏR

Keçmiş zamanlarda Liffey mahalının Marristaun kəndinda varlı-hallı bir fermer yaşayırdı. Fermerin böyük oğlunun adı Oliver Tom Fitspatrik idi. Söyləyəcəyim bu macəra Tomun başına gələndə onun iyirmi doqquz yaşı təzəcə tamam olmuşdu. Tom ağıllı, xoşrəftar, şux qamətli, yaraşıqlı və Kilder qraflığının canlara dəyən oğlanlarından biri idi.

Gözəl bir yay günü Tom çöldə-düzdə avaralana-avaralana buğdası biçilmiş zəminin güney tərəfinə gəlib çıxdı.

«Görəsən, küləş dırmığı harda olar? - Avara-avara gəzənlərin əlindən dırmıq tapmaq olar? Tapa bilsəydim, zəmiyə səpələnmiş küləşi yığıb dərz bağlayar, tökülüb zəmidə qalmış sünbülləri başaq edərdim. Necə ki, hava soyumayıb bu işi görsəm yaxşı olar.» Tom öz-özünə fikirləşirdi ki, qəfildən qulağına xışıltılı səs-küy dəydi. Hənirti zəmidən, bir az aralıdan gəlirdi.

- Allah, sən özün bəndəna kömək ol,- Tom dilləndi. İlin bu vaxtı arıquşu

cikkiltisi eşidəndə təəccüblənməyim, neyləyim?

Beləliklə, Tom barmaqlarının uçunda oğrun-oğrun irəliləyib ətrafa göz gəzdirdi görsun ki, səs-küy salan nədir. Onu qara basmadığına əmin olmaq istəyirdi. Bir az sonra səs-küy kəsildi. Tom diqqətlə kol-kosun arasını nəzərdən keçirtdi. Birdən nə görsə yaxşıdır? Baxıb belimin arasında təxminən beş litrlik qəhvəyi bir küp gördu. Bir an sonra Tomun gözünə bapbalaca sısqa bir ixtiyar qoca göründü. Qocanın başında şuşpar papaq, yaxasında bər-bəzəkli dəri dölük vardI. O, küpün yanına taxta kətil qoyub üstünə çıxmışdı. Qoca əlində tutduğu xırdaca saxsı dolçanı küpün içinə salıb doldurdu və kətilin yanına qoydu. Sonra qoca kətilin üstündən düşüb günün kölgəsində oturdu və özünə yaraşan yöndəmsiz bir başmğa daban vurmağa başladı.

- Hə, ulu Tanrıya and içirəm!- Tom öz-özünə dedi.- Cadügərlər haqqında çox əfsanələr eşitmişəm. Amma bircə allah bilir ki, heç vaxt onlara inanmamışam. Bəs, gözümlə gördüyümə nə deyirsiniz? Bilə-bilə işə getsəm, belə çıxır ki, mən dəliyəm. Rəvayətə görə cadugəri görən şəxs gözünü ondan çəkməməlidir, çəksə onlar qeyb olurlar.

Siçan görmüş pişik kimi gözünü qocadan çəkməyən Tom xəlvəti geri çəkildi. Arxadan sakit-sakit qocaya tərəf yaxınlaşıb:

- İşiniz avand olsun, möhtərəm qoca,- dedi.

Qoca başını qaldırıb Toma təşəkkür etdi.

- İstirahət günu işləməyinizə səbəb nədir?

- Bu mənim öz işimdir, sənə daxli yoxdur,- qoca qısa cavab verdi.

- Yaxşı, bəlkə, küpda nə olduğunu deyəsən?

- Aha, məmnuniyyətlə deyərəm. Əla pivə var küpdə.

- Pivə! Allah eşqinə, söylə, qoca, pivəni hardan alıbsan?

- Necə yəni hardan almışam? Özüm düzəltmişəm, oğul, mənə inana bilərsən. De görüm, nədən düzəltmişəm pivəni?

Allah bilir. Zənnim məni aldatmırsa, səmənidən düzəltmisən, elə deyilmi?

- Tapa bilmədin, oğul, süpürgə kolundan düzəltmişəm.

- Aaa, süpürgə kolundan?- Tom şaqqanaq çəkib güldu. Yəni mən o qədər gicəm ki, buna inanam?

- Özün bilərsən,- qoca cavab verdi.- Mən sözün düzünü sənə dedim. Danimarkalılardan xəbərin varmı?

- Əlbəttə, var. Darrini zəbt etmək istəyən əsgərləri nəzərdə tutursan? Bizimkilər yaxşıca əzişdirib onları, hə?

- Hım,- sısqa qoca quru-quru dilləndi.- O əhvalatdan bildiyin elə budur? Bala, onlar burda vuruşanda bizə süpürgə kolundan pivə düzəltmək də öyrədiblər. O vaxtdan bəri mən bu sirri unutmamışam.

- Bəndənizə tamına baxmaq üçün bir az pivə verərsinizmi?

- Bilirsən nə var, cavan oğlan, mənimlə çənə vurub zəhləmi töküncə get atanın zəmisindən muğayat ol. Cəfəng suallarla məni təngə gətirmə. Bir bax, sən indi boş-boşuna vaxt keçirib burda küllənirsən, inəklərsə doluşub zəmiyə, taxılı yerlə-yekcan etdilər.

Qocanın sözlari Tomu çox təəccübləndirdi. O, çevrilib baxmaq istəyirdi ki, hər şey yadına düşdü. Qorxdu ki, qocanı gözdən itirsin. Odur ki, qocanı süpürləyib möhkəm-möhkəm əlindən tutdu. Tələsik yerindən tərpənəndə vurub küpü aşırdı və pivənin hamısı yerə calandı.

Beləliklə, Tom pivənin dadına tamarzı qaldı. Hirslənib özündən çıxdı və dedi ki- qoca ona pul verməsə, başına olmazın oyunlar açacaq. Hikkəsindən gözlərinə qan daman Tom elə əsib-coşdu ki, qocanın canına vəlvələ düşdü.

- Yaxşı, bala, gedək mənimlə. Bir-iki zəmi keçəndən sonra sənə bir küpə qızıl göstərəcəyəm.

Bu minvalla yola düşdülər. Tom cadügərdan bərk-bərk yapışıb gözünü ondan çəkmirdi. Yolun damarını qırıb çoxlu məsafə qət etdilər və nəhayət, gəlib xaçgülu bürümüş nəhəng bir düzə yetişdilər. Cadügər böyük bir xaçgülünə işarə edib dedi:

- O xaçgülünün dibini qazsan bir küpə qızıl pul tapacaqsan.

Çox tələsdiyi üçün bel götürmək heç Tomun ağlına gəlməmişdi. Fikrindən keçdi ki, qaçıb evdən bel gətirsin. Yeri səhv salmamaq üçün qırmızı qaytanlarından birini çıxardıb xaçgülünə sarıdı.

- Güman edirəm ki,- cadugər nəzakətlə dilləndi,- daha mənlik bir iş yoxdur, elə deyilmi?

- Xeyr, yoxdur,- Tom cavab verdi.- İstəsən, çıxıb gedə bilərsən. Get, allah sənə kömək olsun! Hara getsən, görüm səni xoşbəxt olasan!

- Elə isə, əlvida, Tom Fitspatrik, tapacağın qızılları həmişə xeyir işlərdə xərcləyəsən.

Bəli, Tom qaça-qaça qaranəfəs evə çatdı. Bel götürüb sürətlə xaçgülu bürümüş düzə qayıtdı. Oraya yetişib qırmızı qaytanlı xaçgülünü görmədikdə gözü kəlləsinə çıxdı. Göz gəzdirib ətrafa nəzər saldı. Xaçgülülərin hamısına qırmızı qaytan bağlanmışdı. Bütün sahəni qazmağın xeyri yox idi, çünki sahə ən azı on hektap olardı.

Beləliklə, Tom kor-peşman beli çiyninə atıb evə qayıtdı. Ömrünün son günlərinəcən Tom, bu hadisəni xatırladıqca cadugərə ürəkdən qarğış edib lənətlər yağdırdı.

MƏN ADASI NAĞILLARI

NİKESSEN HOVUZU

Biri vardı, biri yoxdu, keçmiş zamanlarda Finlo Korlet adlı bir kəndli vardı. Finlo arvadı Öliş və uşaqları ilə Lonan mahalındakı Qlen Poy fermasında yaşayırdı. Fermaya söz ola bilməzdi. Mal-qara üçün gözəl otlaqları, qoyunlar üçün yaylaqları və dərədə axar çayı olan xudmani bir ferma idi.

Finlonun üç uşağı vardı. Uşaqlardan böyüyü Robin fermada atasına kömək edirdi. Ortancıl qız Nessi anasına kömək edib inək sağırdı. Toxuculuq işini bacarır, pambıq didib yorğan sırımaq əlindən gəlirdi. Ailənin son beşiyi Darradey balaca qız olsa da, yumurtaları hindən yığar, buzovlara ot verər, «Xallı» adlı inəyi sevə-sevə sağardı. Qalan vaxtı çoban iti Mona ilə oynayardı, çünki mən ömrümdə Darradeylə Mona kimi möhkəm dostlar görməmişdim. İşdir, sizə rast gəlibsə, mənə də göstərin. Düzü Finlo və Öliş uşaqlar arasında fərq qoymayıb hamısına bir gözlə baxsalar da, Darradey daha çox xoşlarına gəlirdi. Darradey şən, gülərüz bir qız idi, zarafatı çox sevirdi və bütün günu

dodaqaltı zümzümə edirdi.

İlk vaxtlar, Finlonun kefi kök, damağı da çağ idi. Qoyunları sağlam, inəkləri gümrah idi. Məhsulu da başından aşıb-daşırdı. Fermanın bircə eybi vardı. Mahalda bunu bilməyən tapılmazdı. Dərədəki çayın ortasında bir hovuz vardı. Hovuzun adını Nikessən qoymuşdular. Ətrafını ot basmış qaranlıq hovuz gün üzünə həsrət idi, çünki qızılağac, tozaqacı, göyrüş və əncir ağaclarının budaqları hovuzun üzərində çətir kimi yayılmışdı. Ətrafda bir dənə də bar verən ağac gözə dəymirdi.

- İnəkləri hovuza yaxın aparma, Finlo,- qonşular həmişə xəbərdarlıq edirdi.- Dərədə möhkəm çəpər qoy. Hovuz qəribə hovuzdur ha! Suyu yayın cırhacırında da buz kimi olur. Balıqçılar da hovuza yaxın düşməkdən qorxurlar. Düzu, Finlo, mən də eşitmişəm ki...

Qonşusunun nə dediyini Finlo eşitmədi, çünki qulaq asmırdı. Otlağı hasarlayıb inəkləri hovuzdan ağalı saxlayan Finlo qonşuların məsləhətinə fikir vermirdi.

- Əşşi, danışıb, danışıb susacaqlar da,- o deyərdi. Amma vliş qonşusunun söylədiyi cehp dolu əhvalata mağaqla qulaq asardı. Aylı geçələrdə uzaqlardan qulağına musiqi və mahnı səsi dəyən kimi vliş təlaş dolu səslə deyərdi:- Səs Nikessen hovuzundan gəlir! hovuz sahibi çıxıb bizə göz qoyur görə un ki, nə edirik.

Finlo vlişin sözlərinə ürəkdən gülər və deyərdi:- Ay arvad, ağlın olsun, camaat kefdən qayıdır. Nə yapışmısən Nikeesenin ətəyindən!

Ərinin dedikləri vlişin şübhələrini azaltmadı.

- Bilirsən, Nikessen hovuzunda qəribə məxluqlar var.

Hovuzun icində çinar boylu bir kişini görənlər olub. Kişinin par-par parıldayan qızılı saçları varmış, əzizim. Heç napahat olma, başqalarını da görüblər.

Finlo dedi:

- Qulaq asın camaat çox şey çərənləyir.

Günlər ötüb geçdikcə Finlo hovuzun yaxınlığındakı örüşdən az-az istifadə edirdi. Necə oldusa bir gün Finlonun yolu hovuzun yanından düşdü.

İstifadəsiz qalmış örüşdə otun bir qarış qalxdığını görən Finlo heyfsilənib öz-özünə fikirləşdi ki, bu cür otun əbəs yerə quruyub zay olması insafsızlıqdır. Evə qayıdıb arvadına dedi:

- Alapaça buzovlardan altısını aparıb salacağam hovuzun yanındakı otlağa. Oranın çəpəri etibarlıdır. Buzovlağa xətər gəlməz.

Beləliklə, səhəri gün Darradey buzovları qova-qova gətirib otlağa saldı və çəpərin girəcəyini bərkitdi.

Təxminən bir həftə hər şey ez qaydasında oldu. Sonra bir gün mayın əvvəllərində Finlo uşaqlarını ezü ilə bazağa apardı. Bazardan gec qayıtdılar. Axşam düşmüş, alamiçgn bürümüşdü. Odur ki, Finlo atı asta-asta sürürdü. Gəlib evə çatan kimi Finlo Darradeyə dedi: .

- Get, danaları hayla gətir, ay mənim ciyərpağam. Biz

Dumən qarışmış qağanlıqda Darradey buzovları səsləməkçün otlağa tərəf getdi.

- Ağ dana, ala dana, ağca dana!- Darradey həmişəki kimi danaları səslədi. Qızın səsini eşidən danalar soncuqlaya-soncuqlaya evə tərəf Götürüldülər. Danalardan biri yox idi.

- Ağ dana, ala dana, ağca dana! - Darradey yenidən səsləndi, amma dana gəlmədi. Beş dananı sürüb evə gətirdi və fikirləşdi ki, qalan dananın arxasınca bir azdan qayıdar.

Finlo dedi:

- Ay uşaqlar, durun dananı tapmaqda Darradeyə siz də kömək edin.

Uşaqlar hər yeri ələk-vələk edib itburnu və yemişan kollarının ağasını da gəzdilər, ancaq itmiş dananı tapa bilmədilər.

- Heyf o danadan! Danaların gözü idi! - uşaqlağa köməyə gəlmiş Finlo dedi.- İtən təpəl danadır. Çox qəribə işdir.

Görəsən, dana göyə çıxıb? Balam, çəpərdə dağılmış yep də yoxdur! Hovuzun yanındakı otluq da gəzilməyib. heç bir iz görünmür.

- Axı, biz sənə demişdik ki, heyvanları Nikessen hovuzundan uzaq saxla,- hadisədən xəbər tutan qonşular deyindilər.

- Hovuzun buraya nə dəxli var!- Finlo köntoy-köntoy cavab verdi.-

Nikeesenin dana ilə heç bir əlaqəsi yoxdur!

- Madam ki, sən düz deyirsən, onda dananı tap! Daşı ətəyindən tök, Finlo, dana artıq bu dünyada yoxdur. Olsaydı, tapa bilərdin də!

Bu hadisədən bir-iki gün sonra Finlo arvadına dedi:

- Mən razı olmağam ki, danamız izsiz-tozsuz yoxa çıxsın. Ancaq hovuzun yanında da yamanca ot göyərib qalxıb. Gəlsənə, sabah Darradey danaları dərəyə aparıb axşamacan onlağa göz qoycyn, hə!

- Heç vaxt! Səfeh-səfeh danışma!

- Nə üçün? Darradeyi cin apağar? Arvad, qız evin böyründə olacaq da, Mona da yanında!

Daş atıb başını tutan vliş, əvvəl-əvvəl heç ərinə qulaq asmaq belə istəmədi, lakin çox çək-çevirdən sonra Darradey and-aman edib söz verəndə ki, danaları hovuzdan uzaqda otağacaq və bir şey baş versə, o saat qaçıb atasına xəbər verəcək, yumşalıb razılaşdı.

Səhər tezdən Darradey Mona ilə birlikdə danaları qova-qova örüşə apardı. Danaları gözdən qoymayan Darradey ağabir vaxt tapıb çay sahilində novruzkülü axtarır, pöhrəlikdə Mona ila gizlənqaç oynayır, çayın hovuzdan uzaq yeplərində avar çəkib vaxtını xoş geçirirdi.

Bu minvalla günlər ötüb geçdi. Dərədəki novruzkülülər ömrünü zəngçiçəklərə bağışladı. Sonra sarımtıl yabanı qızılgüllər pardaqlanıb dərəni məstedici ətirlə doldurdu. Bir dəfə Darradey günortadan gün əyilməmiş danaları yığıb evə gətirdi. Qulplu sapılcada yağlı kökələr bişirən vliş qızını görüb təcüüblə soruşdu:

- Nə üçün belə tez qayıtdın?

- Mənə elə gəldi ki, məni çağırırsan.

- Xeyr, qızım, mən səni çağırmamışam.

- Axı, mən sənin səsini eşitdim. Deyirdin: «Evə gəl, Darradey, sən mənə lazımsan».

- Yox, əziz balam,- vliş qəribə baxışlarla qızını süzərək dedi.

Vallah, səni çağıran mən olmamışam. Amma qayıdıb evə gəlməkdə düz iş görübsən.

- Hələ çox tezdir, anacan, danaları yenə da örüşə qaytarımmı?

- Yox, yox, əlbəttə yox! Sal onları tövləyə! Qoy qalan vaxtlarını orada külləsinlər. Bilirsən nə var, qızım? Sənə bir şey demək istəyirəm. İşdir, hovuzun yan-yörəsindən adını çəkib səni çağıran olsa, heç vax cavab verməməlisən! Eşidirsənmi, heç vaxt! Dilinə «buradayam», kəlməsini gətirmə! Qurbanın olum, körpə balam, indi mənə söz ver ki, sözlərimə əməl edəcəksən. Yoxca sən örüşdən qayıdıb gələnəcən mən ürəyimin içini yeyib qurtağaram.

Darradey and-aman edib dönə-dönə söz verdi ki, anasının nəsihətini sırğa edib qulaqlarından asacaq. Bundan sonra vliş sakitləşib beynini qağa fikirlərdən azad etdi. Hə, əzizlərim, quş qanadlı yay günləri ötüb geçdi. Darradey bir axşam, evə ğayıtmağ vaxtı çatsa da, Darradeydən əsər-əlamət yox idi. Qızı gələn yollağa baxmaq üçün qapıdan boylanan vliş dağdan sürünüb dərəni bürümüş dumanı gördü. Qatı dumanın rütubətli nəfəsini üz-gözündə hiss etdi. Çay süfrəsi açılmış stolun yanına qayıdan vliş ocaqda qızağan gözlərə, buxarının üstündəki titrək şam işığına göz gəzdirib təskinlik tapdı. Qəfildən qapının ağzında şikayətli it hürüşü eşidildi. Darradeydan ayrı düşəndən bəri bütün yolu hürə-hürə gələn Mona idi. - Finlo! Robin! Nessi! - vliş hapay saldı.- Gedək Darradeyi axtağaq!

Gördükləri işi atıb örüşə tərəf üz qoydular. Qaçıb hovuzun yanına çatdılar.

- Darradey, Darradey, hağadasan, Darradey!- qışqırdılar, lakin qızı tapa bilərdilər ki, bilmədilər.

- Finlo, sənə deyəndə ki,- qonşular dilə gəldi,- Nikessen hovuzunda izsiz-tozsuz yoxa çıxıb dünya üzünə həcpət qalanlar çox olub, bizi ələ salıb gülürdün. Özünü hamıdan ağıllı hesab edirdin. İndi necəsəe? Bil va agah ol ki, qızını hovuzdakı əcayib məxluqlar aparıb. Bir az bundan əvvəl də Nanı apardıqları kimi. Darradeyi axtarmağın faydası yoxdur.

Bu söhbətlər zavallı ananın ağlına batmadı.

- Axı, qız mənə söz vermişdi,- vliş dedi.- Özü də Darradey həmişə və'dinə əməl edən qız olub. Onu hapaya va necə aparıblarsa, əlimin içi kimi bilirəm ki, öz xoşu ilə getməyib. Ay camaat, balamı ovsunlayıb məkrlə aparıblar! Çalışıb

onu geri qaytarmalıyıq. Bu ümiddən əlim üzülsə, ürəyim partlar, ilahi!

Bu minvalla dalbadal əki gecə-səhərəcən otlaqda pusquda durmuş ərlə arvad nevbə ilə qızlarını səslədilər:

- Darradey, Darradey, Darradey!

Bu çağırışlar iki gün davam etdi, ancaq Darradeydən xəbər-ətər çıxmadı. üçüncü gün cəhəp tezdən mətbəx stolunun başında boğazından çörək keçməyən vlişin beyninə qəfildən bir fikir gəldi. Cəld ayağa qalxıb plaşını əyninə geçirtdi, şlyapasını başına qoyub yola çıxmağa hazırlaşdı.

Finlo xəbər aldı:

- Hapa gedirsən?

- Müdrik falçının yanına gedirəm.

- Falçının yanına? Sənin orda na işin var?

- Qayıdanda deyərəm.

Öliş yola düşdü. Yolun dabanını qırıb falçının evinə çatdı.

- İçəri gəl, Korlet xanım,- falçı nəzakətlə dedi. Mən biləni, dərdin var. Bəs bilmirdin ki, balası Nikessen hovuzunun yanında Tənha gəzib-dolaşan ana bəlaya düşə bilər?

Doğrudan da kişi mahir falçı idi.

Darradeyi tapıb geri ğaytarmağı qət etmiş vliş falçının tikanlı sözlərinə məhəl qoymadı.

- Falçı baba, bizim uşaq boş-boşuna hovuzun yanında avaralanmayıb. Mənim qızım bütün yayı hovuzun yanında danaları otarıb, onları sağ-salamat saxlayıb. Həmişə də söz verirdi ki, hovuza yaxın getməyəcək. Hobuzdakı məxluqlar balamı tovladıb aparıblar, inanın mənə! Bu sözləri eşidən falçı yükün üstündən sürüşüb düşdü və həlim səslə dedi:

- Əyləş, əyləş, xanım Korlet, hadisəni mənə olduğu kimi söylə.

Ölişin nəql etdiyi əhvalatı diqqətla dinləyən falçı xəbər aldı:

- Mən sənə necə kömək edim, xanım?

- Sizi inandırıram ki, Falçı baba, hovuzun yanında keşik çəkən zaman gözəl sözlər tapıb deyə bilsəydim, çox güman ki, Darradeyi qaytarıb mənə verərdilər. Əfsus ki, necə sözlər demək lazımdır, bilmirəm. Mahz, ona görə də

sizin yanınıza iltimasa gəlmişəm ki, mənə kömək əli uzadasınız. Aha, belə-belə işlər,- falçı dilləndi.- deyərəm nə etməlisiniz. Dərəya çən düşan kimi Finlonu da götürüb hovuzun həndəvərinə gedib göz-qulaq olun. Kol-kosun ağasında sonra falçı vlişə söyləməkçün xoş sözlər öyrətdi. Vliş evə qayıdan günün axşamı duman aləmi bürüdü. Falçının sözlərinə əməl edib Finlo ilə birlikdə hovuza tərəf yollandı. Ağacların dalında gizlənib gözləməyə başladılar. Əvvel-əvvəl həp yan sükuta qərq olmuşdu. Hətta, ala çullutlar də dumanı görüb səslərini kəsmişdi. Xeyli vaxtdan sonra qulaqlarına səs gəldi. Məlahətli səslər, musiqi ve Mahnı sədaları bir-birinə qarışdı. Sonra hovuzdan məchul varlıqlar peyda olub üzə qalxdı və çayın sahilinə doğru hərəkət etdilər. Lap axırda hovuzdan çıxan məxluq hamıdan uca boylu idi. Sarışın saçları qızıl kimi bərq vururdu. O, Darradeyin əlindən tutub aparırdı. vliş qızını görən kimi səsini başına atıb:

- Darradey, Darradey, ömpüm-günüm, yanıma gəl, körpə quzum. - dedi. - Ey ulu məxluqlar, rica edirəm ki, qızımı ğay tağasınız!

Dərhal kol-kosun xışıltısı, hovuz cuyunun şappıltısı eşidildi. O dəqiqə səs-küy, musiqi və mahnı sədaları xırp kəsildi. Məxluqlar yoxa çıxdı. hovuzun yanındakı bir talada Darradey təkcə qaldı. vliş irəli atılıb qızını bağrına basdı və:

- Darradey, gözümün işığı, pərvərdigağa, sənə şükür! Balam sağdır!- deyə bildi.

- Anacan! Atacan! Mən hardayam? - göz yaşını sel kimi axıdan Darradey yuxudan oyanan adamlar kimi dalğın, məhzun baxışlarla xəbər aldı.

- Sağ-salamat əyləşmisən evimizin mətbəxində, qəşəng qızım!- vliş cavab verdi.

Darradey boylanıb ətrafına göz gəzdirdi. Yavaş-yavaş baxışları duruldu. Anasını, atasını, Nessini və Robini görən Darradeyin gözləri sevincindən alışıb-yandı. Hamı Darradeylə birgə şam etməyi gözləyirdi. Mona şadlığından atılıb-düşür, «ham-ham» edib it səsilə oxuyurdu.

- Sizdən ağalı düşəndən bəri fikrim-zikrim siz olubsuz! Əzizlərim, sizi unuda bilməmişəm!

- Anan qurban, çöreyini ye,- vliş dedi ve Darradey bir parça çörək yeyib,

bir az da sud içdi. Dərhal solğun yanaqlarında qan nişanəsi görünməyə başladı.

- Anacan, hovuzdakı məxluqlar məni hipnoz edib hiylə ilə aparıblar.

- Düz deyirsən, quzu bala, bu işlərdən xəbərim var.

Mən, anacan, vədimə xilaf çıxmamışam. Onlar belə dedilər: (Mən sənin ananam. Darradey, dərəni duman basıb, göz-gözü görmür. Azarsan, kəl səni evə aparım. Sən ordasan?» Mən əvvəlcə cavab vermədim. Amma onlar fasiləsiz deyirdilər: (Əlbəttə ki, bu, mənəm, qızım. Məndən qaçıb gizlənmə. Qorxma, qorxulu bir şey yoxdur». Mən də inandım ki, sənsən. O dəqiqə başıma yığışıb məni dövrəyə aldılar. Artıq heç nə edə bilmədim.

Nəfəsini dərmək üçün Darradey bir az fasilə verib yenidən sözünə davam etdi:

- Onlar kölgəyə oxşayırdı, lakin olduqca güclü idilər. Odur ki, məni qamarlayıb özləri ilə hovuzun dibinə apardılar. Çox geçməmiş gəlib günəşli bir diyağa çıxdıq. Orda həp şey işıq saçıb bərq vururdu. musiqi ve mahnı sədaları eşidilirdi. Onlar məni stol arxasında əyləşdirib yemək təklif etdilər. Həp cür naz-nemət, meyve, piroq, şərab və s. var idi. Qıpqırmızı almalar, iri sarı Portağallar qızıl boşqablağa düzülmüş, şərab gümüş piyalələrə süzülmüşdü. Gümüş buluddakı piroqlar adama gəl-gəl deyirdi. Amma əlimi heç nəyə vurmadım. Axı, bilirdim ki, bunlar hamısı fırıldaqdır, ruhların gələyidir! Bir yandan da acından üreyim gedirdi. Həp dəqiqə onlar yeməyi qabağıma qoyub, «dadına bax, dadına bax», deyirdilər. Men isə sizi fikirləşir, bax, indi bu gördüyüm şam süfrəsini yadıma salırdım. Bağımızdakı işıq saçan gözlər, buxarının yanında şonquyan Mona, şamdanlarımız və babamın divar saatı gözümün önündən getmirdi. hər dəfə mənə yemək təklif ediləndə deyirdim ki, «Mənə yemək lazım deyil». Yeniden hamınızı xatırlayıb, ac olsam da, heç nə yemirdim.

- İndi ki, sağ-salamat evə qayıdıbsan və şam süfrəsində əyləşibsən, əziz qızım, di çörək ye!- vliş dedi.- Yaxşı-yaxşı ye ki, cana gələsən. yeməsən, acından elərsən ha!

Hə, Darradey yeməyə girişdi, nə girişdi. Doyunca yeyib gözünun qurdunu

öldürdü. Bəs, yazıq qız yeməyəydi, neyləyəydi? Axı, üç gün idi ki, dilinə su da dəyməmişdi.

Gələn bahar Finlo Korlet Qlen Roydan köçüb getdi. Maqhold mahalında yurd salıb ezünə təzə ferma düzəltdi. Nikessen hovuzunun tehlügələrindən uzaq olan Darradey şad-xürrəm böyüyüb boya-başa çatdı.

Bəzilərinin dediyine görə, Darradey hərdən bir uzaq-uzaq yollağa gözünu dikər və sanki ezündən başqa heç kəsin eşide bilməyəcəyi musiqi səsinə qulaq asardı. Bütün bunlağa baxmayağaq, ailədə Darradeyi hamıdan çox istəyirdilər. Ona görə yox ki, onu cinlər aldadıb aparmışdılar. Ona görə ki, əzizlərim, Darradey ezünu sevdirmeyi bacağan qız idi. Qoy, allah ona yap olsun!

BİLLİ BEQ, TOM BEQ VƏ SEHRBAZLAR

Qədim zamanlarda Dolbi kəndinin yaxınlığında bir həyətdə Billi Beq, Tom Beq adlı iki qozbel pinəçi yaşayırdı. Billi Beq Tomdan çoxbilmiş va ağıllı idi. Bir dəfə Billi Beq çomağını Toma verib dedi:

- Tom Beq, get ağ qoyunları dərədən evə gətir.

Tom çomağı götürüb dərəyə yollandı, amma ağ qoyunları tapa bilmədi. Qoyunları gəzə-gəzə evdən çox uzaqlaşdı. Günəş qüruba enib şər qarışanda fikirləşdi ki, evə getsə yaxşıdır. Əsrağaöşz bir gecə idi. Hilal qaşlı ay və cayrışan ulduzlar səmada cilvələnirdi. Ətrafda ala cüllütlərin qəribə fit səslarindən başqa heç nə eşidilmirdi.

Tom evə tələsdi. Ruşen dərəsinə təzəcə çatmışdı ki, qatı duman çökdü, Tom yolunu azdı. Çox keçməmiş çən çəkildi, Tom ezünü əvvəllər heç vaxt rast gəlmədiyi yamyaşıl dərədə gördü. Qonşuluqda dünyaya göz açıb boya-başa çatan Tom evlərindən beş mil ağalı həp dərəyə qarış-qarış bələd idi. Hapaya gəlib çıxdığını ayırd etmək üçün heypat, təəccüb içərisində fikrə getmişdi. By dəm qulağına qəribə bir səs dəydi.

- Aha,- Tom öz-özünə mızıldandı.- Bu axşam dərdə məndan başqa da gəzib-dolaşanlar var. Yaxşı oldu, indi ezümə yoldaş tapağam.

Gecənin sükutunu pozan səs getdikcə güclənirdi. Səs əvvəlcə arı pətəyinin uğultusunu, bir az sonra Meay dərəsinə tökülan şəlalənin şırıltısını andırdı,

nəhayət, bir də ötən adamın ayaq tappıltısına bənzədi.

Çox keçmədi ki, bir sürü malak kərundu. Qəfildən dərə, belinda xırda məxluqlar oturmuş atlarla doldu. At belinda kalanlarin qırmızımtıl papaqlarındakı işıqlar sama ulduzları kimi şafaq saçıb zulmat gecani sud kimi günduzadendarmişdi. Şeypur sas'lari, yellanan bayraqların xışıltısı, musiqi sadaları va bir sürü cılız itin hürüşləri bir-birinə qarışmışdı. Ağız deyəni qulaq eşitmirdi.

Dərədə baş verən əhvalat Toma xəyal kimi göründü. Məşqlər, rəqslər va mahnılar yapıy çatanda onlardan biri şübhəli nəzərlərlə Tomu süzdü. Bir az sonra Tom ona tərəf addımlayan xırda bir kişini gördü. O, gözlərini Tomun - üzünə zilləmişdi. Üst-başı qızıl-gümüşlə dolu idi; əynindəki zərxağa paltarın parıltısından adamın gözləri qamaşırdı.

- Bu yerlərə gəlmək üçün münasib vaxt seçməmisən,- görkəmindən şaha oxşayan balaca kişi dilləndi.

Tom cavab verdi:

- Heç də bu yerlərə gəlib çıxmaq arzusunda olmamışam. - Bu gecə bizlərdan biri olmaq istəyirsənmi, Tom?

- Əlbəttə.

- Onda, - şah dedi, - Sənin vəzifən parollağa qulaq asmaq olacaq. Gedib dərənin girişində dayanmalı va alaylar gəlib keçdikcə parolu soruşmalısan. Parolumuz budur: «Bazar ertəsi, çərşənbə

axşamı, Çarşanba, Cümə axşamı, Cümə günü va Şənbə».

- Bu işi canla-başla görərəm.

Dan yeri sökülənd sehrbazlar ordusu cıpaya düzüldü, çalanlar ecazkar skripka səsləri ilə dərəni başlarına götürdü. Musiqiyə söz ola bilməzdi. Qar alay yaxınlaşıb parolu Toma söyləyir, keçib gedirdi.

Axırda şah gəldi, o da parolu söylədi. Sonra adamlarından birini çağırıb:

- Bu cavanın belindan donqarını götür,- deyə əmr etdi.

Şah sözünü qurtarmamış donqar Tomun belindən yoxa çıxdı və çəpərin dibinə düşdü. Tomun necə məğrur görkəm aldığını söyləmək çox çətindir. Axı, onun qaməti düzəlmişdi! Tom dərədən endi, cəhəp tezdən quş kimi yüngül

addımlarla evə gəldi. Şadlığından ürəyi sinəsinə sığmırdı.

Billi Beq Tomun qamətini şax görəndə heyrətləndi. Tom istirahət edib özünə gələndən sonra həp gecə Ruşen dərəsinə məşq toplanışına yığışan sehrbazlarla necə rastlaşdığrını Billi Beqa söylədi.

Səhəri günün axşamı Billi Beq dar cığırını əlinə alıb yolun dabanını qırdı, nəhayət gəlib yamyaşıl dərəyə çatdı. Gecə yarısına az qalanda Billi, at dırnaqlarının tappılıtısını, qamçıların şaqqıltısını, itlərin hürüşməsini və ərşa yüksələn cəc-küy eşitdi, Tomun dediyi kimi, sehrbazlar qoşununu itli-pişikli dərədə məşq edən gördü.

Sehrbazlar qozbeli görən kimi məşqi saxladılar va onlardan biri yaxınlaşıb Billi Beqdən gecənin bu vaxtı dərədə nə etdiyini acıqlı-acıqlı xəbər aldı.

- Bu gecə mən da sizlərdən biri olub qulluğunuzda dayanmaq istərdim - Billi cavab verdi.

Beləliklə, Billini də parol qəbul etməyə göndərdilər və dan yeri söküləndə şah dedi:

- Hazağat, getmək vaxtıdır.

Böluk-böluk qoşun dəstələri Billiya yaxınlaşıb parolu söylədi, keçib getməyə başladılar. Hamıdan axırda şah başının dəstəsilə gəlib parolu söylədi:

- «Bazar ertəsi, çərşənbə axşamı, Çarşanba, Cümə axşamı, Cümə günü va Şənbə».

Özünü hamıdan ağıllı hesab edan Billi qışqırdı:

- Bəs, Bazar hanı?!

Elə bu dəm qışqırıq nidaları ərşa yüksəldi.

- Tez olun, geçən gecə o biri cavanın belindən getürdüyünüz donqarı bu yağamazın belinə qoyyun,- gözləri alov saçan şah çəpərin dibinə düşüb qalmış donqağa işarə edərək qışqırdı. Şah sözünü qurtarmamış donqarı Billinin kürəyinə yapışdırdılar.

- İndi isə,- şah dedi.- İtil burdan! Bir də səni bu yeplərdə görsəm, bir donqar da sinənə yapışdıracağam!

Sonra sehrbazların hamısı bir ağızdan cça səslə qışqıra-qışqıra addımlayıb

Billi dayanan yerdən uzaqlaşdı. Billi Beq səhəri gün ayaqlarını sürükləyə-sürükləyə evə gəldi. Onun sifətini qırış basmışdı belində daş kimi mehkəm iki donqar var idi. Rəvayətə görə Billi, donqarları hələ də belində kəzdirir.

QARAÇI NAĞILLARI

MAMIR PALTO

Qədimdim zamanlardan kiçik kənddə bir qoca dul qadın yaşayırdı. Onun iki qızı vardı. Kiçik qız təxminən on doqquz, iyirmi yaşında olardı. O, qənirsiz gözəl idi. Anası - ona palto toxuduğu üçün heç boş vaxtı olmurdu.

Bir dəfə onların məhəlləsinə tacir gəldi, qızı görüb yan-yörəsinə geçməyə başladı. O gündən sonra məhallənin daimi qonağı olan tacir qıza cürbəcür şeylər gətirirdi. Tacir qıza dəlicəsinə vurulmuşdu. Ona ərə gəlməsini istəyirdi. Ancaq bəla burasında idi ki, qız taciri xoşlamırdı və onunla necə rəftar etmək üçün çox düşünüb-daşınırdı. Nəhayət, qız bir gün məsləhət üçün anasına müraciət etdi.

- Nə qədər ki, paltonu toxuyub qurtarmamışam,- anası dedi.- Qoy tacir ayağını bizdən üzməsin. Nə bacarırsan sən ondan çək. Palto hazır olandan sonra sənin nə tacirə, nə də onun bəxşişlərinə ehtiyacın olmayacaq. Hə, qızım, ona de ki, sənə şappan-şappan qızıl naxışları olan ağ rənkli atlaz don almasa və don sənə yağaşmasa, ona ərə getməyəcəksən.

Gələn dəfə tacir fırlanıb onlağa gələn kimi qızdan xahiş etdi ki, ona ərə gəlsin. Qız imkandan istifadə edərək anasının sözlərini olduğu kimi tacirə söylədi. Tacir qızın qamətinin ölçüsünü götürüb getdi və duz bir həftədən sonra paltar qoltuğunda qayıdıb gəldi. Verilmiş sifarişə paltar tamam-kamal cavab verirdi. Qız anası ilə yuxarı qalxıb donu əyninə geyəndə heypan qaldı, çünki don ona çox yağaşırdı.

- Bəs indi neyləyim, ana?

- Ona de ki,- anası cavab verdi.- Sənə üstündə bütün quşların rəngi olan don gətirməsə, ona ərə getməyəcəksən. Həm də don sənə yağaşmalıdır.

Qız bu sifarişi də tacirə çatdırdı. İki-üç gündən sonra tacir qayıdıb qızgilə gəldi. Qızın xahiş etdiyi rəngarəng, al-əlvan ipək donu da gətirdi. Qız donu geyəndə iki göz gərəkdi tamaşa etsin.

- Bes indi nə edim, ay ana?

- Ona de ki,- anası dedi.- Sənə yağaşan bir cüt gümüş başmaq tapıb gətirməsə, ona ərə getməyəcəksən.

Qız belə də etdi. Bir neçə gündən sonra tacir bir cüt gümüş başmaq gətirdi. Sanki başmaqlar qızın ayağına biçilib tikilmişdi. Neəqızın ayağını sıxırdı, nə də iri deyildi.

Qız yenə də nə edəcəyini anasından xəbər aldı.

- Bu axşam paltonu toxuyub qurtağacağam,- anası cavab verdi.- Tacirə de ki, sabah ona ərə gedəcəksən. Qoy saat onda bizdə olsun.

Qız taciri səsləyib:

- Y adından çıxmasın, əzizim, cəhəp saat onda bizə gəl, dedi.

- Gələrəm, sevkilim,- tacir sevincək dilləndi. - Allaha and olsun mütleq gələcəyəm.

Həmin axşam qızın anası gecenin yarısınacan paltonu toxuyub axır ki, qurtardı. Qadın paltonu ikicə şeydən - yaşıl mamırlardan və qızılı saplardan toxumuşdu. Odur ki, qadın paltoya «Mamırpalto» adı verib qızını da bu ləqəblə çağırmağa başladı. Ana qızına bildirdi ki, palto sehrli, arzuları yerinə yetirən paltodur. Qız paltonu əyninə geyib hapa getməyi arzulasa, dərhal orada da olacaq. Yox, əgər görkəmini dəyişib başqa cildə, tutaq ki, qu quşu yaxud da arı cildinə girmək istəsə, arzusu o dəqiqə çin olacaq.

Səhəri gün hava işıqlaşan kimi ana yuxudan durub kiçik qızını səslədi, dedi ki, dünyanı gəzməyə çıxıb ezünə yaxşı bir bəxt axtarsın.

Dünyakörmüş yaşlı ana gələcəkdə olacaq işlərdən fəhmlə xəbər verə bilirdi. Ona görə də mamırpaltonu geyinmək üçün qızına verib dedi ki, tacirdən qopartdığı iki donu və gümüş başmaqları da ezü ila götürsün. Amma

ana qızına tapşırdı ki, həp gün evde geydiyi iş paltarında evdən çıxsın. Altdan geyinib, üstdən qıfıllanan Mamırpalto yola düşməyə hazır oldu. Anası qıza söylədi ki, evdən bir neçə yüz mil uzaqlaşandan sonra üreyində arzu tutub, pay-piyada yollar keçib böyük bir salona gəlib çatsın. Orada xahiş etsin ki, ona iş versinlər. Şübhəsiz ki, o gözöl salonda sənə iş tapılar. Anasının sözlarinə əməl edən Mamırpalto gəlib tezliklə cah-çəlallı bir ağanın malikanəsinə varid oldu. Qabaq qapını tıqqıldadıb söylədi ki, iş axtarır. Bəli, uzun sözün qısası, evin xanımı ezü qapını açmağa gəldi. Qızın görkəmi xanımın xoşuna gəldi.

Xanım soruşdu:

- Əlindən nə iş gəlir?

- Mən aşpazam, möhrətəm xanım, - Mamırpalto cavab verdi.- Özü də camaatın dediyinə görə mahir aşpaz olmağıma az qalıb.

- İndi sənə aşpazlıq işi vere bilmərəm,- xanım dedi.- Çünki artıq bir aşpazı işə getürmüşəm. İşdir, əgər razı olsan, seni aşpaz köməkçisi təyin edərəm.

- Sizə olduqca minnətdağam, xanım, bu malikanədə qalıb işləmək mənim üçün çox xoş olar.

Beləliklə, razılığa gəldilər ki, qız aşpaz köməkçisi işləsin.

Sonra xanım qızı aparıb qalacağı otağı ona göstərdi, mətbəxə gətirib qulluqçularla qızı tanış etdi.

- Tanış olun, bu qızın adı Mamırpaltodur, - xanım dedi.- Mən onu aşpaz köməkçisi təyin etmişəm.

Xanım çıxıb gedəndən sonra Mamırpalto otağına qayıtdı ki, şeylərini yerbəyer edib qızıl cyyuna çəkilmiş tacı, gümüş başmaqları, ipək və atlaz donları gizlətsin.

Mamırpaltonu görən qulluqçu qızlar paxıllıqdan partlamağa başladılar. Məsələ burasında idi ki, tvəv qız heç də ilahi gözəlliyə malik deyildi və zahiri görünüşünə onların heç birindən artıq deyildi. Qızları yandıran başqa şey idi. Cır-cındıra bürünmüş Mamırpaltonun başçı təyin edilməsi qızlağa yamanca yep eləmişdi. Qızlağa elə gəlirdi ki, hisli-paslı Mamırpalto o görkəmlə yalnız qabyuyan işləyə bilər. «Aşpaz köməkçisi olmaq istəyən adamın gərək bütün işlərdən başı çıxsın. Küçədən tutulmuş cındırından cin ürkən bu sərsəridən

aşpaz köməkçisi olar? Xeyp, əsla olmaz! Aşpaz köməkçisi bizim kimi nəcib qızlardan olar…»

Mamırpalto mətbəxə qayıdanacan hikkə ilə var-gəl edən qulluqçu qızlar onu görüb üstünə düşdülər:

- Sən hapanın itisən ki, bizim başımıza beyük olasan, hə?

Kişinin qızı aşpaz köməkçisidir, işə bir bax, ha! Ay sən öləsən Aşpaz köməkçisi olmaq boğazında qalar. Bilirsən nə var, qız, sənin işin tava sürtmək, bıçaq-çəngəl silmək və ocaq qalamaq olacaq.

- Sonra qulluqçular kəfkirlə Mamırpaltonu yaxşıca döyüb və əzişdirdilər.

Onlar dedilər:

- Sən buna layiqsən.- Bizdən həmişə bunu da gözlə, silir, ocaq qalayır ve başı kəfkir yeməkdə davam edirdi. Bir gün xəbər yayıldı ki, üç gün davam eden rəqs məclisi geçiriləcək. Şənlik günləri ovla və başqa əyləncələrlə başa çatacaq. Yaxın qraflıqların bütün əyanları məclisdə iştirak etməli idi. Əlbəttə xanımla ağa oğullarını da götürüb opaya gedəcəkdilər. Qulluqçu qızların fikri—zikri səhərdən-axşamacan rəqsdən danışmaq olmuşdu.

Biri deyirdi kaş mən də orda olaydım, o biri deyirdi kaş mən də orda olub bir neçə lordla rəqs edəydim. Üçüncüsü məclisə gedib xanımların paltarını görmək arzusundaydı. Beləliklə, qulluqçular dil boqaza qoymayan ürəklərindən keçəni söyləyir, lakin Mamırpalto dinib-danışmırdı.

Qulluqçulağa elə gəlirdi ki, onların da yaxşı paltarı olsa, heç də kübar xanımlardan geri qalmazlar.

- Bəs sən necə, Mamırpalto, məclisə getmək istərdinmi? Bu görkəmli məclisin gözü ola bilərsən! ha-ha-ha!- qulluqçu qızlar kinayə ile qəhqəhə çəkib kəfkiri şappıltı ilə onun başına çırpdılar.

Bəli, dediyim kimi, Mamırpalto çox gözəl qız idi. Əynindəki köhnə, kirli-paslı paltar belə onun gözəlliyini ört-basdır ede bilmirdi. Mamırpaltonun gözəlliyi qulluqçu qızların ürəyinde qubar olmuşdu. Amma xanımın gənc oğlu gözlərini qızdan çəkə bilmir, ağa ilə xanım qıza göz qoyyp, onun mehriban rəftarından razı qalırdılar.

Rəqs məclisi başlanmağa az qalanda xanımla ağa Mamırpaltonu rəqsə

aparmağı qərağa alıb apxacınca adam göndərdilər ki, fikrini eyrənsinlər.

- Xeyp, xeyp, çox sağ olun,- Mamırpalto dedi.- Bu, mənim heç ağlıma gəlməyib. Rəqs məclisi mənim yerim deyil, axı. Paltarım da tamam yağ içindədir. Karetanı çirkləndirərəm, yanımda oturanın paltarını ləgələyə bilərəm.

Fikirlərindən daşınmayan ağa ilə xanım Mamırpaltonu aparmaq üçün çox təkid etdilər. Ehtiramla baş əyib dərin təşəkkürünü bildirən Mamırpalto sözünün üstündə durub iki ayağını bir başmağa dirədi. Qayıdıb mətbəxə gələn kimi qulluqçular qızın başının üstünü alıb dalınca nə üçün adam göndərildiyini xəbər aldılar. Biçarə Mamırpalto ağa ilə xanımın onu rəqs məclisine dəvət etdiyini açıb söyləməyə məcbur oldu.

- Necə? Nə deyirsən? Səni dəvet ediblər? Bu, ağlabatan iş deyil. Yenə bizim birimizi dəvət etsəydilər, buna inanmaq olardı. Yoxca ki, səni! Qudurasan, qurbağa! Ay qız, bu Yağlı pasaqlı paltarla səni heç salonun qapısına da yaxın qoymazlar! Camaatın gül kimi paltarını ləgələyib qağa günə salarsan!

Ay biçarə, qabyuyan qızla hansı səfeh rəqs edər! Sən ora getsən, üfunət iyi aləmi basar! Kübar xanımlar burnunu tutmağa məcbur olar! Hi-hi-hi! Camaatı özünə güldürmə!

Qulluqçu qızlar heç vəchlə Mamırpaltoya inanmadılar ki, ağa ilə xanım onu bala dəvət edib. Yenə də qızın başına döyəcləyib yorğan-döşəyə saldılar.

Səhəri günün axşamı ağakil yenə də Mamırpaltoya bala getməyi töklif etdilər.

Keçən gecə məclis qiyamət keçmişdi. Bu axşam daha da gözəl keçəcəyi gözlənilirdi. Ağanın oğlu ilan dili çıxardıb onunla getməyi Mamırpaltodan xahiş etdi. Ancaq Mamırpalto israr edib sözünün üstündə möhkəm dayandı, bildirdi ki, köhnə, yağlı paltarla bala gedə bilməyəcək. Gənc sahibkar çox əlləşib-vuruşsa da, Mamırpaltonu dilə tutub yola getirə bilmədi. Qulluqçular yenə də qıza inanmadılar ki, ağanın oğlu minnət edib onu bala dəvət edir.

- Buna bir bax! Kül başına! - qulluqçu qızlar dedi. Gör, daha nələr quraşdırırsan!? Dediklərinin hamısı ağ yalandır!

Sonra ağzı qulağının dibinə çatan, yabıya oxşar qamışbaldır qulluqçu qız kəfkiri qapıb Mamırpaltonun başına çırpdı, «şapp». Həmin axşam qulluqçu qızlar dağılışandan sonra Mamırpalto qərağa aldı ki, gizlincə geyinib-geçinib rəqs məclisinə getsin. Ayağa durub əvvəl-əvvəl qulluqçuları hipnoz etdi. Asta-asta otaqları gəzib hiss olunmadan əli ilə ehmalca onlağa toxundu. Tilsimin təsirilə dərin yyxyya gedən qulluqçular yyxudan ayılıb gözlərini aça bilmədilər. Tilsimi yalnız Mamırpalto sındıra bilərdi. Qulluqçular yyxyya gedən kimi Mamırpalto yuyunub tərtəmiz oldu. Yazıq qız mətbəxdə işləyən gündən hisə, yağa batıb su üzünə həcrət qalmışdı. Buna bais qulluqçular olmuşdu. Sonra Mamırpalto yuxarı qalxıb yataq otağına girdi, iş paltarını soyunub ayaqqabısını çıxartdı. Qızılı naxışlı ağ atlaz donunu geyib gümüş başmaqları ayaqlarına geçirtdi. Qızıl suyuna çəkilmiş tacı başına qoydu. Əlbəttə ki, mamır paltosu donun altında əynində qaldı. Geyinib hazır olan kimi rəqs salonunda olmağı arzuladı. Arzusu dodağında səslənən kimi ayağı yepdən üzülüb yuxarı qalxdığını, bir anlığa uçduğunu hiss etdi. Bir göz qırpımında ezünü rəqs salonunda gördü.

Ağanın oğlu Mamırpaltonu görüb ağlı başından çıxdı. Bir könüldən min könulə qıza vurulub gözünü ondan çəkə bilmədi. Oğlan emründe belə şux geyimli ikinci bir gözəl görməmişdi.

- Ay ana, o qız kimdir? Kimlərdəndir? Məgər öyrənə bilməzsən, ana? Bəyəm onunla söhbət edə bilməzsən? Oğlunun dayanıb-dincəlmədiyini görən ana yaxınlaşıb özünü gənc qıza təqdim etdi və qızın kim olduğunu, hağalı olduğunu xəbər aldı. Uzun çək-çevirdən sonra bircə onu eypənə bildi ki, qız elə bir yerdən gəlib ki, gündə başına kəfkirlə döyürlər.

Ağanın oğlu dərhal yaxınlaşıb ezünu qıza təqdim etdi. Ancaq qız ona nə adını, nə də başqa bir şey demədi. Oğlan onunla rəqs etməyi qızdan xahiş edəndə qız etiraz etdi.

Buna baxmayağaq oğlan qızın yanından əl çəkmədi. Ağabir qızdan xahiş edirdi ki, onunla rəqs eləsin. Rəqs məclisi sona yaxınlaşanda qız yumşalıb oğlanla rəqs etməyə razılıq verdi. Onlar salonda süzə-süzə bircə rəqs edəndən sonra qız bildirdi ki, evə getməlidir. Qızı saxlamaqçün ağanın oğlu inadla təkid

etsə də, bir şey çıxmadı.

Bir an sonra qız evdə olmaq arzusunu ürəyindən keçirən kimi ezünü ağanın evində gördü. Ağanın oğlu qızın havaya qalxdığını gördü, lakin tutub saxlamaqçün heç nə edə bilmədi. Görünür, əl-qol atan oğlan qızın ayağına toxunduğundan qızın başmağının bir tayı düşüb orda qaldı. Ağanın oğlu başmağı götürüb yuxarı qaldırdı. Amma yeldən qanad taxmış qız artıq gözdən itmişdi.

Mamırpalto evə çatıb paltarını dəyişdi. Qulluqçu qızları tilsimin təsirindən xilas etdi.

Yuxudan ayılıb duran qulluqçular yatıb yuxuya qaldıqlarını zənn edərək Mamırpaltoya çoxlu pul təklif etdilər ki, onlardan xəbərçilik eləməsin. Qız vəd etdi ki, xəbərçilik etməyəcək.

Səhəri gün ağanın oğlu qızın eşqinden xestələnib yorğan döşəyə düşdü. Dünən gecə gümüş başmağını itirmiş, qızın məhəbbəti ürəyinə od salmışdı. Təbiblər oğlanın dərdinə əlac ede bilmədi. Beləliklə, ağanın oğlunun halının pərişan olması həp yana yayıldı. Söz gəzirdi ki, oğlanın dərdinə əlac etsə, bircə, başmağın yiyəsi olan qız əlac edə bilər. Əgər belə bir qız tapılsaydı; oğlan onunla, evlənəcək imiş. Əvvəlcədən dediyim kimi, Mamırpaltonun gümüş başmaqları çox zərif başmaqlar idi. Yaxın, uzaq diyarlardan qızlar axışıb gəldi, ancaq başmaq heç kimin ayağına olmadı. Hətta kasıb qızları da başmağı dartışdırıb ayaqlarına keçirtməyə çox çalışsalar da, bir şey hasil olmadı. Şübhəsiz ki, qulluqçu qızlar da başmağı geyinmək üçün dəridən-qabıqdan çıxdılar, lakin başmaq heç birinin ayağına girmədi. Bəli, ağanın oğlu can üstə idi. Anası saçını yolub imdad diləyirdi:

- Daha bir kəs qalmayıb ki? Varlı, ya da kasıb olsun fərqi yoxdur! Yəni heç kəs qalmayıbdır?

- Xeyr, xanım, qalmayıbdır. Başmağı geyib baxmayan adam qalmayıbdır, Mamırpaltodan başqa! - Qulluqçular xorla cavab verdilər.

Ona deyin tez bura gəlsin qulluqçular bir göz qırpımında Mamırpaltonu xanımın hüzuruna gətirdilər.

- Ay qız, bu başmağı bir geyib bax.

Başmaq çox asənlıqla Mamırpaltonun ayağına oldu. Ele bil ayağına biçilmişdi. Ağanın oğlu *o* saat sıçrayıb çarpayıdan düşdü ve qızı qolları ağasına alıb yyxapı qaldırmaq istədi.

Dayan, dayan,- qız dedi və qaçıb getdi. Xeyli sonra qızılı naxışlı ağ atlaz paltar əynində, gümüş başmaqlar ayağında, qızıl cyyuna çəkilmiş tac başında geri qayıtdı. Ağanın oğlu qızı yenə də ağuşuna alıb göyə qaldırmaq istədi.

- Əl saxla,- qız dedi ve yenə də qaçıb uzaqlaşdı. Çox geçməmiş bütün quşların rəngi olan al-əlvan donunu geyinib qayıtdı. Deyilənə görə, bu dəfə ağanın oğlu qızı bağrına basıb duz kimi yalayanda daşdan səs çıxıb, qızdan yox.

Hamı sakitləşib ezünə gələndən sonra əyləşib şirin-şirin söhbət edirdilər. Söhbət əsnasında ağa ve xanım bir-iki şey eypənmək məqsədilə qızdan rəqs məclisinə necə gəlib, sonra vaxtsız qayıtmasını xəbər aldılar.

Mən sizə nəql etdiyim kimi, qız da anasının ona toxuduğu sehrli paltonun gücündən və arzuları yerinə yetirməsindən söhbət açdı.

- İndi həp şey bizə agah oldu,- qızım,- dedilər və qızın rəqs salonunda xanıma dediyi sözlər haqqında düşünməyə başladılar. Nə üçün qız deyirdi ki, həp gün başına kəfkir çırpılan yerden gəlib? Qız bu sirri də onlara açıb söylədi.

Bunu eşidən ağa ilə xanım hirslənib cin atına mindilər. Bütün mətbəx qulluqçularına çıxıb getməyi əmr etdilər. Onların dalınca bir sürü köpək saldılar ki, qovub ifritələri ölkədən çıxartsınlar.

Bundan sonra Mamırpalto da çıxıb getmək, onu bezdirən bu 6eyük malikaneden birdefelik uzaqlaşmaq qərarına gəldi.

Ağanın oğlu çox yalvardı, minnət etdi. Yalvarışın xeyri olmadığını görüb hədəyə keçdi, ancaq Mamırpaltonu fikrindən daşındıra bilmədi ki, bilmədi. O, evlərinə qayıtdı və tacirə ərə getdi. Onlar yeyib-içib xoşbəxt ömür sürdülər və bir dəstə oğul-uşaq sahibi oldular. Onların birinci oğlu boya-başa çatıb skripka çalanda mən də orada idim. Eh, bu, lap çoxdankı əhvalatdır. O vaxtdan bəri nə tacirdən, nə də arvadından xəbərim yoxdur. Amma həp halda onlardan «öldü» xəbəri gətirən olmayıb.

QODUQ

Biri vardı, biri yoxdu, bapbalaca bir qoduq vardı. Qoduq dünyanı gəzib-dolaşmaq, həyatı eypənmək istəyirdi. Odur ki, qoca anasının gözündən yayınandan kimi, qaça-qaça ağadan çıxıb uzaqlaşdı. İlk dəfə qarşısına çıxan qoca bir cadugər oldu.

- Səni yeyəcəyəm! - cadugər dedi və əlini atıb qoduqa toxunanda barmaqlarının ucu ağrıdan göynədi.

Cadugər bağırdı:

- İtil burdan! - Bazar günü anadan olmuş fərsiz! Rədd ol, yoxca ürəyim partlar!

- Anam deyir ki, baş qa qoduqlardan heç ne ile fərqlenmirem - qoduq toxtaq-toxtaq cavab verib yola düzəldi. Gəzib-gəzib bir şeytana rast gəldi.

- Səni yeyəcəyəm! - şeytan dilləndi və əlini atıb qoduğu tutmaq istəyəndə caynaqları sınıb töküldü. Ağrının şiddətindən bükülüb yumağa dönən şeytan:

- Ey, avara! – deyə var-gücü ilə qışqırdı.- Sənin belində çarpaz donqar var, çəkil burdan, gözüm səni görməsin!

- Anam deyir ki, başqa qoduqlardan fərqlənmirəm,- tükü belə tərpənməyən qoduq cavab qaytarıb yoluna davam etdi. Az getdi, üz getdi, dərə-təpə, düz getdi, axırda gəlib pərilərlə dolu olan bir meydançaya çıxdı.

- Əkil burdan! Meydanı tərk et! - pərilər qeyzlə ayaqlarını yepə deydü. - Axı, biz səni minib çapa bilmərik! Hələ bir arsız-arsız bizim meydanda cıdıra çıxmısan! Ay heyvan, axı, sən yeddi günlük qoduqsan!

- Anam deyir ki, bütün qoduqlar yeddi günlük olublar, qoduq şəstlə cavab verdi.

- Sürüş burdan!- pərilər birden çımxırdılar.- Çıx get evə! Bir az tez ol!

Beləliklə, qoduq dördnala çaparaq hoppana-hoppana anasının yanına qayıtdı, ağadan çıxıb veylləndiyinə görə anası əvvəlcə qoduğa bir-iki şıllaq ilişdirdi, sonra isə ona günorta yeməyi verdi.